**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT və TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**

# *2 0 1 5 – Cİ İL ÜÇÜN ƏLAMƏTDAR VƏ TARİXİ GÜNLƏR TƏQVİMİ*



**B A K I - 2 0 14**

## Tərtibçidən

F. Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kitabxana fondunun bazası əsasında yaradılmışdır. 1965-ci ildə Respublika Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik təminat sisteminin formalaşmasında irəliyə atılmış ciddi addım oldu. Belə ki, görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana gəldi, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratdı. Respublika Uşaq Kitabxanasının elmi-metodik fəaliyyətini kitabxanaşünaslıq fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 70-ci illərdə zəngin metodik nəşrlər fondu yaradıldı. Bu fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanıldı. Fonddan yalnız kitabxananın öz işçiləri deyil, həmçinin respublikada fəaliyyət göstərən bütün uşaq kitabxanaları fəal istifadə edirdi. Onun əsasında rayon uşaq kitabxanalarına hər il orta hesabla 140-150 yazılı arayış göndərilirdi.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafı və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılması, dünya kitabxanaları səviyyəsinə qalxması istiqamətində də mühüm addımlar atmışdır. Belə ki, bir çox dünya kitabxanaları ilə əlaqələr yaradılmış, onların iş təcrübələrindən istifadə etməklə uşaqlara kitabxana xidmətində ən müasir metod və formalar tətbiq olunmuşdur.
Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkışafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi barədə sərəncamı- kitabxana işinin inkişafında yeni bir mərhələyə başlanğıc verdi.

Mədəniyyət və Turizm Nazirliyinin təşəbbüsü ilə Elmi metodika şöbəsi uzun illərdir metodiki vəsaitlərlə yanaşı əlamətdar və tarixi günlər, yubliyar yazıçılardan bəhs edən təqvim işləyib Azərbaycanın 60 rayonunda yerləşən uşaq kitabxanalarına göndərir. F. Köçərli adına RUK-nun 50 yaşının tamam olması münasibəti ilə bu il də kitabxanamız uşaq kitabxanaları üçün 2015 - ci il üçün təqvim işləyib, hazırlamışdır. Ümid edirik ki, hazırladığımız təqvim rayonlarımızda yerləşən uşaq kitabxanalarına metodiki köməklik edəcəkdir.

## Yanvar

### Əlamətdar tarixi günlər, bayramlar

Yeni il 01.01

F. Köçərli adına Respublika Uşaq Kitabxanasının yaradılmasının 50 illiyi (01.01.1965)

### Ümumxalq hüzn günü

20 yanvar faciəsi (20.01.1990)

### Xalqımızın qəhrəman oğulları

Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun (22.01.1910 - 24.01.1945) 105 illik yubileyi

### Milli qəhrəmanlar zirvəsi

Abbasov Mehdi Yusif oğlunun (01.01.1960 - 13.01.1992) 55 illik yubileyi

Şahbazov Fəxrəddin İbrahim oğlunun (22.01.1950 - 20.11.1991) 65 illik yubileyi

### İncəsənət

Əməkdar artist, aktyor Səməndər Rzayevin anadan olmasının 70 illiyi (02.01.1945-27.03.1986)

Xalq artisti, aktrisa Leyla Bədirbəylinin (08. 01.1920 - 23.11.1999) anadan olmasının 95 illiyi

### İdman

Futbol hakimi Tofiq Bəhramovun (29.01.1925 - 26.03.1993) 90 illik yubileyi

### Yubilyar yazıçı və şairlər

Yazıçı Tahir Hüseynovun (01.01.1930 - 08.05.1993) anadan olmasının 85 illiyi

Yazıçı Emin Mahmudovun (01.01.1925 - 2009) anadan olmasının 90 illiyi

Şair Rafiq Yusifoğlunun (02.01.1950) anadan olmasının 65 illiyi

Yazıçı Novruz Nehrəmlinin (03.01.1930) anadan olmasının 85 illiyi

Şair, tərcüməçi Məmmədağa Sultanovun (05.01.1910 - 19.01.1991) anadan olmasının 105 illiyi

Nasir, publisist Adil Qüdrətoğlunun (06.01.1950) anadan olmasının 65 illik yubileyi

Şair Gülhüseyn Kazımlının (07.01.1950) 65 illik yubileyi

Yazıçı Faiq Dərgahovun (09.01.1930 - 15.10.1984) 85 illik yubileyi

Şairə Firuzə Məmmədlinin (10.01.1940) 75 illik yubileyi

Şair Əlisoltanın (12.01.1925 - 24.11.1982) 90 illik yubileyi

Əslən azərbaycanlı, fransız yazıçısı Üm-əl Baninin (16.01.1905 - 29.10.1992) 110 illik yubileyi

Şair Tahir Taisoğlunun (19.01.1950) 65 illik yubileyi

Şair Zəlimxan Yaqubun (21.01.1950) 65 illik yubileyi

Şair, dramaturq Cahangir Məmmədlinin (23.01.1935) 80 illik yubileyi

Şair Asif Quliyevin (23.01.1955) 60 illik yubileyi

Yazıçı, tənqidçi Məmməd Kazım Ələkbərlinin (24.01.1905 - 1938) 110 illik yubileyi
Şair Akif Məhərrəmovun (26.01.1955) 60 illik yubileyi
Yazıçı, tərcüməçi Adil Qafarın (28.01.1925 - 19.08.1977) 90 illik yubileyi
Yazıçı Xeyrəddin Qocanın (29.01.1950) 65 illik yubileyi

**Xarici ədəbiyyat**

Rus yazıçısı Anton Çexovun (29.01.1860-15.07.1904) 155 illik yubileyi

**YANVAR**

## Əlamətdar tarixi günlər, bayramlar

1. **Yeni il**



Yeni il Bayramı — dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olub. Bəzi fərziyyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. İlin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim Mesopotamiyada yaranıb. Eramızdan əvvəl IV minilliyin sonunda Şumer, Babilistan, Assuriya kimi bu günümüzə qədər gəlib çatan mədəni irsiylə hələ də bizi heyrətləndirən mədəniyyət mərkəzləri burada təşəkkül tapıb. Tarixçi alimlərin fikrincə, məhz həmin dövrdə burada Yeni ilin gəlişi ilk dəfə bayram edilib. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş. Qədim hindlilər və farslar müasir təqvimlə dekabrın 22-nə təsadüf edən həmin günü "Günəş qapısı" adlandırmışlar. İsa Peyğəmbərin doğum günü də elə dekabrın son günlərinə təsadüf edir. Beləcə bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmiş oldu. Yeni il bayramını al-əlvan, bərli-bəzəkli şam ağacsız təsəvvür etmək qeyri-mümkündür. Əlbəttə, bu şam ağacı təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa daha gözəl olardı. Amma təbiəti qorumaq xatirinə süni şam ağacları ilə də keçinmək olar.

## 1. F. Köçərli adına Dövlət Uşaq Kitabxanasının yaradılmasının 50 İlliyi

***“Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.”***

***“Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır!”***

**Ulu öndər Heydər Əliyev**



F. Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kitabxana fondunun bazası əsasında yaradılmışdır. 12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı (§22) sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan ədəbi dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firidun bəy Köçərlinin adını daşıyır. 1965-ci ildə Respublika Uşaq Kitabxanasının yaradılması uşaqlara kitabxana xidmətinin və onun metodik təminat sisteminin formalaşmasında irəliyə atılmış ciddi addım oldu. Belə ki, görkəmli alim və maarifçi F. Köçərlinin adını daşıyan Respublika Uşaq Kitabxanasının yaradılması nəticəsində uşaqlara kitabxana xidmətinin ümumrespublika metodik mərkəzi meydana gəldi, uşaqlara xidmət edən digər kitabxanalara, o cümlədən, 3 mindən çox məktəb kitabxanasına metodik rəhbərlik təmin edildi. Nəhayət, uşaq kitabxanaları üçün metodik mərkəzin yaradılması ölkədə uşaqlara kitabxana xidmətinin inkişaf perspektivlərinin elmi konsepsiyasının yaradılmasına, bu işə xidmət bütün kitabxanaların fəaliyyətinin əlaqələndirilməsinə və tam bir sistem kimi fəaliyyət

göstərməsinə hüquqi, nəzəri, metodik və təşkilati zəmin yaratdı. Respublika Uşaq Kitabxanasının elmi-metodik fəaliyyətini kitabxanaşünaslıq fikrinin son nailiyyətləri zəminində təşkil etmək məqsədilə 70-ci illərdə zəngin metodik nəşrlər fondu yaradıldı. Bu fondda uşaqlara kitabxana xidmətinin bütün nəzəri, metodik və təcrübi nailiyyətlərini  və qabaqcıl təcrübəni əks etdirən ədəbiyyat toplanıldı. Fonddan yalnız kitabxananın öz işçiləri deyil, həmçinin respublikada fəaliyyət göstərən bütün uşaq kitabxanaları fəal istifadə edirdi. Onun əsasında rayon uşaq kitabxanalarına hər il orta hesabla 140-150 yazılı arayış göndərilirdi.
F.Köçərli adına Respublika Uşaq Kitabxanası müstəqillik illərində Azərbaycan mədəniyyətinin inkişafı və mədəni sərvətlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılması, dünya kitabxanaları səviyyəsinə qalxması istiqamətində də mühüm addımlar atmışdır. Belə ki, bir çox dünya kitabxanaları ilə əlaqələr yaradılmış, onların iş təcrübələrindən istifadə etməklə uşaqlara kitabxana xidmətində  ən müasir metod və formalar tətbiq olunmuşdur.

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təsis etdiyi "Göyqurşağı" Uşaq Jurnalı (2006-cı il mart 2007-ci ilin oktyabr ayına kimi "Körpəm" adı ilə nəşr olunmuşdur) məktəblilərin dünyagörüşünün inkişafında, onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsində, təhsilə marağın artmasında böyük rol oynamaqla daim diqqət mərkəzində olmuşdur. 32 səhifədən ibarət rəngli şəkillərlə nəfis tərtib olunan bu jurnalın hər sayı uşaqlar tərəfindən maraqla qarşılanır. Jurnalın hər sayında əlamətdar tarixi günlər, bayramlar, tarixi və görkəmli şəxsiyyətlər, təhsil müəssisələri haqqında məlumatlar, uşaqların qələmə aldıqları şeir və hekayələr, çəkdikləri rəsmlər dərc olunur. Jurnalda kitabxanaya daxil olan yeni kitablar haqqında oxuculara müntəzəm məlumat verilir. Uşaqların intellektual səviyyələrinin atrıtılmasına xidmət edən məntiqi suallarla zəngin əyləncəli səhifə və rubrikalar jurnalı daha da maraqlı edir.
"Göyqurşağı" Uşaq Jurnalı Mədəniyyət və Turizm Nazirliyinin göstərişi ilə Azərbaycanın bütün rayonlarının Mərkəzləşdirilmiş Kitabxana Sistemi vasitəsilə ən ucqar dağ kəndlərinə belə yayılır.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin  2008-2013-cü illərdə inkışafı üzrə Dövlət Proqramı" nın təsdiq edilməsi barədə sərəncamı- kitabxana işinin inkişafında yeni bir mərhələyə başlanğıc verdi. Dövlət Proqramında oxucuların inforamasiya tələbatının ödənilməsi ilə bağlı Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanası artıq neçə illərdir ki, Uşaq və yeniyetmələr üçün səyyar kitab sərgisini -  "Uşaq kitab Karvanı" layihəsini uğurla həyata keçirir. 3 il ərzində (2011-2013) keçirilən layihə üzrə 16 rayona Kitab Karvanı yola düşmüş, 14270 nüsxə uşaq kitabları hədiyyə edilmişdir.
F.Köçərli adına Respublika Uşaq kitabxanası  2012-ci ildən  mötəbər bir təşkilatın- Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. Atrıq iki ildir ki, həmin təşkilatla sıx əlaqə saxlayır, keçirilən sərgilərdə, konqresdə iştirak edirlər. Təşkilata üzv olmaqda əsas məqsəd Azərbaycanda uşaq yazıçıları, rəssam və tərcüməçilərini müasir uşaq ədəbiyyatımızdakı problemlərə yönəltmək,

Beynəlxalq Uşaq Ədəbiyyatı Şurası vasitəsilə ölkəmizi tanıtmaq və uşaq ədəbiyyatı sahəsində olan yenilikləri tətbiq etməklə uşaqların mütaliəyə olan həvəslərini artırmaq, onları dünya uşaq ədəbiyyatı nümunələri ilə tanış etməkdir. F. Köçərli adına Respublika Uşaq kitabxanası bundan sonra da informasiya təminatı istiqamətində fəaliyyətinin səmərəsinin artırılması, inkişafı və təkmilləşdirilməsi məqsədilə günün tələbləri səviyyəsində mütərəqqi iş üsullarından istifadə edəcəkdir. Yəni kompyuter texnologiyalarının tətbiqi, ənənəvi informasiya mənbələrin elektron daşıyıcılara köçürülməsi, CD-ROM texnologiyaların tətbiqi, informasiyanın təqdim etmək imkanları və bir sıra başqa işlərin həyata keçirilməsi üçün səy göstərərək uğurlar əldə edirlər. 2015-ci ildə F. Köçərli adına Respublika Uşaq Kitabxanasının 50-illik yubileyi ərəfəsində kitabxananın bütün şöbələrinin qarşısında da xeyli vəzifələr durur. Ümüdvarıq ki, F.Köçərli adına Respublika Uşaq Kitabxanası bu vəzifələrin öhdəsindən layiqincə gələcək və bundan sonra da kitabxana ictimaiyyəti üçün əhəmiyyətli vəsaitlərin nəşr edilməsində, regionun uşaq kitabxanaları üçün metodik təminat sisteminin güclənməsində və kitabxanaçı kadrların səriştəsinin artırılmasında bütün imkanlarından müvəffəqiyyətlə istifadə edəcəkdir.
2013-ci il üçün kitabxananın rəqəm göstəriciləri: kitab fondu - 249834, oxucu - 17028, gəliş - 115600, kitab verilişi - 348950. Kitabxananın 8 şöbəsi, 4 bölməsi, 2 oxu zalı var. 3 filialı isə Bakının müxtəlif rayonlarında fəaliyyət göstərir.

**Şöbələr:**

1. Komplektləşdirmə və kitabişləmə şöbəsi.
2. Kitabsaxlayıcı şöbə.
3. Xidmət şöbəsi.
4. Məlumat-biblioqrafiya şöbəsi.
5. Elmi-metodika şöbəsi.
6. Kütləvi işlər şöbəsi.
7. İncəsənət şöbəsi.
8. Avtomatlaşdırma şöbəsi.
9. Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği

**Bölmələr:**

1. Kitabişləmə və kataloq bölməsi.
2. Kiçik yaş qrupu bölməsi
3. Uçot və qeydiyyat bölməsi.
4. Uşaq mütaliəsinə rəhbərlik bölməsi.
5. Beynəlxalq kitabxanalararası abonement bölməsi.

**Ümumxalq hüzn günü**

**19-20. Qanlı Yanvar. Milli matəm günü**

***“Azərbaycan xalqı bu günü heç vaxt yaddan çıxarmayacaq və gələcəkdə də hər il bu gün qeyd olunmalıdır. Azadlıq, müstəqillik uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli, Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır.”***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**




**20 Yanvar faciəsi — 1990-cı il, yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusunun, erməni quldur dəstələri ilə birgə Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktı.**
Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş, 1990-cı ilin 20 yanvarında ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçələrinə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirən geniş xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməmiş faciəyə gətirib çıxardı. Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.1990-cı ilin 20 yanvarında keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi qətllər insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Milli azadlıq, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 134 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. Tanklar və BTR-lər Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən,öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bakıda fövqəladə

vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı.
20 Yanvar və Azərbaycan tarixində ondan əvvəlki faciəli hadisələr XX əsr boyu xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Azərbaycan xalqına qarşı soyqırımı, sovet hakimiyyəti illərində Azərbaycan ərazilərinin tədricən işğal olunması, nəticədə ölkənin ərazisinin 125 000 km²-dən 87 000 km²-ədək azalması, sovet rəhbərliyinin havadarlığı ilə başlayan Dağlıq Qarabağ hadisələri, azərbaycanlıların Ermənistan ərazisindəki əzəli torpaqlarından qovulması bu siyasətin mərhələləridir.1990-cı ilin yanvar qırğını nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qıra bilmədi. Həmin müdhiş gecədə həlak olan vətən oğulları Azərbaycanın tarixinə parlaq səhifə yazdılar, xalqın milli azadlığı, müstəqilliyi üçün yol açdılar...
17 yanvar 1992-ci ildə Ali Sovetin Milli Şurası (1991-1992-ci illərdə qanunverici orqan funksiyasını yerinə yetirən orqan) "20 Yanvarın "Milli matəm günü" elan olunması haqqında" qanun qəbul etdi. Qanuna əsasən, yanvarın 20-si ölkə ərazisində qeyri-iş günü elan olundu.1994-cü ildə Qanlı Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verildi, faciənin günahkarlarının adları açıq şəkildə bəyan edildi...Bakının ən yüksək nöqtələrindən birində hər bir azərbaycanlı üçün müqəddəs and yerinə çevrilmiş bir yer var. Bu, 20 Yanvar qurbanlarının və Ermənistanın hərbi təcavüzünə qarşı döyüşlərdə həlak olanların dəfn edildiyi Şəhidlər Xiyabanıdır. Hər il yanvarın 20-də yüz minlərlə insan Vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş Azərbaycan oğul və qızlarının əziz xatirəsini ehtiramla yad etmək üçün buranı ziyarət edir. Nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır.

**Filmoqrafiya**

1. Azadlığa gedən yollar (film, 1990)
2. 20 yanvar (film, 1990)
3. Matəm (film, 1990)
4. Ruslar müharibə istəyirmi? (film, 1990)
5. Güllələnmiş qərənfillər (film, 2012)

## Xalqımızın qəhrəman oğulları

***Heç kəs unudulmur, heç nə yaddan çıxmır.***

**22. Tank qoşunları qvardiya general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun anadan olmasının 105 illiyi (1910- 1945)**

***"Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daima yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır!"***

**Ümummilli lider Heydər Əliyev**



Həzi Aslanov 1910-cu il yanvarın 22-də Lənkəran şəhərində anadan olub. İbtidai təhsilini şəhər 1 saylı orta məktəbində alıb. 13 yaşında atasını itirən Həzi kərpic zavodunda fəhlə kimi işləməyə başlayıb. Sonra komsomol putyovkası ilə Zaqafqaziya hərbi hazırlıq məktəbinə göndərilib. 1924-1930-cu illərdə Bakı və Leninqrad hərbi məktəblərində oxuyub. 1929 - cu ildə oranı bitirdikdən sonra Leninqrad süvari məktəbinə daxil olub. İki illik təhsildən sora Kotovsk adına III Bessarabiya süvari diviziyasında vzvod komandiri kimi fəaliyyətə başlayıb.

İkinci dünya müharibəsi başlananda o Ukraynada xidmət edirdi. 1941-ci il iyunun 23-nə keçən gecə alman zirehli qoşunları ilə qeyri bərabər döyüşdə Həzi özünü bacarıqlı sərkərdə kimi göstərdi. O öz döyüşçüləri ilə Donbas ətrafında düşmənin şiddətli hücümlarını düz beş ay dəf etdi, onu ağır tələfata uğratdı. 1941-ci ilin dekabrında Moskva ətrafında vuruşmalarda qəhrəmanlığına görə Qırmızı Ulduz ordeninə layiq görüldü. Xarkov və Stalinqrad ətrafında gedən döyüşlərdə Həzinin başçılığı ilə 55-ci tank briqadasının tankçıları düşmənə ağır zərbələr endirdilər.

Bu döyüşdə göstərdiyi şücaətə görə podpolkovnik H.Aslanov 1942 –ci il 22 dekabrda Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. O daim öz hərbi biliyini artırmağa səy göstərirdi. 1943-cü il dekabrın 17-dən 1944-cü il aprelin 6-na kimi o Zirehli tank qoşunları Akademiyasının birillik təhsil proqramını 3 aya mənimsədi. Sonra o yenidən doğma 35-ci qvardiya tank briqadasına qayıtdı. 1944-cü il 13 martda ona tank qoşunları general mayoru adı verildi. 1944-cü il iyunun axırlarında Belorusiya və I Pribaltika cəbhəsinin qoşunları hücuma keçdilər. Belarusiyanın iri şəhər və dəmiryollarını azad etdikdən sonra Aslanovun tankları Vilnüsə hucumları davam etdirdilər. Aslanovun briqadası iyunun 24-dən iyulun 13-dək düşmənə ağır zərbələr endirdi. Bu döyüşdəki qələbəyə görə 35-ci qvardiya tank briqadası Qımızı bayraq ordeninə, general özü isə ikinci dərəcəli Suvorov ordeninə layiq görüldü.1944-cü il avqustun 1-də Aslanovun briqadası başqa ordu hissələri ilə birlikdə Yelqava şəhərini düşməndən təmizlədilər.

O, Volqadan başlamış Baltikədək bütün döyüşlərdə özünü bacarıqlı sərkərdə, fitri istedad sahibi kimi göstərmişdi. Təkcə 1944-cü ilin hücum döyüşləri dövründə 8 dəfə Ali Baş Komandanlıq tərəfindən təşəkkür almışdır. Stalinqraddan Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov 24 yanvar 1945–ci ildə Latviyanın Liepay rayonunda alman faşistləri ilə döyüşdə qəhrəmancasına həlak olmuşdur. Həzi Aslanovun qəbri Bakıda Şəhidlər Xiyabanındadır.

**Mükafatları :**

Həzi Aslanov Böyük Vətən müharibəsi cəbhələrində göstərdiyi şəxsi igidlik və qoçaqlığına görə 3 Qırmızı Bayraq ordeni, 2-ci dərəcəli Suvorov ordeni, Aleksandr Nevski ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, 2 Qırmızı Ulduz ordeni və medallarla təltif olunmuşdur.

1944-cü ildə general-mayor H.Aslanov Belorusiya cəbhəsindəki şücaətinə görə ikinci dəfə yüksək ada təqdim edilsə də, SSRİ hərbi rəhbərliyində təmsil olunan erməni generalı İ.Baqramyan buna maneəçilik törədib. Ölümündən 47 il sonra, 1991-ci ildə H.Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı verilir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən Həzi Aslanovun qəbri üzərinə qoyulmuş əklil (9 may 2013).

Bakıdakı qəbri üzərində qəhrəmanın abidəsi ucaldılmışdır.

1969–cu ildə Həzinin vətəni Lənkəranda onun ev-muzeyi açılmış, 1983–cü il 8 mayda Lənkəran şəhərinin mərkəzində onun boyük heykəli qoyulmuşdur.

Bakıdakı küçələrdən və metrostansiyalardan biri Həzi Aslanovun adını daşıyır.




**Filmoqrafiya**

General Həzi Aslanov (film, 1945)
General Aslanov (film, 1970)
Estafet (film, 1982)
Sizi dünyalar qədər sevirdim (film, 1985)

## Milli qəhrəmanlar zirvəsi

### 1. Abbasov Mehdi Yusif oğlunun (1960-1992) 55 illik yubileyi



***"Xalqımızın birliyi və qələbəyə inamı gələcək uğurlarımızın təməlidir!"***

**Ulu öndər Heydər Əliyev**

Mehdi Abbasov 1960-cı il 1 yanvar tarixində Qərbi Azərbaycanın (Ermənistan) Amasiya rayonunun Yeniyol kəndində anadan olmuşdur. Ailəsi erməni millətçilərinin təzyiqi altında ata-baba ocağını tərk edib Qazaxıstana üz tutanda Mehdinin 11 yaşı var idi. Onlar Qazaxıstanın Tülkübas kəndinin Kulan kəndində məskunlaşmışlar. 1980-cı ildə Mehdi sənədlərini Çimkənd Pedaqoji İnstitutunun hazırlıq şöbəsinə təqdim etmişdir. Bir ildən sonra isə Karakanda Pedaqoji İnstitutuna daxil olur. O, 1985-ci ildə həmin ali məktəbi bitirərək ibtidai hərbi hazırlıq və bədən tərbiyəsi müəllimi ixtisasına yiyələndi. O, təyinatla Tülkübas rayonunun Miçurin kəndindəki məktəbə göndərildi. Klassik güləş üzrə idman normasını yerinə yetirən Mehdi "SSRİ idman ustası" adını aldı. O, 1989- cu ilin noyabr ayında Qazaxıstan KP Tülkübas Rayon Komitəsinin qərarı ilə daxili işlər orqanlarında işləməyə göndərildi. 1989-1990-cı illərdə SSRİ DİN-nin Stavropol ali kurslarının müdavimi olur, sonra Enbəyşin Rayon Daxili İşlər Şöbəsində sahə müvəkkili vəzifəsində xidmətini davam etdirir. Azərbaycanın başı üzərini qara buludlar alanda Mehdi öz soydaşlarının köməyinə gəlməyi qərara aldı. Mehdi 1991-ci il 28 iyun tarixində Azərbaycan Respublikaası DİN-nin sərəncamına göndərildi. O, burada baş leytenant rütbəsində rota komandiri kimi DİN-nin XTMD-ndə xidmətə başladı. Abbasov Mehdi göstərdiyi şücaətə görə "Mixaylo" ləqəbini qazanmışdı. O, 4 dəfə DİN-nin mükafatına layiq görülmüşdür. "Mixaylo"nun son döyüşü 13 yanvar 1992-ci ildə oldu. Məlikcan postu ətrafında qızğın döyüşlər gedirdi, Mehdi həmişə olduğu kimi ön sırada vuruşurdu. Bu döyüşdə snayper gülləsi onu başından ağır yaraladı. Döyüş dostu çətinliklə də olsa, onu təklükəli zonadan çıxara bildi, lakin elə həmin gün o əbədi olaraq gözlərini yumdu.Subay idi. Azərbaycan Respublikası prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə baş leytenant Abbasov Mehdi Yusif oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Bakıda Şəhidlər xiyabanında dəfn edilmişdir. İsmayıllı rayonunun keçmiş Ruşan kəndi indi cəsur döyüşçünün şərəfinə Mehdikənd adlanır. İsmayıllı rayonunun mərkəzi küçələrindən birinə onun adı verilmişdir.

**22. Milli qəhrəman Şahbazov Fəxrəddin İbrahim oğlunun (22.01.1950) 65 illik yubileyi**

***"Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daima yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır!"***

**Ulu öndər Heydər Əliyev**



Fəxrəddin Şahbazov 22 yanvar 1950-ci ildə Bakı şəhərində doğulmuşdur. 1957-1967-ci illərdə Bakı şəhərindəki 20 saylı orta məktəbdə təhsil almışdır. 1969-cu ildə hərbi xidmətə çağırılmış və 1971-ci ildə ordudan tərxis edilmişdir. Fəxrəddin 1972-ci ildən Azərbaycan Teleradio Şirkətində işə başlamış və 20 il burada fasiləsiz olaraq operator peşəsində çalışmışdır.1988-ci ildən başlayaraq ermənilərin azərbaycanlıları Dağlıq Qarabağ və eləcə də, Qərbi Azərbaycan torpqlarından zorla, silah gücü ilə çıxartması Fəxrəddin Şahbazovu da narahat edirdi. Fəxrəddin könüllü olaraq cəbhəyə gedər qaynar döyüş meydanlarından reportajlar hazırlayar və xalqa eləcə də xarici ölkələrə çatdırardı. Dəfələrlə təhlükə ilə üzləşməsinə baxmayaraq cəbhəyə getməkdə davam edirdi. 1991-ci ildə ermənilər Xocavənd rayonunda ağılasığmaz vəhşiliklər törətmişdilər. Dinc sakinlər qətlə yetirilmiş, kəndlər yandırılmışdı. 20 noyabr 1991-ci il dövlət nümayəndələri və başqa bir neçə adam hadisəni araşdırmaq üçün Mİ-8 vertolyotu ilə Xocavənd rayonuna yola düşdülər. Xocavəndin Qarakənd kəndi yaxınlığında ermənilər vertolyotu iri çaplı pulemyotlardan atəşə ututdular. Vertolyot yerə düşərək parçalandı bütün heyət həlak oldu, şəhidlərin arasında Şahbazov Fəxrəddin də var idi. Ermənilər onların cəsədlərini təhqir etməkdən belə çəkinmədilər. Ailəli idi, iki övladı qalıb. Azərbaycan Respublikası prezidentinin 4 dekabr 1992-ci il tarixli 344 saylı fərmanı ilə Şahbazov Fəxrəddin İbrahim oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. Bakı şəhərinin Məmməd Əmin Rəsulzadə qəsəbəsindəki küçələrdən biri Fəxrəddin Şahbazovun adını daşıyır.

# İncəsənət

**2. Əməkdar artist, aktyor Səməndər Rzayevin (02.01.1945) anadan olmasının 70 illiyi (1945-1986)**

***"Səməndər Rzayev bizim kinoda dublyaj sənətinin korifeylərindən idi. . Onun səsi, danışığı bir orkestrin ifa etdiyi simfoniyaya bərabər idi."***

**Ulu öndər Heydər Əliyev**



**Səməndər Mənsim oğlu Azərbaycan teatr və kino aktyoru, Əməkdar artist.**

Səməndər Rzayev 2 yanvar 1945-ci ildə Ağsuda dünyaya gəlib. İncəsənət İnstitutunda Təhmasibin məktəbindən dərs alıb, Sumqayıt Teatrında çalışıb. Amma ömrünün, yaradıcılığının ən yaddaqalan illərini Akademik Dram Teatrında keçirib. Səməndər Rzayev klassik aktyor sənətimizin ruhunu yaşadırdı, elə özü də klassik sənətkara çevrildi. **"Həyatın dibində", "Hamlet", "Yağışdan sonra", "Sən yanmasan", "Cehizsiz qız", "Qəribə oğlan", "Dəli yığıncağı..."** Bunlar Səməndər Rzayevin teatrda oynadığı tamaşaların cüzi bir hissəsidir. Amma onların hər birinə Səməndər Rzayevin yuxusuz gecələri, gərgin yaradıcılıq axtarışları, bəzən isə hədsiz əsəbləri sərf olunmuşdu. Səməndər Rzayev yaradıcı sənətkar idi. O heç vaxt pyesə doğma kimi baxmazdı. Özü obraz üçün ştrixlər axtarırdı. Rejissorları da bu "ixtiralar"ın sərfəli olduğuna inandıra bilirdi. "Nəsimi" də isə rejissor Həsən Seyidbəyli ona Şirvanşah İbrahimin rolunu tapşırmışdı. Bu, aktyor üçün böyük məsuliyyət idi. Doğrudan da, Azərbaycanın tarixində danılmaz xidmətləri olan Şirvanşah İbrahimi ekranda yaratmaq aktyordan əsl mənada yüksək sənətkarlıq tələb edirdi. Film ekrana çıxanda çoxları təəccüb hissi keçirdi. Səməndər obrazı elə özününküləşdirmişdi ki, qarşında tarixi şəxsiyyət İbrahim şahın dayandığına səmimiliklə inanırsan. Səməndər Rzayevin qəhrəmanları, həqiqətən, səmimi, ətrafındakılara diqqətli olan insanlardır. Səməndər Rzayev çox rejissorlarla işləyib. Tofiq Tağızadə, Arif Babayev, Həsən Seyidbəyli, Tofiq İsmayılov, Vaqif Mustafayev Səməndəri böyük məmnuniyyətlə filmlərinə dəvət edirdilər. Səməndər Rzayev Televiziya filmlərində, tamaşalarında oynayırdı, "Bulaq" verilişinin isə daimi aparıcılarından idi. Allah rəhmət eləsin.

**Filmoqrafiya:**Babamızın babasının babası (film, 1981), Babək (film, 1979),
Bağ mövsümü (film, 1985), Bakıda küləklər əsir (film, 1974), Bayquş gələndə (film, 1978), Belə lazımdır (film, 1982), Bəyin oğurlanması (film, 1986), Birisigün, gecəyarısı... (film, 1981), Bizim küçənin oğlanları (film, 1973), Çarvadarların izi ilə (film, 1974), De ki, məni sevirsən! (film, 1977), Dədə Qorqud (film, 1975), Dəli Kür (film, 1969), Evlənmək istəyirəm (film, 1983), Evləri köndələn yar (film, 1982), Ən vacib müsahibə (film, 1971), Əzablı yollar (film, 1982), Gənclik macərası (film), Gözəllik ondur... (film, 1984), Xatirələr sahili (film, 1972), Xüsusi vəziyyət (film, 1986), İmtahan (film, 1982) və s.

**8. Xalq artisti, aktrisa Leyla Bədirbəylinin (08.01.1920) anadan olmasının 95 illiyi (1920-1999)**

***"Leyla Bədirbəyli öz gözəlliyi, mərdliyi, sədaqəti və əməksevərliyi ilə səciyyələnən Azərbaycan qadınının canlı təcəssümü kimi kino tariximizdə silinməz izlər qoymuşdur."*** **Ulu öndər Heydər Əliyev**



**Leyla Bədirbəyli — Azərbaycanın görkəmli teatr xadimi; Azərbaycan SSR xalq artisti (1959). SSRİ (1946) və Azərbaycan SSR (1972) Dövlət Mükafatları Laureatı. 1937- 1942 illərdə Azərbaycan Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti olmuş, 1942- 1975 illərdə Azərbaycan Akademik Dövlət Dram Teatrında fəaliyyət göstərmişdir**.

1920-ci ilin yanvar ayının 8-də Bakı şəhərində anadan olmuşdur.1941-ci ildə Leyla xanım Azərbaycan Dövlət Akademik Dram Teatrının kollektivinə daxil olur. Leyla Bədirbəylinin Azərbaycan Dövlət dram teatrı səhnəsindəki ilk çıxışı xalq yazıçısı Mirzə İbrahimovun «Məhəbbət» pyesinin tamaşasındakı Zəhra rolu olur. Sonra isə o, A. N. Ostrovskinin «Tufan» pyesində Qlaşa rolunu məharətlə ifa edir. Daha sonra Leyla xanım bir-birinin adınca Ə, Haqverdiyevin «Pəri-cadu» pyesində Pəri; Səməd Vurğunun «Vaqif»ində Gülnar və Xuraman; «Xanlar»ında Mehriban; C. Cabbarlının «Solğun çiçəklər»ində Sara; «Almaz»ında Almaz; R. Rzanın «Qardaşlar»ında Ləman; Ə. Məmmədxanlının «Şərqin səhəri»ndə Dilarə; «Od içində» pyesində Pərvanə; İ. Əfəndiyevin «İşıqlı yollar»ında Lalə; «Atayevlər ailəsində» Mehriban; S. Rəhmanın «Xoşbəxtlər»ində İnci, «Əliqulu evlənir»də Qumral; «Kəndçi qızı»nda Göyərçin; Hüseyn Cavidin «Şeyx Sənan»ında Zəhra; İmran Qasımov və Həsən Seyidbəylinin «Uzaq sahillərdə» pyesində Ancelika və başqa rolları məharətlə ifa edir. 1945-ci ildə Rza Təhmasib tərəfindən çəkilmiş «Arşın mal alan» filmində Gülçöhrə rollarını ifa etmişdir. Leyla Bədirbəylinin yaratdığı Gülçöhrə obrazı aktrisanın ən böyük müvəffəqiyyəti olmuşdur. Leyla xanıma bu rola görə SSRİ Dövlət Mükafatı verilmişdir. Bu filmdən sonra o, «Görüş» - Bilqeys; «Onun böyük ürəyi» - Xalidə, «Kölgələr sürünür» - Leyla; «Fətəli xan» - Tutti Bikə; «Koroğlu» - Nigar və «Sevil» film-operasında Tafta rolunda çəkilir. Leyla Bədirbəylinin Azərbaycan incəsənətinin inkişaf etdirilməsi sahəsindəki xidmətləri yüksək qiymətləndirilərək, «Azərbaycan SSR Əməkdar Artisti» (1949), «Azərbaycan SSR Xalq Artisti» (1959) fəxri adı verilmişdir.

**Filmoqrafiya:** Arşın mal alan (film, 1945), Aygün (film, 1960), Bizim küçə (film, 1961), Bizim küçənin oğlanları (film, 1973), Böyük ömrün anları (film, 2006), Çarvadarların izi ilə (film, 1974), Dəcəl dəstə (film, 1937), Dəli Kür (film, 1969), Dərviş Parisi partladır (film, 1976),Yeddi oğuldan biri (film, 2007), Fətəli xan (film, 1947), Gəmi saatının sirri (film, 1983), Gilas ağacı (film, 1972), Görüş (film, 1955), Günlərin bir günü (kinoalmanax, 1976), İntizar (film, 1970) və s.

## İdman

***İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Olimpiya oyunları isə sülh rəmzidir.***

**29. İdman xadimi, futbol hakimi Tofiq Bəhramovun anadan olmasının 90 illiyi (1925-1993)**



**Tofiq Bəhramov — Azərbaycan futbolçusu, futbol hakimi. Azərbaycan Futbol Federasiyası Assosisiyası yarananda hakimlərin sədri, daha sonra isə baş katib vəzifələrində çalışmışdır. Tofiq Bəhramovun 1966-cı ildə İngiltərədə keçirilən VIII dünya çempionatının finalında İngiltərə komandasının lehinə verdiyi obyektiv qərar Uembley stadionunna toplaşmış 98000 tamaşaçının yaddaşına həkk olmuş və dünya futbol tarixinə qızıl hərflərlə yazılmışdı.**

Tofiq Bəhramov 1925-ci il 29 yanvarda Ağdamda anadan olub. Futbolçu karyerasına 1940-cı ildə başlayan T.Bəhramov əvvəlcə "Spartak"ın gənclərdən ibarət komandasında çıxış edib. Daha sonra isə "Neftyannik"ə dəvət olunub. O, futbolçu kimi təkcə Azərbaycan çempionatında iştirak edib. Müasirlərinin dediyinə görə, Bəhramov əsas oyunçu olmasa da, komandanın kapitanı olub və hakimlərlə daha çox mübahisə etməsinə görə digər oyunçulardan fərqlənib. Lakin onun futbolçu karyerası istədiyi kimi alınmayıb. Ayağından aldığı zədə karyerasına erkən son qoyması ilə nəticələnib. Bununla belə, futbolun vurğunu olan Tofiq Bəhramov sevimli məşğuliyyətindən ayrılmaq istəməyib və hakim kimi bu idman növündə öz fəaliyyətini davam etdirmək qərarına gəlib.1951-ci ildən SSRİ çempionatının oyunlarına təyinat alıb, 1964-cü ildən isə beynəlxalq oyunları idarə etmək hüququ qazanıb.Tofiq Bəhramova bu oyundan sonra həmçinin, Böyük Britaniya kraliçasının özü "Qızıl ilahə" mükafatını təqdim edib.Tofiq Bəhramov isə bu qarşılaşmada laynsman funksiyasını yerinə yetirsə də, Britaniya kraliçası "Qızıl fit"i və "Qızıl ilahə"nin kiçik modelini həmyerlimizə təqdim etmişdi.Tofiq Bəhramov Azərbaycan Futbol Federasiyası Assosisiyası yarananda hakimlərin sədri, daha sonra isə baş katib vəzifələrində çalışıb.Tofiq Bəhramovun futbolda xidmətləri çox olub. Elə ona görə də ölkənin bir nömrəli idman arenası – Respublika stadionu onun adını daşıyır. Stadionun girişində dünyada ilk dəfə mərhum hakimə abidə də ucaldılıb.2004-cü il oktyabrın 14-də keçirilən abidənin açılış mərasimində FİFA prezidenti Yozef Blatter, UEFA-nın hazırkı prezidenti Mişel Platini, 1966-cı ildə Tofiq Bəhramovu məşhurlaşdıran qolun müəllifi Cefri Herst və AFFA-nın mərhum prezidenti Ramiz Mirzəyev iştirak etmişdi.Dünya futbol tarixinə "Qızıl fit" almış yeganə laynsman kimi düşən Tofiq Bəhramov 1993-cü il martın 26-da dünyasını dəyişib. 2004-cü ildə dünyada hakimlər içərisindən ilk dəfə məhz onun adına abidə ucaldılıb.

# Yubilyar yazıçı və şairlər

## 1. Yazıçı Tahir Hüseynovun anadan olmasının 85 illiyi (1930-1993)

***Tahir Hüseynovun yaradıcılığının əsas xüsusiyyəti real həyat səhnələrini təbii boyalarla çatdırmaqla oxucunu yaşadığımız məkan və zaman haqqında düşündürməktədir.***



**1990-cı ildən"Azərbaycan SSRİ Əməkdar Mədəniyyət İşçisi", 1958-ci ildən SSRİ Jurnalistlər İttifaqının, 1973-cü ildən isə SSRİ Yazıçılar İttifaqının üzvü .**

Tahir İsmayıl-oğlu Hüseynov 1930-cu il yanvarın 1-də Borçalı mahalının Qaçağan kəndində sadə kəndli ailəsində anadan olmuşdur. 1947-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olmuş və 1952-ci ildə oranı bitirmişdir.1964-cü ildə ilk kitabı olan "Səadətimi axtarıram" nəşr olunur. Sonralar bir-birinin ardınca "İnsan düşünür" (1973), "Nigaran baxışlar" (1978), "Təzə məhəllədə" (1981), "Gecikmiş heykəl" (1983), "Borçalı əhvalatları" (1984), "İnsan dünyaya gəlir" (1987), "Çətin görüş" (1990) kitabları işıq üzü görür. 1964-cü ildə Bakıya gələn Tahir Hüseynov "Təşviqatçı" jurnalında bir neçə il məsul katib vəzifəsində çalışdıqdan sonra tərcüməçiliklə maraqlanır və Azərbaycan Teleqraf Agentliyində (sonradan Azərinform) tərcüməçi-redaktor kimi fəaliyyət göstərir. 1983-cü ildə görkəmli özbək yazıçısı Şükrullonun "Cəvahirat sandığı" əsərini Azərbaycan dilinə tərcümə edib nəşr etdirir.Tahir Hüseynov yaradıcılığının ən məhsuldar dövrü 1980-ci ildən ömrünün sonuna qədər çalışdığı "Azərbaycan" jurnalındakı fəaliyyəti ilə bağlıdır. Bu dövrdə o özünü bir dramaturq kimi sınamış və "Torpaq dərdi" povesti əsasında pyes yazmışdır. Həmin pyes Mingəçevir Dram Teatrında müvəffəqiyətlə tamaşaya qoyulmuşdur. Yazıçının sonuncu iri həcmli əsəri "Yanıq Abdullanın yuxuları" povesti 1991-ci ildə "Azərbaycan" jurnalında çap olunmuşdur.Tahir Hüseynovun əmək fəaliyyəti və yaradıcılığı Dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Tahir Hüseynov 1993-cü il may ayının 8-də Bakıda vəfat edib. 2009-cu ildə yazıçının kitab şəklində nəşr olunmamış sonuncu əsəri "Yanıq Abdullanın yuxuları" ailəsi tərəfindən latın qrafikası ilə nəşr edilərək oxuculara təqdim edilmişdir.

**Əsərləri:** "Səadətimi axtarıram" (1964),"İnsan düşünür" (1973), "Nigaran baxışlar" (1978),"Təzə məhəllədə" (1981),"Gecikmiş heykəl" (1983), "Borçalı əhvalatları" (1984), "İnsan dünyaya gəlir" (1987), "Çətin görüş" (1990), "Yanıq Abdullanın yuxuları" (2009) və s.

## 1. Yazıçı Emin Mahmudovun anadan olmasının 90 illiyi (1925)

***Emin Mahmudovun qələmə aldığı "Günəş şəhəri" adlı ilk elmi-fantastik hekayələr məcmuəsi bu gün də öz məhşurluğunu qoruyub saxlayır.***



**Mahmudov Emin Qasıməli oğlu - nasir, tərcüməçi, 1954-cü idən Azərbaycan Yazıçılar Birliyinin üzvü - 1925-ci il**
Emin Mahmudov yanvarın 1-də Azərbaycanın Göyçay şəhərində anadan olmuşdur. Burada 1 saylı orta məktəbi bitirib bir il uşaq evində tərbiyəçi işləmiş, sonra ordu sıralarında xidmət etmişdir (1943-1945). Tərxis edildikdən sonra ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır (1945-1950). Ədəbi yaradıcılığa şeirlə başlasa da, elmi fantastikaya və bədii tərcüməyə üstünlük vermişdir. "RT-1" adlı ilk elmi-fantastik hekayəsi 1952-ci ildə "Pioner" jurnalında dərc olunmuşdur. "Günəş şəhəri" adlı ilk elmi-fantastik hekayələr məcmuəsi isə 1953-cü ildə Uşaqgəncnəşrdə çapdan çıxmışdır. O, Bakıda Baş mətbuat idarəsində senzor (1948-1952), "Azərbaycan qadını" jurnalı redaksiyasında məsul katib (1955-1966), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi (1953-1954), "Azərbaycan pioneri" qəzeti redaksiyasında məsul katib (1967-1971), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində böyük redaktor (1973-1982) olmuşdur.
Emin Mahmudov ömrünün son günlərini Amerikada yaşayıb və 2009 - cu ildə orada vəfat edib.

**Əsərləri**

1.Muğanda qütb parıltısı. - Bakı: Uşaqgəncnəşr, 1954. - 59 s.
2.Kainat gəmisi. - Bakı: Uşaqgəncnəşr, 1957. - 189 s.
3.Veneranın göyləri od içindədir. - Bakı: Uşaqgəncnəşr, 1960. - 211 s.
4.Qeyb olmuş səslər. - Bakı: Azərnəşr, 1964. - 87 s.
5.Dəmir necə ayaq açdı. - Bakı: Gənclik, 1967. - 41 s.
6.Zülmət dənizi. - Bakı: Gənclik, 1972. - 174 s.
7.Ulduzlar yolumuzu gözləyir. - Bakı: Gənclik, 1975. - 93 s.
8.Qüdrətli pillə. - Bakı: Gənclik, 1985. - 56 s.
9.Günün nəfəsi. - Bakı: Gənclik, 1986. - 60 s.
10.Atlant qızı. - Bakı: Yazıçı, 1986. - 230 s.

**Tərcümələri** (ruscadan)

Zaxarçenko V. "Elektrik beyni ilə söhbət", Levi V. "Fikir ardınca"
Baxtamov R. "Qanun qanundur", Seyidməmmədova Z. "Təyyarəçinin qeydləri", "Şişpapaq", "Dağlarda şimşək çaxır", "Yağış mahnısı", "Povest və hekayələr"
"Baba nağılı" : povest və hekayələr, "Teleqram" : povest və hekayələr

## 2. Şair Rafiq Yusifoğlunun anadan olmasının 65 illiyi (1950)

***"Rafiqdən Səhhət ətri, Şaiq ətri, Səməd Vurğun ətri gəlir."***

**Şair İlyas Tapdıq**



**Əliyev Rafiq Yusif oğlu (02.01.1950) - şair, yazıçı, tənqidçi, 1986-cı ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, "İlin ən yaxşı kitabı", "Vətən", "Qızıl qələm", "Araz" və s. mükafatların laureatı.**

Rafiq Yusifoğlu 1950-ci il yanvar ayının 2-də Qubadlı rayonunun Çardaxlı kəndində müəllim ailəsində doğulmuşdur. Burada səkkizillik məktəbi, Qubadlı qəsəbə orta məktəbində onillik məktəbi bitirmişdir (1966). Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir (1966-1970). Bir müddət Sumqayıt şəhərində müəllim işləyən şair Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuşdur. "Azərbaycan Sovet poemasının inkişaf problemləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.1985-ci ildən 1992-ci ilədək "Göyərçin" jurnalında söbə müdiri, 1992-ci ildən 1996-cı ilədək məsul katib, 1996-1997-ci illərdə Azərbaycan Dövlət Televiziyasının "Xəbərlər" baş redaksiyasında "Elm, mədəniyyət, incəsənət" şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1997-ci ildən "Göyərçin" jurnalının baş redaktorudur. Şairin uşaq ədəbiyyatı sahəsində xüsusi fəaliyyəti vardır. Rafiq Yusifoğlu 2007-ci ildə "XX əsr Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri doktoru adını almışdır. Hazırda Sumqayıt Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı" kafedrasının professorudur. Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisidir. O, gənc tənqidçilərin Moskvada keçirilən birinci (1982), ikinci (1985) və üçüncü (1988) Ümumittifaq seminarlarının, Qazaxıstanda keçirilən Beynəlxalq Uşaq ədəbiyyatı günlərinin (1989) iştirakçısı, 1985-ci ildə Moskvada Ali Komsomol Məktəbinin bir aylıq jurnalistika kursunun müdavimi olmuşdur.

Ədəbi fəaliyyətə hələ orta məktəbdə oxuyarkən başlamış, 1966-cı ildən şeirləri, məqalələri ilə mətbuatda çıxış etməyə başlamışdır. Son illər bədii tərcümə ilə ciddi məşğul olur. F.Q.Lorkanın, Corc Bayronun, Peter Şyuttun, Hans Yurgen Hayzenin, Ulla Hanın, Roza Auslenderin və başqalarının şeirlərini, dünya uşaq ədəbiyyatının gözəl nümunələrini dilimizə tərcümə etmişdir. Əsərləri bir sıra dillərə tərcümə edilib, dərsliklərə düşüb. Çoxlu mahnı mətnlərinin, elmi-publisistik məqalələrin müəllifidir. Əsərləri əsasında "Qəm karvanı", "Bütün Azərbaycan əsgər olmalı" televiziya tamaşaları çəkilib, dəfələrlə nümayiş etdirilmişdir.

**Əsərləri:”**Yurdum-yuvam” (1983), “Ətirli düymələr” (1986), “Ocaq yeri” (1989), “Aylı cığır” (1992),”Qəm karvanı” (1997), “Həsrət köçü” (1998), “Dünya xalqlarının nağılları” (1998), “Azərbaycan poeması” : axtarışlar və perspektivlər. (1998), “Xatirə kəcavəsi) (1999), “Bahar qatarı” (1999), “Kitabi-Dədə Qorqud” (1999), “Böyük arzuya gedən yol” (2000), “Möcüzəli xəzinə” (2000), Təzə sevdalara doğru” (2000), “Çiçək yağışı” (2000), “Ədəbiyyatşünaslığın əsasları” (2001), “Söz çəməni” (2002), “Uşaq ədəbiyyatı” (2002), “Ayrılığın qəm hasarı” (2002), “Günlərimiz, aylarımız” (2003), “Bir sevdalı ürəyim var” (2003), “Ədalətli hakim” (2004), “Şirin yuva” (2004), “Müasir ədəbi proses və ədəbi tənqid” (2004), “Min dovşan otaran çoban” (2005), “Zamanın qatarı” (2005), “Həsrət sazağı”  (2005), “Ədəbiyyatşünaslığın əsasları” (2005), “Dəniz səviyyəsi” (2005), “Meymunlar ölkəsi” (2006), “Yollar” (2006), “Uşaq ədəbiyyatı” (2006), “Daha uşaq deyiləm” (2006), “Sevdalı sabahlar” (2007), “Namusu qoru” (2007), “Ana dilim” (2007), “Tanrının ömür payı” (2007), “İlahi qazlar” (2008), “Sehrli üzük” (2008), “Ana dili : Əlifba, oxu” : Ümumtəhsil məktəblərinin birinci sinifləri üçün dərslik. (2008), “Eşqin qarlı yollarında” (2008), “Dəniz, sən və mən” (2009), “Qızıl balıq” (tərcümələr). (2009), “Ulu yurd yerlərimiz” (məqalələr). (2009), “Azərbaycan dili 2”  (2009), “Möcüzəli ağac” (tərcümələr). (2010), “Elm və helm” (hekayələr və nağıllar). (2010), “Qoruq və yasaqlıqlarımız” (məqalələr). (2010), “Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri” (2010) və s.

**KİTABLAR**
Mənim kitab rəfimə
Gəlin bir az yaxın siz.
Bir-birinə söykənən
Qonşulara baxın siz.

Sözlə dolu olsa da,
Hamısının sinəsi,
Sakitcə əyləşiblər,
Çıxmır birinin səsi.

Durub qaça bilmirlər,
Düşüb gəzə bilmirlər.
Yazıqlar bir – biriylə
Kəlmə kəsə bilmirlər.

Elə ki, götürürsən
Sən onları əlinə,
Dil çatdırmaq olmayır
Heç birinin dilinə.

**3.Yazıçı Novruz Nehrəmlinin anadan olmasının 85 illiyi (1930)**



**Əliyev Novruz İbrahim oğlu – nasir, 1978 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**
1930 – cu il yanvarın 3- də Babək rayonunun Nehrəm kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Naxçıvanda ikiillik Müəllimlər İnstitutunun ədəbiyyat fakultəsində təhsil almışdır (1945 - 1947). ADU – nun şərqşünaslıq fakultəsində təhsil almışdır. Azərbaycan Dövlət Universitetinin Şərq fakultəsində təhsilini davam etdirmişdir(1951-1956). Onun "Qəmli günlər" pyesi 1983-cü ildə C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. "Üç qərinə" romanını başa çatdırmışdır.
**Əsərləri:** "Vətən həsrəti" (1974),"Narahat ürək" (1977), "Ləyaqət " (1981),"Qayıtdı" (1986), "Zülmətdə işıq" (1992), "Üç qərinə" (1998), "Lehimlənmiş bədən" (1999), "Zümrüd qaşlı brilyant üzük " (1999) və s.

**5. Şair, tərcüməçi Məmmədağa Sultanovun anadan olmasının 105 illiyi (1910-1991)**



**Məmmədağa Sultanov — tərcüməçi, şair, ədəbiyyatşünas, 1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1967), filologiya elmləri namizədi (1948), baş elmi işçi (1982), müharibə və əmək veteranı.**

Sultanov Məmmədağa Sultan oğlu - 1910-cu il yanvarın 5-də Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuşdur. Kiçik yaşlarında ikən ailəlikcə Bakıya köçmüşlər. "Hücum" jurnalının məsul katibi (1932-1933), Kürdəmir rayonu MTS siyasi şöbəsinin orqanı "Bolşevik" qəzetinin redaktoru (1933-1935), Masallı rayonu qəzetinin redaktoru (1935-1936), "Gənc işçi" qəzetinin məsul katibi (1936-1937), "Kommunist" qəzeti redaksiyasında elm və mədəniyyət şöbəsinin müdiri (1937- 1938), mühəndis və təsərrüfatçıların ixtisasını artıran institutun dil və ədəbiyyat kafedrasının müdiri (1939), Azərbaycan Dövlət Universitetinin aspirantı və müəllimi (1939- 1941) işləmişdir. İkinci Dünya müharibəsi dövründə Zaqafqaziya cəbhəsi siyasi idarəsinin tərcüməçisi və siyasi təlimatçısı kimi Sovet Ordusu tərkibində Təbrizdə (1941- 1942), Qafqazda olmuşdur (1942- 1945). Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutu əlyazmaları şöbəsinin müdiri (1945-1950), Azərbaycan Elmlər Akademiyası Əlyazmaları fondunun direktoru (1950-1972), şöbə müdiri (1972-1976), Azərbaycan EA Yaxın və Orta Şərq xalqları İnstitutunun Şərq

ölkələri ilə ədəbi əlaqələr şöbəsinin müdiri (1976-1981), Azərbaycan EA respublika Əlyazmaları İnstitutunda baş elmi işçi (1982-ci il-dən) olmuşdur. Ədəbi fəaliyyətə 1926-cı ildə "Gənc işçi" qəzetində çap etdirdiyi "Sənət məktəbi" adlı ilk şerilə başlamışdır. Klassik ədəbiyyatdan etdiyi poetik tərcümələr onun yaradıcılığında başlıca yer tutur. "Kəlilə və Dimnə" (1980) kitabındakı şerləri Füzulinin, Nəsiminin və digər klassiklərin fars dilində yazdığı şerləri poetik tərcümə etmişdir. O, bir sıra müqəddimə, şərh və elmi-tənqidi məqalələr yazmışdır. Rubaki, Cami, Əbu Əli Sina, Sədrəddin Ayni kimi sənətkarların yubileyində məruzələrlə çıxış etmişdir. Fəal ictimai iş aparmışdır: işlədiyi elmi-tədqiqat institutlarında yerli həmkarlar ittifaqının sədri, ilk partiya təşkilatının katibi olmuşdur. Xidmətlərinə görə 7 medalla təltif edilmişdir. 1991-ci il yanvar ayının 19-da Bakıda vəfat etmişdir.
**Əsərləri:** “Xaqani Şirvaninin həyat və yaradıcılığı” (1954) və s
**Tərcümələri (farscadan):** “Heyran xanım. Qəzəllər” (1951), “Xaqani Şirvani. Seçilmiş əsərləri” (1956), “Xaqani Şirvani. Töhfətül İraqeyn” (1959), Sədi Şirazi. Gülüstan” (1962), A. Bakıxanov. Hind əfsanəsi” (1972), “Əmir Xosrov Dəhləvi. Oğluma nəsihət” (1976), Nizami Gəncəvi. Seçilmiş əsərləri” (1983), “Əssar Təbrizi. Mehr və Müştəri” (1988), “Rübailər aləmində” (1989) və s.

## 6. Adil Qüdrətoğlunun anadan olmasının 65 illiyi (1950)



**Abdullayev Adil Qüdrət oğlu – nasir, publisist, 2008 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü , “Qızıl Qələm” mükafatı laureatı (2007, “Əməkdar mədəniyyət işçisi” (2010)**
1950 - ci il yanvarın 6 - da Azərbaycanda Zərdab rayonunun Əlvənd kəndində müəllim ailəsində anadan olmuşdur. Burada kənd orta məkltəbini bitirdikdən sonra pioner baş dəstə rəhbəri kimi əmək fəaliyyətinə başlamışdır (1967-1968). Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsində təhsil almışdır (1969-1974). “Gənclik” nəşriyyatında direktor müavini olmuşdur.(1998-2006). Hazırda “Gənclik” dövlət nəşriyyatının direktorudur.(2006 - cı ildən). Bədii yaradıcılığa kiçik yaşlarından başlamışdır. İlk qələm təcrübəsi 1960-cı ildə “Pambıqçı” rayon qəzetində çıxmışdır. Bundan başqa dövrü mətbuatda hekayə, oçerk və məqalələrlə çıxış etmişdir. “Zərdabi yurdunun övladları” oçerklər toplusu 2002 -ci ildə, “Qonağı yola ver” hekayələr və xatirələr kitabı 2004-cü ildə nəşr olunmuşdur. Uşaqlar üçün bir sıra maraqlı kitabların tərtibi, ön sözü ilə kütləvi tirajla nəşr olunmuşdur.
**Əsərləri:** “Zərdabi yurdunun övladları” ( 2002), “İlk milli mətbuatımız” (2004), ”Sehrli üzük” (2007), “1001 sual, 1001 cavab” (2008), “Hikmət çələngi” (2008), “Kişi sözü” (2009) və s.

## 7. Şair Gülhüseyn Kazımlının anadan olmasının 65 illiyi (1950)



**Gülhüseyn Mərdan oğlu Kazımov - Azərbaycan ictimai xadimi, yazıçısı və şairi. Filologiya elmləri üzrə fəlsəfə doktorudur.**

Gülhüseyn Kazımov 1950-ci il yanvar ayının 7-də Cəbrayıl rayonunun Kavdar kəndində anadan olub. 1966-cı ildə Cəbrayıl qəsəbəsindəki M.Qorki adına orta məktəbi bitirərək 1967-ci ilə kimi rayondakı "1 May" kolxozunda əmək fəaliyyətinə kolxozçu kimi başlayıb.

Azərbaycan Pedaqoji İnstitutunu, Bakı Ali Partiya Məktəbini, Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasını və Bakı Biznes Universitetini bitirmişdir. Dövlət qulluğunun baş müşaviridir. 1971-1972-ci illərdə Azərbaycan Dövlət Elmi Ateizm Muzeyində çalışmış, 1972-1973-cü illərdə isə ordu sıralarında xidmət etmişdir. 1973-cü ildən 1981-ci ilə kimi Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin redaktoru işləmişdir.1983-1987-ci illərdə Azərbaycan KP Kirov Rayon Partiya Komitəsinin şöbə müdiri vəzifəsində çalışmışdır.

Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasında namizədlik dissertasiyasını müdafiə edərək 1990-cı ildə təyinatla Bakıya qayıtmış, 1991-ci ilə kimi Azərbaycan KP MK-nın sərəncamında saxlanılmışdır. 1995-ci ildən 2005-ci ilədək Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsinin Ümumi şöbəsində protokol sektorunun redaktə qrupunun rəhbəri (sektorun baş məsləhətçisi) vəzifəsində çalışmışdır. 2005-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Mərkəzi Aparatının rəhbəri vəzifəsinə təyin edilmiş və xidmət ləğv olunan müddətə kimi (2009-cu il) burada çalışmışdır.Hal-hazırda Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin orqanı olan "Torpaq" qəzetinin baş redaktorudur. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyasının işçi qrupunun üzvüdür.

**Yaradıcılığı**

Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

"Vətən sevgisi" (1978), "Yollarda ömür" (1981), "Mənə inan" (1983), "İnsanın dərki" (1995), "Ümid yeri" (2003), "Heydər Əliyevin yadigarları" (2004) və "Seçilmiş əsərləri" (2010) kitablarının müəllifidir.

Şeirlərinə Azərbaycanın məhşur bəstəkarlarından Şəfiqə Axundova, Azər Rzayev, Oqtay Rəcəbov, Tofiq Babayev, Əfsər Cavanşirov, Nəriman Məmmədov və digərləri tərəfindən 30-dan çox mahnılar bəstələnmişdir. "Vətən sevgisi", "Qadın əlləri", "Məhəbbət", "Əsgər yuxuları" kimi mahnılar bu qəbildəndir. Mahnıları Baba Mirzəyev, Zaur Rzayev, Flora Kərimova, Eldar Axundov, Oqtay Ağayev, Eyvaz Həsənov, Səkinə İsmayılova kimi müğənnilər ifa etmişlər.

## 9. Yazıçı Faiq Dərgahovun anadan olmasının 85 illiyi (1930-1984)



**Dərgahov Faiq Feyruz oğlu – nasir, 1976-cı ildən Azərbaycan Yazıçılar birliyinin üzvü, Jurnalistlər birliyinin üzvü (1965).**
1930-cu il yanvarın 9-da Azərbaycanın Cəbrayıl rayonunda qulluqçu ailəsində doğulmuşdur. Beyləqan rayonunda orta məktəbdə tədris hissə üzrə müdir (1953-1955), Maarif şöbəsində metodik kabinetin müdiri (1955-1957), "Abşeron" qəzeti redaksiyasında redaktor müavini (1962-1966), məsul redaktor (1966-1974) işləmişdir. Ədəbi yaradıcılığa orta məktəbdə ikən başlamış, felyetonlarını "Lenin bayrağı" adlı Beyləqan rayon qəzetində dərc etdirmişdir. "Kömək" adlı ilk hekayəsi 1951-ci ildə "Pioner" jurnalında çapdan çıxmışdır. 1984-cü il oktyabrın 15-də vəfat etmişdir.
**Əsərləri:** "Səhər açılır" (1959), "Ata laylası" (1965), "Şəhid çinar" (1969), "Yollarda bahar" (1971), "Yay yağışı" (1972), "İydə ağacı" (1982) və s**.**
**Filmoqrafiya**
Azərbaycanda qoyunçuluq (film, 1982)
Buxarlanan vədlər (film, 1980)
Xaldanda görüş (film, 1980)
Qız Qalası əfsanəsi (film, 1978)
Nəğməkar torpaq (film, 1981)
Təsərrüfatlararası birlik (film, 1981)
Yüksək məhsuldar zebu hibridləri (film, 1983)

**10. Şairə Firuzə Məmmədlinin anadan olmasının 75 illiyi (1940)**

***“Firuzə Məmmədli yaradıcılıq etibarı ilə gəncləşən bir şairədir.”***

**Xalq şairi Fikrət Qoca**



**Məmmədova Firuzə Nurəddin qızı — şair, tərcüməçi, 1983-cü idən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1980).**

Firuzə Məmmədli 1940-cı il yanvarın 10-da Xaçmaz rayonunun Canaxır kəndində anadan olmuşdur. Orada Hülövlü kənd orta məktəbini gümüş medalla bitirəndən sonra Quba şəhər tibb məktəbində təhsil almışdır (1963). APİ-nin dil və ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə başa vurmuşdur (1964-1968). İnstitutun Naxçıvan filialında, eyni zamanda Naxçıvan pedoqoji məktəbində çalışmışdır. Sonra APİ-nin Azərbaycan dilçiliyi kafedrasına dəyişdirilmişdir (1970). Həmin vaxtdan orada Azərbaycan dilini tədris edir. "Vahid Azərbaycan" uğrunda mübarizəyə qoşulduğuna görə (1 repressiya və təqiblərə məruz qalmışdır (1969). Azərbaycan dili kafedrasının dosenti olmuşdur. (1990-cı ildən). Həm də Azərbaycan Yazıçılar Birliyində Həmkarlar Komitəsinin sədridir (1995-ci ildən). Azərbaybaycan LKGİ MK-nın ştatdankənar təlimatçısı (1973-1" APİ-nin partiya komitəsi yanında qadınlarla iş aparan komissiyanın üzvü (1975-1980) olmuşdur. "Yusif Vəzir Çəmənzəminlinin tarixi romanlarının dil və üslub xüsusiyyətləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Ədəbi fəaliyyətə 1963-cü ildə Xaçmaz rayonunun "Dostluq" qəzetində çıxan "Ay həkim" adlı şeirilə başlamışdır. Ondan sonra dövri mətbuatda öz lirik şeirlərilə vaxtaşırı çıxış etmişdir. 60-dan artıq elmi, tənqidi və publisist məqalə yazmışdır. "Bədii dilin mənbələri" monoqrafiyasını başa çatdırmışdır. Tərcümə etdiyi özbək uşaq hekayələri "Dost əlini uzatsa" (1990) kitabında dərc olunmuşdur.

**Mükafatları:**

Türkiyədə Bursa şəhərində keçirilən Uluslararası şeir şöləsinin (festivalının) Əlişir Nəvai mükafatına (1992), Bakı şəhərində keçirilən şeir müsabiqəsində İsa İsmayılzadə mükafatına (2000) layiq görülmüşdür.

**Əsərləri**

1.Gümüşü damla. - Bakı: Gənclik, 1972. - 48 s.
2.Yoluma bahar düşüb. - Bakı: Gənclik, 1978. - 56 səh.
3.Sənin ömrün. - Bakı: Yazıçı, 1982. - 60 səh.
4.Yetkinlik. - Bakı: Yazıçı, 1989. - 192 səh.
5.Bir qarış ucalıq. - Bakı: Gənclik, 1995. - 165 səh.
6.Bədii dilin estetik mənbələri. - Bakı: APİ-nin nəşriyyatı, 1997.
7.Məni mənlə bölən dünya. - Bakı: Gənclik, 1999. - 270 səh.
8.Seçilmiş əsərlər : iki cilddə. I cild. - Bakı:, Nurlan, 2002. - 433 səh.
9.Seçilmiş əsərlər : iki cilddə. II cild. - Bakı:, Nurlan, 2002. - 446 səh.

## 12. Şair Əlisoltanın anadan olmasının 90 illiyi (1925-1982)



**Ağəliyev Əlisoltan Camal oğlu şair, 1950- ci ildən Azərbaycan Yazıçılar birliyinin üzvüdir.**
1925-ci il yanvarın 12-də Quba rayonunun Susay kəndində kolxozçu ailəsində anadan olmuşdur. İbtidai təhsilini Xudat rayonunun Xudat kəndində almış, Quba şəhərində pedoqoji məktəbdə təhsilini davam etdirmişdir. Buranı 1943-cü ildə bitirmiş, bir il Xaçmaz rayonunun Seyidli kəndində müəllim olmuş, sonra ADU – nun şərqşunaslıq fakultəsinə daxil olmuşdur. 1948-ci ildə Azərbaycan Elmlər Akademiyasının Nizami adına Dil və Ədəbiyyat İnstitutunda biblioqraf vəzifəsində işləmişdir. 1950-ci ildə universiteti bitirdikdən sonra elmi-tədqiqat instutunda kiçik elmi işçi vəzifəsinə dəyişdirilmişdir. “Azərbaycan gəncləri” qəzetinin ştatdankənar müxbiri kimi fəaliyyət göstərmiş, müasir əmək qəhrəmanlarından bəhs edən oçerk, məqalə və rus ədəbiyyatından tərcümələr çap etmişdir. Ədəbi yaradıcılığa 1940-cı illərdən başlamış, “Arzu gülü” adlı ilk şeiri “Kommunist” qəzetinin 12 iyul 1946-cı il tarixli sayında dərc edilmişdir.
1982-ci il noyabrın 24-də 57 yaşında Bakıda vəfat etmişdir.

**Əsərləri:**
“Toy paltarı” (1950), ”Şeirlər” (1956), ”Yaşıl işıqlar” (1956), ”Tellər “ (1965), ”Xəzər duyğuları” (1973), ”Qayıtmaq?.. mümkündür!” (1974), “Bir dəstə bənövşə” (1980), ”Yaşadaq eşqimizi” (1981) və s.

**Fransız yazıçısı, əslən azərbaycanlı Üm-əl Banin (Ümbülbanu Şəmsi qızı Əsədullayeva) anadan olmasının 110 illiyi (1905-1994)**



Məşhur Azərbaycan milyonçuları Şəmsi Əsədullayevin və Musa Nağıyevin nəvəsi, Azərbaycan Demokratik Respublikasının nazirlərindən biri, milyonçu Mirzə Əsədullayevin qızı olan Ümmülbanu 1905-ci ilin yanvar ayında anadan olub.

**Yaradıcılığı:**

1946-cı ildə dərc olunan "Qafqaz günləri" kitabı Baninə müvəffəqiyyət qazandırır. Kitab işıq üzü gördükdən sonra Andre Marlo, İvan Bunin, Mikos Kazaçakis, Anri Monterlen, Ernst Yungen və başqaları Baninə riqqətli məktublar yazırlar. 2 dünya müharibəsinin iştirakçısı, alman yazıçısı və filosofu Ernst Yungenlə Baninin dostluğu yarım əsrdən çox davam edib. Banin Yungenə bir neçə kitab həsr edib. Onlar 1943-cü ildə Baninin Azərbaycanda sosial düzümün faciəsini özündə əks etdirən "Bizimlə" romanı işıq üzü gördükdən sonra tanış olublar. Romanın təəssüratı altında olan Yungen Baninə zəng vurur, özünü təqdim edir, növbəti gün isə cazibədar azərbaycanlı yazıçı ilə tanış olmaq üçün onun evinə görüşə gedir. Baninə şöhrət gətirən "Qafqaz günləri" kitabından sonra onun "Paris günləri" (1947), "Ernst Yungenlə görüş" (1951), "Mən tiryəki seçdim" (1959), "Sonra" (1961), "Xarici Fransa" (1968), "Ernst Yungenin portreti" (1971), "Ernst Yungen müxtəlif sifətlərdə" (1989) romanları geniş oxucu kütləsi qazanır. Baninin sonuncu dərc olunmuş kitabı – "Mariya mənə nə danışdı" romanı 1991-ci ildə ölümündən 1 il əvvəl işıq üzü görüb.Banin Fransada təkcə romanları ilə deyil, həm də rus, ingilis, alman dillərindən gözəl bədii ədəbiyyat tərcüməçisi kimi məşhur idi. Banin Buninin və Dostoyevskinin yaradıcılığının ən yaxşı bilicilərindən biri sayılırdı. Baninin yaxın rəfiqəsi rus imperator sarayının freylini, Romanovlar ailəsinin yaxını Canet Andronikova olur. Onun digər rəfiqəsi isə Rusiyada məşhur olan yazıçı-satirik Teffi idi. Məhz Teffinin yanında Ümmülbanu bir çox məşhur rus yazıçıları ilə, xüsusilə də İvan Buninlə tanış olur.O, özünün azərbaycanlı mənşəyi ilə həmişə fəxr edərmiş. Dini "xalq üçün tiryək adlandıran" bolşeviklərə cavab olaraq Banin "Mən tiryəki seçdim" kitabını yazır. Fransız ədəbiyyatına qaynayıb-qarışmasına baxmayaraq, Banin öz xalqını heç vaxt yaddan çıxarmazdı. O, Dağlıq Qarabağda baş verən hadisələrdən olduqca dərin həyəcan keçirərdi. Banin Parisdə "Azərbaycan evi" assosiasiyasının üzvü idi. O, Fransanın kütləvi informasiya vasitələrində mütəmadi olaraq Qarabağ hadisələrində öz xalqını müdafiə edən məqalələrlə çıxış edirdi. 1992-ci il oktyabrın 29-da Fransanın "Fiqaro" qəzeti ölkəni sarsıdacaq bir məlumat yayır: "İlk fransızdilli azərbaycanlı yazıçı Banin vəfat edib....

## 19. Şair Tahir  Taisoğlunun anadan olmasının 65 illiyi (1950)

***"Tahir Taisoğlunun yaradıcılığı Azərbaycan klassik şeiri və folkloru ilə bağlılığını nəzərə çarpdırır, bu şeirlərdə ağılla hissin, reallıqla romantikanın yanaşı addımladığını görürsən. Onun şeirlərində özünəməxsusluq, yeni təfəkkür tərzi vardır."***

**Elçin Əfəndiyev**



**Məmmədov Tahir Tais oğlu şair, publisist, 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1981), Siyasi elmlər namizədi (2008).**

1950-ci il yanvarın 19-da Azərbaycanda Şamaxı şəhərində anadan olmuşdur. Poeziya aləmində lap cavankən tanınmaq, bir anda ədəbi ictimaiyyətin nəzər və diqqətini özünə cəlb etmək hər şairə qismət olmur. Beləlİəri xüsusi istedada malik insanlardır.1969-cu ildə 19 yaşlı cavan bir şairin – Şamaxı Kənd Təsərrüfatı Texnikumunu yenicə bitirmiş Tahir Tais oğlu Məmmədovun "Gənclik" nəşriyyatı tərəfindən ilk şeirlər kitabı – "Tumurcuq" çapdan çıxır. O dövrdə belə erkən kitab çap elətdirmək doğrudan da çoxlarını təəccübləndirmişdi. "Tumurcuq" müəllifi Tahir Taisoğlu – o zamankı on doqquz yaşlı gənc idi. Tahir Qorki adına Dünya Ədəbiyyatı İnstitutunu bitirib, müxtəlif redaksiyalarda, radioda, televiziyada çalışıb, indi özü qəzet redaktorudur.Tahir Taisoğlu poetik istedadını qorudu, dünya ədəbiyyatını, xüsusilə, rus poeziyasını mütaliədən yorulmadı, həmişə də Azərbaycanın ünlü şairləri ilə ünsiyyətdə oldu. Xüsusilə, böyük şairimiz Rəsul Rzanın qayğısını üzərində hiss etdi.. Tahir Taisoğlu sayı az cavan şairlərimizdən idi ki, rus ədəbi dərgilərində, toplularda şeirləri çap olunurdu. "Molodaya qvardiya" nəşriyyatının "İstoki" adlı 414 səhifəlik bir almanaxında  iki Azərbaycan şairinin Tahir Aslanlının və Tahir Taisoğlunun şeirləri təqdim edilir. Tahir Taisoğlunun lk şeirlər kitabı olan – "Tumurcuq"- da 24 şeir toplanmışdı. Tahirin o kitabda toplanan şeirləri 60-70-ci illər cavan Azərbaycan poeziyasının novatorluq axtarışlarını ifadə edirdi. İlk kitabında belə Tahir özünəməxsus bədii obrazlar, təsvir vasitələrinin təzəliyilə diqqəti cəlb etdi.

**Əsərləri**: "Tumurcuq" (şeirlər) (1969), "Çayları küləklər aparır" (1978), "Sulara nəfəs gəlib" (1980), "Ulduzların atası" (şeirlər və poemalar) (1991), "Böyük vətəndaş haqqında Oda" (1996), "Yol ağardıram" (şeirlər) (1999), "Gələcəyi görən insan" (2000), "Gözümün görəcəyi" (2002) və s.

**21. Şair Zəlimxan Yaqubun anadan olmasının 65 illiyi (1950)**

***“Zəlimxanın şeirləri, əsasən xalqımızın həyatından, məişət ənənələrindən, onun yaradıcılığından, şeir dilindən qidalanır.”***

**Yazıçı Osman Sarıvəlli**



**Azərbaycanın xalq şairi, ictimai xadim, Məmməd Araz ədəbi mükafatı ilə (1995), "Şair harayı", "Vətən yaralar", "Sizi qınamıram" və "Ziyarətin qəbul olsun" kitabına görə H.Z.Tağıyev adına mükafatla (1995), “Şöhrət” ordeni və Gürcüstan Respublikasının "Şərəf" ordeni ilə təltif edilmişdir. 1983-cü ildən AYB-nın üzvüdür. 2005-ci ildə "Azərbaycanın xalq şairi" fəxri adına layiq görülüb.**

2008-ci il avqust ayının 29-da Azərbaycan aşıqlarının V qurultayında Azərbaycan Aşıqlar Birliyinin sədri seçilib.1994-cü ildən Azərbaycan Respublika Prezidenti yanında Əfv Komissiyasının üzvüdür. 2009-cu il iyunun 6-da Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının "Türk dünyasına hizmət" mükafatına layiq görülərək həmin Akademiyanın fəxri doktoru seçilib. Zəlimxan Yaqubun görkəmli dövlət xadimi Heydər Əliyevə ithaf etdiyi “Əbədiyyət dastanı” poeması haqqında şair-publisist Əli Rza Xələfli “Ölməzlik nəğməsi” adlı kitab yazmış və nəfis tərtibatda çap etdirmişdir. 5 oktyabr 2012-ci ildə Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən Azərbaycan Nyu-York Assosiasiyası xalq şairini Fəxri diplom və medalla təltif edib. Ankaradakı Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının Beynəlxalq Ödül Komitəsinin 7 fevral 2014-cü il tarixli qərarıyla Azərbaycanın xalq şairi Zəlimxan Yaqub Türk ədəbiyyatına yüksək xidmətlərinə görə "NAZİM HİKMƏT" Beynəlxalq Ədəbiyyat Ödülü ilə təltif olunub. 1950-ci il yanvarın 21-də Borçalının Bolnisi rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsini bitirmişdir (1967-1972). 1995-2005-ci illərdə Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur.

**Kitabları:**”Od aldığım ocaqlar” (1986), “Mən sənin qəlbinə necə yol tapım” (2003), “Böyük ömrün dastanı” (2004), “Qayıdaq əvvəlki xatirələrə” (2004), “Gözlərimin nurudu doğulduğum bu torpaq” (2005), “Mən bir dağ çayıyam” (2006), “Əbədiyyət dastanı” (2008), “Сказы саза” (2008), “Peyğəmbər” (poema) (2009), “Mən öz dastanımı yazıb gəlmişəm (2009), “Özün basdırdığın ağaca söykən” (I cild) (2010), “Özün basdırdığın ağaca söykən” (II cild) (2010) və s.

**23. Şair, dramaturq Cahangir Məmmədlinin anadan olmasının 80 illiyi (1935)**

***"Cahangir müəllim tələbələrinə ən yaxın dost, ustad, sirdaşdır."***

**Jurnalist Rauf Ağayev**




**Məmmədov Cahangir Atakişi oğlu şair, dramaturq, 1969 – cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü. "Əmək igidliyinə görə" medalı ilə təltif edilmişdir(1967)**

1935 - ci il yanvarın 23 - də Bakı şəhərində anadan olmuşdur. İlk şeirini orta məktəbin 4- cü sinfində oxuyarkən yazmış, "Pioner" jurnalının 1949-cu il tarixli sayında çap olunmuşdur. Sevil Qazıyevaya həsr etdiyi "Dan ulduzu" adlı pyesi isə onun ilk səhnə əsəridir. Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunun dramaturgiya şöbəsini bitirmişdir (1962). "Nəsimi folklor teatrı"- nın yaradıcısı, bədii rəhbəri və direktoru olmuşdur (1984-1992). Hazırda "Səhnə" qəzetinin baş redaktoru (1992- ci ildən), eyni zamanda Ş. Qurbanov adına Musiqili Komediya Teatrının ədəbi hissə müdiridir (1994- cü ildən)."Günəş" və "Müqəssirlər" dram əsərləri ən yaxşı pyeslər müsabiqəsində mükafata layiq görülmüşdür(1955). Onun "Dan ulduzu", "Həyatın astanasında", "Qaçırılmış qız", "Həyətim mənim-həyatım mənim", "Zəncirlənmiş Prometey", "Ceyran bulağı", "Ay qız, kimin qızısan", "Sevməyə vətən yaxşı" pyesləri respublika teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur(1967-1982). **Əsərləri:** "Kukla" (1961), "Ay mişar, tələs mişar" (1964), "Əbədi heykəl" (1964), "Heç belə də dost olar" (1972), "Mənim özbək qardaşım" (1977)

"Təkərli məktəb" (1979), "Günəşin nağılı" (1985) və s.

## 23. Şair Asif Quliyevin 60 illiyi (1955)



**Asif Asiman (tam adı: Asif Məhəmmədəli oğlu Quliyev; doğum yeri Disər, Ordubad, Naxçıvan MSSR, Azərbaycan SSR, SSRİ) — şair, yazıçı, publisist; Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**

23 yanvar 1955-ci ildə Ordubad rayonunun Disər (indiki Başkənd) kəndində müəllim ailəsində anadan olmuşdur. Orta təhsilini Əvəz Sadıq adına Vənənd kənd orta məktəbində 1972-ci ildə başa vurmuş, elə həmin ildə də Bakı Politexnik Texnikumuna daxil olmuşdur. Oradan da birbaşa Ukrayna SSR-in Vinitsa vilayətinə hərbi xidmətə yola düşmüşdür. Hərbi xidməti 1975-ci ildə başa vurduqdan sonra Bakıya qayıtmış və təhsilini davam etdirmişdir. 1977-ci ilin may ayında gənc mütəxəssis kimi Sumqayıtda yerləşən Azərboru zavoduna təyinatla göndərilmişdir. İstehsalatdan ayrılmadan 1987, 1988, 1989-cu illərdə Azərbaycan Jurnalistika Sənətkarlığı İnstitutunda təhsil almışdır.1986-1994-cü illərdə 49 nömrəli (indiki 4 nömrəli) Texniki Peşə Liseyində istehsalat təlimi ustası işləmişdir. 1994-cü ildən bu günədək Sumqayıt şəhər 9 nömrəli tam orta məktəbdə əmək təlimi müəllimi kimi çalışmaqdadır. Eyni zamanda "Yeganə yol" və "Məslək" qəzetlərinin xüsusi müxbiridir. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Bədii yaradıcılığa orta məktəb illərində başlamışdır. İlkin publisistik fəaliyyəti dövründə "Yeni Ordubad", "Yeni həyat", "Sovet Naxçıvanı", "Sosialist Sumqayıtı" qəzetləri ilə əməkdaşlıq etmişdir.

**Kitabları:**

Ürəkdə od varsa. – Bakı :İrşad, 1992. - 112 s. - (azərb.)
Bu da bir taledi. – Bakı : Sabah, 1997. - 143 s. (azərb.)
Ömrümə-günümə açılan yollar. – Bakı : Nurlan, 2002. - 211 s. (azərb.)
Bitməyəcək ölənəcən bu sevdam. – Bakı :Adiloğlu, 2004. - 115 səhifə; (azərb.)
Unutsaq unudularıq. – Bakı : Adiloğlu, 2006. - 107 s. (azərb.)
Mənim Dəniz sevgim. – Bakı : Dərələyəz-M, 2009. - 271 s. (azərb.)
Biz niyə vaxtında görüşməmişik... – Sumqayıt : Bilik, 2014. - 152 s. (azərb.)

**24. Tənqidçi Məmmədkazım Ələkbərlinin anadan olmasının 110 illiyi**

***Zəngin ədəbi irsə mənsub olan Məmməd Kazım mətbuat səhifələrində həm istedadlı publisist, həm də obyektiv tənqidçi kimi çıxış edirdi. Onun haqqında araşdırmalar aparanlar Məmməd Kazımı filosof-ədəbiyyatçı, alovlu publisist kimi dəyərləndirirdilər***.



**Məmmədkazım Ələkbərzadə (1905-1938) — yazıçı, tənqidçi, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü.**

Məmməd Kazım Ələkbərli 1905-ci il yanvarın 24-də Dərbənd şəhərində anadan olmuşdur. Bakıda, APİ-nin dil və ədəbiyyat fakültəsində təhsil almışdır (1923-1927). Moskvada Qırmızı professorlar (1930-1934) institutunda təhsilini davam etdirmişdir. ADU-nun rektoru, müxtəlif illərdə AYİ idarə heyətinin sədri, Azərbaycan KP MK yanında «Kommunist» nəşriyyatının direktoru, «Ədəbiyyat qəzeti», «Bakinski raboçi», «Vışka» qəzetlərində baş redaktor olmuşdur. «İdealizm və materializm və yaxud yeni fəlsəfə» (1927), «Yeni əlifba və orfoqrafiya» (1929), «Azərbaycan ədəbiyyatı» (1935) kitablarının müəllifi olmuşdur.1938-ci ildə cəza təqdirləri dövründə güllələnmişdir. Orta məktəbi doğma şəhərdə bitirdikdən sonra Bakıya gələrək Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində təhsil almışdır. Hələ gənc yaşlarında partiya və sovet rəhbərləri ona inam göstərərək məsul vəzifələr etibar edirdilər. Moskvada Qırmızı Professorlar İnstitutunda 5 il təhsil aldıqdan sonra onu Azərbaycana partiya işinə göndəriblər. Hətta bir müddət Azərbaycan Dövlət Universitetinin rektoru olub. Yazıçılar İttifaqı yaranan kimi ona rəhbərlik də Məmməd Kazım Ələkbərliyə etibar edilib. Məmməd Kazım Ələkbərli həm görkəmli mətbuat işçisi, həm də ədəbiyyatşünaslıqla məşğul olan tədqiqatçı idi. Məmməd Kazım Ələkbərlinin 1935-ci ildə çap edilmiş "Azərbaycan ədəbiyyatı" adlı əsərində ədəbiyyatımızın tarixinə, ayrı-ayrı dövrlərinə, konkret insanların yaradıcılığı ilə bağlı müxtəlif fikirlərə rast gəlinir. Repressiyanın dalğaları Məmməd Kazım Ələkbərlini də apardı. Bir neçə il sürən çək-çevirdən, şər-şamatadan sonra 1938-ci ildə güllələnmişdi. Cəmi 33 il yaşamış Məmməd Kazım Ələkbərli Azərbaycan ədəbiyyatının inkişafı üçün cani-dildən çalışan, dəyanət və təmkini ilə seçilən qələm sahiblərindən biri olmuşdur.

**Əsərləri:** “İdealizm və materializm və yaxud yeni fəlsəfə” (1927), “Yeni əlifba və orfoqrafiya” (1929), “Azərbaycan ədəbiyyatı” (1935)

**26. Şair Akif Məhərrəmovun anadan olmasının 60 illiyi (1955)**



**Məhərrəmov Akif Məşədi Hüseynqulu oğlu – şair, 2002 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü(2009). Ədəbi mükafatlara layiq görülmüşdür.**

1955 - ci il yanvarın 26 - da Azərbaycanda Ağstafa rayonunun Yuxarı Göyçəli kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət İnşaat Mühəndisləri İnstitutunun inşaat fakultəsində təhsil almışdır(1972-1977). İnşaat mühəndisi kimi çalışır. Bədii yaradıcılığa gənclik dövründən həvəs göstərmişdir. Dövri mətbuatda lirik şeirlər və bayatılarla çıxış etmişdir. Şeirlərinə mahnı bəstələnmişdir. **Əsərləri:** “Sən adını qoru, ömür Allahındır” (2001),“Əzizim yolum haqqa” (2001), ”Tale deyən bu dünyada nə var ki,” (2002), “Nə mən dünyadayam, nə dünya məndə” (2002) və s.

**28.Yazıçı, tərcüməçi Adil Qafarın (Babayevin) anadan olmasının 90 illiyi**

***“Adil Babayev vaxtı qiymətləndirməyi bacaran yazıçı idi. O,dramaturgiya və kino sənəti problemlərinə dair çoxlu məqalələrini qələmə almaqla milli teatrın inkişafına kömək etmişdir.”***

**Jurnalist Etibar Babayev**



Babayev Adil Qafar oğlu 1925-ci il yanvarın 28-də Naxçıvan şəhərində anadan olmuşdur. 1931-1938-ci illərdə orada 1 nömrəli orta məktəbin yeddinci sinfini bitirmiş, Tbilisi şəhərində M.F.Axundov adına Azərbaycan orta məktəbində təhsilini davam etdirmişdir. 1943-cü ildə Tbilisidə A.S.Puşkin adına İkiillik Müəllimlər İnstitutunun ədəbiyyat fakültəsinə daxil olmuş, eyni zamanda "Sovet Gürcüstanı" qəzeti redaksiyasında ədəbiyyat şöbəsinə rəhbərlik etmişdir. Ədəbi yaradıcılığa 1939-cu ildən başlamışdır. 1941-ci ildə "Sevinc" əsərinə görə "Sovet Gürcüstanı" qəzeti redaksiyası müsabiqəsində 2-ci mükafata layiq görülmüşdür. 1950-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq fakültəsini bitirmiş, sonra bir müddət Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat şöbəsinin redaktoru işləmişdir. 1956-1958-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının İncəsənət və Layihə İnstitutunun aspiranturasında təhsil almışdır. O, teatrşünas kimi teatr sənəti ilə sıx

bağlı olmuş "M.Əzizbəyov adına teatr" (Moskva, 1959), "Şərəfli yol" (1974) monoqrafiyalarını və ədəbiyyatşünaslıq, Eyni zamanda M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının ədəbi hissə müdiri olmuş (1956-1964), sonra "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında tənqid şöbəsinin müdiri, məsul katib və baş redaktorun müavini vəzifələrində işləmişdir. 1971-ci ilin avqust ayından ömrünün son gününədək Azərbaycan Yazıçılar İttifaqında bədii tərcümə üzrə məsləhətçi olmuşdur. Onun bədii yaradıcılığı çoxcəhətlidir: "Dağlar qızı", "Yarımçıq portret", "Mənim məhəbbətim", "Qız görüşə tələsir" pyesləri teatr səhnələrində tamaşaya qoyulmuş əsərləri xarici dillərə və SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. Onun yaradıcılığında tərcümə xüsusi yer tutur. Dünya və qardaş xalqlar ədəbiyyatından çoxlu tərcümələr etmişdir. Onun tərcümə etdiyi — V.Vinnikov və Y.Osnosun "Ağ şanaküllə" (1959), Sao-Yuyyanın "Tufan" (1959), Ş.Miloravanın "Tbilisi Haqqında mahnı" (1961), N. Dumbadzenin "Darıxma, ana" (1972), M. Petrieskunun "Ölümü görmüş insan" (1973) pyesləri tamaşaya qoyulmuşdur. 1977-ci il avqustun 19-da Bakıda vəfat etmişdir.

**Kitabları:**

İkinci simfoniya : poema. - Bakı: Uşaqgəncnəşr, 1947. - 34 s.
Ürək nəğməsi. - Bakı: Uşaqgəncnəşr, 1948.- 48 s.
İlk addımlar. - Bakı: Azərnəşr, 1949. - 40 s.
Xəzər sahillərində. - Bakı: Uşaqgəncnəşr, 1949. - 43 s.
Gənclik illəri. - Bakı: Uşaqgəncnəşr, 1950. - 41 s.
Şeirlər. - Bakı: Azərnəşr, 1954. - 44 s.
Döyüş yollarında : poema. - Bakı: Uşaqgəncnəşr, 1956. - 122 s.
Ana ürəyi. - Bakı: Azərnəşr, 1957. - 119 s.
Unudulmuş yasəmən. - Bakı: Uşaqgəncnəşr, 1960. - 139 s.
Anamın üzüyü. - Bakı: Azərnəşr, 1963. - 38 s.
Gecikmiş bahar. - Bakı: Azərnəşr, 1965. - 152 s.
Qılınclar arasında. –Bakı : Gənclik, 1969. - 83 s.
Şəhidlərin üsyanı. – Bakı : Azərnəşr, 1969. - 124 s.
Leyla Bədirbəyli. – Bakı : Azərnəşr, 1970, 81 s.
Memarın məhəbbəti. – Bakı : Gənclik, 1972. - 84 s.
Şərəfli yol. - Bakı: Azərnəşr, 1974. - 154 s. (şərikli)
Yolda görüş. - Bakı: Gənclik, 1974. - 335 s.
Ağahüseyn Cavadov. - Bakı: İşıq, 1976. - 41 s.
Ümid sərvləri. - Bakı: Azərnəşr, 1977. - 189 s.
Mənim abidəm. - Bakı: Gənclik, 1979. - 212 s.
Təzədən doğulur şair ölən gün. - Bakı: Gənclik, 1981. - 202 s.
Pyeslər. - Bakı: Yazıçı, 1984. - 253 s.
Ata sorağında : hekayələr. - Bakı: Gənclik, 1985. - 120 s.

**29. Yazıçı Xeyrəddin Qocanın anadan olmasının 65 illiyi (1950)**

***"Satirik olmaq cəsur olmaqdır, heç nədən qorxmamaqdır. Bu gün həyatımızda olan bir çox nöqsanları görmək və göstərmək böyük cəsarətdir. Xeyrəddin Qoca bu yazıçılardandır."***

**Xalq yazıçısı Anar**



**Mədəniyyət və incəsənət sahələrində böyük xidmətlərinə görə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür. 1995-ci ildə 1-ci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.1997-ci ilin dekabrından 2003-cü ilin mart ayına qədər Türkiyə Cümhuriyyətinin Istanbul şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsində işləmişdir. Ona 1ci- dərəcəli Fövqəladə və Səlahiyyətli Elçi rütbəsi verilmişdir.**

**Azərbaycan Jurnalistlər İttifaqı (1979) və Yazıçılar Birliyinin üzvüdür (1996). Azərbaycan Yazıçılar Birliyi Ədəbiyyat Fondunun İdarə Heyətinin üzvüdür (2008).**

Xeyrəddin Qoca 29 yanvar 1950-ci ildə Ağdaş rayonunun Qulbəndə kəndində müəllim ailəsində anadan olmuşdur. 1967-ci ildə rayonun Qəsil kənd orta məktəbini bitirdikdən sonra N.Tusi adına Pedaqoji Universitetə qəbul olmuş, 1971-ci ildə ali məktəbi bitirmişdir. 1975-1977-ci illərdə Jurnalist Sənətkarlığı İnstitutunda təhsil almışdır. Ordu sıralarında xidməti borcunu yerinə yetirdikdən sonra (1971) uzun müddət qəzet-jurnal redaksiyalarında, Dövlət Televiziya və Radio Verilişləri Şirkətində müxtəlif vəzifələrdə işləmişdir. "Politexnik" qəzetində müxbir (1974-1977), Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ştatdankənar müxbir (1977-1978, 1982-1985), Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Sosialist qanunçuluğu" jurnalında böyük redaktor (1978-1982), "Dan ulduzu" qəzetində baş redaktor (1987-1991), "Mədəniyyət" qəzetində baş müxbir (1991-1991), "Şeytan" jurnalında müxbir (1991-1992, 1993), "Açıq söz" qəzetində redaktor müavini (1992), "Mozalan" qəzetində redaktor müavini (1992-1993), "Yeni Azərbaycan" qəzetində baş redaktor (1993-1997) vəzifəsində çalışmışdır. X.Qocanın jurnalistikanın müxtəlif janrlarında minlərlə yazısı respublikamızda və xaricdə çıxan 100-dən çox müxtəlif adda qəzet və jurnallarda dərc edilmişdir. Yazıçı - satirik "Filankəslər" (1995), "Hərə öz payını götürsün" (1998), "Marallar" (2000), Türkiyədə nəşr olunmuş "Bu dünyadan məktublar" (2002), "Gərək yazam..." (2003), "Hərənin öz payı" (iki hissəli satirik komediya) (2003), "Pyeslər " (2004), "Bu da belə həyatdır..." (2008), "Biz bizə bənzərik..."

(2010) adlı kitabların müəllifidir. O, böyük türk satiriki Əziz Nesinin bir sıra əsərlərini dilimizə çevirmişdir. Dramaturqun Akademik Milli Dram Teatrında "Hərənin öz payı..." adlı iki hissəli satirik komediyası tamaşaya qoyulmuşdur (2002). Onun "Qonşulaşma, qohumlaşma, kirvələşmə" adlı komediyası Azərbaycan Dövlət Televiziyasında ekran həyatı tapmışdır (2004). "Düzü-düz, əyrini-əyri" (2006), "Bu bizim zamanədir" (2007), "Toy olacaq..." (2008) adlı pyesləri Azərbaycan Milli radiosunun tamaşaları kimi efirdə səslənilmişdir. Ədibin həyat və yaradıcılığına həsr olunmuş "Xeyrəddin Qoca" (foto-kitab) (2000) və "Ömür belə keçir..." (2004) adlı kitabları nəşr olunmuşdur. "Çinar-çap" nəşriyyatı "Xeyrəddin Qocanın gülüşü" adlı miniatür kitab buraxmışdır (2007). İctimai Televiziya yazıçı haqqında "Ömür belə keçir..." adlı film çəkmişdir (2009). Heydər Əliyev Sarayında Azərbaycanda ilk dəfə "Bilirəm, səsim xoşunuza gəlməyəcək..." adlı satira gecəsi keçirmişdir (avqust 2003). O, uzun müddət Moskvada çıxan "Trud" qəzetinin ictimai müxbiri olmuş, qəzetin işində fəal iştirakına görə Fəxri Fərmanla təltif olunmuş (1986), Azərbaycan Kütləvi İnformasiya Vasitələri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə Azərbaycan demokratik mətbuatının təşəkkülündə görkəmli xidmətlərinə görə "Qızıl qələm" (1994) mükafatına layiq görülmüşdür. Azərbaycan Mətbuat Fondunun "Dan ulduzu" (1995) mükafatını almışdır. Mətbuatda uzun müddətli səmərəli fəaliyyətinə, ədəbi-bədii, publisistik yazılarında vətəndaşlıq mövqeyinə, satira və yumor janrındakı kitablarına görə "Araz" Ali Ədəbi Mükafatı (2001) ilə təltif olunmuşdur. "Pyeslər " kitabında, "Hərənin öz payı...", "Qonşulaşma, qohumlaşma, kirvələşmə", "Bu bizim zəmanədir..." kimi dram əsərlərində ictimai problemləri işıqlandırdığına, güclü satirik-yumoristik təhkiyəsinə, özünəməxsus üslubuna, estetik-sənət axtarışlarına görə Bakı Kitab Bayramında Milli Kulturoloji mükafat-Diplom almışdır ( 2005).

**Kitabları**: "Filankəslər" (1995),"Hərə öz payını götürsün" (1998),"Marallar" (2000), "Bu dünyadan məktublar" (2002), (Türkiyədə nəşr olunub),"Gərək yazam..." (2003),"Hərənin öz payı" (iki hissəli satirik komediya) (2003),"Pyeslər " (2004),"Bu da belə həyatdır..." (2008),"Biz bizə bənzərik..." (2010), "Araz" (2001), "Pyeslər ","Hərənin öz payı...", "Qonşulaşma, qohumlaşma, kirvələşmə", "Bu bizim zəmanədir..." və s.

# Xarici ədəbiyyat

## 29. Rus yazıçısı Anton Çexovun anadan olmasının 155 illiyi (1860- 1904)

***"Cexovun həm yaradıcılığı, həm də həyatı bizim üçün bir məktəbdir."***

**Yazıçı Sabit Rəhman**

**"*Əgər bütün rus ədəbiyyatı təsadüf ucbatından yoxa çıxsaydı və təkcə Çexovun hekayələri qalsaydı, bunlar əsl rus həyatı barədə bütün dünya xalqlarında aydın təsəvvür yaratmaq üçün kifayət edərdi.***

**Yazıçı Lev Tolstoy**



Anton Pavloviç Çexov 29 yanvar 1860-cı ildə anadan olub. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi Lev Tolstoy Çexovun yaradıcılığı haqqında belə deyib: "Əgər bütün rus ədəbiyyatı təsadüf ucbatından yoxa çıxsaydı və təkcə Çexovun hekayələri qalsaydı, bunlar əsl rus həyatı barədə bütün dünya xalqlarında aydın təsəvvür yaratmaq üçün kifayət edərdi".

Dünya ədəbiyyatında əhvalatları və maraqlı yazıları ilə tanınan rus əsilli yazar Anton Pavloviç Çexov 29 yanvar 1860-cı ildə Rusiyanın Taqanroq şəhərində dünyaya gəlib. Əsl peşəsi həkim olub. O, 1979-cu ildə tibb sahəsinin sirlərinə yiyələnmək üçün Moskvaya yollanır. Sənətkar şagirdlik həyatı boyunca ailəsinə kömək edə bilmək üçün həm oxuyub, həm də qəzet və jurnallara yumor xarakterli qısa yazılar göndərib. Çexov tibb təhsilini tamamladığında yazılarıyla çoxdan tanınmış və şöhrət qazanmışdı.

Yazıçının o dövrdə ən məşhur mətbuat orqanlarından biri olan "Yeni Zaman" jurnalının redaktoru ilə yolları kəsişir və təxəllüsdən istifadə etmədən, o, öz adı ilə bir sıra əsərlər yazaraq, mətbuatda təmsil olunmağa başlayır.

Sənətkar bütün əsərlərində insan və zaman paralelini daim qorumağa çalışıb. Yaradıcılığı dövründə yazdığı əsərləri dünyanın 100 dilinə tərcümə olunub. Onun pyesləri arasında **"Çayka", "3 bacı" və "Gilas bağı"** artıq uzun illərdir ki, Böyük Teatr səhnələrində tamaşalara qoyulur. 36 illik yazıçı fəaliyyəti boyunca minə yaxın əsər ərsəyə gətirən, dünya ədəbiyyatına müstəsna təsir göstərən əsərləri Çexovun istedadından xəbər verir.

Böyük şöhrət qazanan əsərlər içərisində "Darıxdırıcı hekayə", "Duel", "6 nömrəli palata"(hekayə), "Naməlum şəxsin hekayəsi" adlı pyeslərini xüsusilə qeyd etmək lazımdır.

1904-cü il iyulun 15-də vəfat edib.

## Fevral

**Əlamətdar tarixi günlər və bayramlar**

Gənclər günü 02.02.

Hərbi Hava Qüvvələri Günü (14.02.1992)

Beynəlxalq ana dili günü (21.02.2000)

**Bu tarixi unutmayaq**

Xocalı faciəsinin 23 - cü ildönümü (26.02.1992)

**Milli qəhrəmanlar zirvəsi**

Milli qəhrəman Seyidov Mirəsgər Mirabdulla oğlunun (06.02.1970-14.06.1992) 45 illik yubileyi

**Folklor**

Aşıq Əsəd Rzayevin (03.02.1875-1904) 140 illik yubileyi

**İncəsənət**

Bəstəkar, xalq artisti Polad Bülbüloğlunun (04.02.1945) 70 illik yubileyi

Xanəndə Əbülhəsənxanın (05.02.1870-1971)145 illik yubileyi

Dirijor, xalq artisti Nazim Rzayevin (14.02.1925) 90 illik yubileyi

**Yubilyar yazıçı və şairlər**

Ədəbiyyatşünas Əziz Mirəhmədovun (11.02.1920-2002) 95 illik yubileyi

Yazıçı Samir Kazımoğlunun (11.02.1950-03.09.1999) 65 illik yubileyi

Yazıçı İntiqam Mehdizadənin (14.02.1945) 70 illik yubileyi

Şair Əhməd Qəşəmoğlunun (15.02.1950) 65 illik yubileyi

Tərcüməçi, publisist Hacı Hacıyevin (18.02.1925-23.02.2008) 90 illik yubileyi

Nasir, publisist Aydın Ağazadənin (20.02.1955) 60 illik yubileyi

## Fevral
### Əlamətdar tarixi günlər və bayramlar

### 2. Ümumrespublika Gənclər günü




***"Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir."***

**Ulu öndər Heydər Əliyev**

***"Gənclik, əlbətdə, başqa nemətdir,***
***Unudulmaz böyük səadətdir..."***

**Hüseyn Cavid**

Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasəti mövcuddur və indi həmin siyasət daha qətiyyətlə həyata keçirilir. Bu gün ölkəmizin hər yerində Azərbaycan gəncləri öz bayramlarını böyük uğurlarla qeyd edirlər.Ulu öndər gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirərək onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verirdi, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirirdi. Gənclər və İdman Nazirliyinin yaradılması, müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 2 fevralın Azərbaycan gəncləri günü elan edilməsi, 5 dövlət proqramının qəbulu, "Dövlət gənclər siyasəti haqqında" fərman və geniş fəaliyyət proqramının təsdiq edilməsi Heydər Əliyevin gənclərə böyük qayğısı idi. Bu, gənclərin respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakına şərait yaradır, habelə dövlət orqanlarının diqqətini gəncliyin problemlərinin həllinə yönəldirdi.Ulu öndərin gəncliyə və gənclərə etimadı indi öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev ulu öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan böyük diqqətin nəticəsidir. Dövlət başçısının gənclərin xaricdə təhsil almasına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaratdı. İndi bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur.Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması da mühüm yer tutur. Dövlət

başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bölgələrdə də olimpiya komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiada və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın sədrliyi ilə keçirilən, dünyanın yüz ölkəsindən beş yüzə yaxın qonağın qatıldığı "Gənclərin Məşğulluq sammiti"nə ev sahibliyi edən Azərbaycan məşğulluq probleminin aradan qaldırılması istiqamətində gördüyü işləri qürurla ortaya qoydu. Bu diqqət gənclərin fəallığını daha da artırır, onları səfərbər edir. İndi ölkəmizdə dövlət qeydiyyatından keçən 170-dən çox gənclər təşkilatı fəaliyyət göstərir, minlərlə gənc lider yetişib. Ölkəmizin aparıcı partiyası olan Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin gördüyü işlər də diqqəti xüsusilə cəlb edir. Azərbaycan gənclərin xarici ölkələrdə təşkilatlanması da uğurla gedir. Bu gün gənclərimiz Avropa və dünyanın otuzdan çox nüfuzlu beynəlxalq gənclər təşkilatında təmsil olunur və bununla da beynəlxalq gənclər hərəkatının fəal tərkib hissəsinə çevrilib. "Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı" isə özünün çoxşaxəli fəaliyyəti ilə onlara əsl nümunə nümayiş etdirir. Qurumun sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə reallaşan layihələr Azərbaycan gəncliyinin Rusiya və dünyadakı maraqlarını layiqincə təmsil edir. Bu təşkilatın istər Azərbaycanda, istər ölkədən kənarda keçirdiyi tədbirlər Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılmasında mühüm rol oynayır. Beləliklə, Azərbaycanda gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

## 14. Hərbi Hava Qüvvələri günü



Azərbaycanın ilk hərbi pilotu Fərrux ağa Qayıbov olub. O, Birinci Dünya Müharibəsində almanlara qarşı keçirilən hava əməliyyatlarında fəal iştirak edib və indiki Belarus ərazisində gedən döyüşlərdən birində həlak olub. Azərbaycanın ikinci müstəqilliyi dövründə-1992-ci ilin aprelin 8-də isə baş leytenant Vaqif Qurbanov keçmiş sovet ordusunun Sitalçay

aerodromundan, "Su-25" döyüş təyyarəsini qaçıraraq Azərbaycan ordusuna gətirir. Bununla da Azərbaycan HHQ ilk qırıcı təyyarənin arsenalını qəbul edib. Az sonra "Nasosnı" – indiki Hacı Zeynalabdin Tağıyev hərbi aviasiya alayının komandiri, polkovnik Vladimir Kravtsov (Azərbaycan HHQ-nin ilk komandanı) və Dəllər aerodromunda xidmət edən polkovnik-leytenant Aleksandr Pleşin səyləri nəticəsində bu bazalardakı sovet aviasiyasına məxsus təyyarələr Azərbaycan ordusunun tabeçiliyinə verilib. 1992-ci ildən Azərbaycanda HHQ ilə bağlı islahatlar dövrü başlanıb. Həmin il bu qurumun strukturu milliləşdirilib. General-mayor Rail Rzayev HHQ-nin komandanı təyin edilib. Bir qədər sonra HHQ Hava Hücumundan Müdafiə Qoşunları ilə birləşdirilib. General-leytenant rütbəsi alan Rail Rzayev Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının (HHQ və HHMQ) komandanı kimi fəaliyyətini davam etdirib.1994-cü ildə - atəşkəs müqaviləsi imzalandıqdan sonra Azərbaycanda başlanan hərbi islahatlar prosesinin özəyini məhz HHQ və HHMQ təşkil edib. Səbəb aydındır – işğal altında olan Azərbaycan əraziləri yüksək relyefə malikdir və bu əraziləri işğaldan qurtarmaq işində qırıcıların, hərbi təyyarələrin və hava hədəflərini vuracaq texnikaların əvəzi yoxdur. 1997-ci ildə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi ilk milli hərbi təyyarəçilərimizin buraxılışına başlayıb. Beləliklə, 2005-ci ildən Azərbaycanda müdafiəyə ayrılmış vəsaitlərin əhəmiyyətli hissəsi məhz HHQ və HHMQ-nin dirçəldilməsinə sərf edildi. 1995-ci ildə - Azərbaycanın illik hərbi büdcəsinin 80-90 milyon dollara yaxın olduğu dövrdə HHQ və HHMQ-yə təxminən bir neçə milyon dollar vəsait ayrılırdısa, 2008-ci ildə bu rəqəmin az qala hərbi büdcənin 15 faizini əhatə etməsi ilə bağlı ehtimallar səslənib. Bu isə 1 milyard 500 milyon manatlıq hərbi büdcənin təxminən 250 milyon manatı deməkdir. Proqrama uyğun olaraq, 2008-2010-cu illər ərzində HHQ-nin aviaparkının modernləşdirilməsi aparılacaq və HHQ-nin aviaparkı təxminən 50%-dək müasir döyüş təyyarələri hesabına yeniləşdiriləcək. Xatırladaq ki, Azərbaycan və NATO arasında imzalanmış Fərdi Tərəfdaşlığq üzrə Əməliyyat Planı (İPAP) çərçivəsində H.Z.Tağıyev qəsəbəsindəki hərbi aerodrom modernləşdirilib. Eyni zamanda hərbi aerodromlarda uçuşların təhlükəsizliyini təmin etmək məqsədilə xüsusi avadanlıqlar quraşdırılıb, texniki təminat binaları yenidən tikilib və təmir edilib, aerodromun texniki təminatı, paraşüt-desant xidməti və əyləc paraşütlərinin yığılması binalarının inşasına başlanılıb. Hazırda Azərbaycan HHQ-nin pilotları MDB məkanında ən çox uçuşlar keçirmiş pilotlar sayılır. Azərbaycan pilotları əsasən Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbində hazırlanır, Türkiyə, Ukrayna, ABŞ və digər ölkələrin müvafiq ixtisasartırma kursları və təlimlər keçirlər.1992-ci ilin sentyabrında verilən prezident Əbülfəz Elçibəyin fərmanı ilə 14 fevral - Azərbaycan Hərbi Hava Qüvvələri günü kimi qeyd olunur. Azərbaycanın ikinci müstəqilliyi dövründə – 1992-ci ilin aprelin 1997-ci ildə Azərbaycanın Ali Hərbi Təyyarəçilik Məktəbi ilk milli hərbi təyyarəçilərimizin buraxılışına başlayıb. Beləliklə, 2005-ci ildən Azərbaycanda müdafiəyə ayrılmış vəsaitlərin əhəmiyyətli hissəsi məhz HHQ və HHMQ-nin dirçəldilməsinə sərf edildi. 2008-2010-cu illər ərzində HHQ-nin aviaparkı modernləşdirilib.

## 21. Beynəlxalq Ana Dili günü

***“Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük sərvətidir.”***

**Ümummillilider Heydər Əliyev**

***“Ey türk oğulları, vətənin bir ovuc torpağını dünyanın var-dövlətinə, dilimizin bir sözünü ləl cavahirata dəyişməyin.”*** **Şah İsmayıl Xətai**




Beynəlxalq Ana Dili Günü UNESCO-nun 1999-cu il noyabr tarixində keçirilən Baş konfransının 30-cu sessiyasında təsis edilib və 21 fevral 2000-ci ildən dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq üçün qeyd edilir. Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörü-şünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır. Ana dili millətin özünəməxsusluğunu qorumaqla yanaşı, tərcümə vasitəsilə başqa xalqların mədəni irsi ilə tanış olmağa, onlarla ünsiyyət qurmağa imkan yaradır. Dünyada məhv olmaq təklükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana dili günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Dil ünsiyyət vasitəsidir, millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də birincisidir. O, hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Xalqın taleyi, onun mənliyi, mənəviyyatı və mədəniyyəti olan dil cəmiyyətin təşəkkülü və inkişafı ilə birgə yaranır, tərəqqi edir. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik, tarixin qızıl səhifəsidir. Bu məqam millətin millət olaraq təsdiqidir.

**Milli qəhrəmanlar zirvəsi**

***Torpaq əgər uğrunda ölən varsa, vətəndir!***

## 6. Milli qəhrəman Seyidov Mirəsgər Mirabdulla oğlunun 45 illik yubileyi

***"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır."*** **Ümummillilider Heydər Əliyev**



6 fevral 1970-ci ildə Babək rayonunun Qaraxanbəyli kəndində anadan olmuşdur. 1987-ci ldə Naxçıvan şəhər 39 saylı orta məktəbini bitirmişdir. 1988-1990-cı illərdə Sovet Ordusunda hərbi xidmətdə olmuşdur.

Döyüşlərdə iştirakı- "Dənizdən-dənizə böyük Ermənistan" xülyası ilə yaşayan erməni millətçilərinin işğalçılıq siyasəti Naxçıvanda da yan keçmədi. Ermənilərin bu xülyasından narahat qalan Mirəsgər könüllü olaraq Babək rayonunun Yuxarı Buzqov kənd özünümdüdafiə batalyonunda vuruşurdu. Cəsur döyüşçü qaynar döyüşlərə girər, erməni yaraqlılarının xeyli canlı qüvvəsini məhv edərdi. Dəfələrlə döyüşçü dostlarını mühasirədən çıxaran Mirəsgər 1992-ci il 14 iyun döyüş meydanında qəhrəmancasına həlak oldu. Subay idi.

Milli Qəhrəman - Azərbaycan Respublikası prezidentinin 18 dekabr 1992-ci il tarixli 367 saylı fərmanı ilə Seyidov Mirəsgər Mirabdulla oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.Naxçıvan şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir.Oxuduğu 39 saylı məktəb qəhrəmanımızın adını daşıyır. Hal-hazırda Mirəsgır Seyidov adına 15 saylı məktəb onun adını daşıyır.

**Tariximizin qan yaddaşı**

**26. Xocalı faciəsi (1992)**

***Ey Dünya, qalx ayağa!***
***Bu gecə qan tökülüb.***
***O gördüyün qanlı çay***
***Xocalıdan süzülüb***

**Ümumi itkilər**

**613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi, 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü.**




Xocalı soyqırımı — 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, etnik azərbaycanlılara qarşı baş vermiş soyqırımdır. Bu faciə Dağlıq Qarabağ münaqişəsi zamanı baş vermiş ən dəhşətli hadisələrdən biridir. Bu soyqırım zamanı Azərbaycan xalqı yüzlərlə şəhid vermişdir.1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri SSRİ dövründən Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdi. Hücumdan əvvəl, fevralın 25-i axşam şəhər toplardan və ağır artileriyadan şiddətli atəşə tutuldu. Nəticədə, fevralın 26-ı səhər saat 5 radələrində Xocalı tam alova büründü. Mühasirəyə alınan şəhərdə qalmış təqribən 2500 nəfər xocalılı Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etdi. Amma bir günün içində yer üzündən silinən şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəlib qətliamın qurbanı oldu. Bu soyqırım nəticəsində 63-ü uşaq, 106-ı qadın, 70-i qoca və qarı olmaqla – 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü. Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur.

**Xocalının yerləşdiyi rayon**

Xocalı 1991-cı ilin oktyabrından blokadada idi. Oktyabrın 30-dan etibarən şəhərə aparan bütün avtomobil yolları bağlanmış, yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki vertolyotun vurulması, vertolyotun içindəki 40 nəfər azərbaycanlının həlak olmasıyla şəhərlə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi də verilmirdi. Xocalılılar ancaq öz qəhrəmanlıqları və

şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsi, yerli milis qüvvələri və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu. Fevralın ikinci yarısından başlayaraq Xocalı erməni silahlı dəstələrinin mühasirəsinə alınmışdı və hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı. Xocalı soyqırımının qurbanlarından biri də Xocalı adlı 2 yaşlı körpə idi. Xocalıya hücuma hazırlıq fevralın 25-də axşam 366-ci alayın hərbi texnikasının döyüş mövqelərinə çıxması ilə başlanılmışdı. Şəhərə hücum toplardan, tanklardan, "Alazan" tipli zenit toplardan 2 saatlıq atəşdən sonra başlandı. Xocalıya üç istiqamətdən hücum aparıldığından əhali Əsgəran istiqamətində qaçmağa məcbur olmuşdu. Tezliklə aydın olmuşdur ki, bu məkrli hiylə imiş. Naxçevanik kəndi yaxınlığında əhalinin qarşısı erməni silahlı dəstələri tərəfindən kəsilmiş və onlar güllələborana tutulmuşlar. Qarlı aşırımlarda və meşələrdə zəifləmiş, taqətdən düşmüş insanların çox hissəsi məhz Əsgəran-Naxçevanik düzündə erməni silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla məhv edilmişdir. Həmin günlərdə Azərbaycan qüvvələri Xocalı sakinlərinin köməyinə çata bilmədi, hətta meyidlərin götürülməsi belə mümkün olmadı. Bu zaman isə ermənilər vertolyotlarla, ağ geyimli xüsusi qruplarla meşələrdə gizlənmiş insanların axtarışını aparır, aşkar edilənləri əsir götürür, işgəncələrə məruz qoyurdular. Fevralın 28-də tərkibində yerli jurnalistlərin də olduğu qrup 2 vertolyotla azərbaycanlıların həlak olduqları yerə çata bildilər. Gördükləri mənzərə hamını dəhşətə gətirdi – düzənlik cəsədlərlə dolu idi. İkinci vertolyotun havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında ancaq 4 meyidi götürmək mümkün oldu. Martın 1-də yerli və xarici jurnalistlərin iştirakı ilə hadisə yerində daha da dəhşətli vəziyyət müşahidə olunmuşdur. Meyidlərin skalplarının götürülməsi, qulaqlarının və digər orqanlarının kəsilməsi, gözlərin çıxardılması, çoxsaylı bıçaq və güllə yaraları, ağır texnika ilə əzilmələr, yandırılma halları aşkar edilmişdir.

Qışdadı, çıxmayıb Xocalı yaya,
Gərək oxu qoysun Xocalı yaya,
Hünəriylə alıb öz qisasını,
Adını dünyaya Xocalı yaya.
Dəryadan dərindi, Xocalı dərdin,
Gül əkib, boz tikan, Xocalı, dərdin.
Düşmən tapdağından qalxıb xilas ol.
Qızıl güllər əkib Xocalı dər, din.

**Şamil Dəlidağ**

**Folklor**

**3. Aşıq Əsəd Rzayevin anadan olmasının 140 illiyi (1875-1904)**

***Aşıq olub tərki-vətən olanın***
***Əzəl başdan pürkamalı gərəkdi.***
***Oturub durmaqda ədəbin bilə,***
***Mərifət elmində dolu gərəkdi.*** **Aşıq Ələsgər**



**Aşıq Əsəd — ustad aşıq, Azərbaycan Yazıçılar Birliyinin üzvü**
Göyçə mahalının Böyük Qaraqoyunlu kəndində doğulmuş aşıq. Atası Koxa Əhməd Rza oğlu Tovuzun Bozalqanlı kəndindən olub. Aşıq Ələsgərin şagirdi olmuşdur. Aşiqanə lirik şeirləri ilə yanaşı, xalqın həyatını tərənnüm edən bir sıra şeirlər də yazmışdır. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünün iştirakçısı olmuş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

**İncəsənət**

***"Azərbaycan mədəniyyəti öz milliliyini saxlayaraq, bu zəmin əsasında klassik mədəniyyət səviyyəsinə gəlib çatmışdır."***

**Ulu öndər Heydər Əliyev**

**4. Bəstəkar, müğənni, xalq artisti Polad Bülbüloğlunun anadan olmasının 70 illiyi (1945)**

***"Azərbaycan incəsənətinin bu gün dünya şöhrəti qazanmasında Polad Bülbüloğlunun layiqli payı vardır."***

**Ulu öndər Heydər Əliyev**



**Polad Bülbüloğlu (tam adı: Məmmədov Polad Murtuza oğlu) Azərbaycan bəstəkarı və müğənnisi, 1973-cü ildən Əməkdar İncəsənət xadimi, Azərbaycan SSR xalq artisti (1982), Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri.**
Polad Bülbüloğlu 4 fevral 1945-ci ildə Bakıda anadan olmuşdur. Özünə soyad kimi atasının ləqəbini - Bülbül götürmüşdür.1989-cu ildən Azərbaycan Respublikasının Mədəniyyət naziri, 1994-cü ildən Türksoyun sədri. ADK-nı bitirmişdir (1968, Q. Qarayevin sinfini). Polad geniş yayılmış bir sıra mahnıların müəllifi və onların ifaçısı kimi tanınmışdır. Kino-filmlərə, dram tamaşalarına musiqinin, simfoniya, simfonik poema və s. əsərlərin müəllifidir. Azərbaycanın Rusiyadıkı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu Müqəddəs Knyaz Nevski mükafatına layiq görülüb. Səfir bu mükafatı Rusiyanın Regionlararası İctimai Fondu tərəfindən almışdır.

Polad Bülbüloğlu Rusiya və Azərbaycan xalqları arasında sülhün, anlaşmanın qorunmasında, dostluq tellərinin möhkəmlənməsindəki xidmətlərinə görə təltif edilib.O, Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizəni beynəlxalq ictimaiyyətə dürüst təqdim etdiyinə, diplomatiyaya qoyulan təbii məhdudiyyətlərə baxmayaraq verdiyi bəyanatlar və müsahibələrdə ölkəmizin ədalətli mövqeyinin güzəştsiz olduğunu aşıladığına, ictimai düşüncədə mövcud olan anlaşılmazlıq və ziddiyyətlərə, cəmiyyətin hələ hər hansı riskli addıma hazır olmamasına baxmayaraq Dağlıq Qarabağa etdiyi səfərlərdə, münaqişəyə səbəb olmuş tərəfin – ermənilərin düz içərisində Azərbaycanın maraqlarına uyğun apardığı işə, yaratdığı "Məhəbbət və ölüm" baletinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində tamaşaya qoyulması ilə böyük mədəniyyətimizə verdiyi samballı töhfəyə, ölkəmizin imici üçün göstərdiyi səylərdə mənəviyyət və vətənpərvərlik nəzər nöqtəsindən çıxış etdiyinə görə Azərbaycanda "2009-cu İlin Adamı" elan edilib.
**Filmoqrafiya:**Mən mahnı qoşuram (film, 1979), Qorxma, mən səninləyəm (film, 1981), Mənə inanın! (film, 2007), Əmir Teymur (film, 2003), Nəğməkar torpaq (film, 1981), Oxuyur Müslüm Maqomayev (film, 1971), Papaq (film, 2007), Payızın 17 anı (film, 2007), Pəncərədə işıq (film, 1987), Poladın mahnıları (film, 1982), Rəfibəylilər (film, 2009),Sevinc buxtası (film, 1977), Səmt küləyi (film, 1973), Səni axtarıram (film, 1981), Soyuq münasibət (film, 1985), Şəki (film, 1977),Təcili yardım lazımdır (film, 1974), Tikdim ki, izim qala (film, 1997), Toy (film, 2005),Uşaqlığın son gecəsi (film, 1968), Ürək nəğməsi (film, 1989),Ürək... Ürək... (film, 1976),Var olun, qızlar... (film, 1972),Yarımçıq qalmış mahnı (film, 1979),Yol əhvalatı (film, 1980),Zəlimxan dastanı (film, 2007), Zirvəyə gedən yol (film, 1995)

## 5. Xanəndə Əbülhəsənxanın (Azər İqbali) anadan olmasının 145 illiyi (1870-1971)



**Əbülhəsən xan Musa xan oğlu İqbali Azər - Azərbaycan müğənnisi, Təbriz şəhərinin meri.**

Əbülhəsən xan Musa xan oğlu 1870-ci ildə Qəzvin vilayətinin Əlvənd kəndində anadan olmuşdu. Mükəmməl mədrəsə təhsili almışdı.Təbrizdə yaşamış, gənc yaşlarından istedadlı və muğamı dərindən bilən sənətkar kimi tanınmışdır. 1905-1911 illərdə İran inqilabına qoşulmuş, Səttar xan ona "İqbali Azər" adını vermişdir. Əbülhəsən xan gözəl tembrli, məlahətli, güclü səsə malik xanəndə idi. Onun ifasında "Şur", "Çahargah", "Mahur", "Əbu - əta", xüsusilə, "Segah" muğamları yüksək emosional tərzdə səslənmişdir. Özünəməxsus üslubda ifa etdiyi "Segah" muğamı İranda "Əbülhəsənxan segahı" adı ilə məşhurlaşmışdır. Əbülhəsən xanın səsi 1914-cü ildə Tiflisdə "Qrammofon" şirkəti tərəfindən vala yazılmış, bu şəhərdə konsertləri olmuşdur. Seyid Şuşinski Əbülhəsən xan ilə yaxından dostluq etmiş, onun yaradıcılığından çox bəhrələnmişdir. Əbülhəsən xan vallarından birində "Hümayun" muğamını oxuyaraq, üzərində onu Seyid Şuşinskiyə həsr etdiyini yazdırmışdır.

**14. Dirijor, xalq artisti Nazim Rzayevin anadan olmasının 90 illiyi (1925)**

***"Musiqimizin inkişafında dünya şöhrətli bəstəkarlarımızın rolu xüsusilə vurğulanmalıdır."***

**Ulu öndər Heydər Əliyev**



**Azərbaycan Respublikasının xalq artisti (1977), Azərbaycan Dövlət mükafatı laureatı, Prof. (1985) Moskva Dövlət Konservatoriyasını bitirmişdir (skripka sinfi üzrə). Az. Döv. Opera və Balet Teatrının dirijoru (1958 – 60),** Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbəri və baş dirijoru olmuşdur. Rus və xarici ölkə klassiklərinin eləcə də Azərbaycan bəstəkarlarının balet və simfonik əsərlərinə dirijorluq etmişdir. Üzeyir Hacıbəyovun bir neçə əsərinə dirijorluq etmişdir. 1984-85 illər teatr mövsümündə Ankara Dövlət Opera və Balet Teatrında "Arşın mal alan" musiqili komediyasının quruluşçu dirijoru olmuşdur.

**Filmoqrafiya**

Arşın mal alan (film, 1965)
Bizim Cəbiş müəllim (film, 1969)
Dvorjakın melodiyası (film, 1979)
Əmək və qızılgül (film, 1962)
Gilas ağacı (film, 1972)
İntibah (film, 1972)
Qaraca qız (film, 1966)(film, kinoalmanax)
Qəzəlxan (film, 1991)
Qızıl qaz (film, 1972)
Mən ki gözəl deyildim (film, 1968)
Mücrü (film, 1973)
Torpaq. Dəniz. Od. Səma (film, 1967)
Yaşamaq gözəldir, qardaşım! (film, 1

"Nazim Rzayev Dövlət Kamera Orkestrinin yarandığı gündən 1992-ci ilədək bu kollektivin baş dirijoru olub. 1974-cü ildə "Nəsimi" əsərinə verdiyi vokal-xoreoqrafik quruluşa görə SSRİ Dövlət Mükafatına layiq görülüb.

# Yubilyar yazıçı və şairlər

## 11.Ədəbiyyatşünas, tənqidçi Əziz Mirəhmədovun anadan olmasının 95 illiyi (1920-2002)

***“Özündən sonrakı nəsil üçün böyük ədəbi-nəzəri irs, təqdiqatçılıq səriştəsi, silinməz izlər qoyan Əziz müəllim cild- cild sanballı əsərləri ilə ədəbiyyatşünaslıq elmimizdə özünə əbədi heykəl ucaltmışdır.”***

**Filologiya elmlər namizədi Nəcəf Nəcəfov**



**Əziz Mirəhmədov — ədəbiyyatşünas, tənqidçi, 1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar elm xadimi (1982), filologiya elmləri doktoru (1976), Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü (1980).**

Əziz Mirfeyzulla oğlu Mirəhmədov 1920-ci il fevralın 11 - də Bakı şəhərində doğulmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuşdur. 1943-1948-ci illərdə ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasında baş müəllim vəzifəsini tutur. "Cəlil Məmmədquluzadə və XX əsrin əvvəllərində Azərbaycan mətbuatının inkişaf mərhələləri" mövzusunda dissertasiyasını müdafiə edib elmlər doktoru adını alır, 1980-ci ildə AMEA-nın müxbir üzvü seçilir. Azərbaycan ədəbiyyatının bir sıra açılmamış səhifələri Əziz müəllimin qismətinə düşmüşdü. O, "Molla Nəsrəddin" jurnalının 25 illik nömrələrinin transliterasiyası, 12 cilddə çapa hazırlanması və birinci cildin nəşr edilməsi işini də başa çatdırmışdı.Bütün fəaliyyəti boyu çox məhsuldar işləyən Əziz Mirəhmədov 18 kitabın, 500-dən artıq elmi məqalənin müəllifidir**. Onun "M.F.Axundov" (1953), "Abdulla Şaiq" (1956), "Sabir" (1958), "Məhəmməd Hadi" (1962 və 1981), "Azərbaycan Molla Nəsrəddini" (1980) ,”Yazılar, talelər, əsərlər” (1978), "Satirik gülüşün qüdrəti" (1981), "Ağlar güləyən" (1989) monoqrafiyaları, "XX əsr Azərbaycan ədəbiyyatında satiranın inkişafına dair" , "Zakir və XIX əsr Azərbaycan satirası", "XX əsrin əvvəllərində ədəbi hərəkat: tənqidi realizm", “Ədəbiyyatşünaslıq ensiklopediyası terminləri lüğəti” (1998) və s.** sanballı məqalələri ədəbiyyat tarixinin öyrənilməsində ən etibarlı mənbələrdəndir. Hələ 40-cı illərdə gənc Əziz iki cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin (1943-1944) hazırlanmasında yaxından iştirak edərək ilkin təcrübə qazanmış, sonrakı illərdə isə püxtələşmiş alim kimi üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin (1958-1960) əsas müəlliflərindən biri olmuşdur. O, nəşri planlaşdırılmış yeddicildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin də aparıcı müəlliflərindən biri idi. Yorulmaz tədqiqatçının böyük zəhməti bahasına müxtəlif illərdə Cəlil Məmmədquluzadənin əsərlərinin ikicildliyi (1951-1954), üçcildliyi (1966-1967) və altıcildliyi (1981-1985) çapa hazırlanıb nəşr edilmiş, onun tərəfindən hər nəşrə müqəddimə, izah və şərhlər yazılmışdır.

**11.Yazıçı Samir Kazımoğlunun anadan olmasının 65 illiyi (1950- 1999)**



Yazıçı, jurnalist və ilin adamı - Samir Kazımoğlu (Tağızadə), 1950-ci il fevral ayının 11 - də Tovuz rayon Bayramlı kəndində anadan olmuşdur. 1978-ci ildə Bakı Dövlət Universitetinin məzunu olmuşdur. 1978-79-cu ullərdə "Ulduz" jurnalında Şöbə müdürü işləmişdir. Samir Kazımoğlu "Ağrı", "Vəfa Günü", "Kəşf", "Dözüm" , "Əsrik"və s. kimi tanınmış roman və hekayələrin müəllifidir. Ankara Universitetinin dəvəti ilə Türkiyəyə gedən Prof. Dr. Samir Kazımoğlu Dil və Tarix Coğrafiya fakültəsində Müasir Türk ləhcələri müəllimi olaraq işləmişdir. Onun Türk ləhcələrində, rus, ingilis, alman dillərində yayımlanmış elmi işləri Avstriyanin Franz Yozev adına Grast Universitetinin , Türk-Azərbaycan Dostluq Dərnəyinin , Çavuşistan Özrek Cumhuriyeti Yazıcılar Birliyinin mükafatlarına layiq görülmüşdür. Samir Kazımoğlu 3 sentyabr 1999-cu ildə vəfat etmişdir.

**Əsərləri:** "Unudulmaz görüşlər" (1977), "Dözüm" (1986), "Rus və Avropa mətbuatı M. F. Axundov haqqında" (1987), "Vəfa günü" (1988), "Ağrı" (1990), "Mirzə Fətəli Axundov və Avropa" (1991), "Türk topluluqları ədəbiyyatı" (1994), "Qətl, Ankara" (1994) və s.

**14. Yazıçı, publisist İntiqam Mehdizadənin anadan olmasının 70 illiyi (1945)**



**Mehdizadə İntiqam Alı oğlu – nasir, publisist, 1988 - ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Jurnalistlər birliyinin üzvü (1988)**

1945-ci il fevralın 14-də Azərbaycanın İsmayıllı şəhərində anadan olmuşdur. Əmək fəaliyyətinə "Neft Daşları"nda fəhlə kimi başlamışdır(1963). ADU-nun filologiya fakultəsində təhsilini davam etdirmişdir (1964-1968) ADU-nun jurnalistika fakultəsində müəllim işləmişdir. İlk mənsur şeiri 1966-cı ildə "Jurnalist" qəzetində çıxmışdır. 1970-ci ildə dövrü mətbuatda povest və hekayələrlə müntəzəm çıxış etmişdir. Radio dinləyiciləri tərəfindən rəğbətlə qarşılanan "Bulaq", "Sorğular – cavablar", "İncəsənət salonu", "Səslər muzeyi", "Maraqlı müsahibələr" verlişlərinin hazırlanmasında ciddi fəaliyyət göstərmişdir. 2007-ci ildə "Ən yaxşı jurnalist işi" müsabiqəsində birinci yeri tutmuşdur. "Həsənbəy Zərdabi", "Qızıl qələm", "Dan ulduzu" media müklafatlarının laureatıdır.

**Əsərləri:** "Təsəlli" (1980), "Hərənin öz dünyası" (1983), "Bulaq" (1984), "Novruz töhfələri" (1989), "Maraqlı qoca dağlar" (2003), "Karvanın sarvanı" (2008) və s.

**15. Şair Əhməd Qəşəmoğlunun anadan olmasının 65 illiyi (1950)**



**Məmmədov Əhməd Qəşəm oğlu — şair, publisist, sosioloq, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin elmi-fəlsəfi konsepsiyasının yaradıcısı Əhməd Qəşəmoğlu "Azərbaycan-Hollandiya dostluq cəmiyyəti"nin, "Tərəqqi və Demokratiya" ictimai birliyinin rəhbəridir. "Rəsul Rza" adına Beynəlxalq ədəbi mükafatın laueratıdır.**

Əhməd Qəşəmoğlu 1950-ci ilin 15 fevralında Naxçıvan MR Babək rayonun Vayxır kəndində anadan olmuşdur. 1972–ci ildə Bakı Dövlət Universitetinin Mexanika–riyaziyyat fakültəsini əla qiymətlərlə bitirmiş və Azərbaycan EA-nın Kibernetika İnstitutunda fəaliyyətə başlamışdır. İqtisad elmləri namizədidir. Yunesko–nun Beynəlxalq Kadrlar Akademiyasının fəlsəfə doktorudur. Sovet Sosioloqlar Assosasiyasının İdarə heyətinin üzvü olmuşdur."Vurğun külək" adlı ilk şeirlər kitabı 1981–ci ildə "Gənclik" nəşriyyatında çap olunmuşdur. Ə. Qəşəmoğlu 1980–ci ildə Tuva MSSR–in paytaxtı Qızıl şəhərində keçirilən "Gənc yazıçıların Ümumittifaq Toplantısı"nda lauerat olmuşdur. Buna görə də onun "Vlyublennıy veter" kitabı Moskvada "Molodaya qvardiya" nəşriyyatında çap olunmuşdur. SSRİ Yazıçılar İttifaqının üzvü olmuşdur. O, eyni zamanda ardıcıl olaraq publisitika ilə də məşğul olur. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Şeir və publisistik yazıları ondan artıq xarici ölkələrdə müxtəlif dillərdə çap olunmuşdur. Əhməd Qəşəmoğlu SSRİ–də riyaziyyatın sosiologiyaya tətbiqi sahəsində fəaliyyətə başlayan ilk mütəxəssislərdən biridir. 1974-cü ildən başlayaraq Azərbaycanda eprik sosiologiyanın əsasını qoymuşdur. 1980-ci ildə Azərbaycan Komsomolu MK-da, 1987-ci ildə Azərbaycan EA-da, 1992-ci ildə Qərb Universitetində sosiologiya sahəsində ciddi Elmi Mərkəzlər yaratmışdır. 1990–cı ildə Azərbaycanda ilk müstəqil "Sosioloji Araşdırmalar Mərkəzi" yaratmışdır. Rəhbərlik etdiyi "El-oba" Sosioloji Araşdırmalar Mərkəzi 1994-cü ilə qədər Respublikada olduqca ciddi fəaliyyət göstərmişdir. 1992–ci ilin oktyabrında Azərbaycan Parlamenti yanında "Humanitar tədqiqatlar və Proqnozaşdırma Mərkəzi"nin rəhbəri seçilmişdir. Mərkəz 1997-ci ildə ləğv edilmişdir.

ABŞda, İrlandiyada, İsveçdə, Misirdə, Türkiyədə və s. ölkələrdə keçirilən 10-dan artıq beynəlxalq toplantıların iştirakçısı olmuşdur. 350-yə qədər sosioloji araşdırmanın aparılmasına rəhbərlik etmişdir. 20-yə qədər fəaliyyət proqramının yaradıcısıdır. 300–ə qədər elmi, publisistik məqalənin, 5 şeir, 5 elmi kitabın müəllifidir.

**Əsərləri: “**Vurğun külək” (1982), “Dünya çağırır məni” (1988)
“Dünyadan keçirəm indi” (1997), “Sosial idarəetmənin fəlsəfi və sosioloji problemləri” (2008) və s.

**18. Tərcüməçi, publisist Hacı Hacıyevin anadan olmasının 90 illiyi (1925)**



**Hacıyev Hacı Əliheydər oğlu — tərcüməçi, publisist, Azərbaycan Jurnalistlər Birliyinin sədri (1989-2006), Azərbaycanın əməkdar jurnalisti (1985).**

Hacı Hacıyev 1925-ci il fevralın 18-də Bakı şəhərində kommersant ailəsində anadan olmuşdur. Burada şəhər məktəbində orta təhsilini başa vurmuşdur (1943). Bakıda emal sexində hesablayıcı işləmişdir (1942). Tərxis olunandan sonra ADU-nun filalogiya fakültəsində qiyabi təhsil almışdır (1950-1957). "Azərbaycan gəncləri" qəzetində ədəbı işçi, şöbə müdiri (1950-1953), Azərbaycan radiosunda məsul redaktor və baş redaktor (1953-1959), Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatında redaktor (1959-1961), “Ekran” Yaradıcılıq Birliyinin sədri (1968-1970) , Azərbaycan Jurnalistlər İttifaqının orqanı olan "Müxbir" jurnalında baş redaktor (1970-1974) vəzifələrində çalışmışdır. Azərbaycan Jurnalistlər İttifaqı İdarə Heyətinin katibi (1974-1989) seçilmişdir. Azərbaycan Jurnalistlər Birliyinin sədri olmuşdur (1989-2006). 2006-cı ildən qurumun fəxri sədri seçilib.Ədəbi yaradıcılığında bədii tərcümə və publisistika xüsusi yer tutur. Dünya ədəbiyyatından Azərbaycan dilinə çevirdiyi əsərləri vaxtaşırı nəşr etdirmiş, rəğbətlə qarşılanmışdır. A.Çexovun "Gecikmiş güllər" povesti, Misir ədiblərinin hekayələri onun tərcüməsində ayrı-ayrı kitablarda nəşr olunmuşdur. M.Qorkidən Azərbaycan dilinə çevirdiyi "Qoca" pyesi mavi ekranda və efirdə verilmişdir. Türkiyənin "Yeni forum" və "Tanıtım" jurnallarında, eləcə də bir sıra xarici mətbuatda siyasi publisistik məqalələri dərc edilmişdir. Türkiyənin Kayseri şəhərində Ümumdünya Azərbaycan konqresində (1990), Bodrumda "Türk millətlərinin siyasi və iqtisadi gələcəyi" simpoziumunda (1991) Azərbaycanda milli istiqlal hərəkatı və siyasi vəziyyət probleminə dair məruzə ilə çıxış etmişdir. Hacı Hacıyevın təşəbbüsü ilə Həsən bəy Zərdabi mükafatı təsis olunub. 23 fevral 2008-ci ildə vəfat etmişdir.

**Əsərləri:**”Hekayələr” (1961),”İstiqlalın əzablı yolu : Azərbaycan Demokratik Respublikası tarixinin bəzi səhifələri”(1991), “Xatirələr və ya Çəmbərəkənddən başlayan həyat” (2005)

**Tərcümələri:**Yan V. Çingiz xan (1960), Heminquey E. Əlvida, silah (1961), Məmmeri M. Ədalət yuxuda ikən (1963), Karnaval : Polşa hekayələri və novellaları (1973), Antonov S. Cırılmış manat : povestlər (1971),Tiaqu M. Sabahacan, yoldaşlar! (1983), Heminquey E. Əcəl zəngi (1986), Rıbakov A. Arbat övladları (1989)

**Filmoqrafiya**

Mənim Mingəçevirim (film, 1967)
Üçüncü simfoniya (film, 1968)
Bu, Səttar Bəhlulzadədir (film, 1969)
Axtarış həvəsi (film, 1970)

## 20. Nasir, publisist Aydın Ağazadənin 60 illiyi (1955)



**"Qızıl qələm" və "Araz" ali ədəbi mükafatları laureatıdır.**

Yazıçı-publisist Aydın Ağazadənin 60 yaşı tamam olur. O, 1955-ci il fevralın 20 - də İçərişəhərdə anadan olub. M.Əliyev adına Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq və Bakı Dövlət Universitetinin hüquq fakültələrini bitirib. 1976-90-cı illərdə Dövlət Televiziya və Radio Verilişləri Komitəsində müxtəlif vəzifələrdə çalışıb. 1990-93-cü illərdə "Ədalət" qəzetinin şöbə müdiri, baş redaktorun birinci müavini olub. 1993-2001-ci illərdə Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetində hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri işləyib. 1995-97-ci illərdə Azərbaycan Hüquqşünaslar Birliyinin orqanı olan "Hüquqşünas" qəzetinin baş redaktoru kimi ölkədə aparılan demokratik-hüquqi islahatlar barədə silsilə yazılarla çıxış edib. 2001-ci ildən 2007-ci ilədək Ədliyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri olub, indi sözügedən nazirliyin insan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin informasiya şöbəsinin rəisidir. "Həsən Əliyev-hakim və insan", "Cəllad aman istəyir", "Əbədi Selcan" və "Sabun köpüyü" kitablarının, "Sonuncu şahid" ssenarisi əsasında çəkilmiş eyniadlı dörd seriyalı televiziya filminin müəllifidir.
**Əsərləri:**"Həsən Əliyev – hakim və insan" (1997), "Cəllad aman istəyir" (2001), "Əbədi Selcan" (2005), "Sabun köpüyü" (2009) və s.

## Mart

### Əlamətdar tarixi günlər və bayramlar

Azərbaycan Respublikasının BMT - nin üzvlüyünə qəbul olunduğu gün (02.03.1992)
Bədən tərbiyəsi və idman günü (05.03.2005)
Beynəlxalq Qadınlar günü (08.03.1857)
Milli Teatr günü (10.03.1873)
Novruz bayramı (20-21.03)
Beynəlxalq poeziya günü (21.03.1999)
Ümumdünya Meterelogiya günü (23.03.1950)

### Tariximizin qan yaddaşı

Azərbaycanlıların soyqırımı günü (31.03. 1918)

### Xalqımızın qəhrəman oğulları

Hərbi xadim Əliağa Şıxlinskinin 150 illik yubileyi (03.03.1865-18.08.1943)

### İncəsənət

Aktyor Əhməd Qəmərlinskinin (1880 - 09.03.1952) 135 illik yubileyi
Xalq artisti Canəli Əkbərovun (10.03.1940) 75 illik yubileyi
Baletmeyster Qəmər Almaszadənin (10.03.1915-07.04.2006) 100 illik yubileyi
Xalq artisti Bəşir Səfəroğlunun (11.03.1925-23.03.1969) 90 illik yubileyi
Bəstəkar, cazmen Vaqif Mustafazadənin (16.03.1940-16.12.1979) 75 illik yubileyi.
Xalq artisti Zəroş Həmzəyevanın (22.03.1925-2004) 90 illik yubileyi
Bəstəkar Əşrəf Abbasovun (23.03.1920-1992) 95 illik yubileyi

### Yubilyar yazıçı və şairlər

Şair Dilsuz Mustafayevin (01.03.1945) 70 illik yubileyi
Şair Balayar Sadiqin (01.03.1965) 50 illik yubileyi
Yazıçı, tərcüməçi Zeydulla Ağayevin (02.03.1945-2014) 70 illik yubileyi
Şair, publisist Əliqulu Qəmküsarın (1880-04.03.1919)135 illik yubileyi
Şair İsmayıl Cəfərpurun (05.03.1925-18.02.1977) 90 illik yubileyi
Ədəbiyyatşünas Yəhya Seyidovun (06.03.1920-04.12.1980) 95 illik yubileyi
Şair Cümşüd İsgəndərin (08.03.1955) 60 illik yubileyi
Yazıçı Mənzər Eynullayevanın (08.03.1950) 65 illik yubileyi
Ədəbiyyatşünas Arif Hacıyevin (13.03.1935-15.04.2000) 80 illik yubileyi
Nasir, dramaturq Ağalar İdrisoğlunun (16.03.1950) 65 illik yubileyi
Yazıçı Mikayıl Rzaquluzadənin (17.03.1905-10.11.1984) 110 illik yubileyi
Yazıçı Davud Ordubadlının (20.03.1930) 85 illik yubileyi
Ədəbiyyatşünas Əkbər Ağayevin (21.03.1915-02.03.1989)100 illik yubileyi

Yazıçı Hacıbaba Nəzərlinin (22.03.1895-1938) 120 illik yubileyi

Şair İsmayıl Soltanın (22.03.1910-23.01.1963)105 illik yubileyi

# MART

## Əlamətdar tarixi günlər və bayramlar

## 2. Azərbaycan Respublikasının BMT-nin üzvlüyünə qəbul olunduğu gün (1992)

***"Azərbaycan Respublikası dünya birliyi ilə tam hüquqlu inteqrasiyaya istiqamət götürmüşdür və bunun üçün bütün imkanlara malikdir."***

**Ümummillilider Heydər Əliyev**



Məlum olduğu kimi, mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi surətdə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi. Bu dövrdə yeni formalaşmağa başlayan Azərbaycanın müstəqil xarici siyasəti, ilk növbədə, ölkənin ərazi bütövlüyünün və suverenliyinin tezliklə bərpa edilməsi, qonşu dövlətlərlə mehriban və qarşılıqlı surətdə faydalı münasibətlərin inkişaf etdirilməsi, yeni dünya nizamı çərçivəsində regional və qlobal proseslərdə ölkənin fəal iştirakının təmin edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Avropa və Trans-Atlantik strukturlarına inteqrasiya məsələlərinə və s. yönəldilmişdi. Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni xarici siyasət kursunun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Əsas prioritet istiqamət isə hərbi işğal, etnik təmizləmə, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqlarının kobudcasına pozulması, ölkənin böyük bir hissəsində tarixi və mədəni irsimizin ermənilər tərəfindən dağıdılması faktlarını özündə cəmləşdirən Ermənistanın Azərbaycana qarşı təcavüzü ölkənin təhlükəsizlik mühitinin əsas təyinedici amili oldu və bu da öz növbəsində Azərbaycanın təhlükəsizlik və xarici siyasətinin formalaşdırılmasında əsas rol oynadı. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, dövlətimizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti

düşünülmüş, ardıcıl və fəal xarici siyasət tələb edirdi.1993-cü ilin ikinci yarısından, yəni Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Özünün zəngin təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Ulu öndər Heydər Əliyev bu yeniləşmiş xarici siyasət xəttində, ilk növbədə, bir sıra ən mühüm təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini qarşıya qoymuşdu. Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də, yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibəni dayandırmaq və dinc şərait təmin etmək vacib idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı. Azərbaycan Respublikasının xarici siyasətində dünya dövlətləri ilə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə yanaşı, beynəlxalq və regional təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi də mühüm yer tuturdu. 1992-ci ildən BMT, ATƏT və İKT-nin üzvü olan Azərbaycan Respublikası həyata keçirdiyi ardıcıl siyasət nəticəsində 2001-ci ildə Avropa Şurasına qəbul edilmiş, Avropa İttifaqı, NATO və başqa təşkilatlarla sıx əlaqələr yaratmış, hal-hazırda da bu qurumlar çərçivəsində qarşılıqlı-faydalı münasibətlərin inkişaf etdirilməsi üçün fəal xarici siyasət yeridir. Əsas məqsəd ölkənin mövcud sərvətlərinə, o cümlədən zəngin neft və qaz yataqlarına sahib olmaq, onlardan dövlətin möhkəmlənməsi, əhalinin həyat şəraitinin yaxşılaşması və ölkənin beynəlxalq mövqelərinin gücləndirilməsi istiqamətində düzgün istifadə etmək idi. Ulu öndər respublikanın zəngin karbohidrogen ehtiyatlarının istifadəsinə daha çox ölkəni, xüsusən Qərb dövlətlərini, ABŞ-ı, Yaponiyanı, regionda xüsusi rolu olan Rusiyanı, Türkiyə və İranı cəlb etmək istəyirdi. Beləliklə, əvvəlki nəsillərin görkəmli nailiyyətlərini inkişaf etdirən müstəqil Azərbaycanın bu günü və sabahı üçün böyük tarixi əhəmiyyət kəsb edən neft strategiyasının hazırlanması və həyata keçirilməsi gələcək nəsillər üçün xoş güzəranın təməlini qoydu. Xarici siyasət sahəsində neft amilindən bacarıqla istifadə edən Ulu öndərimiz Heydər Əliyev neft müqavilələri bağlanması məsələsini nəzarətə aldı, danışıqlara şəxsən nəzarət etdi. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" adlanan müqavilə imzalandı.Hazırda ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Hollandiya, Belçika, Türkiyə, Yaponiya, Norveç, Almaniya, Çin və digər nüfuzlu dövlətlər Azərbaycanla neft və qeyri-neft sahəsində mühüm iqtisadi layihələrdə iştirak edirlər.

## 5. Bədən tərbiyəsi və idman günü

***"İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan himni səslənir, dövlət bayrağı qaldırılır".***

**Ümummillilider Heydər Əliyev**



5 mart ölkəmizdə Bədən tərbiyəsi və İdman günüdür. Bu tarix Prezident İlham Əliyevin "Bədən tərbiyəsi və idman günü"nün təsis edilməsi haqqında 4 mart 2005-ci il tarixli Sərəncamına əsasən qeyd edilir. Ölkəmizdə idmanın inkişafı isə ildən-ilə geniş vüsət alır. Azərbaycanda Bədən tərbiyəsi və İdman gününün martın 5-də qeyd olunması təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub......Prezident İlham Əliyevin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbər seçilməsindən sonra ölkəmizdə idmana, bədən tərbiyəsinə diqqət daha da artdı. Və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı isə tezliklə öz müsbət nəticəsini göstərdi... 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya oyunlarında Azərbaycan idmançılarının qazandığı qələbəni xüsusilə qeyd etmək lazımdır. Pekin Oimpiya oyunlarında Azərbaycan 7 medal qazandı və dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutdu. Olimpiya oyunlarında qazanılan bu qələbə də, heç şübhəsiz, dövlətin idmana münasibətinin nəticəsi idi...

Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda beş mindən artıq medala layiq görülməsi, Olimpiya oyunlarında qazanılan 4 qızıl, 3 gümüş və 9 bürünc medal böyük tarixi nailiyyətdir...

Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın Birinci xanımı, Azərbaycan Gimnastika Federasiyasının Prezidenti Mehriban xanım Əliyevanın ölkəmizdə idmana qayğısı da bu sahənin inkişafına böyük töhfələr verir...Azərbaycan idmanı əsl yüksəliş dövrünü yaşayır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə idmanın və bədən tərbiyəsinin inkişafı sahəsində ardıcıl olaraq görülən tədbirlər Azərbaycanı həm də idman dövləti kimi tanıdır. "Sağlam bədəndə sağlam ruh olar" pirinsipinə söykənərək demək olar ki, Azərbaycan həm də sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir.

## 8. Beynəlxalq Qadınlar günü

***“Qadın kitaba bənzəyir, onu sevərək və diqqətlə oxumaq lazımdır”***

**V.Belinski**



Qadınların kişilərlə bərabər hüquqlu olmaq uğrunda apardığı mübarizənin təmsili başlanğıcı olaraq, 8 mart 1857-ci ildə ABŞ-ın Nyu-York şəhərində geyim sektorunda çalışan yüzlərlə qadının aşağı maaşa, uzun çalışma saatlarına, eyni zamanda pis iş şəraitinə etiraz olaraq tətil etməsi qəbul edilir. 1908-ci il Nyu-Yorkda 15000 qadın, daha qısa çalışma saatı, daha yaxşı gəlir və səsvermə hüququ üçün nümayiş keçirdi. Nümayişdə ayrıca ilk dəfə olaraq dekret icazəsi istəyən qadınların şüarı "Çörək və Gül" idi. Çörək həyat eşqini, qarın toxluğunu, gül isə daha yaxşı rifah həyat tərzini ifadə edirdi.1909-cu ildə isə Avropadaki qadınlar, fevral ayının son bazar gününü, fevralın 28-ni ilk qadın günü olaraq keçirdi.1910-cu ildə 1857-ci il hadisələrdən 52 il sonra Danimarkanın Kopenhagen şəhərində keçirilən Qadın Sosialist İnternasyonalının qurultayında 1857-ci ilin 8 martında Nyu-Yorkda başlayan mübarizənin, qadın hüquqlarının genişləndirilməsi və qadın həmrəyliyinin simvolu olaraq Klara Setkin adlı bir alman sosialist qadını, Amerikada 8 martda yandırılaraq öldürülən 129 qadın işçinin xatirəsinə hər il 8 mart gününü Dünya Qadınlar Günü olmasını təklif etdi və bu təklifi qəbul edildi. Məhz qadınların kütləvi şəkildə savadlanması, müəyyən hüquqlara malik olması həmin dövrə təsadüf edir. Bəlkə də buna görədir ki, 8 Mart digər sosializm mənşəli bayramlardan fərqli olaraq, artıq müstəqillik qazanmış keçmiş SSRİ respublikalarının təqvimindən bu günə qədər silinməyib.1998-ci ildə Azərbaycanda Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Azərbaycan həm də Avropa Şurasının qadınlarla bağlı bürosunda təmsil olunur, BMT-nin qadın məsələləri üzrə komissiyasının tam hüquqlu üzvüdür. 1995-ci ildə isə Azərbaycan rəsmi şəkildə qadınlara qarşı münasibətdə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında beynəlxalq konvensiyaya qoşulub. Hər il bayram günü ərəfəsində dövlət başçısı 8 mart – Beynəlxalq Qadınlar günü münasibətilə Azərbaycan qadınlarına təbrik ünvanlayır, Azərbaycan qadınlarının bir qrupuna fəxri adlar verir, digər bir qrupu isə orden və ya medallarla təltif edir.

## 10. Milli Teatr günü

***"Çox sevindirici haldır ki, Azərbaycanın böyük tarixə malik olan incəsənəti hər il yeni istedadlar yetişdirir. Bu, xalqımızın mədəniyyətinin, incəsənətinin zənginliyini nümayiş etdirir".***

**Ulu öndər Heydər Əliyev**



XIX əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində çox böyük hadisə oldu. 1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M.F. Axundzadənin "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası tamaşaya qoyuldu. Bu şərəfli işdə H. Zərdabi və N. Vəzirov mühüm rol oynamışdılar. Bu tamaşa ilə Azərbaycanda milli teatrın əsası qoyuldu. Azərbaycanda teatr sənəti qədim ənənələrə malikdir. Xalq arasında müxtəlif meydan tamaşaları, kukla teatr tamaşaları ("Maral oyunu", "Kilimarası"), bayram tamaşaları ("Kos-Kosa"), dini səciyyəli tamaşalar ("Şəbih") və s. geniş yayılmışdı. Hələ XVII əsrin ikinci yarısında Azərbaycanda olmuş fransız səyyahı Şarden, Çuxursəd bəylərbəyisinin İrəvan şəhərindəki iqamətgahında qonaq olarkən burada ona üç hissəli bir tamaşa göstərmişdilər. Bu tamaşa Şardenə o qədər xoş təsir bağışlamışdı ki, onu "Şərqin operası" adlandırmışdı. Milli teatrın inkişafında məşhur xeyriyyəçi-mesenat H. Z. Tağıyevin böyük xidməti oldu. O, Bakı şəhərində ilk teatr binası inşa etdirdi. Tezliklə Azərbaycan səhnəsinin Cahangir bəy Zeynalov, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Hüseyn Ərəblinski, Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Mustafa Mərdanov, Məmmədrza Şeyxzamanov, Ağasadıq Gəraybəyli, Əliağa Ağayev, Lütfəli Abdullayev, Nəsibə xanım Zeynalova, Mərziyə xanım Davudova kimi yüzlərlə simaları yetişdi. Azərbaycanda teatr sənətinin inkişafında Hacıbəyov qardaşlarının da böyük əməyi olmuşdur. AXC-nin yaranması milli teatrın fəaliyyətində də canlanmaya səbəb oldu. Dövlətin fəal köməyi və müdaxiləsi nəticəsində Azərbaycan teatrının inkişafında mühüm keyfiyyət dəyişiklikləri baş verdi. Teatrın repertuarına Azərbaycan tarixi və milli azadlıq mübarizəsi ilə bağlı yeni əsərlər gəldi. Cümhuriyyət hökumətinin bu sahədə məqsədyönlü addımlarından biri də Azərbaycan Dövlət Teatrının təşkili oldu.

Bu, Azərbaycan professional teatrının dövlət teatrı statusu alması demək idi. Bu teatrın pərdələri ilk dəfə 1918-ci il noyabrın 4-də N. Nərimanovun "Nadir şah" faciəsinin tamaşası ilə açılmışdı. Sovet hakimiyyəti illərində Azərbaycanda teatr sənəti daha da inkişaf etdi. Məhz martın 10-u Azərbaycan milli teatrının əsası qoyulan günü teatrsevərlər Milli Teatr Günü kimi qeyd edirlər.

## 20-21. Novruz bayramı

***"Novruz bayramı xalqımızı tarixən bütövləşdirən, onun varlığını birlik, böyüklük və yaşam gücü ilə qidalandıran fenomendir. Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir".***

**Ümummillilider Heydər Əliyev**



Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir. Novruzun tərkibi quruluşca mürəkkəb, məzmunca dərin və geniş əhatəlidir. Müasir dövrümüz üçün bu bir milli bayramdır. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, digər türk dövlətlərində və bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunmaqdadır. "Novruz" – hərfi mənada yeni gün deməkdir. Amma, ifadə etdiyi mərasim semantikasına görə keçidin bitməsi və yeni nizamın başlanğıcıdır. Novruza Bozqurd, Çağan, Ergenekon, Nevruz, Sultan Nevruz, Mart Doqquzu, Novruz və s. də deyilmişdir. "Novruz" anlayışı bəzi deyiliş fərqlərilə bir çox türk xalqlarının dillərində işlənməkdədir. Novruz haqqında məlumatlara Ömər Xəyyamın "Novruznamə", Nizamülmülkün "Siyasətnamə", Nizami Gəncəvinin "İsgəndərnamə" və b. əsərlərində rast gəlirik. Qədim dövrlərdə Novruz təkcə xalq bayramı kimi deyil, eyni zamanda, dövlət bayramı kimi qeyd olunmuşdur. Tarixi məlumatlara görə, Novruz bayramı bir ay davam edirdi. Novruz bayramı şənliklərində kütləvi gəzintilər, xalq oyunları, yarışlar, rəqs və nəğmələr oxunması, məzhəkəçilərin və kəndirbazların çıxışları olurdu. Novruz bayramında müharibələr və qarşılıqlı çəkişmələr dayandırılır, sülh müqavilələri bağlanır, hətta dəfn belə növbəti günlərə təxirə salınırdı. Bu bayram o qədər şad və şən bir bayram olmuşdur ki, o günlərdə təkcə təmtəraqlı təntənələr deyil, eyni zamanda, xəstələrə müstəsna diqqət və qayğı göstərilmiş, qohum və dostlara baş çəkilmiş, qohum və yaxınların məzarları ziyarət edilmiş, bir-birinə qarşılıqlı inam və simpatiya ifadə edilərək ümumbəşəri dəyərlər üstün tutulmuşdur.

Novruzun əkinçilik təqvimi ilə bağlı olması tarixdən məlumdur.



Belə ki, bu bayram şimal yarımkürəsində 20-21 martda baş verən yaz bərabərləşməsi ilə əlaqələndirilir. Təbiətin oyanması, canlanması, bitkilərin yenidən öz yaşıl rənginə bürünməsi min illər boyu müşahidə olunmuş və təcrübədə təsdiqlənmiş bir gerçəklikdir. Belə bir yeniləşmə gününün başlanğıcı şəmsi-günəş təqviminin ilk ayının ilk gününə (21 mart) təsadüf edir. Buna görə də həmin günü Novruz (Yeni gün) adlandırıblar. Azərbaycan xalqının təcrübəsində Novruz təqvim mərasimi olmaqdan çıxdıqdan sonra öz əhəmiyyətini azaltmamışdır. Novruz yazın, baharın gəlişinin bayram edilməsidir. İnsanlar təbiətin qışla ölüb yazla dirilməsini bayram edirlər. Novruzda biz bu ritualın rudimentini "Kosa-kosa" oyununda görürük. Bu oyunda Kosanın ölümü simvollaşdırılmışdır. Baharın gəlişi, havaların istiləşməsi, qarın əriməsi, təbiətin canlanması bütün insanlara olduğu kimi türklərə də dərin təsir etmiş, həyəcanlandırmış və bu dəyişikliyi müxtəlif mərasimlərlə qeyd etmələrinə səbəb olmuşdur. Türk sözü olan bayram M. Kaşğarlının "Divan"ında "Bedhrem" (bayram) – bir yerin işıqlarla və çiçəklərlə bəzənməsi və orada sevinc içində əylənilməsidir" – şəklində izah edilmişdir. "Novruz" tərkib elementləri etibarilə arxaik ritualdır, mövsüm mərasimidir, təqvim bayramıdır və ya milli bayramdır. Bunlardan sonuncusu, yəni müasir milli bayram anlayışı onların məcmusunu özündə ehtiva edir. Novruzun tərkibində arxaik ritual elementlərinin (səməni cücərtmə, tonqal qalama, tonqal üstündən tullanma, qulaq falı və ya qapı dinləmə, yumurta boyama və yumurta döyüşmə, qurşaq atdı, kosa-kosa, kəndirbaz oyunu, deyimlər, nəğmələr və s.) bəzən geniş şəkildə və bəzən də rudimentlər kimi müşahidə olunması onu ritualşünaslıq aspektindən də araşdırmağı şərtləndirir. Novruz bayramı ərəfəsində bayram hazırlıqları başlanır. Buraya ev-eşiyin, həyət-bacanın təmizlənməsi, yeni paltarların alınması, bayram bazarlığı, bayram yeməklərinin hazırlanması və s. daxildir. Bayramda müqəddəs yerlər ziyarət edilir, qohumlara baş çəkilir, bayramlaşılır, küsülülər barışır, kasıblara yardım edilir, bayram payı paylanır və s. "Toxum cücərtmək" və ya "Səməni qoymaq" da bir şəkildə təbiəti canlandırmaq, ona təsir etmək vasitəsi kimi anlaşılır. "Qulaq falı" və ya "qapı pusmaq" yeniləşmənin məlumat səviyyəsini əks etdirir. Novruza aid olan bayram adətlərindən biri də müxtəlif şəkildə adlandırılan torba atmaqdır. Novruzla bağlı orta əsrlərə aid yazılı qaynaqlarda bu adətlərin zərdüştlük dönəmində mövcud olduğu və onun xüsusi icraçılar – Zərdüşt kahinləri tərəfindən yerinə yetirildiyi haqqında məlumat verilir. Sonrakı dövrlərdə "torba atmaq" "qurşaq atmaq" və ya "şal sallamaq"la əvəzlənmişdir. Əlbəttə, burada məişət mədəniyyətindəki dəyişikliklər öz təsirlərini göstərmişdir. Novruz bayramının ritual əsaslarının təhlilindən gəldiyimiz qənaətlərə görə, onun yaranışı nə zərdüştlüklə, nə də islam dini ilə əlaqəlidir.

## 21. Beynəlxalq poeziya günü

***“İnsanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, insanlırın mənəviyyatına, əxlaqına, tərbiyyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur.”***

**Ulu öndər Heydər Əliyev**



1999-cu ildə YUNESKO-nun 30-cu iclasında 21 mart beynəlxalq poeziya günü elan olundu. Bu hadisə xalqımız üçün ikiqat bayrama çevrildi. Çünki ruhun musiqisi adlandırılan bəşəri poeziyanın ritmik notları ilə baharı, çiçəklənməyə hazırlaşan ecazkar təbiəti, saflıq və birlik rəmzi olan əziz Novruzu salamlamaq doğrudan da əsl səadətdir. Səadətdir, həm də ona görə ki, Odlar Yurdumuz, iqtisadi sərvəti ilə zəngin olan anamız Azərbaycan həm də mənəvi sərvəti ilə məşhurdur və əsrlərdən bəri də məşhur olub. Xalqımız şeriyyətə və mədəniyyətə misilsiz töhvələr, nadir söz ustadları, böyük sənətkarlar bəxş edib. Odur ki, Azərbaycanın ürəyi həm də şeirlə, poeziya ilə bərabər döyünüb. Zaman ötdükcə, böyük Səməd Vurğunumuz da məmləkətimizi şeir, sənət ocağı kimi sevdirdi. Bu ocağın neçə-neçə unudulmaz söz sahiblərindən biri olan sevimli Şəhriyar qəlbini, ruhunu şeirə, sözə, poeziyaya bağışlayıb dedi:

Şeir mədəniyyət, incəsənətdir,
Incə ruh, incə zövq, incə sənətdir.
O da musiqi tək qəlbin səsidir,
Həyatın ən böyük möcüzəsidir.

Həyatın ən böyük möcüzəsinə, şeirə rəsmi tərif versək, əlbəttə, deməliyik ki, şeir - mənzum söz sənətidir. Nəsrdən fərqli olaraq, fikrin vəznli, obrazlı, ritmik, qafiyəli ifadəsidir. Fransız yazıçısı Anatol Frans haqlı olaraq qeyd edib ki, şeirlə insan ruhu arasında qədim bir ünsiyyət var. Buna görə də insanın sevincli və kədərli anlarında şeir həmişə onunladır. Bu məqamlarda Livan yazıçısı və rəssamı Xəlil Cübranın sözləri yada düşür: "Şeir qanı axan yaranın və ya gülümsəyən dodaqların nəğməsidir". Rus şairi, Nobel mükafatı laureatı İosif Brodski səmimi şəkildə bildirib ki, poeziya ən yaxşı sözlərin ən yaxşı düzümü deyil, poeziya dilin adi mövcudluq formasıdır.İslam dininin böyük yaradıcısı, müsəlman aləminin fəxri olan Məhəmməd Peyğəmbər hələ neçə əsr bundan qabaq daim insanlara tövsiyə edib ki, şeir əzbərləyin, çünki şeir dili düzəldir, danışığı, nitqi gözəlləşdirir. Zaman-zaman dahilər "Poeziya sözlərin, ruhun musiqisidir. Poeziya həyatın çırağıdır" - deyə bu həyatı varlığa yüksək dəyər verib.

## 23. Ümumdünya Metereologiya günü



***Hər kiçik yarpağı da***
***Bulağı da***
***Suyu da.***
***Havanı da qoruyaq.***
***Quşların sığındığı***
***Yuvanı da qoruyaq!***

**Əhməd Cəmil**

Ümumdünya Metereologiya günü 1950- ci ildən, yəni ÜMT- nin yaradılması barədə konvensiya qüvvəyə minəndən bəri ənənəvi olaraq hər il bir deviz altında keçirilir. Mərkəzi Cenevrədədir. Ümumdünya Metereologiya Konqresi hər 4 ildən bir keçirilir. Azərbaycan 1993- cü il sentyabrın 3- dən Ümumdünya Metereologiya Təşkilatının üzvüdür və Ümumdünya Meteorologiya Təşkilatının Konvensiyasına qoşulub və bu konvensiyadan irəli gələn bütün tələblərə əməl edərək, mütəmadi olaraq meteoroloji, hidroloji, iqlim müşahidələri aparır, məlumatların beynəlxalq və regional mübadiləsini təmin edərək, təşkilatın qəbul etdiyi qərarları icra edir.

**Tariximizin qan yaddaşı**
## 31. Azərbaycanlıların soyqırımı günü




***Bu günün misli keçən il, Allahım, gözdən iraq,***
***Ermənilər əldə bomba, süngü, xəncərlər, bıçaq,***
***Kəsdilər evlərdə minlərcə gəlin, arvad, uşaq,***
***Südəmərlər nizə nukində çalardı əl-ayaq.***
***Nalə, yalvarmaq bu qövmə hərgiz etməzdi əsər.***

**Hacı Səlim Səyyah**

31 mart Azərbaycanlıların soyqırımı günüdür. Tarix boyu azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı lap əvvəldən rus-erməni praktik işbirliyinin nəticəsi olub. Düz 88 il öncə Bakıda tarixə "mart qırğını" kimi düşən qanlı hadisələr baş verdi. Əsrin əvvəllərində baş vərən bu qanlı hadisənin unutdurulması və hardasa unudulmasının nəticəsidir ki, əsrin sonunda Azərbaycan tarixinə daha bir soyqırım Xocalı faciəsi yazıldı. Sovet dönəmində üstündən sükutla keçilən mart qırğınları 1998-cı ildən etibarən, ulu öndərimiz Heydər Əliyevin 26 mart tarixli fərmanına əsasən, hər il martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Tarixi

faktlar göstərir ki, 31 mart əslində, 1918-1920-ci illər ərzində zaman-zaman Azərbaycanın ən müxtəlif bölgələrində həyata keçirilən soyqırımların anım günüdür. 88 il əvvəl məhz həmin gün bolşevik-erməni birləşmələri təkcə Bakıda minlərlə Azərbaycan türkünü qanına-qəltan edib. Bundan əvvəl və sonra bu cür soyqırımlar çox törədilsə də, 1918-ci il martın 31-də baş verən qətl öz miqyasına görə bunların hamısından fərqlənir... Qeyd edək ki, hələ martın 31-nə qədər, daha dəqiqi, martın 18-21-də də Bakıda dəhşətli hadisələr baş vermişdi. Dörd gün ərzində şəhərin müsəlman əhalisi top atəşinə tutulur, güllələnir, diri-diri yandırılırdı. Bəzi məlumatlara görə, həmin günlərdə çox sayda müsəlman qətlə yetirilmişdi. Qırğının törədilməsinin başlıca səbəbi Azərbaycanın müstəqilliyinin qarşısının alınması, Bakının mühüm iqtisadi və siyasi əhəmiyyəti ilə bağlıydı. Soyqırım təkcə Bakı ilə məhdudlaşmadı. Şamaxı, Quba, Xaçmaz, Hacıqabul və Salyanda da analoji cinayətlər törədildi. Məsələn, ingilis arxivlərini öyrənən türk tarixçisi Salahi Sonyel elə qənaətə gəlib ki, 1918-ci ilin martında 8-12 min azərbaycanlı qətlə yetirilib. ABŞ tarixçiləri C. və K.Makkartilər də 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlman öldürdüyünü və şəhərin türk əhalisinin yarısının qaçdığını yazırlar. ABŞ kəşfiyyat mənbələrinə görə, həmin vaxt 60 min Azərbaycan türkü qaçqına çevrilmişdi. 1918-ci ilin martında Bakıda törədilənlər Azərbaycan xalqının tarixində ən böyük soyqırım oldu. Bu dəhşətli hadisə və regionda böyük dövlətlərin maraqlarının toqquşması ilk növbədə Osmanlı dövlətinin Azərbaycan siyasətini fəallaşdırdı. Azərbaycanda müsəlman əhalisi üzərində törədilən kütləvi soyqırım İslam və Türk Dünyası qarşısında məsuliyyət daşıyan Osmanlı dövlətini hərəkətə gətirdi. Lakin bu soyqırım nəticəsində əhali qaçqına çevrildi, Bakıda milli qüvvələr zəiflədi, dövlət müstəqilliyinin elan olunması yubadıldı. Amma bu hadisə dövlət müstəqilliyi uğrunda mübarizənin necə vacib və qaçılmaz olduğunu bir daha təsdiq etdi. 1998-ci il martın 26-da prezident Heydər Əliyəv "Azərbaycanlıların soyqırımı haqqında" fərman imzaladı. Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənəddə 31 martın Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması təsbitləndi. Ötən dövr ərzində Azərbaycan dövləti tarixi gerçəklikləri, xalqımızın tam iki əsr boyu məruz qaldığı soyqırımı və etnik təmizləmənin dəhşətli miqyasını beynəlxalq aləmə çatdırmaq üçün xeyli iş görüb. Amma bu, yetərli deyil. Çünki hələ də dünya miqyasında ermənilərin saxta "tarixi" bizim gerçək tariximixi üstələyir. Ən əsası isə odur ki, tarix boyu xalqımızın başına nələrin gətirildiyini, çəkdiyimiz müsibətlərin gerçək miqyas və mahiyyətini özümüz dərindən dərk etməliyik. Bunun üçün isə həmin tarixi təkcə 31 mart günü deyil, hər gün xatırlamağa, öyrənməyə və unutmamağa borcluyuq.

***“Bizə miras qoyub ərən babalar,***
***Dilimiz, Torpağımız, Qeyrətimiz!”*** **Şah İsmayıl Xətai**

## Xalqımızn qəhrəman oğulları

***"Xalqımızın içində böyük bir mədəniyyət potensialı, fitri istedad potensialı vardır"***

**Ümummillilider Heydər Əliyev**

### 3.Hərbi xadim, artilleriya generalı Əliağa Şıxlinskinin anadan olmasının 150 illiyi (1865-1943)



**Əliağa İsmayıl ağa oğlu Şıxlinski (3 mart 1865 - 18 avqust 1943) — Rusiya imperator ordusunda artilleriya generalı, Azərbaycan Demokratik Respublikasının Hərbi nazirinin müavini, sovet hərb xadimi.**

Əliağa Şıxlinski 1865-ci il martın 3-də Yelizavetpol quberniyasının Qazax qəzasının kəndində anadan olmuşdur. 1883-cü ildə rus ordusunda hərbi xidmətə başlayan Şıxlinski 1886-cı ildə Peterburq artilleriya məktəbini əla qiymətlərlə bitirdi. 1904-1905-ci illər rus-yapon müharibəsində batareya komandiri kimi vuruşdu. Port-Artur qalasının müdafiəsi zamanı xüsusi şücaət göstərdiyinə görə "Qızıl qılınc"la mükafatlandırıldı. Müharibədən sonra topçu zabitlər hazırlayan məktəbdə yüksək ixtisaslı hərbçi kimi dərs deməyə başlayan Şıxlinski 1908-ci ildə polkovnik rütbəsi aldı. Hərb elminin daha da dərindən mənimsənilməsi üçün yazdığı, dərs vəsaiti kimi istifadə edilən "Səhra toplarının cəbhədə işlədilməsi" əsəri 1910-cu ildə çap olundu. Bundan əlavə, onun "Şıxlinski üçbucağı", "Şıxlinski formulu" adlı hərbi yenilikləri topçu zabitlər üçün hazırlanmış dərsliklərə daxil edildi. Bütün bu xidmətlərinə görə gənc hərbçiyə 1912-ci ildə general-mayor rütbəsi verildi. Beləcə o, çar ordusunun aparıcı mütəxəssislərindən birinə çevrildi.1914-cü ildə baş verən I Dünya Müharibəsi zamanı Petroqradın artilleriya müdafiəsi general Əliağa Şıxlinskiyə tapşırıldı. Sonralar Qərb cəbhəsi artilleriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrından isə 10-cu ordunun komandanı təyin olundu.1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının yaranması Əliağa Şıxlinskini vətəninə qayıtmağa məcbur etdi. 1918-ci ilin dekabr ayında artilleriya general-leytenantı Əliağa Şıxlinski hərbi nazirin müavini təyin edildi. Şıxlinski Moskvada Hərbi İnqilab Sovetinin səhra Qərargahında çalışdı. 1921-ci ilin yayında isə o, Azərbaycan Sovet Qoşunları Qərargahına göndərildi. Bir müddət Bakı Qarnizonu Hərbi Elmi Cəmiyyətinin sədr müavini işləyən general, sonradan Qafqaz Ordusu Hərbi İnqilab Şurası yanında Azərbaycan Hərbi Nəşriyyat Kollegiyasının sədri kimi çalışmağa başladı. 1924-cü ildə isə Birləşmiş Hərbi Komanda Heyəti Məktəbinə rəis müavini təyin edildi.1928-ci ildə "Rusca-Azərbaycanca qısa hərbi lüğət" çap etdirən Şıxlinski məhz buna görə SSRİ Hərbi İnqilab Şurasının Fəxri Fərmanı ilə təltif edildi. 1929-cu ildən istefaya çıxan general-leytenant Əliağa Şıxlinski bir çox orden və medallarla, o cümlədən Fransanın yüksək hərbi ordenləri ilə təltif olunmuşdur. Əliağa Şıxlinski 18 avqust 1943-cü ildə Bakıda vəfat etmişdir.

# İncəsənət

***"Yüksək mədəniyyətə malik olan xalq, irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir..."***

**Ulu öndər Heydər Əliyev**

## 9. Aktyor Əhməd Qəmərlinskinin anadan olmasının 135 illiyi (1880- 1952)

***"Teatr və kino tarixində elə adlar var ki, on illər keçsə də, həmin bu adlar unudulmayacaq. Əhməd Qəmərlinski də bu şəxsiyyətlərdəndir."***

**Əməkdar İncəsənət Xadimi Aydın Kazımzadə**



Əhməd Haşım oğlu Qəmərlinski (Məlikov) 1880-ci ildə Bakıda anadan olub. İçərişəhərdə boya-başa çatan Əhməd Məlikov Sultanməcid Qənizadənin məktəbində təhsil alıb. Səhnəyə ilk dəfə 1906-cı ildə Balaxanıda həvəskar aktyorların hazırladığı "Adı Var, Özü Yox" (N.B.Vəzirov) tamaşasında çıxıb. Sonralar "Nicat" Cəmiyyətinin nəzdindəki teatr truppasının aktyoru olub. 1908-ci ildən etibarən Azərbaycanın bir sıra kənd və rayonlarını gəzib, ən ucqar guşələrdə aktyor dostları ilə birlikdə çıxışlar edib. 1924-cü ildən Bakı Azad Tənqid Təbliğ Teatrının aktyoru və rejissoru olub. Qəmərlinski ləqəbini ona Hüseyn Ərəblinski verib. Qəmərli kəndindən qastroldan qayıdarkən dostuna Qəmərlinski təxəllüsünü təklif edib və Əhməd həyatının sonunadək bu familiyanı daşıyıb. Əhməd Qəmərlinski ədəbi yaradıcılıqla da məşğul olub, tarixi və müasir mövzuda yazdığı 12 əsərinin demək olar ki, hamısı 1910-1920-ci illərdə H.Ərəblinski, S. Ruhulla və başqa görkəmli sənətkarlar tərəfindən tamaşaya qoyulub. Bunlardan "Cavanlar", "Tufan Kərbəla", "Rüstəm və Söhrab", "Məkri-zənən", 1920-1945-ci illərdə yazılmış "Eşq-məhəbbət", "Məktəb vodevili", "Ziyarət nəticəsi", "Maymaq" və s. kiçik həcmli pyeslərdə Əhməd Qəmərlinski ictimai həyatda baş verən mühüm problemlərə toxunub. Əməkdar incəsənət xadimi (1940) Əhməd Qəmərlinski 9 mart 1952-ci ildə vəfat edib.

**Filmoqrafiya:**

1. İsmət (film, 1934)
2. Almaz (film, 1936)(tammetrajlı bədii film)-rol: kənd sovetinin sədri Balaoğlan
3. Səbuhi (film, 1941)
4. Sovqat (film, 1942)

**10. Xanəndə, xalq artisti Canəli Əkbərovun anadan olmasının 75 illiyi (1940)**

***"Canəli Əkbərov müasir musiqi sənətimizdə öz dəst-xətti ilə seçilən, xanəndəlik məharəti və səhnə mədəniyyəti ilə musiqisevərlərin dərin hörmət və məhəbbətini qazanmış sənətkardır."***

**Ulu öndər Heydər Əliyev**

**Azərbaycan Respublikasının əməkdar artisti (1989) və xalq artisti (1992) fəxri adları var. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Muğam sənəti" kafedrasının müdiri vəzifəsində çalışır.**



Əkbərov Canəli Xanəli oğlu 10 mart 1940-cı ildə Lənkəran rayonunun Tükəvilə kəndində anadan olmuşdur. 2002-ci ildə Şöhrət ordeni ilə təltif olunmuşdur. Canəli Əkbərov muğamın sirlərini atasından öyrənmişdir. Canəli Əkbərov musiqi təhsilini Bakıda Azərbaycan Dövlət Musiqi Məktəbində almışdır. Müəllimləri Seyid Şuşinski və Xan Şuşinskidən muğam ifaçılığının qayda-qanunlarını mənimsəyir və öz ifaçılıq qabiliyyətini təkmilləşdirir. 1965 ci ildən Canəli Əkbərov Azərbaycan Dövlət Filarmoniyasının solisti, 1976-cı ildən bu günə kimi Azərbaycan Dövlət Opera və Balet Teatrının solistidir. Xanəndə bu teatr səhnəsində muğam operalarında bir sıra yadda qalan obrazlar: Məcnun və İbn-Səlam (Ü.Hacıbəyov – "Leyli və Məcnun"), Şah İsmayıl (M.Maqomayev – "Şah İsmayıl"), Aşıq Qərib (Z.Hacıbəyov – "Aşıq Qərib") obrazlarını yaratmışdır. Canəli Əkbərov xarici ölkələrdə - Almaniyada, Malidə, Avstriyada və s. ölkələrdə dəfələrlə qastrol səfərlərində olmuşdur.Səmərqənddə keçirilən Şərq musiqi simpoziumunda və Kuybışevdə Şərq xalqlarının musiqi festivalında böyük nailiyyət əldə etmişdir. Canəli Əkbərovun ifa etdiyi bütün muğamlar, dəsgahlar vallara və disklərə yazılmlşdır. Canəli Əkbərov hal-hazırda muğam müəllimi kimi gənc xanəndələr nəslini yetişdirir.

**Əsas rolları**: Məcnun ("Leyli və Məcnun"), Kərəm ("Əsli və Kərəm"), Qərib ("Aşıq Qərib"), Camal ("Gəlin qayasi"), Şah İsmayıl ("Şah İsmayıl), Azançı ("Sevil"), Axund ("Aldanmış ulduzlar").

**Filmoqrafiya**

Havalansın Xanın səsi (film, 2001)
Mənsuriyyə sorağında (film, 2002)
Zəlimxan dastanı (film, 2007)
Biz qayıdacağıq (film, 2007)
Muğamat var olan yerdə... (film, 2009)

**10. Baletmeyster, ilk azərbaycanlı balerina, xalq artisti Qəmər Almaszadənin anadan olmasının 100 illiyi (1915).**

***"Qəmər xanım müsəlman Şərqinin ilk peşəkar balerinasıdır. O, Azərbaycan qadınlarının XX əsrdə incəsənət sahəsindəki uğurlarının təməlini qoymuş, musiqi mədəniyyətimizdə yeni janrın meydana çıxmasına güclü təkan vermişdir."***

**Ulu öndər Heydər Əliyev**



**Qəmər Almaszadə 1940-cı il 4 may tarixində Azərbaycan Respublikasının əməkdar artisti, 1943- cü il 17 iyunda xalq artisti, 1959- cu il 9 iyunda SSRİ xalq artisti fəxri adlarına və 1952- ci ildə isə Stalin mükafatına layiq görülüb. O, 1970-72- ci illərdə İraqda işləyib, burada ilk pofessional xalq rəqs ansamblı təşkil edib. O, SSRİ Dövlət mükafatı laureatı olmuş, bir sıra orden və medallara layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.**

Görkəmli balet ustası, SSRİ xalq artisti, Qəmər Hacağa qızı Almaszadə 1915-ci il martın 10-da Bakı şəhərində anadan olmuşdur. Səhnə fəaliyyətinə 1929-cu ildən başlamış və 1932-ci ilədək Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında balet artisti kimi çalışmışdır. O, 1932-33-cü illərdə Moskvada Bolşoy Teatr nəzdindəki xoreoqrafiya məktəbində oxumuş, sonralar isə xoreoqrafiya təhsilini Leninqradda (indiki Sankt-Peterburq) davam etdirmişdir.Təhsilini tamamlayaraq Bakıya qayıdan Qəmər xanım ömrünün sonunadək həyatını Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə bağlamışdır. Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş bir çox əsərin uğuru məhz Qəmər Almaszadənin verdiyi quruluşla bağlı olmuşdur. Görkəmli balet ustası klassik xoreoqrafiya ənənələri ilə Azərbaycan xalq rəqs yaradıcılığı nailiyyətlərinin ahəngdar vəhdətini yarada bilmişdir. Qəmər Almaszadə Azərbaycan Dövlət Filarmoniyasında rəqs ansamblının təşkilatçısı və bədii rəhbəri olmuşdur. Qəmər Almaszadə 2006-cı il aprelin 7-də ömrünün 92-ci ilində vəfat etmişdir. İlk azərbaycanlı balerina Qəmər Almaszadə Azərbayacan Dövlət Opera və Balet Teatrında Reynqold Qlierin "Qırmızı lalə", Adolf Adanın "Korsar" (Medora), Boris Asafyevin "Bağçasaray fəvvarəsi" (Mariya və Zarema), Aleksandr Qlazunovun "Raymonda" (Raymonda), Sezar Puninin "Esmeralda" (Esmeralda), Pyotr Çaykovskinin "Şelkunçik" (Maşa), "Sonalar gölü" (Odetto-Odiliya), Lüdviq Minkusun "Don Kixot" (Kitri), Əfrasiyab Bədəlbəylinin "Qız qalası" (Gülyanaq), Qara Qarayevin "Yeddi gözəl" (Aişə), Niyazinin "Xosrov və Şirin" (Rəqqasə), Aleksandr Kreynin "Laurensiya" (Laurensiya) baletlərində əsas partiyaları uğurla ifa etmişdir. Ü. Hacıbəyovun "Koroğlu" və Müslüm Moqamayevin "Nərgiz" operalarında rəqqasə qızı oynayıb.

**11. Xalq artisti, aktyor Bəşir Səfəroğlunun anadan olmasının 90 illiyi (1925-1969).**

***"Bizim mədəniyyətimizin nə qədər dəriliyi var, yüksəkliyi var. Biz nə qədər zənginik!***

**Ulu öndər Heydər Əliyev**



**Sənət uğurlarına görə 29 iyun 1964-cü ildə Bəşir Səfəroğluna Azərbaycanın əməkdar artisti, 25 iyun 1968-ci ildə xalq artisti fəxri adları verilib.**

Bəşir Səfəroğlu 11 mart 1925-ci ildə Bakıda doğulub. Bəşir Səfəroğlu Üzeyir və Zülfüqar Hacıbəyovun klassik operettalarında, əsasən isə çağdaş dramaturq və bəstəkarların musiqili komediyalarında müxtəlif xarakterli, satirik, yumoristik, məzhəkəli rollarda çıxış edib. Aktyor yaradıcılığında xüsusi yer tutan əsas rolları: Möhsün "Beş manatlıq gəlin", Qaradavoy və Çiko, Usta Məhərrəm, Qoçu Əsgər və Məşədi İbad, Uzun və Nəcəf "Durna", Qədir və Gülümsərov "Ulduz", Səlyanski və Qəhrəman "Gözün aydın", Ohan yüzbaşı və Hacı Qara "Xəsis", Kazbek "Kəndimizin mahnısı", Şulu, Muxtar bəy ("Əlli yaşında cavan" və "Evliykən subay", Mir İsmayıl "Qızıl axtaranlar" Baləmi,"Bir dəqiqə", Hacı Kərim "Hacı Kərimin Aya səyahəti Qoçu "Keçmişin məişət səhnələri", Nadir və Azay "Qızılgül", Polis rəisi "Özümüz bilərik", "Olmadı elə, oldu belə" və "Milyonçunun dilənçi oğlu", "Səndən mənə yar olmaz", Firuzbala "Altı qızın biri Pəri", Səbzəli "Bizə bircə xal lazımdır", Qasiyane ("Tiflis nəğməsi", Əsgər Nəcəfoviç "Ləpələr", "Əhməd haradadır?" və "Ulduz" filmlərində Sərxoş və Gülümsərov, "Tacikfilm"in çəkdiyi "Xoca Nəsrəddinin 12 qəbri" kinolentində Xacə Nəsrəddin rollarını ifa edib. Altmışıncı illərin ortalarında Azərbaycan Dövlət Filarmoniyasında "Gəlməli, görməli, gülməli" miniatür teatrı təşkil olunub. Onun üzvləri xalq artisti Əliağa Ağayev, əməkdar artist Müxlis Cənizadə, aktrisa Ofeliya Abbasova (Məmmədzadə) və Bəşir Səfəroğlu idilər. Bu kollektivdə Bəşir Səfəroğlu onlarla satirik obraz yaradıb. Rejissor Rauf Kazımovski görkəmli gülüş ustası Bəşir Səfəroğlu haqqında eyni adlı bədii-sənədli televiziya filmi çəkib. Bəşir Səfəroğlu Bakıda, 44 yaşına yenicə qədəm basanda, 23 mart 1969-cu ildə vəfat edib. Məzarı Bakıdakı Fəxri Xiyabandadır.

**Filmoqrafiya**

1. Aygün (film, 1960)
2. Qəribə əhvalat (film, 1960)
3. Əhməd haradadır? (film, 1963) - sərxoş Əhməd
4. Ulduz (film, 1964) - Gülümsərov
5. Yun şal (film, 1965)
6. Yaşamaq gözəldir, qardaşım! (film, 1966)
7. Nəsrəddin Xocanın 12 qəbri (film, 1966)
8. Bəşir Səfəroğlu (film, 1969)
9. Aktrisanın təbəssümü (film, 1974)

**16. Bəstəkar, cazmen Vaqif Mustafazadənin anadan olmasının 75 illiyi (1940-1979)**

***“Azərbaycanın caz sənətindən söz düşəndə ilk növbədə V. Mustafazadə yada düşür. O, XX əsr milli musiqimizə tamamilə yeni ruh və abu-hava gətirdi O, Azərbaycan Muğam Caz Hərəkatının memarıdır.”***

**Oktay Hacımusalı**



**Vaqif Əziz oğlu Mustafazadə (16 mart 1940 - 16 dekabr 1979) — bəstəkar, pianoçu, caz-muğamın banisi. Azərbaycanın əməkdar incəsənət xadimi (1979).**

16 mart 1940-ci ildə Bakı şəhərində İçəri şəhərdə anadan olmuşdur. 1963-cü ildə Asəf Zeynallı adına Bakı Musiqi Kollecini bitirib Bakı Musiqi Akademiyasına daxil olmuşdur. İlk məşhurluq da elə bu zaman gəlir. Vaqif burada kiçik konsertlər verir, klublarda çıxış eləyir. O əsasən klassik caz, bluz və oynaq mahnılar ifa edir.1964-cü ildən "Orero" ansamblına, "Qafqaz" caz üçlüyünə, "Leyli" və "Sevil" qadın vokal instrumental və "Muğam" instrumental ansambllarına rəhbərlik etmişdir. Beynəlxalq caz müsabiqələri və festivallarının ("Tallin-66", "Tbilisi-78") laureatı olmuşdur.1979-cu ildə Monakoda qeyri adi şərtlərlə yeni festival keçirilir. Bu festivalın şərtlərinə görə əsərin müəllifi, ifaçısı və ölkəsi gizli saxlanılmalıdır. Festival başa çatdıqdan sonra 100-lərlə naməlum ad içərisindən bizə doğma ad çəkilir. Azərbaycan, Vaqif Mustafazadə. Monako caz festivalından vətənə “Ağ royal” mükafatı ilə qayıdır və növbəti konsertlərinə hazırlaşır. Fortepiano və simfonik orkestr üçün konsertin, "Muğam" simfoniyasının (tamamlanmamış), bir sıra caz kompozisiyalarının və pyeslərin müəllifidir.Vaqif Mustafazadə Azərbaycan caz musiqisinin banisi və yeni caz fikrinin (devizinin) təsisçisidir. O, Azərbaycan musiqisinin, muğamın klassik Amerikan caz musiqisi ilə sintezini yaradıb. Onun yeni devizi Caz-Muğam adlanır.. Xalq musiqisi, muğamdakı improvizasiyalarda caz elementləri görmüş və orijinal bir janr ortaya çıxarmış „Muğam” simfoniyasının müəllifi Vaqif Mustafazadə 1979-cu ildə Azərbaycan Respublikasının əməkdar artisti fəxri adına layiq görülür. 1982-ci ildə artıq ölümündən sonra Azərbaycan Dövlət Mükafatına layiq görülüb. O, 16 dekabr 1979-cu ildə Daşkənddə qastrol zamanı ürək tutmasından vəfat etmişdir. Bakıda dəfn olunmuşdur.

**22. Aktrisa, xalq artisti Zəroş Həmzəyevanın anadan olmasının 90 illiyi (1925-2004)**

***"Ömrünün yarıməsrlik bir dövrünü teatra həsr etmiş Zəroş Həmzəyeva Azərbaycan aktyorluq məktəbinin təşəkkül tapıb inkişaf etməsində böyük xidmətləri olan sənətkarlardandır."***

**Ulu öndər Heydər Əliyev**



Zəroş Həmzəyeva milli teatr sənətimizin inkişafında xüsusi yeri olan, zəngin yaradıcılıq irsinə malik aktrisalardandır. Zəroş Mirzəbağır qızı Həmzəyeva 22 mart 1925-ci ildə Naxçıvan Muxtar Respublikası Babək rayonunun Nehrəm kəndində doğulub. Səhnəyə ilk dəfə 1941-ci ildə, on altı yaşında çıxıb. Onu peşəkar səhnəyə İbrahim Həmzəyev cəlb edib. İlk səhnə obrazı kimi Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər" komediyasında Yetər rolunu oynayıb. Zəroş Həmzəyeva 1948-ci ildə həyat yoldaşı İbrahim Həmzəyevlə birlikdə Qaryagin (indiki Füzuli) Dövlət Dram Teatrında aktrisa işləyib. Bir il ərzində burada ondan çox səhnə obrazında çıxış edib. Aktrisa bir sıra tamaşalarda, xüsusən "Vaqif" tamaşasında Xuraman rolunda Akademik teatrın görkəmli sənətkarları ilə tərəfmüqabil olub. Azərbaycan Respublikasının əməkdar artisti (1956) və xalq artisti fəxri adlarına layiq görülüb (7 oktyabr 1967). 1995-ci ildə fəxri təqaüdə çıxıb. Bakıda vəfat edib və ikinci Fəxri xiyabanda dəfn olunub. Zəroş Həmzəyeva dramaturq Cəfər Cabbarlının qadın qəhrərnanlarının ən yaxşı ifaçılarından sayılır. O, müxtəlif illərdə və müxtəlif rejissorların quruluşlarında ədibin "Solğun çiçəklər" (Sara), "Nəsrəddin şah" (Sitarə), "Aydın" (Gültəkin), "Sevil" (Sevil), "Almaz" (Almaz və Yaxşı), "1905-ci ildə" (Sona), "Od gəlini" (Solmaz), "Oqtay Eloğlu" (Firəngiz), "Yaşar" (Yaqut) dramlarının tamaşalarında baş rolları ifa edib. Aktrisanın baş rollar siyahısında Xumar, Südabə ("Şeyx Sənan" və "Səyavuş", Hüseyn Cavid), Estrelya ("Sevilya ulduzu", Lope de Veqa), Şirin və Məryəm ("Fərhad və Şirin", Səməd Vurğun), Gülcahan ("Nadir şah", Nəriman Nərimanov), Süsən ("Namus", Aleksandr Şirvanzadə), Gülcamal ("Qatır Məmməd", Zeynal Xəlil), Dezdemona ("Otello", Vilyam Şekspir), Zinyət və Zalxa ("Toy", Sabit Rəhman), Məhsəti, İsmət ("Məhsəti" və "İsmət", Kəmalə Ağayeva), Mətanət ("Çicəkli dağ", Məmmədhüseyn Təhmasib), Luiza ("Sahil əməliyyatı", Cəmşid Əmirov) kimi sanballı xarakterlər var. Zəroş xanımın kiçik, lakin ürəyəyatımlı və şirin səsi olub. Buna görə də Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Leyli və Leylinin anası), "Əsli və Kərəm" (Əsli) operalarında, "Arşın mal alan" (Gülçöhrə, Telli və Asya), "Məşədi İbad" (Gülnaz), Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay" (Pərizad), Məcid Şamxalovla Zakir Bağırovun "Qaynana" (Afət) operettalarında əsas partiyaları ifa edib.

**Bəstəkar, professor Əşrəf Abbasovun anadan olmasının 95 illiyi (1920-1992)**

***"Yaşadığı mühitin varlığına nüfuz etməyən, müasirlərinin həyatı, arzu və istəkləri ilə yaşamayan sənətkarlar heç vaxt xalq tərəfindən sevilən əsərlər yarada bilməz. Əşrəf Abbasov daim axtaran, qəhrəmanının daxili aləminə nüfuz etməyi bacaran, onu sevib, düşünən, qurub-yaradan bir insandır."***

**C. Həsənova**



**Abbasov Əşrəf Cəlal oğlu - Azərbaycan bəstəkarı, musiqişünas və pedaqoq, Azərbaycanın əməkdar incəsənət xadimi (1963), Azərbaycanın xalq artisti, professor (1968).**

Əşrəf Cəlal oğlu 1920-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Orta məktəbi doğma şəhərində tamamlamış, 1948-ci ildə Azərbaycan Konservatoriyasını, 1952-ci ildə isə Moskva Dövlət Konservatoriyasının aspiranturasını bitirmişdir. 1953–1957-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının rektoru olmuşdur. Əşrəf Abbasov 1965-ci ildə ilk Azərbaycan uşaq baleti "Qaraca qız"ı yazmışdır. O, fortepiano və orkestr üçün konsertin (1946), simfonik orkestr üçün "Konsertino"nun (1948), "Şuşa" (1945), "Gələcək gün" (1952), "Dramatik" (1953) simfonik poemalarının, "Səndən mənə yar olmaz" (1963), "Dağlar qoynunda" (1970) operettalarının, bir çox instrumental əsərin, xor, mahnı, romansın, həmçinin "Ü. Hacıbəyov və onun "Koroğlu" operası" (1956) və bir sıra başqa nəzəri əsərlərin və məqalələrin müəllifidir.

Azərbaycanda ilk uşaq baletinin müəllifi, görkəmli bəstəkar Əşrəf Abbasovun anadan olmasından 95 il keçir.Üzeyir Hacıbəylinin xeyir-duası ilə bu sənətə gələn Əşrəf Abbasov unudulmaz müəlliminin çox ləyaqətli davamçısı olduğunu öz zəngin və dərin məzmunlu yaradıcılığı ilə təsdiq etmişdir.Ömrü boyu Şuşa musiqi mühitinin və Üzeyir Hacıbəylinin əsasını qoyduğu peşəkar bəstəkarlıq məktəbinin ənənələrini yaradıcı şəkildə davam etdirmişdir. Azərbaycan musiqi mədəniyyətinin inkişafında Əşrəf Abbasovun xidmətləri böyükdür. O, xalq musiqisinə yaradıcılıqla yanaşaraq, özünün yeni əlavələri ilə orijinal əsərlər yazmışdır. Eyni zamanda, klassik irsi dərindən mənimsəməsi, müasir musiqinin ən yaxşı nümunələrindən bəhrələnməsi onun əsərlərinin mükəmməlliyini təmin edən amillərdəndir. Odur ki, bəstəkarın əsərləri yüksək peşəkarlığı, bədii məzmunun aydınlığı, mövzularının müasirliyi, emosionallığı, səlis üslubu ilə diqqəti cəlb edir. Həmişə axtarışda olan bəstəkarın əsərləri janr müxtəlifliyi ilə də seçilmişdir.Əşrəf Abbasovun yaradıcılığında xüsusi yeri simfonik musiqi tutur. Bu sahəyə bəstəkar bütün yaradıcılığı boyu müraciət etmişdir. Onun simfonik orkestr üçün ilk əsəri tələbə ikən yazdığı "Rəqs süitası" olmuşdur. Aydın ifadə tərzinə, melodik zənginliyə və forma vəhdətinə malik bu əsər 1944-cü ildə Tbilisidə keçirilən

Zaqafqaziya incəsənəti ongünlüyündə böyük maraqla qarşılanmışdır. Əşrəf Abbasovun fortepiano ilə orkestr üçün "Konsert", simfonik orkestr üçün "Konsertino", "Şuşa", "Gələcək gün", "Dramatik poema"sı bəstəkarın ən kamil simfonik əsərlərindən sayılır. O, simfonik orkestr üçün süitalar da yazmışdır. Bəstəkarın yaradıcılıq zirvəsində duran "Qaraca qız" baleti həm də uşaqlar üçün yazılmış ilk böyük səhnə əsəridir. 1968-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş bu əsər S.S.Axundovun eyniadlı hekayəsi əsasında hazırlanmışdı. Librettonun müəllifi isə Xalq Artisti Əfrasiyab Bədəlbəyli idi. Müəllif "Qaraca qız"da milli xoreoqrafiya ilə klassik balet ənənələrinin gözəl vəhdətinə nail olmuşdur. O, hadisələrin dramatizmini və obrazların psixoloji səciyyəsini gərgin və parlaq harmonik ahənglər, tembr rəngarəngliyi, maraqlı polifonik vasitələr, xalq musiqi intonasiyalarından istifadə etmək yolu ilə vermişdir. Klassik balet ənənələrinin ən gözəl nümunələrindən biri olan bu səhnə əsərini təkcə uşaqlar deyil, böyüklər də maraqla seyr etmişlər. Zəngin yaradıcılığa malik Əşrəf Abbasovun musiqi bəstələdiyi mahnı və romanslar şeirlərin mətni ilə poetik vəhdət yaratmışdır. Onun M.Füzulinin, M.P.Vaqifin, M.Müşfiqin, A.Şaiqin sözlərinə yazdığı musiqilər həzinliyi, emosionallığı ilə dinləyicinin ruhunu oxşayır. "Heyran olmuşam", "Oxu, bulbul", "Qurban olduğum", "Ceyranım, gəl", "Gözəl yar", "Qarabağın qızları" və digər romansları, mahnıları uzun illərdir ki, məhəbbətlə ifa edilir. Bəstəkarın "Səndən mənə yar olmaz", "Dağlar qoynunda", "Həyətim mənim, həyatım mənim" komediyalarına yazdığı musiqi ifadəliyi, coşqunluğu, lirizmi ilə seçilmişdir. O, tamaşa müəlliflərinin ideyalarını, obrazların xarakterini musiqinin dili ilə müvəffəqiyyətlə əks etdirmişdir. Əşrəf Abbasov instrumental musiqiyə də müraciət etmiş, skripka, violonçel, fortepiano, nəfəsli alətlər, kamera ansamblı, xalq çalğı alətləri orkestri, habelə xor üçün də əsərlər yazmışdır. Onun bir sıra əsərləri tədris proqramlarına daxil edilmişdir. Bəstəkarlıqla yanaşı, elmi tədqiqatlarını və pedaqoji fəaliyyətini də ardıcıl davam etdirən Əşrəf Abbasov 1952-ci ildə Moskvada "Üzeyir Hacıbəyov və onun "Koroğlu" operası" mövzusunda dissertasiya müdafiə edərək sənətşünaslıq namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. O, Azərbaycan bəstəkarları arasında həm də ilk sənətşünaslıq namizədi olmuş, musiqişünaslarımızın bir çox elmi əsərlərini redaktə etmişdir. Əşrəf Abbasov müxtəlif illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunun direktoru, Azərbaycan Dövlət Konservatoriyasının rektoru, kafedra müdiri vəzifələrində çalışmışdır. Onun musiqi mədəniyyətimizin inkişafında xidmətləri layiqincə qiymətləndirilmiş və respublikamızın ən yüksək fəxri adlarına layiq görülmüşdür.Görkəmli bəstəkar, musiqişünas və pedaqoq, Əməkdar İncəsənət Xadimi, Xalq Artisti, professor Əşrəf Abbasov 1992-ci ildə Bakıda vəfat etmişdir.Bütün ömrünü, istedadını, yaradıcılığını musiqimizin inkişafına həsr etmiş Əşrəf Abbasovun adı musiqi tariximizdə əbədi həkk olunmuşdur.

# Yubilyar yazıçı və şairlər

## 1. Şair Dilsuz Mustafayevin anadan olmasının 70 illiyi (1945)



**Mustafayev Dilsuz Murtaza oğlu - şair, tərcüməçi, 1985-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü.**
Mustafayev Dilsuz 1945-ci il martın 1-də Azərbaycanın Tərtər rayonunun Buruc kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Politexnik İnstitutunun avtomatika fakültəsində təhsil almışdır (1962-1968).Əmək fəaliyyətinə Bakı yaxınlığında olan Əmircan qəsəbəsindəki sənaye müəssisəsində layihəçi-mühəndis kimi başlamışdır (1968-1970). Azərbaycan Radio və Televiziya Şirkətində səs operatoru (1970-1973), ədəbi-dram baş redaksiyasının incəsənət və radio teatrı şöbəsində redaktor (1973-1979), "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi, publisistika şöbəsinin müdiri (1979-1992), sonra "Axtarış" qəzetində ədəbi işçi (1992), "Kəndin səsi" qəzetinin redaktor müavini vəzifəsində çalışmışdır (1992-1993). Hazırda Azərbaycan Respublikası Nazirlər Kabinetində məsul işçidir (1993-cü ildən). Bədii yaradıcılığa 70-ci illərdən başlamışdır. Onun şerləri, publisist yazıları "Azərbaycan", "Ulduz" jurnallarında və qəzetlərdə müntəzəm çap edilir. Şeirləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Yaradıcılığında bədii tərcüməyə xüsusi yer verir.
**Əsərləri:** Ağ atlı oğlanın nağılı. - Bakı: Yazıçı, 1981. - 67 s.
**Filmoqrafiya:** Günaydın, mələyim! (film, 2008)

## 1. Şair Balayar Sadiqin 50 illiyi (1965)



**Balayar Sadiq — Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, beynəlxalq "Rəsul Rza" mükafatı laureatı.**
Əliyev Balayar Sadıq oğlu 1965-ci il martın 1- də Lerik rayonunda anadan olub. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. İlk şeiri 1983-cü ildə "Lənkəran" qəzetində çap olunub. Şair Balayar Sadiq 2004-cü ildə Lənkərandan Bakıya köçüb.
**Əsərləri:** "Sərkərdə" (1996), "İgidliyin Bəxtiyar zirvəsi" (1997), "Ömrün hünər nəğməsi" (1998), "Ulu dağların oğlu" (2001), "Arzumanın döyüş yolu" (2001), " Sərkərdə ömrünün işığı" (2002), "Müdrikliyin zirvəsi" (2007) və s.
Kitabları: "Allahın unutduğu adam", Bakı, "Yazıçı", 2010.

## 2. Yazıçı, tərcüməçi Zeydulla Ağayevin anadan olmasının 70 illiyi (1945 - 2014)



**Azərbaycan-ABŞ əlaqələrinin ardıcıl tədqiqatçılarından idi. Zeydulla Ağayev Azərbaycan Dövlət Dillər Universitetində elmi işlər üzrə prorektor, ədəbiyyat tarixi kafedrasının müdiri vəzifələrində çalışıb. 1980-ci ildə namizədlik, 1997-ci ildə isə doktorluq dissertasiyaları müdafiə edib, bir monoqrafiya, 70-ə yaxın elmi, yüzdən çox publisistik məqalənin müəllifidir.**

Zeydulla Ağayev 1945-ci il martın 2-də Masallı rayonunda anadan olub. Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun ingilis dili fakültəsini bitirib. Əmək fəaliyyətinə həmin institutda başlayıb, "Bilik" qəzetinin redaktoru olub. Zeydulla Ağayev həm öz orijinal nəsr əsərləri, həm də ingilis dilindən etdiyi tərcümələri ilə tanınıb. Azərbaycan oxucusu onun tərcüməsində Cek London, Artur Konan Doyl, Teodor Drayzer, Ernest Heminquey və başqalarının roman, povest və hekayələri ilə tanış olub. Zeydulla Ağayevin 1990-cı ildə nəşr etdirdiyi müasir Amerika yazıçısı Artur Heylinin "Aeroport" romanı milli ədəbiyyatımız tarixində birbaşa ingilis dilindən tərcümə edilmiş ilk romandır. O həm də "Müasir Azərbaycan nəsri"ni ingiliscəyə çevirmiş ilk bədii tərcümə sənətkarlarından biri idi. İsmayıl Şıxlı, Anar, Elçin, Sabir Əhmədli, Yusif Səmədoğlu və başqalarının bir sıra hekayələrini ingilis dilinə çevirib və çap etdirib. **Zeydulla Ağayev bir sıra nəsr kitablarının da müəllifidir: "Məhəbbət nəğməsi"(1980), "Beş günün intizarı" (1982), "Yenilməzlik" (1985), "Dünyanın düz vaxtı" (1990)...**
**Tərcümələri (ingiliscədən):** "T. Drayzer, Qasırğa" (1972), "Erməni genosidi" (1992), "Cəmyuel. Ermənistan "xristian" terrorçu ölkənin gizlinləri" (2003) və s.

**Şair, publisist Əliqulu Qəmküsarın anadan olmasının 135 illiyi**
**(1880-1919)**

***“Əliqulu Qəmküsar satirik şeirləri, felyatonları ilə avamlığı, fanatizmi, ictimai zülm və ədalətsizliyi ifşa edirdi.”***

**Yazıçı C. Məmmədquluzadə**



**Əliqulu Qəmküsar (1880-1919) - şair, publisist. Yazıları ilə "Molla Nəsrəddin", "Yeni füyuzat", "Həyat", "İrşad", "Sədayi-həqq", "Al bayraq", "Gələcək" və s. qəzet və jurnallarda iştirak etmişdir. Əsərləri "Otaylı", "Cüvəllağı", "Cüvəllağı bəy", "Sarsaqqulu bəy", "Qəmküsar" və başqa imzalarla nəşr edilmişdir. Əsl soyadı Nəcəfovdur, ziyalı maarifçi nəsil olan Nəcəfovların nümayəndəsidir.**

Əliqulu Nəcəfov Qəmküsar 1880-cı ildə Naxçıvanda doğulmuşdur. Qəmküsar səkkiz yaşından molla məktəbində ərəbcə və farscanı öyrənmişdir. Hələ məktəbdə ikən şeir yazmağa başlamış, 1892-ci ildə üç sinifli şəhər rus məktəbinə daxil olmuş, il yarım orada oxumuşdur. 1896-cı ilin əvvəlində, xəstə atası müalicə üçün Təbrizə gedir və Qəmküsarı da təhsildən ayırıb özü ilə aparır. Dörd ay Təbrizdə qaldıqdan sonra atası vəfat edir. Ağır külfətin qayğısı üzərinə düşdüyündən Qəmküsar dərsə davam edə bilmir. 1897-ci ildə anası və dayısı ilə Xorasan ziyarətinə getməsi və orada gördükləri Qəmküsarda mövhumata olan nifrəti daha da artırır.1912-ci ilin axırına qədər Culfada və bəzən Naxçıvanda yaşayır. "Molla Nəsrəddin" və başqa Bakı qəzet və jurnallarına şeir və məqalələr yazır. 1907-1909-cu illərdə İran inqilabı ilə yaxından maraqlanır, bu mövzuda şeirlər çap etdirir. 1912-ci ilin oktyabr ayında Qəmküsar Tiflisə köçür və Mirzə Cəlil ilə birlikdə "Molla Nəsrəddin" jurnalında yaxından iştirak etməyə başlayır. 1916-cı ilin may ayında jurnal müvəqqəti olaraq dayandırılır. Qəmküsar Mirzə Cəlil ilə birlikdə səyahətə çıxır. "Ölülər" komediyasını səyahətdən əvvəl Bakıda, sonra Dağıstanda, Səmərqənddə, Daşkənddə və Volqaboyu şəhərlərində oynayırlar. Qəmküsarın "Ölülər"də Şeyx Nəsrullah rolunu böyük bir məharətlə oynaması məşhurdur. 1917-ci ilin axırında Tiflisdə çıxan "Al bayraq", sonra "Gələcək" qəzetlərində şeir və felyetonlar çap etdirir. Ə.Qəmküsar 1919-cu ildə, martın 4-də axşam evinə qayıdarkən menşeviklər tərəfindən öldürülmüş və Tifiisdə dəfn edilmişdir. Ə.Qəmküsar 1916-cı ildən etibarən öz yazıları ilə "Molla Nəsrəddin", "Yeni füyuzat", "Həyat", "İrşad", "Sədayi-həqq", "Al bayraq", "Gələcək" və s. qəzet və jurnallarda iştirak etmişdir.

## 5. Şair, Ədəbiyyatşünas İsmayıl Cəfərpurun 90 illik yubileyi



**1958- ci ildən Yazıçılar Birliyinin üzvü, Filologiya elmləri namizədi.**
**“Azərbaycan” qəzetinin xüsusi müxbiri olmuş, Moskvada M. Qorki adına Dünya Ədəbiyyatı İnstitunda təhsil almışdır. (1956-1958) . Sonra “Azərbaycan” qəzetində bədii ədəbiyyat şöbəsinin müdiri işləmişdir. 1948-ci ildən ədəbi fəaliyyətə başlamışdır. İlk şeirlər məcmuəsi “Qəhrəmanın düşüncələri” 1956-cı ildə Azərnəşrdə buraxılmışdır.**

1925-ci il martın 5-də Cənubi Azərbaycanın Salmas mahalının Sadaqyan kəndində anadan olmuşdur. 1941 - ci ildə Sovet Ordusu İran ərazisində daxil olandan sonra orada milli azadlıq hərəkatı genişlənib. 1945 – ci ilin axırında Təbriz milis intendant idarəsinin rəisi təyin edilmişdir. Bu dövrdə milis işçiləri ittifaqının sədri seçilmişdir. 1946 – cı ildən Şimali Azərbaycanda yaşayır Stomatologiya məktəbini(1947) və ADU – nun şərqşunaslıq fakultəsini bitirmişdir. (1950-1956) 1977-ci il fevralın 18-də vəfat etmişdir.

**Əsərləri: “Yolumuz bəllidir” (1960), “Qəhrəmanın düşüncələri” (1962), “Qardaş töhfəsi” (1962), “İllər və kölgələr” (1964), “Dağlar məni səsləyir” (1966), “Yenə görüşərik” (1974), “Cənuba məktub” (1985) və s.**

## 6. Ədəbiyyatşünas, tənqidçi Yəhya Seyidovun anadan olmasının 95 illiyi (1920-2009)



**1959 - cu ildən Yazıçılar Birliyinin üzvi, 1972 – ci ildən filologiya elmləri doktoru**

1920-ci il martın 6-da Naxçıvanın Ordubad şəhərində doğulmuşdur. On bir yaşından Ordubad uşaq evində tərbiyə almış, orada yeddiillik məktəbi bitirmişdir. Naxçıvanda uşaq evində yaşadığı dövrdə (1934-1938) pedoqoji məktəbi qurtarıb Ordubad şəhər məktəbində Azərbaycan dili və ədəbiyyatını tədris etmişdir. ADU – nun filologiya fakultəsinin qiyabi şöbəsində təhsil almışdır. Sonra universitetin aspiranturasına daxil olmuş, elmi tədqiqat işini vaxtında müvəffəqiyyətlə başa çatdırıb müdafiə etmiş, filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.(1954- 1957) Həmin vaxtdan taleyini Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat İnstitutu ilə bağlamışdır. Burada kiçik elmi işçi (1957-1961), Baş elmi işçi (1961 – 1979), şöbə müdiri (1979-1980) olmuşdur. Medalla təltif edilmişdir.1980-cı il dekabrın 4-də vəfat etmişdir.

Əsərləri: “Mehdi Hüseynin yaradıcılıq yolu” (1966), “Süleyman Rəhimov” (1971), “İlyas Əfəndiyev” (1975), Süleyman Rəhimovun romanları” (1975), “Mehdi Hüseyn” (1979), “Axtarış yollarında” (1983) və s.

**8. Şair, yazıçı Cümşüd İsgəndərin anadan olmasının 60 illiyi (1955)**



**İsgəndərli Cümşüd Abdulla oğlu şair, nasir, publisist, Jurnalistlər Birliyinin üzvü (1980), "Məmməd Araz" ali ədəbi mükafatının laureatıdır (1995).**

1955-ci il martın 8-də Azərbaycanda Qazax rayonunun Aslanbəyli kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir(1971). Ordu sıralarında xidmətdə olmuşdur. Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsində təhsilini davam etdirmişdir (1975-1981). Əmək fəaliyyətinə "Kirpi" satirik jurnalı redaksiyasında başlamışdır. Sonra "Zavod həyatı" qəzetinin redaktoru olmuşdur (1987-1989). Hazırda təsis etdiyi "Qafqaz" İnformasiya – Reklam Şirkətinin prezidentidir (1989- cu ildən). ABŞ – ın Çikaqo şəhərində "Laola" universitetinin biznes-marketinq kursunu bitirmişdir.

Ədəbi yaradıcılıqla 1972-ci ildən məşğul olmuşdur. Dövri mətbuatda şeir, hekayə və publisistik yazılarla çıxış etmişdir. "Azərbaycan dünyası" qəzetinin təsisçisi və baş redaktorudur (1992- ci ildən). Respublika redaktorlar klubunun sədri, Azərbaycan KİV yanında Mətbuat Sponsorlar Şurası İdarə heyətinin üzvü seçilmişdir (1993).

**Əsərləri:** "Hökm" (1991),"Günəşin eşqinə" (1993), "Birəbitdən niyə gizlənir" (1993) və s.

**8. Yazıçı Mənzər Eynullayevanın anadan olmasının 65 illiyi (1950)**



**Eynullayeva Mənzər Əsəd qızı – nasir, 1986 – cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

1950 - ci il martın 8 - də Azərbaycanda Qazıməmməd şəhəri Muğam qəsəbəsində doğulmuşdur. Əli Bayramlıda 10 saylı şəhər orta məktəbini bitirmişdir (1967). Ailəliklə Bakı şəhərinə köçdükdən sonra "Qızıl Şərq" mətbəəsində oxucu, korrektor vəzifələrində işləmişdir (1968-1971). ADU – nun Filologiya fakultəsində təhsil almışdır (1968-1971). Azərbaycan EA – nın "Elm" nəşriyyatında korrektor, kiçik redaktor, redaktor vəzifələrində işləmişdir. (1975-1979). Hazırda Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunda elmi işçi vəzifəsində çalışır. Ədəbi fəaliyyətə 1969 – cu ildə "Azərbaycan gəncləri" qəzetində çap etdirdiyi "Şübhə" hekayəsi ilə başlamışdır. Dövrü mətbuatda müntəzəm çap olunur.

**Əsərləri:** "Həmin axşam" (1980),"Yarımçıq məzuniyyət" (1986),"Qara örpək" (1992), "Oğuz gözəlləməsi" (2003) və s.

**13. Ədəbiyyatşünas, tənqidçi Arif Hacıyevin anadan olmasının 80 illi (1935-2000)**

***Arif Hacıyev Azərbaycanın Avropa və SSRİ xalqları ilə ədəbi əlaqələri problemlərinə dair silsilə məcmuələrin tərtibçisi, redaktor və müəlliflərindəndir.***



**Hacıyev Arif Allahyar oğlu - ədəbiyyatşünas, tənqidçi, 1980 – cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1970), professor (1972), Azərbaycanın Əməkdar elm xadimi (1990).**

1935-ci il martın 13-də Yevlax şəhərində anadan olmuşdur. Orta məktəbi 1954- cü ildə bitirib M. F. Axundov adına Rus dili və ədəbiyyatı Pedoqoji İnstitutunda təhsil almışdır. M. F. Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunda xarici ölkələr ədəbiyyatı kafedrasında baş müəllim (1963-1966), Azərbaycan Dövlət Universitetində rus ədəbiyyatı kafedrasında baş müəllim, dosent, professor(1966-1976) olmuşdur. 1976-cı ildən Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunda aparıcı elmi işçi olmuşdur(1993- cü ildən).

Ədəbi tənqid, nəzəriyyə və ədəbi əlaqələr problemlərinə dair tədqiqatla ciddi məşğul olmuşdur. SSRİ Yazıçılar İttifaqının ədəbi tənqid üzrə mükafatına layiq görülmüşdür (1981). Azərbaycan Ali soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir(1983). 2000-ci il aprelin 15-də Bakıda vəfat etmişdir.

**16. Nasir, dramaturq, tərcüməçi Ağalar İdrisoğlunun 65 illiyi (1950)**

***Ağalar İdrisoğlunun rəhbərlik etdiyi teatrlar rəngarəng repertuarına, professional quruluşlarına, dərin rejissor yozumlarına, tərtibatına, maraqlı aktyor truppasına, aktyorların rollardakı rəngarəng oyununa görə mütəxəssislər və tamaşaçılar tərəfindən həmişə rəğbətlə qarşılanıb.***



**Tanınmış yazıçı-rejissor, böyük teatr təşkilatçısı, ədəbiyyat və incəsənət xadimi...**

Otuz beş illik professional teatr sənəti sahəsində çalışdığı illərdə otuz altı tamaşada bir-birindən maraqlı rollar oynayıb, Azərbaycan teatr tarixinə çoxsaylı tamaşaya və tamaşa-konsertə quruluş verib.O, 1950-ci il martın 16 - da Masallı rayonunun Digah kəndində anadan olub. 1975-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun dram və kino aktyorluğu fakültəsini bitirdikdən sonra Sabit Rəhman adına Şəki Dövlət Dram Teatrında işə başlayıb. Sonra H.Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına aktyor kimi dəvət olunub. 40-a yaxın müxtəlif xarakterik rollarda uğurla çıxış edən Ağalar müəllimin oynadığı rolların əksəriyyəti Mədəniyyət Nazirliyinin, Teatr Xadimləri İttifaqının və başqa təşkilatların diplomlarına və mükafatlarına layiq görülüb. Ağalar İdrisoğlu 1976-cı

ildə Sumqayıt şəhərində, respublikada ilk dəfə olaraq «Ümid» adlı teatr studiyası yaradıb.Uğurlu çıxışlarına və rəngarəng repertuarına görə 1979-cu ildən Sumqayıt Gənclərinin Xalq Teatrı adlanıb. Ağalar İdrisoğlu 1981-1986-cı illərdə Moskva şəhərində A.Lunaçarski adına Dövlət Teatr Sənəti İnstitutunun musiqili teatrlar rejissorluğu fakültəsində qiyabi təhsil alıb.. Onun teatrda quruluş verdiyi Mirzağa Atəşin «Şərəfin sandığı», Xalq şairi Zəlimxan Yaqubun «Aşıq Ələsgər», Cəfər Cabbarlının «Oqtay Eloğlu», Georgi Caqarovun «Prokuror», Əli Səmədlinin «Analar və oğullar», Georgi Xuqayevin «Qaqutsa, Babutsa, Danel və Dardanel», Aleksandr İvaşenkonun «Uşağa bir üç yazın», Leonid Cuxavitskinin «Şahzadə və bacatəmizləyən» tamaşaları və başqa əsərlər teatrsevərlər, teatr mütəxəssisləri tərəfindən maraqla qarşılanıb. 1989-cu ildə Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına direktor vəzifəsinə gətirilən A.İdrisoğlu il yarımdan sonra kollektivin istəyi ilə həmin teatra bədii rəhbər və direktor təyin olunub. Bu teatrda ilk musiqili tamaşa olan Üzeyir Hacıbəyovun «Arşın mal alan» operettasına da orijinal quruluşu məhz Ağalar İdrisoğlu verib. Bu teatrlar məhz Ağalar İdrisoğlunun təşkilatçılığı və təşəbbüsü ilə Moskvada, Qazaxıstanda, Şimali Osetiyada, Gürcüstanda, Dağıstanda və başqa respublikalarda festivallarda çox böyük uğurla çıxış ediblər.1997-2000-ci illərdə Azərbaycan-Dağıstan Beynəlmiləl Estrada Teatr truppasına rəhbərlik edən Ağalar İdrisoğlu üç il müddətində bu kollektivlə Dağıstan Respublikasında yüzdən artıq tamaşalar göstərməklə, iki respublika arasında mədəni və dostluq əlaqələrinin möhkəmlənməsində böyük işlər görüb. Dağıstanda Azərbaycan Dövlət Dram Teatrının yaranmasında əsas təşəbbüskar və təşkilatçılardan biri olub. 2001-ci ilin fevral ayından Azərbaycana qayıdan Ağalar İdrisoğlu Dövlət Gənclər Teatrında quruluşçu rejissor kimi fəaliyyətə başlayıb. Bu teatrda ilk quruluş verdiyi əsər isə özünün yazdığı «İnan mənə» dramatik faciəsi olub. 2009-cu ilin mayında Dövlət Gənclər Teatrı Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ilə birləşdiyindən o, həmin teatrın quruluşçu rejissor vəzifəsinə təyin edilib. Hazırda bu teatrda quruluşçu rejissor işləyir. Azərbaycanın teatr səhnəsinə dünyanın məşhur dramaturqlarından Nobel mükafatı laureatları Alber Kamyunun, Slavomir Mrocekin, dramaturqlar Georgi Jaqarovun, Aleksandr Suxovo-Kobılinin, Vasili Şukşinin, Eduard Bobrovun, Aleksandr İvaşenkonun, Leonid Cuxovitskinin, Kirill Obalenskinin və başqalarının pyeslərinin gəlişi bilavasitə Ağalar İdrisoğlunun adı ilə bağlıdır. Həmçinin sözügedən dramaturqların bir neçəsinin pyeslərini dilimizə tərcümə edib. O, nasir, dramaturq, publisist kimi də aktiv yaradıcılıqla məşğul olur.
**Əsərləri:** "İnan mənə" (1986), "Ən xoşbəxt gün" (1987), "Məhəbbət və başqaları" (1990) və s.

## 17. Yazıçı Mikayıl Rzaquluzadənin anadan olmasının 110 illiyi (1905-1984)



**Rzaquluzadə Mikayıl Manaf oğlu nasir, şair, tərcüməçi, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın qabaqcıl maarif xadimi (1968), əmək veteranı (1976). Ədəbi təxəllüsü otuzuncu illərdə "Mim-Re", "M.R.", "R.Mikayıl", sonralar "M.Rzaquluzadə" olmuşdur. Ədəbiyyat sahəsində xidmətlərinə görə iki medal, üç dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. Çuvaş MSSR Mədəniyyət Nazirliyinin və digər təşkilatların fəxri tərifnamələri ilə təltif edilmişdir.**

Mikayıl Rzaquluzadə 1905-ci il martın 17-də Bakı şəhərində doğulmuşdur. Ədəbi fəaliyyətə 1923-cü ildə "Abdulla Şaiq" kitabçasında çıxan "Müəllim" şeiri ilə başlamışdır. İlk məqaləsi isə 1926-cı ildə "Maarif işçisi" jurnalında "Cocuq ədəbiyyatında üsul məsələsi" adı ilə dərc olunmuşdur. Müxtəlif mövzularda yazıb-yaratsa da, 1945-ci ildən başlayaraq bütün kitablarını uşaq və gənclər üçün nəzərdə tutmuşdur. Yaradıcılığında bədii tərcüməyə geniş yer vermişdir. Dünya və keçmiş SSRİ xalqlarının ədəbiyyatından tərcümələr etmişdir. "Gənclik" nəşriyyatının, "Göyərçin", "İnqilab və mədəniyyət" (sonralar "Azərbaycan") jurnalları redaksiya heyətinin, "Azərbaycan dilinin izahlı lüğəti"nin redaksiya heyətinin, Azərbaycan Yazıçılar İttifaqı qəbul komissiyasının üzvü olmuşdur. 1984-cü il noyabrın 10-da Bakıda vəfat etmişdir. Bakı küçələrindən birinə onun adı verilmişdir.

**Əsərləri:** “Ağ dana” (1945),”El gücü” (1948), “İstək” (1949), “Dan söküləndə” (1952), “Sirli saz” (1955), “Qu gölü” (1955),”Ovçu Elişlə qoçaq Aytəkinin nağılları” (1956), “Ölkənin çiçəkləri” (1962), “Nəsillərdən nəsillərə : bircildlik seçilmiş əsərlər” (1965), “Salam Adil” (1966), “Hekayələr” (1967), “Dəniz nağılı” (1967), “Baharın elçiləri” (1968), “Ürəkdə izlər” (1969), “Quş dili bilən Orxan” (1972), “Cücə getdi su içə” (1973),”Yaz günəşi : bircildlik seçilmiş əsərlər” (1977), “İlin yazı – elin sazı : şeirlər, poemalar, rəvayətlər və nağıllar” (1981) və s.

**Tərcümələri (farscadan, ruscadan):** Nizami Gəncəvi. “İsgəndərnamə (iqbalnamə)” (1967), Oldriç T. “Amerika məktəblisinin xatirələri”, Kiplinq R. “Mauqli” (1939), V.Mayakovski. “Seçilmiş şeirlər və poemalar” (1940), M.Şoloxov. “Nifrət fənni” (1942), V.Vasilyevskaya. “Göy qurşağı” (1947), V.Q.Belinski. “Seçilmiş əsərləri” (1948), A.Düma. “Üç muşketyor” (1949), M.Qorki. “Uşaqlar” (1950), M.Qorki. “Ədəbiyyat haqqında” (1950) və s.

## 20. Şair Davud Ordubadlının anadan olmasının 85 iliyi (1930)



**Vahabov Davud Rzaqulu oğlu – şair, 1956 – cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1990)**

1930-cu il martın 20-də Azərbaycanda, Ordubad şəhərində anadan olmuşdur. Kiçik yaşlarından ata- anasını itirmiş, qardaşının himayəsində boya-başa çatmışdır. İkinci Dünya müharibəsi illərində Ordubad konserv və barama zavodlarında fəhləlik etmişdir. İki il Zaqafqaziya dəmiryolunun Mehri stansiyasındakı 7 saylı su kəməri idarəsində fəhlə, sonra isə Ordubad ipək fabrikində texniki katib, "Ordubad işçisi" rayon qəzeti redaksiyasında mürəttib, ədəbi işçi vəzifələrində çalışmışdır (1947-1949). 1939 – cu ildə "Azərbaycan pioneri" qəzetində ilk şeiri dərc olunmuşdur. Lakin 1948-ci ildə "Ədəbiyyat qəzeti"ndə "Mənim respublikam" adlı şeiri çap edildikdən sonra ciddi ədəbi fəaliyyətə başlamış, öz şeirlərini və felyetonlarını "Ordubad işçisi" və "Şərq qapısı" qəzetində "V. Davud", "Davud Sərrac", "Davud Sərrac oğlu" imzaları ilə dərc etdirmişdir (1946-1948). 1949-cu ildə ADU-nun şərqşünaslıq fakultəsinə daxil olmuş, 1955-ci ildə oranı bitirmişdir. N. Krupskaya adına Bakı mədəni- maarif məktəbində müəllim işləmişdir (1960-1988). Azərbaycan Yazıçılar Birliyinin idarə heyətinin üzvüdür (1986- cı ildən). Hazırda bədii yaradıcılıqla məşğuldur.

**Əsərləri:** "Böhtan" (1954), "Həyat yollarında" (1955), "Gözəl həyat" (1956), "Ata yurdu" (1958), "Mənim arzum" (1960), "Səadət yolunda" (1962), "Qayğı" (1964), "Qartal" (1970), Anama abidə" (1974) və s.

## 21. Ədəbiyyatşünas, tərcüməçi Əkbər Ağayevin anadan olmasının 100 illiyi (1915-1989)



**Ağayev Əkbər Məmməd oğlu (21.03.1915 – 02.03.1989)—Tənqidçi, Ədəbiyyatşünas, Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar ali məktəb işçisi, filologiya elmləri doktoru, professor.**

Görkəmli tənqidçi, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Əkbər Ağayev Şuşada anadan olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat şöbəsini bitirmişdir. Moskvada Ali Diplomatiya Məktəbində təhsilini başa vurduqdan sonra, müxtəlif mətbuat orqanlarında çalışmaqla yanaşı, ali məktəblərdə mühazirələr də oxumuşdur.Ədəbi fəaliyyətə hələ 1935-ci ildə başlamış Əkbər Ağayevin "Nizami və dünya ədəbiyyatı", "Şeirimizin yeni nəsli", "Lirikanın qüdrəti", "Dramaturgiyanın bəzi məsələləri", "Ədəbiyyat tarixi haqqında qeydlər" və s. kimi ədəbiyyatşünaslıq və ədəbi tənqidə həsr olunmuş xeyli məqaləsi məlumdur ki, onların arasında rus və dünya ədəbiyyatına həsr olunmuş "Anri Barbüs", "Höte Nizami haqqında", "Fransız xalqının böyük oğlu", "Humanist sənətkar", "Xalq nəğməkarı", "Səhər şəfəqləri" kimi əsərlər də vardır. "M.Y.Lermantov" (1941), "A.İ.Gertsen" (1962), "Sənətkarlıq məsələləri" ( 1962), "Nizami və dünya ədəbiyyatı" (1964), "Sənətkara töhfə" ( 1978), "Sənətin tərənnümü" və s. kitabları işıq üzü görmüşdür.

Tərcümə sənəti ilə də yaxından məşğul olan müəllif dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərini dilimizə tərcümə etmişdir. A.S.Puşkin, M.Y.Lermontov, A.A.Çexov, L.N.Tolstoy və b. rus ədiblərindən tərcümələri vardır. Xarici ölkə yazıçılarından D.Defonun "Robinzon Kruzo", F.Lankerin "Uşaqlar və xəncər", O.Sekoranın " Qarışqalar təslim olmur", N.Kalmanın "Qara Salli", Jül Verinin "Arxipelaq alovlanır", Ç.Dikkensin "Oliver Tvistin macəraları", A.Qaydarın "Seçilmiş hekayələri", N.K.Karamzinin "Zavallı Liza", V.Korolenkonun "Qəribə qız", Bualonun "Poeziya sənəti", V.Belinskinin "Seçilmiş məqalələri" və s. kitab halında nəşr olunmuşdur.

**22. Xalq yazıçısı Süleyman Rəhimovun anadan olmasının 115 illiyi (1900-1983)**

***"Xalqımız elə xalqdır ki, tarixin hər bir mərhələsində böyük, dahi insanlar yetişdirir və biz bu dahilərlə fəxr etməliyik. Süleyman Rəhimov da bu şəxsiyyətlərdəndir."*** **Ümummillilider Heydər Əliyev**



**Rəhimov Süleyman Hüseyn oğlu — nasir, 1938-ci ildən AYB-nin üzvü, Azərbaycanın xalq yazıçısı (1960), Sosialist Əməyi Qəhrəmanı (1975).**

Süleyman Rəhimov 1900-cü il martın 22-də Zəngəzur qəzasının Əyin kəndində yoxsul ailədə doğulmuşdur. İbtidai təhsilini ikisinifli rus məktəbində almışdır. İlk təhsilini kənddə almış, sonralar texnikum və ali məktəb bitirmişdir. 1921-ci ildə Xanlıq kəndində yeni açılmış məktəbdə müəllim işləməyə başlamışdır. Şuşada pedaqoji kursda oxuduqdan sonra uzun müddət Zəngəzur mahalının müxtəlif rayonlarında müəllimlik etmişdir.1928-ci ilin payızında dostu Əli Vəliyevlə Bakıya gələrək ADU-nun tarix fakültəsində təhsil almış, eyni zamanda Qaraşəhərdə ikinövbəli savad kursunda yaşlı fəhlələrə dərs demişdir. Ədəbi fəaliyyətə 1930-cu ildən başlayan Süleyman Rəhimovun ilk əsəri "Şamo"dur. Bununla belə o 50 il bu əsərinin üzərində işləmiş və ona əlavələr etmişdir. Süleyman Rəhimov 1939-1940, 1944-1946 və 1954-1958-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin sədri olmuşdur. Azərbaycanın Laçın, Samux, Şahbuz və Noraşen rayonlarında rəhbər partiya işlərində çalışmışdır (1934-1937). Azərbaycan K(b)P Bakı şəhər komitəsində təbliğat üzrə katib (1940-1941), Azərbaycan K(b)P MK-da təbliğat və təşviqat şöbəsinin müdir müavini (1941-1944), Azərbaycan Nazirlər Soveti yanında Mədəni-Maarif İşləri Komitəsinin sədri (1945-1958) vəzifələrində işləmişdir.

Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatına (1972) layiq görülmüşdür. Üç dəfə Lenin ordeni (1946, 1970, 1975), "Qırmızı Əmək Bayrağı" (1959), "Şərəf nişanı" (1942) ordenləri və medallarla təltif edilmişdir, 1960-cı ildə xalq yazıçısı, 1975-ci ildə Sosialist Əməyi Qəhrəmanı adları almışdır. 1983-cü il oktyabrın 11-də vəfat etmişdir.

**Əsərləri:** "Şamo" (I, II c. 1931, 1940), "Saçlı" (1944), "Ata və oğul" (1949), "Mehman" (1953), "Ana və abidəsi" (1967), "Seçilmiş əsərləri" (üç cilddə, 1968-1981), "Ağbulaq dağlarında", "Medalyon", "Ötən günlər dəftərindən", "Qafqaz qartalı", "Qoşqar qızı", "Aynalı", "Qardaş qəbri, "Su pərisi", "Tülkü və şir", "Ləpirlər", "Qara torpaq və sarı qızıl", "Minnətsiz çörək" və s.

**Filmoqrafiya**: Qanun naminə (film, 1968)

**22. Yazıçı Hacıbaba Nəzərlinin anadan olmasının 120 illiyi (1895- 1939)**



**Nəzərli Hacıbaba Hacı Ələsgər oğlu — nasir, 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**
Hacıbaba Nəzərli 1895-ci il martın 22-də Şamaxı şəhərində anadan olmuşdur. M.Ə.Sabirin "Ümid" məktəbini bitirmişdir. Moskvada Qırmızı Professura İnstitutunda təhsil almışdır (1930-1933).1895-ci ildə Şamaxıda anadan olmuş, azərbaycanlı, Azərbaycan vətəndaşı, AK(b)P-nın üzvi, ADDT sabiq direktoru təhlükəsizlik idarəsinin əməkdaşı Qriqoryanın 9 aprel 1937-ci il tarixli arayışına əsasən və əksinqilabi, burjua-millətçi təşkilatının fəal üzvi kimi qeyd edilərək həbs edilən, ağır, dözülməz işgəncələr altında Əli Nazimin 4, 7 iyul 1937-ci il tarixlərdə istintaqa verdiyi aşağıdakı ifadələrə görə Hacıbaba Nəzərlinin həbs olunması üçün IV şöbənin təhlükəsizlik kapitanı Çinmanın təsdiqinə verilir. Azərbaycan Sovet Yazıçıları İttifaqı təşkilat komitəsinə sədrlik etmişdir (1933-1934), Azərbaycan Dövlət Dram Teatrının direktoru işləmişdir (1934- cü ildən 1938- ilə qədər). Hacıbaba Nəzərli 1938-ci ildə repressiyaya uğramışdır.
**Əsərləri** : “Casusun yardımçısı” (1926),”Qışlaqdan kəndə” (1927), “Laçın” (1928), “Satqın” (1930), “Ölülər rəqs edərkən” (1930) və s.

**22. Şair İsmayıl Soltanın anadan olmasının 105 illiyi (1910-1963)**



**Ismayılov Soltan Məcid oğlu – şair, 1939 – cu ildən Azərbaycan yazıçılar birliyinin üzvü.**
1910-cu il martın 22-də Göyçayda yoxsul kəndli ailəsində doğulmuşdur. Ədəbi fəaliyyətə Bakıya köçdüyü ildən (1935) başlamış, şeirlərini dövri mətbuatda çap etdirmişdir. 1939-cu ildə mahnı müsabiqəsində birinci yeri tutmuş, 1940-cı ildə irihəcmli poetik əsərlər müsabiqəsində “Gündoğdu” poemasına görə ikinci dərəcəli mükafata layiq görülmüşdür. Bakıda “Xəzər bolşeviki” qəzetində ədəbi işçi, Azərbaycan Radio Verlişləri Komitəsində redaktor olmuşdur (1935-1941). İkinci Dünya müharibəsi dövründə Sovet Ordusu tərkibində “Döyüşçü” adlı Şimali Qafqaz cəbhə qəzetinin hərbi müxbiri kimi çalışmış, oçerk, mahnı və mübariz ruhlu şeirlərini həmin qəzetdə dərc etdirmişdir.
“Məhsəti”, “Pəri qala”, “Ana”, “Məhəbbət poemaları”, “Şirvan” mənzum pyesləri vardır. M. Y. Lermontovun “Maskarad” mənzum dramını Azərbaycan dilinə çevirmiş, A. S. Puşkin, Xaqani, Nekrosov və b. yazıçıların əsərlərindən nümunələr tərcümə etmişdir. SSRİ medalları ilə təltif olunmuşdur. 1963 – cü il yanvarın 23 – də vəfat etmişdir.
**Əsərləri:** **“**Ağdərə yollarında” (1940),**”**Əqrəb və qurbağa” (1946), **“**Balaca Sima Do” (1953), **“**Xatirələr” (1954), **“**Mavi alov” (1955),**”**Gözəlçə” (1956), **“**Bizim həmyerli oğlan” (1961),”O, rəssam idi“ (1967) və s.

# APREL

## Əlamətdar və tarixi günlər

Beynəlxalq Uşaq kitabı günü (02.04.1967)

Ümumdünya Sağlamlıq günü (07.04.1950)

Beynəlxalq Aviasiya və Kosmanavtika günü (12.04.1961)

Tarixi abidələrin mühafizəsi günü (18.04.1983)

Ümumdünya Yer günü (22.04.1970)

Ümumdünya kitab və müəllif hüquqları günü (23.04.1997)

## Bu tarixi unutmayaq

3 - 4. Kəlbəcər rayonunun erməni qəsbkarları tərəfindən işğal günü (03.04.1993)

## İncəsənət

Aktyor Muxtar Maniyevin (1935) 80 illik yubileyi

Teatrşünas Məryəm Əlizadənin (14.04.1950) 65 illik yubileyi

Xanəndə Məcid Behbudovun (18.04.1873-06.09.1945) 145 illik yubileyi

Xalq rəssamı Əzim Əzimzadənin (1880-15.05.1943) 135 illik yubileyi

## Yubilyar yazıçı və şairlər

Yazıçı Azər Abdullanın (01.04.1940) 75 illik yubileyi

Yazıçı Vilayət Hacıyevin (01.04.1950) 65 illik yubileyi

Yazıçı Aleksandr Həkimovun (02.04.1960) 55 illik yubileyi

Azər Buzovnalının (1870-08.08.1951) 145 illik yubileyi

Şair, yazıçı Arif Abdullazadənin (05.04.1940-31.05.2002) 75 illik yubileyi

Yazıçı Azad Şərifovun (07.04.1930-2009) 85 illik yubileyi

Şair Cəfər Rəmzinin (09.04.1905-11.09.1996) 110 illik yubileyi

Dövlət xadimi, yazıçı N. Nərimanovun (1870-1925) 145 illik yubileyi

Yazıçı, dramaturq Xalidə Hasilovanın (19.04.1920-1996) 95 illik yubileyi

Şairə Xanımana Əlibəylinin (20.04.1920-07.05.2007) 95 illik yubileyi

Ədəbiyyatşünas Azad Nəbiyevin (20.04.1945) 70 illik yubileyi

Şair Musa Ələkbərlinin (25.04.1905-25.04.1958) 65 illik yubileyi

Ədəbiyyatşünas Bəhlul Abdullanın (27.04.1940-25.03.2011) 75 illik yubileyi

Yazıçı Məmmədhüseyn Əliyevin (28.04.1925-06.07.1994) 90 illik yubileyi

Şair Mir Sabirin (28.04.1935) 80 illik yubileyi

# APREL

**Əlamətdar tarixi günlər və bayramlar**

**2. Benəlxalq Uşaq Kitabı günü**

**H.X.Andersenin anadan olmasının 210 illiyi (1805-1875)**

***Kitab idrak mənbəyi və kamillik vasitəsidir.***



***Dünyada nə qədər kitab var belə,***
***Çalışıb əlləşib gətirdim ələ,***
***Oxudum, oxudum, sonra da vardım,***
***Hər gizli xəzinədən bir dürr çixardım.***

**Nizami Gəncəvi**

**Aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günüdür**.

Uşaqların tərbiyəsində kitablar xüsusi yer tutur. Kitab onları zəngin mənəvi zövqə malik bir insan kimi tərbiyə edir, öz xalqının mübarizələrlə zəngin tarixi keçmişinə dərindən bələd olmasına imkan yaradır.Uşaq ədəbiyyatı gününün məhz bu tarixə təsadüf etməsinin maraqlı bir tarixçəsi vardır. Məşhur nağılçı Hans Xristian Andersen 1805-ci il aprelin 2-də anadan olmuşdur. Beynəlxalq Uşaq Kitab Gününün məhz bu tarixdə qeyd olunmasını alman yazıçısı Yella Lepman təklif etmişdir. 1967-ci ildə Beynəlxalq Uşaq Kitabları Şurası tərəfindən isə Danimarka yazıçısı, uşaqların sevimlisi Hans Xristian Andersenin dünyaya gəldiyi gün – aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günü kimi təsis edilmişdir. Bu tarix cəmiyyətin diqqətini uşaq ədəbiyyatına, onun problemlərinə cəlb etmək üçün təsis edilmişdir. Ümumiyyətlə, uşaq kitablarının tarixi 1477-ci ildən, antik yunan müəllifi Ezopun mahnılarının yazılı kitab şəklində çap edilməsi ilə başlayır. 1658-ci ildə çex maarifçisi və pedaqoqu Y.A.Komenski uşaqlar üçün dünyanı anlatmaq məqsədilə rəsmlərin yer aldığı kitab nəşr etdirmişdir. D.Defo və C.Sviftin "böyüklər" üçün yazılmış "Robinzon Kruzo" (1719-cu il ) və "Qulliverin səyahəti" romanları ideal formada uşaqların oxu dairəsinə adaptasiya olunmuşdur. Qrim qardaşlarının nağıllar kitabı bu baxımdan diqqəti cəlb edir. 1846-cı ildən başlayaraq H.X.Andersenin qələmə aldığı nağılları uşaqlar bu gün də çox sevirlər. Sonralar yazılaraq kitablara köçürülən xalq nağıllarına da maraq artmışdır. XIX-XX əsrlər Azərbaycanda uşaq ədəbiyyatının inkişafı ilə xarakterizə olunmuşdur. Hazırda Beynəlxalq Uşaq Kitabı Günü ölkəmizdə də özünəməxsus şəkildə qeyd olunur. Həmin gün müxtəlif rəsm və kitab sərgiləri keçirilir.

## 7. Ümumdünya Sağlamlıq günü

***Sağlam bədəndə sağlam ruh olar.***



1948-ci ildə birinci Ümumdünya Səhiyyə Assambleyası Ümumdünya Səhiyyə Təşkilatının yaranmasını qeyd etmək üçün Ümumdünya Sağlamlıq Gününün təsis edilməsi təşəbbüsü ilə çıxış etdi. 1950-ci ildən başlayaraq Ümumdünya Sağlamlıq Günü hər il 7 aprel tarixində qeyd edilir. Hər il Ümumdünya Sağlamlıq Gününün mövzusu ÜST üçün prioritet sayılan bir problemi diqqət mərkəzinə gətirir. Ümumdünya Sağlamlıq Günü diqqəti səhiyyə sahəsində beynəlxalq ictimaiyyətə təsir göstərən başlıca problemlərə yönəltmək üçün dünya səviyyəsində bir imkandır. Sağlamlıq ÜST-ün Nizamnaməsində yalnız xəstəliklərin, yaxud fiziki qüsurların olmamağı ilə deyil, tam fiziki, psixi və sosial sağlamlıq vəziyyəti kimi müəyyən olunur. ÜST özünün Ümumdünya Səhiyyə Assambleyası vasitəsi ilə 193 üzv dövlət tərəfindən idarə olunur. Bu Assambleya ÜST-ə üzv dövlətlərin nümayəndələrin-dən ibarətdir. Ümumdünya Assambleyasının əsas vəzifəsi ÜST-ün proqramı və növbəti ikiillik müddət üzrə büdcəsinin təsdiqi və siyasət məsələləri üzrə qərarların qəbul edilməsidir. Sağlam yaşlanmaq beynəlxalq ictimai səhiyyə proqramının gündəliyində prioritet məsələyə çevrilir. Sağlam yaşlanma həyatın ilkin mərhələlərindəki sağlamlıqla əlaqədardır və sağlam yaşlanma bir çox amillərdən asılıdır. Fərdin bioloji sisteminin funksional imkanları ömrün ilk illərində formalaşır, ilkin yetkinlik dövründə ən yüksək səviyyəyə çatır və bundan sonra təbii olaraq zəifləməyə başlayır. Bu zəifləmə həddi, qismən də olsa, insanın 2012-ci ildə bu günün mövzusu “Sağlamlıq ömrü uzadır” devizi altında yaşlanma və sağlamlıq məsələlərinə həsr olunub. Burada başlıca diqqət ona yönəldilir ki, sağlamlıq yaşlı kişi və qadınların bütün həyatı boyunca dolğun və səmərəli həyat sürməsinə yardım edir.Yaşlanma harada yaşamasından, cavan və ya qoca, kişi və ya qadın, zəngin və ya kasıb olmasından asılı olmayaraq, hər bir insanı düşündürür. İqtisadiyyatın qloballaşdığı, texnologiyanın sürətlə inkişaf etdiyi, urbanizasiyanın artdığı, ailə modellərinin dəyişdiyi XXI əsrdə ən böyük sosial dəyişikliklərdən biri də əhalinin yaşlanması məsələsidir. Tezliklə dünyada həm yaşlı insanların ümumi sayı  bütün həyatı boyu davranışları və məruz qaldığı təsirlərlə müəyyən edilir. Buraya onun qidalanması, fiziki aktivlik səviyyəsi və sağlamlıqla bağlı risklərə məruz qalması, məsələn, siqaret çəkmək, spirtli içkilərdən sui-istifadə və ya zəhərli maddələrin təsirinə məruz qalmaq halları daxildir.

**12. Beynəlxalq Aviasiya və Kosmonavtika günü.**



12 aprel- "Beynəlxalq Aviasiya və Kosmonavtika günü" kimi qeyd olunur. Bu bayram, ancaq Rusiyada (əvvəllərsə varisi olduğu SSRI-də) keçirilirdi. Amma artıq belə deyil. Belə ki, BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında yekdilliklə qəbul edilən qətnaməyə əsasən, 12 aprel "Beynəxalq kosmosa uçuş günü" (Space Probe Day) kimi bütün dünyada qeyd olunacaq.
1961-ci il aprelin 12-də, SSRI-nin vətəndaşı Yuri Qaqarin, "Vostok" kosmik gəmisində Yer kürəsinin ətrafında orbital uçuş həyata keçirərək, kosmik uçuş dövrünün əsasını qoydu. Cəmi 108 dəqiqə davam edən uçuş, kosmosun tedqiqinin və mənimsənilməsinin başlanğıcı oldu.
Başlanğıcda kosmosun tədqiq edilməsi, ABŞ və SSRI arasında strateji yarış şəklini alsa da, sonralar bu əməkdaşlığa çevrildi. SSRI dağıldıqdan sonra bunu Rusiya davam etdirir. Ancaq qeyd etmək lazımdır ki, ABŞ kosmonavtlarının Aya uçmasını çıxmaqla, bütün digər ilk addımlar SSRİ tərəfindən atılıb.
Bu günə qədər kosmosa təqribən 517 insan uçub, onlardan 55-i qadındır. Təəssüf ki, kosmonavtikanın inkişafinda çalışanlar arasında həlak olanlar da olub. Müxtəlif şəraitdə 22 kosmonavt həyatını itirib.
Vətəndaşları kosmosa uçuş keçirən ölkələr bunlardır: SSRI, Rusiya, ABŞ, Çexoslovakiya, Polşa, Almaniya Demokratik Respublikasi, Bolqariya, Macarıstan, Vyetnam, Kuba, Monqolustan, Rumıniya, Fransa, Almaniya Federativ Respublikası, Hindistan, Kanada, Səudiyyə Ərəbistanı, Niderland, Meksika, Suriya, Əfqanıstan, Yaponiya, Böyük Britaniya, Avstriya, Qazaxıstan, Belçika, Italiya, Isveçrə, Ukrayna, Ispaniya, Slovakiya, Cənubi Afrika Respublikası, Izrail, Çin, Braziliya, Isveç,  Malaziya, Koreya Respublikası.

## 18. Tarixi abidələrin mühafizəsi günü

***"Biz öz milli mənəvi dəyərlərimizlə, dini dəyərlərimizlə, adət ənənələrimizlə fəxr etməliyik. Əgər hansısa dağ kəndində tarixi abidə varsa, ona sadəcə qədim tikili kimi yox, milli sərvət kimi yanaşmalıyıq."***

**Ulu öndər Heydər Əliyev**



Bu gün YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.Tarixi abidələr - məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və s. tarixi keçmişimizin maddi yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Hər bir ölkənin tarixinin qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür. Bu sahədə ölkəmizin bəxti gətirmişdir. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Gövhərağa məscidi, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Həşt behişt, Şirvanşahlar, İrəvan sərdar sarayı, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər.Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz - Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdi. Bir çox ölkələrdə tarixi abidələrin qorunması işi çox ciddi təşkil olunmuşdur. Məsələn, Fransada hətta arxeoloji qazıntılar aparıldıqdan sonra tarixi yerlərin təbii landşaftı olduğu kimi bərpa olunur. Böyük Britaniyanın şimalında da Roma imperatoru Adrianın dövründə imperiyanın sərhədlərini qorumaq məqsədilə çəkilmiş məşhur Adrian sədləri olduğu kimi qorunub saxlanır. Sovet hakimiyyəti illərində Azərbaycanda tarixi memarlıq abidələrinə dövlət səviyyəsində laqeyd münasibət olmuşdur. Bir çox nadir memarlıq abidələri baxımsızlıq və tamah üzündən sökülüb-dağıdılmış, xeyli memarlıq abidələri, maddi-mədəniyyət nümunələri isə erməni saxtakarlığına məruz qalaraq özgəninkiləşdirilmişdir. Hazırda erməni işğalı altında olan ərazilərimizdəki memarlıq abidələri üzərində də bu cür saxta "əməliyyatlar"

aparılmaqdadır. Erməni vandalları Şuşa şəhərini işğal edərkən Üzeyir bəyin, Natəvanın, Bülbülün tunc heykəllərini belə avtomat atəşinə tutmaqdan çəkinməmişlər. Azərbaycan müstəqillik əldə etdikdən sonra bu məsələyə münasibət kökündən dəyişmişdir. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında" sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə Xatın və Qarabağlar türbələrində, Şəki xanlarının sarayında bərpa və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə Respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir.

*Tarixi arayış:* Birinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın işğalı altında qalan torpaqlarımızda 500-dək tarixi-memarlıq, 100-dən çox arxeoloji abidələr, on minlərlə eksponat olan 22 muzey, 4 rəsm qalereyası, 46 milyon kitab və əlyazmalar saxlanılan 927 kitabxana, 808 klub, 10 istirahət və mədəniyyət parkı, 85 musiqi və incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı qalmışdır. İşğal altında olan ərazilərimizdə xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizminin təcavüzünə məruz qalmışdır. Nəticədə tariximiz üçün mühüm əhəmiyyət kəsb edən, milli özünəməxsusluğu özündə əks etdirən minlərlə tarixi və arxeoloji abidələrimiz məhv edilmişdir.

**22. Ümumdünya Yer günü**

***Təbiət bir ahəngdir, ritmlə döyünən həssas bir ürəkdir.***



Beynəlxalq Yer Kürəsi Günü və ya "Ağac Günü" — keçirilmə tarixi XIX əsrin 70-ci illərinə təsadüf edir. Senator Heylord Nelsanın təşəbbüsü ilə keçirilən bu bayramda məqsəd insanların diqqətini ətraf mühitin çirkləndirilməsi və canlı aləmin qorunub saxlanması problemlərinə cəlb etmək idi.

Yer Kürəsi Günü ilk dəfə 1970-ci il aprelin 22-də qeyd olundu. 20 milyona yaxın amerikalı müxtəlif tədbirlərdə iştirak edərək hökuməti ekoloji problemləri həll etməyə çağırdı. Həmin vaxtdan etibarən başlanan kütləvi ekoloji hərəkat təbii ehtiyatların qorunmasına və sənaye istehsalı üzərində ekoloji nəzarətə istiqamətləndi. Məhz XX əsrin 70-ci illərindən etibarən şirkətlər ətraf aləmin mühafizəsinə nə qədər vəsait ayırmaları barədə rəsmi məlumat verməyə başladılar.

**Azərbaycanda Ümumdunya yer günü**

2003-cü ildə Azərbaycan Prezidentinin sərəncamı ilə Bakı şəhərinin Qaradağ rayonu, Salyan və Neftçala rayonlarını əhatə edən Şirvan Milli Parkı, Ağcabədi və Beyləqan rayonlarını əhatə edən Ağ-göl Milli Parkı yaradılmışdır.

**23. Ümumdünya Kitab və Müəllif hüquqları günü**

***"Hər bir oxunan kitabın bəhrəsi yeni kitabdır, yeni biliyə yol açan bilik mənbəyidir, yaradıcılıq və kreativlik fenomenindən irəli gələn «Müəllif» anlayışı və Müəlliflik hüququdur."*** **Volter**




**Aprelin 23 Ümumdünya Kitab və Müəlliflik hüququ günüdür.** Bu gün 1616-cı ildə M.Servantes, V.Şekspir və İnka Qarsilaso de la Veqa dünyasını dəyişib. Bugünkü tarixdə həmçinin Moris Drüon, X.Laksness, C.Pla və Manuel Mexia Valyexo kimi məşhur müəlliflərin anadan olma və ya həyatdan getmə günləridir. 1995-ci ilin bu tarixində Parisdə YUNESKO-nun baş konfransı keçirilib. Konfransda nümayəndələr həmin gün kitab və müəlliflərə ehtiram göstərilməsini qərara alaraq, hər kəsi, əsasən də gənc nəsli mütaliədən həzz almağa, eləcə də bəşəriyyətin ictimai və mədəni inkişafında böyük rolu olmuş insanların zəhmətinə hörmət bəslənməsinə çağırdı. Elə həmin konfransda Ümumdünya Kitab və Müəlliflik hüququ günü, həmçinin Uşaq və yeniyetmə ədəbiyyatında dözümlülük ideallarının təbliğinə görə YUNESKO mükafatı təsis edildi. 23 aprel YUNESKO tərəfindən elan edilən və Azərbaycanda artıq 1997-ci ildən başlayaraq ənənəvi şəkildə qeyd edilən Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür. Müəlliflik hüququnun Kitab ilə təmasda olması, «Yaradıcıdan – Kitaba, Müəllifdən – Müəlliflik Hüququna» yolu heç də təsadüfi deyil. Məşhur Volterin kəlamı ilə desək, «onlar ocaqlarımızdakı oda bənzəyir: onu qonşudan götürüb, özümüzdə yandırıb, digərlərinə veririk və beləliklə, onlar hamıya məxsusdur. Cənab Prezident İlham Əliyevin dediyi kimi, «müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır» və «Qara qızılı insan kapitalına çevirmək» məşhur şüarı dövlət başçısının kreativliyə və yenilikçiliyə verildiyi ən böyük dəstəkdir. Azərbaycan müasir müəllif-hüquq sisteminə malikdir. "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"nə həsr olunan tədbirlərin keçirilməsinin məqsədləri kitab və müəlliflik hüququnun mədəni irsimizdə əhəmiyyətini bir daha açıqlamaq, davamlı iqtisadi inkişafda və informasiya cəmiyyətinin formalaşmasında rolunu diqqətə çatdırmaq, yaradıcı şəxslərə öz hörmət və ehtiramlarımızı bildirmək və mədəni ənənələrimizin qorunub saxlanmasının vacib olduğunu bir daha təsdiqləməkdir.

**Bu tarixi unutmayaq**
**3-4. Kəlbəçər rayonunun erməni qəsbkarları tərəfindən işğalı günü (1993)**

***Yurdun gözəl yeri dağlı Kəlbəcər***
***Ürəyi yanıqlı, dağlı Kəlbəcər***
***Əlləri-qolları bağlı Kəlbəcər***
***Vətənin həsrəti yandırır məni.***



**Kəlbəcər — Azərbaycan Respublikasında şəhər (1960-1980-ci illərdə şəhər tipli qəsəbə), Kəlbəcər rayonunun mərkəzi. 1993-cü il aprel ayının 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Kəlbəcər şəhəri respublikanın paytaxtı Bakı şəhərindən 458 km aralı, Tərtər çayı dərəsindədir.**

Kəlbəcər şəhərindəki məscid işğal zonasında qalaraq Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb, 900 kv.metr sahəsi və geniş kitabxanası olan, eksponatlarla zəngin Kəlbəcər tarix diyarşünaslıq muzeyinin bütün maddi və mənəvi sərvəti ermənilər tərəfindən talan edilərək Ermənistana daşınıb. Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunur. Lakin indiyədək həmin qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilməyib. Bununla yanaşı, BMT və ATƏT-in prinsiplərinə zidd olaraq 1999 ildən Kəlbəcərdə ermənilərin süni şəkildə məskunlaşdırılmasına başlanılıb. Ərazisi - 1936 kv.km, əhalinin sayı – 53.962 nəfər idi. Rayonun ərazisi 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmişdir. Kəlbəcər rayonunun gözəl və zəngin təbiəti, yeraltı və yerüstü sərvətləri, münbit torpaqları vardır. 1998-ci ildən başlayan elan olunmamış müharibədə Kəlbəcər camaatı qeyrətlə vuruşaraq təpədən dırnağacan silahlanmış və havadarlarına arxalanan erməniləri torpaqlarına yaxın qoymadılar. 1992-ci ilin aprelin 8-də Ağdaban kəndi ermənilərin amansız hücumlarına dözə bilmədi, işğal olundu. Təkəqaya, Zağalar, Çıraq kəndlərinə soxulub evlərə od vurub, dinc əhalini diri-diri yandırdılar. Ən əhəmiyyətli Keçiliqaya yüksəkliyinə sahib çıxdılar. Aprelin 2-də Kəlbəcər artıq erməni quldurlarının əlinə keçdi.İşğal nəticəsində Kəlbəcərdə: 511 nəfər şəhid oldu, 231 nəfər itkin düşdü, 100-lərlə adam şikəst oldu. 130 yaşayış məntəqəsi, dünya şöhrətli, "İstisu" sanatoriyası, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edildi. 1933-cü ilin qiymətləri ilə Kəlbəcərə azı 761 mln. ABŞ dolları dəyərində ziyan dəydi. Kəlbəcər faciəsi Ağdamın, Füzulinin, Qubadlının, Cəbrayılın işğalına yol açdı. Kəlbəcər rayonunda erməni təcavüzü nəticəsində 24279 uşaq zərər çəkmiş, onlardan 734 nəfəri yetim qalmışdır.

## İncəsənət

***“Yüksək mədəniyyətə malik olan xalq, irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir...”***

**Ulu öndər Heydər Əliyev**

## Aktyor Muxtar Maniyevin anadan olmasının 80 illiyi (1935)



Ömür də kino kimidir. Bu qədər filmə çəkilmək hər aktyora qismət olmur. Xalq artisti Muxtar Maniyev 157 filmə çəkilib. Muxtar Maniyev 1935-ci ildə Bakıda doğulub. İlk təhsilini də şəhərin 199 saylı məktəbində alıb. Neft-Kimya İnstitutunda mühəndis ixtisası alıb. Ancaq sonradan aktyorluq sənəti onu sanki ovsunlayır. Mühəndis diplomu aldıqdan sonra o, çox fikirləşmədən sənədlərini Azərbaycan Dövlət İncəsənət İnstitutuna təqdim edərək, ikinci təhsil ardınca gedib. Muxtar Maniyevin kinoya gəlişi "Onu bağışlamaq olarmı?" filmi ilə başlayıb. Çox keçmədən ardınca "Koroğlu" filminə çəkilib. Sonrakı illər bir-birinin ardınca "İnsan məskən salır", "O qızı tapın", "Bizim Cəbiş müəllim" filmlərində Muxtar çox uğurlu qəhrəmanları ekranda canlandırmaqla özünü təsdiq edib. Muxtar Maniyev yaradıcılığı bizim kinematoqrafın böyük bir dövrü ilə bağlıdır. Onun 60-70-ci illərdən başlanan yaradıcılıq yolu bu gün də inamla davam edir. 40 ildən artıq yaradıcılığı dövründə Muxtar müəllim milli kinomuz üçün qiymətli obrazlar yaradıb. Bu qəhrəmanlar kinomuzda özünəməxsus yeri olan sənət nümunələridir. Onun rolları milli, xarakterlidir, əsl azərbaycanlılardır. Çox maraqlıdır ki, rejissorlar da ona elə bu tip rolları həvalə edirdilər. "Bakıda küləklər əsir", "Bizim Cəbiş müəllim", "Sizi dünyalar qədər sevirdim" və digər filmlərdə Muxtar müəllim müharibə dövrünün müxtəlif xarakterli insanlarının çox maraqlı obrazlarını yarada bilmişdir. Muxtar Maniyev məhsuldar çalışan sənətçilərdəndir.

**Filmoqrafiya**

1. Babək (film, 1979)
2. Bala-başa bəla! (film, 1995)
3. Bəxt üzüyü (film, 1991)
4. Bəyin oğurlanması (film, 1986)
5. Bir ailəlik bağ evi (film, 1978)
6. Bir nömrəli... (film, 1980)
7. Birisigün, gecəyarısı... (film, 1981)
8. Bizim Cəbiş müəllim (film, 1969)
9. Bomba (film, 2005)
10. Bu da bir naxışdır (film, 1987)
11. Bumeranq (film, 1982)
12. Cin mikrorayonda (film, 1985)
13. Çarvadarların izi ilə (film, 1974) və s.

### 14. Teatrşünas Məryəm Əlizadənin anadan olmasının 65 illiyi (1950)

*Məryəm Əlizadə bizə çox gərəkdir, çünki onun tanrısı gözəllikdir, sevgidir.”*

**Əməkdar İncəsənət xadimi Vaqif İbrahimoğlu**



**Məryəm Əli qızı Əlizadə — teatr tənqidçisi, teatrşünas, sənətşünaslıq doktoru (1998), professor (1999), 1986-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü**.

Məryəm Əlizadə 1950-ci il aprelin 14-də Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. Burada 31 saylı orta məktəbi bitirdikdən sonra Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Teatrşünaslıq fakültəsində təhsil almışdır (1967-1972). Əmək fəaliyyətinə Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun Teatr və Kino şöbəsində baş laborant kimi başlamışdır (1972-1975). Bakı Kitabxanaçılıq Texnikumunda müəllimlik etmiş (1976-1978), M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutuna dəyişilmiş, teatr tarixi kafedrasında müəllim, baş müəllim (1978-1985), sonra isə dosent və professor vəzifəsində çalışmışdır. Ədəbi fəaliyyətə 1972-ci ildən "Qobustan" toplusunda teatr tənqidi barədə dərc olunan məqalələrlə başlamış, bundan sonra dövri mətbuatda teatr tənqidinə və teatrşünaslığa dair məqalələrlə müntəzəm çıxış etmişdir. "Əhməd Ağdamski" və "Həbibbəy Mahmudbəyov" elmi-ədəbi oçerkləri "Unudulmaz səhnə ustaları" kitabında (1981, Yazıçı) dərc olunmuşdur. Azərbaycan Yazıçılar İttifaqı dramaturgiya şurasının sədri, M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram teatrında bədii şuranın üzvü (1987-ci ildən), Azərbaycan SSR Teatr Xadimləri İttifaqı idarə heyətinin üzvüdür (1988-ci ildən). "SSRİ və Yunan Teatr Əlaqələri. Ənənə və novatorluq" simpoziumunda (Afina – 1986, oktyabr) Sovet nümayəndə heyətinin tərkibində Yunanıstanda olmuşdur.

**Məqalələri**

1. XXI əsr dünya teatr prosesi və Azərbaycan milli teatr sənətinin çağdaş məqsəd və vəzifələri (Müasir teatrda ənənə və novatorluq məsələləri). "Mədəni maarif", 2006, N2, s.5-8.
2. Müasir teatr sorağında (Ədalət Vəlıyevin "Teatr sənətimiz: dünən, bu gün, sabah..." adlı kitabı haqqında). "Mədəni maarif", 2006, N3, s.7-9.
3. Ondan içəri... (Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru Timuçin Əfəndiyevin 60 illiyi). "Qobustan", 2006, N2, s.20-25 və s.

## 18. Xanəndə Məcid Behbudovun anadan olmasının 145 illiyi (1870-1945)

*"Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə, elmimizə, mənəviyyatımıza əsaslanır."*

**Ulu öndər Heydər Əliyev**



**Behbudov Məcid Behbudalı oğlu (18.4.1873, Şuşa—6.9.1945,Qazax)-Görkəmli Azərbaycan xanəndəsi.**

O, 1873–cü ildə Şuşada doğulmuşdur. Hələ uşaq yaşlarından onun gözəl səsi eşidənləri heyran qoyurdu. Müğənni olmağı arzu edən M. Behbudov gənc yaşlarından xanəndəliyə başlamışdır. Ailəsi ilə Tiflisə köçdükdən sonra, o, burada uzun müddət yaşamışdır. Azərbaycan milli vokal məktəbinin körkəmli nümayəndələrindən olan M. Behbudov xalq musiqisinin populyarlaşdırılmasında əhəmiyyətli rol oynamışdır. 1914-cü ildə M. Behbudovun səsi Riqadakı "Qrammofon" şirkətində vala yazılmışdır. O, Mirzə Hüseyn segahı, Şüştər və Cahargah muğamlarının, bir çox xalq mahnısının mahir ifaçısı sayılırdı. M. Behbudov, həmçinin, musiqili tamaşalarda da çıxış etmişdir. Təbriz, İstambul, Sofiya şəhərlərində konsertlər vermişdir. Məcid Behbudov həm də opera səhnəsində çıxış edirdi. O, Azərbaycan bəstəkarlarının yazdıqları, demək olar ki, bütün opera və operettalarda iştirak etmişdir. Üzeyir Hacıbəyovun əsərlərində onun oynadığı rollar, xüsusilə, yaddaqalandır. Məcid Behbudovun övladları da ata ilə gələn bu ailə ənənəsini davam etdirmişlər. Müğənninin oğlu, SSRİ xalq artisti Rəşid Behbudov da öz bənzərsiz səsi ilə dünyanı heyran qoymuşdur. İkinci oğlu – Ənvər Behbudov Rusiyanın xalq artisti, qızı Nəcibə Behbudova isə Azərbaycanın əməkdar artistidir. Onlar milli mədəniyyətimizin inkişafında mühüm rol oynamışlar.

## Xalq rəssamı Əzim Əzimzadənin anadan olmasının 135 illiyi (1880- 1943)

***"Əzimin karikaturaları zəmanənin aynası kimi bizlərə göz ağardıb, diş qıcayanları olduğu kimi göstərir"***

**Yazıçı C. Məmmədquluzadə**



**Əzimzadə Əzim Aslan oğlu (1880-1943) — Azərbaycanlı rəssam, Azərbaycanın Xalq Rəssamı (1927), Azərbaycan karikatura sənətinin banisi.**

Əzim Əzimzadə 1880-ci ilin aprel ayında Novxanı kəndində anadan olmuşdur. Atasının etirazına baxmayaraq ibtidai təhsilini rus-tatar məktəbində almışdır. Yaradıcılığı boyu əsrlərdən bəri formalaşan Təbriz Azərbaycan miniatür məktəbinin və rus rəssamlıq məktəbinin ənənələrindən bəhrələnmişdir. Rəssamlığa məşhur "Molla Nəsrəddin" jurnalında öz əsərlərini dərc etdirməklə başlamışdır. 1906-cı ildən "Molla Nəsrəddin", "Baraban", "Zənbur", "Tuti", "Kəlniyyət" və sair jurnalların səhifələrində satirik qrafik karikaturalarını nəşr etdirməklə Azərbaycan satirik qrafikasının əsasını qoymuşdur. Əzimzadənin əsərlərinin əsas mövzusunu sosial təzadlar, adətlər və xalqın məişəti təşkil edirdi. Cəmiyyətin müxtəlif təbəqələrinin mənfi ünsürləri - xəsis tacirlər, fırıldaqçı din xadimləri, şarlatanlar onun satirik qələminin hədəfində olurdular. O, öz əsərlərində mənfi surətləri gah kəsərli yumor, gah yumşaq kinayə ilə kəskin satira atəşinə tuturdu. Çəkdiyi "İt boğuşdurma", "Kişi arvadını döyür", "Varlı evində toy", "Su üstündə dava", "Köhnə bakılılar" kimi əsərlərində müxtəlif sosial təbəqələrə məxsus tiplərin iç üzünü açaraq qadın hüquqsuzluğuna, ədalətsizliyə qarşı çıxış edirdi. Bu mənada, o dövrdə cəmiyyətdəki sosial ədalətsizlikləri özündə daha qabarıq əks etdirən "Köhnə Bakı tipləri" və "100 tip" əsəri xüsusilə təqdirəlayiqdir. Ə. Əzimzadə satirik şair M. Ə. Sabirin "Hophopnamə"sinə çəkdiyi illüstrasiyalarla kitab qrafikası sənətinin də əsasını qoymuşdur. Onun teatrlara çəkdiyi geyim eskizləri və dekorasiyalar Azərbaycan rəssamlığının bu sahədəki inkişafına xüsusi təkan vermişdir. Əsərləri dünyanın bir sıra muzeylərində nümayiş etdirilən rəssamın ilk fərdi sərgisi 1940-cı ildə təşkil olunmuşdur. Bakıda keçirilən birinci sərgidə tamaşaçılar rəssamın 1200-dən çox əsərinə tamaşa edə bilmişlər. 1920-1943-cü illərdə Ə. Əzimzadə Azərbaycan Rəssamlıq Texnikumunda müəllim, 1932-1937-ci illərdə isə direktor olmuşdur. Əzim Aslan oğlu Əzimzadə 1943-cü il may ayının 15-də Bakıda vəfat etmişdir. Bakı Rəssamlıq Texnikumu, eləcə də Bakı küçələrindən biri onun adını daşıyır. Yaşadığı evdə rəssamın ev muzeyi açılmış, evin yaxınlılığındakı bağda büstü qoyulmuşdur.






# Yubilyar yazıçı və şairlər

## 1.Yazıçı, şair Azər Abdullanın anadan olmasının 75 illiyi (1940)



**Əhmədov Azər Abdulla oğlu (Azər Abdulla) — şair, nasir, publisist, 1986-cı ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, Azərbaycan Jurnalistlər İttifaqının üzvü (1977), filologiya elmləri namizədi (1986).**

Azər Abdulla 1940-cı il aprel ayının 1-də Ermənistanın  Lök kəndində kolxozçu ailəsində doğulmuşdur. Lök kəndi orta yediillik məktəbində, sonra qonşu kənd orta məktəbində təhsil almışdır. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin dil və ədəbiyyat şöbəsini bitirmişdir (1962-1967). Jurnalistik fəaliyyətinə "Azərbaycan məktəbi" jurnalında korrektor, "Mədəni ticarət" qəzetində ədəbi işçi işlərkən başlamış (1967-1969), ilk qələm təcrübələrini və şerlərini dövri mətbuatda çap etdirmişdir. "Qobustan" toplusunda texniki redaktor vəzifəsində çalışmışdır. Hazırda "Oğuz Eli" qəzetinin əlavəsi olan "Yazıçı" qəzetinin baş redaktorudur.
"Nazim Hikmət və Azərbaycan" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Dövri mətbuatda şeir, hekayə və publisistik yazılarla müntəzəm çıxış edir.

**Əsərləri**

1. Bir durna qatarıyıq. - Bakı: Gənclik, 1969. - 36 s.
2. Gedirəm gündoğana. - Bakı: Gənclik, 1979. - 32 s.
3. Səni gözləyirəm. - Bakı: Gənclik, 1984. - 25 s.
4. Bəyaz çiçəklər. - Bakı: Yazıçı, 1986. - 136 s.
5. Oyun. - Bakı: Yazıçı, 1989. - 141 s.
6. Qəmərlidən keçən qatar. - Bakı: Gənclik, 1969. - 216 s.
7. Padeşa. - Bakı: Gənclik, 2005. - 210 s.

**1.Yazıçı, tərcüməçi Vilayət Hacıyevin anadan olmasının 65 illiyi (1950)**



1950-ci il aprelin 1-də Qazax rayonunun Sofulu kəndində anadan olmuşdur. 1966-cı ildə Qazax şəhər 1 saylı orta məktəbini bitirmiş və elə həmin ildə M.F.Axundov adına APDİ-nin alman dili fakültəsinə daxil olmuşdur. İnstitutu 1971-ci ildə bitirəndən sonra bir il Daşkəsən rayonunda alman dili müəllimi işləmişdir. 1973-cü ildən Azərbaycan Dillər Univesitetində (SSRİ-nin 50 illiyi adına APXDİ) işləyir. Filologiya elmləri namizədi, dosentdir. Hazırda bu universitetin Tərcümə fakültəsinin dekanı vəzifəsində çalışır. 1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

**Tərcüməçilik fəaliyyəti**

Alman dilindən Azərbaycan dilinə və əksinə bədii tərcümə fəaliyyəti ilə tələbəlik illərindən məşğul olur. 70-ci illərin əvvəllərindən başlayaraq respublika mətbuatında tərcümələri nəşr olunur. Azərbaycan oxucuları “Azərbaycan”, “Ulduz”, “Xəzər” jurnallarında, eləcə də “Ədəbiyyat və incəsənət” qəzetində V. Borxert, Z. Lents, H. Böll, S. Svayq, F. Kafka və s. kimi görkəmli alman və Avstriya yazıçılarının yaradıcılığından nümunələrlə onun tərcüməsində tanış olmuşlar.Müxtəlif antologiya və toplularda çap olunan tərçümələrindən əlavə aşağıdakı tərcümə kitablarının müəllifi və ya həmmüəllifidir:

1.Erix Mariya Remark. “Zəfər tağı” (roman) – Bakı, Yazıçı, 1986.

2.Herman Hesse. “Yalquzaq” (roman) – Bakı, Yazıçı, 1990.

3.Lion Feyxtvanger. “Lautenzak qardaşları” (roman və hekayələr) - Bakı, Yazıçı, 1991.

4.Henrix Böll. “Seçıilmiş əsərləri”ndə “Bir təlxəyin düşüncələri” romanı və hekayələri. Bakı, “Şərq-Qərb”, 2009.

5.Frans Kafka. “Atama məktub”. “Azərbaycan” jurnalı, 2009, N 7.

Alman dilinə etdiyi tərcümələr: 1.Jussif Samedoglu. “Der kalte Stein” (“Soyuq daş”). 2.Anar. “ Die rote Limousine” (“Qırmızı limuzin”). 3.Rafig Taghi. “Der Verrückte“ (Divanə). (Sena Doqanla birlikdə). Bu əsərlər Almaniyada nəşr olunan “Gruber –Müller ( Hg ) Verschlossen mit silbernem Schlüssel Literatur aus Armenien, Aserbaidschan, Georgien (1 Auflage. München- Wien ed- KAPPA, 2000) adlı topluda işıq üzü görmüşdür.

**Mükafatları:** Vilayət Hacıyev 2012-ci ildə “Ən yaxşı tərcümə əsərinə” görə Tofiq Bayram mükafatı ilə qiymətləndirilib. Vilayət Hacıyev Frans Kafkanın “Məhkəmə” romanını Azərbaycan dilinə mükəmməl tərcümə etdiyinə görə bu mükafatı alıb.

## 2.Yazıçı, publisist Aleksandr Həkimovun 55 illiyi (1960)

***Yaxşı fantastika insan şüurunu, məntiqi təfəkkürünü və dünyagörüşünü inkişaf etdirir. Bu janrda yazan müəlliflər insan qəlbinin dərinliklərinə vararaq incə psixoloji təhlillər verirlər.***



1960-cı il aprelin 2- də Ukraynada, Luqansk vilayətinin Krasnıy Luç şəhərində anadan olmuş, ancaq körpə vaxtlarından ailəlikcə Bakıya köçmüşlər. Orta təhsilini Bakının Nəsimi rayonundakı 42 saylı məktəbdə almışdır (1978). Poçtalyon, yükdaşıyan, təcili yardım stansiyasında sanitar, hospitalda tibb işçisi, estrada ansamblında gitara çalan, zooparkda xidmətçi kimi müxtəlif işlərdə çalışmışdır (1970-1980).
Bakı Dövlət Universitetinin kimya – biologiya fakultəsini bitirmişdir. Bir müddət Bakının orta məktəblərində boilogiyadan dərs demişdir. AMEA –nın Botanika İnstitutunda işləmişdir. Hazırda AMEA Genetik Ehtiyatlar Mərkəzində çalışır. Yaradıcılıqla gənclik yaşlarından məşğul olur. Respublikada keçirilən bir neçə ədəbi müsabiqənin və festivalların laureatıdır.

**Əsərləri:** “Üçüncü olmayacaq”, “Avalona ekskursiya”, “İkiqat noktürn”,“Uzun günorta kölgələri”, “Qorxulu bir şey yoxdur” və s.

## Şair Azər Buzovnalının anadan olmasının 145 illiyi (1870-1951)

***Mən hələ Vahidiyəm Azərbaycanımızın,***
***Atəşi-eşqə yanan Azərimiz evdə qalıb.***

**Əliağa Vahid**



Füzuli poeziyasının davamçısı kimi şöhrət qazanmış görkəmli qəzəl ustası Məşədi Azər Hacıməcid oğlu İmaməliyev 1870-ci ildə Bakının Buzovna kəndində anadan olmuşdur. Gənclik illərini o vaxtlar Petrovski-Port adlanan indiki Mahaçqalada keçirən şair ədəbi fəaliyyətə bu şəhərdə başlamışdır. Hacıağa Abbasov xatirələrində şair Azərin "Rüstəm və Söhrab" mövzusunda yeni poema yazdığını bildirir. Bir neçə ildən sonra Azər həmişəlik Bakıya köçür və ədəbi fəaliyyətlə yanaşı, Buzovna qəsəbəsində və bir sıra şəhər məktəblərində uzun müddət müəllimlik edir. O, Firdovsi, Nizami, Xaqani və bir çox klassik şairlərin fars dilində yazdıqları müxtəlif şeir və poemaları tərcümə etmiş, bu əsərlər məktəblilərin tədris kitablarında çap olunmuşdur. 1917-ci ildə Azərin "Həmvətənlərimə" adlı məcmuəsi Bakıda "Açıq söz" mətbəəsində çap olundu. Onun Buzovnadakı evi şair dostlarının bir növ yaradıcılıq məclisinə çevrilmişdi. Dövrün məşhur qəzəl ustadlarından Ağadadaş Müniri, Mirzə Əbdülxalıq Cənnəti, Haşım bəy Sağib, Seyid Zərgər, Əbdülxalıq Yusif, Həsən Səyyar və Əliağa Vahid bu məclisə yığışıb yeni qəzəllərini oxuyar və bəzən də müəyyən bir qafiyə əsasında hərə öz məharətini nümayiş etdirərdi. Əliağa Vahid yaş etibarilə bu şairlərdən çox cavandı. Özünün dediyi kimi, onların arasında şeirlərini çəkinə-çəkinə oxuyardı. Vahid həmişə söhbət əsnasında Azəri özünün böyük müəllimi adlandırardı. Azər Buzovnalı poeziyasının pərəstişkarlarından biri də unudulmaz yazıçımız Məmməd Səid Ordubadi idi. Ötən əsrin iyirminci illərində böyük ədib yay istirahətini çox vaxt ailəsi ilə birlikdə Buzovna bağlarında keçirərdi. Bu illər ərzində o dəfələrlə Azərin Tuğaydakı bağında, eləcə də Ağadadaş Müniri və Haşım bəy Sağibin mənzilində təşkil olunan şeir məclislərində əziz qonaq kimi iştirak etmişdir. Ordubadi qırxıncı illərdə Buzovnadakı bağında istirahət etdiyi vaxtlarda da tez-tez Azərin yanına gələr, onlar Nizami, Füzuli, Hafiz və Xəyyam poeziyası haqqında şirin-şirin söhbət edər, bəzən də bir-birinə öz lirik şeirlərindən parçalar oxuyardılar. Məşədi Azər 1951-ci il avqustun 8-də 81 yaşında Buzovnada vəfat etmişdir. Şairin vəfatından sonra Vahid yazdığı yeni bir qəzəldə Azəri, eləcə də keçmiş qələm dostlarını sonsuz məhəbbətlə yad edir:

Vahid, hanı Yusif, hanı Səyyar ilə Sağib,
Kimdən soraq, ustadımız Azər yenə varmı?

**5. Şair, yazıçı Arif Abdullazadənin anadan olmasının 75 illiyi (1940-2002)**



**Abdullayev Arif Əbdürrəhman oğlu - şair, nasir, ədəbiyyatşünas, tərcüməçi, 1969-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1977).**

Arif Abdullazadə 1940-cı il aprelin 5-də Şəki şəhərində anadan olmuşdur. Orada 11 saylı şəhər orta məktəbini bitirəndən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1956-1961). Azərbaycan SSR Elmlər Akademiyasının əsaslı kitabxanasında və Nizami adına Ədəbiyyat muzeyində redaktor mütəxəssis, kiçik elmi işçi (1961-1962), sonra Nizami adına Ədəbiyyat İnstitutunda kiçik elmi işçi (1962-1968), böyük elmi işçi (1968-1976), aparıcı elmi işçi (1976-1993), Müasir Azərbaycan ədəbiyyatı şöbəsində müdir vəzifəsində çalışmışdır (1993-2002). Türkiyədə tərcüməçi kimi fəaliyyət göstərmişdir (1970-1972). 2002-ci il mayın 31-də Bakıda vəfat etmişdir.

**Əsərləri**

1. Arzular. - Bakı: Azərnəşr, 1964 -143 s.

- 2. Könüllərin dünyası. - Bakı: Azərnəşr, 1966. - 183 s.
- 3. Hər yerdə, hər zaman. - Bakı: Azərnəşr, 1969. - 72 s.
- 4. Ana dünyamız. - Bakı: Azərnəşr, 1975. - 74 s.
- 5. Novatorluq və üslub. - Bakı: Elm, 1976. - 112 s.
- 6. Sevin Azərbaycanı. - Bakı: Gənclik, 1979. - 104 s.
- 7. Bir ovuc torpaq. - Bakı: Gənclik, 1982. - 287 s.
- 8. Səninlə sənsiz. - Bakı: Yazıçı, 1983. - 136 s.
- 9. Şairlər və yollar. - Bakı: Elm, 1984. - 224 s.
- 10.Duyum : roman. - Bakı: Gənclik, 1986. - 336 s.
- 11.Bəxtimizin kitabı : şeirlər. - Bakı: Yazıçı, 1988. - 240 s.
- 12.Şair Cəfər Cabbarlı. - Bakı: Elm, 1989. - 180 s.
- 13.Od nə çəkdi. - Bakı: Azərnəşr, 1990. - 282 s.
- 14.Seçilmiş əsərləri. - Bakı: Azərnəşr, 1991. - 334 s.

**7.Yazıçı, publisist Azad Şərifovun anadan olmasının 85 illiyi (1930-2009)**



**Azərbaycan Ali Sovetinin deputatı kimi səmərəli fəaliyyət göstərmişdir. Ədəbi-ictimai xidmətləri Qırmızı Əmək Bayrağı, iki Şərəf Nişanı ordenləri, Azərbaycanın əməkdar jurnalisti fəxri adı ilə qiymətləndirilmişdir.**

Azad Ağakərim oğlu Şərifov 1930-cu il aprel ayının 7-də Bakıda anadan olmuşdur. 6 nömrəli Bakı şəhər orta məktəbində təhsilə başlamış, sonra musiqi məktəbinə dəyişilmiş, 1949-cu ildə bu təhsil ocağını bitirmişdir. 1949-1950-ci illərdə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. 1951-1954-cü illərdə "Azərbaycan idmançısı" qəzetində ədəbi işçi, 1954-1955-ci illərdə "Pionerskaya pravda" qəzetinin Zaqafqaziya üzrə xüsusi müxbiri olmuşdur. 1955-1964-cü illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində ikinci ali təhsil almışdır. Eyni zamanda "Molodyoj Azerbaydjana" qəzetində şöbə müdiri, redaktor müavini və redaktor vəzifələrində işləmişdir. 1956-1959-cu illərdə Ümumittifaq Komsomolu MK-nın nəzdində jurnalistika şöbəsində təhsil almışdır.1962-1965-ci illərdə Moskvada Komsomolun Mərkəzi Komitəsinin təbliğat şöbəsində təlimatçı, məsul təşkilatçı, 1965-1966-cı illərdə "Vokruq sveta" jurnalının baş redaktor müavini, 1966-1969-cu illərdə "İzvestiya" qəzetinin Türkiyə, İran və Əfqanıstan üzrə xüsusi müxbiri, 1969-1979-cu illərdə Azərbaycan KP MK-nın mədəniyyət şöbəsinin müdiri, 1979-88-ci illərdə Azərbaycan Dövlət Kino Komitəsinin sədri, 1988-1992-ci illərdə Azərinformun baş direktoru, siyasi icmalçısı vəzifələrində çalışmışdır. Ədəbi fəaliyyətə tələbəlik illərində başlamışdır. İlk qələm təcrübələri mətbuatda işıq üzü görmüşdür. 1958-ci ildə "Yeni həyatın pionerləri" adlı hekayələr və oçerklərdən ibarət ilk kitabı nəşr edilmişdir. Sonralar "Mahnı qəlblərə yol açdı", "Nuxa", "Mavi gəminin kapitanı", "Uzaq meridianlarda görüş", "Elan olunmamış müharibə - Azərbaycan əhalisinə qarşı erməni soyqırımı", "Erməni terrorizmi", "Bosfor üzərəində qağayılar", "İnformasiya blokadasının yarılması" və s. kitabları çapdan çıxmış, ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır.

**9. Şair, ədəbiyyatşünas Cəfər Rəmzinin anadan olmasının 110 illiyi (1905-1996)**



**İsmayılzadə Cəfər Balaəmi oğlu - şair, ədəbiyyatşünas, tərcüməçi, 1985-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1968), baş elmi işçi (1973), əmək veteranı(1977), elm veteranı (1988)**

Cəfər Rəmzi 1905-ci il aprelin 9-da Bakının Mərdəkan kəndində, əkinçi ailəsində doğulmuşdur. Burada dördsinifli məktəbdə ibtidai təhsil almış (1913-1917), sonra bir müddət əkinçiliklə məşğul olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra Mərdəkan gənclər özəyinin kitabxanasında işləmişdir (1920-1922). Bakı Darül müəllimində təhsilini davam etdirmişdir (1922-1927). APİ-nin dil və ədəbiyyat fakültəsini bitirmişdir (1929-1932). Bundan sonra uzun illər Bakı, Quba və Qazax orta məktəblərində müəllimlik etmişdir. APİ-nin tarix fakültəsində qiyabi təhsil almış (1941-1942), Azərbaycan EA Şərqşünaslıq İnstitunun İran filologiyası şöbəsində işləmişdir (19 1990). "Yəğma Cəndaqinin poeziyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1958-1990). Bədii yaradıcılığa 15 yaşından başlamış, şeirlərini "Sufi" təxəllüsü ilə yazıb-yaratmışdır (1954-cü ildən). Bundan sonra öz şeir, elmi əsər və tərcümələrini "Cəfər Rəmzi" təxəllüsü ilə dövri mətbuatda çap etdirmişdir. "Deyilən söz yadigardır" üç cildlik kitabın toplayını və tərtibçisidir. Klassik Şərq ədəbiyyatından seçmə nümunələri fars və ərəb dilindən çevirib çapa vermişdir. XIX-XX əsrlər poeziyasında satira problemi ilə məşğul olmuşdur. 1996-cı il sentyabrın 11-də Bakıda vəfat etmişdir. Mərdəkan qəbiristanlığında dəfn olunmuşdur.

**Əsərləri:**

”Şeirlər” (1974), “Yəğma Cəndaqinin poeziyası” (1976), “Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti” (1981), “Günləri sayıram” (1982), “Ürəkdən gələn səslər” (1986), “Deyilən söz yadigardır” : üç cilddə (1987) və s.

**Tərcümələri**

(fars və ərəbcədən)

“Xarici yumor” (1964), “Behiştin narları” (1968), “Gəlin birlikdə gülək” (1970), “Dünya xalqlarının yumoru” (1976) və s.

**14. Dövlət xadimi, yazıçı, publisist Nəriman Nərimanovun anadan olmasının 145 illiyi**

***"Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir…"*** **Ümumillilider Heydər Əliyev**



**Nərimanov Nəriman Kərbəlayi Nəcəf oğlu (14 aprel 1870, Tiflis, Gürcüstan – 19 mart, 1925, Moskva, Rusiya) — ictimai-siyasi xadim, yazıçı, publisist, Azərbaycan SSR-in ilk dövlət və hökumət başçısı, Sovet Sosialist Respublikaları İttifaqının ilk dövlət başçılarından biri, SSRİ MİK-in Sədri (1922-1925).**

Azərbaycanın müsəlman şərqində nail olduğu bir çox ilklər, o cümlədən ilk konstitusiya onun adıyla bağlıdır. Nərimanov hakimiyyəti dövründə Azərbaycan xalqının adət və ənənələrinə dərin hörmət verilmiş, bütün dini və ənənəvi bayramlar rəsmi olaraq qeyri-iş günü hesab olunmuşdur. O, siyasətçidən əlavə bir maarifpərvər və dramaturq-yazıçı kimi Azərbaycan tarixində mühüm rol oynamış, ilk qiraətxananı açmışdır. Ədəbiyyatçı kimi milli romanımızın ("Bahadır və Sona") və ilk tarixi faciənin ("Nadir şah") banisi kimi qalır. Onun iqtidarda olduğu dövrlərdə bütün qonşu respublikalarla dostluq münasibəti saxlanılmışdır. Nəriman Nərimanov 1870-ci ildə Tiflis şəhərində anadan olmuşdur. 1890-cı ildə Qori seminariyasını, 1908-ci ildə Novorossiysk (Odessa) Universitetinin tibb fakültəsini bitirmişdir. N. Nərimanov 1919-cu ildə Moskvaya çağırılaraq RSFSR Xalq Xarici İşlər Komissarlığında (XİN) Şərq məsələləri üzrə Xalq komissarının müavini vəzifəsinə təyin edilir. 28 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən və Azərbaycan SSR elan edildikdən sonra N.Nərimanov Azərbaycan SSR Müvəqqəti İnqilabı Komitəsinin Sədri və Xalq Komissarları Sovetinin Sədri vəzifəsini tutur.1922-ci ildə SSRİ yarandıqdan sonra SSRİ Mərkəzi İcrayyə Komitəsinin sədrlərindən biri seçilir. N. Nərimanov 1925-ci ildə müəmmalı şəkildə ölmüş və Moskvada Kremlin divarları yaxınlığında dəfn edilmişdir.

**Əsərləri:** "Nadanlıq" (1894), "Hacı Zeynalabdin Tağıyevin əlli illik məişəti və camaətə xidmətləri" (1900), "Xolera baba" (1910), "Dilin bəlası" (1913), "Şamdan bəy" (1925), "Nadir Şah" (1927), "Pir" (1956), "Traxoma" (1924), "Həmli arvad" (1924) "Bahadır və Sona" ( 1964),"Seçilmiş əsərləri" (1985) və s.

**Filmoqrafiya**

1. XI qırmızı ordu hissələrinin Bakıda paradı (II)(film, 1920)(qısametrajlı sənədli film)
2. Bakıda şərq xalqlarının I qurultayı (film, 1920) (qısametrajlı sənədli film)
3. Sovet Azərbaycanının I ildönümü (film, 1921) (qısametrajlı sənədli film)
4. Nəriman Nərimanovun dəfni (film, 1925) (qısametrajlı sənədli film)
5. Şamdan bəy (film, 1956) (tamaşa)

**19. Yazıçı, dramaturq Xalidə Hasilovanın anadan olmasının 95 illiyi (1920-1996)** ***"Xalidə xanım doğma vətən sevgisi, nisgilli yurd həsrətinin qəmli nağməsi kimi səslənən, qəlbində insanlara məhəbbət, xeyirxahlıq, qayğıkeşlik bəsləyən, yenilməzlik duyğusu gəzdirənləri məftunluqla təsvir edən sənətkarlardandır."*** **Şair Hikmət Ziya**



**Xalidə Hasilova – Azərbaycanın qadın yazarları arasında özünəməxsus uğurlu və məhsuldar yaradıcılıq yolu ilə keçmişdir. Xalidə Hasilova Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.**

1920-ci il aprelin 19 - da Azərbaycanın dilbər guşələrindən biri olan Zaqatalada dünyaya gəlmiş Xalidə xanım orta məktəbi bitirdikdən sonra Leninqrad Universitetinin Filologiya fakültəsinə daxil olmuşdur. Müxtəlif illərdə "Azərbaycan qadını" jurnalında ədəbi işçi (1952-1953), "Göyərçin" jurnalının baş redaktoru (1966-1972), uzun illər isə "Azərbaycan qadını" jurnalının baş redaktoru kimi çalışmışdır. Azərbaycan qadınlarının həyatından bəhs edən "Hamı doğmadır mənə", "İnsan ömrü bir nəğmədir" pyeslərini yazmışdır. Maraqlı nəsr əsərlərinin müəllifi kimi tanınan yazıçının "İlk məktub" (1951), "Lalənin kitabı" (1955), "İki yoldaş" (1956), "Onun taleyi" (1969), "Nəğməli könül" (1976), "Məhəbbət olmayanda" (1983), "Çətin yollar boyunca" (1986), "Xoruzlu dəsmal" (1994) və s. kitabları çap olunmuşdur. Uzun illər "Göyərçin" və "Azərbaycan qadını" jurnallarının redaktoru olmuş X.Hasilova "Kiçik hekayələr" (1950), "Lalənin kitabı" (1955), "Ulduzlu papaq" (1960), "Atlas yarpaqlar" (1965) və s. uşaq kitablarının müəllifidir. Eyni zamanda, o, kiçik yaşlı uşaqlar üçün tərcümələri ilə də ədəbiyyatımızı zənginləşdirmişdir. N.Nosovun "Şən ailə" (1951), N.Tixonovun "İgid partizan" (1955), İlda Pereranın "Zənci balası Atolo" (1965), Ə.Nesinin "İndiki uşaqlar möcüzədir" (1972), Melih Bayramın "Günəş gözlü Mustafa Kamal" (1992) və b. kitabları bu qəbildəndir. Xalidə Hasilova bir sıra nəzəri məqalələrin də müəllifidir ki, onların əksəriyyəti uşaq ədəbiyyatı problemlərilə əlaqədardır. Bunlardan "Uşaq ədəbiyyatında ədəbi tənqid haqqında", "Gözəl duyğular", "Uşaqlara yüksək keyfiyyətli əsərlər verək", "Ədəbiyyat və tərbiyə" və s. göstərmək olar.

**20. Şairə Xanımana Əlibəylinin anadan omasının 95 illiyi (1920-2004)**

***“Xanımana Əlibəyli Azərbaycan uşaq ədəbiyyatının klassiki və uşaq dramaturgiyasının banisidir.”***

**Xalq yazıçısı Anar**



**1991-ci ildə ona Əməkdar İncəsənət Xadimi adı verilmişdir. 1998-ci ildə Xanımana "İlin qadını" adını almaq şərəfinə nail olmuşdur. 1999-cu ildə ümummilli liderimiz Heydər Əliyev ona Prezident təqaüdü təyin etmiş, bu münasibətlə xatirə olaraq ona gözəl bir büllur şamdan da bağışlamışdır. 1953-cü ildə o zamankı uşaq ədəbiyyatımızın parlaq simalarından olan Mirvarid Dilbazi və Mikayıl Rzaquluzadənin zəmanətləri ilə SSRİ Yazıçılar İttifaqına üzv qəbul edilmişdir.**

Xanımana Sabir qızı 20 aprel 1920-ci ildə Bakı şəhərinin Keşlə kəndində maraqlı mədəni ənənələrə malik zadəgan ailəsində dünyaya göz açmışdır. Xanımananın ilk şeirləri 1938-ci ildən dövri mətbuatda dərc olunmağa başlamış, "Balaca həkim" adlı birinci kitabı isə 1955-ci ildə Uşaqgəncnəşr tərəfindən 30.000 nüsxə tirajla çap olunmuşdur.16 yaşında ikən Xanımana Bakıda Tibb İnstitutuna daxil olmuşdur. 1942-ci ildə institutu uğurla bitirən gənc həkim təyinatla vətənimizin dilbər guşələrindən olan Masallıya göndərilmiş, orada Qızılavar kənd tibb məntəqəsində fəaliyyətə başlamışdır. Tezliklə Xanımana ikinci ali təhsil almaq üçün ADU-nun filologiya fakültəsinə qəbul imtahanları vermiş, beş il sonra həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir. Bədii yaradıcılıq sahəsində yeni, ciddi uğurlar qazanan məhsuldar şairəmiz Xanımana ömrünün ixtiyar çağında 7 may 2007-ci ildə dünyasını dəyişmiş, Bakı şəhərində dəfn edilmişdir.

**Yaradıcılığı:** Xanımana Əlibəyli uşaqlar üçün yazılmış yüzlərlə şeirin, onlarla poema və səhnə əsərinin, 30-dan artıq kitabın müəllifidir. Onun sənətkar əməyi həmişə tənqidin və ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuş, yüksək qiymətləndirilmişdir. "Aycan" pyesinin uğurlu tamaşası münasibətilə yaradıcı heyətin üzvləri rejissor Ulduz Rəfili, bəstəkar Şəfiqə Axundova və baletmeyster Nailə Nəzirova ilə birlikdə Xanımana da Azərbaycan SSR-in Dövlət mükafatına layiq görülmüşdür. Peşəkar uşaq ədəbiyyatımızın banisi və ən məhsuldar nümayəndəsi, bu ədəbiyyatın bir sıra klassik nümunələrinin yaradıcısı Abdulla Şaiqdən sonra bu sahədə çalışanlardan üçünün Azərbaycan uşaq ədəbiyyatında özünə məxsus yeri var: Xanımana Əlibəyli, Teymur Elçin və İlyas Tapdığın. Xanımana Əlibəyli öz əsərlərini Azərbaycan uşaq ədəbiyyatının qiymətli ənənələrinə söykənərək yazmış, özəlliklə M.Ə.Sabir, A.Səhhət və A.Şaiqin uşaqlarımıza töhfə etdikləri "Dərsə gedən bir uşaq", "Cücələr", "Gözləri mərcan xoruz" kimi klassik əsərlərimizi, bu şairlərin sənətin qızıl fondundakı digər yadigarlarını dərindən öyrənmişdir. Onun bir uşaq şairi kimi qələminin püxtələşməsində, mövzu və obrazlar aləminin zənginləşməsində, sənətkarlıq

vərdişlərinin cilalanmasında dünya uşaq ədəbiyyatı klassikləri cərgəsində öncüllərdən olan Korney Çukovski, Samuel Marşak, Sergey Mixalkov kimi rus şairlərinin əsərlərinin də danılmaz rolu vardır. "Balaca həkim" kitabı da bir daha sübut etdi ki, Xanımananın timsalında bizim qiymətli ənənələrə malik uşaq ədəbiyyatımıza həqiqətən də öz təsvir və ifadə tərzi, öz obrazlar aləmi, başlıcası isə, özünə məxsus şeir dili, oxucusuna müraciət tərzi olan orijinal bir qələm sahibi gəlmişdir. Xanımana böyük arzular, yüksək amallar şairi idi. O, bütün vətən balalarının azad, şən, ağıllı, mədəni, hazırcavab, tərbiyəli, təmizkar, ətrafdakılara qarşı diqqətli, həssas, ehtiyacı olanlara kömək əlini uzadan nəcib və xeyirxah insanlar kimi böyümələrini istəyirdi. Xanımananın əsərlərindəki ahəngdarlıq, axıcılıq, uşaq aləminə uyarlıq da qətiyyən asan başa gəlmirdi. Bir uşaq şairi olaraq Xanımananın üstünlüyü bir də onda idi ki, böyüklər üçün on illər bundan öncə adiləşmiş həyat hadisələrini, insanlar arasındakı münasibətlərin rəngarəngliyini kiçik oxucular üçün məhz "onların səviyyəsində", məhz balacaların duyğu və düşüncələri müstəvisində kəşf və təqdim edə bilirdi. Bu da öz növbəsində balacaların və yeniyetmələrin dünyagörüşünün inkişafında, maraq dairəsinin genişlənməsində, əxlaq və mənəviyyatının tərbiyəsində, onların xarakterinin mətinləşməsində və bütün bunların zəminində bədii zövqünün cilalanmasında əhəmiyyətli rol oynayırdı. Xanımananın əsərləri uşaqlarda vətənə məhəbbət, insan əməyinə və istedadına ehtiram, təbiət gözəlliklərinə vurğunluq, ataya, anaya, müəllimə, ümumiyyətlə, böyüklərə hörmət, özündən kiçiklərə şəfqət, mehribanlıq, dostluqda dəyanət, kamil insan üçün yabançı olub onun şəninə, ləyaqətinə kəsir gətirən eybəcər hallara nifrət kimi çox gərəkli duyğular aşılayır, şair bütün bunları öz kiçik sevimlilərinin qavrayış tərzinə uyğun əlvan bədii təsvir və ifadə vasitələri ilə təqdim edirdi. Onun kiçik yaşlı qəhrəmanları böyük mənəvi dəyərlərin daşıyıcılarıdır. Xanımana onların bu yüksək keyfiyyətlərini bəzi müəlliflərin yazılarında olduğu kimi çağırış və şüar şəklində yox, uzun-uzadı təfərrüatlarla deyil, məhz obrazların özlərinin psixoloji durumundan çıxış edərək yığcam, müxtəsər, yüksək dərəcədə təbii və inandırıcı göstərirdi. Sənət qalası hörən hər bir istedadlı qələm sahibinin əsas "tikinti materialı" sözdür. Özəlliklə də şairlər Ana dilinin böyük poetik imkanlarından ustalıqla istifadə edərək sənət möcüzəsi yaradırlar. Xanımananın əsərlərində də azyaşlılarla danışmaq üçün çox uyarlı bir ahəng, onların qəlbinə yol tapmaq üçün hər kəsin ruhuna uyğun gələn bir universal açar var idi. Başdan-ayağa xeyirxahlıq, nəciblik saçan şairəmizin min adamın danışığı arasında bircə cümləsindən seçilib tanınan, yalnız onun özünə məxsus olan şeir dili, mülayim, mehriban, canayatan bir ifadə tərzi, danışıq ədası vardı. O, "Aman ovçu", "Ağ çəmən", "Ulduzların qucağında", "Bir yay səhəri", "Çoxbilmiş çəpişlər", "Məni günəşə at!", "Meşə həkimi", "Sevimli şəhid babam" və digər qiymətli poemaların müəllifidir. Maraqlıdır ki, onun liro-epik janrda yazdığı əsərləri də əslində uşaq ədəbiyyatımızın ən yığcam poemaları kimi qəbul edilir. Xanımana Əlibəylinin pyesləri on illər boyu Azərbaycanın uşaq və gənclər teatrlarının repertuarında ən çox tamaşası göstərilən əsərlər sırasındadır.

**20. Ədəbiyyatşünas, folklorşünas, professor Azad Nəbiyevin anadan olmasının 70 illiyi (1945)**

***“Azad Nəbiyev xalqımızın adət-ənənə, mərasim və bayramlarını, qəhrəmanlıq eposumuzu, nağıl, əfsanə və miflərimizi ardıcıl şəkildə toplayıb nəşr edən, araşdıran ciddi folklorşünasdır.”*** **Professor Paşa Əfəndiyev.**



**Nəbiyev Azad Mövlud oğlu - ədəbiyyatşünas, folklorşünas, filologiya elmləri doktoru (1980), professor (1981), Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki (1997), Azərbaycan Yazıçılar Birliyinin üzvü (1999), Əməkdar müəllim (2000), Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü (2001).**

Azad Nəbiyev 1945-ci il aprelin 20-də Qubanın İkinci Nügədi kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsində təhsil almışdır (1963-1967). Əmək fəaliyyətinə Azərbaycan Dövlət Nəşriyyatında redaktor kimi başlamışdır (1967-1974). "Gənclik" nəşriyyatında redaksiya müdiri (1974-1976), Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində müəllim, baş müəllim, professor vəzifələrində çalışmışdır (1976-1989). "Dirçəliş və Tərəqqi Partiyası"nın sədri olmuşdur (1992-2000). Beynəlxalq ekoenergetika akademiyasına həqiqi üzv seçilmişdir (1997). Beynəlxalq Əlillər Federasiyası idarə heyətinin üzvüdür (1998-ci ildən). Ədəbi fəaliyyətə 60-cı illərdən başlamışdır. İlk mətbu şeri 1962-ci ildə "Qızıl Quba" rayon qəzetində çap olunmuşdur. Bundan sonra qəzet və jurnallarda şeir, hekayə, povest, oçerk və məqalələrlə çıxış etmişdir. "Koroğlu dastanı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1972). "Azərbaycan-Özbək folklorunun tipologiyası və qarşılıqlı əlaqəsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1980). İtalyan ("Bertoltonun sərgüzəştləri") və özbək ("Tülkü və qurd") xalq nağıllarından tərcümələr etmişdir. "Kitabi Dədə Qorqud"un Drezden nüsxəsi mətnini sadələşdirib nəşr etdirmişdir (2000). "Azərbaycan dastanları" (1977), "Nəğmələr, inanclar, alqışlar, adətlər" (1986), "Alqışlar, adətlər, nəğmələr" (1992), "Koroğlu dastanı" (2001) kitablarının toplayanı, nəşrə hazırlayanı və ön sözlərinin müəllifidir.

**Əsərləri:** “Bağlarda bahar” (1969), “Qəhrəmanlıq səhifələri” (1975), “Azərbaycan-özbək folklor əlaqələri” (1978), “Azərbaycan folklorunun janrları” (1983), “El nəğmələri xalq oyunları” (1988), “Sərhəd bilməyən əlaqələr (Azərbaycan-türkmən folklor əlaqələri)” (1992), “İlaxır çərşənbələr” (1992),”İlin əziz günləri” (1999), “Azərbaycan uşaq folkloru” (2000), Azərbaycan xalq ədəbiyyatı : ali məktəblər üçün dərslik : I hissə” (2001), “Milli təəssübkeşlik yoxsa erməni saxtakarlığı” (2003), “Nəhrələrdən güc alanda” (2003), “Koroğlu (uşaqlar üçün)” (2001), “Qaçaq Nəbi : uşaqlar üçün” (2001) və s.

**25. Şair, ədəbiyyatşünas, tənqidçi Mikayıl Rəfilinin anadan olmasının 110 illiyi (1905-1958)**

***"Mikayıl Rəfili şöhrətli mədəniyyət xadimlərimizdən biri idi."***

**Ədəbiyyatşünas C. Cəfərov**



**Rəfili Mikayıl Həsən oğlu şair, ədəbiyyatşünas, tənqidçi, 1935-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Filologiya elmləri doktoru (1944), professor (1945)**

Mikayıl Rəfili 1905-ci il aprelin 25-də Qasım İsmayılov rayonunun (indiki Goranboy rayonu) Borsunlu kəndində varlı kəndli ailəsində doğulmuşdur. Yelizavetpol klassik gimnaziyasında təhsil almışdır. Bu dövrdə bədii yaradıcılığa başlamışdır. Onun "Mikayıl Rəfizadə" imzası ilə ilk qələm təcrübələri "Mücadileyi-həyat" hekayəsi, "Elmə doğru" şeiri və "Qərb mədəniyyəti" məqaləsi "Əfkari-mütəəllimin" jurnalında (1919, 2,3 nömrələrində) dərc olunmuşdur. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Borsunlu kəndində müəllim və məktəb müdiri olmuş, kəndin mədəni həyatında fəal çalışmış, komsomol sıralarına qəbul olunmuşdur. 1921-ci ildə orta təhsil almaq məqsədilə Gəncəyə gəlmiş, eyni zamanda ictimai işlərdə fəallıq göstərmiş, III Azərbaycan qurultayına nümayəndə seçilmişdir. "Rosta" qəzetində iştirak etmişdir. Bakıda Azərbaycan Politexnik İnstitutuna daxil olmuş, həm də Azərbaycan Dövlət Universitetinin Şərq dilləri fakültəsində məşğələlərin dinləyicisi, 1924-cü ildə müdavim olmuşdur. "Maarif və mədəniyyət" jurnalı redaksiyasında işləyir. 1926-1927-ci illərdə bütün qüvvəsini ədəbi fəaliyyətə həsr edir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda rus ədəbiyyatı kafedrasında müəllim, sonra dosent (1930-1935) işləmiş, eyni zamanda "Bakinski raboçi" qəzeti redaksiyasında mədəniyyət şöbəsinin müdir müavini olmuşdur. Bu dövrdə SSRİ yazıçılarının təşkilat komitəsinin üzvü seçilmişdir. Həm də "Hücum" və "Qabaqcıl" ("Udarnik") jurnalları redaksiya heyətinin üzvü olmuşdur. Qorki, Mayakovski, Serafimoviç haqqında monoqrafiya, "Sevastopol" və "Leninqrad" poemalarını qələmə almışdır. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında elmi işçi işləmişdir (1934-1935). Sovet yazıçılarının I Ümumittifaq qurultayına nümayəndə seçilmişdir. 1935-1936-cı illərdə SSRİ EA-nın (Leninqrad) aspiranturasında təhsil almış, orada "Azərbaycan ədəbiyyatının rus mədəniyyəti ilə əlaqələri haqqında" mövzusunda dissertasiya müdafiə etmişdir. "Puşkinin həyat və yaradıcılığı", "Puşkin və Azərbaycan", "M.F.Axundov" əsərlərini yazmışdır (1935-1937). Nizami yubiley komitəsi tərkibində məsul katib olmuşdur. 1938-ci ildən Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində professor olmuş, Azərbaycan ədəbiyyatı tarixi kursunu aparmışdır. İkinci Dünya müharibəsi illərində radioda, Qızıl Ordu hissələrində, hərbi xəstəxanalarda çıxışlar etmiş, "Səbuhi" ssenarisini, "Şirvanşah İbrahim" pyesini yazmışdır. SSRİ Yazıçıları idarəsinin üzvü olmuşdur. 1944-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Xidmətlərinə görə "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur. 1958-ci il aprelin 25-də vəfat etmişdir.

**Əsərləri:**

1. Durna : şeirlər. - Bakı: Azərnəşr, 1934. - 168 s.
2. Yeni tarix : şeirlər. - Bakı: Azərnəşr, 1935. - 113 s.
3. Serafimoviç. - Bakı: Azərnəşr, 1938. - 14 s.
4. T.Şevçenko. - Bakı: Azərnəşr, 1939. - 50 s.
5. M.F.Axundov. - Bakı: Azərnəşr, 1939. - 36 s.
6. A.S.Puşkin. - Bakı: Azərb.SSR EA nəşriyyatı, 1941. - 24 s.
7. A.P.Çexov. - Bakı: Azərnəşr, 1944. - 46 s.
8. M.F.Axundov : həyat və yaradıcılığı. - Bakı: Azərnəşr, 1957. - 393 s.
9. N.Nərimanov. - Bakı: Azərnəşr, 1956. - 56 s.
10. Ədəbiyyat nəzəriyyəsinə giriş. - Bakı: Azərnəşr, 1958. - 282 s.
11. Mirzə Fətəli Axundov : həyatı, mühiti və yaradıcılığı. - Bakı: Elm, 1990. - 256 s.

**Tərcümələri**

(ruscadan)

Hüqo V. Gülən adam. - Bakı: Azərnəşr, 1927. - 419 s.
Hüqo V. Paris Notrdam kilsəsi. - Bakı: Azərnəşr, 1936. - 580 s.
Hüqo V. Səfillər (I hissə). - Bakı: Azərnəşr, 1933. - 301 s.
Hüqo V. Səfillər (II hissə). - Bakı: Azərnəşr, 1933. - 172 s.
HüqoV. Səfillər (III hissə). - Bakı: Azərnəşr, 1934. - 229 s.
Hüqo V. Səfillər (VI hissə). - Bakı: Azərnəşr, 1935. - 278 s.
Hüqo V. Səfillər (V hissə). - Bakı: Azərnəşr, 1935. - 264 s.
Puşkin A.S. Bağçasaray fantanı. - Bakı: Azərnəşr, 1937. - 32 s.
Puşkin A.S. Ərzurum səyahəti. - Bakı: Azərnəşr, 1937. - 77 s.
Puşkin A.S. Tunc atlı. - Bakı: Azərnəşr, 1937. - 22 s
Tolstoy L. Dirilmə (I hissə). - Bakı: Uşaqgəncnəşr, 1951. - 292 s.
Tolstoy L. Dirilmə (II hissə). - Bakı: Uşaqgəncnəşr, 1951. - 382 s.
Balzak O.. Novellalar. - Bakı: Azərnəşr, 1949. - 292 s.
Balzak O. Qobsek. - Bakı: Gənclik, 1969. - 68 s.
Balzak O. Qorio ata. - Bakı: Yazıçı, 1978. - 296 s.

**25. Şair Musa Ələkbərlinin anadan olmasının 65 illiyi (1950)**

***Dağlarda böyüyüb boya - başa çatmış şair mənalı, gözəl şeirləri ilə poeziyamıza dağ havasını, bulaq saflığını gətirmişdir.***



**Azərbaycan ədəbiyyatının istedadlı nümayəndəsi kimi Musa Ələkbərli 1976-cı ildə Aşqabadda, 1977-ci ildə isə Düşənbədə keçirilən Ümumittifaq poeziya festivallarının iştirakçısı olmuş, respublikamızın gənc, ədəbi qüvvələrini ləyaqətlə təmsil etmişdir. O, 2001-ci ildə "Azərbaycan" jurnalında dərc olunan şeirlərinə görə ilin poeziya mükafatına – İsa İsmayılzadə adına mükafata layiq görülmüşdür. Hazırda "Şur" nəşriyyatının direktoru işləyən Musa müəllim uzun illərdir yorulmaz fəaliyyəti ilə Azərbaycan mədəniyyətinin tərəqqisinə xidmət edir.**

1950-ci il aprelin 25-də Gədəbəy rayonunda doğulan şair əmək fəaliyyətinə Sumqayıt şəhərindəki Boru-Prokat zavodunda fəhləliklə başlamışdır. O, 1974-cü ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirdikdən sonra iyirmi ilə yaxın "Gənclik" nəşriyyatında çalışmışdır. Nəşriyyatda əvvəlcə redaktor, sonra isə böyük redaktor işləmiş, mindən çox kitabın redaktoru, onlarla kitabın tərtibçisi, həmin kitablarda gedən ön sözlərin müəllifi olmuşdur. Bu illər ərzində nəşriyyat sahəsində və ədəbi ictimaiyyətdə ən mahir redaktorlardan biri sayılmışdır.

Musa müəllim gənc ədəbi qüvvələrin yetişməsində də həvəslə xidmət göstərmiş, Sabir adına Bakı mərkəzi şəhər kitabxanasının nəzdində yaradılan "Pərvanə" ədəbi birliyinə beş ildən çox rəhbərlik etmişdir.

Musa Ələkbərli ədəbi fəaliyyətə 1964-cü ildə Gədəbəy rayon qəzetində çıxan "Ürəkdən soruş" qoşması ilə başlamışdır. Tələbəlik illərindən dövrü mətbuatda müntəzəm çıxış etmişdir. 1977-ci ildə isə "Məndən şeir istə" adlı ilk kitabı çap olunmuşdur. Şeirləri türk, rus, ukrayna, tacik, türkmən, belorus, özbək, qırğız və sair dillərə tərcümə edilmişdir. Şeirlərlə yanaşı poemalar yazan şairin "Mübarizlik dərsi" adlanan son poeması Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimova həsr olunub. Musa Ələkbərli **"Ürəyimin işığında", "Bəlkə bir də görüşdük", "Gözlərim yol çəkir", "Aydanım ay işığı", "Sevgi bulağı", "Gözümdə ağlayan bulud", "Dünya sevgidən doğulub", "Tanrı mənə söyləməsə, yazmaram", "Mən sevgi görməmişəm"** adlı bir çox kitabların müəllifidir.

## 27. Ədəbiyyatşünas, tənqidçi Bəhlul Abdullanın anadan olmasının 75 illiyi (1940-2011)

***“Böyük ədəbiyyatşünas-alim, folklorşünas Bəhlul Abdullanın ömrü elmin işığına bələnib, elmin zəkasından nur alıbdır.”***

**Fəlsəfə doktoru Xədicə İsgəndərli**



**Abdullayev Bəhlul Ağabala oğlu — ədəbiyyatşünas, tənqidçi, folklorşünas, 1994-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1989), Əməkdar elm xadimi (2000), Nizami adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, Xəzər Universitetinin professoru, Xəzər Universiteti nəzdində Dünya məktəbinin müəllimi.**

Bəhlul Abdulla 1940-cı il aprelin 27-də Lerik rayonu Zuvand bölgəsi Ləhiran kəndində kolxozçu ailəsində anadan olmuşdur. ADU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdir (1962-1967). Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuşdir (1971). "Yusif Vəzir Çəmənzəminli və folklor" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1974). Sonra institutda kiçik elmi işçi (1974-1978), böyük elmi işçi (1978-1990), folklorşünaslıq şöbəsının müdiri (1993) olmuşdur. "Azərbaycan mərasim folkloru və onun poetikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Ədəbi fəaliyyətə 60-cı illərdən başlamışdır. "Qaynar çeşmə" məqaləsi "Ədəbiyyat və incəsənət" qəzetində (1 iyun 1969) çap ediləndən sonra dövri mətbuatda foklorun təbliği ilə ardıcıl məşğul olmuşdur. "Ədəbiyyat" (V sinif) dərsliyinin şərikli müəllifidir. "Aşıq Əsəd" (1979), "Azərbaycan bayatıları" (1984), "Arazam, Kürə bəndəm" (1986), "Dastanlar" (1987), "Göyər səmənim, göyər" (1993), "Dava yorğan davasıymış" (1996), "Ağırlığım-uğurluğum odlara" (1996), "Koroğlu" (2000), "Azərbaycan şifahi xalq ədəbiyyatı antologiyası" (2002), "Məktəbəqədər yaşlı uşaqlar üçün folklor antologiyası" (2002) kitablarında şifahi xalq ədəbiyyatı incilərini toplayıb tərtib və nəşr etdirmişdir. "Cənubi Azərbaycan antologiyası"nın (1,3,4) tərtibçilərindən biridir (1983-1988).

Alma-Ata, Daşkənd, Kişinyov, Qroznı, Dağlıq Altay, Yakutsk, Moskva, Tartu, İzmir, Tehran şəhərlərində keçirilən Ümumittifaq və Beynəlxalq konfrans, müşavirə və simpoziumlarda folklorşünaslıq problemləri barədə məruzələrlə çıxış etmişdir. 2011-ci il 25 mart tarixində gözlərini əbədi olaraq yummuşdur.

**Əsərləri:** “Yusif Vəzir Çəmənzəminli və folklor” 1981, “Haqqın səsi” 1989, “Azərbaycan mərasim folkloru və onun poetikası” 1990, “Kitabi – Dədə Qorqud və islam dini” 1997, “Kitabi – Dədə Qorqud poetikası” 1999, “Azərbaycan folklorunda mifoloji at” 2000, Dəli Domrul "Kitabi-Dədə Qorqud"da və Qorqudşünaslıqda” 2002, “Kitabi –Dədə Qorqud” da rəng simvolikası 2004, “ Salur Qazan” 2005, “Azərbaycan mərasim folkloru” 2005, “Folklorda say simvolikası” 2006,“Kitabi – Dədə Qorqud” da nitq etiketlərinin etnomifiqk poetikası” 2007, Kitabi – Dədə Qorqud” da xanımlar” 2009 və s.

**28. Yazıçı Məmmədhüseyn Əliyevin anadan olmasıının 90 illiyi (1925- 1994)**



**Məmmədhüseyn Əliyev – yazıçı, 1960-cı ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü, 1992- ci ildən Əməkdar İncəsənət Xadimi**

Məmmədhüseyn Rüstəm oğlu Əliyev 28 aprel, 1925 - ci ildə Lerik rayonun Gürdəsər kəndində ruhani ailəsində anadan olmuşdur. Atası Axund Molla Rüstəm İraqın əl- Nəcəf şəhərində 25 illik ali ruhani təhsili aldıqdan sonra təyinatı üzrə Lerik rayonunda şəriət bilicisi və istedadlı bir alim kimi fəaliyyətə başlamış və o taylı, bu taylı Azərbaycanda dinin, təhsilin yayılmasında böyük xidmətlər göstərmişdir. Sovet hökumətinin qurulması ilə əlaqədar olaraq Axund Molla Rüstəm İrana- Ərdəbil şəhərinin Camahiran kəndinə köçür və orada 17 kəndin rəsmi dini xadimi kimi fəaliyyətini davam etdirir. Ondan sonra ailəsi sovet rejimi tərəfindən güclü repressiyaya məruz qalır, təqib olunur, evi, kitabxanası zorla alınaraq məktəbə verilir, əlyazmaları və kitabxanası məhv edilir. Məmmədhüseyn Rüstəm oğlu Əliyev 1940-ci ildə orta məktəbi bitirir və Azərbaycan Müəllimlər İnstitutunun Lənkəran Pedaqoji Texnikumunda təşkil etdiyi Müəllimlik Kursuna göndərilir. Kursu başa vurduqdan sonra müəllim kimi təyinat alır. 1946-1949- cu illərdə ADPİ-nun tarix - fəlsəfə fakültəsində təhsilini davam etdirir. Çox keçmir ki, mətbuatda "Qail" təxəllüsü ilə tanınmağa başlayır. Bədii yaradıcılıq və jurnalistika sahəsi onu daha çox cəlb etdiyinə görə yenidən BDU-nun filologiya - jurnalistika fakültəsinə qəbul olunur. 1954-cü ildə BDU-nin filologiya - jurnalistika fakültəsini bitirir və pedaqoji fəaliyyətini, həmçinin bədii yaradıcılığını davam etdirir. "Dağlar oğlu", "Dağda bahar", "Torpağın ətri", "Döyüşən illər" romanları və bir çox povest və hekayələri geniş oxucu rəğbəti qazanmışdır. "Prokuror", "Ana fəryadı" və s. pyesləri N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. Azərbaycanın Əməkdar İncəsənət xadimi fəxri adına və bir sıra medallara layiq görülmüşdür. 1994-cü il iyulun 6-da vəfat etmişdir.

**Elmi-pedaqoji fəaliyyəti**

1954-cü ildə BDU-nun filologiya - jurnalistika fakültəsini bitirdikdən sonra təyinat üzrə Lerik rayonunda müəllimlik fəaliyyətinə başlamış, Lerik rayonunda, Gürdəsər və Şingədulan kəndlərində məktəb direktoru vəzifəsində çalışmışdır. Daim mətbuatda çıxışlar etmişdir. Onun məqalələrində həm elmi təhlillər aparılır, həm də bir vətəndaş mövqeyi duyulurdu. Sonralar müəllifin bu elmi - pedaqoji ümumiləşdirmələri onun əsərlərindəki bədii obrazlarda daha geniş şəkildə öz əksini tapmışdır.1960-cı ildən Lənkəranda Təngivan, Digah kənd orta məktəblərinin direktoru, Lənkəran Tibb texnikumunda müəllim, Lənkəran Pedaqoji texnikumunda direktor müavini işləmişdir.1980-ci ildə Lənkəran Radio Verilişləri redaksiyasında məsul redaktor olmuşdur. Elmi - siyasi və ictimai məzmunlu materiallar hazırlamışdır.1982-ci ildə Azərbaycan Respublikası

Yazıçılar İttifaqının Lənkəran Zona Şöbəsinin məsul katibi seçilmişdir, ömrünün sonuna qədər (6 iyul, 1994) bu vəzifədə çalışmışdır. 1991-ci ildə “Şəfəq” jurnalının və eyni adlı ədəbi məclisinin əsasını qoymuş və 1994-cü ilə qədər jurnalın baş redaktoru olmuşdur.

**Əsas yaradıcılıq istiqamətləri**

Məmmədhüseyn Əliyev elmi – pedaqoji sahədə, publisistikada istedadlı müəllim, diqqətli və tələbkar jurnalist kimi bir çox əsərlərin müəllifi olmuşdur. Məmmədhüseyn Əliyev, həm də bir çox poemaların, şeir və qəzəllərin müəllifi kimi tanınır. Lakin müəllifin istedadı ən çox onun dram əsərlərində və romanlarında özünü göstərmişdir. Onun romanları xalqın həyat və məişətinin epopeyası, milli şüurunun və fəlsəfi təfəkkürünün inkişaf yoludur. Bu əsərlərin hər birisi bədii filmlərin ssenarisi kimi qədim bir xalqın adət və ənənələrini, həyat tərzini, məişətini, sevgi və nifrətini, düşüncə tərzini açıq bir şəkildə göz önünə gətirərək bütöv bir təsəvvür yaradır. 1988-ci ildə Məmmədhüseyn Əliyev İraqın “Əl-əhram” qəzetində dərc edilmiş “Ey ana Bağdad!” şeirinə görə Ərəb ölkələri poeziya festivalının mükafatına layiq görülmüşdür.

**Əsərləri**

- Dağda bahar : roman. – Bakı : Azərbaycan Dövlət Nəşriyyatı,1966.
- Qulplu qızıllar : povest // Azərbaycan. -1971. - №3-4.
- Lənkəran hekayələri. – Bakı : Gənclik, 1967.
- Müstəntiq : povest. – Bakı : Azərbaycan Dövlət Nəşriyyatı, 1973.
- Balıqçı arvadı : povest // Ulduz. – 1981. - №11.
- Qayaların səsi : roman. – Bakı : Yazıçı, 1983.
- Dağlar oğlu. Dağda bahar : romanlar. – Bakı : Gənclik,1984.
- Torpağın ətri : roman. – Bakı : Gənclik, 1979.
- Döyüşən illər : ikinci kitab. – Bakı : Yazıçı nəşriyyatı, 1991.
- Siyasi məhbus : roman // Şəfəq. - 1992. - 10 noyabr. - № 3-4.
- Vadidə görüş : povest // Şəfəq.- 1993. - № 1-2.
- Qovuşmaz yollar : roman // Şəfəq. – 1993. - № 3-4.
- Vətən keşiyində : roman-poema // Məşəl. – 2004. - №5-6.

## 28. Şair Mir Sabirin anadan olmasının 80 illiyi (1935)



**Ümumittifaq Gənclər Festivalında uşaq şeirlərinə görə birinci dərəcəli diploma layiq görülmüşdür. (1973)**

***Analar laylanı deyəndə belə,***
***Hərəsi bir cürə gətirər dilə,***
***Övlad sevgisinin biri-biriylə***
***Elə bil bəhsidir, ana laylası.***

**Mir Sabir**

O, uzaq bir adada - "Poeziya adası"nda yaşayır. Kimlərinsə düşündüyü kimi yalnız uşaq şairi, uşaqların şairi deyil, həm də və ilk növbədə böyüklərin şairidir.1935-ci il aprelin 28-də Azərbaycanda Bakı şəhərində anadan olmuşdur. 199 saylı şəhər məktəbinin yeddinci sinfini bitirdikdən sonra 1951-1955-ci illərdə Bakı xalq Maarif şöbəsinin pedoqoji məktəbində təhsilini davam etdirmişdir. 1955- 1959-cu illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda təhsil almışdır. Əmək fəaliyyətinə təyinatla göndərildiyi Sumqayıt 6 saylı məktəbdə müəllim kimi başlamışdır. Hələ orta məktəbdə ikən bədii yaradıcılıqla məşğul olmuşdur. "Əmək kitabçası" adlı ilk mətbu şeiri 1950-ci ildə "Pioner" yurnalının 8-ci sayında çapdan çıxmışdır. Şeir, poema və ədəbi səhnəcikləri "Azərbaycan", "Kirpi", "Günəş", "Göyərçin", "Ədəbiyyat və incəsənət", "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri", "Savalan" və digər jurnal və qəzetlərdə dərc edilmişdir. "Günəş" jurnalının redaksiya heyətinin üzvüdür. Uşaq şeirləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. "Bir addım geriyə çəkilmək olmaz", "Sən Allah, qarşıma çıxma bir daha" adlı şeirlərinə musiqi bəstələnmişdir. Mir Sabirin əsl vətəndaşlıq mövqeyinin, cəmiyyətdə olan çatışmazlıqlara qarşı barışmazlığının, üsyankar ruhunun ifadəsi olan satirik şeirləri də maraqlı obrazları, orijinal işlənmə tərzi ilə yadda qalandır. Azərbaycan satirik poeziyasının böyük yaradıcısı Mirzə Ələkbər Sabiri haqlı olaraq özünün sələfi hesab edən Mir Sabir onun şeirlərinə bu günlə səsləşən nəzirələr qoşmaqla sanki elə dahi M.Ə.Sabirin dilindən danışaraq, müasir antipodlara, qeyrətsizlərə nifrət yağdırır.

Mir Sabirin bir-birindən kəskin, sarkazm xarakterli digər satirik şeirləri, poetik uğurlar sayıla biləcək məhəbbət nəğmələri, qəzəlləri, yarım əsrlik pedaqoji fəaliyyət göstərən bir müəllim kimi məktəb həyatına və təbii ki, uşaqlara həsr edilmiş şeirləri onun bu gün bütöv və kamil bir şair olduğunu təsdiq edir.

**Əsərləri:** "Təzə mənzildə" (1965), "Qara fərə" (1972), "Meşənin qış nağılı" (1977), Səfurənin gülləri (1981), "Anama bənzəyirəm" (1984)," Sevimli oyuncaqlar" (1987)," Ağıllı daş" (1992), "Kimin belə nəvəsi var" (2000), "Gəl, gəl a dərs günləri" (2001), "Səni sevən ürəkdir" (2005), "Gözələ baxmayıb keçmək günahdır" (2008), "Bakı küləyi" (2008) və s.

# May

**Əlamətdar tarixi günlər və bayramlar**

Türk dünyasının həmrəylik günü ( 03.05.1944)

Faşizm üzərində qələbənin 70 illiyi (09.05.1945)

Ulu öndər Heydər Əliyevin doğum günü (10.05.1923-12.12.2003)

Beynəlxalq ailə günü (15.05.1994)

Beynəlxalq Muzeylər günü (18.05.1977)

Bioloji Müxtəliflik günü (22.05)

Azərbaycan Respublikası günü (28.05.1918)

**Bu tarixi unutmayaq**

Şuşa şəhərinin erməni qəsbkarları tərəfindən işğalı günü (08.05.1992)

Laçın rayonunun erməni qəsbkarları tərəfindən işğalı günü (17.05.1992)

**Milli qəhrəmanlar zirvəsi**

Milli qəhrəman Abdullayev Maşallah Babakişi oğlunun (27.05.1950) 65 illik yubileyi

**İncəsənət**

Xalq artisti Adil İsgəndərovun (1910-1978) 105 illik yubileyi

Rəssam, heykəltəraş Fuad Əbdürrəhmanovun (11.05.1915-1971)100 illiyi

Aktyor, rejissor İsmayıl Əfəndiyevin (30.05.1910-1967) 105 illik yubileyi

**Yubilyar yazıçı və şairlər**

Şair Molla Cumanın (1855-1920) 160 illik yubileyi

Ədəbiyyatşünas Əkrəm Cəfərin (05.05.1905-18.08.1991) 110 illik yubileyi

Şair Ağa Laçınlının (05.05.1940-25.11.2007)75 illik yubileyi

Yazıçı Yusif Kərimovun (05.05.1940) 75 illik yubileyi

Yazıçı Həsən Mehdiyevin (05.05.1925-21.08.2001) 90 illik yubileyi

Ədəbiyyatşünas Cəfər Xəndanın (08.05.1910-10.08.1961)105 illik yubileyi

Ədəbiyyatşünas Qara Namazovun (08.05.1930) 85 illik yubileyi

Yazıçı, dramaturq Maqsud İbrahimbəyovun (11.05.1935) 80 illik yubileyi

Şair, tərcüməçi Abbas Abdullanın (12.05.1940) 75 illik yubileyi

Yazıçı, dramaturq Altay Məmmədovun (15.05.1930-15.07.2003) 85 illik yubileyi

Ədəbiyyatşünas Qəzənfər Əliyevin (15.05.1930-1984) 85 illik yubileyi

Yazıçı Əbdürrəhimbəy Haqverdiyevin (17.05.1870-17.12.1933) 145 illik yubileyi

Şair, tərcüməçi Vladimir Qafarovun (19.05.1935-19.07.2000) 80 illik yubileyi

Xalq şairi Rəsul Rzanın (19.05.1910-01.04.1981)105 illik yubileyi

Filosof  Ziyəddin Göyüşovun (1920-1984) 95 illik yubileyi

Şair, publisist Aydın Murovdağlının (22.05.1955) 60 illik yubileyi

Şair, tərcüməçi  Vaqif Bəhmənlinin (23.05.1955) 60 illik yubileyi

Dilçi, folklorşünas Cavad Heyətin (23.05.1925) 90 illik yubileyi
Şair, yazıçı Həsən Elsevərin (25.05.1925) 90 illik yubileyi
Şairə Həqiqət Rzayevanın (28.05.1940) 75 illik yubileyi
Nasir, tərcüməçi Akif Abbasovun (28.05.1950) 65 illik yubileyi
Şair Fikrət Sadığın (30.05.1930) 85 illik yubileyi

# Əlamətdar tarixi günlər və bayramlar

### 3.Türk dünyasının həmrəyliyi günü

***Türk millətinin bayrağı onun müqəddəslik simvoludur.***



Bu tarixi gün ilk dəfə 1944-ci ilin 3 mayında Topxana hərbi həbsxanasında Nihal Atsız, Zeki Velidi Togan, Nehdet Sançar və Reha Oğuz Türkan başda olmaqla, 10 nəfər məhkum tərəfindən qeyd olunub. Azərbaycanda Türkçülük Günü 1992-ci ilin may ayının 3-dən etibarən qeyd olunmaqdadır. Həmin tarixdə Bakıya gələn Başbuğ Alparslan Türkeşin və Milli Azadlıq Hərəkatının lideri Əbülfəz Elçibəyin iştirakı ilə bu bayram Azadlıq meydanında böyük təntənəli ilə qeyd olunub.

3 may Türkçülük Günü Türkiyədə daha çox qeyd olunur. Azərbaycanda isə bu günü əsasən milliyyətçilər qeyd edirlər. Hər xalq öz keçmişini, tarixini bilməli, özünü tanımalı və mirası yaşatmalıdır. 3 May tarixinin Türkçülük Günü kimi tarixə yazılmasında, türkçülük uğurunda mübarizə aparan insanlar çox sayda təqiblərə məruz qalmışlar. “Türkçülük Günü əslində, Türkiyədən qaynaqlanır. Türk dünyası bütün dünyaya ədalət, hürriyyət gətirdi. Sonradan türkü məhv etmək üçün müəyyən qüvvələr hərəkətə gəldi. Türk dövlətləri sıradan çıxarıldı və nəhayət, 1918-ci ildə Birinci Dünya Savaşı bitənə kimi Osmanlı imperiyasını da çökdürdülər. Dünya hesab etdi ki, bununla da türkün səsi boğuldu. Bundan sonra meydana Atatürk gəldi və türk millətini, türk milliyyətçilərini qalibiyyətə apardı. Atatürkdən sonra baş verən proseslər yenidən Qərb dünyasının istəyi ilə getməyə başladı. Bu dövrdə millətçilər təqibə məruz qaldılar və bunun kuliminasiya nöqtəsi isə 3 may 1944-cü ildə baş verdi. Bu tarix Nihal Atsızın, Orxan Şaiq Gökayın, İsmət Rasin Tümtürkün, Fəthi Təvətoğlunun və bir çox türk milliyyətçisinin tarixidir. Çünki həmin bu insanların qoyduğu ənənəni davam etdirən insanlar var. Bu gün məhz bu baxımdan biz 3 may 1944-cü il tarixində baş verən hadisəyə, həmin insanların qəhrəmanlığına heyran olmaqla bərabər, baş əyib, deyirik ki, rahat yatın, sizin yolunuzu davam etdirən insanlar var”.

## 9. Faşizm üzərində qələbənin 70 illiyi

***“Tarix bu gün də, gələcəkdə də bilməlidir ki, II Dünya müharıbəsində, Böyük Vətən Müharibəsində Azərbaycan Respublikasının fəaliyyəti, rolu çox böyük olmuşdur.”*** **Ümummillilider Heydər Əliyev**

*Müharibədə Azərbaycanın 600 mindən çox oğul və qızının amansız düşmənlə döyüşlərdə göstərdikləri misilsiz şücaət və igidlik, arxa cəbhədə çalışanların isə əmək rəşadəti dillər əzbəridir və bugünki nəsillər üçün daim örnək olaraq qalacaqdır.*




Azərbaycan xalqının İkinci Dünya müharibəsində göstərdiyi qəhrəmanlıq nümunələri haqqında çoxlu sayda şeirlər, kitablar yazılmış, bədii və sənədli filmlər çəkilmiş, qəhrəmanların şərəfinə abidələr ucaldılmış, onların adları əbədiləşdirilmişdir. Artıq 70 ildir ki, 9 may faşizm üzərində Qələbə günü təntənəli surətdə qeyd olunur. Bu qələbə heç də asan başa gəlməyib. Yüzlərlə, minlərlə həmvətənlərimiz, Azərbaycanın mərd övladları bu Qələbə naminə canlarından-qanlarından keçiblər. Onlar doğma Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda mərdliklə, hünərlə vuruşaraq və həm də doğma Azərbaycan torpağını qoruyublar. 170 mindən çox azərbaycanlının orden və medallarla təltif edilməsi, 130 nəfər həmyerlimizin isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi buna əyani sübutdur. Əgər o vaxt Azərbaycan nefti cəbhəyə göndərilməsəydi, bu müharibə qələbə ilə bitə bilməzdi. Ümummilli lider Heydər Əliyev 1995-ci ildə Qələbənin 50 illiyi ilə bağlı keçirilən təntənəli tədbirdə deyirdi: «Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amililərdən biri olmuşdur. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 70 faizi Azərbaycanda hasil edilirdi. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu. Şübhəsiz, nəticə çıxarmaq çətin deyil ki, əgər Azərbaycan nefti olmasaydı, motorlar müharibəsi, texnika müharibəsi o qədər uğurlu və müvəffəqiyyətli ola bilməzdi. O vaxtlar Azərbaycan alimləri tərəfindən yüksək keyfiyyətli benzin, kerosin və başqa neft məhsulları ixtira olunaraq, respublikamızda istehsal edilirdi…». Xatırladaq ki, müharibənin ilk dövründə qüvvələr nisbəti düşmənin xeyrinə idi. Düşmənin qəfil hücumu nəticəsində sovet ordusunun 1,5 milyon canlı qüvvəsi əsir alınmış, xeyli hərbi texnikası sıradan çıxarılmışdı. Faşist Almaniyası işğal etdiyi Avropa ölkələrinin iqtisadi və hərbi potensialını öz əlində cəmləşdirmişdi. Lakin «Hər şey cəbhə üçün, hər şey qələbə üçün» şüarı altında bütün Sovet xalqları birləşdi. Bununla da düşmənin hücumları nəinki dayandırıldı, faşistlər Moskva, Stalinqrad, Kursk və başqa döyüşlərdə ən ağır və sarsıdıcı məğlubiyyətə uğradıldı, 1945-ci ildə isə tamamilə məğlub edildilər.

## 10. Ümummilli lider Heydər Əliyevin doğum günü (1923-2003)

*“Azərbaycan üçün Heydər Əliyevin varlığı yalnız Tanrı payıdır.”*

**Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva**



**Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. O, dörd dəfə "Lenin" ordeni, "Qırmızı Ulduz" ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə "Sosialist Əməyi Qəhrəmanı" adını almış, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuşdur.**

- **27 mart 1997 — Ukraynanın ali mükafatı "Yaroslav Mudrı" ordeni;**
- **13 aprel 1999 — Türkiyənin ən nüfuzlu mükafatı – "Atatürk Beynəlxalq Sülh Mükafatı";**
- **2001 — Qızıl Post ordenı**
- **20 yanvar 2001 — Moskva Dövlət Universitetinin "Fəxri professoru";**
- **3 aprel 2003 — Rusiya Federasiyasının Təhlükəsizlik, Müdafiə və Hüquq Qaydası Problemləri Akademiyasının professoru və həqiqi üzvü, Y.V.Andropov adına mükafat;**
- **10 may 2003 — Rusiyanın yüksək mükafatı – Müqəddəs Apostol Andr**

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. O, 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil almışdır. Başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.1941-ci ildən Heydər Əliyev Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş və 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqradda xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur. 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər

Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur. Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etmişdir. Heydər Əliyev bir sıra beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərinin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. Azərbaycan xalqı milli dövlətçiliyinin dağılmaq təhlükəsi qarşısında qaldığını gördüyü və artıq ən ağır günlərini yaşadığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb etmiş və həmin vaxtdan taleyini yenə Heydər Əliyevə etibar etmişdir. Xalq Heydər Əliyevin bu qayıdışını ümid və sevinclə qarşılamış, həmin günü isə Milli Qurtuluş günü kimi müstəqil Azərbaycanın tarixinə yazmışdır.

## 18. Beynəlxalq Muzeylər günü

***“Muzey maddi- mədəniyyət abidələrinin komplektləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət, elmi tədqiqat müəssisəsidir.”***

**Ulu öndər Heydər Əliyev**

**2000-ci il martın 24-də qüvvəyə minmiş “Muzeylər haqqında” Azərbaycan Respublikasının Qanunu ölkəmizdə muzeylərin fəaliyyətinin təşkilati-hüquqi əsaslarını və müvafiq münasibətləri tənzimləyir. Ümummilli Lider tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və ölkəmizin birinci xanımı, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir.**



Qlobal cəmiyyətdə müasir həyatın ritmi bəzən ayrı-ayrı insanları mənsub olduqları xalqın adət-ənənələrindən uzaqlaşdırır, hətta onlara özlərindən sonrakı nəslə hansı dəyərləri miras qoyacaqları barədə düşünməyə belə imkan vermir. Lakin elə bu cəmiyyətdə ayrı-ayrı xalqların əsrlər boyu yaratmış olduqları maddi və mənəvi irsi bir məbəd kimi qoruyan muzeylər onu keçmişdən gələcəyə ötürmək kimi mühüm missiyanı yerinə yetirir. Təsadüfi deyil ki, bu və ya digər ölkəyə gedən turistlər həmin yer haqqında məlumat mənbəyi kimi ilk olaraq muzeylərə üz tutur, onlardakı eksponatların qədimliyi, özəlliyi ilə maraqlanırlar. Beləliklə, muzeylər dünyada mədəni proseslərin fəal iştirakçısına, eyni zamanda, qloballaşmanın mənfi nəticələrinə qarşı dura bilən mədəniyyət ocaqlarına çevrilir. Hər il mayın 18-i bütün dünyada Beynəlxalq Muzeylər Günü kimi geniş qeyd edilir. Beynəlxalq Muzeylər Şurasının (İCOM) təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir. Dünyanın 100-dən çox ölkəsində qeyd edilən Beynəlxalq Muzeylər Günü qədim tarixə və zəngin mədəniyyətə malik Azərbaycanda da geniş miqyasda qeyd edilir. Eramızdan əvvəl XVI əsrdə Krit, XIII-XII əsrlərdə Çin, III əsrdə Qədim Roma və Yunanıstanda estetik dəyərə malik əşyaların, əsərlərin, kolleksiyaların, sənədlərin saxlandığı məkanların müasir muzeylərin sələfləri hesab edildiyini nəzərə alaraq, ölkəmiz ərazisində qurulmuş Atropatena və Albaniya dövlətlərinin hökmdarlarının saraylarını da belə yerlər kimi qeyd etmək yerinə düşər. Erkən və orta əsrlərdə isə Azərbaycanda hakim sülalələr tərəfindən kolleksiyaçılıq

ənənələrinə maraq güclənmiş, qiymətli əşyalar xəzinələrdə, saray kitabxanalarında mühafizə edilmişdir. Azərbaycanın ictimai-siyasi, mədəni həyatında XIX əsrin ikinci yarısından etibarən sürətlə cərəyan edən proseslər muzey işinin təşkilinə təkan vermişdir. İlk belə muzeylərdən biri görkəmli ədib Cəlil Məmmədquluzadənin təşəbbüsü və yaxından iştirakı ilə XIX əsrin sonlarında Naxçıvanın Nehrəm kənd məktəbində təşkil olunmuşdur. Sovet hakimiyyətinin ilk illərində Hacı Zeynalabdin Tağıyev, Murtuza Muxtarov, Musa Nağıyev kimi Bakı milyonçularından müsadirə edilmiş qiymətli sənət əsərləri bu muzeyin eksponatları olmuşdur. H.Z.Tağıyevin mülkündə yerləşən Milli Azərbaycan Tarix Muzeyinin binasının özü də tariximizdən xəbər verən daş abidə kimi qiymətlidir. Ona görə də bu yerə bəzən "Muzey içində muzey" də deyirlər. Ötən əsrin 30-cu illərindən etibarən bir-birinin ardınca mahiyyətinə görə müxtəlif təmayüllü – dövlət, memorial, səyyar, ədəbiyyat, incəsənət, tarix, musiqi, qoruq, teatr muzeyləri yaradılmışdır. Sonrakı illərdə Azərbaycanda yeni muzeylər fəaliyyətə başlamışdır.Təəssüf ki, neçə-neçə tarixi abidə və muzeylərimiz ötən əsrin 90-cı illərində erməni işğalçıları tərəfindən qarət olunmuş və dağıdılmışdır. İşğal olunmuş torpaqlarımızda 762 mədəniyyət abidəsi və 1431 mədəniyyət müəssisəsi qalmışdır. Erməni faşistləri 22 muzeyi, 4 rəsm qalereyasını tamamilə məhv etmişlər.Canlı muzey olan və bu gün düşmən tapdağı altında inləyən Şuşanın özündə 8 muzey fəaliyyət göstərmişdir. Dövlət Qarabağ Tarixi Muzeyi, dahi bəstəkar Üzeyir Hacıbəylinin ev, vokal sənətimizin banisi Bülbülün memorial, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeyləri, Azərbaycan Xalça Muzeyinin Şuşa filialı, görkəmli musiqiçi Qurban Pirimovun Ağdam rayonundakı xatirə, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam, Füzuli, Xocalı rayonlarının tarix-diyarşünaslıq muzeyləri tamamilə qarət edilmişdir. Keçmiş SSRİ-də yeganə olan Ağdam Çörək Muzeyi ermənilər tərəfindən tamamilə yerlə-yeksan olunmuşdur. Azərbaycanda milli mənəvi dəyərlərimizə, o cümlədən muzey işinə daim dövlət qayğısı olmuşdur. Ölkəmizdə muzey işinin inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın milli tarixi və mədəni irsinin qorunmasında muzeylərin dəyərini dərindən və həssaslıqla duyan ulu öndərimiz Heydər Əliyev respublikada müvafiq şəbəkənin genişləndirilməsini, onun maddi-texniki bazasının gücləndirilməsini daim diqqətdə saxlamışdır. Onun təşəbbüsü ilə respublika Mədəniyyət Nazirliyinin muzeylər idarəsi, muzey işi üzrə elmi-metodiki mərkəz, muzey ekspozisiyalarının bədii tərtibatı emalatxanası, muzey sərvətləri və xatirə əşyalarının bədii bərpa mərkəzi təşkil olunmuşdur. Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial-xatirə, mənzil, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü sayəsində yaradılmışdır. Dahi rəhbərimizin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra digər sahələrlə yanaşı, muzey işi də öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Ulu Öndərin təşəbbüsü ilə 1993-cü ildə Nazirlər Kabinetində muzey işçilərinin respublika müşavirəsi keçirilmiş, 1994-cü ildə isə

bu müşavirənin materialları əsasında “Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında” qərar qəbul edilmişdir. Dövlətimizin başçısının “Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində İstiqlal muzeyinin yaradılması və İstiqlal abidəsinin ucaldılması haqqında” 2006-cı il 18 dekabr, “Müasir İncəsənət Muzeyinin yaradılması haqqında” 2006-cı il 19 dekabr, “Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında” 2007-ci il 6 mart tarixli sərəncamları, 2009-cu il 22 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planı”, həmçinin “Azərbaycan Xalça Muzeyinin yeni binasının maddi-texniki təminatı haqqında” 2013-cü il 29 dekabr tarixli, eləcə də qoruq muzeylərin təşkilinə, muzey işçilərinə fəxri adların verilməsinə dair sərəncamları bu sahəyə göstərilən böyük diqqət və qayğıya bariz nümunələrdir. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə Prezident İlham Əliyevin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”na uyğun olaraq milli mədəni irsimizin qorunması dövlət əhəmiyyətli prioritet məqsəd kimi qarşıya qoyulmuşdur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində “Şirvanşahlar Sarayı Kompleksi”, Qız qalası və Qobustan Milli Tarix-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Fondun həyata keçirdiyi müxtəlif layihələr çərçivəsində Qarabağ muzeyləri haqqında məlumatlar mötəbər beynəlxalq təşkilatlara çatdırılır. Azərbaycan dövlətinin uğurlu mədəniyyət siyasəti nəticəsində son illər muzeylərimizin dünyanın nüfuzlu muzeyləri ilə əlaqələri genişlənmiş, bu sahədə beynəlxalq əməkdaşlıq sahəsində yeni nailiyyətlər əldə edilmişdir. Ümummilli Liderimizin siyasi irsinin öyrənilməsi, azərbaycançılıq məfkurəsinin formalaşdırılaraq inkişaf etdirilməsi məqsədilə yaradılan Heydər Əliyev muzeyləri isə respublikada muzey şəbəkəsinin genişləndirilməsi sahəsində mühüm hadisə kimi qiymətləndirilməlidir. Hazırda ölkəmizdə 200-dən çox muzey fəaliyyət göstərir və onların ekspozisiyaları azərbaycançılıq məfkurəsini uğurla təbliğ edirlər.

## 15. Beynəlxalq ailə günü

***“Ən gözəl təmir olunan uşaq evi, ən müasir internat məktəbi heç vaxt ailəni, ailə mühitini əvəz edə bilməz”***

**Mehriban xanım Əliyeva**

*Ailə Azərbaycan dövləti, Azərbaycan cəmiyyəti üçün həmişə müqəddəsdir. Dövlətimiz cəmiyyətin əsas atributu olan ailənin rifah halının gündən-günə daha da artmasının qayğısına qalmaqla onun müqəddəsliyini bir daha təsdiq edir.*



15 may BMT-nin qərarı ilə bütün dünyada Beynəlxalq ailə günü kimi qeyd olunur. BMT Baş Assambleyası 1993-cü ilin sentyabrında 15 may tarixini 1994-cü ildən etibarən hər il Beynəlxalq Ailə Günü kimi qeyd etməyi qərara aldı. Ailənin cəmiyyətin əsas elementi, kiçik demokratiyanın təməli olduğunu nəzərə alaraq, BMT demokratik ideyaları dəstəkləyən, sülh və demokratik millətlər birliyini qurmağa səy göstərən bütün dünya ailələrini birləşdirməyə çalışır.Azərbaycanda ailə bütün zamanlarda cəmiyyətimizin ən müqəddəs təməl daşı hesab olunub. Ulu öndər Heydər Əliyev Azərbaycan ailəsi və onun problemlərini həmişə diqqətdə saxlayırdı. Bu münasibət indi də dövlət başçımız İlham Əliyev tərəfindən həssaslıqla davam etdirilir. Azərbaycan cəmiyyətində ailə hər zaman müqəddəs sayılıb. Bu gün ölkəmizdə ailə cəmiyyətin əsas özəyi kimi dövlətin xüsusi himayəsindədir və dövlət öz siyasətində ailənin sosial müdafiəsi, gənc ailələrə qayğını əsas tutur. Azərbaycan ailəsi və onun problemlərini həmişə diqqətdə saxlayan ulu öndəriz Heydər Əliyev cəmiyyətdə qadınların rolunun artırılması, qadınlarla kişilər arasında bərabərliyin gerçəkləşdirilməsi, qadın, ailə problemlərinin həlli istiqamətində də böyük işlər gördü.1998-ci il yanvarın 14-də Azərbaycanda "Qadın Problemləri üzrə Dövlət Komitəsi"ni yaratdı. Bu məsələyə böyük həssaslıqla yanaşan Prezident İlham Əliyev 2006-cı il fevralın 6-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması haqqında Sərəncam imzaladı. Hazırda bu komitə dövlətin ailə siyasətini həyata keçirən bir qurum olaraq mövcud problemlərin üzərində işləyir, onların həlli istiqamətində mühüm tədbirlər həyata keçirir. Ölkənin Birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın ailə, qadın və uşaq məsələlərinə, bu sahədə aktual problemlərə həssas münasibəti bunu bir daha təsdiq edir. Mehriban Əliyevann təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi nəhəng proqram və layihələr ailələr üçün, sözün əsl mənasında böyük dayaqdır.“Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı” çərçivəsində görülən işlər də əslində, Azərbaycan ailəsinin rifahına, möhkəmlənməsinə xidmət edir.

## 22. Bioloji Müxtəliflik günü

***Məşhur bioloq E.Vilson biomüxtəlifliyi "həyatın məğzi" adlandırmışdır. Biomüxtəliflik Yer üzərində mövcud olan genlərdən ekosistemlərə qədər bütün canlıların əmələ gətirdiyi müxtəlifliyin məcmusu deməkdir.***



Bioloji müxtəliflik bütün yaşayış mühitlərində, o cümlədən quruda, dənizdə və digər su ekosistemləri və ekoloji komplekslər də daxil olmaqla, bütün canlı orqanizmlərin növ müxtəlifliyi deməkdir. 2000-ci il dekabrın 20-də BMT-nin Baş Assambleyası 55/201 nömrəli qətnaməsi ilə 22 may tarixini Bioloji müxtəliflik üzrə Konvensiyanın qəbul olunması, həmçinin "Beynəlxalq bioloji müxtəliflik günü" elan etmişdir. Azərbaycan isə biomüxtəliflik üzrə Konvensiyaya 2000-ci ildə qoşulmuşdur. Bizim taleyimiz ekosistemin məhsuldarlığından və saglamlığından asılı olduğundan dünyada Biomüxtəlifliyin qorunması irqindən, dinindən, rəngindən asılı olmayaraq hər birimizin borcudur. Bu baxımdan təbiətdə canlıların qorunması təbliğinə istiqamətlənmiş 22 may Beynəlxalq biomüxtəliflik gününü Avropanın bir çox ölkələri qeyd edirlər.1992-ci ildə BMT-nin təşəbbüsü ilə Rio-de-Janeyro şəhərində keçirilmiş konfransda qeyd olunduğu kimi: "Dünyanın gələcəyi, inkişafı ekoloji problemlərin necə həll olunmasından asılı olacaqdır".

**Azərbaycanda biomüxtəliflik:**Azərbaycan Respublikası Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik ölkədir. Bioloji müxtəlifliyinə görə Azərbaycan dünyada özünəməxsus yerlərdən birini tutur. Burada zəngin bitki və heyvan növləri cəmlənmişdir. Müasir Azərbaycan faunası 18000 canlıdan ibarət olub məməlilərin 97 növünü əhatə edir, bunlar 7 dəstəyə, 22 ailəyə və 39 cinsə daxildir. Təkcə onurğalılar faunamızda 700 növlə təmsil olunmuşdur. Respublikanın quş faunası 357 növ və yarımnövü əhatə edən 17 dəstəni təmsil edir. Azərbaycanın su hövzələrində balıqların 10 dəstəyə, 16 ailəyə aid olan 100-ə yaxın növ və yarımnövü yaşayır. Azərbaycanın həşəratlar aləmi də son dərəcə zəngin olub 25 minə yaxın növü əhatə edir. Azərbaycan florasının biomüxtəlifliyinə isə dərman, efiryağlı, dekorativ, meyvə, texniki və digər faydalı bitkilər daxildir.

## 28. Azərbaycan Respublikası günü

***“Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir!”***
**Ulu öndər Heydər Əliyev**



Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanıb. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır. Yurdumuzda hökmranlıq edən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrilib. Respublika günü və ya 28 May – Respublika Günü- 1918-ci ildə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür. 1990-cı ildən Respublika günü dövlət bayramı kimi qeyd edilir.
1917-ci ildə Rusiyada baş vermiş Fevral inqilabı nəticəsində Rusiyada Çar İmperiyası devrildi. Ölkədə çarizmin məzlum vəziyyətə saldığı xalqların milli hərəkatı başlandı. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) – müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət yaradıldı. Bu respublika azərbaycanlıları tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur. Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir. Azərbaycan Demokratik Respublikasını rəsmi surətdə tanıyan ilk dövlət Osmanlı dövləti olmuşdur. Həmin tarixi hadisə 4 iyun 1918-ci ildə baş vermişdir. 1918-ci il 9 noyabr tarixində M.Ə.Rəsulzadənin təklifi əsasında Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağı qəbul edilmişdir. O zamana qədər Azərbaycan Demokratik Respublikasının bayrağı qırmızı rəngdəydi. Azərbaycan Demokratik Respublikası gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bildi. Təəssüflər olsun ki, müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına dolmadan bolşeviklərin hücumuna məruz qalıb müvəqqəti olaraq devrildi. Sovetlər Birliyi, Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etdi. Bolşeviklər tərifindən devirlməsinə baxmayaraq, istiqlal ideyası yenilmədi və 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini elan etdi.

**Bu tarixi unutmayaq**

**8. Şuşa şəhərinin erməni qəsbkarları tərəfindən işğalı günü (1992)**

***Şuşanın dağı bizdən,***
***Bağçası bağı bizdən.***
***Yağı gəlib yurd salıb.***
***Alıb xoş çağı bizdən.***




*İşğal əməliyyatı*

8 may 1992-ci il tarixdə Qarabağ cəbhəsinin komandanı Arkadi Ter-Tadevosyan Şuşa şəhərinə hücum üçün əmr imzaladı. Əslində isə ermənilərin Şuşa üzərinə hücumlarının icrasına artıq aprel ayının 27-dən başlanmışdı. Belə ki, 1992-ci il may ayının 6-da Yura Ovanesyan Canhəsən istiqamətindəki Azərbaycan mövqelərinə bir neçə sarsıdıcı zərbələr endirərək, döyüş mövqeyini dəyişib Şuşa şəhərinə doğru istiqamətləndi. Canhəsən–Kosalar istiqamətindəki Yura Ovanesyanın başladığı döyüşü davam etdirilməsi tapşırığını 26-cı bölmə öz üzərinə götürdü. Həmin gün axşama doğru Azərbaycanın iki hərbi vertolyotu Suşa ətrafındakı ermənilərin təmas xəttinə zərbələr endirdilər. Bundan bir neçə dəqiqə sonra Su-25 döyüş təyyarəsi qalxaraq Xankəndi şəhərinə bir neçə bomba atıb Ağdam istiqamətində uçub getdi. Bu Azərbaycan tərəfinin Şuşanın süqutuna qədər sonuncu həmlələri oldu. Şuşanın işğalını müşahidə etmək üçün may ayının 6-da bütün erməni komandanlığı, xarici qonaqlar və jurnalistlər dəniz səviyyəsindən 1207,3 m şimal yüksəkliyində yerləşən Şuşakəndə toplaşmışdılar. Onlar buradan bütün cinahlar boyu hücum xəttini izləyir və öz döyüşçülərinə göstərişlər verirdilər. Ermənilərin, birinci və ikinci cinahlarla irəliləyən qoşun hissələrinin döyüş tapşırığı, Şuşaya istiqamətlənən yollardakı azərbaycanlıların bütün atəş nöqtələrini susduraraq qala divarlarına yaxınlaşmaq idi.Üçüncü cinahın döyüşçüləri isə Şuşa – Laçın yolunu atəş altında saxlayaraq Şuşanı mühasirəyə salmaqla, Laçın – Qubadlı istiqamətindən Şuşaya köməyə gələn azərbaycanlı döyüşçülərin hərəkətinə mane olmaqla bərabər Zarıslı kəndini işğal edərək orada möhkəmlənmək bununla da Laçınla Şuşanın əlaqəsini tamam kəsmək əmri almışdılar. Canhəsən – Kosalar istiqamətindəki döyüşçülərə çoxlu sayda aldadıcı manevrlər etmək, azərbaycanlı döyüşçülərin diqqətini bu aldadıcı manevrlərə cəlb etmək tapşırılmışdı. Məhz bundan sonra süni yaradılmış vəziyyətdən istifadə edərək Şuşanın mühasirəsini getdikcə daraldaraq şəhəri təslim etmək olardı. Kərkicahan kəndindən və Xankəndindəki Rus Hərbi bazalarından Şuşa şəhərinin yaşayış məntəqələrinə və ictimai iaşə obyektlərinə fasiləsiz raket zərbələri endirilirdi. Bundan vahiməyə

düşən Şuşanın mülki əhalisi keçilməz meşələrlə Laçın istiqamətində canlarını götürüb qaçırdılar. Nə səbəbdənsə Şuşanın mühasirəsindən qabaq Azərbaycanın Hərbi komandanlığı Şuşadakı azərbaycanlı döyüşçülərin bir qismini cəbhə xəttindən geri çəkmiş, digər bir qismi isə məzuniyyətə buraxmışdı. Cəbhə xəttində pərakəndəlik və özbaşınalıq hökm sürdüyündən, döyüşçülərin sırasında üstəlik özbaşına döyüş mövqelərini tərk edənlər də var idi. Komandanlıq tərəfindən hücum tapşırığı verilmədiyindən döyüşçülərimiz yalnız müdafiə mövqeyində dayanırdılar. Onsuz da ermənilərin mühasirəsini yarmaq və ya erməni hücumlarının qarşısını almaq üçün heç canlı qüvvə və texnika da çatışmırdı. Fasiləsiz raket zərbələri Şuşanın cənubuna və qala divarlarına istiqamətləndi. Bu raket zərbələri Qala divarları üzərindəki bütün müşahidə qüllələrini dağıtdı, həmin gün bütün şəhər od tutub yandı. Bu həmlədən sonra Şuşanın mühasirəsinə son qoyuldu, ermənilər qala divarları üzərindən şəhərə daxil olmağa başladılar. Üçüncü cinahdakı erməni qoşun bölmələri Laçın – Şuşa yoluna çıxdı, Şuşanın Laçınla əlaqəsi tamam kəsildi. Bununla da Şuşa Canhəsən, Kosalar, Qaraqaya erməni işğalının altına düşdü. May ayının 7-dən Şuşaya daxil olmuş erməni qoşun hissələri, küçə döyüşləri ola biləcəyindən ehtiyatlanaraq küçələrdə açıq şəkildə hərəkət etməyə cürət etmirdilər. Nəhayət may ayının 9-da gecə saat 4-də şəhərin boş olduğuna əmin olan ermənilər Şuşa şəhəri üzərindəki qələbələrini bayram etməyə başladılar. Lakin bu işğal ermənilərə o qədər də asan başa gəlməyib. 11 min erməni əsgərinə cox az sayda Azərbaycanlı müqavimət göstərirdi. Azlıqda olan Azərbaycan əsgərləri isə kömək gözləyirdilər. 10 saatdan artıq davam edən döyüşlərdə 1860 azərbaycanlı yaralandı, 480-i həlak oldu, 22 min nəfər öz yurdundan didərgin düşdü. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur. 300 kvadrat kilometr ərazisi olan Şuşa şəhərində həmin dövrdə 24.900 əhali yaşayıb. Şuşanın işğalı zamanı yerli əhalinin 193 nəfəri şəhid, 102 nəfəri isə əlil olub. İşğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edildi. Beş minə yaxın eksponatı olan Şuşa tarix muzeyi, Dövlət xalça muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, dünya əhəmiyyətli arxeoloji abidə sayılan paleolit dövrünə aid Azıx mağarası, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər tarix muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları dağıdılıb və talan olunub, müqəddəs məbəd və məscidlər təhqir edilib, kitabxanalar yandırılıb, misilsiz əlyazma nümunələri məhv edilib. Bu siyahıya Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Ermənilər Azərbaycana məxsus olan bir çox abidənin məhv edilməsinə və ya onların erməniləşdirilməsinə nail olublar. Onlar Şuşada 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, 8 mədəniyyət evini, 14 klubu, 20
kitabxananı, 2 kinoteatrı, 3 muzeyi, Şərq musiqi alətləri fabrikini dağıdıblar.

## 17-18. Laçın rayonunun erməni qəsbkarları tərəfindən işğalı günü (1992)

***Bürüdü dağlarını düşmənlər, Laçın***
***Səndən ayrı düşdü sevənlər, Laçın***
***Unudarmı səni görənlər, Laçın***
***Vətənin həsrəti yandırır məni.***



Azərbaycanın qala qapısı sayılan Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsindən 23 il keçir. İşğal nəticəsində 1835 kv.kilometrlik ərazi zəbt edildi, yüzlərlə maddi mədəniyyət nümunəsi erməni vandalizminə tuş gəldi, 65 min laçınlı doğma yurd yerlərindən didərgin düşdü..1992-ci ilin mayında Ermənistan Silahlı qüvvələri Qarabağın Dağlıq hissəsində Azərbaycanın qədim mədəniyyət və musiqi mərkəzi Şuşanı ələ keçirtməklə bütün yuxarı Qarabağ işğal etdi. Bundan sonra erməni hərbi birləşmələri qəsb etdikləri torpaqlarda möhkəmlənmək və Qarabağın Dağlıq hissəsi ilə Ermənistanı birləşdirmək üçün Laçın rayonuna aramsız hücumlara başladı. Şuşa kimi Laçın da mühüm hərbi –strateji əhəmiyyət kəsb edirdi. Məhz bunu nəzərə alan düşmən mayın 13-ü və 14-də zirehli texnikalar, Mi -24 vertolyotlarının müşayiəti ilə Qayğı qəsəbəsi və Laçın şəhərini bombardman etdi. 1992-ci il mayın 16-dan 17-nə keçən gecə Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistanın Gorus rayonu istiqamətindən hücuma keçən erməni silahlı birləşmələri mayın 18-də rayonu işğal etdi. Laçının düşmən əlinə keçməsi müharibənin Dağlıq Qarabağ hüdudlarından çıxdığını, Ermənistanın işğalçılıq niyyətlərinin daha böyük olduğunu göstərdi. Sonralar Laçın dəhlizi ilə Qarabağa gətirilən silah, döyüş sursatı və hərbi qüvvələr erməni təcavüzünün miqyasını daha da genişləndirdi, ətraf rayonların taleyini təhlükə altında qoydu. Azərbaycanın qala qapısı sayılan Laçının süqutu nəticəsində 1835 kv. kilometr ərazi işğal olundu. 262 nəfər həlak oldu, 67 nəfər itkin düşdü,48 sənaye, 63 kənd təsərrüfatı müəssisəsi, 217 mədəniyyət ,103 təhsil,142 səhiyyə ocağı dağıdıldı, talan edildi. 65 min laçınlı doğma yurdlarından didərgin düşdü. Bu gün Respublikamızın 58 şəhər və rayonunda məskunlaşan laçınlılar dövlət qayğısı ilə əhatə olunublar. Ağcabədi rayonunun Taxtakörpü ərazisində 552 məcburi köçkün ailəsi üçün yeni salınmış qəsəbə prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

# Milli qəhrəmanlar zirvəsi

## 27. Milli qəhrəman Abdullayev Maşallah Babakişi oğlunun 65 illik yubileyi

***“Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən aziz, ən qiymətli nailiyyətdir və biz bu nailiyyəti, dövlət müstəqilliyimizi daim qoruyub saxlayacağıq.”***

**Ulu öndər Heydər Əliyev**



Maşallah Abdullayev 27 may 1950-ci ildə Goranboy rayonunun Kəpənəkçi kəndində anadan olmuşdur. Valideynləri Qərbi Azərbaycanın Dərələyəz mahalındandır. Səkkizinci sinfə qədər Goranboy şəhər 1 saylı orta məktəbdə təhsil almışdır. 1965-ci ildə Goranboy Subartezian Quyularının İstismarı İsarəsinə işə düzəlmişdir. 1969-1971-ci illərdə hərbi xidmətdə olmuşdur. Bir müddət Azneft birliyinin Neft Daşlarında işləmişdir. 1975-ci ildə Bakı Bədən Tərbiyəsi Texnikumuna daxil olmuşdur. Buranı bitirdikdən sonra təyinatla Goranboya, vaxtilə təhsil aldığı şəhər 1 saylı orta məktəbdə işləməyə göndərilmişdi. Qarabağ müharibəsi başlayanda könüllülərdən ibarət dəstə yaradaraq döyüşlərdə iştirak etmişdir. Ağcakənd də daxil olmaqla neçə-neçə kəndin erməni işğalçılarından azad edilməsində böyük xidmətləri olmuşdur. Maşallah Abdullayev Respublika Ali Sovetinə deputata seçilmişdir. 1992-ci ildə M.Abdullayevə daha bir çətin və məsuliyyətli vəzifə etibar edildi. O, respublika Müdafiə Nazirliyi nəzdində briqada komandirinin müavini vəzifəsinə təyin olundu. Həmin briqada Tərtər, Goranboy və Yevlax ərazilərinə nəzarət edirdi. Goranboy və Ağdərənin erməni işğalçılarından təmizlənməsində bu briqadanın əvəzsiz rolu olmuşdur. Mayor rütbəsinə yüksələn Maşallah Abdullayev1992-1993-cü illərdə Goranboy rayon İcra Hakimiyyətinin Başçısı vəzifəsində çalışmışdır. Hazırda şəxsi təsərrüfatı ilə məşğuldur. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Şurası Goranboy Rayon Surasının sədridir. İgidliyə görə general M.Əsədov adına mükafata layiq görülmüşdür. Ailəlidir. Bir övladı var. Azərbaycan Respublikası prezidentinin 23 iyun 1992-ci il tarxili 6 saylı fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. "General Məhəmməd Əsədov" mükafatına layiq görülmüşdür.

# İncəsənət

## 5. Xalq artisti, aktyor, rejissor, pedaqoq Adil İsgəndərovun anadan olmasının 105 illiyi (1910-1978)

***Azərbaycan xalqının teatr və kino yaddaşında həmişə canlı, təravətli, yaratdığı bədii surətlərilə yaşayası bir ad qalacaq: Adil Rza oğlu İsgəndərov***

**1943-cü ildə Azərbaycan SSRİ xalq artisti, 1959-cu ildə SSRİ xalq artisti adi verilən sənətkar, həm də Dövlət Mükafatı Laureatı və bir sıra orden və medallarla təltif olunub.**



Adil İsgəndərovun anadan olmasından 105 il ötür. O oynadığı rollarla və çəkdiyi filmlərlə Azərbaycan kino tarixinə adını qızıl hərflərlə yazdırıb. Adil İsgəndərov Gəncə şəhərində anadan olub. Cəfər Cabbarlının təşəbbüsü ilə Teatr texnikumunda təhsil alıb. Sonra isə Moskva Dövlət Teatr İncəsənəti İnstitutuna qəbul olunub. Vətənə qayıdandan sonra 26 yaşlı Adil İsgəndərov Akademik Milli Dram Teatrına baş rejissor təyin olunub. Daha sonra isə direktor təyin edilib və 25 ilə yaxın bir dövrdə bu teatrda öz məktəbini yaradıb. Sənətkar teatrda özünəməxsus sənət mühiti yaradır. Bir-birinin ardınca "Həyat", "Xoşbəxtlər" və başqa bu kimi ciddi əsərləri müvəffəqiyyətlə tamaşaya qoyur, gənc aktyor və rejissorlarin yetişməsində canlı universitet kimi fəaliyyət göstərir. "Xanlar", "Fərhad və Şirin", "Aydın", "1905-ci ildə", "Dumanlı Təbriz", "Şərqin səhəri", "Otello", "Türkiyədə" və s. əsərləri tamaşaya qoyan bu istedadlı rejissor səhnəyə həmişə yeni nəfəs, yeni ruh gətirib. Təşkilatçılığı, bacarığı və mükəmməl kadr seçiminə görə Adil İsgəndərovu "Azərbaycanfilm" kinostuduyasına direktor təyin edirlər. Onun kinoda ilk rejissor işi olan "Əhməd haradadır?" filmi təəssüf ki, Adil İsgəndərovdan qalan yeganə sənət nümunəsidir. Onun "Ulduzlar sönmür" , "Qanun naminə", "Uzaq sahillərdə" və başqa filmlərdə yaratdığı obrazlar çox uğurlu və yaddaqalan olub, "Axırıncı aşırım"dakı Kərbəlayi İsmayıl rolu isə xüsusi mükafata layiq görülüb. Adil İsgəndərovun rəhbərliyi ilə çəkilən filmlər, yaratdığı obrazlar azərbaycan kinosunun şöhrət və inkişafının çox önəmli səhifələrini təşkil edir. Görkəmli rejissor, istedadlı aktyor uzun illər Dövlət İncəsənət İnstitutunda pedaqoji fəaliyyətlə də məşğul olub, yüzlərlə istedadli aktyor və rejissorun yetişməsində öz zəngin təcrübəsi, nümunəviliyi, intellekti ilə dövrünün ən şöhrətli, fenomenal müəllimi kimi tanınıb. Adil İsgəndərov öz sənət sahəsinin, daha doğrusu, sahələrinin universal bilicisi və bələdçisi olub. O, öz sənətinə möhkəm tellərlə bağlı bir sənətkar idi. Adil müəllimin Azərbaycan səhnəsi və kinosuna verdiyi bütöv bir püxtə nəsil - aktyor və rejissor kadrları "Adil İsgəndərov məktəbi" kimi şərəfli bir deyimlə də nəticələnib.

**11. Rəssam, heykəltəraş Fuad Əbdürrəhmanovun anadan olmasının 100 illiyi (1915-1971)**



**Əbdürəhmanov Fuad Həsən oğlu – heykəltaraş, Azərbaycan SSR Xalq Rəssamı (1956), Azərbaycan SSR-in Əməkdar İncəsənət Xadimi (1943), SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü (1949), Azərbaycan SSR-in Dövlət Mükafatı laureatı (1947, 1951).**

Fuad Əbdürəhmanov 1915-ci il may ayının 11-də Nuxada (indiki Şəki şəhəri) anadan olmuşdur. Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda (1929–1932) və İ.Y.Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (1935-1939) təhsil almışdır. 1942–1948 illərdə Ə. Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində dərs demişdir. Fuad Əbdürəhmanov yaradıcılığa portret janrı ilə başlamış, 30-cu illərdə Azərbaycan mədəniyyət xadimlərinin büst-portretlərini (Əbdürrəhimbəy Haqverdiyev, Mirzə Fətəli Axundov, Üzeyir Hacıbəyov, Asəf Zeynallı və b.), həmçinin "Atıcı" (1934), "Gənc aşıq" (1939) və ilk monumental əsəri olan Füzulinin heykəlini yaratmışdır. Sovet İttifaqı Qəhrəmanları G. Əsədovun, İ.Məmmədovun, Q. Məmmədovun, Cavanşir, Babək və Koroğlunun barelyeflərində obrazlar dərin psixologizmi və ifadəliliyi ilə seçilir. O, həm də mahir portret ustası kimi tanınmışdır. Səttar Bəhlulzadə (1947), R. Mustafayev (1947), Həzi Aslanov (qəbirüstü abidə, 1949), B. Bağırova (1951), Səməd Vurğun (1957), kubalı Xesus (1962) və başqalarının portretləri obrazların fərdi xüsusiyyəti, xarakterlərin dolğun həlli ilə səciyyələnir.Onun yaradıcılığında monumental heykəltəraşlıq mühüm yer tutmuşdur. Nizaminin Gəncədə və Bakıdakı abidələri Bakıda S. Vurğunun abidəsi və s. əsərləri Azərbaycan monumental heykəltəraşlığının ən yaxşı nümunələrindəndir. 1950-1960-cı illərdə yaratdığı "Çoban" (gips, 1950, Azərbaycan İncəsənət Muzeyi; tunc , 1951, Tretyakov qalereyası, Moskva), "Azərbaycanlı qadın" (gips, 1951), "Azadlıq" (tunc, 1957; hər ikisi Azərbaycan İncəsənət Muzeyi), "Azad qadın" və s. əsərlərində milli xüsüsiyyətlər zəngindir. Geniş yaradıcılıq diapazonuna malik olan Fuad Əbdürəhmanov elm və mədəniyyət xadimlərinin, həmçinin müharibə və əmək qəhrəmanlarının surətlərini canlandıran heykəl qalereyası yaratmışdır. Monqolustanın görkəmli dövlət xadimləri Suxe-Bator və marşal X. Çoybalsanın büst-abidələri (hər ikisi mərmər, 1954, MXR, Ulan-Bator), Rudəki (tunc, 1963), S. Ayninin (tunc, 1964) portretləri, Düşənbədə Rüdəkinin (tunc, qranit, 1964, memar M. Hüseynov; SSRİ Rəssamlıq Akademiyasının qızıl medalı), Buxarada İbn Sinanın abidələri və s. monumental əsərləri Fuad Əbdürrəhmanova şöhrət qazandırmışdır. Ömrünün son illərində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin monumental yaratmışdır.

**Mükafatları**

İki dəfə "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. Bakıda xatirə muzeyi vardır.

## 30. Aktyor, rejissor İsmayıl Əfəndiyevin anadan olmasının 105 illiyi (1910-1967)

*“Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.”*

**Ulu öndər Heydər Əliyev**



**İsmayıl Mahmud oğlu Əfəndiyev - görkəmli Azərbaycan aktyor və rejissoru, Azərbaycanın əməkdar incəsənət xadimi (1943). Azərbaycanın ilk peşəkar kino aktyorlarındandır. "Səbuhi", "Fətəli xan", "O olmasın, bu olsun" və s. filmlərdə çəkilmişdir. "Arşın mal alan" (1945) filmindəki Süleyman obrazı İsmayıl Əfəndiyevin ən yaxşı rollarındandır.**

İsmayıl Əfəndiyev əsilli-köklü şamaxılı olsa da, 1910-cu ildə Göyçayda dünyaya göz açıb. Bir müddət Gəncədə teatr sahəsində çalışdıqdan sonra, 1939-cu ildə kinostudiyada işə qəbul olunur. Burada ömrünün sonuna kimi müxtəlif vəzifələrdə çalışır. 1935-ci ildə rejissor A.M.Şərifzadənin "Məhəbbət oyunu" kinokomediyasında çəkilib, aşiq Səttar surətini yaradıb. Bundan sonra o, aktyor kimi "Yeni horizont", "Səbuhi", "Vətən oğlu", "Bəxtiyar", "Qara Daşlar", "Qızmar günəş altında", "Əmək və qızılgül", "İnsan məskən salır" və digər bədii filmlərdə müxtəlif obrazlar yaradıb. "Arşın mal alan"da Süleyman, "Fətəli xan"da Həmzə və "O olmasın, bu olsun"da Həsənqulu bəy filmləri aktyora şöhrət qazandırıb. Bundan başqa İ. Əfəndiyev "Bəxtiyar" bədii filmində ikinci rejissor işləyib, Ş.Şeyxovla birgə "Kölgələr sürünür" macəra filminə quruluş verib. O, eyni zamanda bir neçə sənədli film çəkib, 200-ə qədər xarici filmi Azərbaycan dilinə dublyaj edib.O, 1946-cı ildə Təbrizə gedir və bir neçə tamaşanı səhnəyə qoyur. 1967-ci ildə vəfat edib.

## Yubilyar yazıçı və şairlər

**Şair Molla Cumanın anadan olmasının 160 illiyi** (1855-1920)

***Molla Cümə incə zövqə malik, insanın daxili aləmini, ruhu hisslərini gözəl, təsirli ifadələrlə əks etdirməyə bacaran lirik bir şair olmuşdur.***



Klassik Azərbaycan şeiri və aşıq poeziyasının görkəmli nümayəndələrindən biri də Molla Cümədir. Molla Cümə həyatı, yaradıcılığı, poetik aləmi etibarilə olduqca maraqlı, ədəbiyyatımızda hələ də sirri açılmamış qalan "İsmi Pünhan"a həsr edilmiş bir-birindən gözəl şeirlərilə zəngin ədəbi irs qoyub gedən bir şəxsiyyət olmuşdur. Onun irsinin öyrənilməsinə gec başlanmış, xalq yaddaşında yaşayan yüzlərlə şeiri itib-batmışdır. Molla Cümə irsini filologiya elmləri doktoru, professor Paşa Əfəndiyev araşdırmışdır. Professor altmışıncı illərdə bir neçə dəfə Şəki, Qax, Zaqatala, Balakən rayonlarının kəndlərinə getmiş, ayrı-ayrı şəxslərdən aşığın şeirlərindən ibarət əlyazmalar əldə etmişdir. O, qocalarla, aşıq sənətini sevən insanlarla görüşmüş, söhbət aparmış, onların dilindən çoxlu şeirlər, xatirələr yazmışdır. Bu axtarışlardan sonra, 1966-cı ildə Paşa Əfəndiyevin toplayıb-tərtib etdiyi birinci "Molla Cümə" şeirlər kitabi işıq üzü görmüş, 1983-cü ildə ikinci "Molla Cümə" - "Seçilmiş əsərlər" kitabı nəşr olunmuşdur. Bu, professorun Molla Cümə irsinə verdiyi yüksək qiymətin bəhrəsi, folklor araşdırıcısı alimin şairin yaradıcılığına xüsusi diqqəti idi desək, yəqin ki, səhv etmərik.Bu şeirlə Molla Cümənin doğulduğu tarix təxminən 1854-cü il sayıla bilər. Molla Cümənin əsil adı Süleymandır. Cümə adını isə o şairliyə başladığı vaxt təxəllüs götürmüşdür. O, ilk təhsilini Aşağı Göynük kəndində, Hacı İbrahim Əfəndinin mədrəsəsində almış, az müddətdə ərəb, fars dillərini də öyrənmişdir. Şairlik istedadı, şeirə-yaradıcılığa həvəsi Molla Cüməni mədrəsədən erkən ayırmışdır. Azərbaycan klassiklərini, aşıq yaradıcılığını öyrənməsi Molla Cümənin gözəl bir sənətkar kimi yetişməsində böyük rol oynamışdır.

Molla Cümənin atası Saleh kişi əkinçiliklə məşğul olmuşdur. Şair də kiçik yaşlarından etibarən bütün yaşıdları kimi, təsərrüfat işlərində atasına kömək göstərmişdir. Təbiət vurğunu olan kiçik Cümə sinədən şeir qoşmağa başlamışdır. Təbii istedada malik olan uşaq dövrünün tanınmış sənətkarları səviyyəsinə yüksələ bilmişdir. Molla Cümə ömrünün sonuna qədər əkinçi olmuşdur. O, Qax, Zaqatala, Balakən varlılarının zəmisində biçin biçmiş və qazandığı zəhmət haqqı ilə ailəsini dolandırmışdır. Qızı Reyhanın dediyi kimi, Molla Cümənin əlindən oraq və yaba ölüncə düşməmişdir.

Molla Cümənin ölümü də qaranlıqdır. O, öz əcəli ilə ölməmiş, "guya" onu səhvən güllə ilə vurmuşlar. "Nuxa fəhləsi" qəzeti Molla Cümənin ölümü haqqında belə bir qeyd vermişdir ki, 1920-ci ilin may ayının əvvəllərində XI Qızıl Ordunun

hissələri Nuxadan Zaqatalaya gedərkən, bu yolun ətrafındakı kəndlərin varlıları orduya müqavimət göstərmək fikrinə düşürlər. Atışma zamanı bir çox yoxsul ordu ilə onlara qarşı çıxanların arasında qalır. Molla Cüməyə və digər yoxsul kəndlilərə güllə dəyir. Lakin güllənin "səhvən" və ya "qəsdən" olması bəlli olmamışdır. Belə ki, bölgələrdə Sovet hökumətinə, sovetləşməyə qarşı qalxan xalq üsyanlarını yatırmağa gedən qoşun hissələri "cəza dəstələri"nin içində son dövr tarixi materiallarından göründüyü kimi, çoxlu sayda erməni olmuşdur. Lazım gəldi-gəlmədi günahsız xalqa divan tutan bu dəstələr bir çox ziyalının, elm-maaarif fədaisinin qanına bais olmuşdur. Fikrimizcə Molla Cümənin də ölümü bu qəbildəndir. XI Qızıl Ordunun Azərbaycana vurduğu mənəvi zərər-Molla Cümənin guya ki "səhvən öldürülməsi" yeganə hal deyildi. Və onu da yaddan çıxarmaq olmaz ki, heç XI Qızıl Ordu da kiçik bir "ordu", kiçik bir qurum deyildi. Neçə-neçə Molla Cümələr, neçə-neçə dəyərli sənətkar və ziyalı bu ordunun, ordu strukturlarının əlilə məhv edilmiş, millətimin başı qapazlı qalmışdır.

Molla Cümənin əksər şeirləri "İsmi Pünhan" adına müraciət ilə başlanır. Çoxlu sayda şeirlər ona həsr olunmuşdur. Şeirlərdən belə aydın olur ki, Molla Cümə gözəl bir qıza aşiq olmuş və onun adını gizli olaraq "İsmi Pünhan" adlandırmışdır. Şairin həyatını araşdıranda belə təsəvvür yaranır ki, o varlı bir adamın qızına aşiq olmuş və onun adını gizli saxlamağa məcbur olmuşdur. Molla Cümə Azərbaycan aşıq yaradıcılığının, xalq şeirinin bütün şəkillərindən səmərəli istifadə etmiş, çoxlu sayda əsərlər qoyub getmişdir. Onun yaradıcılığında istifadə etdiyi aşıq şeiri nümunələrindən qoşma, gəraylı, divani, təcnis, cığalı təcnis, hərf üstə təcnis, yedəkləmə təcnis, sallama qafiyə, əvvəl-axır, əlifləmə, bayatı, müxəmməs, bağlama, deyişmə, ustadnamə, hərbə-zorba, həcv, dastan və s. göstərmək olar.

Molla Cümənin "Səyyad və Səyalı", "Molla Cümə və aşıq Köplü" dastanları aşıq ədəbiyyatı üçün qiymətli sənət nümunələridir.

Qədir allah, nesə bədbəxt yarandım,
Düşüb dildən-dilə çağrılan canım.
Ah-vaynan günüm qara keçibdir,
Cəfası illərə sürülən canım.

Molla Cümə irsi öyrənilməli və qorunub saxlanılmalıdır. Şairin ədəbi irsində hələ də öyrənilməli, araşdırılmalı məqamlar çoxdur və öz tədqiqatçısını gözləməkdədir.

**Ədəbiyyatşünas, şair Əkrəm Cəfərin anadan olmasının 110 illiyi (1905-1991)**



**O, hər türkoloq-alimə nəsib olmayan bir ömür yaşayıb. 1932-ci ildə Moskva Dövlət Universitetini, 1934-cü ildə aspiranturanı bitirib, görkəmli türkoloq-alim, akademik A.N.Samoyloviçin rəhbərliyi ilə "XX əsr Azərbaycan ədəbi dilinin inkişaf mərhələləri (1905-1936-cı illər)" adlı namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.**

Azərbaycan ədəbiyyatı tarixində, şərqşünaslıq və dilçilik elmində ustad Əkrəm Cəfər dəst-xəttinin təsdiqlənməsi, bu sahənin korifeylərindən birinə çevrilməsi heç də təsadüfi deyil. Sözün əsl mənasında nazını çəkən, cəfasına dözən, əlində qələm tutduğu vaxtlarda ruhu ilə qoşalaşan Əkrəm Cəfər coşqun və poetik nitqin zirvəsindən boylandı. Əkrəm Cəfər təkcə sözün əsgərinə, sərkərdəsinə çevrilmədi, həm də onun poeziya zirvəsinə aparan yollarına nur çilədi. Keçdiyi əzablı, məşəqqətli yollar onun xarakterində əzmkarlıq, bütövlük, həmçinin bir nuranilik də formalaşdırdı. Yaşadıqları onu yaşamağa macal verməsə də, o, Sözün yaşamasını, klassik şeir növü kimi heç də həmişə anlaşlıqlı olmayan əruzun incəliklərini incələdi. Beləliklə, Əkrəm Cəfər özünün söz-sənət məktəbini yaratmış oldu. Əkrəm Cəfəri – XX əsrin dahi əruzşünas alimini, bu vəznin incəliklərini duymaq, anlamaq və tədqiq etmək üçün Hüseyn Cavidin yaradıcılığına baş vurması, türk dünyasının, xüsusən də Şərqin klassiklərini dərindən mütaliə etməsi onu ədəbiyyat və incəsənət aşiqinə çevirdi.

İsmayıllının Lahıc kəndində dünyaya gələn, ibtidai təhsilini mollaxanada alaraq "Qurani-Kərim"i xətm edən, Sədi Şirazinin "Gülüstan" və "Bustan" əsərlərini mənimsəyən balaca Əkrəmin ərəb, fars və türk dillərinə yiyələnərək, on beş yaşında Darülmüəlliminə (Bakı Pedaqoji Məktəb) daxil olaraq dahi Hüseyn Cavidlə ata-oğul qədər yaxın olmaq şərəfinə çatması və onun sevimli tələbəsinə çevrilməsi, çoxlarına qismət olmayan bu xoşbəxtlik, tale yollarına yazılanlardan idi. Pedaqoji məktəbi bitirdikdən sonra dörd il Lənkəran və Qazaxda ədəbiyyat müəllimi işləyən Əkrəm Cəfər 1929-cu ildə S. Vurğun və O. Sarıvəlli ilə birlikdə Moskva Dövlət Universitetinin dil və ədəbiyyat fakültəsinə daxil olub.

Maraqlıdır, Əkrəm Cəfər Kremldə də çalışıb. 1932-34-cü illərdə dünya şöhrətli dilşünas, akademik N.Y.Marrın Moskva mühazirələrinin elmi katibi olmuş Əkrəm Cəfər, o vaxtkı sovet hakimiyyəti dairələrində elmi biliyi yüksək qiymətləndirildiyindən, Kremldə işləməyə dəvət olunub. Əkrəm Cəfər 1937-ci ildə nüfuzlu bir alim kimi Bakıya qayıdıb və Azərbaycan Pedaqoji İnstitutunda kafedra müdiri vəzifəsinə təyin edilib…

Bütün varlığı ilə türkçülük, islamçılıq, millətçilik, vətənçilik ideyalarına bağlı olan, müxtəlif təzyiqlərə baxmayaraq, əqidəsindən dönməyən Ə.Cəfər 1942-ci ilin sentyabr ayında həbsə məhkum olunub, məhkəməsiz Kuybışevə katorqaya

göndərilib. Məsləkdaşları olan Hüseyn Cavidə, Əhməd Cavada, Mikayıl Müşfiqə, Həmid bəy Şaxtaxtinskiyə pərəstiş etməsi, antisovet ideologiyasının daşıyıcılarından biri kimi onun sonrakı taleyini Vətəndən uzaqlarda, Krım çöllərində keçirməsi iradəsi poladdan olan Əkrəm Cəfəri sındıra bilməyib və elə buna görə də o, 1949-cu ildə həbsdən çıxdıqdan sonra 1954-cü ilədək Türkmənistanda çalışıb, tələbələrinə “Qurani-Kərim”i türkməncə anladıb. Əkrəm Cəfərin ömrünün doğma Azərbaycanı ilə bağlı illərinə nəzər saldıqda qürur hissi keçirməyə bilmirsən. 1940-cı ildə namizədlik, 1969-cu ildə isə doktorluq dissertasiyasını müdafiə edən Əkrəm Cəfər sıradan bir alim deyildi. O, Şərq və Azərbaycan ədəbiyyatşünaslığına, dilçiliyinə və türkologiyaya həsr olunmuş 230-dan artıq əsərin və neçə-neçə monoqrafiyanın müəllifidir. Yetirmələrinin sayı on min nəfərdən artıq olan Ə.Cəfərin minlərlə şərqşünas, musiqişünas, folklorşünas alimin elmin sirlərinə yiyələnməsində göstərdiyi xidmətlər öz dəyərini doğma xalqı tərəfindən aldığı kimi, dövlət də onun əməyini yüksək qiymətləndirib. Şərq aləminin görkəmli filosof və şairlərindən olan N.Gəncəvi, Ə.Xaqani, M.Füzuli, İ.Nəsimi, S.Şirazi, H.Şirazi, T.Fikrət, M.Ə.Sabir, H.Cavid, Ö.Xəyyam kimi dühaları, ziyaları ilə bəşəriyyətə nur saçanların əsərlərinə şərhlər, izahlar yazan Əkrəm Cəfər hələ Moskvada işləyərkən SSRİ-nin ən nüfuzlu elmi-tarixi nəşri olan “Bolşaya Sovetskaya Ensiklopediya”nın ayrı-ayrı cildlərində Türk dünyasının böyük şəxsiyyətləri barədə məqalələrini dərc etdirmək imkanı qazanıb, həmçinin “Azərbaycan Sovet Ensiklopediyası”nın əsas, aparıcı müəlliflərindən biri olub.
Ə.Cəfər poliqlot alim idi: O, 8 dildə sərbəst danışır və yazırdı. Ömər Xəyyamın rübailərini ilk dəfə öz vəznində tərcümə edərək 1984-cü ildə kitab halında buraxdırıb.1982-ci ildə dahi H.Cavidin anadan olmasının 100 illiyi münasibətilə şairin əsərlərinin külliyyatının nəşrə hazırlanması işi Heydər Əliyevin (mərhum prezident) şəxsi təşəbbüsü ilə məhz Əkrəm Cəfərə tapşırılır. Əlbəttə, Əkrəm Cəfərin Azərbaycan və ümumiyyətlə, Türk ədəbiyyatına, Şərq poeziyasına göstərdiyi tükənməz məhəbbət, azalmayan sevgi onun adını şərəflə yaşadacaq. Tükənməz həyat eşqinə, geniş yaradıcılıq diapazonuna, fenomenal hafizəyə, dərin ensiklopedik biliyə, güclü iradəyə, qeyri-adi zəkaya malik olan Əkrəm Cəfər ötən əsrin təkcə elm tarixinə deyil, ədəbi aləminə də əruzşünas alim kimi daxil edilib. Onun 20 illik gərgin axtarışlarının məhsulu olan “Əruz elminin Quranı” adlandırılan “Əruzun nəzəri əsasları və Azərbaycan əruzu (ərəb, fars, tacik, türk və özbək əruzları ilə müqayisədə)” ensiklopedik monoqrafiyası bu gün analoqu olmayan bir əsər kimi qiymətləndirilir. Alim, əlbəttə, bu elmi traktatı ilə müqayisəli əruzşünaslıq elminin (yəni altı xalqın poetikası) binasının özülünü qoyaraq, Azərbaycan Milli Əruzşünaslıq Məktəbini yaradıb. Şərqdə, eləcə də Qərbdə haqqında on dörd dildə məlumat yayılan Əkrəm Cəfər yaradıcılığı doğma xalqının ədibləri, şair və yazıçıları, elm xadimləri tərəfindən də daim yüksək qiymətləndirilib. Xalq şairi Bəxtiyar Vahabzadənin “Əkrəm Cəfər dünyası” adlı xatirə yazısından sətirlərə diqqət yetirmək yerinə düşərdi: “Böyük ustad Əkrəm Cəfərlə Azərbaycan Dövlət Universitetində oxuyarkən tanış oldum. O, həddən artıq dərin düşüncəli bir insan idi. Özü də emosional adam idi. Bəzən ürəkdən

danışanda ağlayırdı… Mühazirələrini böyük maraqla dinləyirdim. Əkrəm Cəfər Vətənini, millətini dəlicəsinə sevən, vətənpərvər bir şəxsiyyət idi". Əkrəm Cəfərin alim ömründən, bədii və elmi təfəkküründən qalan yadigarlar dəyərinə və zənginliyinə görə uzun illər araşdırılacaqdır. Onun "Əruz" kitabının II cildi olan "XIII-XX əsrlər Azərbaycan şeirində əruz və əkrəmi vəznləri" adlı monoqrafiyası da var. Şərq ədəbiyyatşünaslığı tarixində ilk dəfə yaradılan qafiyə lüğəti, yəni "Mirzə Ələkbər Sabir şeirinin qafiyə lüğəti" adlı tədqiqat əsəri 2006-cı ildə oğlu Sokrat Cəfər tərəfindən nəşr edilib. Əlyazma şəklində olan "İran və türkdilli xalqlarda rübai: tarix, nəzəriyyə və praktika" monoqrafiyası, alimin məşəqqətli həyatını özündə əks etdirən və repressiya dövrünün vəhşətlərini göz önünə gətirən irihəcmli "Cəlladnamə", Azərbaycan qafiyəşünaslığına həsr edilən "Qafiyənin nəzəri əsasları və Azərbaycan şeirində qafiyə" irihəcmli kitabı, "Şərq poetikasının izahlı terminləri lüğəti", 40 illik zehni və fiziki əməyinin bəhrəsi kimi əldə qalan 400-ə qədər elmi-ədəbi mənbə və məxəzlər əsasında yaratdığı 3 min Azərbaycan, 5 min türk, 7 min fars-tacik şair, yazıçı və ədəbiyyatşünasına həsr etdiyi "Ədəbiyyat ensiklopediyası" qorunub saxlanan yadigarlarındandır.

Arzularının çiçək açanı ömrünü nurlandıran, çalışmaqdan yorulmayan, usanmayan, poetik düşüncələri ilə elmi təfəkkürünü qoşalaşdıran alim, şair, elm fədaisi, professor Əkrəm Cəfər gördüklərini görəcəklərinin mində biri sayaraq, Azərbaycan ədəbiyyatının xəritəsini cızmaq istəyində və həvəsində idi. Ona görə də "Mən bədinin də, bəyanın da nəzəri əsaslarını yaradacağam", deyirdi. Bu gün də İranda, Türkiyədə, və digər Şərq ölkələrində elmi-ədəbi yaradıcılığı məktəb kimi qəbul olunan Əkrəm Cəfər Poetika İnstitutu da yaratmaq istəyirdi və belə arzuları çox idi… Bədii obrazı görkəmli yazıçımız Əlibala Hacızadənin "Vəfalım mənim" romanında yaradılan Əkrəm Cəfərin ömrü örnək, sənəti və sənətkarlığı unudulmaz korifeylərimizdəndir. 18 avqust 1991 - Görkəmli dilçi və ədəbiyyatşünas, şair, tərcüməçi, pedaqoq Əkrəm Cəfər (Əkrəm Səftər oğlu Cəfərov, 5.5.1905 - 1991) vəfat edib.

**"Dilşünaslıq elementləri", "Müasir Azərbaycan dili oçerkləri" kitablarının, bir çox elmi-tədqiqat əsərlərinin müəllifidir.**

## 5. Şair Ağa Laçınlının anadan olmasının 75 illiyi (1940 - 2007)



**Əliyev Ağa Əliqəmə oğlu (Ağa Laçınlı) — şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1969), filologiya elmləri namizədi.**

Ağa Laçınlı 1940-cı il may ayının 5-də Laçın rayonunun Oğuldərə kəndində anadan olub. 1963-1966-cı illərdə Maksim Qorki adına Moskva Ədəbiyyat İnstitunun poeziya fakültəsində təhsil alıb. 1966-1969-cu illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin şeir şöbəsində ədəbi işçi vəzifəsində çalışıb. 1969-1971-ci illərdə Yazıçılar İttifaqının Natəvan klubunun müdiri olub. 1966-cı ildə "Ümid" adlı ilk kitabı işıq üzü görüb. Sonralar "Sakitlik", "Sirli-soraqlı dağlar", "Aşırımlar qarşısında", "Vaxt yetişəndə", "Sevgimizlə sevindirək", "Meşə nəğməsi", "Gecə yuxusu", "Alın yazımız" və s. kitabları çapdan çıxıb. Ağa Laçınlı 1970-ci ildən Bakı Dövlət Universitetində çalışıb, "Dünya ədəbiyyatı" kafedrasının dosenti olub. 1980-ci ildə "Azərbaycan bayatılarının bədii xüsusiyyətləri" adlı namizədlik dissertasiyası müdafiə edərək alimlik dərəcəsi adına layiq görülüb. "Homer dastanlarında türkçülük" adlı doktorluq dissertasiyasını yekunlaşdırmışdı. Antik Yunan ədəbiyyatı üzrə mütəxəssis olan Ağa Laçınlı qədim şumer, antik yunan, qədim Roma, Çin, hind, eləcə də polyak, rus, vyetnam, slovak, yapon, koreya, argentina və başqa xalqların klassik poeziyasından seçmələri dilimizə çevirib. Türkiyə, Rusiya, Latviya, Litva, Estoniya, Gürcüstan və başqa ölkələrdə Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, elminə dair mühazirələr oxuyub. Ağa Laçınlının əsərləri Rusiyada, Fransada, Türkiyədə, ABŞ-da, Çində, Hindistanda, Polşada, Ukraynada, Belarusda, Gürcüstanda, Bolqarıstanda, İraqda və s. ölkələrdə çap edilib. Ağa Laçınlı 2007-ci il noyabrın 25-də Bakı şəhərində vəfat edib.

**Kitabları:**

Ümid. Bakı: Azərnəşr, 1966, 30 səh.
Sakitlik. Bakı: Azərnəşr, 1970, 60 səh.
Sirli-soraqlı dağlar. - Bakı: Gənclik, 1971. - 60 s.
Torpağın gücü. - Bakı: Gənclik, 1973. - 101 s.
Ana duyğusu. - Bakı: Gənclik, 1976. - 134 s.
Aşırımlar qarşısında. - Bakı: Yazıçı, 1978. - 132 s.
Vaxt yetişəndə. - Bakı: Gənclik, 1980. - 112 s.
Sevgimizlə sevindirək. - Bakı: Yazıçı, 1981. - 152 s.
Meşə nəğməsi. - Bakı: Gənclik, 1985. - 142 s.
Gecə yuxusu. - Bakı: Yazıçı, 1986. - 150 s.
Homer. - Bakı: ADU-nəşr, 1989. - 45 s.
Alın yazımız. - Bakı: Yazıçı, 1992. - 120 s.
Elmi əsərləri: "Azərbaycan bayatılarının bədii xüsusiyyətləri","Homer dastanlarında türkçülük".

## 5.Yazıçı Yusif Kərimovun anadan olmasının 75 illiyi (1940)



**Kərimov Yusif Abbas oğlu - nasir, publisist, 1978-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1963), "Yaddaş" milli mükafatı laureatı (2004), "Qızıl qələm" mükafatı laureatı (1975).**

Yusif Kərimov 1940-cı il mayın 5-də Bərdə şəhərində anadan olmuşdur. Burada 1 saylı orta məktəbi bitirdikdən sonra ADU-nun jurnalistika fakültəsində təhsil almışdır (1957-1962). "Bakı" axşam qəzeti redaksiyasında şöbə müdiri (1964-1973), Azərbaycan televiziyasının gənclər üçün proqram Baş redaksiyasında şöbə müdiri, baş redaktor (1973-1978) işləmişdir. "Azərbaycan gəncləri" qəzetinin redaktoru olmuşdur (1981-1995). Mərkəzi seçki komissiyasının mətbuat katibi (1995-1997), Azərbaycan Respublikası Ticarət Nazirliyi Mətbuat Xidmətinin rəhbəri (1997-2001) işləmişdir. Hazırda İqtisadi İnkişaf Nazirliyində mütəxəssis vəzifəsində çalışır (2001-ci ildən). Azərbaycan Yazıçılar İttifaqı Təftiş komissiyasının sədri (1986), Respublika Jurnalistlər Birliyinin sədr müavini (1987-ci ildən) seçilmişdir. Hazırda Azərbaycan Gənclər İttifaqının büro üzvüdür (1991-ci ildən). Azərbaycan gənclərinin rəsmi nümayəndə heyəti tərkibində keçmiş Yuqoslaviya Federativ Sosialist Respublikasında olmuşdur (1982). Avropa və Şərq ölkələrinə rəsmi səfərlər etmişdir (1980-1990).

**Əsərləri:**

1. Yollar... Axtarışlar... - Bakı: Gənclik, 1969. - 86 s.
2. Bir buta gül. - Bakı: Gənclik, 1972. - 48 s.
3. Tavridada şimşək çaxır. - Bakı: Gənclik, 1977. - 223 s.
4. Üçbucaq. - Bakı: Gənclik, 1979. - 275 s.
5. Gün ötər, geri dönməz. - Bakı: Gənclik, 1984. - 375 s.
6. Qırmızı sahil. - Bakı: Yazıçı, 1988. - 395 s.
7. Lalə və kəpənək. - Bakı: Gənclik, 1994. - 20 s.
8. Pərişan eşqim.- Bakı: Zaman, 1998. - 504 s.
9. İtkilər və ümidlər. - Bakı: Şans, 1999. - 706 s.
10. İçimə açılan pəncərə. - Bakı: Elm və həyat, 2003. - 220 s.
11. Qarabağ şikəstəsi. - Bakı: Azərbaycan, 2003. - 223 s.

Filmoqrafiya:

1. Torpağın mahnısı (film, 1980)
2. Mətbuat fədaisi (film, 2007)

## 5. Yazıçı Həsən Mehdiyevin anadan olmasının 90 illiyi (1925 -2001)



**Mehdiyev Həsən Musa oğlu nasir, publisist, 1968 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

1925 - ci il mayın 5- də Naxçıvanın Babək rayonunun Yeniyol kəndində anadan olmuşdur. Naxçıvan pedoqoji texnikumunu bitirdikdən sonra müəllim işləmişdir(1941-1942). İkinci Dünya müharibəsi dövründə 360-cı Nevelsk - Polotsk atıcı diviziyasının tərkibində ön cəbhədə döyüşlərdə olmuşdur: iki dəfə ağır yaralanmışdır. Ordudan tərxis ediləndən sonra Şahbuz rayon icraiyyə komitəsində işlər müdiri, Naxçıvan rayon komsomol komitəsinin katibi, Bakıda ikiillik partiya məktəbinin müdavimi olmuş, Naxçıvan Nazirlər Soveti və Vilayət partiya Komitəsində çalışmışdır. Bakıya köçəndən sonra Azərbaycan Baş Mətbuat İdarəsində baş redaktor, şöbə müdiri, Azərnəşrdə bədii ədəbiyyat şöbəsində redaksiya müdiri (1967-1972), Azərbaycan SSR “Bilik” cəmiyyətində baş referent (1972 – 1975) vəzifələrində çalışmışdır. “Elm və həyat” jurnalında baş redaktor işləmişdir. (1975-19930. Ədəbi fəaliyyətə 1958-ci ildə “Azərbaycan qadını” jurnalında çap olunan “Sevgi rapsodiyası” hekayəsi ilə başlamışdı. Dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. Son əsəri “Dünyamı qaytar mənə” romanıdır(1989). 2001-ci il avqustun 21-də Bakı şəhərində vəfat etmişdir.

**Əsərləri:** “Naxçıvan” (1959), “Ovçu Səməndərin hekayələri” (1960), “Keçi, quzu, dana” (1961), “Sevgi rapsodiyası” (1969), “Əlvida demədik” (1969), “Mənim Gülgəz bacım” (1971), “Foto – poeziya” (1975), “Dağ çiçəyi” (1980), “Oxşar talelər” (1982), “Sənsiz keçən günlərim” (1985) və s.

## 8. Ədəbiyyatşünas, tənqidçi, şair Cəfər Xəndanın anadan olmasının 105 illiyi (1910-1961)



**Hacıyev Cəfər Zeynal oğlu – şair, tənqidçi, ədəbiyyatşünas, 1938-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1948), professor (1949)**

Cəfər Xəndan 1910-cu il mayın 8-də İrəvan şəhərində müəllim ailəsində doğulmuşdur. 1918-ci ildə ailəsi Gəncəyə köçmüş, ata-anası burada öldüyündən kimsəsiz qalan kiçik qardaş və bacısı ilə Gəncə uşaq evində yaşamışdır (1925-ci ilədək). Gəncə Pedaqoji texnikumunu bitirmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş, həm də fəhlə fakültəsində müəllimlik (1925-1929) etmişdir. İnstitutun dil və ədəbiyyat fakültəsini bitirdikdən sonra aspiranturaya daxil olmuş, eyni zamanda institutun ədəbiyyat kafedrasının assistenti, sonra dosenti kimi fəaliyyət göstərmişdir (1932-1941). M.F.Axundov adına Müəllimlər İnstitutunun dil və ədəbiyyat fakültəsinin dekanı,

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kafedra müdiri, Azərbaycan Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri, həm də Azərbaycan Yazıçılar İttifaqında təşkilat katibi, "Allahsız" jurnalının, "Ədəbiyyat qəzeti"nin məsul katibi, "Gənc işçi" redaksiyasında ədəbiyyat şöbəsinin müdiri vəzifələrində işləmişdir. Dissertasiya müdafiə edib filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır (1939). 1941-ci ildə səfərbərliyə alınmış, sovet ordusu tərkibində siyasi rəhbər və jurnalist kimi alman işğalçılarına qarşı vuruşmuşdur. O, Cənub-Qərb, Şimali Qafqaz, Zaqafqaziya cəhbələrində siyasi şöbənin baş təlimatçısı, cəbhə qəzetlərində ("Vo slavu Rodinı", "Vpered k pobede", "Boets RKKA", "Vətən yolunda") məsul redaktorun müavini olmuşdur (1944-1946).

**Nəaliyyət və mükafatları**

Ordu sıralarından tərxis olunandan sonra Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında dosent, eyni zamanda "Kommunist" qəzetində mədəniyyət və məişət şöbəsinin müdiri (1946-1947) işləmişdir. Universitetdə filologiya fakültəsinin dekanı (1947-1950), sonra rektoru (1950-1954) işləmişdir. Yenidən Azərbaycan Dövlət Universitetinin sovet ədəbiyyatı kafedrasının müdiri (1954-1961) olmuşdur. "1906-1946-cı illərdə Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi və onun bədii ədəbiyyatda inikası" mövzusunda dissertasiya müdafiə edib doktorluq alimlik dərəcəsi almışdır.

"Qırmızı ulduz" (1942), "Qırmızı Əmək Bayrağı" (1946) ordenləri, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları, fəxri fərman və hədiyyələrlə mükafatlandırılmışdır. 1961-ci il avqustun 10-da Bakıda vəfat etmişdir. Bakı küçələrindən biri onun adını daşıyır.

**Əsərləri: “**Bəyaz gecələr” (1936), **“**Azərbaycan ədəbiyyatı “(sovet dövrü) (1939),
“Sabir : həyat və yaradıcılığı” (1940), “Cəbhə şerləri” (1942), “Qafqaz” (1942), “İlk ayrılıq” (1944), “Mübarizə yollarında” (1946), “Ədəbiyyat nəzəriyyəsi” (1948), “Təşviqatçı və bədii ədəbiyyat” (1950), “XX əsr Azərbaycan ədəbiyyatı” (1951), “Sovet ədəbiyyatı” : I hissə (1952), “Sovet ədəbiyyatı” : II hissə (1952),
“C.Cabbarlının həyat və yaradıcılığı” (1954), “XX əsr Azərbaycan ədəbiyyatı tarixi oçerkləri” (1955),”Mikayıl Müşfiq” (1956), “Molla Nəsrəddin” (1956),
“Ədəbiyyat nəzəriyyəsi” (1958), “Mir Cəlal” (1958), “Şairin həyatı” (1961),
“Sabir yaradıcılığında sənətkarlıq xüsusiyyətləri” (1962), “Ədəbi qeydlər” (1966), “Seçilmiş əsərləri” (1972), “Şairin həyatı” (1977), “Ədəbiyyatımızın dünəni və bu günü” (1980), “Şerlər” (1983),”Uğurlu yol” (1987) vəs.

**Tərcümələri**

Nizami Gəncəvi. Lirika. - Bakı: Azərnəşr, 1940. - 80 s.

Heyran xanım. Qəzəllər. - Bakı: Gənclik, 1975. - 60 s.

M.F.Axundov. Şərq poeması. – Bakı : Azərb.SSR EA nəşri, 1962. - 12 s.

**8. Ədəbiyyatşünas, tənqidçi Qara Namazovun anadan olmasının 85 illiyi (1930)**



**Qara Namazov — tənqidçi-ədəbiyyatşünas, Filologiya elmləri doktoru, Professor, AMEA Folklor İnstitutunun «Dədə Qorqud» ETL-in rəhbəri.**

Qara Mustafa oğlu Namazov 8 may 1930-cu ildə Qaraqoyunlu elinin İcevan rayonunun Əmirxeyir kəndində anadan olmuşdur. 1948-ci ildə Azərbaycanın Aqstafa rayonuna köçüb. 1949-1950–ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda təhsil almış, 1951-1955–ci illərdə sovet ordusunda xidmət keçmişdir. 1956-cı ildə Bakı Dövlət Universitetinə qəbul olmuş, 1961-ci ildə universitetin filologiya fakültəsini bitirmişdir. 1962-1967–ci illərdə AMEA Tarix institutunda kitabxana arxivinin müdiri, 1966-1970–ci illərdə ADU-nun Biblioqrafiya kafedrasında baş müəllim, 1971-2002–ci illərdə Müasir Azərbaycan ədəbiyyatı kafedrasında professor, 2002-2006–cı illərdə Filologiya fakültəsinin dekanı, 2002-2008-ci illərdə Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, 2001-ci ildən hal-hazıra qədər isə «Dədə Qorqud» Elmi Tədqiqat Laboratoriyasının rəhbəridir. Azərbaycan, Türkiyə, Türkmənistan, İsvec və digər ölkələrdə keçirilmiş beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir.1968-ci ildə "Aşıq şeirinin inkişafı tarixindən" adlı namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.1987-ci ildə "Azərbaycan uşaq və gənclik ədəbiyyatının inkişaf mərhələləri (1920-1980)" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. 1989-cu ildən professor adına layiq görülmüşdür. Pedaqoji fəaliyyətlə məşğul olmuş - 1966-cı ildən müasir Azərbaycan ədəbiyyatı, müasir Azərbaycan şeri, Azərbaycan uşaq ədəbiyyatı, Azərbaycan şifahi xalq ədəbiyyatı fənnlərindən dərs demişdir.

Azərbaycan şifahi xalq və aşıq yaradıcılığı, müasir və klassik Azərbaycan ədəbəyyatı onun tədqiqat sahəsidir. 10 monoqrafiyanın, 30 kitabın və 300 elmi-kütləvi əsərin müəllifidir. 20 elmlər namizədi yetişdirib.

**Əsərləri:**"Aşıq şeirinin inkişafı tarixindən" (1968), "Azərbaycan aşıq sənəti" (1984), "Aşıqlar" (I kitab:biblioqrafik məlumat) (2004), "Azərbaycan uşaq ədəbiyyatı antologiyası" (3 cilddə) (2004-2005), "S.Ə.Şirvani.Seçilmiş əsərləri" (3 cilddə) (2004-2005), "Xalq qəhrəmanının şöhrəti" (2005), "Azərbaycan uşaq ədəbiyyatı", (dərslik) (2007), "Müasir Azərbaycan ədəbiyyatı" (2007), "Gecikmiş nəğmələr" (2008), "C.Çörçvodun tarixi kəşfləri" (2010) və s.

**Məqalələri:** "Qüdrətli söz ustadı" (2006),"Dədə Qorqud boylarının izi ilə" (2006), "Molla Nəsrəddin və ədəbiyyat" (2006), "Dirsəxan oğlu Buğac" boyunun el variantı" "Böyük kimyaçı – qüdrətli şair" (2007), "Türk dünyasının xalq yaradıcılığı Şərqin İntibah ədəbiyyatıdır" (2007), "Mif, millət, ədəbiyyat" (2008), "Füzuli haqqında yapılan araşdırmalar" (2008), "Sözün sərrafı". Bizim söz qəzeti. № 2. 15 iyun 2009-cu il.

**11. Yazıçı, dramaturq Maqsud İbrahimbəyovun anadan olmasının 80 illiyi (1935)**



**İbrahimbəyov Maqsud Məmmədibrahim oğlu — nasir, kinodramaturq, rejissor, 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Dövlət mükafatı laureatı (1976), Azərbaycan Əməkdar İncəsənət xadimi (1979), "Qırmızı Əmək Bayrağı" ordeni (SSRİ) (1984), "Şöhrət" ordeni, "İstiqlal" ordeni (2005), "Dostluq" ordeni (Rusiya), "Roma Papası" ordeni laureatıdır. Azərbaycan Respublikasının xalq yazıçısı, Azərbaycan Respublikası Sülh Komitəsinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı (1995, 2000, 2005). Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədri, Luiziana (ABŞ) ştatının Fəxri senatoru, Minneapolis şəhərinin (ABŞ) Fəxri vətəndaşı, Azərbaycan Respublikası PEN - klubunun prezidenti.**

Maqsud İbrahimbəyov 1935-ci il mayın 11-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində təhsil almışdır (1955-1960). Bədii yaradıcılığa 1960-cı illərdən başlamışdır. Nasir, dramaturq, kinossenarist və rejissor kimi çoxcəhətli fəaliyyəti ilə SSRİ miqyasında tanınmışdır. Onun "Mezozoy əhvalatı" pyesi Mədəniyyət Nazirliyinin keçirdiyi ən yaxşı pyeslər müsabiqəsində birinci yeri tutmuşdur. "Mezozoy əhvalatı", "Bayquş gəlmədi", "Yay tətili", "Bütün yaxşılıqlar üçün - ölüm!", "Truskavetsə kim gedir?", "Sən nəğməmsən mənim", "Ona görə ki, mən Ayvar Lidakam" və s. ssenariləri əsasında filmlər çəkilmişdir.

"Qəza", "Bir az da sevinc", "Eşitmədiyim mahnı", "Qoy o bizimlə qalsın" və s. adlı kitabları Moskva nəşriyyatlarında kütləvi tirajla buraxılmışdır. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. "Bayquş gəlmədi" və "Bütün yaxşılıqlar üçün - ölüm!" əsərlərinə görə ona 1976-cı ildə Azərbaycan SSR Dövlət Mükafatı verilmişdir. Azərbaycan Penklubunun (beynəlxalq yazıçılar təşkilatının) sədridir. Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (Beynəlxalq əlaqələr üzrə katib) seçilmişdir (1991). Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Amerikanın Luiziana ştatının fəxri senatoru və Minneapolis şəhərinin fəxri vətəndaşı seçilmişdir.

**Əsərləri**: "Böyük şəhərin nağılları" (1985),"Bütün yaxşılıqlara ölüm" (1993) və s.

**Filmoqrafiya:** Aslan və iki öküz (film, 1970), Ayı və siçan (film, 1970), Azadlıq adasında (film, 1967), Azadlıq adasının elçiləri Azərbaycanda (film, 1968), Bakı qalası (film, 1973), Bakı. Müharibə illəri (film, 1985), Bayquş gələndə (film, 1978), Bir az da Bahar bayramı (film, 1979), Bir nəfər hamıya görə (film, 1989), Bizim Cəbiş müəllim (film, 1969), Böyük ömrün anları (film, 2006), De ki, məni sevirsən! (film, 1977), Ən vacib müsahibə (film, 1971),Günlərin bir günü (kinoalmanax, 1976), Heyif siqnalından (film, 1978). Məğlubedilməzlər (film, 1983) və s.

**12. Şair, tərcüməçi Abbas Abdullanın anadan olmasının 75 illiyi (1940)**



**Abdulla Abbas Hacaloğlu — şair, ədəbiyyatşünas, tərcüməçi, 1977-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1984), Ukraynanın Maksim Rılski adına ədəbi mükafatı laureatı (1984).**

Abbas Abdulla 1940-cı il mayın 12-də Gürcüstanın Bolnisi rayonunun Bolus Kəpənəkçisi kəndində anadan olmuşdur. ADU-nun filologiya fakültəsində qiyabi təhsil almışdır (1958-1963). Ədəbi fəaliyyətə "Öyün, vətənim!" adlı ilk şeiri 1957-ci ildə "Şərqin şəfəqi" (Tiflis) qəzetində çap ediləndən sonra başlamışdır. O, poetik yaradıcılığında bədii tərcüməyə xüsusi diqqət yetirir. İ.Draç, İ.P.Kotlyarevski, M.Rılski, T.Şevçenko, L.Ukrainka, L.Şapoval və digər sənətkarların əsərlərini Ukrayna dilindən tərcümə etmişdir.

26 Bakı komissarı adına rayon xalq deputatları Sovetinin deputatı seçilmişdir. Moskvada, gənc şairlərin Ümumittifaq poeziya festivalında, qardaş respublikalarda keçirilən poeziya bayramlarında, Ukraynada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti günlərində iştirak etmişdir.

Son illərdə Türkiyənin Bayburt şəhərində Dədə Qorqud konfranslarında, Elazığda ənənəvi Xəzər şeir axşamlarında milli ədəbiyyatı təmsil etmişdir. "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur (1980).

**Əsərləri**

Ata yurdu : şeirlər. – Bakı : Gənclik, 1970. - 48 s.
Ağlı-qaralı dünya : şeirlər. – Bakı : Gənclik, 1980. - 68 s.
Azərbaycan-Ukrayna ədəbi əlaqələri. – Bakı : Yazıçı, 1982. - 160 s.
Üzü dan yerinə : şeirlər və poemalar. – Bakı : Yazıçı, 1984. - 223 s.
Sonsuzluğa gedən karvan : şeirlər və poemalar. – Bakı : Yazıçı, 1988. - 155 s.
Erməni məsələsi və ya oğru elə bağırır doğrunun bağrı yarılır. - Bakı: Yurd, 2003. - 51 s.

**Tərcümələri**

(Ukrayna dilindən və ruscadan)

1. Draç İ. Könlümün harayı. – Bakı : Azərnəşr, 1968. - 86 s.
2. Leqkobit V. Hərə bir şəkil çəkir. – Bakı : Gənclik, 1972. - 12 s.
3. Kotlyarevski İ.P. Natalka Poltavka. – Bakı : Azərnəşr, 1973. - 59 s.
4. Rılski M.F. Yanğı : şeirlər və poema. – Bakı : Yazıçı, 1978. - 92 s.
5. Şapoval M. Son görüş. - Bakı: Gənclik, 1977. - 100 s.
6. Bayraq və günəş : Ukrayna sovet şairlərinin şeirləri. – Bakı : Yazıçı, 1978. - 270 s.
7. Şevçenko T. Fikirlərim, düşüncələrim : şeirlər və poemalar. – Bakı : Yazıçı, 1979. - 100 s.

**12.Yazıçı Bayram Həsənovun anadan olmasının 90 illiyi (1925-1979)**



1925-ci il mayın 12-də Qərbi Azərbaycanın Allahverdi rayonunun Böyük Ayrım kəndində kolxozçu ailəsində anadan olmuşdur. Kənd yeddiillik məktəbini əla qiymətlərlə bitirib Yerevan pedoqoji texnikumunun qiyabi şöbəsində təhsil almışdır. 1949-cu ildə APİ-nin dil və ədəbiyyat fakultəsinə daxil olmuş, 1953-cü ildə oranı bitirdikdən sonra Bakı məktəblərində müəllimlik etmiş, bu illərdə fəal bədii yaradıcılıqla məşğul olmuşdur. "Tufanda" adlı ilk hekayəsi 1954-cü ildə yazıçı Abdulla Şaiqin tövsiyəsi ilə "Pioner" jurnalında dərc olunmuşdur. "Şəkil", "Ayı ovu", "Ot biçini", "Qardaşlar" və s. hekayələri onu özünəməxsus uşaq yazıçısı kimi tanıtmışdır. 1958-ci ildə mətbuat sahəsində "Azərbaycan müəllimi", "Azərbaycan pioneri" qəzetlərində, "Göyərçin", "Azərbaycan" jurnallarında, "Gənclik" nəşriyyatında məsul işlərdə çalışmışdır. Moskvada M. Qorki adına Ədəbiyyat İnstitutunun nəsr bölməsində təhsil alıb qayıtdıqdan sonra (1971-1973) ömrünün sonunadək "Azərbaycan" jurnalında işləmişdir. Əsərləri SSRİ xalqları dillərinə tərcümə olunub yayılmışdır. 1979-cu il fevralın 28-də Bakı şəhərində vəfat etmişdir.
**Əsərləri:** "Qardaşlar" (1958), "İlk qar" (1962), "Səfər təxirə salındı" (1964), "İlk görüş" (1965), "Buzov" (1966), "Ayaz" (1969), "Qonşu" (1972), "Yaylaq" (1979), "Gəlirəm ana" (1983),"Yadigar" (1986), "Torpaq nağılı" (2004) və s.

**15. Yazıçı, dramaturq Altay Məmmədovun (Yusifoğlu) anadan olmasının 85 illiyi (1930-2003)**



**Məmmədov Altay Yusif oğlu – nasir, dramaturq, ədəbiyyatşünas, tərcüməçi, 1957-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1971), filologiya elmləri namizədi (1964), dosent (1965).**
Altay Yusifoğlu 1930-cu il mayın 15-də Gəncə şəhərində doğulmuşdur. Orada 4 saylı fəhlə-gənclər məktəbini bitirmiş, 1943-1949-cu illərdə saatsaz şagirdi, usta köməkçisi və usta peşələrində işləmişdir. Sonra H.Zərdabi adına Pedaqoji İnstitutun dil-ədəbiyyat fakültəsinə daxil olmuşdur (1949). Həmin institutu fərqlənmə diplomu ilə bitirmiş, Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş müəllim vəzifəsində saxlanmışdır.Tələbəlik dövründə "Kirovabad fəhləsi" qəzeti redaksiyasında korrektor, "Gəncə kommunisti" qəzeti redaksiyasında ədəbi işçi vəzifəsində çalışmışdır (1951-1953). Ədəbi fəaliyyətə 1950-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc edilən "Fəhləlikdən alimliyə" adlı oçerki ilə başlamışdır. Sonra kiçik hekayələri ilə diqqəti cəlb etmişdir. 1953-cü ilin mayından "Kirovabad

kommunisti" qəzeti redaksiyasında məsul katib (1955), Azərbaycan Yazıçılar İttifaqı Gəncə filialının sədri (1962), H.Zərdabi adına GDPİ-nin elmi işlər üzrə prorektoru (1970-1974), həmin institutun Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası kafedrasının dosenti (1974-2003) olmuşdur. Nizami poeziya teatrının bədii rəhbəri və tamaşaların müəllifidir.1959-cu ildən altı dəfə şəhər Xalq Deputatları Sovetinə deputat seçilmişdir. Azərbaycan Kommunist Partiyasının XXVII-XXX qurultaylarına nümayəndə seçilmişdir. Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin üzvü olmuşdur. Onun "Həmyerlilər", "Kişilər", "Yadındamı", "Ulduzlar görüşəndə" və b. dram əsərləri Azərbaycanda, eləcə də Rusiyada, Tacikistanda, Bolqarıstanda, Türkiyə və İranda tamaşaya qoyulub, bir sıra əsərləri ispan, ingilis, ərəb, fars, macar, eston, tacik dillərinə tərcümələrdə çap edilib. Onun "Dəli Domrul" əsəri əsasında Bakı Bələdiyyə Teatrının hazırladığı eyni adlı tamaşa İstanbulda keçirilən Kitabi-Dədə Qorqud günlərində uğurla nümayiş etdirilib və türk mətbuatı tərəfindən yüksək qiymət alıb.
Əbdüqəhhar İbrahimovun "İlk busə", Otar İoselianinin "Araba hələ aşmayıb", Vasili Şukşinin "Diribaş adamlar" pyeslərini rus dilindən azərbaycancaya çevirmişdir. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı (1980) və medallarla təltif olunmuşdur. 2003-cü il iyulun 15-də Gəncədə vəfat etmişdir.

**Əsərləri:**

1. On birinci açar. – Bakı : Gənclik, 1958. - 68 s.
2. İkinci məhəbbət. – Bakı : Gənclik, 1960. - 114 s.
3. Məhəbbət və gülüş. – Bakı : Azərnəşr, 1963. - 105 s.
4. Tökülən yarpaqlar. - Bakı : Azərnəşr, 1966. - 178 s.
5. Məhəbbətin səsi. – Bakı : Gənclik, 1968. - 94 s.
6. Gülab nəfəsli. – Bakı : Gənclik, 1970. - 154 s.
7. Azərbaycan ədəbiyyatında hekayə. H.Zərdabi adına KDPİ nəşri, 1970, 141 səh.
8. Əşrəf Yusifzadə. – Bakı : Azərnəşr, 1974. - 24 s.
9. Ələkbər Seyfi. – Bakı : İşıq, 1976. - 42 s. (Alp Ağamirovla birgə)
10. Hekayədə dini fanatizmin tənqidi. – Bakı : "Bilik" cəmiyyəti nəşriyyatı, 1977. – 55 s.
11. Yadigar bulaq. – Bakı : Azərnəşr, 1977. - 185 s.
12. Ulduzlar görüşəndə. – Bakı : Gənclik, 1979. - 201 s.
13. Dəli Domrul. – Bakı : Gənclik, 1981. - 361 s.
14. Əlvida, gözəl dünya : roman. – Bakı : Yazıçı, 1988. - 384 s.
15.Azərbaycan ədəbiyyatında hekayə : monoqrafiya. – Bakı : 1970.
17. Hekayədə dini fanatizmin tənqidi. – Bakı : Bilik, 1984.
18. Azərbaycan hekayəsi (monoqrafiya). – Bakı : Yazıçı, 1984.
19. Oğuz səltənəti. – Bakı : Azərnəşr, 1992.
20. Kəngərlər. – Bakı : Azərnəşr, 1996.
21. Qəlbinur poeziyası XXI əsrin astanasında. – Bakı : Gənclik, 1999.
23. Xatirələr işığında. – Bakı : Azərnəşr, 1999.
25. Heydər Əliyev və Gəncə : elmi publisistika. – Bakı : Qərb nəşriyyatı, 1999.

**15. Ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, Qəzənfər Əliyevin anadan olmasının 85 illiiyi (1930-1984)**



**1978-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1974), Türkmənistan Dövlət mükafatı laureatı (1980)**

ADU-nun (indiki BDU-nun) şərqşünaslıq fakültəsində oxumuş (1948-1953), sonra Moskvada keçmiş SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun aspiranturasına daxil olmuşdur. Orada məşhur şərqşünas alim, SSRİ EA-nın müxbir üzvü Yevgeni Bertelsin rəhbərliyi altında "Nizami Gəncəvinin "Xosrov və Şirin" və Əmir Xosrov Dəhləvinin "Şirin və Xosrov" poemalarının müqayisəli təhlili" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1958). 1974-cü ildə "Farsdilli ədəbiyyatın təşəkkülü problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1984-cü ilin aprel ayında Bakı şəhərində vəfat etmiş, Gəncədə dəfn olunmuşdur.Nizami məktəbinin tədqiqi təbii olaraq, alimin diqqətini farsdilli ədəbiyyatda Nizamidən sonra ilk "Xəmsə" yazmış böyük hind şairi Əmir Xosrov Dəhləviyə və bütövlükdə Hindistanın farsdilli ədəbiyatına yönəltmişdir. 1972-1979-cu illərdə Moskvada Əmir Xosrov Dəhləvi "Xəmsə"sinə daxil olan poemaların elmi-tənqidi mətnləri Qəzənfər Əliyevin bilavasitə iştirakı və redaktorluğu ilə çap olunmuş və Hindistanın özündə də yüksək qiymət almışdır. O, Əmir Xosrov Dəhləvinin "Həşt behişt" poeması və qəzəlləri ilə yanaşı, Baba Tahirin dübeytilərini, Əbülfeyz Feyzinin "Nəl və Dəmən" poemasını, Mirzə Əsədulla xan Qalibin şeirlərini və digər bədii nümunələri rus dilinə çevirmiş, onlara məzmunlu müqəddimələr və dəyərli şərhlər yazmışdır. Bundan əlavə, Azərbaycan atalar sözləri və təsnifləri də onun tərcüməsində rusdilli oxuculara çatdırılmışdır.1969-cu ildə Aşqabadda çap olunmuş "Türkmən şairi Bayram xan" adlı kitabı alimin elmi kəşfi sayılır. Moğollar dövrünün görkəmli dövlət xadimi və sərkərdəsi Bayram xan Baharlının bədii irsini üzə çıxarıb tədqiq etməklə, Qəzənfər Əliyev əslində türkmən ədəbiyyatının tarixini azı iki əsr əvvəldən başlamağa imkan yaratmışdır. Elə buna görə də o, çoxcildlik "Türkmən ədəbiyyatı tarixi"nin müəlliflərindən biri olmuş və bütün bu xidmətləri müqabilində 1980-ci ildə Türkmənistanın Dövlət Mükafatına layiq görülmüşdür.1981-ci ildə isə məşhur şərqşünas Aqafangel Krımskinin qırx il arxivdə yatıb qalan "Nizami və müasirləri" adlı çox qiymətli monoqrafiyası Q.Əliyevin ön sözü və redaktəsi (akademik Ziya Bünyadovla birlikdə) ilə Bakıda nəşr edilmişdir. Qəzənfər Əliyev həm də ikicildlik "Rusca-farsca lüğət"in tərtibçilərindən biri olmuşdur.

**Əsərləri:** “Leqenda o Xosrove i Şirin v literaturax narodov Vostoka” (1960), “Pervoyazıçnaya literatura İndii (1968), “Bayramxan – türkmenskiy poet” (1969), “Türkmən ədəbiyyatının tarixi (1975), “Amir Xosrov Dexlevi. Xosrov i Şirin” (1979), “Temi i syujeti Nizami v literaturax vostoka” (1984) və s.

**17.Yazıçı, dramaturq Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 145 illiyi (1870-1933)**

***"Ə. Haqverdiyev "Molla Nəsrəddin" məcmuəsinin ibtidasından... məcmuənin ən yaxın əməkdaşlarından hesab olunur."*** **Yazıçı C. Məmmədquluzadə**

***"Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan ədəbiyyatı tarixində dramaturq, nasir,teatr xadimi, istedadlı alim və mütərcim kimi məşhurdur. Onun ədəbi irsi ədəbiyyatımızın xəzinəsini zənginləşdirən qiymətli mirasdır. Xalqını mədəni, xoşbəxt və azad görmək arzusu Haqverdiyevin yaradıcılığında mərkəzi yerlərdən birini tutur."***

**Filologiya elmləri namizədi Əbdül Əzizov.**



**Əbdürrəhim bəy Haqverdiyev (17 may 1870, Şuşa – 17 dekabr 1933, Bakı) — görkəmli Azərbaycan yazıçısı, dramaturq, pedaqoq, ədəbiyyatşünas, əməkdar incəsənət xadimi (1932).**

1870-ci il mayın 17-də Azərbaycanın Şuşa şəhəri yaxınlığında olan Ağbulaq kəndində anadan olmuşdur. İbtidai təhsilini 1880-ci ildə Şuşada Yusif bəyin müvəqqəti yay məktəbində, sonra Şuşa realnı məktəbində almışdır (1881-1890). Tiflis realnı məktəbini bitirəndən sonra Peterburq Yol Mühəndisləri İnstitutunda təhsil almışdır (1891-1899). Tələbəlik dövri azad müdavim sifətilə universitetin şərq fakültəsinin dinləyicisi olmuşdur. Onda ədəbiyyata güclü meyl oyanmışdır. "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) və "Dağılan tifaq" (1896) əsərlərini yazmışdır. "Dağılan tifaq" (1899) Peterburqda nəşr edilmişdir. Ali təhsil alıb Şuşaya qayıtmış, burada tamaşalar təşkil etmişdir. Bakıda onun rəhbərliyi ilə Şərq konsertləri verilmişdir (1902-1903), Burada ilk hekayələrini ("Ata və oğul", "Ayın şahidliyi") yazıb "İki hekayət" adı ilə çap etdirmişdir. 1905-ci il inqilabından sonra Rusiya Dövlət Dumasına Gəncə quberniyasından nümayəndə seçilmiş, Peterburqa getmişdir (Azərbaycanın birinci diplomatlarından hesab olunur), burada dövlət kitabxanasında yeni əsərinə (Ağa Məhəmməd şah Qaçar) materiallar toplamış, İrana - Mazandaran vilayətinə səyahət etmişdir (1907). "Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulduğu zaman ilk Azərbaycan dirijoru kimi xor və orkestri, tamaşanı idarə etmişdir. "Nicat" cəmiyyətində və Kür-Xəzər gəmiçiliyi idarəsində işlədiyi dövrdə Zaqafqaziyanı, Dağıstanı, Orta Asiyanı və Volqaboyunu səyahət etmiş, "Ceyranəli", "Xortdan". "Həkimi-nuni-səqir", "Lağlağı", "Mozalan", "Süpürkəsaqqal" və s imzalarla "Molla Nəsrəddin" jurnalında hekayə, felyeton çap etdirmişdir. Həştərxanda yaşadığı müddətdə şəhərin mədəni-ictimai həyatında ciddi çalışmışdır (1910). Sonra Ağdama köçüb orada yaşamışdır (1911-1915). Tiflisdə "Şəhərlər ittifaqının Qafqaz şöbəsi xəbərləri" adlı aylıq məcmuənin müdiri olmuş (1916-1917), fevral inqilabından sonra Tiflis İcraiyyə Komitəsinə və onun mərkəzi şurasına üzv seçilmişdir (1917).

Həmin ilin martında Borçalı qəzasına müvəkkil təyin olunmuşdur (1918). Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonda dövlət teatrlarına müfəttiş təyin olunmuşdur. Azərbaycan milli teatrının yaranmasının 50 illiyi münasibəti ilə keçirilən yubileyə başçılıq etmişdir. Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxumuş, elmi kadrların hazırlanmasında iştirak etmişdir. Burada yerli komitənin sədri (1922), Azərbaycanı tədqiq və təbliğ cəmiyyətinin sədr müavini və sonra sədri (1923-1925) olmuşdur. Bu, ilk elmi-tədqiqat müəssisəsi idi. Bakıda çağırılan birinci Azərbaycan ölkəşünaslıq qurultayının nümayəndəsi kimi fəal çalışmışdır (1924).
Rusiya Elmlər Akademiyasının nəzdində olan ölkəşünaslıq bürosunun beşinci elmi sessiyasında yekdilliklə akademiyanın ölkəşünaslıq bürosuna müxbir üzv seçilmişdir (1924). Şərq fakültəsinin katibi (1922-1925), Azərbaycan Yazıçılar İttifaqının məsul katibi (1931-1932) olmuşdur. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Fəxri Fərmanına layiq görülmüşdür (1933). Bədii tərcümə ilə ardıcıl məşğul olmuşdur. Rus, erməni və Qərbi Avropa ədəbiyyatından bir sıra qiymətli tərcümələr etmişdir. Onun əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. 1933-cü il dekabrın 11-də Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur. Əbdürəhim bəy Haqverdiyev ədəbi fəaliyyətə Şuşa real məktəbində oxudugu zaman başlamış, M.F. Axundzadənin təsiri ilə "Hacı Daşdəmir" adlı kiçik bir pyes yazmışdır. Peterburqda təhsil alarkən onun bədii yaradıcılığa meyl və həvəsi daha da çoxalır. O, burada olarkən "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) dramını və "Dağılan tifaq" (1896) faciəsini yazıb.
1899-cu ildə Azərbaycana qayıdan Haqverdiyev bir müddət Bakıda yaşayıb. O, bir tərəfdən müəllimliklə məşğul olub, digər tərəfdən teatrlarda verilən tamaşalara rejissorluq edib. Eyni zamanda bədii yaradıcılığını da davam etdirib: "Bəxtsiz cavan" (1900) və "Pəri-cadu" (1901) faciələrini yazmaqla milli dramaturgiyanı ideya və poetik-sənətkarlıq baxımından daha da zənginləşdirib. 1906-cı ildə "Həyat" qəzetində hekayələr və "Molla Nəsrəddin" jurnalında gizli imzalarla felyetonlar, məzhəkələr çap etdirib. "Marallarım", "Xortdanın cəhənnəm məktubları", "Şeyx Şaban", "Xəyalət", "Ac həriflər" və sair əsərlərin müəllifidir.
**Əsərləri:**”Ac həriflər” (1927), “Şəbih” (1937), “ Dağılan tifaq” (1937)”Şeyx Şaban” (1958), “Bəxtsiz cavan” (1959), “Marallarım” (1960), “Mozalanbəyin səyahətnaməsi” (1961), “Diş ağrısı” (1965), “Seçilmiş əsərləri” (iki cilddə) (1971),”Ovçu Qasım” (1973), “Hekayələr” (1974), “Mirzə Səfər” (1977), “Qoca tarzən” (1980), “Xortdanın cəhənnəm məktubları” (1981), “Seçilmiş əsərləri” (1982) və s.

**Filmoqrafiya**

1. Marallarım (film, 1963)
2. Evlənmək istəyirəm (film, 1983)
3. Ac həriflər (film, 1993) (tammetrajlı film-tamaşa)  - əsərin müəllifi

**19. Şair, tərcüməçi Vladimir Qafarovun anadan olmasının 80 illiyi (1935-2000)**



**Qafarov Vladimir Əbüləzim oğlu (19 may, 1935 - 19 iyul, 2000) — şair, tərcüməçi, 1957-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1979), Azərbaycanın Əməkdar incəsənət xadimi (1989)**
Vladimir Qafarov 1935-ci il mayın 19-da Sabirabad şəhərində anadan olmuşdur. Bakıda orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1952-1957). Əmək fəaliyyətinə "Azərbaycanfilm" kinostudiyasında ssenari şöbəsinin redaktoru kimi başlamışdır (1959-1960). "Literaturnıy Azerbaydjan" jurnalında ədəbi işçi (1960-1963), "Literaturnaya qazeta"nın Azərbaycan üzrə xüsusi müxbiri (1967), "Bakinski raboçiy" qəzetində şöbə müdiri olmuşdur. Sonra bütün qüvvəsini yaradıcılığa həsr etmişdir. Lirik üslubda yazdıgı şeirlər V. Qafarova daha çox şöhrət gətirib. Şair həmçinin, poetik tərcüməyə də böyük əhəmiyyət verərək Azərbaycan el ədəbiyyatı, klassik aşıq poeziyası və müasir şeir nümunələrinin rus dilinə çevirib. Əsərlərini Azərbaycan və rus dillərində yazmışdır.
Bədii yaradıcılığa 1952-ci ildə "Oğul" adlı ilk mətbu şeri ilə başlamışdır. Bundan sonra istər respublikada, istərsə də onun hüdudlarından uzaqlarda əsərləri müntəzəm çap edilmişdir. "Gəlin", "İki qala", "Lermontov, 123", "Bürünc külək", "Küləkli alov" və digər kitabları oxucuların rəğbətini qazanmışdır. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif edilmişdir (1968-1985). 2000-ci il iyulun 19-da vəfat etmişdir.

**Əsərləri**

1.Невеста. – Баку : Азернешр, 1961. -  60 стр.
2.Две крепости. – Баку : Детюниздат, 1963. - 71 стр.
3.Бронзовый ветер. – Баку : Азернешр, 1968. - 147 стр.

**19. Xalq şairi Rəsul Rzanın anadan olmasının 105 illiyi (1910-1981)**

***"Poeziyanın bir qanadı gənclik, bir qanadı müdriklikdir. Rəsul Rza dünyaya, zamana, bəşərə üz tutur və insan ucalığından bizə müraciət edirdi."***

**Yazıçı Nahid Hacızadə**

***"Xalqımızın çınar vüqarlı yenilməz şairi təkcə özünün bu qüdrəti, bu əzəməti ilə deyil, həm də nəcibliyi və həlimliyi ilə doğma xalqının hərarətli qəlbinə, işıqlı yaddaşına əbədi həkk olunmuşdur. O, həmişəyaşar xalq sənətkarıdır."***

**Professor Şahin Cəfərov**



**Rzayev Rəsul İbrahim oğlu (Rəsul Rza) (19 may 1910, Göyçay – 1 aprel 1981, Bakı) – Azərbaycan şairi, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı (1980), Azərbaycanın xalq şairi (1960), Azərbaycanın əməkdar incəsənət xadimi (1943), SSRİ Dövlət mükafatı laureatı (1951)**

***Od nə çəkdi-küldən soruş!***
***Baş nə çəkdi-dildən soruş!***
***Hansı şerim, hansı sözüm***
***Yaşayacaq məndən sonra?***
***Mən bilmərəm, eldən soruş!...***
***Rəsul Rza***

Rəsul Rza 1910-cu il may ayının 19-da Göyçayda anadan olmuşdur. 1927-1937-ci illərdə Zaqafqaziya Kommunist Universitetində, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda, Moskva Millətlər İnstitutunda və Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda oxumuşdur. Rəsul Rza Azərbaycan Yazıçıları İttifaqının sədri (1939), Azərbaycan Kinematoqrafiya naziri (1945-48), Azərbaycan Ensiklopediyasının baş redaktoru (1966-75), Asiya və Afrika Ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri (1960-81), Xəbərlər Mətbuat Agentliyi Respublika İdarə Heyətinin sədri (1966-75), SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü (1964 ildən) olmuşdur. 1981-ci ildə Bakı şəhərində vəfat etmişdir. Məzarı Fəxri Xiyabandadır. Rəsul Rzanın "Bu gün" adlı ilk şeri 1927-ci ildə "Qığılcım" almanaxında (Tiflis) dərc olunmuşdur. İlk şerlərindən Rəsul Rza müasirlik ruhu ilə seçilən lirik şair kimi diqqəti cəlb etmişdir. Böyük Vətən müharibəsi illərində hərbi müxbir olan Rəsul Rza, xalqın qəhrəmanlıq mübarizəsini, qələbəyə inamını, humanizmini əks etdirən əsərlər yaratdı ("Vətən" (1942), "İntiqam! İntiqam…" (1943) şer kitabları, "Ölməz qəhrəmanlar" (1942), "Qəzəb və məhəbbət" (1943) hekayə və oçerk topluları, "Vəfa" (1943) pyesi və s).

Bədii cəhətdən ən güclü əsərlərindən biri "Lenin" poemasıdır. 60-cı illərdə Rəsul Rza, yaradıcılığının mövzu dairəsi əhəmiyyətli dərəcədə yeniləşdi, poeziyasında intellektual mənbə, analitik bədii idrak, müasir həyat hadisələrinə fəlsəfi yanaşma meylləri gücləndi ("Şerlər" (1959), "Pəncərəmə düşən işıq" (1962), "Duyğular, düşüncələr" (1964), "Dözüm" (1965) şer kitabları). "Qızıl gül olmayaydı" (1958-61), "Bir gün də insan ömrüdür", "Xalq həkimi" (1961) poemalarında insanpərvərlik ideyaları əks olunmuşdur. "Rənglər" (1962) silsiləsində 20-ci əsr insanının mənəvi aləmi rənglərin doğurduğu assosiasiyalar vasitəsi ilə açılır. Müasirlik Rəsul Rzanın 70-ci illər yaradıcılığının da ("Dünən, bu gün, sabah" (1973), "Güneylər, quzeylər" (1977), "Üzü küləyə" (1979) kitabları) əsas mövzusudur.

**Uşaqlar üçün də yazmışdır:** ("Balacaların şəkilli təbiət ensiklopediyası" seriyasından kitabçalar,”Güllər, çiçəklər” (1976), “Cücülər” (1976), “Ağaclar” (1977), “Bostan və tərəvəz bitkiləri” (1977), “Ev heyvanları” (1977), “Ev quşları”(1977), “Vəhşi heyvanlar” (1977), “İlkin məktəbə gedir”, “Təranənin oyuncaqları” və s.

Ədəbi-tənqidi və publisistik məqalələri oçerkləri var ("Mənim fikrimcə" kitabı, 1967). Nizami Gəncəvinin "Xosrov və Şirin", Esxilin "Zəncirlənmiş Prometey" əsərlərini, V.Mayakovskinin şer və poemalarını, Nekrasovun "Rus elində kimin günü xoş keçir" poemasını, H.Lonqfellonun "Hayavata haqqında mahnı" poemasını, C.Q.Bayron, A.S,Puşkin, H.Heyne, M.Y.Lermontov, T.Q.Şevçenko, Ş.Petöfi, A.Blok, Nazim Hikmət, P.Elüar, F.Qarsia Lorka, V.Nezval, habelə müasir Asiya və Afrika şairlərinin əsərlərini Azərbaycan dilinə çevirmişdir. Əsərləri bir sıra xarici dilə tərcümə edilmişdir. Bir çox şerlərinə musiqi bəstələnmişdir. Şeirləri Xəzər Universiteti Nəşriyyatı tərəfindən çap olunan Azərbaycan Sevgi Poeziyası toplusunun Birinci kitabına (Bakı, 2008) daxil edilmişdir (Tərtibçi: Hamlet İsaxanlı).

**Filmoqrafiya:** Ağ rəngin simfoniyası (film, 2003), Azərbaycan elmi (film, 1969), Azərbaycan naminə! (film, 2004), Bəxtiyar (film, 1955), Böyük ömrün anları (film, 2006), Dəcəl dəstə (film, 1937), Dostluq himni (film, 1974), Eldən soruş (film, 1980), Göy rəngin melodiyası (film, 2003), Kəndlilər (film, 1939), Kölgələr sürünür (film, 1958), Qırmızı rəngin ekspressiyası (film, 2002), Qız Qalası (film, 1984),Qızıl gül olmayaydı... (film, 1965), Qızıl gül olmayaydı... (film, 1990), Mətbuat fədaisi (film, 2007), Ordenli Azərbaycan (film, 1938), Tikdim ki, izim qala. III film (film, 1998),Toğrul Nərimanbəyov (film, 1966), Üzeyir ömrü (film, 1981), Yaşıl rəngin qamması (film, 2002), Yuva qurdum söz içində. Məmməd Alim (film, 2007) və s.

## 20. Filosof Ziyəddin Göyüşovun anadan olmasının 95 illiyi (1920-1984)

**Ziyəddin Bahadur oğlu Göyüşov (1920-1982) — fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü**

Ziyəddin Bahadur oğlu Göyüşov 1920-ci ilin may ayının 20-də Ağdam rayonunun Boyəhmədli kəndində anadan olmuşdur. Ziyəddin Göyüşov 1928-1936 illərdə Ağdamın Boyəhmədli kənd məktəbində oxumuş, 1938-1939 illərdə Ağdam Pedaqoji Texnikumunda təhsil almış, oranı fərqlənmə diplomu ilə bitirmişdir. Ziyəddin Göyüşov Boyəhmədli kəndində müəllimlik etmiş, Böyük Vətən müharibəsində iştirak edib yaralandıqdan sonra Vətənə qayıdaraq 1943-cü ildə bir müddət Ağdamda yerli radio verlişləri redaksiyasına rəhbərlik də etmişdir. O, 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universitetinin) Tarix fakültəsinin nəzdindəki Fəlsəfə şöbəsinə daxil olmuş, 1950-ci ildə oranı bitirmişdir. Ziyəddin Göyüşov 1953-cü ildə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasına daxil olmuşdur. O, 1957-ci ildə fəlsəfə elmləri namizədi, 1963-cü ildə fəlsəfə elmləri doktoru,1964-cü ildə professor adı almışdır. 1976-cı ildən Azərbaycan Respublikası Elmlər Akademiyasının üzvü seçilmiş, elə həmin ildən də Azərbaycan Respublikası Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunda fəlsəfə tarixi şöbəsinin müdiri olmuşdur. O, Azərbaycanda ilk çoxcildli milli ensiklopediyanın yaradılmasında fəal iştirak etmiş, Azərbaycan Sovet Ensiklopediyası Elmi Şurasının üzvü olmuşdur. Ziyəddin Bahadur oğlu Göyüşov 1982-ci ildə Bakıda vəfat etmişdir. Ziyəddin Göyüşov Azərbaycanda fəlsəfi-etik fikir tarixi problemlərini araşdırmış, Həsən bəy Zərdabinin seçilmiş əsərlərini ilk dəfə tərtib və çap etdirmişdir. Ziyəddin Göyüşovun tədqiqat sahəsi Azərbaycanın etik fikrinin qədim dövrdən XX əsrə qədər inkişaf meylləri və əsas aspektlərinin təhlili idi. Məlumdur ki, fəlsəfə tarixi çox aspektli tədqiqatları tələb edir, çünki mənəvi mədəniyyət, mənəvi fikir həyatın bütün rəngarəngliyini və mürəkkəbliyini özündə əks etdirir. Fəlsəfi, o cümlədən, etik ideyalar mənəvi fikrin müxtəlif formalarında özünü biruzə verir. Əxlaq insan cəmiyyətinin ən qədim və mühüm ünsürlərindən olduğu üçün öz əksini dində, ədəbiyyatda, bədii yaradıcılıqda, elmdə və təhsildə tapmışdır. Ziyəddin Göyüşovun məramı o idi ki, qədim tarixi və mədəniyyəti olan Azərbaycanda əxlaqi ənənələr, onları öyrənmə, münasibət bildirmə imkanları kifayət qədər istifadə olunmuşdur. Hər bir dövrün bu problemlərə münasibəti müxtəlif olduğu üçün onların öyrənilməsi həmişə aktual mahiyyət kəsb edir. Ziyəddin Göyüşovun xidməti də bundadır: o, çalışmışdı ki, Azərbaycanda etik baxışların inkişafının mərhələlərini sistem kimi təsvir etsin, istər tarixi-xronoloji, istərsə də məntiqi baxımından mənəvi həyatın bu sahəsinin inkişafını mümkün qədər dəqiq izləsin.

**21. Şair Rübail Allahverdiyevin anadan olmasının 75 illiyi (1940)**



1940 - cı il mayın 21 – də Azərbaycanın Gəncə şəhərində anadan olmuşdur. Burada 6 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakultəsində təhsil almışdır. (1959-1964. Sonra aspiranturada təhsilini davam etdirmiş(1966-1969), "Kadr uğrunda" çoxtirajlı qəzetin redaktoru, AKTİ partiya komitəsinin katibi (1971-1975) vəzifələrində işləmişdir. 1975-ci ildən həmin institutda əvvəlcə baş müəllim, sonra dosent kimi çalışmışdır. Ədəbi yaradıcılığa 1961- ci ildə "Kadr uğrunda" çoxtirajlı qəzetində dərc olunan "Yaylım atəşi" adlı ilk şeirilə başlamışdır. O vaxtdan dövrü mətbuatda çıxış edir. Azərbaycan LKGİ XXV qurultayında təftiş komissiyasının üzvü seçilmişdir (1966). Gəncə şəhər komsomol komitəsinin büro üzvü (1965-1968), sonra orada şəhər partiya təşkilatı plenumunun üzvü (1973) olmuşdur.
**Əsərləri:** "Sübhə yaxın" (1966), "Bir işıqlı yol üstəyəm" (1977), "Gecələr yuxusu qaçar qızların" (1983), "Getmişdim günəşi yola salmağa" (1988),"Ömrün fəsilləri" (2000), "İldırımötürən" (2000), "Altı məzar, üstü bazar dünyamız" (2000), "Zamanla əlbəyaxa" (2003), "Dünya dəlilərin şənlik evidi" (2005),"Tələsdikcə gecikirəm" (2008) və s.

**22. Şair, publisist Aydın Murovdağlının 60 illiyi (1955)**



1955-ci il mayın 22-də Qərbi Azərbaycanda Basarkeçər rayonunun Zod kəndində anadan olmuşdur. H. Zərdabi adına Gəncə Dövlət Pedoqoji İnstitunun dil-ədəbiyyat fakultəsində təhsil almışdır. (1974-1979).Gəncə şəhərində keçirilən bərpa konfransında "Divani-Hikmət" ədəbi məclisinin sədri seçilmişdir (2000). Eyni zamanda "Qanun və səlahiyyət" qəzetinin baş redaktorudur. Ədəbi fəaliyyətə 80-ci illərdən başlamışdır. "Sevgi ver içim" adlı ilk mətbu şeiri 1977-ci ildə Qax rayon qəzeti "Şəlalə"də çıxmışdır. Şeirləri almanaxlarda, qəzet və jurnallarda dərc olunmuşdur. "Kəpəz bulağı" ədəbi birliyin rəhbəridir. İlk şeirlər toplusu "Qızıl güllər tonqalı" adı ilə nəşr olunmuşdur. "Türkün alın yazısı" səhnə əsəri Gəncə Dram və poeziya teatrında səhnələşdirilib tamaşaya qoyulmuşdur. "Şeyx Şamil" tarixi mənzum pyesi Gəncə dövlət Dram teatrının repertuarına daxil edilmişdir.
**Əsərləri: "**Qızıl güllər tonqalı" (1989),"Dirilən ağrılar" (1994), " Qapısız dünya" (I kitab) (1996), "Qapısız dünya" ( II kitab) (1996), "Gəncənin ziyalı qadınları" (2000), " Əsl insanlıq ömrü" (2001),"Həmişəyaşıl meyar" (2003) və s.

## 23. Şair, tərcüməçi Vaqif Bəhmənlinin anadan olmasının 60 illiyi (1955)

***“Vaqif Bəhmənli elə bir şairdir ki, yaradıcılığının mükəmməlliyini, ideya-bədii qüdrətini göstərmək üçün şeirlərində yalnız şeiriyyət – sözdən şair kimi istifadə eləmək, sözə “ehya vermək” qabiliyyəti yox, həm də zəngin ovqat, fikir- təfəkkür materialı var… Hətta şeirə sığmayan kifayət qədər müdrik kəlamları da intonasiyanın təvazökarlığından sonra gəlir. Məsələn, Nizami Gəncəvinin bir türk şairi olduğu barəsində həmişə mücadilə aparmış mən də onun bu kəlamına qeydsiz-şərtsiz etiraz edə bilmirəm: “Nizami Gəncəvi elə böyükdür ki, onu təkbaşına hər hansı bir xalq çəkib apara bilməz…””***

**Ədəbiyyatşunas Nizami Cəfərov**



**Quliyev Vaqif İttifaq oğlu (Vaqif Bəhmənli) — şair, tərcüməçi, 1983-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, respublika Lenin komsomolu mükafatı laureatı (1986).**
Vaqif Bəhmənli 1955-ci il mayın 23-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində kolxozçu ailəsində anadan olmuşdur. S.M.Kirov adına ADU-nun jurnalistika fakültəsində təhsil almışdır (1973-1978). Tələbəlik dövründə ilk oçerk və şerlərini dərc etdirmişdir. (1978). Sonra həmin qəzetdə mədəniyyət şöbəsinin müdiri vəzifəsində işləmişdir. "Kommunist", "Ədalət", "Odlar yurdu", "Humanitar" qəzetlərində, "XXI gənclik dərgisi", "XXI Yeni Nəşrlər Evi", "Yazıçı" nəşriyyatlarında, Beynəlxalq Avrasiya Mətbuat Fondunda məsul vəzifələrdə çalışmışdır. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində şöbə rəisi olmuşdur. Hazırda Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində şöbə müdiridir.
İndiyə qədər 20-yə yaxın şeir, publisistika, hekayə və tərcümələrdən ibarət kitabları çıxıb. Komsomol Mükafatına, Şahmar Əkbərzadə, İsa İsmayılzadə, Rəsul Rza adına mükafatlara, Əməkdar Mədəniyyət İşçisi fəxri adına layiq görülüb. Əsərləri bir çox xarici dilə tərcümə edilib.
**Son illərdə şeir və məqalələrdən tərcümələrdən ibarət iyirmidən çox kitabı nəşr olunmuşdur:** “Bahar - payız arası” (1979), “Dünya ayaq üstədi” (1991), ”Bar ver, ümid ağacım” (1983), “Yolum üstə bitən gül” (1986), “Ömürdən uzun gecə”, “Qırxıncı otaq” (1990), “Novruz naxışları” (1993), “Dörd divar” (1996), “Uzaqda bir işıq” (2001), “Sevgimə axşam düşür” (2003), “Qızıl qala” (2005), “Poeziya” (3-cilddə 2006), “Sınıq güzgü” (2005),”Dombagözün hekayələri” (2005),“ Can dəftəri” (2008) və sairə kitabların müəllifidir.

## 23. Dilçi, folklorşünas Cavad Heyətin anadan olmasının 90 illiyi (1925)



**Heyət Cavad Mirzəli oğlu – cərrah, türkoloq, publisist, Fransa Cərrahlıq Akademiyasının üzvü(1982), Azərbaycan yazıçılar Birliyinin üzvü (19920, "Lütfi Zadə adına Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (2008), Azərbaycan Milli yaradıcılıq Akademiyasının fəxri akademiki (1991).**

1925-ci il mayın 23-də Cənubi Azərbaycanda Təbriz şəhərində doğulmuşdur. Burada orta hərbi məktəbi bitirdikdən sonra Tehran Universitetinə daxil olmuşdur. İkinci kursdan İstanbul Universitetinə dəyişdirilmişdir. Burada tibb fakultəsində təhsilini davam etdirmişdir (1943-1946). Tələbəlik illərində tarix və ədəbiyyatla ciddi maraqlanmışdır. Əmək fəaliyyətinə İstanbul universitetinin II cərrahlıq klinikasında cərrah kimi başlamışdır. Paris Universitetinin cərrahlıq kafedrasında işləmişdir. (1949-1952). Tehranda Hidayət xəstəxanasında cərrah, sonra klinika direktoru olmuşdur. Sonra Cavad adı ilə özəl xəstəxana açır. Burada saysız-hesabsız cərrahiyə əməliyyatı aparmışdır. Beynəlxalq Cərrahlıq Cəmiyyətində İranın təmsilçisi olur(1963). Paris Beynəlxalq Cərrahlıq akademiyasına üzv seçilir(1983). Azərbaycan xalqının dili, tarixi, ədəbiyyatı və mədəniyyəti tələbəlik illərindən onu düşündürmüşdür. Bu problemə kömək məqsədilə "Varlıq" ədəbi jurnalını yaratmışdır(1979). Xarici ölkələrdə keçirilən ədəbiyyat toplantılarında, türkoloji konqres və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Elmi araşdırmaları İran, Türkiyə, Amerika və Azərbaycan dövri mətbuatında vaxtaşırı çap olunur. "Azərbaycan ədəbiyyatı tarixinə bir baxış" (1980), "Azərbaycan şifahi xalq ədəbiyyatı" (1988), "Türklərin tarix və mədəniyyətinə bir baxış" (1999), "Türk dili və ləhcələrinin tarixinə bir baxış" (1987), "İki dilin müqayisəsi" (1983) və s. kitabları kütləvi tirajla buraxılmışdır. 2014-cü ilin avqust ayında vəfat etmiş və Bakıda dəfn edilmişdir.

**Əsərləri:** "Türklərin tarix və mədəniyyətinə bir baxış" (İslamdan əvvəl və islam dövrü). Başlanğıcından XVI əsrə qədər, Bakı, Azərnəşr, 1993.

**25. Şair, yazıçı, dramaturq, Həsən Elsevərin anadan olmasının 90 illiyi (1925)**



**1969 – cu ildən Azərbaycan Yazıçılar birliyinin üzvi, Jurnalistlər Birliyinin üzvi**

1925 - ci il mayın 25 - də Azərbaycanda Naxçıvan şəhərində fəhlə ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Bakıda M. F. Axundov adına Dövlət Pedoqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda təhsil almışdır. Ədəbi fəaliyyətə 1942 – ci il aprelin 3- də "Şərq qapısı" qəzetində çap etdirdiyi "Azərbaycan fəxr edir" adlı ilk şeiri ilə başlamışdır. "Yaralıdır Azərbaycan", "Məhəbbəti daşa toxunan gözəl" şeir topluları onun poeziya aləmindən ayrılmadığını göstərir. Yaradıcılığı boyu poetik əsərlərlə yanaşı, nəsr və dramaturgiya sahəsində də çalışmışdır. Onun "Vüqarlı gözəl" (1966), "Alınmaz qala" (1976), "Koroğlu nəsli" (1998), "Təhlükəli oyun" (1999) pyesləri Naxçıvan Dövlət Musiqili Dram Teatrında , "Xankəndinin qartalı" (1995)faciəsi Füzuli adına Naxçıvan şəhər poeziya teatrında tamaşaya qoyulmuşdur. Əsərləri SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur.

**Əsərləri:** "Ürəklər bir vuranda" (1964), "Gözəllik bulağı" (1974), "Mən əsir doğulmamışam" (1978), "Ürək daşdan deyil" (1982), "Zəlzələ" (1987), "El sərkərdəsi" (1997), "Yaralıdır" (1998), "Məhəbbəti daşa toxunan gözəl" (1998), "Qaçmaq igidlik deyil" (1998), "İnamsızlıq yaman dərddir" (1999),"Çiçəklənir baharımız" (1999), "İki qardaş" (1999), "Səgrək" (1999), "Bir ürəkdir" (1999), "Əliyar" (1999), "Sənsiz bizim bir günümüz olmasın" (1999) və s.

**28. Şairə Həqiqət Rzayevanın anadan olmasının 75 illiyi (1940)**



1940-cı il mayın 28-də Bakı şəhəri yaxınlığındakı Xırdalan qəsəbəsində neftçi ailəsində doğulmuş, orta təhsilini 92 saylı orta məktəbdə almışdır. Əmək fəaliyyətinə orada məktəb kitabxanasında başlamış, sonra Azərbaycan LKGİ Abşeron rayon komitəsində təlimatçı, təşkilat şöbəsinin müdiri vəzifələrində işləmişdir. Azərbaycan dövlət Universitetinin filologiya fakultəsini qiyabi bitirmişdir (1962-1968). Dəfələrlə Ümumittifaq və respublika LKGİ – nin Fəxri fərmanları ilə təltif edilmişdir. Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri Şirkətində gənclər üçün proqram baş redaksiyasında böyük redaktor (1968-1976), uşaqlar üçün proqram baş redaksiyasında böyük redaktor (1974-1990) işləmişdir. Hazırda orada ədəbi dram baş redaksiyasının incəsənət şöbəsində böyük redaktor vəzifəsində işləyir. (1990 - cı ildən)

**Əsərləri:** "Üç nəğmə" (1970), "Yollar, cığırlar" (1977), "Qızıl sərgi" (1981), "Əmək nəğməsi" (1986), "Vətən səndə daş olaydım" (1991) və s.

## 28. Nasir, tərcüməçi Akif Abbasovun 65 illiyi (1950)



**Abbasov Akif Nurağa oğlu - nasir, tərcüməçi, 2002-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (2000), pedaqoji elmlər doktoru (1995), professor (2004), Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü (2009).**

Akif Abbasov 1950-ci il mayın 28-də Şirvan (keçmiş Əli Bayramlı) şəhərində anadan olmuşdur. N. Nərimanov adına 2 saylı orta məktəbi bitirdikdən sonra "İşıq" şəhər qəzetində müxbir işləmiş (1967-1968), M.F. Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun ingilis və Azərbaycan dilləri fakültəsində təhsil almış (1968-1973), təyinatla Sabirabad rayonunun Şıxsalahlı və Qaragünə kənd orta məktəblərində ingilis dilini tədris etmişdir (1973-1975). Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun tərbiyənin ümumi problemləri şöbəsinə müsabiqə yolu ilə kiçik elmi işçi qəbul olunmuş (1975), sonralar institutda elmi işçi, baş elmi işçi, şöbə müdiri vəzifəsində işləmişdir (1975-2001). Namizədlik (1987) və doktorluq dissertasiyaları (1995) müdafiə etmişdir. Bakı Ali Pedaqoji Qızlar Seminariyasında (indiki Bakı Qızlar Universiteti) elmi işlər üzrə prorektor olmuşdur (1992-1998). Hazırda Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun elmi katibidir (2000-ci ildən).

"Təhsil, mədəniyyət, incəsənət" jurnalın redaktoru olmuşdur (2000-2006). İlk mətbu yazısı Əli Bayramlı şəhər qəzeti "İşıq"da çıxmışdır. Hekayələri “525-ci qəzet”, “Təhsil problemləri”, “Mühakimə”, “Savalan”, “İşıq” qəzetlərində, “Günəş” jurnalında, rus və ingilis dillərindən tərcümələri “Ədəbiyyat və incəsənət”, “İdman”, “Sovet kəndi”, “Muğan”, “Azərbaycan müəllimi” qəzetlərində, "Dünya", "Bağban" almanaxlarında, “Azərbaycan”, “Mütərcim” jurnallarında dərc olunmuşdur. Orta ümumtəhsil məktəbləri, ali və orta ixtisas məktəbləri üçün, habelə xüsusi məktəblər üçün bir çox dərslik, elmi-metodik əsər və fənn proqramlarının müəllifidir.

Akif Abbasov aşağıdakı birpərdəli pyesləri rus dilindən azərbaycancaya tərcümə etmiş və onlar respublika radiosunun “Firuzə” tələbə teatrında səslənmişdir.Akif Abbasovun tərcüməsində Georgi Xuqayevin “Andro və Sandro” iki pərdəli pyesi 1987-ci ildə respublika radiosunun "Ədəbi-dram verilişləri" redaksiyasında Sofa Bəsirzadə, Məhluqə Sadıqova, İlham Namiq Kamal, Bürcəli Əsgərov, Muxtar Avşarov tərəfindən səsləndirilmişdir. Radio tamaşasının rejissoru Həsən Əbluc olmuşdur.Akif Abbasov 2006-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmiş, 2007-ci ildə "Qızıl qələm" mükafatına layiq görülmüşdür. **Uşaq hekayələri:** “Lələşin ayaqqabısı” (1998), “Kristi Tokerin ölümü”(2000), “Atatürk” (2007), “Xallı kəpənək” (2009), “Dar günün dostu” (2010) və s.

## 30. Şair Fikrət Sadığın anadan olmasının 85 illiyi (1930)

***"Fikrət Sadıq böyük poeziya salonunda öz kürsüsü olan, öz oxucularına əsl sənət örnəkləri oxuyan, əvəzində xalqın minnətdarlıq alqışını qazanan bir şairdir."***

**Xalq şairi Məmməd Araz**



**Sadıqov Fikrət Abbas oğlu — şair, publisist, ssenari müəllifi, kino redaktoru, 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın Əməkdar mədəniyyət işçisi (1986), Azərbaycan Dövlət mükafatı laureatı (1990), Prezidentin fəxri təqaüdçüsüdür.**

Fikrət Sadıq 1930-cu il mayın 30-da Şamaxı şəhərində anadan olmuşdur. ADU-nun filologiya fakültəsində təhsil almışdır (1956-1961). Ədəbi fəaliyyətə tələbəlik illərində universitet nəşriyyatının buraxdığı "Gənclik nəğmələri" almanaxında dərc etdirdiyi "Artist" və "Ana əli" şeirləri ilə başlamışdır. Poetik yaradıcılığında bədii tərcürməyə də meyl edir. "Yumaq top", "Bir parça vətən", "Oğul" pyesləri, "Xırdaca gəlin", "Daş balkon", "İlk məhəbbət haqqında daha bir hekayə" və s. onun qələminin bəhrəsidir (1974-1983). Şamaxıda kənd müəllimi, rayon qəzeti redaksiyasında ədəbi işçi, ADU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş laborant, Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasında elmi redaktor, şöbə müdiri, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında elmi-kütləvi və sənədli filmlər birliyi idarəsində baş redaktor, Azərbaycan Yazıçılar İttifaqında bədii ədəbiyyatın təbliği bürosunun direktoru olmuşdur (1961-1975).Tümen, Perm, Novosibirsk və Altay vilayətlərində keçirilən ədəbiyyat günlərində iştirak etmişdir. Macarıstan Xalq Respublikasına yaradıcılıq təşkilatlarının təcrübə mübadiləsi müşavirəsinə göndərilən sovet yazıçıları nümayəndə heyətinin tərkibində olmuşdur (1980).

Azərbaycan yazıçılarının VII-VIII qurultaylarında Azərbaycan Yazıçıları İttifaqı təftiş komissiyasının sədri, IX qurultayında idarə heyətinin üzvü, qəbul komissiyasının və Şirvan filialının sədri seçilmişdir. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, "Əməkdə igidliyə görə" medalı ilə (1986) təltif olunmuşdur. Hazırda Azərbaycan Yazıçılar Birliyində poeziya üzrə məsləhətçi işləyir (1975-ci ildən).

**Əsərləri:"**Cığır" (1963),**"**Ömrün bir günü" (1965), **"**Dəniz küçəmizə gəlir" (1968),**"**Cırtdan hara getmişdir?" (1970), **"**Sevgi yağışı" (1970)**, "**Bala kirpi" (1972), **"**İşığın yaşı" (1974), **"**Göydə nə var" (1978), "Ağ cığır" (1979), Yerdən göyə ümid" (1981), **"**Göydən alma düşmədi" (1982), **"**Məndən soruşsalar" (1985), "Gəlin yuyaq dənizi" (1988), "Dünya öz işindədir" (1989), "Seçilmiş əsərlər"(1991), "Sirli əlifba" (1998), "Bir parça vətən" (1998), "Ömrün birgünü" (2002), "Sərhəddə səhər" (2002), "Gözlədiyim ömür" (2003), "Taleyin acığına" (2003) və s.

# İ Y U N

## Əlamətdar tarixi günlər və bayramlar

Uşaqların Beynəlxalq Müdafiəsi günü 01.06.1956
Ətraf mühitin Beynəlxalq mühafizəsi günü 05.06.1972
Milli Qurtuluş günü 15.06.1997
Tibb işçiləri günü 17. 06.2001
Dövlət qulluqçularının peşə bayramı günü 23.06.2006
Silahlı qüvvələr günü 26.06.1992
Narkomaniya ilə beynəlxalq mübarizə günü 26.06.

## Folklor

Aşıq Alının (08.06.1800-1911) 215 illik yubileyi

## İncəsənət

Bəstəkar, tarzən Məşədi Cəmil Əmirovun (14.06.1975-1928) 140 illik yubileyi
Xalq artisti Amaliya Pənahovanın (15.06.1945) 70 illik yubileyi
Xalq artisti Möhsün Sənaninin (19.06.1900-11.02.1981) 115 illik yubileyi
Xalq artisti Gülcahan Güləhmədovanın (23.06.1925) 90 illik yubileyi
Heykəltəraş İbrahim Quliyevin (1915-1971) 100 illik yubileyi

## Yubilyar yazıçı və şairlər

Şair Əbdülxaliq Cənnətinin (06.06.1855-1931) 160 illik yubileyi
Şair İltifat Salehin (10.06.1935) 80 illik yubileyi
Şair Ağaəli Qasımlının (10.06.1925) 90 illik yubileyi
Şairə Sona Məmmədovanın (11.06.1920-1944) 95 illik yubileyi
Nasir, publisist Azər Əliyevin (17.06.1960) 55 illik yubileyi
Yazıçı Əkbər Əkbərovun (23.06.1920-1995) 95 illik yubileyi

## Xarici ədəbiyyat

Fransız yazıçısı A. Sent-Ekzüperinin (29.06.1900-31.07.1944) 115 illik yubileyi

# İyun

## Əlamətdar tarixi günlər və bayramlar

### 1.Uşaqların Beynəlxalq Müdafiəsi günü

***"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır!"***

**Ulu öndər Heydər Əliyev**



Uşaqların Beynəlxalq Müdafiəsi Günü (International Children's Day) - 1 iyun 1950-ci ildə BMT Baş Assambleyası tərəfindən qeyd olunması qərara alınıb. Həmin gün təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir. Bu bayramla yanaşı BMT -nin Baş Assambleyası tərəfindən 20 noyabr tarixində Ümumdünya Uşaqlar Günü də qeyd olunur. "Ümumdünya Uşaqlar Günü" 1954-cü ildə BMT -nin Baş Assambleyasının № 836 (IX) saylı qətnaməsində 1956-cı ildən bütün dövlətlərdə uşaqların şərəfinə keçirilməsi tövsiyə olunan bayram kimi qeyd olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-cil tarixli sərəncam imzalamışdır. Sərəncama görə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. 1924 -cü ildə ilk dəfə olaraq Uşaqların hüquqlarını təmin edən bəyənnamə qəbul edilmişdir. Bu bəyənnamədə deyilirdi ki, "bəşəriyyət məcburdur ki, uşaqları ən yaxşı şeylərlə təmin etsin". Bu bəyənnaməni qəbul edilməsində ilk işlər Eglantyne Djebb tərəfindən edilmişdir. Birinci dünya müharibəsinin dəhşətlərinin şahidi olan, Eglantyne Djebb müharibənin dəhşətlərindən sarsılaraq uşaqların xüsusi müdafiəyə ehtiyac duyduğlarını anladı. Bacısı Doroti Bakston köməyi ilə 1919-cu ildə, uşaqlara yardım, kömək göstərib, onların müdafiəsini təmin etmək üçün Londonda "uşaqlara yardım fondu"nun əsasını qoydu.

**5. Ətraf mühitin Beynəlxalq mühafizəsi günü**



5 iyun "Ümumdünya Ətraf Mühit Günü"nün qeyd olunması 16 dekabr 1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 27-ci sessiyasında elan edilib. Həmçinin Baş Assambleyanın bu sessiyasında BMT sistemində yeni təşkilat - BMT Ətraf Mühit Proqramı (UNEP) yaradılıb. Hər il bu təşkilat tərəfindən Ümumdünya Ətraf Mühit Günü keçirilir.

Belə bir günün keçirilməsinə 11 may 1971-ci ildə dünyanın 23 ölkəsinin 2200 elm və mədəniyyət xadiminin imzası ilə BMT-nin Baş katibinə ünvanlanan müraciət səbəb olub. Onlar "ya biz çirklənməni qurtarırıq, ya da çirklənmə bizi qurtarar" adlı müraciətləri ilə bəşəriyyətə ətraf mühitin çirklənməsi barədə xəbərdarlıq etmişdilər. Baş Assambleya bu günün qeyd edilməsi ilə bağlı qətnaməsində BMT-yə daxil olan ölkə və təşkilatları hər il həmin gün ərəfəsində ətraf mühitin qorunması və yaxşılaşdırılmasına yönələn işlər həyata keçirməyə çağırır.

Hər il Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) Dünya Ətraf Mühit Gününün Avropa regionunda qeyd edilməsi üçün Avropa ölkələrindən baş şəhərlər elan edir.

2010-cu ildə İtaliyanın Genuya, İsveçrənin Cenevrə şəhərləri ilə bərabər Azərbaycanın Bakı şəhəri də mərkəz şəhər seçilib. Bakının bu statusa layiq görülməsi Azərbaycanda ətraf mühitin mühafizəsi, ekologiya sahəsində görülən işlərin, həyata keçirilən dövlət və milli proqramların uğurlu nəticəsi kimi qiymətləndirilir və Beynəlxalq qurumların Cənubi Qafqaz regionunda Azərbaycana böyük əhəmiyyət verməsindən irəli gəlir.

## 15. Milli Qurtuluş günü

***"Azərbaycan xalqı birləşməli öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."***

**Ulu öndər Heydər Əliyev**



Azərbaycan Milli Qurtuluş günü - Azərbaycan Respublikasında rəsmi bayramlardan biridir. 1997-ci ilin 15 iyun günündən bayram elan edilib. 1997-ci ildən qeyd olunan bayrama 1998-ci ildən dövlət statusu verilmişdir.Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox əzizdir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insandır - Heydər Əliyev. Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırırdı. Iqtidar isə onun siyasətini separatçılıq kimi qiymətləndirir və Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini hakimiyyətə gətirməyə cəhd edirdi. Bu elə bir dövr idi ki, daşnaklarin "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağrışı ilə ayağa qalxdı. Silahlılar dövlət idarələrindən qovulub çıxarıldı. Xalq xilas yolunu Heydər Əliyevin ölkəyə rəhbərliyində gördü. Azərbaycanın görkəmli oğlu böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi. Dövləti olmayan xalq ölümə məhkumdur. Dövlətçilik xalqın "ölüm, ya olum" məsələsidir. Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmaqda idi. Ümummilli



liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edilmiş, onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi ki, “Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir”. 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdi. Lakin Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirirdi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Hər il ulu öndərimiz - Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir. Artıq bir neçə ildir ki, xalq bu günü Heydər Əliyevin məzarını ziyarət etməklə anır.

## 17. Tibb işçiləri günü

***Yaxşı sağlamlıq ən böyük var dövlətdən bahadır.***

**Latın atalar sözü**



**17 iyun tibb işçilərinin peşə bayramı günüdür.**

İnsan üçün çox qiymətli olan, lakin çox vaxt qayğısına qalmadığı ən böyük sərvət sağlamlıqdır. İnsan sağlamlığının keşiyində isə tibb işçiləri durur.

Azərbaycanda tibbin inkişafı daha çox XX əsrlə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra onun həyata keçirdiyi sosial-mədəni tədbirlərdən biri də sağlamlığın mühafizəsi ilə bağlı olmuşdur. Bununla əlaqədar olaraq Nazirlər Şurasının 17 iyun 1918-ci il tarixli sərəncamı ilə Səhiyyə Nazirliyi təşkil olunmuşdur. İndi Azərbaycanda öz sənətinin sirlərinə dərindən bələd olan, insanların sağlamlığının keşiyində duran minlərlə səhiyyə işçisi vardır.

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin sərəncamına əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yaradılmasını nəzərə alaraq Tibb işçilərinin peşə bayramı gününün təsis edilməsi haqqında 4 iyun 2001-ci il tarixli sərəncamına əsasən hər il 17 iyun Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

## 23. Dövlət qulluqçularının peşə bayramı



**İyunun 23-ü dövlət qulluqçularının peşə bayramıdır.**

23 iyun ölkəmizdə Dövlət Qulluqçularının peşə bayramı kimi qeyd olunur. Dövlət Qulluqçularının peşə bayramı Prezident İlham Əliyevin 2006-cı il 25 may tarixli sərəncamı ilə təsis edilib. Dövlət xidmətinin demokratik, hüquqi və dünyəvi dövlətin yaradılmasındakı rolunu və BMT Baş Assambleyası tərəfindən iyunun 23-nün Birləşmiş Millətlər Təşkilatının Azərbaycanda müasir dövlət qulluğu sisteminin formalaşdırılması və inkişafında, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olub. 1995-ci ildə qəbul olunan Konstitusiya ölkəmizdə dövlət quruluşu və idarəçilik prinsiplərini təsbit edir. Ölkəmizdə Dövlət qulluğu sahəsində aparılan islahatların ən mühüm nəticələrindən biri 2000-ci il iyulun 21-də qəbul edilən “Dövlət qulluğu haqqında” Qanundur. Bu Qanunla Azərbaycanda dövlət qulluğu sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasının əsası qoyulub, bu sahədə kadr siyasətinin əsas prinsipləri, dövlət qulluqçularının cəmiyyətdəki yeri, onların hüquq və vəzifələri müəyyənləşdirilib.Respublikamız müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində islahatları uğurla davam etdirir. Bu islahatlardan məqsəd çevik dövlət idarəçilik sisteminin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının yüksək dövlət təminatına nail olunması, bütövlükdə Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası prosesinin sürətləndirilməsindən ibarətdir. Prezident İlham Əliyevin 2005-ci il 19 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya yaradılıb, onun Əsasnaməsi təsdiq edilib. Komissiyanın əsas məqsədi dövlət qulluğu sahəsində qəbul edilmiş normativ hüquqi aktların tətbiqinin təşkil edilməsi, dövlət qulluğu üçün kadrların müsabiqə əsasında seçilməsi, yerləşdirilməsi, dövlət qulluqçularının ixtisas hazırlığının artırılması, qanunvericilikdə nəzərdə tutulan siyasətin həyata keçirilməsini təmin etməkdir. Ölkədə bu istiqamətdə həyata keçirilən tədbirlər dövlət qulluqçularının məsuliyyətini artırmaqla yanaşı, sivil, demokratik və vətəndaş cəmiyyətinin tələblərinə cavab verən dövlət idarəçiliyi sisteminin qurulmasında da mühüm rol oynayır. İndi ölkəmizdə fəaliyyət göstərən müxtəlif nazirlik, komitə və digər qurumlarda 28 minə yaxın dövlət qulluqçusu çalışır. 10 mindən çox şəxs isə dövlət qulluqçusu kimi pensiya alır.

## 26 . Silahlı Qüvvələr günü

*“Güclü dövlətin güclü ordusu olmalıdır. Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var. Azərbaycan ordusuna eşq olsun! Yaşasın Azərbaycan!”*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

*“Bilsin ana torpaq, eşitsin Vətən!*
*Müsəlləh əsgərəm mən də bu gündən”* **S. Vurğun**



**Azərbaycan Respublikası Silahlı Qüvvələri günü — Azərbaycan Silahlı Qüvvələrinin yaranma tarixi kimi qeyd edilən rəsmi bayram.**

İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix – 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən həmin fərman qüvvədən düşürülmüş və 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir. Azərbaycan ordusunun Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, Həmid Qaytabaşı, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbibbəy Səlimov kimi generalları olmuşdu. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz hərbi sahədə ciddi böhranla üzləşdi. Nizami orduya malik olmayan Azərbaycanın qarşısında duran əsas iş Qarabağ uğrunda gedən döyüşlərdə vəziyyəti nəzarət altına almaq idi ki, bu da çox çətinliklə həyata keçirilirdi. Ordunun maddi-texniki təminatı problemlərlə müşayiət edilirdi. Ancaq tədricən müharibədəki məğlubiyyətlərin qarşısını almaq üçün ölkənin bütün imkanları milli ordu quruculuğuna səfərbər edildi. Könüllü batalyonlardan nizami orduya doğru ilk ciddi addımlar atıldı. Qismən hərbi səfərbərlik və orduya çağırış işi yoluna qoyuldu. Ölkəmizdə peşəkar ordu quruculuğunun əsası isə 1993-cü ilin sonlarında qoyuldu. Məhz həmin vaxtdan ordu quruculuğuna elmi prinsiplərlə yanaşıldı, silahlı qüvvələr pərakəndəlikdən xilas oldu, ordudakı siyasiləşməyə son qoyuldu. Heydər Əliyev hakimiyyəti dövründə həm prezident, həm də ali baş komandan olaraq, ordunun qüdrətli olmasına diqqəti yönəltdi. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir.

## 26. Narkomaniya ilə beynəlxalq mübarizə günü




Narkomaniya "ağ ölümdür", həyatdan üz çevirməkdir. "Narkomaniya" və "ölüm" sözləri bu gün insanların təsəvvüründə sinonim sözlərə çevrilib. Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Bu bəla ilə mübarizə etmək bir o qədər asan deyil. Narkotik maddə alverçiləri uşaqların çox olduğu yerlərdə olur, onlara həmin məhsulları təklif edirlər. Pul qazanmaq naminə onlar insanları, xüsusilə uşaqları ölümə aparan bu pis vərdişə alışdırırlar. Narkotik maddələr müxtəlif çeşidlidir. Daha çox yayılanları isə xaşxaş, tiryək, marixuana, heroin, kokain və s.-dir. Son illər kimyəvi laboratoriyalarda hazırlanan yeni sintetik narkotik maddələr meydana gəlmişdir. Bunlar xüsusilə təhlükəlidir, çünki birinci dəfədən adamı özünə alışdıra bilir. Narkotiklərdən asılılıq ağır xəstəliyə - narkomaniyaya gətirib çıxarır. Narkotik maddələr insan sağlamlığına bərpaedilməz ziyan vurur, fiziki qüvvələri tükəndirir, bədənin çəkisi birdən-birə azalır, ümumi zəhərlənmə baş verir. Narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən narkomanlar arasında QİÇS və başqa xəstəliklərə tutulmuş insanlar çoxdur. Narkotik maddə alverçiləri heroin və kokaini yuyucu toz və ya şəkər tozu qatıb satırlar, ona görə də narkomanda şəkər diabeti tez inkişaf edir. Əgər "xalis mal", yəni heç bir qarışığı olmayan narkotik maddə qəbul olunarsa, zəhərin güclü təsirindən o saat ölmək olar. Ən dəhşətlisi odur ki, bir neçə dəqiqə ərzində baş beyin zədələnə və bununla da yaşaya-yaşaya şikəstlik əmələ gələ bilər. Belə halda adam düşünmək, hərəkət etmək, reaksiya vermək qabiliyyətini itirir, danışmaq və müxtəlif əşyalardan istifadə etmək imkanından məhrum olur. Bu vəziyyət illərlə davam edə bilər. Narkotik maddələrlə ticarət böyük gəlir gətirir. Milyard dollarlarla qazanc əldə edən cinayətkarlar üçün bacardıqca daha çox adamı "iynəyə oturtmaq", daha çox gəncləri və uşaqları narkomaniyaya sövq etmək sərfəli işdir. Bir az "yüngül" narkotiklərdən başlayan insan tez bir zamanda çox təsiredici narkotiklərə alışır və müalicəsi mümkün olmayan xəstəliyə mübtəla olur. Narkotik maddələrin gənc nəsillər arasında yayılması təhlükəsini nəzərə alaraq, bir çox ölkələr "Narkotiksiz gələcək naminə" milli proqramlar qəbul edirlər. Buraya təhsil ocaqlarında, hüquq mühafizə orqanlarında, təşkilatlarda narkomaniyanın ziyanı haqqında maarifləndirilmə kampaniyaları daxildir. Bu kampaniyalar kütləvi informasiya vasitələri, o cümlədən internet şəbəkəsi vasitəsilə aparılır. Narkomaniya ilə bağlı problemləri daim ictimaiyyətin nəzarəti altında saxlamaq məqsədilə BMT iyun ayının 26-nı Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü elan etmişdir.

**Folklor**

**Aşıq Alının anadan olmasının 215 illiyi (1800- 1911)**

***"Aşıq Alı təcnisləri öz yığcamlığı, lakonikliyi ilə diqqəti cəlb edir. Deyim tərzində klassik poeziyamızdan gələn dərin fəlsəfi məna belə şeirlərin canını, qanını təşkil edir."*** **E. Məmmədov**



**Aşıq Alı (d. 1801, Qızılvəng, Göyçə mahalı - ö. 1911, Qızılvəng, Göyçə mahalı) — XIX əsr Azərbaycan aşıq şeirinin nümayəndələrindən biri.**

Aşıq Alı 1801-ci ildə Göyçə mahalının Qızılvəng kəndində dünyaya gəlib. 16-17 yaşlarından aşıqlıq etməyə başlayıb və qısa zaman içində məşhurlaşıb. Çoxlu sayda şagirdi olub. Onlardan ən tanınmışı XIX əsr Azərbaycan aşıq şerinin tanınmış nümayəndələrindən biri Aşıq Ələsgərdir. Rəvayətə görə müəllim-tələbə günlərin bir günü bir məclisdə deyişmişlər və aşıq Alı Ələsgərə məğlub olmuşdur. Bir başqa rəvayətə görə aşıq Alı sazını tələbəsinə hədiyyə etmək üçün qəsdən Ələsgərə yenilmiş, Ələsgər isə sazı götürməyib "Bir şəyird ki ustadına kəm baxar, Onun gözlərinə ağ damar, damar" demişdir. Aşıq Alı Azərbaycan aşıq şeri tarixində Aşıq Ələsgərin ustadı kimi tanınsa da, onun özü də çox azman ruhlu, coşqun təbli sənət fədaisi imiş. Ustadı Aşıq Allahverdi (Ağ Aşıq) də onu bütün şagirdlərindən daha artıq, öz oğlu kimi sevirmiş.Aşıq Alı Türkiyə (Şərqi Anadolu) səfəri zamanı Yığval (İqbal) və Zəki kimi tanınmış saz-söz sənətkarları ilə deyişərək, onları bağlayıbmış. Qayıdarkən səfər yoldaşı, ustad Aşıq Duraxandan ayrılan Aşıq Alı Qorçu Əsədlə Quldar Baydar adlı kəndə gəlir və orada Əsmər xanımla deyişib, onu da bağlayır. Əsmər xanım Alıya "böyük nəmər" (pul və hədiyyə) verərək onunla evlənməyi təklif edir. Lakin Aşıq Alı ilqarından dönmür.Aşıq Alının Türkiyə səfəri, bu səfər zamanı oradakı aşıqlarla deyişməsi "Aşıq Alının Türkiyə səfəri", Əsmər xanımla münasibətləri isə "Aşıq Alı və Əsmər" adlı xalq hekayələrində öz əksini tapıb.

Aşıq Alının bütün şeirləri külliyyat halında hələ də çap olunmayıb, ancaq ayrı-ayrı şeirləri işıq üzü görüb. Alı gəraylı, qoşma, təcnis, divani, müxəmməs kimi şeir növlərində şeirlər yazmışdır. O, 1911-ci ildə elə anadan olduğu kənddə dünyasını dəyişmişdir.

Əsərləri:

- Aşıq Alı. Şerlər / Toplayanı: H. Hüseynzadə– Bakı : Azərnəşr, 1975.
- Aşıq Alı. Şerlər / Toplayanı: Əli Əbülhəsənoğlu Milli – Bakı : Yazıçı, 1982.
- Aşıq Alı. Təcnislər / Toplayanı: Əli Əbülhəsənoğlu Milli – Bakı : Azərnəşr, 1995.
- Aşıq Alı. Əsərləri / Tərtib edəni: Qabil Zimistanoğlu

# İncəsənət

## 14. Bəstəkar, tarzən Məşədi Cəmil Əmirovun anadan olmasının 140 illiyi (1875- 1928)

***Məşədi Cəmil həm də Azərbaycan musiqi tarixində muğamları ilk nota salanlardandır.***



**Məşədi Cəmil Əmirov (1875, Şuşa — 1928, Gəncə) — tarzən, bəstəkar, musiqi xadimi.**

Məşədi Cəmil Əmirov Azərbaycan musiqi mədəniyyəti tarixində görkəmli xidmətləri olan simalardan biridir. O, gözəl tarzən, istedadlı bəstəkar və mahir müğənni olmuşdur. M.C.Əmirov 1875-ci ildə Şuşada anadan olmuş və ilk təhsilini mədrəsədə almışdı. Məşədi Cəmil kiçik yaşlarından Azərbaycan xalq musiqisinə, xüsusən də tara böyük maraq göstərir. Dövrün bir çox sənətkarları kimi Məşədi Cəmil də böyük musiqişünas Nəvvabdan klassik Azərbaycan muğamlarının sirlərini öyrənir. Məşədi Cəmil Şuşa məclislərində ilk dəfə Qaragöz Zülfüqarla çalıb-oxumağa başlayır. 1907-ci ildə Məşədi Cəmil o dövrdə Qafqazın ən böyük mədəni mərkəzlərindən biri olan Gəncə şəhərinə köçür. 1910-cu ildə Məşədi Cəmil bir qrup musiqiçi ilə Riqa şəhərindəki "Qrammafon" şirkətinə dəvət olunur. 1911-ci ildə musiqi təhsili almaq üçün Türkiyənin İstanbul şəhərinə gedir. Məşədi Cəmil Türkiyədə Azərbaycan musiqisinin qızğın təbliğatçısı kimi çıxış edir. Türkiyəlilər tarı sinədə çalmağı ilk dəfə Məşədi Cəmildə görürlər.. O, 1912-ci ildə Heyratı muğamını nota salıb "Şəhbal" jurnalında nəşr etdirir. 1913-cü ildə Gəncəyə dönən Məşədi Cəmil özü ilə kaman və ud gətirir. 1915-ci ildə uzun çalışmadan sonra Məşədi Cəmil "Seyfəl-mülk" operasını yazır və əsəri səhnələşdirmək üçün bir çox sənətkarları Gəncəyə dəvət edir. Operanın qəhrəmanlarından olan gənc Səadət xanımın rolunu oynamaq üçün incə səsli bir qız lazım idi. Lakin ifaçı tapılmırdı. Nəhayət Bülbül bu rolu oynamaq üçün razılaşır. Opera Gəncədə iki dəfə oynanıldıqdan sonra Tiflisə dəvət alır və 1916-ci il 3 iyunda Tiflis Kozyanın teatrında səhnələşdirilir. Operanın quruluşçu rejissoru Sidqi Ruhulla olur. Tiflis səfərindən sonra opera İrəvanda səhnələşdirilir. Gəncəyə döndükdən sonra şəhərdə musiqi məktəbi açmaq istəyən Məşədi Cəmilə Çar Rusiyası icazə vermir. Lakin Məşədi Cəmil muğam kursu açır. Seyid Şuşinski, Bülbül, Zülfü Adıgözəlov, Əli Cavad oğlu, Əbdürrəhman Fərəcov və Musa Şuşinski kimi sənətkarlar bu kursdan faydalanır. SSRİ qurulduqdan sonra Məşədi Cəmil Gəncədə dram truppası yaradır. 1923-cü ildə isə uzun mübarizədən sonra Məşədi Cəmil nəhayət ki, Gəncədə musiqi məktəbi açmaq üçün icazə alaır və elə ilk ildə məktəbə 39 tələbə qəbul edilir. Məşədi Cəmilin oğlu Fikrət Əmirov, Qənbər Hüseyinli, Telman Hacıyev və başqaları bu məktəbin yetirmələridir. Məşədi Cəmil Əmirov 1923-cü ildə "Namuslu qız" operettasını yazır və bu əsər də Gəncədə uğurla tamaşaya qoyulur. Böyük və ustad sənətkar Məşədi Cəmil Əmirov 1928-ci ildə Gəncədə vəfat edir və bu şəhərdə də dəfn olunur.

**15. Xalq artisti, aktrisa Amaliya Pənahovanın anadan olmasının 70 illiyi (1945)**

***"Mədəniyyətimizin, incəsənətimizin xalqa verdiyi töhfələr, göstərdiyi xidmətlər çox böyükdür. Bu xidmətlərdə Amalya Pənahovanın da xüsusi payı var."***

**Ulu öndər Heydər Əliyev**



**Pənahova Amaliya Əliş qızı (d. 15 iyun 1945, Gəncə) — Azərbaycan teatr və kino aktrisası, Azərbaycan Respublikasının xalq artisti, Dövlət Mükafatı laureatı, 2000-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Bakı Bələdiyyə teatrının direktoru və bədii rəhbəri**.

Amaliya Pənahova 1945-ci ildə Gəncə şəhərində anadan olmuşdur. 1966-cı ildə M.A.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun "Dram və kino aktyorluğu" ixtisasını bitirmişdir. 1964-cü ildən bu günədək teatr və kino sahəsində beş yüzdən artıq obraz yaratmışdır. Onlardan Tomris, Natəvan, Medeya, Burla Xatun, Məhsəti, Larisa, Ofeliya kimi rolları qeyd etmək olar. Teatr və kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə ona 1974-cü ildə Respublikanın əməkdar artisti, 1985-ci ildə isə Azərbaycan SSR-in xalq artisti fəxri adı verilmişdir. Böyük istedada, hərtərəfli biliyə malik olan aktrisa həmçinin bacarıqlı rejissor kimi də özünü sınamışdır. O, 43 illik sənət fəaliyyəti dövründə 12 televiziya və teatr tamaşasına quruluş vermişdir ki, bunların çoxu lentə alınıb, hal-hazırda televiziyanın Qızıl fondunda saxlanılır. Bunlardan İ.Əfəndiyevin "Mənim günahım", M.Muradın "Təkan", Şıxəli Qurbanovun "Sənsiz", O.Altunbayın "Tomris", A.Məmmədovun "Dəli Domrul" və s. xüsusi qeyd etmək olar. Amaliya Pənahovanın istedadının başqa bir cəhəti onun böyük təşkilatçılıq qabiliyyətidir ki, 1992- ci ildə Bakı Bələdiyyə Teatrını yaratmış və bu teatra orta və yaşlı nəsillə yanaşı, gənc istedadlı aktyorları da cəlb etmiş və onların yaradıcılıq qabiliyyətinin inkişafı üçün hər cür lazımi şərait yaratmışdır. Prezident təqaüdçüsüdür. 2000-2005-ci illərdə Milli Məclisin deputatı, sosial-siyasət daimi komissiyasının üzvü, MDB Parlamentlərarası Mədəniyyət, İnformasiya, Turizm, İdman daimi Komissiyasının sədri, İtaliya-Azərbaycan Parlamentlərin işçi qrupunun sədri olmuşdur. Azərbaycan milli teatr sənətinin inkişafında xidmətlərinə görə Amaliya Əliş qızı Pənahova Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyev cənablarının 1995- ci il 8 iyul tarixli 356 nömrəli fərmanı ilə yüksək mükafatla- "Şöhrət" ordeni ilə təltif edilmişdir. 25 iyun 2013-cü ildə "Şərəf" ordeni ilə təltif edilmişdir. Amaliya Pənahova həmçinin sənətşünaslıq elmləri doktoru adını alıb. Ötən il dekabrın 28-də "Obrazın yaranma prosesində aktyor yaradıcılığında ikinci planın təcəssüm vasitələri" mövzusunda doktorluq işini uğurla müdafiə edib. Qeyd edək ki, A.Pənahova on il əvvəl sənətşünaslıq elmlər namizədi adını almışdır.

## 19. Xalq artisti Möhsün Sənaninin anadan olmasının 115 illiyi (1900- 1981)



**Möhsün Sadıq oğlu Cəfərov (Sənani) (19 iyun, 1900, Tiflis, Gürcüstan-11 fevral, 1981, Bakı) — Azərbaycan aktyoru, Azərbaycan SSR xalq artisti.**
Həyatının 50 ilini Azərbaycan teatr sənətinə həsr edən Möhsün Sənani səhnəmizin görkəmli və məşhur artistlərindən biri olmuşdur. Möhsün Sənaninin adı gələndə hər kəsin üzündə sevinc duyulur, təbəssüm görünür. Onun repertuarı zəngin və murəkkəbdir. Sənanini xalqa sevdirən onun bənzərsiz sənətkarlığı, fitri istedadı, gənc nəslə daim qayğı ilə yanaşması olmuşdur. Sənani aktyora çox vacib olan hər cür qabiliyyətə: oxumaq, oynamaq, çalmaq bacarığına malik idi. Sənani onun təxəllüsüdür. Onun əsl familiyası Cəfərovdur. Möhsün Sənani Cəfərov 1900-cü ildə Tiflisin "Şeytanbazar" məhəlləsində ruhani ailəsində anadan olmuşdur. M. Sənaniyə Heydər bəy (“Hacı Qara”da), Süleyman bəy, Vəli ("Arşın Mal Alan"), Hambal ("Məşədi İbad"), Rzaqulu ("Nadir Şah"), Kasio ("Otello") kimi məsul rollar tapşırılmışdır. Həmin rollar Sənaninin aktyorluğunda bir sıçrayış yaradır, ona həqiqi aktyor şöhrəti qazandırır. M.Sənani 1915-ci ildən 1920-ci ilə kimi Tiflis teatr truppasında çalışır. M.Sənani 1921-ci ildən Bakının teatr səhnələrində parlamağa başlayır. O, nəinki teatrda, eləcə də kino sənətində də çox yadda qalan, təkrarolunmaz rollar ifa etmişdir. Bunlardan "Səbuhi", "O Olmasın, bu Olsun", "Sehrli Xalat" və s. filmləri qeyd etmək kifayətdir. 50 il ərzində bir gün də olsun səhnədən ayrılmayan Möhsün Sənani qədirbilən xalqımızın sevilən və məşhur sənətkarıdır. Onun zəngin səhnə təcrübəsini, yaradıcılıq xüsusiyyətlərini öyrənmək bizim gənc aktyor və kino sənətkarlarımız üçün maraqlı olduğu qədər də səmərəlidir.
**Filmoqrafiya:**Aktrisanın təbəssümü (film, 1974), Altıncı hiss (film, 1935), Arşın mal alan (film, 1965), Azərbaycan teatrının ustaları (film, 1966), Bayquş (film, 1924), Bəxtiyar (film, 1942), Bir məhəllədən iki nəfər (film, 1957),Bismillah (film, 1925), Bizim küçə (film, 1961), Dağlarda döyüş (film, 1967), Fətəli xan (film, 1947), İsmət (film, 1934), Kəndlilər (film, 1939), Kölgələr sürünür (film, 1958), Koroğlu (film, 1960),Qara daşlar (film, 1956), Qız qalası əfsanəsi (film, 1923)(tammetrajlı bədii film), Qüdsi (film, 2007), Mollanın sərgüzəşti (film, 1960), Nağılların Dərbəndi (film, 2006), O olmasın, bu olsun (film, 1956), Rənglərdə yaşayan kino (veriliş, 2009), Səbuhi (film, 1941),Səhər (film, 1960)
Sehrli xalat (film, 1964), Sovqat (film, 1942), Su ərizəsi (film, 1964), Yeni horizont (film, 1940)

**23. Xalq artisti, rejissor Gülcahan Güləhmədovanın -Martınovanın anadan olmasının 90 iliyi (1925)**



**Gülcahan Şüaulla qızı Güləhmədova-Martınova (1925) — Azərbaycan teatr və televiziya rejissoru, Azərbaycan Respublikasının xalq artisti, Dövlət mükafatı laureatı, professor.**

Gülcahan Şüaulla qızı Güləhmədova-Martınova 1925-ci il iyunun 23-də Bakı şəhərində anadan olmuşdur. 30 il ərzində Səməd Vurğun adına Rus Dram teatrında quruluşçu rejissor olmuşdur. Azərbaycan Respublikasının xalq artisti, Dövlət mükafatı laureatıdır.Tələbələri arasında "Qran-pri" laureatı, La Skala teatrının solisti, çoxsaylı musabiqələrin laureatları və diplomantları, Xalq və Əməkdar artistləri, Respublika və xarici opera teatrlarının (Almaniya, Türkiyə, Misir, Fransa, Boliviya) solistləri vardır. Onun tərəfindən 70-dən çox əsər tamaşaya qoyulmuşdur: Şekspir, Şiller, Rostan, Fr. Saqan, İ. Əfəndiyev, M. İbrahimov, Verdi, Çaykovski, Bize, Motsart, Çimaroza, Hacıbəyov, Əmirov, Rimski-Korsakov.

**Filmoqrafiya**

Sən həmişə mənimləsən (film, 1987)

**Heykəltəraş İbrahim Quliyevin anadan olmasının 100 illiyi (1915-1971)**

1935-40-cı illərdə Leninqradda Rəssamılq Akademiyasında təhsil alıb. Əsasən monumental sənətkar kimi işləyib. Yaradıcılıq illərinin əvvəllərində Farayev, Solveyqin abidələrini yaradıb. Bir müddət Keylixisin emalatxanasında çalışıb. Gəncədə "Vətən" heykəlinin müəllifidir. 1955-ci ildə V.Leninin portret büstünü yaradıb. Bu büst hazırda Azərbaycan Tarix Muzeyində saxlanılır.

O, həmçinin bir sıra digər protret əsərlərin də müəllifidir. Azərbaycanın xalq rəssamı (1955), SSRİ Dövlət mükafatı (1947, 1951), SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü (1949) olub.

## Yubilyar yazıçı və şairlər

**6. Şair Əbdülxaliq Cənnətinin anadan olmasının 160 illiyi (1855-1931)**




Şair Əbdülxaliq Cənnəti 6 iyun 1855- ci ildə Bakıda anadan olub. "Məcməə üş Şüəra" cəmiyyətinin fəal üzvlərindən biri olub. Klassik üslubda Azərbaycan və fars dillərində şeir və qəzəllər yazıb. "Qız qalası", "Qılınc və qələm" poemalarının müəllifidir.

**10. Şair İltifat Salehin anadan olmasının 80 illiyi (1935)**



**Salayev İltifat Saleh oğlu — şair, 1988-ci ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü.**

İltifat Saleh 1935-ci il iyunun 10-da Azərbaycanın Lənkəran rayonunun Boladi kəndində kolxozçu ailəsində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirmişdir (1954). ADPİ-nin tarix-filologiya fakültəsində təhsil almışdır (1956-1961). Əmək fəaliyyətinə Lənkəran rayonunda, Port-İliç şəhər orta məktəbində müəllim kimi başlamışdır (1961-1971). Eyni zamanda Mərkəzi Dövlət arxivinin Lənkəran filialının əməkdaşı olmuşdur (1968-71). Lənkəran rayon zəhmətkeş deputatları sovetinin sədr müavini (1971-1975), Port-İliç şəhər zəhmətkeş deputatları sovetinin sədri (1975-1977), tarix və mədəniyyət abidələrini Könüllü Mühafizə Cəmiyyəti Lənkəran şöbəsinin təlimatçısı (1977-1978), Lənkəran rayon radio verilişlərinin redaktoru (1978), məsul redaktoru (1978-1987) vəzifələrində çalışmışdır. Hazırda Port-İliç şəhər orta məktəbində tədris hissəsi üzrə müdir müavini işləyir (1987-ci ildən). Eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin Lənkəran bölgəsi üzrə məsul katibidir (1995-ci ildən). 1960-cı ildən mətbuatda öz şeirləri ilə çıxış edir. "Zənglərin səsi" (1989) və "Sənə demədiklərim" (1996) şeirlər toplusu nəşr olunmuşdur. "Sabir poeziyası" və "Azərbaycan" almanaxlarında şeirləri çap edilmişdir.

**Əsərləri:**

1.Səni görmək üçün : şeirlər. – Bakı : Gənclik, 1978. - 40 s.
2.Ay işığı : şeirlər və poema. – Bakı : Yazıçı, 1983. - 100 s.

**10. Şair, publisist, nasir Ağaəli Qasımlının 90 illiyi (1925)**



**Qasımov Ağaəli Qulu oğlu şair. Publisist. Nasir, 1956 – cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**
1925 – ci ilin iyun ayında Azərbaycanın Kərimarx kəndində anadan olmuşdur. 1930 – 1934 – cü illərdə Naxçıvanın Şurabad kəndində yaşamışdır. Orta məktəbi Yevlax şəhərində bitirmişdir. İkinci Dünya müharibəsi dövründə 77 – ci və 416 – cı Taqanroq diviziyası tərkibində ön cəbhədə döyüşlərdə iştirak etmiş, ağır yaralanmışdır. Hərbi xəstəxanada müalicə olunduqdan sonra Azərbaycan Daxili İşlər Nazirliyi Yevlax rayon şöbəsində rəis, sahə müvəkkili işləmişdir. Azərbaycan Dövlət Televiziya və radio Verlişləri şirkətinin xüsusi müxbiridir. (1960 – cı ildən). Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsində təhsil almışdır. (1963-1969). Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova həsr etdiyi "Qəhrəman qardaşıma" adlı ilk şeiri 1942-ci ildə "Kommunist" qəzetində dərc olunmuşdur. O vaxtdan dövrü mətbuatda şeirlərini, publisistik yazılarını və oçerklərini A. Qasımlı, Q. Ağaəli, Ağaəli Eloğlu, Əli Qasımov, Ağaəli Qasımlı imzaları ilə çap etdirir. Döyüş orden və medalları ilə təltif olunmuşdur.

**Əsərləri:**

1. **"Mənim nəğmələrim" (1956);**
2. **"Vətən torpağı" (1957);**
3. **"Azərbaycan elləri" (1963) və s.**

**Şairə Sona Məmmədovanın anadan olmasının 95 illiyi (1920- 1944)**



**Məmmədova Sona Əbdülrəhman qızı şair, 1939- cu ildən Azərbaycan Yazıçılar birliyinin üzvü.**
1920- ci ildə Bakıda fəhlə ailəsində doğulmuşdur. Kiçik yaşlarında atasını itirmişdir. 1930-cu ildə 8 saylı beynəlmiləl şəhər məktəbində oxumuşdur. Ədəbi fəaliyyətə 15 yaşında başlamışdır. 1935-ci ildən şeirləri dövri mətbuatda çap olunmuş, geniş oxucu kütləsinin rəğbətini qazanmışdır. Onun "Aprel", "Bakı nefti", "Çoban", Vətən qızı", "Kür", "Səma dağlarında" və s. şeirlərində xalqın bəxtiyarlığından, Azərbaycan qadınlarının azadlığa çıxmasından və əmək hünərlərindən bəhs olunur. "Günəş bizim üçün parlayacaqdır" şeirində onun qələbəyə dərin inam hissi öz ifadəsini tapmışdır. İkinci Dünya müharibəsi dövründə Zaqatala rayon məktəblərində müəllimlik etmişdir. 1944-cü il iyunun 12-də Bakıda vəfat etmişdir.

**17. Nasir, publisist Əliyev Azərin 55 illiyi (1960)**



**Əliyev Azər Adil oğlu – nasir. Publisist, 2002 – ci ildən Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1995)**

1960-cı il iyunun 17-də Azərbaycanda Bakı şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Burada 56 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan dövlət İnşaat Mühəndisləri İnstitutunda təhsil almışdır (1977-1985). Əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda laborant kimi başlamışdır. Ədəbi fəaliyyətə keçən əsrin 80 – ci illərindən başlamışdır. İlk qələm təcrübəsi "Pioner" qəzetində dərc olunmuşdur. Dövrü mətbuatda publisist məqalələr, oçerk, hekayə və povestlərlə müntəzəm çıxış etmişdir. Müasir ədəbi tənqidi fikrin tədqiqi ilə məşğuldur. "Diyar" müstəqil qəzetinin təsisçisi və Baş redaktorudur (1999- cu ildən). "Həsən bəy Zərdabi", "İnam", "Qızıl qələm" və "Abdulla Şaiq" mükafatları laureatıdır. Cəlil Məmmədquluzadə adına müsabiqənin qalibi olmuşdur (2004). Azərbaycan Yazıçılar Birliyinin XI qurultayına nümayəndə seçilmişdir (2004).

**Əsərləri:** "Qəmli səadət" 2000, "Qara canavarlar" ( povest, hekayələr. mənsur şeirlər), "Mirzə Cəlil və Azərbaycan mətbuatı" ( 2005), "Sönməyən üfüqlər" (2008) və s.

**23. Yazıçı Əkbər Əkbərovun anadan olmasının 95 illiyi (1920-1995)**



**Əkbərov Əkbər Həzrətqulu oğlu nasir, 1978 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü. Azərbaycan Əməkdar müəllimi(1978), SSRİ Maarif əlaçısı (1985).**

1920- ci il iyunun 23-də İliç rayonunun Qarabağlar kəndində anadan olmuşdur. Naxçıvan pedoqoji texnikumunu bitirdikdən sonra Şərur rayonundakı Qarabağlar kəndində müəllimlik etmişdir (1939-1940). Ədəbi fəaliyyətə 1957-ci ildə "Molodyoj Azerbaydjana" qəzetində çıxan "Za çertoy" adlı ilk hekayəsi ilə başlamışdır. Həmin il SSRİ Daxili İşlər Nazirliyi tərəfindən keçirilən Ümumittifaq Ədəbiyyat müsabiqəsində "Uspex" hekayəsinə görə üçüncü mükafata layiq görülmüşdür. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı (1960), "II dərəcəli Vətən müharibəsi" (1944), "I dərəcəli İkinci Dünya müharibəsi ordeni" (1985) və medallarla təltif olunmuşdur. Azərbaycan Təhsil Muzeyində pedoqoji iş təcrübəsini öyrənmək məqsədilə xüsusi guşə açılmışdır. 1995-ci il yanvarın 25-də Bakıda vəfat etmişdir.

**Əsərləri:** "Doroqoy jizni" (1959), "Nezrimıy poyedinok" (1962), "Delo jizni" (1980), "Polad sınar, əyilməz" (1984), "Ürək parası" (1990) və s.

## Xarici ədəbiyyat

**29. Fransız yazıçısı A. Sent-Ekzüperinin anadan olmasının 115 illiyi (1900- 1944)**



Antuan de Sent-Ekzüperi (fr. Antoine de Saint-Exupéry; 29 iyun 1900 – 31 iyul 1944) — fransız yazıçısı və təyyarəçi. "Balaca şahzadə" və "İnsanlar planeti" əsərləri ilə dünya şöhrəti qazanmışdır.

**Əsərləri:** “Hərbi təyyarəçi” (1942), “Balaca şahzadə” (1943) və s.

## İyul

### Əlamətdar tarixi günlər və bayramlar

Polis İşçiləri günü 03.07.1998

Milli Mətbuat və Jurnalistika günü 22.07.1875

### Bu tarixi unutmayaq

Ağdam rayonunun işğalı günü 01.07.1993

### İncəsənət

Xalq artisti Rauf Atakişiyevin (15.07.1925-03.02.1994) 90 illik yubileyi

Rəssam, heykəltəraş Cəlal Qaryağdının (15.07.1915-2001) 100 illik yubileyi

Xalq artisti Məmmədbağır Bağırzadənin (21.07.1950-30.10.2005) 65 illiyi

### Yubilyar yazıçı və şairlər

Ədəbiyyatşünas Pənah Xəlilovun(01.07.1925) 90 illik yubileyi

Şair Abduləziz Xanəhmədoğlunun (01.07.1955) 60 illik yubileyi

Şair Kərim Faiqin (07.07.1925) 90 illik yubileyi

Şair S. Ə. Şirvaninin (09.07.1835-01.06.1888)180 illik yubileyi

Xalq yazıçısı Sabir Əhmədlinin (10.07.1930) 85 illik yubileyi

Yazıçı, dramaturq Nağı Nağıyevin (13.07.1910-1981)105 illik yubileyi

Timuçin Əfəndiyevin (17.07.1945) 70 illik yubileyi

Yazıçı Vasif Nəsiboğlunun (25.07.1935-1997) 80 illik yubileyi

Şair Məstan Günərin (25.07.1935) 80 illik yubileyi

### Xarici ədəbiyyat

Rus uşaq yazıçısı Lev Kassilin (10.07.1905-21.06.1970)110 illik yubileyi

## İYUL

## Əlamətdar  tarixi günlər və bayramlar

### 2. Polis işçiləri günü

***Xidmət etmək sayılır kişilikdən nişana,***
***Xalqına xidmət etmək bir şərəfdir insana.***

**N.Gəncəvi**



**Bu gün polis işçilərinin peşə bayramı günüdür. Azərbaycanın ilk polis bölüyü 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə cinayətkarlıqla mübarizə aparmaq və ictimai təhlükəsizliyi təmin etmək məqsədilə yaradılıb.**

Polis bölüyünün yaranmasından 80 il sonra həmin gün polislərin peşə bayramı kimi qeyd olunmağa başlayıb. Belə ki, Prezident Heydər Əliyevin 24 may 1998-ci il tarixli "Azərbaycan Polisi gününün təsis edilməsi haqqında" fərmanına əsasən iyulun 2-si Azərbaycan daxili işlər orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd olunur. Azərbaycan polisinə verilən bu önəmin səbəbi ondan qaynaqlanır ki, ulu öndər ölkəmizdə daim polisin fəaliyyətinə yüksək qiymət verib. İctimai sabitliyin qorunub saxlanmasında, cinayətkarlıq hallarının qarşısının alınmasında daxili işlər orqanlarının fəaliyyəti yüksək qiymətləndirilib. Azərbaycan polisi dövlətə və xalqa yüksək sadiqlik nümayiş etdirməklə mühüm vəzifələrin öhdəsindən həmişə layiqincə gəlib. Daxili işlər orqanlarında xidmətə hazırlığın yüksəlməsi intizamın güclənməsi, mənəvi psixoloji durumun və sosial müdafiənin yaxşılaşdırılması, peşəkar kadr özəyinin yaradılması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan polisi cinayətkarlığa qarşı mübarizədə ictimai qaydanın və təhlükəsizliyin təminində daxili sabitliyin yaradılması sahəsində qanunla müəyyən edilən vəzifəsini layiqincə yerinə yetirir. Azərbaycan polisi Birinci Qarabağ müharibəsi zamanı ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. Daxili işlər orqanlarının və daxili qoşunların şəxsi heyətinin 931 nəfəri bu müharibədə şəhid olmuşdur. Polisin sıralarında xeyli sayda "Milli Qəhrəman" adına, habelə orden və medallarla təltifə layiq görülənlər vardır. Bu gün Azərbaycan polisi öz peşəkarlığını artırmaqla yanaşı, eyni zamanda beynəlxalq standartlara uyğunlaşdırılır.

## 22.Milli Mətbuat və Jurnalistika günü

***“Mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmiş milli mətbuatımız həmişə xalqımızın şanlı tarixinin güzgüsü olmuşdur.”*** **Ulu öndər Heydər Əliyev**



22-iyul Azərbaycanda Milli mətbuat və Jurnalistika günü kimi qeyd edilir. Azərbaycan mətbuatının banisi Həsən bəy Zərdabi böyük çətinliklərdən sonra Bakıda Azərbaycan dilində "Əkinçi" qəzetinin çap olunmasına nail olmuş, və qəzetin ilk nömrəsi 1875-ci ilin iyulun 22-də işıq üzü görmüşdür. "Əkinçi" qəzeti xalqımızın milli oyanışında, milli birliyinin möhkəmləməsində böyük rol oynamışdır. Qəzetin müttərəqqi ideyaları Rusiya hakim dairələrini narahat etmiş və iki il sonra qəzet bağlanmışdır. XIX əsrin sonlarında "Ziya",(1879), "Kəşkül" (1880), "Kaspi" (1880-1890-ci illər) qəzetləri nəşrə başlamışdır. XX əsrin əvvəlində C.Məmmədquluzadə, M. Şaxtaxtiniski, S.Hüseyn, Ö.Faiq Nemanzadə, Ü.Hacıbəyov və başqaları yeni demokratik mətbuatın yaranması uğrunda mübarizə aparırdılar. "Həyat", "Açıq söz", "Azərbaycan" kimi demokratik ruhlu, milli qayəli qəzetlər meydana çıxdı. 1906-ci ildə "Molla Nəsrəddin " jurnalının nəşrə başlanması ilə Azərbaycan mətbuatında siyasi satiranın əsası qoyuldu. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox milli-mənəvi dəyərlərə qayıdış mətbuat sahəsində də özünü göstərdi. Bu gün ölkəmizdə yüzlərlə mətbu orqan-qəzet və jurnal fəaliyyət göstərir. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əkinçi" qəzetinin nəşrə başlandığı gün-22 iyul Milli Mətbuat və Jurnalistika Günü kimi qeyd olunmağa başladı.



Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyasının 50-ci maddəsində söz, azad məlumat toplamaq azadlıqları, öz baxışlarının azad ifadə edilməsi və digər azadlıqlar möhkəmləndirilib. Azərbaycanda mətbuatın inkişafına töhfə verən digər vacib amil ölkənin nüfuzlu beynəlxalq təşkilata – Avropa Şurasına daxil olmasıdır. Təşkilata daxil olduqdan sonra ölkədə aparılan demokratik islahatlar söz və mətbuat azadlığının daha geniş təşəkkülünə şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ilin martın sonunda imzaladığı sərəncamla Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və mətbuat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir.

## Bu tarixi unutmayaq

### 1. 1. Ağdam rayonunun erməni qəsbkarları tərəfindən işğalı günü (1993)

***"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır."***

**Ulu öndər Heydər Əliyev**



**Ağdamda itirdiklərimiz**

23 iyul 1993-cü ildə rayonun 88395 hektar ərazisi, 1 şəhəri, 119 kənd və qəsəbəsi Ermənistan Respublikası tərəfindən işğal olunub.

Ağdam rayonunun işğaldan əvvəl 1736 hektar dövlət meşəsi, 710 hektar kolxoz meşəsi, 560 hektar yol, su və kanal kənarı, şəhərətrafı meşə sahəsi mövcud idi. Rayonun ümumi ehtiyatları 64863 min $m^3$ olan mişar daşı, 140464 min ton çobandağ əhəngdaşı, 44708 min ton Boyəhmədli və 25197 min ton Şorbulaq gil yataqları işğal olunmuş ərazilərdə qalıb. Rayon ərazisindən keçən ən iri çay olan Xaçınçayın uzunluğu 104 km, su toplayıcı sahəsi isə 657 $km^2$-dir. Ağdam şəhərində yaşı 150-250 ilədək olan 14 ədəd, Boyəhmədli kəndi ətrafında isə yaşı 400 ilə çatan 71 ədəd Şərq çinarı təbiət abidəsi kimi qorunurdu. İşğal olunmuş ərazilərdən yaşı 400-ə çatan şərq çinarı növündən olan ağacların doğranaraq Ermənistan istiqamətində aparılması və iri gövdəli ağacların qırılaraq yığıldığı müşahidə edilib. Rayonun işğal altında olan Novruzlu, Yusifcanlı, Kəngərli, Çəlik, Qaradağlı-Kəngərlisi, Göytəpə, Gülçülük kəndlərində 6330 hektar otlaq sahəsi erməni hərbçiləri tərəfindən yandırılıb. Yanğın zamanı "Qırmızı kitab"a və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı siyahısına" düşmüş müxtəlif sayda turac, qırqovul və gürzə məhv olunub. Ölkə daxilində hakimiyyəti ələ keçirmək uğrunda gedən siyasi çəkişmələr, ordunun sadəcə olaraq, pərakəndə dəstələrindən ibarət olması və bu dəstəklərdəki özbaşınalıq, hərc-mərclik nəticə etibarı ilə Ağdamın işğal altına düşməsinə şərait yaratmış oldu. İşğal nəticəsində təhsil, səhiyyə, mədəniyyət ocaqları, yaşayış evləri, inzibati binalar dağıdılaraq yerlə-yeksan edilmişdir. Erməni faşistləri tərəfindən aparılan bu ədalətsiz müharibə nəticəsində çoxsaylı həmvətənlərimiz qətlə yetirilmiş, itkin düşmüş, əsir götürülmüşdür. Lakin bu gün hər birimiz böyük ümid hissi ilə yaşayırıq. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan Milli Ordumuz bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında daha da güclənmiş, daha da qüdrətli olmuşdur. Xalqımız inanır ki, dövlətimiz tərəfindən aparılan ardıcıl, məqsədyönlü siyasət torpaqlarımızın işğaldan azad olmasına gətirib çıxaracaqdır.

## İncəsənət

### 15. Xalq artisti, müğənni Rauf Atakişiyevin anadan olmasının 90 illiyi

***"Yüksək mədəniyyətə malik olan xalq, irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir..."***

**Ulu öndər Heydər Əliyev**



**Rauf İsrafil oğlu Atakişiyev (15 iyul 1925 – 3 fevral 1994) - müğənni, lirik tenor, pianoçu, pedaqoq, Azərbaycan SSR xalq artisti (1967)**

Moskva Dövlət Konservatoriyasını Konstantin Nikolayeviç İqumnovun (1873-1948) sinfi üzrə bitirmiş və vokal üzrə Antonina Vasilyevna Nejdanovadan (1873-1950) dərs almışdır. Opera və Balet Teatrının solisti olmuşdur.

**Yaradıcılığı**

Azərbaycan Opera və Balet Teatrının səhnəsində Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasında Əsgərin partiyasını ifa etmişdir. 1965-ci ildə çəkilmiş "Arşın mal alan" filmində də Əsgərin mahnıları Atakişiyevin ifasında səslənmişdir. Lenski ("Yevgeni Onegin", P.Çaykovski), Alfred ("Traviata", C.Verdi), Qraf Almaviva ("Sevilya bərbəri", C.Rossini), Faust ("Faust", Ş.Quno), Balaş ("Sevil", F.Əmirov) , Knyaz Sinoda ("Demon", Anton Rubinşteyn), Hofman ("Hofmanın nağılları", Jak Offenbax), Malxaz ("Daisi", Zaxari Paliaşvili), Edmond ("Kornevil zəngləri", Rober Plaket), Anatoli ("İnsanın taleyi") partiyalarını oxuyub. Lirik-dramatik tenor səsi olub və həm də pianoçudur.

Rəşid Behbudovun ifasında daha çox məşhur olan "Я встретил девушку" mahnısının ilk ifaçısıdır. Mahnı ilk dəfə 1957-ci ildə Tacikistan SSR-in "Stalinabad" kinostudiyasında çəkilmiş eyniadlı filmdə ifa olunmuşdur.

**Filmoqrafiya:**

1. Konsert (film, 1961)
2. Arşın mal alan (film, 1965)
3. İmtahan (film, 1987)

**15. Rəssam, heykəltəraş Cəlal Qaryağdının anadan olmasının 100 illiyi (1915-2001)**



Azərbaycan heykəltəraşlıq məktəbinin banilərindən biri, görkəmli sənətkar Cəlal Qaryağdı 1915-ci il iyulun 15-də Şuşada anadan olub. Şuşanın məşhur Qaryağdılar nəslinin nümayəndəsi, böyük xanəndə Cabbar Qaryağdıoğlunun qardaşı oğludur. Erkən yaşlarında ata-anasını itirib, onu xalası ilə nənəsi böyüdüb. 1927-ci ildə Cəlal Bakıya gəlib. Burada Rəssamlıq Məktəbinə qəbul olunur. Sonra təhsilini Tbilisi Rəssamlıq Akademiyasında (1932-1935) davam etdirir, lakin maddi imkansızlıq ucbatından təhsilini yarımçıq qoyaraq Bakıya qayıdır.

30-cu illərdə qəzetlərdə rəssam, həm də Rəssamlıq Məktəbində müəllim olaraq çalışır. 40-cı illərdə heykəltəraşlıq əsərlərini yaratmağa başlayır. İçərişəhərin qala divarlarının yaxınlığında görkəmli satirik şair M.Ə.Sabirin heykəli (memar Ə.İsmayılov və Q.Əlizadə, 1958-ci il) Cəlal Qaryağdının ilk böyük işlərindən biridir. Əlində kitab, oturmuş halda təsvir olunan şairin baxışlarından «süzülüb gələn» satirik misralar sanki tamaşaçını ovsunlayır. Sənətkar Qara Qarayevin, Fikrət Əmirovun, Bülbülün, Niyazinin, Cahangir Cahangirovun və başqalarının büstlərini yaradıb. Nizami adına Ədəbiyyat Muzeyinin binası heykəltəraşlıqla memarlığın sintezinə ən gözəl nümunədir. Burada tətbiq olunan milli memarlıq elementləri binanın xarici görünüşünə bir incəlik və zəriflik gətirir. Muzeyin qərb fasadının eyvanında qoyulmuş ədəbiyyatımızın görkəmli xadimlərinin heykəlləri binanın arxitekturası ilə plastik əlaqə və həmahənglik təşkil edir. Burada görkəmli sənətkarlardan F.Əbdürrəhmanov M.Füzulinin, C.Qarayağdı M.P.Vaqifin, E.Tripolskaya X.Natəvanın, P.Sabsay M.F.Axundovun, N.Zaxarov C.Məmmədquluzadənin, S.Klyatski C.Cabbarlının heykəllərini (1939-1940-cı illər) ustalıqla işləyiblər. C.Qaryağdının monumental-dekorativ heykəltəraşlıq əsərləri bədii ifadəliyi və dinamikliyi ilə diqqəti cəlb edir. Nəriman Nərimanovun heykəli (1972), Sovet İttifaqı Qəhrəmanı general Həzi Aslanovun abidəsi (1983, Lənkəran) Azərbaycan heykəltəraşlığının qiymətli nümunələri sırasına daxildir.

O, rəssam, heykəltəraş kimi müxtəlif janrlarda monumental heykəl, portret, büst, barelyef və s. əsərlər yaradıb. Bu cür yaradıcılığı ilə seçilən rəssam Azərbaycanda keçirilən sərgilərdə sənət nümunələrini təqdim edib və uğurlar qazanıb.Cəlal Qaryağdının yaradıcılığı zamanın müxtəlif dövrlərini özündə yaşadır. Bu mənada ki, Nizaminin "Xosrov və Şirin" poemasının motivləri əsasında hazırlanmış "Fərhad Bisütun dağını yararkən" barelyefi, Xurşidbanu Natəvanın büst və portretləri diqqəti cəlb edir. Onun "Tarçalan", "Kamançaçı", "Xanəndə" fiqurlarında obrazların yığcamlığı və milli kolorit özünu göstərir. Cəlal Qaryağdı bədii təfəkküründən yaranan incə ştrixləri rənglərin və fırçanın köməyi ilə kətan üzərində əks etdirərək, əsərlərinin hər birində yüksək sənətkarlıq nümayiş etdirib. Görkəmli sənətkar 2001-ci ildə vəfat edib.

## 21. Xalq artisti Məmmədbağır Bağırzadənin anadan olmasının 65 illiyi (1950-2005)



Məmmədbağır Bağırzadə 21 iyul 1950-ci ildə Bakının Nardaran kəndində dünyaya gəlmişdir. Məmmədbağır Bağırzadənin sənət yolu toylardan və el şənliklərindən başlamışdır. O adətən öz mahnılarını oxusa da, klassik, müasir bəstəkar və şairlərin yaradıcılığına müntəzəm müraciət edirdi. Xüsusilə də, şairə Zivər Ağayeva ilə qurduğu yaradıcılıq əlaqələri nəticəsində Azərbaycan milli musiqi sənətinə çox sayda gözəl mahnılar bəxş etmişdir. Məmmədbağır Bağırzadəni televiziyaya gətirən və onun yaradıcılığında xüsusi rol oynayan bəstəkar Ələkbər Tağıyev olmuşdur. Müğənninin repertuarına Oqtay Kazımovun, Nəriman Məmmədovun, Tahir Əkbərin və digərlərinin mahnıları da daxil idi. Məmmədbağır Bağırzadə 30 oktyabr 2005-ci ildə vəfat etmişdir.

**Repertuarı**

- Səməni nazlı gəlin (Şəkərbura-paxlava) - söz və musiqi: Məmmədbağır Bağırzadə
- Hülya - söz və musiqi: Məmmədbağır Bağırzadə
- İstəmir məni - musiqi: Məmmədbağır Bağırzadə, söz: Əliağa Vahid
- Darıxıram sənin üçün - musiqi: Məmmədbağır Bağırzadə, söz: Ə. Şahin
- Sən gəlməz oldun - musiqi: Ələkbər Tağıyev, sözlər: Mədinə Gülgün
- Azərbaycan oğluyam - musiqi: Ələkbər Tağıyev, sözlər: Hafiz Baxış
- Gecə yaman uzundur - musiqi: Firəngiz Babayeva, sözlər: Fikrət Qoca
- Sənli günlərim musiqi: Oqtay Kazımi, sözlər: Ruzigar Əfəndiyeva
- Tello musiqi: Oqtay Kazımi, sözlər: Vahid Əziz
- Bağban - musiqi: Ş. Fazil
- Nəvə - musiqi: Zivər Ağayeva
- Muğam
- Dilkeş təsnifi
- Naz-naz
- Dözə bilmədim

## Yubilyar yazıçı və şairlər

### 1. Ədəbiyyatşünas, tənqidçi Pənah Xəlilovun anadan olmasının 90 illiyi (1925)



**Xəlilov Pənah İmran oğlu - ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, 1963-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1969), professor (1971**)

Pənah Xəlilov 1925-ci il iyulun 1-də Gürcüstanın Borçalı rayonunun Sadaxlı kəndində ziyalı ailəsində anadan olmuşdur. İbtidai təhsilini kənddə almışdır. 1934-cü ildə ailəlikcə Gəncəyə köçdüklərindən M.Ə.Sabir adına 5 saylı şəhər orta məktəbində oxumuş, ADU-nun filologiya fakültəsini bitirib (1943-1948), orada Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspirantı (1948-1951), sonra həmin kafedrada baş müəllim, dosent (1951-1969), SSRİ xalqları ədəbiyyatı tarixi kafedrasının müdiri (1969-1989) olmuşdur. 1948-ci ildən fəal ədəbi yaradıcılığa başlamışdır. Ədəbi tənqid, ədəbiyyatşünaslıq və bədii tərcümə ilə məşğul olmuşdur. Azərbaycan ədəbiyyatı və keçmiş SSRİ xalqları ədəbiyyatı sahəsində ixtisaslaşmışdır. "Azərbaycan sovet ədəbiyyatı tarixi" (üç cilddə) və "Azərbaycan sovet ədəbiyyatı tarixi oçerkləri" (rusca) kitablarının müəlliflərindən biridir. Azərbaycan yazıçılarının VI qurultayında idarə heyətinə seçilmişdir.

**Əsərləri:** **“**Sovet ədəbiyyatının son nailiyyətləri” 1964, **“**Azərbaycan sovet ədəbiyyatı” (1966), **“**SSRİ xalqları ədəbiyyatı” : iki cilddə. I c. (1966), **“**SSRİ xalqları ədəbiyyatı “: iki cilddə. II c. (1968), **“**Sovet ədəbiyyatı”: dərsliyə əlavə. (1970), **“**Dostluğun gücü” (1972), **“**Ədəbiyyatşünaslığın əsasları” (1972), **“**SSRİ xalqları ədəbiyyatı” : iki cilddə. I c. (1975), **“**SSRİ xalqları ədəbiyyatı : iki cilddə. II c. (1977), **“**Nəsrimizin üfüqləri” (1982), **“**Ədəbiyyatşünaslığın əsasları” (1988),"Kitabi-Dədə Qorqud" – intibah abidəsi. (1993), **“**Türk xalqlarının və Şərqi slavyanların ədəbiyyatı” (1994)**, “**Əhməd Yəsəvi” (1998)**, “**Nizami Gəncəvi və SSRİ xalqları ədəbiyyatı” : məqalələr toplusu. (1986) və s.

**Tərcümələri** (rus dilindən): “Üç qardaş” (1972), “Ağıllı qız” (1972), “Bir uşaq şəhəri necə xilas elədi” (19720, “Qızıl alma” (1972), “Dombra nə dedi? “ (1972), “Yarı qulağın nağılı” (1972), “Kəndlilər ağanı təbrik etdilər” (1972), “Çöl qazları” (1972), “Sehirli dəyirman” (1972), “Beş kökə” (1982), “Ərik çəyirdəyi” (1982), “İki Peters” (1982), “Kəndli və tamahkar pan” (1982), “Dabbağ Kiril” (1983), “Herodot” Tarix : 9 kitabda. (1994) və s.

## 1. Şair Abduləziz Xanəhmədoğlu anadan olmasının 60 illiyi (1955)



1955 - ci il iyulun 1- də Azərbaycan Kürdəmir rayonunun Çarlı kəndində anadan olmuşdur. Burada kənd orta məktəbində təhsil almışdır.(1962-1972). Şirvan şəhərindəki Pedoqoji Texnikuma daxil olmuşdur və orada təhsilini davam etdirmişdir (1972-1978). Hazırda Çarlı kənd orta məktəbində təlim – tərbiyə işləri üzrə direktor müavinidir. İlk şeirləri məktəbin divar qəzetlərində çıxmışdır. Sonra "İrəli", "İşıq" rayon qəzetlərində vaxtaşırı dərc olunmuşdur. Otuz ildən artıqdır ki, səmərəli ədəbi fəaliyyətini davam etdirir. "Qızıl qələm" Media mükafatı laureatıdır.

**Əsərləri:** "Sənsiz günlərim" (2000), "Ömrün nəğmə payı" (2000),"Söz ürəyə toxunanda" (2001), "Müəllim ömrü" (2001), "Tərs keçilər" (2002), "Bilmirəm mən səni necə tapmışam" (2003), "Ömürdən qalan izlər" (2004), "Bir günəş parladı" (2008), "Gecikmiş etiraf" (2009), "Eldən gedən igid" (2009) və s.

## 7. Şair Kərim Faiqin anadan olmasının 90 illiyi (1925)



**Quliyev Kərim Əliqulu oğlu şair, 1958 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

1925-ci il iyulun 7- də Ordubad rayonunun Unus kəndində yoxsul bir ailədə doğulmuşdur. Üç yaşından gözlərini itirmişdir. 15 yaşında ikən Bakıda xüsusi uşaqlar üçün korlar məktəbinə daxil olmuşdur. Buranı bitirdikdən sonra ADU – nun filologiya fakultəsinin jurnalistika şöbəsində Nizami təqaüdü ilə təhsil almışdır (1952-1957).Bakıda Oktyabr rayonunun Korlar Cəmiyyətində sədr müavini(1973-1976), cəmiyyətin mədəniyyət evində müdir (1976-1983) olmuşdur. Bakı şəhəri Nizami rayonu korlar cəmiyyətində sədr vəzifəsində işləmişdir(1983-1985).Hazırda Respublika kor uşaqlar internat məktəbində ədəbiyyat dərnəyinin rəhbəridir. Ədəbi fəaliyyətə 1948-ci ildə "Ədəbiyyat" qəzetində çap etdirdiyi "Sahildə" adlı ilk şeiri ilə başlamışdır. Bundan sonra mətbuatda vaxtaşırı çıxış etmişdir.

**Əsərləri:** "İlk sınaq" (1957), "Kiçik dostlarıma" (1959), "Sənin qüdrətin" (1960), "Balaca bənna" (1964), "Səni düşünürəm" (1967), "Həyat eşqi" (1970), "Səndən doymadım" (1977), "Rəfiqələr" (1978), "Necə sevməyim" (1983) və s.

## 9. Şair Seyid Əzim Şirvaninin anadan olmasının 180 illiyi (1835-1888)

***"Seyid Əzimin mənzum hekayə və öyüdlərində həyata çağırış pafosu çox qüvvətlidir. Bu da şairin mütərəqqi görüşləri, maarifçi ideyalara inamı ilə bağlı olan bir haldır."***

***"Seyid Əzim bizim canlı müasirimizdir. O, Füzuli təbiətli, Füzuli qüdrətli söz bahadırlarındandır; onun da poeziyası illər keçdikcə öz bədii təravətini və gözəlliyini itirmir."*** **Filologiya elmləri doktoru S. Hüseynov**



**Seyid Əzim Şirvani - XIX əsr Azərbaycan şairi və maarifpərvəri.**

Seyid Əzim Şirvani 1835-ci il iyul ayının 9-da Şamaxıda ruhani ailəsində anadan olmuşdur. 1856-cı ildə ali ruhani təhsili almaq həvəsi 21 yaşlı gənc Seyid Əzimi İraqa, əvvəl Nəcəf və Bağdada, sonra isə Suriyanın Şam şəhərinə aparır. Gənc şair İraqda oxuyarkən dünyəvi elmlərə də böyük maraq göstərir. Şamaxıya qayıtdıqdan sonra 1869-cu ildə orada yeni üsul üzrə məktəb açaraq ömrünün axırına qədər burada müəllimlik edir. Köhnə mollaxanalardan fərqli olaraq o, bu məktəbdə uşaqlara dini elmlərlə yanaşı, Azərbaycan və fars dillərini təlim edir, tarix, coğrafiya, hesab və s. fənlərdən ibtidai məlumat da verirdi. Təsadüfi deyil ki, Azərbaycanın görkəmli şairi Mirzə Ələkbər Sabir, məşhur yazıçı və pedaqoq Sultan Məcid Qənizadə və bir sıra başqa yazıçılar məhz onun məktəbində oxumuşlar. Zəngin ədəbi yaradıcılığa malik olan Seyid Əzim Şirvaninin bədii irsi biri azərbaycanca, digəri isə farsca iki böyük külliyyatdan ibarətdir. Şairin əsərləri içərisində müxtəlif Şərq mənbələrindən etdiyi tərcümələr, Sədi, Hafiz və Məhəmməd Füzuli şeirlərinə yazdığı nəzirələr də vardır. Seyid Əzim Şirvani yaradıcılığının çox hissəsi lirik janrda yazılmış orijinal əsərlərdən ibarətdir ki, bunların da çoxu qəzəllərdir. Seyid Əzim Şirvani yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirlərilə başlayır ki, artıq bu zamandan etibarən onun yaradıcılığında realizm üstünlük təşkil edir. Onun realist şeir yaradıcılığı sahəsinə keçməsində "Əkinçi" qəzetinin mühüm rolu olmuşdur. Seyid Əzim Şirvaninin ictimai mahiyyət daşıyan satiraları onun ümumi yaradıcılığında müstəsna mövqe tutur. Onu öz dövrünün böyük realist şairi kimi tanıdan "**Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Alim oğul ilə avam ata"** və s. satiralarıdır.

**Uşaqlar üçün yazdığı əsərlər**: "Xoruz və çaqqal, "Xan və dehqan", Məktəbli ilə müəllimin əhvalatı", "Alimin zalım padşaha cavabı", "Dəvə və balası", "Qaz və durna", "Aslan və iki öküz", "Ayı və siçan", Dəvə ilə eşşəyin yol getməsi", Siçan və pişik" və s. Öz zəngin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixinə qızıl səhifələr əlavə edən Seyid Əzim Şirvani 1888-ci il iyunun 1-də Şamaxıda vəfat etmişdir.

## 10. Xalq yazıçısı Sabir Əhmədlinin anadan olmasının 85 illiyi (1930)

***“Sabir Əhmədlinin əsərlərində milli əxlaqımızın təmizliyi, şəxsiyyətin aliliyi, böyük təəsübkeşlik və vətənpərvərlik yaşayır.”***

**Fəlsəfə üzrə doktor Ə. Abbasova**



**Əhmədli Sabir Məmməd oğlu - nasir, publisist, 1955-ci ildən AYB-nın üzvü, Azərbaycanın xalq yazıçısı (1992), Əməkdar incəsənət xadimi (1984). Mükafatları:"Əmək şöhrətinə görə" medalı ilə təltif edilmişdir (1975). "Qızıl sünbül" ədəbi mükafatı laureatı (1991).**

Sabir Əhmədli 1930-cu il iyulun 10-da Azərbaycanın Cəbrayıl rayonunun Cəbrayıl kəndində anadan olmuşdur. ADU-nun filologiya fakültəsini bitirmişdir. Sabir Əhmədli yaradıcılığında 30-cu illərdən 90-cı illərin sonunadək xalqımızın taleyində baş verən bir çox acılı-şirinli məqamlar bədii ifadəsini tapmışdır. O, realist qələminə sarılıb, gördüyü, duyduğu kimi yazmış, oxucu ürəyinə yol tapmışdır. Həyatının dərd və sevincinin ifadəsini Sabir Əhmədli əsərlərində görmüş, xalqı onun əsərlərini sevə-sevə oxumuşdur. Həmin kitabın nəsr bölməsində Sabir Əhmədlinin "Arabaçı" hekayəsi oxucuların və ədəbiyyatşünasların diqqətini daha çox cəlb etmişdi. Təkcə "Arabaçı" hekayəsinə görə Sabir Əhmədli SSRİ Yazıçılar İttifaqına üzv qəbul olundu. Az sonra isə (1956-cı ildə) "Ədəbiyyat qəzeti"nin nəsr şöbəsinin müdiri təyin edildi. Sabirin hekayələri mətbuatda, əsasən jurnalda tez-tez çıxırdı. Çox keçmədi ki, onun "Bir payız axşamı" kitabı (Azərnəşr, 1961) səs saldı. Tələbələrin, ümumiyyətlə ədəbiyyatı sevənlərin əlindən düşmürdü. Xüsusilə respublika kitabxanaları, məktəb kitabxanaları Sabirin kitablarını az zamanda kitab mağazalarından götürür, ya da Kəndkitabın xətti ilə sifariş edirdilər.1989-cu ildə "Azərnəşr"də Sabirin iki cildlik əsərləri çap edildi. Çox az zamanda həmin kitablar əl-əl gəzilirdi. Onun bir-birinin ardınca çıxan "Aran" ("Uşaq Gəncnəşr",1962) iki hissəli romanı, "Pillələr" ("Azərnəşr", 1964), "Yamacda nişanə" ("Gənclik", 1973), "Toğana" ("Yazıçı" 1981), "Mavi günbəz" ("Gənclik", 1984, povestlər), "Yasamal gölündə qayıqlar üzürdü" ("Yazıçı", 1984), "Yasaq edilmiş oyun, Gülmalı kişinin axırı" ("Yazıçı", 1988) sürətlə respublikamızın hər tərəfinə yayılmışdı. Sabir poeziyada təbiət şeirlərini çox sevirdi. Onun roman, povest, hekayələrində təbiət az sözlə çox dəqiq təsvir edilirdi. Həmin təsvir də əsərdəki ovqatla birləşirdi. Sabir başqa yazıçılarımızın təzə çıxan əsərlərinə, onun bədii taleyinə oxucunun münasibəti necə olacağını bir "görücü" kimi bəri başdan deyirdi.

**Əsərləri:** "Toğana" (1981),"Yasamal gölündə qayıqlar" (1984), "Gedənlərin qayıtmağı, dünyanın arşını" (1985), "Kütlə" (1999),"Axirət sevdası" (2003), "Şəhid" (2004) və s. kitabların müəllifidir.

**Filmoqrafiya**

Evlənmək istəyirəm (film, 1983)

**13. Yazıçı, dramaturq Nağı Nağıyevin anadan olmasının 105 illiyi (1910-1981)**



Nağı Kərim oğlu Nağıyev 13 iyul 1910-cu ildə Culfa rayonunun Yaycı kəndində anadan olmuşdur. O, 1930-cu ildə Naxçıvan Pedaqoji Texnikomunu bitirmiş, 1930-1941 illərdə Ordubad və Babək rayonlarının kənd məktəblərində müəllimlik etmişdir. Nağı Nağıyev 1935-1938 illərdə Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun Dil və ədəbiyyat fakültəsində təhsil almışdır. Nağı Nağıyev 1942-1945 illərdə Azərbaycan KP Naxçıvan Vilayət Komitəsində mətbuat bölməsinin müdiri, 1946-1949 illərdə Naxçıvan Mətbuat İdarəsinin rəisi, 1949-1951 illərdə Naxçıvan Dövlət Radio Verilişləri Komitəsinin müdiri vəzifələrində çalışmışdır. O, 1945-1951 illərdə Azərbaycan Yazıçılar İttifaqı Naxçıvan filialının məsul katibi olmuşdur. Nağı Nağıyev 1951-ci ildən ömrünün sonuna kimi Bakıda yaşamış, "Azərnəşr"də bədii ədəbiyyat şöbəsinin müdiri işləmişdir. Nağı Nağıyev II Dünya Müharibəsi iştirakçısıdır. Nağı Nağıyev 13 may 1981-ci ildə Bakıda vəfat etmişdir. Nağı Nağıyev qırx ilə yaxın bədii yaradıcılıqla məşğul olmuşdur. O, üç səhnə əsərinin bir çox hekayə, oçerklərin və ilk iri həcmli əsəri olan "Həsrət" romanının müəllifidir. Həmçinin, "Qaynar bulaqlar", "Sumqayıtda", "Milyoner briqada", "Geoloqlar", "Püskürən dərə" adlı oçerklərində həyatın müxtəlif sahələri ilə maraqlanmış, müxtəlif peşə adamlarının həyatını qələmə almışdır. Nağı Nağıyev tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuşdur. O, Andre Stilin, Aybəkin, A.T.Stuçenkonun, Cəlal İkraminin, M.Kolosnikovun, Bojena Nemtsovanın və başqa xarici yazıçıların əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

**Əsərləri:** “Yer altında” (1953), “Nişanə” (1956), “Sumqayıtda” (1959), “İki tale” (1961), “Həsrət” (1965), “Yaralı qız” (1966), “Seçilmiş əsərləri” (1974) və s.

**17. Tənqidçi, ədəbiyyatşünas Timuçin Əfəndiyevin anadan olmasının 70 illiyi (1945)**

***Timuçin Əfəndiyev Azərbaycanda və xaricdə nəşr olunmuş bir çox kitabın, monoqrafiya və elmi məqalələrin müəllifidir. O, Azərbaycan sovet ədəbiyyatının aktual nəzəri və ədəbi-tarixi problemləri ilə məşğul olur.***



**Timuçin İlyas oğlu Əfəndiyev - tənqidçi, ədəbiyyatşünas, 1987-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1999), professor (2002), Əməkdar incəsənət xadimi (2000). Timuçin Əfəndiyevə 2005-ci ildə 60 illik yubuleyi ilə əlaqədar "Şöhrət ordeni" ilə təltif olunmuşdur, İngiltərənin Kembric Universitetinin Beynəlxalq Biblioqrafik mərkəzi professor Timuçin Əfəndiyevi "2005-ci il dünyanın aparıcı pedaqoqu" nominasiyasına layiq görmüşdür, Akademik Yusif Məmmədəliyev adına mükafatın laureatıdır. Azərbaycanda təhsilin inkişafındakı xidmətlərinə görə Əməkdar Elm Xadimi fəxri adına layiq görülmüşdür.(2012)**

Əfəndiyev Timuçin İlyas oğlu 1945-ci il iyulun 17-də Bakı şəhərində tanınmış alim və ictimai xadim, xalq yazıçısı İlyas Əfəndiyevin ailəsində anadan olmuşdur. 7 saylı orta məktəbi (1952-1963) bitirdikdən sonra o, 1963-cü ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olmuşdur. 1968-ci ildə universiteti bitirdikdən sonra Timuçin Əfəndiyev Respublika Gənclər Təşkilatında çalışmışdır. O, 1969-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının aspiranturasına qəbul olunmuş, 1972-ci ildə aspiranturanı bitirərək "Hüseyn Cavidin yaradıcılığı" mövzusunda dissertasiya müdafiə etmiş və elmlər namizədi adını almışdır. Elə həmin ildən Azərbaycan Milli Elmlər Akademiyasında elmi katib vəzifəsində çalışmışdır.Timuçin Əfəndiyev 1977-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində işləyir. O, burada əvvəlcə baş müəllim, sonra dosent vəzifəsi tutmuş, 1987-ci ildən isə professor elmi dərəcəsinə layiq görülmüşdür. 1978-ci ildən 1987-ci ilədək fakültə dekanı olmuşdur. 1987-2014-cü illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru olmuşdur. O, 1999-cu ildə "Romantik dramaturgiyada tarixilik və bədiilik" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Pedaqoji fəaliyyəti ilə yanaşı, ədəbi-elmi yaradıcılığını ardıcıl davam etdirir. "Tanıtım" jurnalı redaksiya heyətinin və Türkiyə "Vəqfi"nin üzvüdür (1991).

**Əsərləri:** "XVIII əsr rus teatrı" (1979), "Hüseyn Cavidin ideyalar aləmi" (1985), "Ukrayna və belarus teatrı" (1986), "Rus teatrı" (1998), "Cəfər Cabbarlı və romantik dramları" (1999), Azərbaycan kino tarixi oçerkləri" (2001), "Azərbaycan dramaturgiyasında metodlar" (2002), "Azərbaycan mədəniyyəti və incəsənəti" (2003) və s.

## 25. Yazıçı Vasif Nəsiboğlunun anadan olmasının 80 illiyi (1935 -1997)



**Əfəndiyev Vasif Nəsib oğlu nasir, ədəbiyyatşünas, 1964 – cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1968), böyük elmi işçi (1979).**

1935-ci il iyulun 25-də Ermənistanın Krasnoselo rayonu Qaraqaya kəndində ziyalı ailəsində anadan olmuşdur. Bakıda 17 saylı orta məktəbi bitirdikdən sonra 18 saylı orta məktəbin kitabxanasında müdir işləmişdir. ADU-nun filologiya fakultəsində təhsil almışdır (1954-1959). "Yarımçıq qalmış roman" adlı ilk hekayəsi 1955-ci ildə "Gəncliyin səsi" almanaxında çapdan çıxmışdır. Bundan sonra hekayələri və elmi məqalələri vaxtaşırı çap olunmuşdur. Azərbaycan EA Yaxın və Orta Şərq Xalqları İnstitutunun türk ədəbiyyatı şöbəsində böyük elmi işçi vəzifəsində işləmişdir.1995-ci il oktyabrın 16-da Bakıda vəfat etmişdir.

**Əsərləri**: "Etiraf" (1964), "Qismət" (1965), "Müasirlik və realizm mövqeyindən" (1972), "Barıt qoxulu bənövşə" (1984) və s.

**Tərcümələr**i: (türkcədən, ruscadan): "Orxan Xəncərlioğlu (1989), "Abdullabəy Divanbəyoğlu" (1966)

## 25. Şair Məstan Günərin anadan olmasının 80 illiyi (1935)

***"Məstan Günər uşaq şeirlərinə görə ilk dövlət mükafatı alan şairdir".***

**Şair Qəşəm Nəcəfzadə**



**Əliyev Məstan Rəsul oğlu (Məstan Günər) - şair, publisist, 1959-cu ildən Azərbaycan Yazıçılar Birliyinin, Jurnalistlər Birliyinin üzvü (1976), Azərbaycan komsomolu mükafatı laureatı (1976), Azərbaycan Dövlət mükafatı laureatı (1980). Jurnalistik fəaliyyətinə görə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir (1970).**

Məstan Günər 1935-ci il iyulun 25-də Tovuz rayonunun Əsrik Cırdaxan kəndində anadan olmuşdur. Tovuz şəhərində orta məktəbi bitirdikdən sonra APİ-nin Azərbaycan dili və ədəbiyyatı fakültəsində təhsil almışdır (1953-1957). İlk şerləri "Sosializm kəndi" rayon qəzetində dərc olunmuşdur. Lakin respublika mətbuatına 1955-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdiyi "İsti köynək", "Körpü" şeirləri ilə çıxmışdır. Həmin vaxtdan ciddi bədii yaradıcılığa başlamışdır. Publisistik və tənqidi məqalələrlə də çıxış edir. Onun ilk qələm təcrübələri, bir sıra

lirik şeirləri "Məstan Dəmirçioğlu", "Məstan Əsrikli", "Məstan Məsum" təxəllüsü ilə çap edilmişdir. İlk kitabları "Qartal", "Məsum Əliyev", "Məstan Əliyev", "Məstan" imzaları ilə dərc olunmuşdur. Son üç kitabı "Məstan Günər" təxəllüsü ilə nəşr edilmişdir. Məstan Günər daha çox uşaqlar üçün yazmışdır. “Çalğıçı quşlar” şeirlər kitabı uşaq poeziyamızın sənətkarlıq axtarışlarının yeni səhifəsidir. Maraqlı uşaq şeirləri olan Məstan Günərin “Tək yeməzlər badamı”, “Ördək necə fil oldu?”, “Nənəsinin iydə qızı”, “Murad pərt olur”, “Qorxaq İmran, qoçaq İmran”, “Yalançı pəhləvan” kimi şeirləri körpə balalarımız tərəfindən sevə - sevə oxunur. “Günəbaxan nənə”, Ağacda leylək”, “Lovğa Murtaz”,”Çoxbilmiş keçi”, “Sel”, “Dəcəl dələ, qorxaq dovşan və qorxmaz küçük”, “Ürəyin nağılı” kimi poema və mənzum nağıllarında uşaqların yaş xüsusiyyətləri, maraq dairəsi nəzərə alınmış, onların zövqünü oxşaya biləcək maraq doğuran əhvalatların bədii təsviri əsas götürülmüşdür. Bir şair kimi onu fərqləndirən cəhətlər təbiilik, aydınlıq, xalqın poetik ruhuna sədaqət, dil və bədii üslub gözəlliyidir. Milli uşaq ədəbiyyatımızın inkişafında əvəzsiz xidmətləri vardır. Əmək fəaliyyətinə jurnalist kimi başlamışdır. Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi işçi, redaktor, şöbə müdiri, baş redaktor olmuşdur. Sonra "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında şöbə müdiri, "Gənclik" nəşriyyatında böyük redaktor, baş redaktor müavini vəzifələrində işləmişdir. Bir müddət Azərinformun müxbiri olmuşdur. Azərbaycan Yazıçılar İttifaqı idarə heyətinin üzvüdür. 2010-cu ildə dünyasını dəyişmişdir.

**Əsərləri**

1. Qartal. – Bakı : Uşaqgəncnəşr, 1960. - 50 s.
2. İlk görüş. – Bakı : Azərnəşr, 1969. - 92 s.
3. Çəmən qızı. – Bakı : Gənclik, 1970. - 102 s.
4. Nərgizim. - Bakı: Gənclik, 1971. - 203 s.
5. Addımlar, addımlar. – Bakı : Gənclik, 1973. - 232 s.
6. Nəğməli qovaq. – Bakı : Gənclik, 1974. - 167 s.
7. Obalardan əsən yellər. – Bakı : Gənclik, 1977. - 190 s.
8. Çalğıçı quşlar. – Bakı : Gənclik, 1978. - 319 s.
9. Bir könüldən min könülə. – Bakı : Yazıçı, 1981. - 226 s.
10. Günərli şerlər. – Bakı : Gənclik, 1981. - 156 s.
11. Mən bir durna qatarında. – Bakı : Gənclik, 1983. - 296 s.
12. Gülə bəndəm. – Bakı : Yazıçı, 1987. - 229 s.
13. Günaylı şerlər. – Bakı : Gənclik, 1988. - 126 s.
14. Qoşmalar. – Bakı : Ağrıdağ, 2000. - 370 s.
15. Seçilmiş əsərlər : iki cilddə. I cild. – Bakı : Yeni nəşrlər evi, 2003. - 436 s.
16. Seçilmiş əsərlər : iki cilddə. II cild. – Bakı : Yeni nəşrlər evi, 2003. - 432 s.

# Xarici ədəbiyyat

## 10. Rus uşaq yazıçısı Lev Kassilin anadan olmasının 110 illiyi (1905 - 1970)



Lev Kassil 10 iyul 1905-ci ildə Rusiyanın Saratov vilayətinin Pokrov qəsəbəsində yəhudi ailəsində doğulmuşdur. İbtidaii məktəbi 1923-cü ildə bitirdikdən sonra gimnaziyada təhsilini davam etdirmişdir. Pokrov uşaq kitabxanası ilə əməkdaşlıq etmişdir. Bu kitabxanada uşaqlar üçün müxtəlif dərnəklər təşkil olunurdu. O, 1923-cu ildən Moskvada yaşamışdır. 1927-ci ildə Moskva Dövlət Universitetinin fizika-riyazziyyat fakultəsini bitirir. 1925-ci ildən isə ədəbiyyatla məşğul olmağa başlamışdır. 1928-1937-ci illərdə "İzvestiya "qəzetinin xüsusi müxbiri olmuşdur. 1937-ci il və sonra1941-1942-ci illərdə "Murzilka" jurnalının baş redaktoru olmuşdur. Böyük Vətən Müharibəsi illərində Kassil radioda, məktəbdə, hərbi hissələrdə çıxışlar edirdi. 1947-1948-ci illərdə O, SSRİ-də Uşaq ədəbiyyatı üzrə komissiyanın təmsilçisi olmuşdur.1947-1949- cu illərdə A.M.Qorki adına Ədəbiyyat institutunda uşaq ədəbiyyatı haqqında seminarlara rəhbərlik etmişdir. Uşaq yazıçısı olaraq ilk dəfə onu Mayakovski təqdim etmişdir. ("Yeni lef" jurnalı 1927). Onun ən tanınmış əsəri olan "Konduit və Şvambraniya" (1928-1931) avtobioqrafik xarakterlidir. Əsər Rusiyada çevrilişə qədərki dövrləri əhatə edib şairin gimnaziya həyatından bəhs edir. "Vratar Respubliki"(1937) əsəri idmana həsr edilmiş ilk romandır. Kassil 21 iyun 1970-ci ildə Moskvada vəfat edib.

**Əsərləri:** "Konduit və Şvambraniya" (1928-1931), "Gündə min paltar" (1931), **"**Respublika qapıçısı"(1937), "Çeremış, qəhrəmanın qardaşı" (1938), "Böyük qarşıdurma" (1941-1947), "Sənin müdafiəçilərin" (1942), "Mənim əziz uşaqlarım" (1944), "Kiçik oğul küçəsi" (1949),"Erkən doğuş" (1953), "Kraliçanın ağ gedişi" (1971), "Lap yaxşı həyat haqqında" (1959), "Qladitor camı" (1961), – "Mayakovskinin özü" (1940,1963), "Əlahəzrət hazır olun" (1964),"Xəritədə olmayan üç ölkə" (1970) və s. **cizgi filmi:** Dostlar - tanışlar (1951)

**Filmləri**

1. Konduit – 1935
2. Qapıçı – 1936
3. Alay dostları – 1938
4. Qəhrəmanın qardaşı – 1940
5. Kiçik oğul küçəsi – 1962
6. Ağ kraliçanın gedişi – 1971
7. Böyük qarşıdurma – 1974
8. Əlahəzrət hazır olun – 1978

## Avqust

**Əlamətdar tarixi günlər və bayramlar**

Azərbaycan əlifbası və Azərbaycan dili günü 01.08.2001

Sərhədçi günü18.08.2002

**Bu tarixi unutmayaq**

Cəbrayıl rayonunun işğalı günü 23.08.1993

Füzuli rayonunun işğalı günü 23.08.1993

Qubadlı rayonunun işğalı günü 31.08.1993

**Xalqımızın qəhrəman oğulları**

Hərbi xadim Cəmşid Naxçıvanskinin (10.08.1895-26.08.1938) 120 illik yubileyi

**Milli qəhrəmanlar zirvəsi**

Milli qəhrəman Ağayev Fərhad İslam oğlunun (04.08.1975) 40 yaşı tamam olur.

Milli qəhrəman Səfərov Sərdar Mədəd oğlunun (12.08.1960) 55 illik yubileyi

**İncəsənət**

Xalq artisti Məmmədrza Şeyxzamanovun (04.08.1915-1984)100 illik yubileyi

Xalq artisti Məmmədtağı Bağırovun (05.08.1890-1961)125 illik yubileyi

Jurnalist Flora Xəlilzadənin (23.08.1955) 60 illik yubileyi

Aktrisa Vəfa Fətullayevanın (25.08.1945-1987) 70 illik yubileyi

**Yubilyar yazıçı və şairlər**

Yazıçı Rafiq Tağının (05.08.1950) 65 illik yubileyi

Yazıçı Yusif Şirvanın (10.08.1910-1979) 105 illik yubileyi

Ədəbiyyatşünas Rafael Hüseynovun (12.08.1955) 60 illik yubileyi

Dilçi, pedaqoq Fərhad Ağazadənin (12.08.1880-1931)135 illik yubileyi

Yazıçı Asif Əliyevin (14.08.1940-2001)75 illik yubileyi

Yazıçı Canalı Mirzəliyevin (15.08.1940-2009)75 illik yubileyi

Yazıçı Nəriman Süleymanovun (15.08.1930-1995) 85 illik yubileyi

Xalq şairi B. Vahabzadənin (16.08.1925-2009)90 illik yubileyi

Yazıçı Şıxəli Qurbanovun (01.08.1925-1967) 90 illik yubileyi

Ədəbiyyatşünas Bəkir Nəbiyevin (21.08.1930) 85 illik yubileyi

Şair Fikrət Qocanın (25.08.1935) 80 illik yubileyi

Şair Ağasən Bədəlzadənin (25.08.1940)75 illik yubileyi

Yazıçı Əlibala Hacızadənin (28.08.1935-2009) 80 illik yubileyi

Yazıçı Ağəddin Mansurzadənin (28.08.1940-2008) 75 illik yubileyi

Yazıçı Əhməd İsayevin (30.08.1940) 75 illik yubileyi

**Xarici ədəbiyyat**

Qazax şairi Abay Kunanbayevin (10.08.1845) 170 illik yubileyi

Aleksandr Kuprinin (26.08.1870-1938) 145 illik yubileyi

## Əlamətdar tarixi günlər və bayramlar

### 1. Azərbaycan əlifbası və Azərbaycan dili günü

***"Dil hər bir xalqın mənəvi sərvəti, qürur yeridir.Tarixin sınağından çıxıb cilalana-cilalana bu günümüzədək gəlib çatan Azərbaycan dili də bizim hər birimiz üçün ana laylası kimi əziz və müqəddəsdir. Öz ana dilini bilməyən adamlar şikəst adamlardır..."***

**Ulu öndər Heydər Əliyev**




Ulu əcdadlarımız olan albanların 52 hərfdən ibarət əlifbası vardı. Ölkəmizdə İslam dininin yayılması ilə əlaqədar ərəb əlifbasından geniş istifadə olunmuş, yüz illər boyu ərəb dili din, elm və təhsil dili rolunu oynamışdır. Lakin əsrlərlə müxtəlif xalqların mədəni əlaqələrinə xidmət etmiş ərəb qrafikası dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirə bilmir, onun quruluşu və xarakteri haqqında tam aydın təsəvvür yaratmırdı. Bu çatışmazlıqlar M. F. Axundzadə başda olmaqla dövrün mütərəqqi maarifçi ziyalılarında əlifba islahatı keçirmək ideyaları yaratmışdı. Lakin o vaxt bu ideyanı həyata keçirmək mümkün olmamışdı.1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Yeni Əlifba Komitəsi yaradıldı. Bu Komitəyə Azərbaycan (türk) dili üçün latın qrafikalı əlifba tərtib etmək tapşırığı verildi. Bu yeni əlifbaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın tövsiyəsinə əsasən 1929-cu il yanvarın 1-dən etibarən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi. Lakin Türkiyə Cümhuriyyətində də latın qrafikalı əlifbaya keçilməsi və bunun nəticəsində SSRİ- də və xaricdə yaşayan türk xalqları arasında mədəni əlaqələrin güclənməsi qorxusu Sovet imperiyası rəhbərliyində Azərbaycan əlifbasının yenidən dəyişdirilməsi planlarını yaratdı.1940-cı il yanvarın 1-dən kiril qrafikalı əlifbaya keçmək haqqında qərar qəbul olundu. Sonralar kiril qrafikasının Azərbaycan dilinin fonetik səs sisteminə uyğunlaşdırılması üçün Azərbaycan kiril qrafikasında müəyyən dəyişikliklər aparıldı. Yarım əsrdən çox bir müddət ərzində kiril qrafikası ilə Azərbaycan elmi və mədəniyyətinin qiymətli nümunələri yaradıldı. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün tarixi şərait yarandı. Nəticədə 1992-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının tətbiqi barədə Qanun qəbul olundu. 2001-ci ildə isə latın qrafikalı Azərbaycan əlifbasına keçid başa çatdırıldı. Latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycan Respublikasının siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 9-da fərman imzalamışdır. Bu fərmanla avqustun 1-i Azərbaycan Respublikasında Azərbaycan Əlifbası və Azərbaycan dili Günü elan edilmişdir.

**18. Sərhədçi günü**

***"Sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır"***

**Ulu öndər Heydər Əliyev**



***"Vətən – Yurdun bütün torpaqlarını birləşdirib vahid, qüdrətli və mərkəzləşdirilmiş Azərbaycan dövləti yaradan, doğma dilimizi Dəmirqapı Dərbənddən İran körfəzinə qədər böyük bir ərazidə - Səfəvi imperatorluğunda dövlət dilinə çevirən Şah İsmayıl Xətayinin əmanətidir bizə!"***

**Ulu öndər Heydər Əliyev**

Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasından sonra 1919-cu ildə milli hökumətin qərarı ilə təsis edilən Hərbi Nazirliyin tərkibində ölkənin bir sıra güc strukturları, o cümlədən Sərhəd Qoşunları fəaliyyətə başlayır. Sovet İttifaqı dövründə Sərhəd Xidməti Dövlət Təhlükəsizlik Komitəsinin bir strukturu kimi fəaliyyət göstərib. Müstəqillik əldə ediləndən sonra Sərhəd Xidməti Milli Təhlükəsizlik Nazirliyinin tərkibində olub. 2002-ci il iyul ayının 31-də isə prezident Heydər Əliyevin imzaladığı sərəncamla sərhəd qoşunları müstəqil qurum- Sərhəd Xidməti kimi fəaliyyətə başlayıb. 7 ölkə ilə mövcud 3 min kilometrdən artıq sərhədi qoruyan Dövlət Sərhəd Xidmətinin qısa müddət ərzində onlarla zastavası açılıb, dəniz hüdudlarının qorunması üçün lazımi texnika alınıb. Qeyd edək ki, Azərbaycan respublikasının ərazisi - 86,6 min kvadrat kilometirdir. Sərhədlərinin ümumi uzunluğu isə 3471 kilometrdir. Bunun 825 kilometri su sərhədidir. Cənubdan İranla 756 kilometr, Türkiyə ilə 13 kilometr, Şimaldan Rusiya ilə 390 kilometr, şimali-qərbdən Gürcüstan ilə 480 kilometr, qərbdən Ermənistan ilə 1007 kilometr həmsərhəddir. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın 1988-1994-cü illərdə işğal olunmuş əraziləri - 13 min 210 kvadrat kilometr, Dağlıq Qarabağın sahəsi 4400 kvadrat kilometr təşkil edir.

## Bu tarixi unutmayaq
### 23.Cəbrayıl rayonunun erməni qəsbkarları tərəfindən işğalı günü (1993)

***Zəngilan, Cəbrayıl, Füzuli, Ağdam***
***Sizsiz dalğalanır ürəklər yaman***
***Sizi azad edək tez gəlsin zaman***
***Vətənin həsrəti yandırır məni.*** **Şair E. Ağayev**



1993-cü il avqustun 23-dən həsrətini çəkdiyimiz rayonlardan biri də Cəbrayıldır. Ərazisi 105 min hektardır. Bu torpaq onlarla tarixi abidənin məskəninə çevrilib. İşğala qədər yayonda tikiş, xalça, cihazqayırma sexləri, səkkiz sənaye obyekti fəaliyyət göstərirdi. Cəbrayıl milli aşıq - ozan sənətimizin baniləri – Dirili Qurbaninin, Aşıq Pərinin, Mücrüm Kərəmin, Aşıq Humayın vətənidir. İşğaldan əvvəl rayonda 72 orta və natamam məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtokulub, 78 kitabxana, 3 daimi, 4 səyyar kinoqurğusu fəaliyyət göstərirdi. Zəngin eksponatları olan tarix – diyarşünaslıq muzeyi vardı. Yaşı əsrlərlə hesablanan Xan çinar bu yurdun simvoluna çevrilmişdi. Rayonda irili – xırdalı 90 kənd vardı. Çoxsaylı alimlərimizin, ziyalılarımızın şərəfli, şanlı ənənələri uğurla davam etdirilirdi. O çətin dözülməz günlərdə Cəbrayıl rayonunda kifayət qədər qüvvə yox idi. Amma çətinliklərə baxmayaraq sərhəddə ermənilərə qarşı müdafiə xətləri yaradılmışdı. Şaqay yüksəkliyi alınmış və orada mövqe tutulmuşdu. Yeddi ay həmin yüksəkliyin hesabına rayona nəzarət edildi. Şaqay yüksəkliyi itirildikdən sonra bununla da Cəbrayılın başı üstünü qara buludlar aldı. Rayonun işğalı həmin yüksəklik verilən gündən başladı. Cəbrayıl ərazisini o ağır günlərdə qoruyan ərənlər də az olmamışdı. Yusif Allahverdiyev, Samir Alıyev, Şükür Abdullayev, İnqilab Aslanov, Azər Bayramov, Mais Verdiyev, Mübariz Qasımov, Mehdi İsmayılov...... onların hər biri cismən ayrı düşüblər, ruhən həmişə, hər vaxt bizimlədirlər. Ümumiyyətlə, döyüşlərdə 180, atəşkəs dövründə isə 6 nəfər həlak olub. 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişib, 90 nəfərə yaxın isə əsir və itkin düşüb. Cəbrayıllılar içərisində 180 nəfərə yaxın Qarabağ müharibəsi əlili statusu alıb, 6 nəfər isə Azərbaycanın Milli Qəhramanı fəxri adına layiq görülüb. Hazırda cəbrayıllılar arasında 351 nəfər şəhid ailəsi var. İşğaldan sonra cəbrayıllılar ölkənin 58 bölgəsinə səpələniblər. Daha çox Beyləqan, İmişli, Sabirabad, Biləsuvar rayonlarında məskunlaşıblar.

Bu gün dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətini ürəkdən bəyənən cəbrayıllılar torpaqlarımızın işğaldan azad ediləcəyi günü səbisizliklə gözləyir və buna inanırlar.

## 23. Füzuli rayonunun erməni qəsbkarları tərəfindən işğalı günü (1993)



Qarabağ dağ silsiləsinin cənub şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. O, Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Rayonun əsası 1827-ci ildə qoyulmuş və ilkin adı



Qarabulaq olmuşdur. Rayon 8 avqust 1930-cu ildə təşkil olunmuş və Qaryagin adlandırılmışdır. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır. Füzuli rayonunun ərazisi 1386 kv.km, əhalisi isə təxminən 105 min nəfərdir. Rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 75 kənd və başqa yaşayış məntəqələri vardır. Rayon ərazisindən axan Quruçay, Köndələnçay, Qozluçay, Çərəkən çayları Araz hövzəsinin çaylarıdır. Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır. Qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır. Məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz-qəhvəyi kimi torpaq sahələri var. Rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdir. Kənd təsərrüfatı ilə yanaşı, rayonda tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi. İşğala qədər rayonda 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri və zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektləri var idi.



Qarabağımızın dilbər guşəsi olan Füzuli rayonu ərazisində müxtəlif dövrlərdə Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində və digər yerlərdə tədqiqatlar aparılmış, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilmişdir. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal – Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərrkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılmışdı. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarladı. Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var idi. Çox təəssüf ki,



Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il), Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç füquru qədim abidələri (XVIII-XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan abidələrimiz ermənilərin vəhşi vandalizminə məruz qalmış, məhv edilmiş, yandırılmışdır. Hər bir xalq öz tarixinin qədimliyi ilə tanınır. Lakin işğalçı ermənilər Azərbaycana dair tarixi hər vasitə ilə saxtalaşdırmağa, yaddaşlardan silməyə çalışmışlar. Zəbt edilmiş torpaqlarımızın hər daşının külə döndərilməsi, viran edilməsi ermənin vandalizminin bir daha sübutudur.1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzuli rayonunun əhalisi Qarabağ müharibəsində ölkəmizdə ən çox itkin və şəhid vermişdir. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36 361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Qacar, Divannalar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Yağlıvənd, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkmişlər. Avqustun 23-ü 1993-cü ildə ecazkar Füzuli torpaqları da girov düşdü, əsir alındı. Hazırda 51 kənd və rayon mərkəzi erməni tapdağı altında zillət çəkir, 55 min nəfərə yaxın füzulili köçkün həyatı yaşayır. Ümid edirik ki, işğal olunmuş torpaqlarımız yaxın zamanlarda erməni zülmündən azad ediləcək. Minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaq. O gün gələcək ki, Füzuli rayonu yenidən öz əvvəlki qüdrətini, əzəmətini bərqərar edəcək.



## 31. Qubadlı rayonunun erməni qəsbkarları tərəfindən işğalı günü (1993)

***Qubadlı, Ağdərə qalıb köməksiz***
***Şuşa qalası da yanıb köməksiz***
***Qarabağ özünü sanıb köməksiz***
***Vətənin həsrəti yandırır məni.***

**Şair E. Ağayev**



Bu gün - avqustun 31-i Qubadlı rayonunun erməni qəsbkarları tərəfindən işğalı günüdür. Rayon 1993-cü ildə erməni işğalçılarının əlinə keçib. Sahəsi 80250 hektar olan, Zəngəzur dağları ilə Dağlıq Qarabağ silsiləsi arasında yerləşən Qubadlı rayonu inzibati vahid kimi 1933-cü ildə yaradılıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildiriblər ki, rayon ərazisində müxtəlif növ ağaclardan ibarət 13160 hektar dövlət meşə fondu mövcud idi. Qubadlı rayonunda 1500-1600 illər arasında olan nadir növlərdən ibarət olan 10-dan artıq iri diametrli ağaclar təbiət abidəsi kimi qorunurdu. Dəniz səviyyəsindən 1600 metr yüksəklikdə yerləşən və sahəsi 20 min hektar olan, zəngin flora və faunaya malik Qubadlı Dövlət Təbiət Yasaqlığında nəsli kəsilməkdə olan bir çox heyvan və quş növləri mühafizə olunurdu. Məlumatda deyilir ki, erməni işğalçıları rayon ərazisində geniş sahələri əhatə edən qiymətli ağac növlərindən ibarət meşələri, böyük ehtiyata malik yeraltı sərvətləri, mineral maddələrlə zəngin su mənbələrini istismara məruz qoyub, özünün qeyri-adi flora və faunası ilə seçilən təbiət guşələrini dağıdıblar. Qubadlı rayonunda 61 ümumtəhsil məktəbi, o cümlədən, 33 orta, 16 səkkizillik, 12 ibtidai məktəb fəaliyyət göstərib.Qubadlıda 180-ə qədər mədəni-maarif müəssisəsi olub. 84 kitabxana, 12 mədəniyyət evi və 44 klub, 7 avtoklub əhaliyə xidmət edib. Rayonda 2 uşaq-musiqi məktəbi də fəaliyyət göstərib.Ümumilikdə işğal nəticəsində rayonda olan 6988 yaşayış evi, 1080 kənd təsərrüfatı obyekti, 32 rabitə, 86 səhiyyə, 180 mədəniyyət, 6 sənaye müəssisələri, 650 km avtomobil yolları, 9 körpü, 2 su anbarı, 150 kilometr magistral su xətləri, 4830 km elektrik xətləri, 165 kilometr magistral qaz boru xətti, 146 idarə, müəssisə binaları, 18 dəyirman, 4 su nasos stansiyası, 120 ədəd elektrik yarımstansiyası və transformator dağıdılmış, 13365 hektar meşə sahəsi işğal altında qalıb. Ermənilər 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı tarix-diyarşünaslıq muzeyini də talan ediblər. 4-cü əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, 5-ci əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" Türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır. Erməni təcavüzü zamanı Qubadlı 5 il müddətində 238 şəhid verib, 146 nəfər əlil olub.

# Xalqımızın qəhrəman oğulları

## 10. Hərbi xadim Cəmşid Naxçıvanskinin anadan olmasının 120 illiyi (1895-1938)

*"Azərbaycanın müstəqilliyi uğrunda Cəmşid Naxçıvanski inamla vuruşmuşdur. Azərbaycan xalqı bu qəhrəman oğulları ilə fəxr edir!"*

**Ulu öndər Heydər Əliyev**



**Cəmşid Naxçıvanski Birinci dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronun komandiri olmuş, "Brusilov cəbhəsi"nin yarılmasında iştirak etmiş 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdu. Avstriya-Rumıniya cəbhəsində üç dəfə yaralanan C.Naxçıvanski igid süvari zabiti kimi gümüş silahla mükafatlandırılmış, 2-ci, 3-cü, 4-cü dərəcəli Anna, 2-ci, 3-cü dərəcəli Stanislav ordenləri ilə təltif olunmuşdur.**

Naxçıvanski Cəmşid Cəfərqulu oğlu 10 avqust 1895-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. Hərbi xadim, briqada komandiri. Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbini bitirmişdir (1915). Cənub-Qərb cəbhəsi dağıdıldıqdan sonra ştab-rotmistri C.Naxçıvanski başçılıq etdiyi süvari alayı ilə birgə Azərbaycana qayıtmış, 1918-ci il sentyabrın 15-də türk qoşunları və Azərbaycan Əlahiddə Korpusu ilə birgə Bakını düşmənlərdən təmizləmişdir. Azərbaycanın müstəqilliyi uğrunda C.Naxçıvanski inamla vuruşmuşdur. C.Naxçıvanski 1923 və 1928-ci illərdə Moskvada qısa müddətli Ali Hərbi Akademiya kurslarında oxumuş, Azərbaycana qayıtdıqdan sonra yenidən diviziya komandiri olmuşdur.

Təəssüf ki, ötən əsrin 30-cu illərinin dəhşətli repressiya dalğası bu cəsur azərbaycanlı sərkərdəni də öz ağuşuna almışdır. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 1938-ci il 26 avqust tarixli qərarı ilə general C.Naxçıvanski ölüm hökmünə məhkum olunmuşdur. 1956-cı ildə C.Naxçıvanskiyə bəraət verilmişdir.

# Milli qəhrəmanlar zirvəsi

***“XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır.”***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**

## 4 avqust Milli qəhrəmanımız Ağayev Fərhad İslam oğlunun 40 yaşı tamam olur.




**Fərhad Ağayev - Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi zamanı xüsusi fəallıq göstərmiş, Mart hadisələri zamanı dövlətçiliyimiz, suverenliyimiz uğrunda ömrünü qurban verərək şəhidlik zirvəsini fəth etmiş fateh.**

Fərhad Ağayev 4 avqust 1975-ci ildə Sabirabad rayonunun Əliləmbəyli kəndində anadan olmuşdur. O 1992-ci ildə Ələmbəyli kənd məktəbini bitirdikdən sonra, 1993-cü ildə Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılır. Fərhad Prezident Qvardiyasında xidmətə başlayır.

Döyüşlərdə iştirakı

Fərhad Ağayev 24 yanvar 1994-cü ildə cəbhəyə yola düşür, ilk döyüşlərini Füzuli rayonunun Seyidəhmədli kəndində keçirir. O Murovdağ, Güzgü, Ömərdağ kimi əhəmiyyətli ərazilərin müdafiəsində şücaət göstərir. 1995-ci ilin mart ayında bir qrup silahlı dəstə namərdlik edərək yenicə təşəkkül tapmağa başlayan dövlətimizə xəyanət edir. Fərhad dövlət çevrilişinin qarşısını almaq üçün Ağstafaya göndərilir. 1995-ci il 13 martda Fərhad Ağayev qardaş gülləsindən ağır yaralanır, 15 mart 1995-ci il tarixdə bu yaradan həlak olur.

Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli, 307 saylı fərmanı ilə Ağayev Fərhad İslam oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı " adına layiq görülmüşdür.

Sabirabad rayonundakı şəhidlər xiyabanında dəfn edilmişdir.

Bitirdiyi orta məktəb onun adını daşıyır.

## 12. Milli qəhrəman Səfərov Sərdar Mədəd oğlunun 55 illik yubileyi




*“Vətənçin yaşayan, Vətənçin ölən*
*Səmimi bir insan nə bəxtiyardır”*

**Mikayıl Müşfiq**

Sərdar Mədəd oğlu Səfərov 12 avqust 1960-cı ildə Kəlbəcər rayonunda anadan olmuşdur. 1977-ci ildə burada məktəbi bitirmiş və kolxozda işləmişdir. 1979-1981-ci illərdə hərbi xidmətdə olmuşdur. 1987-ci ildə SSRİ-nin Kaunas Xüsusi Milis Məktəbini bitirir. 1991-ci ildə Vətənə dönür və Qusar rayonunda sahə müvəkkili işləməyə başlayır. 1991-ci il 25 sentyabr erməni terrorçuları Əsgəran rayonu ərazisində "QAZ-53" markalı sərnişin avtomobilinə hücum etmişdilər. Buraya göndərilən istintaq qrupunun müstəntiqi Sərdar Səfərov idi. Hadisə yerindən qayıdan istintaq qrupu Xankəndi yaxınlığında erməni yaraqlılarının hücumuna məruz qaldılar. Sərdar yoldaşlarını xilas edərək qəhrəmancasına həlak oldu.Ailəli idi, ölümündən üç ay sonra bir qızı dünyaya gəlmişdi. Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Sərdar Mədəd oğlu Səfərov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Kəlbəcər rayonunda dəfn edilmişdir.

## İncəsənət

### 4. Aktyor, xalq artisti Məmmədrza Şeyxzamanovun anadan olmasının 100 illiyi (1915- 1984)



Məmmədrza Şeyxzamanov 1915-ci ildə Gəncədə doğulub. 2 yaşında ikən atasını itirib. 1929-cu ildə ibtidai məktəbi bitirən Məmmədrza orta məktəbə daxil olur. Aktyorluq sənətinə olan maraq və həvəs isə hələ məktəb illərində öz "toxumlarını səpməkdə" idi. Ona görə də orta məktəbdə oxuya-oxuya teatr studiyasına daxil olur. Çalışdığı dövrdə "Vaqif" (Eldar), "Fərhad və Şirin" (Fərhad), "Yaşar" (İmamyar), "İki qardaş" (Yuri) və digər tamaşalarda yaddaqalan obrazlar yaradır. 1954-cü ildə Mədəniyyət Nazirliyinin əmrilə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında işə başlayır. Və elə o vaxtdan etibarən də sənət yolundakı "yaşıl işığı" daha da gur yanmağa başlayır. Yaratdığı müxtəlif səpkili obrazlarla daha çox tanınır və sevilir. Teatrda "Göz həkimi"ndə Şahbazov, "Qış nağılı"nda Poliksen, "Fərhad və Şirin"də Xosrov, "Vaqif"də Qacar, "Otello"da Otello, "Aydın"da Aydın, "Qaçaq Nəbi"də Qaçaq Nəbi, "Vaqif"də Eldar kimi bir-birindən fərqlənən, psixoloji, dramatik obrazları özünəməxsus şəkildə yaradır. Onun səslər içində seçilən, əsl səhnə və kino səsi vardı. Elə bir səs ki, kimə məxsus olduğu zamanındaca bilinirdi. Məmmədrza Şeyxzamanov böyük ekrana ilk dəfə 1955-ci ildə "Bəxtiyar" filmində Rəcəbov rolu ilə çıxır. Daha sonra Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Dövlət Kinostudiyasının istehsal etdiyi filmlərin çoxunda çəkilir. Müxtəlif illərdə "Qızmar günəş altında"da Alı kişi, "Leyli və Məcnun"da Dərviş, "Bir qalanın sirri"ndə həkim Eldostu, "Onu bağışlamaq olarmı"da polkovnik Qurbanov, "Qatır Məmməd"də Gəncə qubernatoru, "Nəsimi"də Şeyx Əzəm kimi obrazlar yaradır. 1963-cü ildə böyük sənətkarımız Adil İsgəndərovun Sabit Rəhmanın ssenarisi əsasında quruluş verdiyi musiqili komediya filmində - "Əhməd haradadır"da Şirin kişi rolunda çıxış edir. 1976-cı ildə Məmmədrza Şeyxzamanov daha bir yaddaqalan obrazını yaradır. Rasim Ocaqovun İsa Hüseynovun ssenarisi əsasında çəkdiyi "Tütək səsi" filmində İsfəndiyar kişi rolunda çıxış edir. Ümumiyyətlə, yumşaqlıq, kövrəklik, humanistlik və sülhsevərlik Məmmədrza Şeyxzamanovun xasiyyətinə xas olan cəhətlərdən idi. M.Şeyxzamanov 1984-cü ildə 70 yaşında vəfat etmişdir.

**Filmoqrafiya:** Bəxtiyar (film, 1955), Bir qalanın sirri (film, 1959), Bizim Cəbiş müəllim (film, 1969), Bizim küçə (film, 1961)**,** Böyük dayaq (film, 1962)**,** Cırtdanın yeni sərgüzəşti (film, 1973)**,** Dantenin yubileyi (film, 1978)**,**Əhməd haradadır? (film, 1963), Qaraca qız (film, 1966)(film, kinoalmanax), Qızmar günəş altında (film, 1957), Nəsimi (film, 1973), Nizami (film, 1982) və s.

**5. Müğənni, xalq artisti Məmmədtağı Bağırovun anadan olmasının 125 illiyi (1890- 1961) Məmmədtağı Abbas oğlu Bağırov(1890- 1961) — Müğənni (bariton), məşhur opera müğənnisi, Azərbaycan Respublikasının Xalq artisti**
M.Bağırov 1890-cı ildə Bakı şəhərində, fəhlə ailəsində anadan olub. S.Ruhullanın təkidi ilə H.Ərəblinski teatr truppasına daxil olub, H.Sarabski, Ə.Ağdamski, H.Terequlov H.Hacıbababəyov ilə birgə ölməz səhnə əsərlərində çıxış edib. Sənət yolunda ilk addımlarını qadın rolları oynamaqla atıb. Ü.Hacıbəyovun "Əsli və Kərəm"ində Əsli,"Leyli və Məcnun"da Leyli obrazlarını yaradıb. Azərbaycan musiqisinin, habelə, dramaturgiyasının əvəzsiz nümunəsi sayılan "Arşın mal alan" komediyasının ilk səhnə quruluşunda M.Bağırovun zəhməti az olmayıb. O, operettanın maraqlı surətlərindən olan Süleyman və Soltan bəy obrazlarını ifa edib. Ümumiyyətlə, onun yaddaqalan obrazları hədsiz dərəcədə çox olub. Bunlara misal olaraq "Şah İsmayıl"da Aslan şahı, "Koroğlu"da Həsən xanı, "Aşıq Qərib"də Şahvələdi misal çəkmək olar. Ömrünün son illərində isə sənətkar "Leyli və Məcnun"da Leylinin atası rolunu oynayırdı. Hüseyn Seyidzadənin "O olmasın, bu olsun" filmində Rüstəm bəyin (Ağasadıq Gəraybəyli) bütün mahnılarını M.Bağırov səsləndirib. Filmotekanın "Qızıl fondunda" onun səsi yazılmış kino lenti daim səsləndirilir, ancaq adı çəkilmir. Azərbaycanın ən istedadlı musiqili teatr xadimlərindən sayılan Məmmədtağı Bağırov bir sıra milli və xarici bəstəkarların əsərlərində aparıcı rollar oynamış və bənzəri olmayan obrazlar yaratmışdır.

**23. Jurnalist, publisist Flora Xəlilzadənin anadan olmasının 60 illiyi (1955)**



**Flora Xəlilzadə - Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Dövlətimiz tərəfindən " Tərəqqi " medalına layiq görülmüşdür. Prezident mükafatçısıdır. (2009) Jurnalistika sahəsindəki səmərəli fəaliyyətinə görə Prezident İlham Əliyev tərəfindən "Əməkdar Jurnalist" Fəxri adına layiq görülüb .**
Flora Xəlilzadə 1955-ci il avqustun 23-də Zəngəzur mahalının Sisian rayonunun Urud kəndində anadan olub. Rayonun Vağədi kənd orta məktəbini bitirdikdən sonra ADU-nun Jurnalistika fakültəsinə daxil olub və 1977-ci ildə oranı bitirib. "Azərbaycan təbiəti" jurnalında, "Azərbaycan müəllimi", "Azərbaycan" qəzetlərində işləyib. Bir müddət "Azərbaycan qadını" jurnalının redaktoru olub. Hazırda "Azərbaycan" qəzetinin mədəniyyət şöbəsinin redaktoru vəzifəsində çalışır.1972-ci ildən mətbuatda publisistik və bədii yazıları dərc olunur. Peşəkar jurnalist kimi mətbuatda çalışdığı dövrdə yüzlərlə elmi, ədəbi, publisistik, tənqidi məqalələri çap edilib. 14 kitabın müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Bir çox mükafatların sahibidir.

**Mükafatları**

1. Türkiyə Diyanet Vaqfının türkdilli xalqlar arasında keçirdiyi "Peyğəmbərin nəthi" yarışmasında Türkiyədə aldığı Beynəlxalq mükafat
2. Azərbaycan Jurnalistlər Birliyinin təsis etdiyi "Həsənbəy Zərdabi mükafatı".
3. KİV Həmkarlar İttifaqının "Qızıl qələm", "Xan qızı Natəvan" , "Səməd Vurğun-90", "Şərəf" və "İnam" mükafatları
4. Respublika Mətbuat Fondunun "Dan ulduzu" mükafatı (iki dəfə).
5. Qorqud Assosiasiyasının təsis etdiyi "Məmməd Araz mükafatı"
6. Nabat xanım adına xeyriyyə cəmiyyətinin təsis etdiyi "Nabat xanım mükafatı"
7. Lider Qadınlar İctimai Birliyinin təsis etdiyi "Salatın Əsgərova mükafatı"
8. Yazdığı "Yolum düşə Zəngəzura" kitabı Yeni Yazarlar və Sənətçilər Qurumu tərəfindən 2007-ci ilin publisistik-sənədli kitabı adına layiq görülmüşdür.
9. 2007-ci ildə Jurnalist Qadınlar Assosiasiyası tərəfindən ilin qadın jurnalisti elan olunub.
10. 2011-ci ildə Azərbaycan mətbuatındakı səmərəli fəaliyyətinə görə Mətbuat Şurasının Ali Media Mükafatını alıb.

**Kitabları**

- "Ruhumun ehtiyacı" ( Şeirlər )
- "Bənövşə ətirli səs" ( Flora Kərimova haqqında )
- "Aysel adını itirib" ( uşaq hekayələri )
- "Analar" ( Publisistika )
- "Bu mənim tale yolum" ( Afaq Bəşirqızı haqqında )
- "Ürəyim aldatdı məni" ( Şeirlər )
- "Taleyimdən keçən adamlar" ( Publisistika)
- "İgidliyin son zirvəsi" ( Şəhid Cəmşid Teymurov haqqında)
- "Məmməd Araza məktub" ( elmi-ədəbi toplu)
- "Yuxular" ( Şeirlər )
- "Yolum düşə Zəngəzura" ( Tarixi, etnoqrafik, bədii nəşr )
- "Dağları tərpədən fəryad" ( Yaqut Abdullayeva haqqında )
- "Yazıçılar təşkilatının rəhbərləri" ( Ədəbi tədqiqatlar )
- "Yazdıqlarım" ( Ədəbiyyat-əbədiyyət ) I cild

## 25. Aktrisa Vəfa Fətullayevanın anadan olmasının 70 illiyi (1945- 1987)



**Vəfa Nüsrət qızı Fətullayeva - Məşhur Azərbaycan sovet aktrisası, Azərbaycan SSR-ın əməkdar artisti (1982), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1984).**

Vəfa Fətullayeva 25 avqust 1945-ci ildə Bakıda anadan olub. İncəsənət İnstitutunun rejissorluq fakültəsinə daxil olan Vəfa Fətullayeva Məhərrəm Haşımovun kursuna düşür. Bir müddət öz xarici görkəmini nəzarətsiz buraxdığından Vəfa birdən-birə kökəlir. Bu, Məhərrəm Haşımovun da diqqətindən yayınmır. Və bir gün dərslərin birində "Qız, sən yaman kökəlirsən, bunun axırı hara gedəcək?" deyir. Yarızarafat-yarıciddi deyilmiş bu sözlər Vəfanın onsuz da tükdən asılı olan seçiminin taleyini təyin edir. O, bir müddət dərsə gəlmir. Və günlərin birində məlum olur ki, Vəfa bu dəfə heç kimlə məsləhətləşmədən fakültəsini dəyişib... Keçib teatrşünaslığa. Vəfa Fətullayeva 1970-ci ildən Azərbaycan Dövlət Dram Teatrında çalışıb. Yaradıcılığının çiçəklənən dövründə ağır xəstəliyə düçar olan əməkdar artist 21 may 1987-ci ildə - 42 yaşında vəfat edib. Vəfa Fətullayevnın atası Azərbaycan teatr sənətinin ilk tərtibatçı-rəssamı, xalq rəssamı Nüsrət Fətullayev, anası SSRİ Xalq Artisti, aktrisa Hökumə Qurbanova, əmisi aktyor Fateh Fətullayev, əmisi oğlu musiqişünas Hafiz Fətullayevdir.

**Rolları**

- Gülgəz ("Mahnı dağlarda qaldı", İ.Əfəndiyev),
- Şirin ("Məhəbbət əfsanəsi", N.Hikmət),
- Tənzilə ("Sən yanmasan", N.Xəzri),
- Şərəfnisə ("Müsyö Jordan və dərviş Məstəli şah", M.F.Axundov),
- Beatrice ("Heç nədən hay-küy", U.Şekspir),
- Bənövşə ("Kəndçi qızı", M.İbrahimov),
- Zeynəb ("Sizi deyib gəlmişəm", Anar) və s.

Çəkildiyi televiziya tamaşaları: "Göz həkimi", "Alov", "Atayevlər ailəsi" və s.

**Filmoqrafiya**

1. Alov
2. Atayevlər ailəsi (film)
3. Bizim qəribə taleyimiz (film, 2005)
4. Firəngiz (film, 1975)
5. Göz həkimi (film, 1985)

# Yubilyar yazıçı və şairlər

## 5.Yazıçı Rafiq Tağının anadan olmasının 65 illiyi (1950)



**Rafiq Tağı (tam adı: Rafiq Nəzir oğlu Tağıyev azərbaycanlı yazıçı-filosof, həkim-kardioloq**.
Rafiq Tağı 1950-ci il avqustun 5-də Masallı rayonunun Xoşçobanlı kəndində anadan olub. 1966-cı ildə Masallı rayonu Təklə kənd orta məktəbini, 1972-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirib. 1981-1983-cü illərdə Moskva Tibb İnstitutunun daxili xəstəliklər üzrə klinik ordinaturasında təhsil alıb. 1972-1974-cü illərdə Sabirabad rayonu Yolçubəyli kənd ambulatoriyasının baş həkimi, 1974-1979-cu illərdə Masallı rayonu Həsənli kənd xəstəxanasının baş həkimi vəzifələrində çalışıb. 1979-1983-cü illərdə Moskvada 23 saylı Şəhər Klinik Xəstəxanasında, 1983-1990-cı illərdə Moskva Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında, 1990-cı ildən Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında həkim işləyib.

**Yaradıcılığı**

Rafiq Tağı ilk gənclik illərindən bədii yaradıcılıqla məşğul olub. 1968-ci ildə ilk şeiri Masallının "Çağırış" rayon qəzetində, "Fərqanə" adlı ilk hekayəsi 1977-ci ildə "Ulduz" jurnalında çap edilib. Çoxsaylı şeir, hekayə, esse, məqalə, oçerk və portret yazıları Azərbaycanın və xarici ölkələrin dövri ədəbi mətbuatında mütəmadi dərc edilib. Yazıları həmişə ictimai rezonans doğurub, ciddi polemikaya səbəb olub.
Rafiq Tağı "EQO" Yaradıcılıq Ordeni ilə təltif olunub, Azad Yazarlar Ocağının üzvü olub. Yazıçı 23 noyabr 2011-ci ildə vəfat edib.

**Kitabları:** "Yanaşı ulduzlar" (1987), "Düşmənimin xatirinə" (1991), "Pozitiv. Neqativ" (1996), "Şahzadə Dipendranın məhəbbəti" (2005), "Ucaboy liliput" (2005), "Gənc qraf Kenterberiyski" (2006) və s.

**10.Yazıçı Yusif  Şirvanın anadan olmasının 105 illiyi (1910-1979)**



1910-cu ildə Bakı quberniyasının Şamaxı şəhərində müəllim ailəsində anadan olmuşdur. 8 yaşından ata-anasını itirdiyindən yetim qalmış, bacısı ilə birlikdə qohumlarının himayəsində boya-başa çatmışdır. İbtidai məktəbi bitirəndən sonra Nuxa şəhər pedaqoji texnikumunda təhsil almışdır (1924-1928).  Əmək fəaliyyətinə Şamaxı qəzasının Bicov kənd məktəbinin direktoru vəzifəsində başlamışdır. 1929-cu il avqust ayından Lənkəran şəhər nümunəvi orta məktəbində dərs hissə müdiri olmuş, bir ildən sonra Bakı Ali pedaqoji məktəbində təhsilini davam etdirmiş, eyni zamanda Azərkinoda bədii büronun üzvü (1930-1932), Azərbaycan Baş Ədəbiyyat Müfəttişliyi idarəsində siyasi redaktor (1932-1934) işləmişdir. Ədəbi yaradıcılığa 30-cu illərin əvvəllərində başlamış, mətbuatda oçerk, hekayə, povest, roman və məqalələrini müntəzəm çap etdirmişdir. İnstitutu bitirdikdən sonra "Ədəbiyyat qəzeti"nə məsul katib təyin edilmiş, sonra Azərnəşrdə, Uşaqgəncnəşrdə bədii ədəbiyyat üzrə redaktor, eyni zamanda Azərbaycan Dövlət Universitetinin Hazırlıq kursunda və 132 nömrəli Bakı şəhər məktəbində müəllim işləmişdir. 1939-1941-ci illərdə "Kommunist" qəzetinin ədəbiyyat və incəsənət şöbəsinin müdiri olmuşdur. 1941-ci ilin avqustunda Sovet Ordusuna səfərbərliyə alınmış, Hərbi xidməti ləyaqətlə yerinə yetirmişdir "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medallarına layiq görülmüşdür. 1947-ci ilin iyulunda ordudan tərxis olunmuş. "Təbliğatçı" jurnalında partiya şöbəsinin müdiri, qiyabi institutda ədəbiyyat kafedrasının baş müəllimi işləmişdir. Bir müddət Azərbaycan Dövlət Universitetində dekan, ömrünün axırınadək isə dosent olmuşdur. "Əmək veteranı" medalı ilə təltif olunmuşdur. 1979-cu il avqustun 9-da vəfat etmişdir..

**Əsərləri:** “220 saylı otaq” (1960), “Qalaktika” (1973), “Qətl günü” (1987) və s.

**12. Ədəbiyyatşünas, tənqidçi, tərcüməçi Rafael Hüseynovun anadan olmasının 60 illiyi(1955)**

***"Rafael Hüseynovun əsərləri yazı və yanaşma tərzinin yeniliyi və özünəməxsusluğu ilə seçilir."***

**Aydın Talıbzadə**



**Hüseynov Rafael Baba oğlu - Görkəmli ədəbiyyatşünas, tanınmış ictimai xadim, yazıçı, publisist, tərcüməçi, mətnşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Millət Vəkili, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, Filologiya elmləri doktoru, Professor.**

1955-ci il avqustun 12-də Kürdəmir şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində fars filologiyası ixtisası üzrə təhsil almışdır (1971-1976). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Azərbaycan Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun fəlsəfə tarixi şöbəsində başlamışdır (1976-1978). 1980-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Nizami adına Ədəbiyyat muzeyində şöbə müdiri işləmişdir. Hazırda muzeyin direktorudur. Ədəbi fəaliyyətə 1975-ci ildə Kürdəmir rayonunda çıxan "İrəli" qəzeti səhifələrində dərc olunan şeirləri ilə başlamışdır. Dövri mətbuatda vaxtaşın çıxış etmişdir. Azərbaycan xalq musiqisi və onun görkəmli ifaçıları haqqında hazırladığı "Nəğməli ömürlər" və "Axşam görüşləri" adlı həftəlik verilişlər silsiləsi efirdə səslənmişdir. "Qobustan" incəsənət toplusunda "Görməyən gözlərin aydınlığı", "Əsas odur ki, xalq sizi sevir", "Həsrət qatarı" və s. publisistik yazıları çap olunmuşdur. Orta əsrlər fars və türkdilli poeziyanın müxtəlif problemlərinə həsr edilmiş 30-dan artıq ədəbiyyatşünaslıq əsərinin müəllifidir. 1992-ci ildə "Baba Tahir Üryan və onun poetik irsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Məhsəti Gəncəvinin rübailərini, Rəsul Rza və Nigar Rəfibəyli haqqında "İki ömrün işığı" (1987) adlı xatirələr kitabını tərtib etmişdir. ADU-da "fars ədəbbiyyatı" (1987-1989), Konservatoriyada "Mədəniyyət tarixi" (1990-1991), "Xəzər" Universitetində "Azərbaycan ədəbiyyatı" və "Azərbaycan mədəniyyəti" (1995) fənlərindən dərs demişdir. Xəzər Universitetində "Azərbaycan filologiyası və şərqşünaslıq" kafedrasının müdiri vəzifəsində (1995-1998) çalışmışdır.

**Əsərləri: "**Vaxtdan uca" (1987), "Min ikinci gecə" (1988), **"**Məhsəti necə varsa" (1989), "Məhsəti Gəncəvi – özü, izi" (2005), "Rəfibəylilər" (1966), "Millətin zərrəsi" (2001), "Əbədi Cavid" (2007), "Yoxdan var" (2010), "Ağzın sirri" (2010), "Yurdun adındakı can" (2010) və s.

**Filmoqrafiya:** Qayıdış (film, 1992), Cavid ömrü (film, 2007), Əbədiyyət (veriliş, 2007), Ömrün rəngləri (film, 2007), Maestro Niyazi (film, 2007), Rəfibəylilər (film, 2009) və s.

**Tərcümələri** (farscadan)**:** Baba Tahir Üryan. Dübeytlər. Bakı: Yazıçı, 1988, 112 səh.

**12. Dilçi, pedaqoq və jurnalist Fərhad Ağazadənin anadan olmasının 135 illiyi (1880-1931)**



**Ağazadə Fərhad Məşədi Rəhim oğlu — Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının məzunu, publisist.**

Fərhad Ağazadə 1880-ci il avqustun 12-də Şuşa şəhərində anadan olmuşdur. Uşaqlıqdan ağlı, zəkası və istedadı ilə tay-tuşlarından seçilən Fərhad Şuşa şəhər məktəbini bitirdikdən sonra 1898-ci ildə Zaqafqazyia (Qori) Müəllimlər Seminariyasına qəbul olur və 1900-cü ildə oranı bitirir. Həmin ildən – 1900-1905-ci illərdə əvvəlcə Xaçmazda, sonra da Gorusda kənd məktəblərində, 1905-ci ildə isə Bakıdakı rus-Azərbaycan məktəblərində müəllimlik edir. F.Ağazadə hələ 1910-cu illərdə Azərbaycan ədəbiyyatı və dilinin inkişafı ilə maraqlanmağa başlamış və bu sahədə xeyli iş görmüşdür. O, 1912-ci ildə "Ədəbiyyat məcmuəsi" adlı kitab tərtib edib çapdan buraxdırmışdır. F.Ağazadənin ərəb əlifbasının yeni, latın əlifbası ilə əvəz edilməsində böyük xidmətləri olmuşdur. Çünki 1906-cı ildə yeni əlifba layihəsi tərtibi ilə bağlı bu sahədə xeyli çalışmışdır. Lakin Azərbaycandakı mövcud vəziyyət, çar Rusiyasının müstəmləkəsi Fərhad bəyin arzularının reallaşmasına imkan vermir, necə deyərlər, uzun zaman çəkdiyi zəhmət işıq üzünə çıxarılmır. 28 aprel işğalından sonra Azərbaycanda İttifaq hökuməti bir sıra tədbirlər həyata keçirməyə başladı. Ümumittifaq Komitəsi yaradıldı. Fərhad Ağazadə bu komitənin və Yeni türk əlifbası Azərbaycan Komitəsinin üzvü seçildi. O, türk əlifba komitəsinin işində həm elmi təşkilatda, həm də yeni əlifbaya aid nəzəri məsələlərin hazırlanmasında çox yaxından iştirak edir. Onun "Ərəb əlifbası türk dilinə niyə yaramır?", "Yeni türk əlifbalarının unifikasiyası üzrə materiallar", "Azərbaycanda yeni türk əlifbasının inkişafı və həyata keçirilməsi tarixi", "Yeni türk əlifbasının tarixi" kimi əsərləri xüsusi əhəmiyyətə malikdir. Bunlardan başqa, F.Ağazadənin dilçiliyə aid "Türk-tatar dillərində səslərin nisbi münasibətini bilmək bizə nədən ötrü lazımdır?", "Yazı qaydalarında mümkün ixtisarlar məsələsinə dair" və s. məqalələri vardır.

Fərhad Ağazadə Azərbaycan Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin ən fəal yazarlarından biri olub. Qəzetin çox nadir səhifələrində onun imzasına rast gəlinmir. 1919-1920-ci illərdə isə, demək olar ki, "Azərbaycan"ın hər nömrəsində F.Ağazadənin müxtəlif mövzularda yazıları dərc edilib. O, məqalələrində xalqının, millətinin nicatını elmdə, təhsildə gördüyünü yazır, yetişən gəncliyi təhsil almağa çağırırdı. Millətinin müstəqilliyinin istilaçılar tərəfindən məhv edilməsinə və üçrəngli bayrağın enməsinə dözməyən fədakar ziyalı Fərhad Ağazadə ömrünün erkən çağında, 1931-ci ildə dünyasını dəyişir.

**14. Yazıçı Asif Əliyevin anadan olmasının 75 illiyi (1940-2001)**



**Əliyev Asif Akif oğlu - nasir, 1994 - cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**
1940-cı il avqustun 14-də Azərbaycanın Şuşa şəhərində anadan olmuşdur. Əmək fəaliyyətinə Bakıda Azərbaycan Dövlət Akademik Dram Teatrında aktyor və “Azərbaycan film” kinostudiyasında rejissor assistenti kimi başlamışdır (1959).
Azərbaycan Dövlət Pedoqoji İnstitutunun axşam şöbəsində təhsilini davam etdirmişdir (1961-1967). Yenidən “Azərbaycanfilm” kinostudiyasında işləmiş, 9 bədii filmdə rejissor assistenti olmuşdur. (1967- 1970). Burada böyük redaktor, bədii filmlər üzrə məsul katib vəzifələrində çalışmışdır(1970-1974). “Göyərçin” jurnalında çap etdirdiyi ilk hekayələrdən sonra fəal bədii yaradıcılığa başlamışdır (1963). “Azərbaycan”, “Qobustan”, “Azərbaycan qadını”, “Ulduz”, “Pioner” jurnallarında hekayələri çap olunmuşdur.
“Hekayələr” (1974), “Pərvanələr işığı sevir”((1977), “Ürəyə hökm etmək olmaz”(1979), “Ömrün məhəbbətli günləri” (1983) və “Daşlar da ağlaya bilərmiş” (1985), “Məhəbbət ölüncə var” kitabları “Gənclik” nəşriyyatında kütləvi tirajla nəşr edilmişdir. “Kaş min canım olaydı” povestini tamamlamışdır. 2001 - ci il setyabrın 8-də Bakıda vəfat etmişdir.

**15. Yazıçı, publisist Canalı Mirzəliyevin anadan olmasının 75 illiyi (1940-2009)**



**Mirzəliyev Canalı Xanalı oğlu – nasir, publisist, 1998- ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü (1974)**
1940-cı il avqustun 15-də Azərbaycanda Ağsu rayonunun Pirhəsənli kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsində qiyabi təhsil almışdır (1960-1966). “Yer” və “Dialoq” qəzetlərinin baş redaktoru (1996-1999), “Azərtayms” qəzetinin baş redaktoru (1999-2003), “Yaddaş” qəzetinin baş redaktoru, redaktor müavini (2003 – 2008) işləmişdir. “Mədəniyyət” qəzeti redaksiyasında şöbə müdiri işləmişdir. (2008) – ci ildən). 60-cı illərdən ədəbi fəaliyyətə başlamışdır. Dövri mətbuatda hekayə və publisistik məqalələri dərc olunmuşdur. “Qızıl qələm”, “Həsən bəy Zərdabi” və “Humay” mükafatlarının laureatıdır. 2009 - cu il iyun ayının 5-də Bakıda dünyasını dəyişmişdir.
**Əsərləri:** “Qara qızıl ağ səadət rəngində” 2000, “Məşhur neftçi Bəhmən Hacıyev” (2002), “Xəzər neftinin polad dirəkləri” (2003), “Qızıl söz, dərin hikmət” (2003), “İçərişəhər” (2005), “Neft haqqında nə bilirsiniz?”, “Mirqasım ağa haqq yolunun yolçusu olub” (2007), “Jurnalistikaya giriş” (2009), “Azərbaycanı dünyaya tanıdanlar” (2009) və s.

**15. Yazıçı Nəriman Süleymanovun anadan olmasının 85 illiyi (1930- 1995)**



**Süleymanov Nəriman Qoca oğlu nasir, 1959 – cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Jurnalistlər Birliyinin üzvü (1985), Azərbaycanın Əməkdar mədəniyyət işçisidir (1977).**

1930-cu il avqustun 15-də Qərbi Azərbaycanın Körpülü kəndində anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakultəsinin jurnalistika şöbəsini bitirmişdir (1947-1952). Həmin vaxtdan "Pioner" jurnalı redaksiyasında ədəbi işçi, pioner və məktəblilər şöbəsinin müdiri, məsul katib, "Pioner" jurnalının baş redaktoru vəzifəsində çalışmışdır (1977-ci ildən ömrünün sonunadək). Yazıçılar Birliyinin Təftiş komissiyasının müavini seçilmişdir (1991). Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə tərcümə olunmuşdur. Macarıstan və Yuqoslaviya ölkələrində çıxan uşaq jurnallarında və almanaxlarda hekayələri çap edilmişdir. Ədəbi fəaliyyətə 1956-cı ildə "Azərbaycan pioneri" qəzetində çıxan kiçik bir hekayə ilə başlamışdır. Üç dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. 1995-ci il aprelin 15-də dünyasını dəyişmişdir.
**Əsərləri:** "Balaca atlı" (1956), "Qaraçı qızı" (1963), "Tanışlıq" (1963), "Sovqat" (1965), "Novruzgülü" (1966), "Qocalar və uşaqlar" (1967), "Yetər nənə" (1971) "Babamın bağı" (1974), "Göy qurşağı" (1975), "Tək çiçək" (1979), "Əsas ürəkdir" (1983), "Ömrün iki payızı" (1986), "Tərs külək" (1987), "İnsan yaşayır" (1989) və s.

**16. Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyi (1925-2009)**

***"Dilimiz, millətimiz durduqca B. Vahabzadə əbədi yaşayacaqdır."***

**Xalq yazıçısı Anar**

***"Bəxtiyar ona görə Bəxtiyardır ki, onu xalq sevir; xalq da ona görə bəxtiyardır ki, onun Bəxtiyarı var."*** **Bəstəkar Niyazi**

***"Bəxtiyar Vahabzadə şəxsiyyəti Azərbaycanın bəxtiyarlığına gedən yolunda əbədi ulduz kimi daim parlayacaq və türk dünyası durduqca bu ulduz heç vaxt sönməyəcək".***

**Fəlsəfə elmıəri doktoru Cavanşir Feyziyev**



**Vahabzadə Bəxtiyar Mahmud oğlu - şair, dramaturq, ədəbiyyatşünas, 1945-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın xalq şairi (1984), filologiya elmləri doktoru (1964), professor, Azərbaycan MEA-nın həqiqi üzvü (2000), Azərbaycanın Əməkdar incəsənət xadimi (1974), Azərbaycan Dövlət mükafatı laureatı (1976), SSRİ Dövlət Mükafatı laureatı (1984), M.F.Axundov adına ədəbi mükafatın laureatı (1988), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990), millət vəkili (1995, 2000)**

Bəxtiyar Vahabzadə 1925-ci ildə Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ikən ailəsi ilə Bakıya köçmüşlər (1934). Burada orta məktəbi qurtarandan sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1942-1947). Universitetin aspiranturasında saxlanmış, "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1951). Bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" adlı ilk şerini çap etdirdikdən sonra başlamışdır. O vaxtdan dövri mətbuatda şeirləri, elmi məqalələri, rəyləri müntəzəm çap olunur. "Mənim dostlarım" adlı ilk kitabında toplanmış lirik şeirlərdə faşizmə qarşı mübarizədə qalib çıxmış xalqın duyğu və düşüncələri əksini tapmışdır. Onun lirik şeir və poemalarında, mənzum pyeslərində müasir dövrün problemləri lirik-fəlsəfi planda, yeni əlvan boyalarla təsvir edilir. "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad" və "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" (1960-2003) pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Tənqidçi-ədəbiyyatşünas kimi də fəaliyyət göstərmişdir. "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1964). Azərbaycan Dövlət Universitetində Müasir Azərbaycan ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışmışdır (1950-1990). 1990-cı ildə təqaüdə çıxmışdır. Azərbaycan MEA-nın müxbir üzvü (1980), sonra həqiqi üzvü (2000) seçilmişdir. 1981-ci ildə SSRİ Yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə

Heyətinin üzvü seçilmişdir. O, həmçinin Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinin və Ağsaqallar Şurasının üzvü idi (1991). Ədəbi-bədii prosesin yorulmaq bilməyən təbliğatçısı və təşkilatçısı kimi tanınırdı. Azərbaycan KP Bakı şəhər Komitəsinə üzv və bir neçə çağırış Bakı xalq deputatları Sovetinə və X çağırış Azərbaycan Ali Sovetinə, 1995 və 2000-ci illərdə Azərbaycan Milli Məclisinə deputat seçilmişdir. 1976-cı ildə "Leninlə söhbət" və "Muğam" poemalarına görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" və "İstiqlal" (1995) ordenləri ilə təltif olunmuşdur.
Bəxtiyar Vahabzadə 60-cı illərdən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. O, 1958-ci ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulmuşdur. B.Vahabzadə 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi publisist kitabın və yüzlərlə məqalənin, eləcə də tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın müəllifidir. Şairin əsərləri – şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar, keçmiş Sovetlər Birliyi xalqlarının dillərinə tərcümə edilmişdir. 26 noyabr 1991-ci ildə təşkil edilən Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının tərkibinə daxil edilmişdir.
2009-cu il fevral ayının 13-də, 84 yaşında uzun sürən xəstəlikdən sonra Bakıda vəfat etmişdir.

**Əsərləri**

1. Mənim dostlarım. – Bakı : Azərnəşr, 1949. - 65 s.
2. Bahar. – Bakı : Uşaqgəncnəşr, 1950. - 49 s.
3. Ədəbi heykəl. – Bakı : Azərnəşr, 1951. - 60 s.
4. Dostluq nəğməsi. – Bakı : Uşaqgəncnəşr, 1953. - 63 s.
5. Çinar. – Bakı : Uşaqgəncnəşr, 1956. - 62 s.
6. Sadə adamlar : poema. – Bakı : Azərnəşr, 1956. - 124 s.
8. Ceyran. – Bakı : Uşaqgəncnəşr, 1957. - 163 s.
9. Aylı gecə. – Bakı : Azərnəşr, 1958. - 127 s.
10.Şəbi hicran. – Bakı : Uşaqgəncnəşr, 1959. - 89 s.
12.Etiraf ; Şəbi hicran. – Bakı : Uşaqgəncnəşr, 1962. - 187 s.
13.İnsan və zaman. – Bakı : Azərnəşr, 1964. - 228 s.
14.Bir ürəkdə dörd fəsil. – Bakı : Azərnəşr, 1966. - 236 s.
17.Köklər-budaqlar. – Bakı : Gənclik, 1968. - 134 s.
18.Dəniz-sahil. – Bakı : Gənclik, 1969. - 142 s.
19.Dörd yüz on altı. - Bakı: Gənclik, 1970. -133 s.
20.Bir baharın qaranquşu.- Bakı : Gənclik, 1971. - 168 s.
21.Dan yeri. - Bakı: Gənclik, 1973. - 260 s.
24.Sənətkar və zaman. – Bakı : Gənclik, 1976. - 298 s.
25.Açıq söhbət. – Bakı : Gənclik, 1977. - 173 s.
26.Sadəlikdə böyüklük. – Bakı : Yazıçı, 1978. - 335 s.
27.Açılan səhərlərə salam. – Bakı : Yazıçı, 1979. - 230 s.

28.Pyeslər. – Bakı : Gənclik, 1980. - 355 s.
29.Payız düşüncələri. – Bakı : Yazıçı, 1981. - 365 s.
30.Muğam. - Bakı: Yazıçı, 1982. - 132 s. - (ərəb əlifbası ilə).
31.Vətən ocağının istisi. – Bakı : Gənclik, 1982. - 181 s.
32.Seçilmiş əsərləri : 2 cilddə. I c. – Bakı : Yazıçı, 1983. - 425 s.
33.Seçilmiş əsərləri : 2 cilddə. II c. – Bakı : Yazıçı, 1984. - 448 s.
34.Səməd Vurğun. – Bakı : Gənclik, 1984. - 377 s.
35.Özümüzlə söhbət. – Bakı : Azərnəşr, 1985. - 264 s.
36.Dərin qatlara işıq : məqalələr. - Bakı: Yazıçı, 1986. - 318 s.
37.Axı dünya fırlanır. – Bakı : Yazıçı, 1987. - 204 s.
38.Gəlin açıq danışaq. - Bakı: Azərnəşr, 1988. - 210 s.
39.Lirika. – Bak : Azərnəşr, 1990. - 214 s.
40.Ümidə heykəl qoyun. - Bakı: Yazıçı, 1993. - 124 s.
41.Vətəndaş. – Bakı : Gənclik, 1994.
42.Fəryad. – Bakı : Azərbaycan, 1995.
43.Körpü çaydan uzaq düşüb. – Bakı : Azərbaycan, 1996.
44.Bir ömür yuxu. – Bakı : Azərbaycan, 1998.
45.İstiqlal. – Bakı : Gənclik, 1999.
46.Ağıl başqa, ürək başqa. – Bakı : Azərbaycan, 2000.
47.Ağ atlı oğlan. – Bakı : Təhsil, 2002.
48.Əsərləri (I c.). Bakı: Azərbaycan, 2001. - 544 s.
49.Əsərləri (II c.). Bakı: Azərbaycan, 2002. - 576 s.
50.Əsərləri (III c.). Bakı: Azərbaycan, 2002. - 512 s.
51.Əsərləri (IV c.). Bakı: Çaşıoğlu, 2002. - 608 s.
52.Əsərləri (V c.). Bakı: Çaşıoğlu, 2002. - 504 s.
53. Seçilmiş əsərləri (I, II, III, IV, V, VI, VII, VIII, IX, X, XI, XII cildlər) 2008 – ci ildə Prezident sərəncamı ilə nəşr edilmişdir.

**Filmoqrafiya:** Akademik Yusif Məmmədəliyev (film, 2005), Azərbaycan naminə (film, 2005), Bakı bağları. Buzovna (film, 2007), Bəxtiyar Vahabzadə (film, 1987), Bəxtiyar Vahabzadə (film, 2003), Bizim qəribə taleyimiz (film, 2005), Böyük ömrün anları (film, 2006), Dünya şöhrətli məzun (film, 2003), Habil Kaman (film, 1984), İstiqlal şairi (film, 1996), Kamil (film, 1997), Qəmbər Hüseynli (film, 2007), Qisas (film, 1991), Qızlar (film, 2007)**,** Liderlik missiyası. 1-ci hissə (film, 2008), Maestro. Özüm və zaman haqqında. Bəstəkar Xəyyam Mirzəzadə (film, 2011), Mətbuat fədaisi (film, 2007), Mirzə Babayev (film, 2001), Muğam (film, 1995), Muğamat var olan yerdə... (film, 2009), Toğrul Nərimanbəyov (film, 1966), Zirvəyə doğru (film, 2007) və s.

**16. Ədəbiyyatşünas, yazıçı Şıxəli Qurbanovun anadan olmasının 90 illiyi (1925-1967)**

***"Şıxəli Qurbanov kamil şəxsiyyət, nadir istedad, alovlu vətənpərvər idi".***

**Maarif xadimi Bahadır Mehdiyev**

***"Şıxəli Qurbanov ideoloji həyatımızın düzgün istiqamətlənməsində əsas rəhbər simalardan idi".***

**Əməkdar elm xadimi Əziz Mirəhmədov**

***"Şıxəli Qurbanov ömrünün mənasını, dünyaya gəlişinin məqsədini bəşəri idealların rəvacında görürdü".***

**Y. İsmayılov**



**Şıxəli Qurbanov - yazıçı, dramaturq, şair, filoloq - alim, ədəbiyyatçı, dövlət və ictimai xadim, filologiya elmləri doktoru, Azərbaycan Dövlət mükafatı və Üzeyir Hacıbəyov adına mükafatın laureatı.**

**Ş. Qurbanov 1960-cı illərdə Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutuna rəhbərlik etmişdir. Dəfələrlə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, orden və medallarla təltif olunmuşdur**.

Şıxəli Qurban oğlu Qurbanov 1925-ci ilin avqust ayında Bakıda doğulmuşdur. Şıxəli Qurbanovu müasirlərindən fərqləndirən, heysiyyət və ləyaqət baxımından çağdaşlarından bir neçə pillə yuxarı qaldıran ümdə bir keyfiyyəti vardı: O, heç bir üstünlüyü, imtiyazı, maaşı-muzdu olmayan, əksinə, fədakarlıq və məhrumiyyət tələb edən vətəndaşlıq vəzifəsini daşıdığı titulların hamısından yüksək tuturdu. Şıxəli Qurbanov gündəlik fəaliyyətində - çoxsaylı görüşlərdə, yığıncaq və konfranslarda dövlət adamı kimi yox, millət xadimi kimi çıxış edirdi. Çünki onun dövləti yox idi, o bu həqiqəti yaşıdlarından xeyli əvvəl dərk etmişdi. Tale onu axına qarşı getməyə, donuq ehkamları və əski qəlibləri sındırmağa məhkum etmişdi. O bu məhkumluqda nəsə tapmışdı. 1967-ci il martın əvvəlləri idi. Şəhərə xəbər yayıldı ki, Mərkəzi Komitənin katibi şəhərə gəlib. Bu xəbər günün günorta çağlarında səmada çaxan şimşək rəqsinin effektini yaratdı. Hamı Onun gəlişinin təsadüf, sıradan, adi görüş olmadığını bilirdi. Dram Teatrında partiya-sovet fəallarının yığıncağında o, şəhər rəhbərliyinə (rəhbərlikdə rus və erməni funksionerlər yetərincə idi) milli kadrları yüksək vəzifələrə irəli çəkmək barədə tövsiyələrini verdi. Belə bir göstəriş aşırı və saxta beynəlmiləlçilik xəstəliyinə tutulanlar üçün gözlənilməz oldu. Alovlu vətənpərvər milli düşüncə və duyğularını açıq şəkildə dilə gətirirdi. Az sonra böyük Vətəndaşın təşəbbüsü ilə Novruz bayramı dövlət səviyyəsində qeyd olundu. Xalq tonqalların işığında özünün tarixi yaddaşına - kökünə, mənşəyinə, ilkinliyinə və bütövlüyünə qayıtmağa başladı.1967-ci ilin Novruz tonqalları yalnız küçələri, meydanları yox, həm də ən başlıcası illərin dözülməz ağırlığı altında sıxılan, boğulan, mühitin qaranlıqlarına bürünən ürəkləri, beyinləri işığa qərq etdi. Tonqaldan ayrılan qığılcımlar, çınqıllar xalqda öz gələcəyinə təminatlı inam, perspektivli ümid

yaratdı. Üstəlik Odlar yurdunda qalanan tonqallar, qara əllərin, qara yellərin söndürdüyü milli şüur ocaqlarını alovlandırdı. Tarix və milli vicdan müasirliyin divanında yenidən sınağa çəkildi, dəyərlərin yenidən dəyərləndirilməsi prosesinə təkan verildi. Xalqın, toplumun millətə çevrilməsi işi yeni sürət və vüsət götürdü. Lider vaxtın nəbzini tuta bilmişdi. Doğrudur, bu sahədə ədəbiyyat, illah da ki, onun çevik və operativ janrı olan poeziya xeyli iş görmüşdü. Ancaq milli özünüdərkin formalaşması məsələsinə Mərkəzi Komitənin, xüsusilə onun rəhbərlərindən birinin müdaxiləsi o vaxtın görünməmiş hadisələrindən sayılır. Şıxəli Qurbanova qədər Azərbaycanın partiya nomenklaturasında belə bir cəsur addımı atana, kişilik və ləyaqət səviyyəsində fədakarlıq göstərən ikinci bir vəzifə sahibinə rast gəlinməmişdi. Millətin belindən gəlmiş, çoxillik ağrılarından doğulmuş MK katibi, şair, dramaturq və elmlər doktoru bu addımı ömrü bahasına atmışdı. Az sonra o, bəzən gizli, bəzən açıq şəkildə təqib olunmağa başladı. Nömrəsiz maşınlar, mülki geyimli şəxslər onu nəzarətə götürür, izləyir, əməlləri sayaq qara adamlar milli fikir öndərini qarabaqara təqib edirdilər. Onu balaları və ömür-gün yoldaşı ilə sevincini-dərdini bölüşdüyü, birgə nəfəs aldığı bu dünyadakı mənzilindən ayırıb gedər-gəlməzə - son mənzilə yola salmağa hazırlaşırdılar. Sonucda da namərd diş həkiminin əlləri ilə başdan-başa enerji və işıq mənbəyi olan bir insanın, Vətəndaşın və Millət oğlunun ömrünə nöqtə qoyuldu.
**Əsərləri:** “A. S. Puşkin və Azərbaycan poeziyası” (1957), “A. S. Puşkin və Azərbaycan” (1959), “Əcəb işə düşdük” (pyeslər və hekayələr) (1964), “Əsərləri” (üç cilddə) (1965, 1968,1969), “Seçilmiş əsərləri” (1974), “XIX əsr Azərbaycan – rus ədəbi əlaqələrinin inkişaf mərhələləri (1976), “Pyeslər” (19770, “Ömürdən səhifələr” (1980), “Sənsiz” (1988) və s.

**21. Ədəbiyyatşünas, tənqidçi Bəkir Nəbiyevin anadan olmasının 85 illiyi (1930)**

***"Elm, bilik elə bir həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilir. Çin filosofunun bu kəlamı sanki yorulmaq bilmədən çalışan, xalqımıza qədərincə xidmət edən, ədəbiyyatşünaslıq elminin alimlərindən olan akademik Bəkir Nəbiyevin boyuna biçilib."***

**Filologiya elmləri doktoru Qəzənfər Paşayev**



**Nəbiyev Bəkir Əhməd oğlu - ədəbiyyatşünas, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü (1989), filologiya elmləri doktoru (1970), professor (1982), Azərbaycanın Əməkdar elm xadimi (1990).**

Bəkir Nəbiyev 21 avqust 1930-cu ildə Ağdaş rayonu Üçqovaq kəndində ziyalı ailəsində doğulmuşdur. Ağdaşda 1 saylı orta məktəbi bitirmişdir (1947). Əmək fəaliyyətinə müharibə illərində başlamışdır. ADU-nun filologiya fakültəsində təhsil almışdır (1949-1954). Eyni zamanda Bayıldakı 55 saylı orta məktəbdə ədəbiyyat müəllimi olmuşdur. Ədəbi fəaliyyətə "Ədəbiyyat qəzeti"nin 4 noyabr 1951-ci il tarixli sayında çap edilən "Dama-dama göl olar" rəyi ilə başlamışdır. Universiteti bitirdikdən sonra "Azərbaycan gəncləri", "İnşaatçı" qəzetlərində məsul katib müavini, ədəbi işçi vəzifələrində işləmişdir (1954-1957). ADU-nun aspiranturasına daxil olmuş, "F.Köçərlinin həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1960)."Kommunist" qəzeti redaksiyasında mədəniyyət şöbəsinin müdiri işləmişdir (1959-1961). Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun sovet ədəbiyyatı şöbəsində kiçik elmi işçi, şöbə müdiri və institutun elmi katibi (1961-1971), Azərbaycan EA Nizami adına Azərbaycan Dövlət Ədəbiyyat Tarixi Muzeyinin direktoru (1971-1986), Azərbaycan Ədəbiyyat Fondunun sədri işləmişdir (1982-1986). AMEA Rəyasət Heyətinin üzvü və Nizami adına Ədəbiyyat İnstitutunun direktoru olmuşdur (2003-2012). "Çoxmillətli sovet ədəbiyyatı tarixi"nin, ikicildlik "Azərbaycan sovet ədəbiyyatı tarixi"nin müəlliflərindən və redaktorlarından biri, çoxcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin baş redaktorudur. Ali məktəblərdə mühazirələr oxumuşdur. Təfəkkür Universitetində filologiya kafedrasının müdiri olmuşdur (2002). 30 cildlik "Türk dünyası ədəbiyyatı" ensiklopediyasının respublika üzrə məsul əlaqələndiricisidir. Azərbaycan EA Ədəbiyyat, Dil və İncəsənət bölməsinin rəhbəri olmuşdur (1987-2001). 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 1960-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. 15 mart 2012-ci ildə Bəkir Nəbiyev Bakı şəhərində vəfat edib.

**Mükafatları:** Ədəbiyyatşünaslıq elminin və ədəbi fikrin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu (2010), SSRİ–nin "Xalqlar dostluğu" (1986) və Azərbaycanın "Şöhrət" (2000) ordenləri ilə təltif edilib. Müxtəlif illərdə "Hacı Zeynalabdin Tağıyev", "Məmməd Araz" mükafatlarına (1993-1994), "Ustad" Ali mükafatına (1997), Beynəlxalq TİKA mükafatına (2000) layiq görülmüşdür. Azərbaycan Dövlət Mükafatı laureatı

(1978), "Qızıl qələm" mükafatı laureatıdır (1972). Azərbaycanın görkəmli ədəbiyyatşünası, akademik Bəkir Əhməd oğlu Nəbiyevin xatirəsini əbədiləşdirmək məqsədilə 4 aprel 2013-cü ildə Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalamışdır.

**Əsərləri:**

1. Görkəmli tənqidçi və ədəbiyyatşünas. – Bakı : Azərnəşr, 1963. - 162 s.
2. Müasirlik və sənətkarlıq uğrunda. – Bakı : Azərnəşr, 1966. - 127 s.
3. Sovet Azərbaycanı: Ədəbiyyat və incəsənət 50 ildə. – Bakı : Azərnəşr, 1970. - 103 s. - (şərikli).
4. Süngüyə çevrilmiş qələm. – Bakı : Azərnəşr, 1970. - 214 s.
5. Ədəbi düşüncələr. – Bakı : Gənclik, 1971. - 160 s.
6. Nizami adına Azərbaycan ədəbiyyatı muzeyi : Müxtəsər bələdçi. – Bak : Elm, 1975. - 34 s.
7. Tənqid və ədəbi proses. – Bakı : Azərnəşr, 1976. - 153 s.
8. Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı. – Bakı : 1977. - 329 s.
9. Təzə izlər sorağında. – Bakı : Yazıçı, 1979. - 216 s.
10. Kamalın təntənəsi. – Bakı : Yazıçı, 1981. - 397 s.
11. Müasirlərimiz bədii ədəbiyyatda. – Bakı : Bilik, 1983. - 69 s.
12. Ədəbiyyat : V sinif üçün dərslik. - Bakı: Maarif, 1984. - 304 s. - (şərikli).
13. Söz ürəkdən gələndə. – Bakı : Yazıçı, 1984. - 284 s.
14. Mənalı ömürdən səhifələr : Firidun bəy Köçərli. - Bakı: Gənclik, 1984. - 227 s.
15. Roman və müasir qəhrəman. – Bakı : Yazıçı, 1987. - 295 s.
16. Özümüzdən başlayaq. – Bakı : Elm, 1980. - 292 s.
17. Əhməd Cavad. - Bakı: Gəncə nəriyyatə, 1993. - 128 s.
18. Almaz ildırım. – Bakı : Sabah, 1994. - 260 s.
19. Ölümsüzlüyün sirri. – Bakı : Elm, 1994. - 200 s.

“Xalq mənəviyyatının güzgüsü” (1999), “Çətin yollarda” (2000), “İstiqlal şairi” (2001), “Azərbaycan ədəbiyyatı” (2003), “Azərbaycan ədəbiyyatı tarixi altı cilddə”(2004), “Didərgin şair” (Almas İldırımın yaradıcılıq yolu) (2005), “Heydər Əliyev haqqında etüdlər” (2007), “El ağsaqqalı, elm fədaisi İmamverdi Əbilov” (2007), “Hərənin öz yolu var” (2008), “Nəsimi kəlamının işığında” (2009), “Seçilmiş əsərləri” (beş cilddə) (2009), ”Heydər Əliyev və Azərbaycan ədəbiyyatı” (2009) və s.

**Filmoqrafiya**

1. Söz əsrlərlə yaşayır (film, 1979)
2. Şeirin xəzrisi (film, 2000)
3. Üç zirvənin fatehi (film, 2008)
4. Rənglərdə yaşayan kino (veriliş, 2009)

## 25. Şair Fikrət Qocanın anadan olmasının 80 illiyi (1935)

### Şeiri ürəyində ağlayan şair

***“Elə cavanlığından bu dünyaya qoca-qoca baxıb xoca-xoca davranan, başını aşağı təvazölüyə, baxışını göylərə- hamıdan böyüyə dikib namuslu bir ömür yaşayan, adı özgür düşüncələrinə görə sevilən, xəlqi dil-ağızlardan heç düşməyən, həyat-söhbət təngərində pəmbə, poeziya-sənət səngərində seçilən, fizikən “təpə”-cə, lirikən dağca- Fikrət Qoca...”***

**Tahir Abbaslı**



**Qocayev Fikrət Göyüş oğlu (Fikrət Qoca) — şair, Azərbaycanın xalq şairi (1998), Əməkdar incəsənət xadimi (1978).**
**1987-ci ildən "Qobustan" incəsənət toplusunun baş redaktorudur.**
**1998-ci ildən AYB-nin katibidir.**
**Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur (1995).**

Fikrət Qoca 1935-ci il avqustun 25-də Ağdaş rayonunun Kotanarx kəndində anadan olmuşdur. 1964-cü ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir. Əsərləri 1956-cı ildən mətbuatda çap edilir. Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsində, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında fəaliyyət göstərmiş, AYİ-də beynəlxalq əlaqələr üzrə məsul katib olmuşdur. Çap etdirdiyi şeir kitablarında vətən məhəbbəti, vətənpərvərlik duyğuları, insan və zaman haqqında düşüncələri öz əksini tapmışdır. Dünyanın bir çox ölkəsində yaradıcılıq səfərlərində olmuş, həmin ölkələrə gedən milli azadlıq hərəkatlarına şerlər həsr etmiş, o cümlədən Kubanın azadlıq mübarizi Ernesto Çe Gevara ("Ünvansız məktublar"), Qvineya-Bisaunun azadlıq hərəkatı xadimi Amilkar Kabral ("Amilkar Kabral"), Filippinin milli qəhrəmanı Xose Risal ("Xose Risal"), vyetnamlı gənc Li Vi Tom ("Li Vi Tom") və b. haqqında poemalar yazmışdır. 1990-cı illərdə yazdığı "Oddan keçənlər", "İnsan səviyyəsi", "Adi həqiqətlər" və s. poemaları Azərbaycanda gedən azadlıq mübarizəsindən bəhs olunur. Onun bir sıra nəsr əsərləri də var. "Ölüm ayrılıq deyil" (1990), "Hələlik, – qiyamətədək" (2000) povestlərində 1990-cı ilin 20 Yanvar hadisələri əksini tapmışdır. Mixail Lermontov, Taras Şevçenko, Eduard Mejelaytis, İ.Volker, X.Risal, İ.Taufer və başqalarından tərcümələri var. Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Şeirlərinə musiqi bəstələnmişdir ("Anacan dostum evlənir", "Könlüm", "Günay", "Gəl ey səhər", "Çiçək tapa bilmədim", "Gecə yaman uzundur", "Payız gəldi" və s.). Gənclərin qəhrəmanlıq və fədakarlığından bəhs edən "Təkərlər geri fırlanır", "Yaralı çiçəklər" və "Rəssam düşünür" poemalarına görə 1968-cı ildə Azərbaycan komsomolu

mükafatına, 1990-cı illər yaradıcılığına görə "Humay" mükafatına (1998) layiq görülmüşdür.

**Kitabları:** “Qağayı” (1963), “Hamıya borcluyam” (1965), “Стихи” (1966) (Moskva), “Dənizdə ay çiməndə” (1967), “Od gəlini” (1969) (latış dilində; Riqa), “Цветы зимой” (1969) (Moskva), “Yatmadığım gecələrdə” (1970), “Günlərin bir günü” (1972), “Gül ömrü” (1975), “İnsan xasiyyəti” (1980), “Ночная вахта” (1982) (Moskva), “Небо смотрит в море” (1982) (Moskva), “Ömürdən səhifələr” (1984), “Mavi dünyanın adamları” (1988), “Taleyin ağır taleyi” (1990), “Seçilmiş əsərləri” (1988), “Eldən elə – dildən dilə” (1988), Sükutun səsi (1991) (Tehran)

**Şeirlərinə yazılmış mahnılar**

- İlhamə Quliyeva - Bir xumar baxışla - musiqi: Ramiz Mirişli
- Flora Kərimova - Bir xumar baxışla - musiqi: Ramiz Mirişli
- Şövkət Ələkbərova - Arazım - musiqi: Ramiz Mirişli
- Elmira Rəhimli və Yaşar Səfərov - Günəşi gözləyirik - musiqi: Ramiz Mirişli
- Elmira Rəhimli -İncitmə məni - musiqi: Adil Bəbirov
- Elmira Rəhimli - Mən anayam - musiqi: Adil Bəbirov
- Yaşar Səfərov - Yollar - musiqi: Adil Bəbirov
- İslam Rzayev - Bilirsən özün - musiqi: Adil Bəbirov
- Hüseyn Bakılı - Payız gəldi - musiqi: Emin Sabitoğlu
- Oqtay Ağayev - Qaytar eşqimi - musiqi: Oqtay Kazımi
- Rəşid Behbudov - Ey xəyal - musiqi: Oqtay Kazımi
- Şövkət Ələkbərova - Gecə yaman uzundur - musiqi: Firəngiz Babayeva
- Flora Kərimova və Cavan Zeynallı - Qorxuram - musiqi: Ruhəngiz Qasımova
- Mirzə Babayev - Mübarək deyin - Telman Hacıyev
- Brilliant Dadaşova - Bahar nəfəsli - musiqi: Aqşin Əlizadə
- Yusif Savalan - Gözlə - musiqi: Polad Bülbüloğlu

**Filmoqrafiya**

- Uşaqlığın son gecəsi (film, 1968)
- Mürafiə vəkillərinin hekayəti (film, 2011)

## 25. Şair Ağasən Bədəlzadənin anadan olmasının 75 illiyi (1940).



**Bədəlov Ağasən Mehdi oğlu şair, 1986 - cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri namizədi (1981).**

1940-cı il avqustun 25-də Azərbaycanın İsmayıllı rayonundakı Pirəbilqasım kəndində kolxozçu ailəsində anadan olmuşdur. "Od təmizliyi", "Həyat eşqi", "Bu dünya qaranlıq olmur" və bir çox bu qəbildən şeirləri ilə şair əmindir ki, yalnız işıq, Günəş, mübarizə çırağı insanı səfərbər edər, ona düzgün yol göstərər. "İşıq-qaranlıq" şeirində biz şair yetkinliyinin daha bir məqamı ilə, poetik fəlsəfi qənaətləri ilə tanış oluruq. Şair qəti inanır ki, həyat və dünya təkcə bir həyatın, ömürün doğulmasından və qeyb olmasından ibarət deyil. "Sirrini heç kimə verməyən, bir yandan boşalan, bir yandan dolan dünyanın" öz möcüzləri və yeniləşməsi ilə maraqlıdır. A.Bədəlzadənin şeirləri ədəbi tənqiddə maraq doğurmuş, xalq şairi Bəxtiyar Vahabzadə onun şeirləri haqqında "Yanmaq ona deyərəm ki" adlı məqalə yazmış, B.Məmmədzadə, Ş.Zaman və b. qələm sahibləri onun poetik axtarışlarını təqdir etmişlər. A.Bədəlzadənin "Qocalıq", "Qarışıq", "İnsan dinc olar", "Görmürəm", "Vicdan ağrısı", "Gecə açılan güllər", "Yavaş-yavaş öyrəşirik" kimi şeirlərində müasirlərimizin həyatı üçün örnək olası fərdi-psixoloji məqamlar, vətəndaşlıq və övladlıq duyğuları, insanı düşündürən əxlaqi hisslər tərənnüm olunur. "Vətən, ay vətən" şeirində də dərd mövzusu ürək mövzusu ilə eyniləşdirilir, maraqlı bir rəmz, dərdin, vətənin və ürəyin birliyindən yeni bir obraz alınır. A.Bədəlzadənin lirik şeirləri ilə yanaşı, satirik şeirləri Sabiranə tərzdə yazdığı nümunələr də vardır. "Qəribə dünya", "Həqiqət", "Yavaş-yavaş öyrəşirik", "Həyat eşqi" və s. şeirlərdə biz bunun əyani təzahürünü görürük. A.Bədəlzadənin poeziyası işıqlı poeziyadır. O, işıqlı fikirlərini oxuculara aşılayır, onlarda dərin və təsirli təəssürat yaradır, onların hisslərini və duyğularını oyandırır, müəllifin fikir və düşüncələrini oxucusuna şeirsevərlərə doğmalaşdırır. Aforistik mətləblərin təsdiqi də onun şeirinin özəlliyidir. A.Bədəlzadə rus və dünya ədəbiyyatının ən yaxşı bilicilərindəndir. Hazırda o, dünya və Azərbaycan ədəbiyyatını tələbələrinə sevdirir. Onun qələmə aldığı yazı və məqalələr, dərslik və kitablar da diqqətəlayiqdir. Elmi və elmi-pedaqoji axtarışları ona dünya ədəbiyyatı prosesini düzgün anlamağa, elə bu kontekstdə maraqlı fikir və mülahizələr irəli sürmək imkanı verir. Sənətkar şeir və yazılarında güclü qaynaqlardan, böyük şəxsiyyətlərdən qüvvət alır. Xalqımızın belə qiymətli şəxsiyyətləri, yaradıcı, sənətkar və alim simaları çox olmuşdur. Ağasən dünya mütəfəkkirlərini də öyrənən, bilən işıqlı ziyalılarımızdan biridir.

**Əsərləri:** "Yanmaq ona deyərəm ki...," (1978), "Payızda məhəbbət" (1987), "Hayıf, a dünya səndən" (1999), "Zamanın üzü, yazıçının sözü" (2006),"Qələmin ucu, qılıncın gücü" (2008) və s.

**28. Yazıçı Əlibala Hacızadənin anadan olmasının 80 illiyi (1935-2009).**

***"Qələm əhli gərək heç vaxt məsuliyyət hissini itirməsin, vicdanının, qəlbinin əksinə getməsin, yalan yazmasın. İnsan özü qalmır, amma yaratdığı qalır. Yaxşısı da, pisi də... Gərək elə əməl sahibi olasan, elə əsər qoyub gedəsən ki, sağlığında özün, qohum-əqrəban, dostun-tanışın, öləndən sonra isə nəslin xəcalət çəkməsin!.."***

**"Təyyarə kölgəsi" romanının qəhrəmanı Nadirənin gündəliyindən**



Əlibala Hacızadə 1935-ci il avqustun 28-də Biləsuvar rayonunun Ağalıkənd kəndində anadan olmuşdur. Rayonun Xırmandalı kənd orta məktəbini bitirdikdən sonra ADU-nun şərqşünaslıq fakültəsinin fars şöbəsində təhsil almışdır (1953-1958). Azərbaycan EA Yaxın və Orta Şərq xalqları İnstitutunda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamışdır (1958). Əfqanıstanda mütərcimlik etmişdir (1966-1970). Sonra yenidən Azərbaycan EA Yaxın və Orta Şərq xalqları İnstitutunda (indiki Şərqşünaslıq İnstitutunda) baş elmi işçi vəzifəsində işləmiş (1976-cı ildən) və ömrünün sonuna qədər həmin institutun İran filologiyası şöbəsində çalışmışdır. 1994-96-cı illərdə "Nizami" jurnalının baş redaktoru olmuşdur. "Mənim müəlliməm" adlı ilk hekayəsi 1956-cı ildə Uşaqgəncnəşrin buraxdığı "Gəncliyin səsi" almanaxında dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. 2009-cu ilin oktyabr ayının 8-də vəfat etmişdir. "İtkin gəlin" romanı əsasında yazdığı ssenarisinə 12 seriyalı bədii televiziya filmi çəkilmişdir (1993-1994).

**Yaradıcılığı**

Əlibala Hacızadənin Azərbaycan ədəbiyyatına gətirdiyi yeni mövzulardan biri elmi mühitin təsviridir. O, "Təyyarə kölgəsi", "Vəfalım mənim" romanları ilə elm adamlarının bir növ qapalı olan həyatını geniş oxucu kütləsinə çatdırdı.

1980-ci illərin ikinci yarısında Ə.Hacızadənin qələmə aldığı "Möcüzə" romanı o dövrdə baş verən mürəkkəb ictimai proseslərə özünəməxsus bir baxışı əks etdirdi.

Yazıçının XX əsr İran poeziyasının məşhur nümayəndələrindən olan Fərrux Yəzdiyə həsr olunmuş monoqrafiyası dünya şərqşünaslığında bu böyük şairin həyat və yaradıcılığı haqqında ilk geniş tədqiqatdır. Bundan başqa o, müasir İran romanının tipologiyasına dair fundamental elmi araşdırmanın müəllifidir. Əlibala Hacızadə həmçinin bir sıra orta əsr mənbələrini dilimizə tərcümə etmişdir.

**Mükafatları**

Əlibala Hacızadə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuş, İranda "Ölməz şəxsiyyətlər" mükafatına layiq görülmüş, çoxillik elmi fəaliyyətinə görə Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir.

**Əsərləri**

1. Heykəl gülür : hekayələr. – Bakı : Uşaqgəncnəşr, 1961. - 54 s.
2. Unutmaq olmur : povest. – Bakı : Uşaqgəncnəşr, 1963. - 115 s.
3. Məhəbbət olmayan evdə : povestlər. – Bakı : Azərnəşr, 1965. - 100 s.
4. Fərruxi Yəzdinin poeziyası. - Bakı: Elm, 1965. - 198 s.
5. Cehiz : hekayələr. – Bakı : Gənclik, 1969. - 154 s.
6. Pəhləvan : hekayələr. – Bakı : Gənclik, 1974. - 31 s.
7. Təyyarə kölgəsi : roman. - Bakı: Gənclik, 1974. - 287 s. (təkrar nəşr: 1992)
8. Əfsanəsiz illər : roman. – Bakı : Gənclik, 1981. - 353 s.
9. Ayrılığın sonu yoxmuş. – Bakı : Gənclik, 1983. - 432 s.
10. Vəfalım mənim. - Bakı: Gənclik, 1985. - 344 s. **(**təkrar nəşr: 1992)
11. Dünyanı tanı. – Bakı : Gənclik, 1990. - 450 s.
12. İtkin gəlin (roman trilogiya). I kitab. Bakı: Azərnəşr, 1992.
13. İtkin gəlin (roman trilogiya). II kitab. Bakı: Azərnəşr, 1992.
14. İtkin gəlin (roman trilogiya). III kitab. Bakı: Azərnəşr, 1992.
15. Sevəcəyəm (şerlər, hekayələr). Bakı: Diplomat, 2001, 170 səh.
16. Əsərləri (10 cilddə). I c. Bakı: Nafta-Press, 2005
17. Mənim yazıq ürəyim” (2007) və s.

**28. Yazıçı, publisist Ağəddin Mansurzadənin anadan olmasının 75 illiyi (1940- 2008)**



**Mansurzadə Ağəddin Mansur oğlu – nasir, publisist, 1985 – ci ildən Azərbaycan Yazıçılar birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü(1977), “Qızıl qələm” və “Vətən” mükafatları laureatı**

1940-cı il avqustun 28-də Masallı rayonunun Qodman kəndində kolxozçu ailəsində anadan olmuşdur. ADU – nun jurnalistika fakultəsini bitirmişdir (1963-1968). Ədəbi yaradıcılığa 1964-cü ildən “Ədəbiyyat və incəsənət” qəzetində çap etdirdiyi “İslam və onun briqadası” adlı ilk oçerki ilə başlamışdır. Bundan sonra dövri mətbuatda müntəzəm çıxış etmişdir. Əsərləri dünya xalqları dillərində nəşr olunmuşdur. 2008-ci il aprelin 27-də dünyasını dəyişmişdir.

**Əsərləri:** “Mən hamının balasıyam” (1976),”Təzə paltar” (1985), “Cənnətdə görüşənədək” (1998), “İnsan qaranquş deyil” (2000), “Mən Bəxtiyaram” (2000), “Ayağa qalxaq” (2001), “Ədəbi portretlər” (2002), “Ədəbi söhbətlər” (2004), “Ədəbi mülahizələr” (2006), “Karvan gedir” (2007), “Sənətkar xoşbəxtliyi” (2007) və s.

**30. Yazıçı Əhməd İsayevin anadan olmasının 75 illiyi (1940)**



**İsayev Əhməd Məmməd oğlu - yazıçı-publisist, 1964-cü ildən Azərbaycan Jurnalistlər İttifaqının, 1992-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın əməkdar jurnalisti (1987), "Qızıl qələm" (1974), "Ustad" ali jurnalisti (1995), "Həsən bəy Zərdabi" (1996) və "Araz" (1999) ali ədəbi mükafatları laureatı, 2003-cü ildən AKTA-nın fəxri doktoru, 1992-ci ildən "Gəncə və gəncəlilər" Xeyriyyə Cəmiyyətinin sədri.**

Əhməd İsayev 30 avqust 1940-cı ildə Zaqatala rayonunun Suvagil kəndində anadan olub. 1959-1965-ci illərdə Azərbaycan Dövlət Universitetində əvvəl qiyabi, sonra əyani oxuyub. Tarixi mövzulara, sənədli publisistikaya daha çox üstünlük verir. İki minədək qəzet və jurnal məqaləsinin, otuzdan çox kitabın müəllifidir. Jurnalist axtarışlarına əsasən 1985-ci ildə Leninqrad Sənədli Filmlər Studiyasında "Cəbhədən məktublar" adlı qısametrajlı film çəkilib, "Boş barılar" pyesi (1988) Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulub.

**Nailiyyətlər:** Dəfələrlə yaradıcılıq müsabiqələrinin qalibi olub. 1986-cı ildə ona SSRİ Jurnalistlər İttifaqı tərəfindən "İlin ən yaxşı jurnalisti" adı verilib. Moskvada çıxan "Jurnalist" jurnalının üç dəfə (1977, 1981, 1982) xüsusi diplomunu alıb. Respublika Ziyalılar Cəmiyyəti İdarə heyətinin qərarı ilə (1999) "XX əsrin fəxri ziyalısı" diplomu, Qafqaz-Mediya ictimai birliyi tərəfindən "Peşəkar jurnalist" (2008) mükafatı verilib. 1970-ci ildə "Rəşadətli əməyə görə" və 2005-ci ildə isə "Tərəqqi" medalı ilə təltif edilib.

"Azərbaycan Respublikasının ictimai və mədəni həyatındakı böyük xidmətlərə görə" Azərbaycan prezidenti İlham Əliyevin 11 dekabr 2006-cı il tarixli sərəncamı ilə ölkə prezidentinin fərdi təqaüdünə layiq görülüb. Dəfələrlə Azərbaycan jurnalistlərinin, 1982-ci ildə isə SSRİ Jurnalistlər İttifaqının beşinci qurultayının nümayəndəsi olub. On altı il dalbadal Azərbaycan Jurnalistlər İttifaqının idarə heyətinə üzv seçilib.

**Əsərləri:** “Yeniliyin sorağında” (1967), “Biz yanmasaq” (1971), “Dağlar da baş əyir” (1979), “Göyərçin pərvazlanır” (1980), “Sevgi saxladı bizi” (1982), “Nə yaxşı ki, sən varsan” (1983), “Эхо дальных боев” (1985), “Bir bulaq çağlayırdı” (1987), “Üsyan” (1989), “Gəncədən ucalan yol” (1992), “Əli bulağı” (1996), “Səni kim unudar?” (1999), “Nigaran qalma ana” (2001), “El ağsaqqalı” (2003), “Vaxtsız sönən üç ulduz” (2004), “İlisu Sultanı Daniyal bəy” (2005), “Gəncə şəhidləri” (2006), “Gəncə və gəncəlilər” (1991), (1998),(2002), (2008), “Saxurların gözü Suvagil” (2008) və s.

## Xarici ədəbiyyat

### 10. Qazax şairi Abay Kunanbayevin anadan olmasının 170 illiyi (1845-1904)

***“Abay, onun yaradıcılığı bütün bəşəriyyətə, bütün xalqlara məxsusdur. Təbii ki, bu, qazax xalqının fəxri, qazax xalqının xoşbəxtliyidir.”***

**Ulu öndər Heydər Əliyev**



**Abay (İbrahim) Kunanbayev - qazax şairi, yazıçısı, ictimai xadim, müasir qazax yazılı ədəbiyyatının banisi, maarifçi liberal islamın əsasında qazax mədəniyyətinin rus və avropa mədəniyyətləri ilə yaxınlaşması tərəfdarı.**

A.Kunanbayev yaradıcılığı qazax folkloru, poeziyasıyla sıx bağlıdır. A.Kunanbayev qazax poeziyasını yeni formalarla (müsəddəs, müsəlləs, məsnəvi) zənginləşdirmiş, ona yeni ictimai məzmun gətirmişdir. Təmiz, saf məhəbbəti tərənnüm etmiş, ilin fəsillərinə həsr olunan şeirləri ilə qazax poeziyasının gözəl nümunələrini yaratmışdır. Əsl adı İbrahim olub. Amma anasının ona verdiyi "Abay" (diqqətli, ehtiyatlı) ləqəbi ömrü boyu onun adı kimi işlənmişdir və o bütün dünyada bu adla tanınmışdır. Abay Kunanbayev 10 avqust 1845-ci ildə Semey vilayətində, Ağasoltan ailəsində anadan olmuşdur. İlk təhsilini mollaxanada almış, sonra rus məktəbində davam etdirmişdir. Atasi onu dövlət orqanlarında işə duzəltmək istəmişdir, amma Kunanbayevin yolu başqa idi. O qazax ədəbiyyatının banilərindən biridir. Həmçinin rus və qazax dillərinə tərcumələri ilə yadda qalmışdır. Yaradıcılığını müxtəlif qaynaqlara əsaslanaraq formalaşdırmışdır:

1.Şərq ədəbiyyatı, o cümlədən Azərbaycan ədəbiyyatı (Nizami Gəncəvi Nizaminin yaradıcılığı)
2.Rus və Avropa ədəbiyyatı
3.Qazaxıstan şifahi xalq ədəbiyyatı.

**Yaradıcılığı**

Müasirləri "Əqliyyə" əsərini onun yaradıcılığının zirvəsi hesab edirlər. Yazıçı bu əsəri cavanlara ünvanlamışdır. O burada müqayisələr apararaq dövrün çatışmazlıqlarını göstərməyə çalışmışdır. Abay bu əsərində xalqa müraciət edərək: "Ey mənim xalqım, bu qədər təbii sərvətimiz olduğu halda niyə yenə belə yoxsulluq içində yaşayırıq? "Əqliyyə" əsərində rus və tatar xalqları ilə qazax xalqı müqayisə olunur və yazıçı xalqının vəziyyətinə acıyır. Həmçinin onun Rusiyaya qeyri-adi rəğbəti də duyulur. Baxmayaraq ki, XIX əsrdə Rusiya Qazaxıstanı işğal etmişdir. O düşünür ki, Rusiya qanunlarıyla Qazaxıstan inkişaf edir. Amma ömrünün ahıl çağlarında o Rusiyanın işğalçılıq siyasətini anlayir. Bununla belə Abay xalqın maariflənməsində böyük rol oynayan rus ziyalılarıyla, xalqın qanını içən rus məmurlarını eyniləşdirmir. Abay Kunanbayevin yaradıcılığı XX əsrdə xüsusilə tədqiq edilmiş, müxtəlif sənədlərə əsasən onun şəxsiyyəti araşdırılmışdır. Abay Kunanbayev 6 iyul 1904 - cü ildə vəfat etmişdir.

## 26. Rus yazıçısı Aleksandr Kuprinin anadan olmasının 145 illiyi (1870-1938)



Aleksand İvanoviç Kuprin 26 avqust 1870 - ci ildə anadan olmuşdur. Gələcək yazıçı məhrumiyyətlər və onun doğurduğu xəcalət içində böyüyürdü. Hər tərəfdə kobudluq, rəhimsizlik, qəddarlıq və biganəlik hökm sürürdü. Gələcəkdə böyük məhəbbəti, qızğın eşqi tərənnüm edəcək yazıçının bu gün gördüyü hələ ki, yalnız qəddarlıq idi, gələcək yazıçı yoxsulluğun qılınc kimi kəsib doğradığı yaralı ürək gəzdirirdi. Bütün uşaqlıq və gəncliyinin bu ağır təəssüratları "Kadetlər", "İgid qaçqınlar", "Yunkerlər", "Müqəddəs yalan" əsərlərində əks olunmuşdu. Odur ki, ondan haradasa və nə vaxt tərcümeyi-hal tələb etdikdə yarızarafat tərzində: "Bütün əsərlərim tərcümeyi-halımdır", – cavabını verirdi. Kuprin özündə olan yazıçılıq istedadının anasından gəldiyini hər zaman, hər yerdə inadla qeyd edirdi. Anasından ona irsən incə, kövrək hisslər, canlı müşahidələr və emosionallıq gəlmişdi. Ana nənəsindən hələ uşaqkən gözəl əfsanələr, sehrli nağıllar, tarixi əhvalatlar eşitmişdi. Bunlar onun şərq mövzusunda yazdığı gələcək əsərləri doğuracaqdı. Sirli-sehrli, nağılvari əsərlər, lakin qüdrətli, müdrik, fəlsəfi əsərləri bu uşaqlıq nağıllarından yaranacaqdı. şərqə məxsus cəsurluq, fədakarlıq öz növbəsində alicənablıq, güclü, nəşəli məhəbbət, hər yerdə ədalət simasında çıxış edən Allah hər şeyi eşidən və görən Allahın xofu olan əsərlər meydana çıxacaqdı. Yazıçı A.Kuprinin nə qədər qəribə olsa da şərq sevgisi, türk ehtirası, türk mədəniyyətinə ehtiramı, cazibəsi və s. onun "anam tatar knyazı Kulunçak xan nəslindəndir" – harayı ilə bir doğmuşdur. Bütün ömrü boyu öz əslinin tatar xanlarından gəldiyini qürurla qeyd edir, həm də bu soyadının kulunçak, kulun, dayça mənasını da əlüstü göstərirdi. Müasirlərinin xatirələrinə görə, tatar araqçını qoyur, ümumiyyətlə, özünün paytaxtda qəribə görünən başdan-ayağa türk paltarı ilə hər kəsi heyrətləndirirdi. Varlanandan sonra əsil türk ağası kimi ianə, sədəqə verməsi, türk sözlərini danışığında çoxaltması və s. ilə yanaşı, ailə məktublarını da "İsgəndər" adı ilə imzalayırdı. Beləliklə, öz Aleksandr xristian adının Şərq variantını təxəllüs kimi işlədirdi. Kuprinin şərqə, türk həyatına bəslədiyi sonsuz maraq yaradıcılıq xəttinə də təsir edib keçə bilirdi. Bu maraq və aludəlik onun Şərq ruhu hakim olan "Sulamif", "Süleyman peyğəmbərin ulduzları", "Qismət" (əsli "Kismet"), "Kırım", "Məcid", "Nargilə qolbağ", "İstintaq", "Gecə növbəsi" əsərlərində uğurlu türk obrazları yaratmasına kömək etmişdir. Yazıçı "İstintaq" əsərində böyük məhəbbətlə bədbəxt türk obrazı yaratmışdı; burada məhkumun və müstəntiqin tərsliyinin və inadının buzunu ikincinin birinciyə onun ana dilindən tez tapıb işlətdiyi doğma və əziz olan "Allah" və "ana" sözləri qırıb əridə bilir. Yazıçı 1938-ci ilin avqustun 26-da vəfat etmişdir.

## Sentyabr

**Əlamətdar tarixi günlər və bayramlar**

Jurnalistlərin Beynəlxalq həmrəyliyi günü 08.09.1943
Beynəlxalq Bilik günü 15.09
Milli Musiqi günü 18.09.1995
Neftçilər günü 20.09.2001
Beynəlxalq sülh günü 21.09.1981
Dünya Turizm günü 27.09.1980
Beynəlxalq Dəniz günü 30.09.1978

**Milli qəhrəmanlar zirvəsi**

Milli qəhrəman Ağayev Eldar Əsgər oğlunun (29.09.1955) 60 illik yubileyi

**Elm adamları**

Alim Hacı Zeynalabdin Şirvaninin (16.09.1790-1837) 225 illik yubileyi

**İncəsənət**

Xalq artisti Səyavuş Aslanın (05.09.1935-2013) 80 illik yubileyi
Azərbaycan Kukla Teatrının rejissoru Mollağa Bəbirlinin (15.09.1905-1970) 110 illik yubileyi
İctimai xadim Ü. Hacıbəyovun (18.09.1885-1948)130 illik yubileyi
Aktyor Cahangir Zeynalovun (22.09.1865-1918) 150 illik yubileyi
Kinorejissor Lətif Səfərovun (30.09.1920-1963) 95 illik yubileyi

**Yubilyar yazıçı və şairlər**

Yazıçı Əli Səmədlinin (01.09.1930) 85 illik yubileyi
Yazıçı Oqtay Salamzadənin (01.09.1930-2012) 85 illik yubileyi
Yazıçı Mahmud İsmayılovun (01.09.1920-2002) 95 illik yubileyi
Şairə Aləmzər Əlizadənin (04.09.1950) 65 illik yubileyi
Şair Azad Əliyevin (05.09.1965) 50 illik yubileyi
Şair Bəxtiyar Əliyarın (05.09.1960) 55 illik yubileyi
Şair Əvəz Lələdağın (06.09.1935 ) 80 illik yubileyi
Ədəbiyyatşünas Maqsud Hacıyevin (10.09.1935) 80 illik yubileyi
Yazıçı İbrahim Musabəyovun (14.09.1880-1942) 135 illik yubileyi
Folklorşünas Ə. Hüseynzadənin (25.09.1890-1988) 125 illik yubileyi
Ədəbiyyatşünas Asif Atanın (25.09.1935-1997) 80 illik yubileyi
Şair Avtandil Ağbabanın (26.09.1955) 60 illik yubileyi
Şair Vaqif İbrahimin (30.09.1945-1983) 70 illik yubileyi

**SENTYABR**

# Əlamətdar tarixi günlər və bayramlar

## 8. Jurnalistlərin Beynəlxalq həmrəyliyi günü




Azərbaycan Mətbuat Şurasında 8 sentyabr Jurnalistlərin Beynəlxalq Həmrəylik günüdür. Qeyd edək ki, Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü 1958-ci ilin mayından qeyd edilir. Həmin il Buxarestdə keçirilən Beynəlxalq Jurnalistlər Təşkilatının IV konqresində bununla bağlı qərara gəlinib. Onu da bildirək ki, dünya mediası üçün əlamətdar sayılan bu tarix 1943-cü ilin sentyabrın 8-də hitlerçilər tərəfindən qətlə yetirilmiş çex jurnalisti Yulius Fuçikin xatirəsinə təsis olunub. Bu gün Azərbaycan dövləti siyasi mövqeyindən asılı olmayaraq, bütün KİV-in inkişafında maraqlıdır. Bunun üçün Azərbaycanda KİV-ə dəstək konsepsiyası hazırlanıb və KİVDF yaradılıb. KİVDF jurnalistlərin peşəkarlığının artırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün müxtəlif layihələr həyata keçirir. KİVDF-nin layihələrində iştirak edən bütün qəzetlərin maddi texniki bazası yaxşılaşıb, avadanlıqlar yeniləri ilə əvəz edilib.

## 15. Beynəlxalq Bilik günü

***“Təhsil xəzinədir, əmək onun açarı.”***

**Seyid Əzim Şirvani**



Sentyabrın 15-də Azərbaycanın çoxmilyonlu təhsil ictimaiyyətinin bayramı, Bilik günüdür. Azərbaycan təhsilinin bugünkü inkişafı öz mənbəyini ötən əsrin 70-ci illərindən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə aparılan uzaqgörən və məqsədyönlü siyasətdən alıb, o vaxtdan başlayan qlobal miqyaslı təhsil quruculuğu sonrakı inkişaf üçün güclü təməl olub. 1969-1982-ci illərdə məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatıb. Böyük öndərin imzaladığı "ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadə etməyə keçmək haqqında" qərarı da onun xalqına böyük töhfəsi idi. Ulu öndər müəllimlərə də hər zaman sonsuz hörmətlə yanaşıb, o illərdə çox sayda təhsil işçisi SSRİ-nin oden və

medallarına, fəxri adlara layiq görülüb. Azərbaycanda ali təhsil də Heydər Əliyev dövründə inkişafa qədəm qoyub. Ötən əsrin 70-80-ci illərində 5 yeni ali məktəb yaradılıb. Müdrik dövlət başçısının daha bir xidməti həmin illərdə azərbaycanlı gənclərin keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərinə oxumağa göndərilməsi idi. O vaxt 15 mindən çox gənc Azərbaycandan kənarda ali təhsil alıb. Ulu öndərin yaratdığı Cəmşid Naxçıvanski adına ilk hərbi məktəb isə ölkəmizdə milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayıb. Ümummilli liderin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıdışından sonra da ölkəmizdə elmin, təhsilin inkişafında böyük işlər görülüb. Hər il ən yüksək bal toplayan gənclərə xüsusi Prezident təqaüdü, istedadlı gənclərə fəxri təqaüdlərin verilməsi də təhsilə qayğıdır. 1993-2003-cü illərdə 6 yeni akademiya təsis edilib, özəl ali məktəblər yaradılıb....

Son illərdə Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub. Prezident İlham Əliyevin qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamının göstəricisidir. Bir faktı xatırlatmaq kifayətdir: ölkəmizdə təhsil sisteminin bütün pillələri üzrə Dövlət proqramları uğurla həyata keçirilir. Bu, bir həqiqətə - Prezident İlham Əliyevin təhsili dövlət siyasətinin prioritetlərindən biri kimi diqqətdə saxlaması həqiqətinə söykənir. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri məktəb tikintisinin geniş vüsət almasıdır. 2003-cü ildən indiyədək ölkəmizdə iki mindən çox yeni məktəb binası tikilib. Prezident İlham Əliyevin yeni dərs ili ərəfəsində təzə tikilən və əsaslı təmir olunan təhsil ocaqlarında olması, işlərin gedişi ilə yaxından tanışlığı, tapşırıq və tövsiyyələrini verməsi Dövlət başçısının bu sahəni hər zaman diqqətdə saxlamasının göstəricisi olmaqla yanaşı, bu istiqamətdə görülən işlərin keyfiyyətinə də müsbət təsir edir. Prezident İlham Əliyevin sərəncamı ilə "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatlarının təqdimatı da məktəb və müəllimin statusunun yüksəldilməsinə xidmət edir.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın müxtəlif ölkələrinin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərilməsi istiqamətində də işlər uğurla davam etdirilir. Onların bir qismi təhsilini başa vuraraq Vətənə qayıdıb.

Təhsilin inkişafında Heydər Əliyev Fondu və onun Prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri də xüsusi vurğulanmalıdır. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində son illərdə ölkəmizdə müasir tələblərə cavab verən 400-ə yaxın məktəb tikilib və yenidən qurulub, həmçinin 40-a yaxın uşaq evi və internat məktəbi əsaslı təmir və bərpa olunub, lazımi avadanlıqla təchiz edilib. Fondun dəstəyi ilə əyani tədris vəsaitləri çap edilib. Beləliklə, sentyabrın 15-i ölkəmizin bütün ümumtəhsil məktəbləri və ali təhsil ocaqlarında yeni dərs ili başlayır. Ümumilikdə isə, yeni dərs ilində bütün təhsil işçilərini, tələbə və şagirdləri yeniliklər gözləyir. Yeniliklər isə həm də uğurların başlanğıcı deməkdir.

## 18. Milli Musiqi günü

***“Azərbaycan musiqi sənətinin parlaq inkişaf perspektivləri vardır. Lakin cəsarətli olmaq, yaxşı oxumaq və məhsuldar işləmək lazımdır. Xalqın mənəviyyatını duymaq, onun ümid və arzularının ifadəçisi olmaq, nikbinliyini, əhval-ruhiyyəsini musiqi vasitəsilə əks etdirmək lazımdır.”***

**Ümummillilider Heydər Əliyev**



Sentyabrın 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəyovun doğum günüdür. Üzeyir bəyin doğum gününün musiqi tariximizin ən əlamətdar hadisəsi kimi anılması tez bir zamanda ənənə halını almışdır. 1995-ci ildə isə Prezident Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınmışdır. Həmin gün təkcə musiqisevərlərin deyil, həm də xalqımızın bayramıdır. Çünki elə bir azərbaycanlı tapmaq olmaz ki onun qəlbində Üzeyir bəyə məhəbbət, onun ölməz sənətinə hörmət hissi olmasın. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını maestro Niyazi qoymuşdur. Üzeyir Hacıbəyov 1908-ci il yanvarın 18-də Bakıda H. Z. Tağıyevin teatrında tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur. O, həm də Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Ü. Hacıbəyovun "Ər və arvad", "O olmasın, bu olsun" , "Arşın mal alan" musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapmışdır. Ü.Hacıbəyov milli musiqi xəzinəsinə yeni janr və formalarla zənginləşdirən bir sıra əsərlər, o cümlədən Azərbaycan peşəkar musiqi sənətinin şah əsəri, dünya musiqi xəzinəsinin incilərindən olan dahiyanə "Koroğlu" operasını, həm də yeni Azərbaycan Respublikasının Dövlət Himnlərinin musiqisinin müəllifidir. Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Ü. Hacıbəyovun anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunmuşdur. Milli musiqimiz öz inkişaf zirvəsinə görə Üzeyir Hacıbəyova borcludur.

## 20. Neftçilər günü

***"Neft Azərbaycanın əsas milli sərvətidir. Respublikamızın ərazisi bütün dünyada "qara qızıl" ehtiyatı ilə zəngin olan bir diyar kimi tanınır.Yeni neft strategiyası reallaşdıqca azərbaycanın iqtisadi gücü daha da artacaq, respublikamız hər sahədə inkişaf edən, çiçəklənən ölkəyə çevriləcəkdir."***

**Ulu öndər Heydər Əliyev**



*Bibiheybət - Azərbaycanda neft - qaz sənayesinin inkişafının ilk günləri.*

Azərbaycan Prezidentinin 16 avqust 2001-ci il tarixli fərmanı ilə 20 sentyabr hər il Azərbaycanda "Neftçilər günü" peşə bayramı kimi qeyd edilir. Qeyd edilən tarix Azərbaycanda 1999-cu və 2004-cü ildə, yəni "Əsrin müqaviləsi"nin imzalanmasının beşinci və onuncu ildönümü rəsmi səviyyədə bayram kimi qeyd edilib. "Neftçilər günü"ndə adətən sənayenin bu sahəsində əldə edilən uğurlar və qarşıda duran əsas məsələlər müzakirə edilir. Həmin gün bu sahədə xüsusi xidmətlər və fədakarlıq göstərən fəhlə və mütəxəssislərə dövlət başçısının fərman və sərəncamları ilə fəxri adlar, orden və medallar verilir.

20 sentyabr 1995-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Bakıda, "Respublika" sarayında "Əsrin müqaviləsi"nin imzalanmasının birinci ildönümü münasibəti ilə neft-qaz sənayesi kollektivlərinin nümayəndələri ilə görüş keçirilib.

Hər il 20 sentyabrda Azərbaycan Prezidentinin neft-qaz sənayesi kollektivləri ilə görüşləri mütəmadi xarakter alıb.

## 21. Beynəlxalq Sülh günü

***"Kəssə hər kim tökülən qan izini,***
***Qurtaran dahi odur yer üzünü."*** **H.Cavid.**



21 sentyabr Beynəlxalq Sülh günüdür. BMT bu günü 1981-ci ildə təsis edib. İlk sülh günü 1981-ci ilin sentyabrında qeyd olunub. O vaxtdan Beynəlxalq Sülh günü sentyabr ayının hər 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT Sülh günü üçün 21 sentyabr tarixini dəqiq tarix kimi müəyyənləşdirib və bu tarixi ümumdünya atəşkəs günü elan edib. Sülh bizim missiyamızdır; gündəlik axtarışlarımızın mövzusudur. Qeyd edək ki, silahların susmasına və qeyri-zorakılığa həsr olunan Beynəlxalq Sülh gününün bu ilki mövzusu diqqəti daha çox aktual sülh və demokratiya məsələsinə cəlb edir.Əbədi mövzu olan Sülh mövzusu bu gün torpaqlarının 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və məcburi köçkünü olan Azərbaycan üçün də xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, ən sülhsevər xalqlardan biri olan, dünyanın ən tolerant ölkəsinin vətəndaşları Ermənistanın ölkəmizə təcavüzü nəticəsində öz Vətənlərində didərginə dönüblər, uzun illər ərzində qurduqları ev-eşiklərindən, topladıqları sərvətlərindən məhrum olublar. Bu illərdə Azərbaycan həmişə münaqişənin sülh yolu ilə aradan qaldırılması istiqamətində mühüm addımlar atıb. Görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdandan sonra hər şeydən əvvəl böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzalatmış, müharibəni dayandırmaqla, ölkədə sabitliyə nail olmuşdur. Bu, həm də dövlətimizin sülh arzusunun ifadəsi idi. Ermənistan isə hələ də BMT Təhlükəsizlik Şurasının münaqişənin tezliklə, sülh yolu ilə həlli, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması haqqında 1993-cü ildə qəbul edilən 822, 853, 874, 884 saylı qətnamələrin heç birinə əməl etmir və atəşkəsin pozulması halları tez-tez qeydə alınır... Bu gün qüdrətli və güclü Orduya malik Azərbaycan və onun Prezidenti, Ali Baş Komandan İlham Əliyev də xalqın sülh arzusunu ifadə edərək, münaqişənin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində əməli işlər görür... Sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər çür zorakılığın dayandırılması arzusu bütün tarix boyu bəşəriyyəti düşündürüb. Amma təəssüf ki, tarix boyu, bəlkə də, elə ən çox pozulan bu arzu, bu istək olub....

## 27. Dünya Turizm Günü.

***“Azərbaycan ən qədim zamanlardan dinlərin, dillərin və mədəniyyətlərin təmas və ünsiyyət yeri olmuşdur.Çünki Azərbaycan xalqı yüksək mədəniyyətə malikdir. Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək.”***

**Ulu öndər Heydər Əliyev**

1980-cı ildən qeyd edilən bu əlamətdar gün dünyada turizm sektorunun mövcud vəziyyətini, əldə edilən nəticələri gözdən keçirmək üçün bir fürsətdir. Dünya Turizm Təşkilatının (DTT) məlumatına görə hər il bu sahədə artım qeydə alınır. Mədəniyyət və Turizm Nazirliyi Azərbaycanı hər il müxtəlif xarici ölkələrdə keçirilən beynəlxalq turizm sərgilərində təmsil edir**.** 2015-ci ildə Azərbaycanın 21 ölkədə keçiriləcək beynəlxalq turizm sərgisində təmsil olunması nəzərdə tutulmuşdur.

## 30. Beynəlxalq Dəniz günü

***Mən çoxdan vurğunam sənə***
***Böyük arzum budur yenə:***
***dönüb bir göy göyərçinə***
***sahilinə qonam, dəniz.***

**Rəsul Rza**



Abşeron yarımadasının ekoloji xəritəsinin yaradılması bu bayrama hədiyyədir. BMT-nin qərarı ilə 1978-ci ildən qeyd olunan Dəniz Günü bütün dünyada cəmiyyətin, dövlətin və özəl sektorun diqqəti dənizin və onun bioresurslarının qorunması sahəsindəki problemlərə yönəldilir. Məqsəd su hövzələrində təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və neft hasilatı nəticəsində çirklənmiş sulardan istifadənin qarşısını almaqdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildiriblər ki, dəniz günü ilə bağlı tədbirlər hər il sentyabrın sonunadək davam etdirilir. Abşeron yarımadasının ekoloji xəritəsinin yaradılması da Beynəlxalq Dəniz Gününə bir hədiyyədir. Xatırladaq ki, Yer kürəsinin 70 faizə qədərinin üzü su ilə örtülüb. Planetimizdəki biokütlənin 90 faizi su hövzələrinin payına düşür.

## Milli qəhrəmanlar zirvəsi

### 29.Milli qəhrəman Ağayev Eldar Əsgər oğlunun 60 illik yubileyi

***“Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.”***

**Ulu öndər Heydər Əliyev**



***“Vətən mənə oğul desə, nə dərdim,***
***Mamır olub qayasında bitərdim”.*** **Məmməd Araz**

Eldar Ağayev 1955-ci il 29 sentyabrda Gürcüstanın Tbilisi şəhərində hərbçi ailəsində dünyaya gəlmişdir. 1972-ci ildə Bakı Ümumqoşun komandirlər məktəbinə daxil olmuşdur. E.Ağayev Əfqanıstanda xidmətini başa vurduqdan sonra Kalininqrad şəhərinə göndərilmişdir. O, 1989-cu ilə qədər burada motoatıcı alayın kəşfiyyat rəisi vəzifəsində çalışmışdır. Bu müddətdə təhsilini davam etdirmiş, Solneçnoqorsk şəhərində Ali Zabitlər Kursunu bitirmiş, sonra xidmətini Almaniyada yerləşən Qərb Qoşun Qrupunda davam etdirmişdir. Onu əvvəlcə, 70-ci tank alayının kəşfiyyat rəisi, sonra isə Drezden 9-cu Əlahiddə Qvardiya kəşfiyyat taborunun komandiri təyin edilmişdir. Ermənilər torpaqlarımıza hücum edən zaman Eldar Vətənə qayıdır. O, 1992-ci ildə Milli Ordunun tərkibində özünün yaratdığı 775-ci reyd dəstəsinin komandiri kimi fəaliyyətə başladı. Bir müddətdən sonra isə 776-cı kəşfiyyat taborunu yaratdı və onun komandiri oldu. Onun komandirlik etdiyi tabor dəfələrlə qaynar döyüşlərə atılmış və onlarla erməni quldurunu məhv etmişdi. Eldarın yaratdığı tabor 1995-ci il dövlət çevirilişinin qarşısının alınmasında da iştirak etmişdi. Bu taborun 18 əsgər və zabiti "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. O, 1997-ciilədək həmin vəzifədə qalmışdır. Polkovnik E.Ağayev 1997-ci ildən 2000-ci ilədək Azərbaycan Politexnik İnstutunda hərbi kafedranın rəisi olmuş, 2000-2001-ci illərdə isə BAÜKM-nin kəşfiyyat kafedrasının rəisi vəzifəsində çalışmış, sonra isə öz şərəfli işini Ədliyyə Mazirliyində Məhkəmə Qərarlarının icrası Baş İdarəsinin təlim-tədris mərkəzinin rəis müavini vəzifəsində davam etdirmişdir. 17 may 2013-cü ildə vəfat etmişdir. Ailəlidir, bir övladı var. Sovetlər birliyi zamanı "Qırmızı Ulduz", "İgidliyə görə" ordenləri ilə təltif olunub. Qarabağ döyüşlərində iştirak etdiyi üçün "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub. Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Ağayev Eldar Əsgər oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

## Azərbaycanın tanınmış elm adamları

***“Qüvvət elmdədir, başqa cür heç kəs***
***Heç kəsə üstünlük eyləyə bilməz”***

**Nizami Gəncəvi**

**16. Coğrafiyaşünas, alim, səyyah Hacı Zeynalabdin Şirvaninin anadan olmasının 225 illiyi (1790-1837).**

***“Gözəl əxlaq və zəka insanın fəzilətlərindəndir. Bunlar bizə yetkinlik qazandırır. Bu insan fəzilətlərini bilmək, öyrənmək üçün insanın yaxşılarını və pislərini görüb tanımaq lazımdır.”***
***“Əsl insan Günəşə oxşamalıdır. Onun sıcaq nəvazişi də, təbəssümü də hamıya eyni dərəcədə nur saçmalı, çatmalıdır.”***

**Hacı Zeynalabdin Şirvani**

**Hacı Zeynalabdin ibn Axund İskəndər Şirvani (1780-1838)- mənşəcə Azərbaycan türklərindən olan məşhur səyyah və coğrafiyaçı, tarixçi, etnoqraf, filosof və şair.**

Zeynalabdin Şirvani 1780-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. Onun beş yaşı tamam olanda axund İskəndərin ailəsi Bağdad yaxınlığındakı Kərbəla şəhərinə köçür və gələcək səyyahın atası mədrəsədə dərs deməyə başlayır. Zeynalabdin də ilk təhsilini elə burada alır. 1796-cı ildə o, təhsilini başa vurmaqdan ötrü Bağdad şəhərinə gedir. Zeynalabdin Bağdadda fəlsəfə, tibb, astronomiya və riyaziyyatı, habelə xarici dilləri öyrənməkdə davam edir. Bağdad kitabxanalarında olan səyahətnamələr, bütün Şərq dünyasından buraya axışıb gəlmiş alimlərin, müqəddəs şəhərin ziyarətinə gələn zəvvarların söhbətləri bu gənc oğlanın nəzərlərində yeni bir dünya açır. Dünyanı görmək və onun möcüzələri ilə həmyerlilərini tanış etmək elə həmin vaxtdan gənc Zeynalabdinin həyat məqsədinə çevrilir və o, tərəddüd etmədən səyahətə çıxmaq qərarına gəlir. Zeynalabdin Şirvani yaradıcılığının təhlili ilə məşğul olmuş görkəmli Azərbaycan alimi Nurəddin Kərəmov yazırdı: Bu yol 60 min kilometr uzanmış və 40 il davam etmişdir. Bu yol Kiçik Asiyadan, İran yaylasından, Orta Asiya, Ərəbistan və Cənubi Afrika səhralarından, Sudanın meşə və cəngəlliklərindən, Hindistanın tropik meşələrindən, Hind okeanı adalarından keçib. O, Hindquş, Zaqros, Süleyman dağlarından, Pamirdən adlamışdır. Bu yol Asiya və Afrikanın bir çox digər vilayətlərindən uzanmışdır. Onun birinci səyahətinin marşrutu belədir: Bağdad, İraqi-Əcəm, Gilan, Şirvan, Muğan, Talış, Cənubi Azərbaycan, Xorasan, Herat, Zabul, Pəncab, Hind adaları, Dəkən, Benqal, Qucarat, Hind okeanındakı adalardan Sind və Multandan keçən səyyah dağ yolları ilə Kəşmirə, Müzəffərabada çatmış, sonra Kabul yolu ilə Tatarıstana, oradan Turana və Bədəxşan dağları ilə Xorasana, nəhayət, "İran yolu" ilə Farsa gəlmişdir.

Bir qədər istirahətdən sonra Şirvani ikinci səyahətə çıxır. Bu dəfə yol Şirazdan (Fars) başlayır, oradan Daraba, sonra Bəndər Abbas limanından Hörmüz yolu ilə Hədramaut və Yəmənə, sonra Həbəşistan və Sudana, buradan Ərəbistan yarımadasında olan Ciddəyə, oradan da Hicaz, Mədinə və Məkkəyə uzanır. Bundan sonra o, dəniz yolu ilə "Səidlər ölkəsinə" (əs-Səidə -Nil çayı sahillərinə) gedir, Misirdən Yaxın Şərqə "Şam-Rum"a (Anadoluya), Diyarbəkirə, Qaraman və Aydına keçir. Hacı Zeynalabdinin Atlantik okeanına və geriyə üçüncü səyahətin marşrutu belə idi: Bəhre-Əhzər adaları ("Yaşıl dəniz" – şərq coqrafiyaçıları Atlantik okeanını belə adlandırırdılar), Rumeli (o vaxt Osmanlı imperiyasının Avropa hissəsinə belə deyirdilər), Anadolu, Azərbaycan, Tehran, Həmədan, İsfahan, Kirman, Şiraz, Bağdad. İndi artıq bir çoxu sıradan çıxmış beş yüzdən artıq əlyazma və mətbu qaynağın və səyahətlər zamanı etdiyi şəxsi müşahidələri nəticəsində Şirvani ona dünya şöhrəti gətirən üç kitab yazır: 1822-ci ildə "Riyazüs-səyahət" ("Səyahət bağçaları"), 1827-ci ildə "Hədaiqüs-səyahət" ("Səyahət bağları") və nəhayət, 1833-cü ildə "Bustanus-səyahət" ("Səyahət gülzarı")- Bu əsərlərdə o, bir çox ölkələrin coqrafiyası, tarixi, etnoqrafiyası, arxitekturası, ədəbiyyatı və görkəmli ictimai xadimləri barədə dəyərli məlumatlar verir. Səyyah yer kürəsinin iqlim qurşaqlarının təsvirinə xüsusi yer ayırır. Şərqin digər alim və səyyahları kimi o da Yeri yeddi iqlim qurşağına bölür. Öz səyahətləri zamanı Şirvani çox sayda alimlər və siyasi xadimlərlə yaxından tanış olur. Onun rəyi ilə hesablaşır, onunla görüşməyə can atırlar. Şirvaninin elm və savadı haqda xəbərlər onun səyahətlərinin marşrutları çərçivəsindən xeyli kənara çıxır. Olduğu bir çox yerlərdə onu saraya dəvət etmişlər. Bunlardan Misir hakimi İbrahim bəyi, İran şahı Fətəli şah Qacarı, Türkiyə sultanı Mahmudu və başqalarını göstərmək olar. Olduğu saraylarda müzakirə və söhbətlərdə iştirak edən Şirvani həmişəlik burada qalmaq dəvətlərinə nəzakətlə rədd cavabı verir. Şirvani həmişə macəralar və məhrumiyyətlərlə dolu səyyah həyatını saraydakı rahat həyatdan üstün tutur. Zeynalabdin eyni zamanda şair olmuş və Təmkin təxəllüsü ilə şeirlər yazmışdır. Həmin şeirlər onun səyahətnamələrinə səpələnmiş və əlyazması Tehran mərkəzi kitabxanasında saxlanan "Divan"ında toplanmışdır. Bu nadir şəxsiyyətin digər əsərlərinin əlyazmaları Britaniya Muzeyində, Paris Milli Kitabxanasında, Sankt-Peterburqda və İranda saxlanır.
Şirvaninin əsərləri bir çox Azərbaycan, İran, rus və Avropa tədqiqatçıları tərəfindən öyrənilib. Bu alimlərdən Abbasqulu ağa Bakıxanovun, Məmmədəli Tərbiyətin, Əskər Həmid Rəbbaninin, B. A. Dornun, N. V. Xanıkovun, E. Braunun, S. Stornun, E. Bloşenin və başqalarının adlarını çəkmək mümkündür. Bu sırada öz ömrünün böyük bir hissəsini Zeynalabdin Şirvaninin elmi hünərlərinin tədqiqinə həsr etmiş N. K. Kərəmovun adı xüsusilə qeyd olunmalıdır. 1838-ci ildə Zeynalabdin Şirvani Ciddə şəhəri yaxınlığında dünyasını dəyişib və orada dəfn olunub.

# İncəsənət

## 5. Aktyor, xalq artisti Səyavuş Aslanın anadan olmasının 80 illiyi (1935-2013)

***"Səyavuş Aslanın fitri istedadı, fədakarlığı, məharətlə səhnədə və ekranda yaratdığı parlaq obrazlar Azərbaycan teatrını zənginləşdirmişdir. O, milli koloritli çoxşaxəli yaradıcılığa malik bir insandır."***

**Ulu öndər Heydər Əliyev**



**Səyavuş Aslan - tanınmış teatr və kino aktyoru, "Şərəf" ordenli, Azərbaycan Respublikasının xalq artisti.**

Aslanov Səyavuş Məmmədağa oğlu Azərbaycan realist aktyor məktəbinin görkəmli nümayəndələrindən biri, 1935-ci il sentyabr ayının 5-də Bakıda doğulub. Aktyorluğa həvəskar kimi dram dərnəyindən başlayıb. Uzun illər Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aparıcı aktyorlarından idi. Bir müddət həmin teatrın bədii rəhbəri işləyib (1994-1996) və bir çox obrazların mahir ifaçısı olmuşdur: Bayram ("Kəndimizin mahnısı", K. Kərimov), İbişov ("Özümüz bilərik", Ş. Qurbanov), Firzuzbala ("Altı qızın biri Pəri", M. Əlizadə), Dadaşbala ("Hicran", S. Rəhman), Qəmzəli ("Qaçırılmış qız", C. Məmmədov), Misir Nəsir ("Lənət sənə, kor şeytan", F. Aşurov), Orduxan bəy ("Əlli yaşında cavan", Z. Hacıbəyov) və s. Səyavuş Aslan 1984-cü ildən Akademik Milli Dram Teatrının aktyorudur və bir çox rəngarəng obrazlar yaradır: Mindilli ("Nişanlı qız", S. Rəhman), Luka ("Həyatın dibində", M. Qorki), Ağaəli ("Günah", R. Əlizadə), Romul Avqustul ("Böyük Romul", F. Dürrenmatt), Oddamdı ("Od gəlini", C. Cabbarlı), Fəriş ("Bizim qəribə taleyimiz", İ. Əfəndiyev), Cabbar ("Sevgililərin cəhənnəmdə vüsalı", İ. Əfəndiyev), Ağamusa Fərəcov ("Dəlilər və ağıllılar", İ. Əfəndiyev), Vanya Koxa ("Hökmdar və qızı", İ. Əfəndiyev), Qərib Qulam ("Mənsiz dünya", N. Xəzri), Əsdulla ("Ah, Paris…Paris!..", Elçin), Kişi ("Mənim ərim dəlidir", Elçin), Baş redaktor ("Mənim sevimli dəlim", Elçin), Yoldaş tək ("Poçt şöbəsində xəyal", Elçin), Poloni ("Hamlet", U. Şekspir), Sarı ("Varlı qadın", Ə. Əmirli) və s. Televiziya tamaşalarında yüzdən çox obraz ifa edib. Səyavuş Aslan teatr və kino yaradıcılığındakı səmərəli fəaliyyətinə görə 1974-cü ildə Azərbaycan Respublikasını əməkdar artisti, 1982-ci ildə xalq artisti fəxri adları ilə təltif olunub. Prezident təqaüdçüsü idi. 25 iyun 2013-cü ildə "Şərəf" ordeni ilə təltif edilmişdi. Səyavuş Aslan ağır xəstəlikdən sonra 27 iyun 2013-cü ildə Bakıda vəfat edib.

**Filmoqrafiya:**Bizim qəribə taleyimiz (film, 2005), Cin mikrorayonda (film,1985), Dəvətnamə (film, 2003), Evlənmək istəyirəm (film, 1983), Evləri köndələn yar (film, 1982)**,** Əhməd haradadır? (film, 1963) - rol: Saqqal Ramiz**,** Əzablı yollar (film, 1982)**,** Fırıldaqçı (film, 1983)**,** Girişmə, öldürər! (film, 1990)**,** Hacı Qara (film, 2002)**,** Köç (film, 1986)**,** "Qayınana" (film, 1999)**,** Qəm pəncərəsi (film, 1986), Sabiqlərin yeni sərgüzəştləri (film, 2000), Ulduz (film, 1964), Yaşıl eynəkli adam (film, 1987), Yol əhvalatı (film, 1980), Yuxu (film, 2001) və s.

**15. Azərbaycan Kukla Teatrının yaradıcısı aktyor, rejissor Mollağa Bəbirlinin anadan olmasının 110 illiyi (1905-1970)**

Azərbaycanda Kukla Teatrının dövlət səviyyəsində təşəkkülünün təşəbbüskarı və yaradıcısı Mollağa Bəbirli olub. O, 15 sentyabr 1905-ci ildə Bakıda doğulub. 1927-1928-ci illərdə Moskvada qrim və Kukla teatrı ixtisası üzrə təhsil alıb. Bakıya qayıdaraq Akademik Milli Dram Teatrının truppasında aktyorluq edib. 1930-cu illərin ikinci yarısında Mollağa Bəbirli dramaturq Mirzə Fətəli Axundzadənin "Hacı Qara" və Cəlil Məmmədquluzadənin "Ölülər" pyeslərinin Kukla teatrı variantlarını işləyib və özü də tamaşaya hazırlayıb.1938-ci ildə Dövlət Kukla Teatrı müstəqil sənət ocağı kimi iki il indiki Mahnı Teatrının binasında fəaliyyət göstərib. 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi ilə əlaqədar olaraq kollektiv yenə GTT-nin nəzdinə keçib. 1946-cı ildə Kukla Dövlət Teatrı Mollağa Bəbirlinin direktorluğu və bədii rəhbərliyi ilə yenidən müstəqil kollektivə çevrilib. Teatr 190 saylı məktəbin binasında yerləşib. Vaxtilə Dərbənd Dövlət Azərbaycan Teatrında aktyorluq etmiş Nadir Zamanovun kollektivə gəlişi rejissurada və üslub axtarışlarında təkanverici rol oynayıb. 1949-cu ildə teatrların özlərini maliyyələşdirmə iş sisteminə keçməsi ilə əlaqədar olaraq Azərbaycanda ondan çox dövlət teatrı, o cümlədən Kukla teatrı bağlanıb. Nadir Zamanovun fədakarlığı və rəhbərliyi ilə kiçik heyətdə teatr dəstəsi yaranıb və truppa 1 yanvar 1950-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində fəaliyyətə başlayıb. 1962-ci il noyabr ayının 15-də Kukla teatrı dəstəsi yenə GTT-nin kollektivinə daxil olub. Həmin kollektiv 6 may 1963-cü ildə Bakıdakı Orkestr Musiqiçiləri Bürosunun sərəncamına verilib. Azərbaycan Respublikasının Nazirlər Soveti 1964-cü il aprel ayının 15-də truppanın dövlət statusunun bərpa edilməsi barədə qərar imzalayıb. Bunun əsasında Mədəniyyət Nazirliyi Azərbaycan Dövlət Kukla Teatrının fəaliyyətə başlaması barədə 3 fevral 1965-ci ildə 17 saylı əmr verib. Hazırda teatrın Dənizkənarı bulvardakı binası kollektivin sərəncamına keçib. Teatr 1965-ci il sentyabrın 25-də Mirvarid Dilbazinin "Göyçək Fatma" nağıl-pyesinin tamaşası ilə pərdələrini açıb. Sənət ocağının 1965-ci ildəki bərpa dövründən sonra Dövlət Kukla Teatrının truppasında Azərbaycan Respublikasının əməkdar artistləri Oqtay Dadaşov, Şəfiqə Axundova, Həsənağa Hüseynov, Lyubov Adamova, aktyorlardan Şahmar Hüseynov, Ruslan Həsənov, Xədicə Seyidova kimi təcrübəli sənətkarlar çalışmışlar. Azərbaycan Dövlət Kukla Teatrı Moskvada (1937, 1977 və 1995), Yəmən Ərəb Respublikasında (1973), Özbəkistan Respublikasında (1979), Hindistanda (1980), İrəvanda (1982), Tiflisdə (1984), Arxangelskdə (1988), Türkmənistan Respublikasında (1989), İran İslam Respublikasında (1990 və 1992), Türkiyənin Ankara (1991) və İstanbul (1998) şəhərlərində qastrollarda olub, beynəlxalq festivallarda, müxtəlif sənət bayramlarında iştirak edib. Kukla teatrı özünün fəaliyyəti dövründə "mil", "əlcək" ("qolçaq"), "döşəmə" (hündür), marionet Kuklalarla yanaşı, aktyor-Kukla formalarında da tamaşalar hazırlayıb.

**18. Bəstəkar, musiqişünas, ictimai xadim Üzeyir bəy Hacıbəyovun anadan olmasının 130 illiyi (1885-1948)**

***“Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir...”***

**Ulu öndər Heydər Əliyev**

***“Üzeyir Hacıbəyov Azərbaycan musiqi mədəniyyətinin atasıdır”.***

**Bəstəkar Q. Qarayev**



Sentyabrın 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəyovun doğum günüdür. Həmin gün təkcə musiqisevərlərin deyil, həm də bütün xalqımızın bayramıdır. Çünki elə bir azərbaycanlı tapmaq olmaz ki, onun qəlbində Üzeyir bəyə məhəbbət, onun ölməz sənətinə hörmət hissi olmasın. Böyük bəstəkarın ad gününün bayram kimi qeyd edilməsi ənənəsinin əsasını maestro Niyazi qoymuşdur. Görkəmli bəstəkar və dirijor Niyazi Üzeyir bəyin vəfatından sonra hər il bu günü qeyd edərmiş. Üzeyir bəyin doğum gününün musiqi tariximizin ən əlamətdar hadisəsi kimi anılması tez bir zamanda ənənə halını almışdır. 1995-ci ildə isə Prezident Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınmışdır. Üzeyir Hacıbəyov 1908-ci il yanvarın 18-də Bakıda H. Z. Tağıyevin teatrında tamaşaya qoyulan "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoymuşdur. O, həm də Azərbaycanda musiqili komediya janrının yaradıcısıdır. Ü. Hacıbəyovun "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarında o dövr Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapmışdır. Ü. Hacıbəyov milli musiqi xəzinəsini yeni janr və formalarla zənginləşdirən bir sıra əsərlər, o cümlədən Azərbaycan peşəkar musiqi sənətinin şah əsəri, dünya musiqi xəzinəsinin incilərindən olan dahiyanə "Koroğlu" operasını bəstələmişdir. O, həm Azərbaycan Xalq Cümhuriyyəti, həm də yeni Azərbaycan Respublikasının Dövlət himnlərinin musiqisinin müəllifidir. Üzeyir bəy elmi musiqişünaslığın, musiqi təhsilinin əsasını qoymuş və ömrünün sonunadək musiqi mədəniyyətinin inkişafına rəhbərlik etmişdir. O, müasir bəstəkarlıq məktəbinin beşiyi başında durmuş, onun qabaqcıl dünya bəstəkarlıq məktəbləri ilə yanaşı dura bilməsi üçün fədakarcasına çalışmışdır. Dahi bəstəkarın yaratdığı musiqi inciləri dünya şöhrəti qazanmış, dünya musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur. Görkəmli musiqi xadimləri onu "professional Şərq musiqisinin atası" adlandırmışlar.

## 22. Aktyor, teatr xadimi Cahangir Zeynalovun anadan olmasının 150 illiyi (1865-1918)



Milli teatrımızın ilk peşəkar aktyorlarından biri, Azərbaycan realist aktyor məktəbinin banisi Kərbəlayı Cahangir Zeynalovdur. 1865-ci ildə Bakıda doğulmuş Cahangir Zeynalovun atası Məşədi Rza da, özü də tacirlik etmişlər. Cahangir bəy ibtidai təhsil almışdı, rus və fars dillərini mükəmməl bilirdi, geniş mütaliəsi vardı. Səhnəyə ilk dəfə 1885-ci ildə qız rolunda çıxıb. Bakıda fəaliyyət göstərən Lanskoy, Şorşteyn, Aqriptseva kimi aktyorların truppaları ilə yaxından əlaqəsi vardı, şəhərə gələn qastrolçuların tamaşalarına müntəzəm baxardı. XIX əsrin sonlarında isə sənət dostu Nəcəfqulu Vəliyevlə birgə əsərlər tamaşaya qoyublar. 1900-cü illərdə Müsəlman dram artistləri şirkətinin təşkilində Zeynalovun müstəsna rolu olub. "Nicat" (1906) və "Səfa" (1912), "Nəşri-maarif" mədəni-maarif cəmiyyətləri nəzdindəki teatr truppalarında Kərbəlayı Cahangir əsasən aktyorluq edər və həm də tamaşalara quruluşlar verərdi. "Səfa"nın teatr truppası 1912-ci ildən fəaliyyətdə idi, ancaq cəmiyyətin özü 1910- cu ildə yaranmışdı. "Səfa"nın kitabxanasının təşkilində böyük işlər görən Cahangir Zeynalov onun fonduna çoxlu nüsxədə kitab bağışlamışdı. Bakıda qabaqcıl elm ocaqlarından sayılan "Səfa" məktəbində Səməd Mənsur, Abbasmirzə Şərifzadə, Cəfər Bünyadzadə ilə yanaşı, Cahangir Zeynalov da dərs deyirdi. O, dəfələrlə, "Səfa" teatr bölməsi idarə heyətinin rəhbərləri sırasma seçilmişdi. Səhnəmizdə qadınların olmamasından həmişə rahatsızlıq keçirən aktyor qızını aktrisa görmək istəmiş, ancaq amansız ölüm bu arzuya kölgə salmışdı. Üç yaşında valideyni Cahangir Zeynalovu itirmiş Nəsibə Zeynalova sonralar atasının bünövrəsini qoyduğu realist aktyor məktəbinin ən layiqli davamçısı kimi tarixiləşdi. Cahangir Zeynalovun milli dramaturgiyamızda oynadığı rolların tam olmayan siyahısı belədir: Mirzə Fətəli Axundzadənin "Hacı Qara"sında Hacı Qara, "Müsyö Jordan və dərviş Məstəli şah"da Şahbaz bəy və Məstəli şah, "Molla İbrahimxəlil kimyagər"də Molla İbrahimxəlil, "Xırs quldurbasan"da Tarverdi, "Lənkəran xanının vəziri"ndə Mirzə Həbib, Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər"ində Hacı Qəmbər, "Ağa Kərim xan Ərdəbili"də Ağa Kərim xan, "Müsibəti-Fəxrəddin"də Vəli, Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" faciəsində Tavad Maqobeli, Rzaqulu Mirzə, Mirzə Cəfər xan, "Bəxtsiz cavan" ("Tamah"), "Kimdir müqəssir?", "Millət dostları" dramlarında Kişi, Hacı Səməd ağa, Mahmud, "Xəyalət"də Dərviş. Nəriman Nərimanovun "Dilin bəlası"nda Şamdan bəy və Hacı İbrahim, "Nadir şah"

faciəsində Ədhəm və Cavad, İsmayıl Rüs təmbəyovun "Dövləti-bisəmər", Mehdi bəy Hacınskinin "Sultar Əbdüləzizin xəli" pyeslərində Hacı Fərəc, Həsən Xeyrulla Əfəndi, Süleyman Sani Axundovun "Tamahkar"ında Hacı Murad rolları. O, Sultanməcid Qənizadənin "Axşam səbri xeyir olar " (Məşədi Şaban), "Xor-xor" (Seyfulla), "Dursunəli və ballıbadı" (Dursunəli), Məhəmmədhəsən Həsənovun "Pinəçi Seyfulla" (Seyfulla), Vasaq Mədətovun "Qırt-qırt" (Ağa Murad), İsgəndər Məlikovun "Yaxşılığa yamanlıq", "Molla Nəsrəddin" (Molla Nəsrəddin) vodevillərində əsas obrazları oynayıb. Tərcümə əsərlərindən Lev Tolstoyun "Əvvəlinci şərabçı" (Potap), Fridrix Şillerin "Qaçaqlar" (Qoca Moor), Jan Batis Molyerin "Zorən təbib" (Eyvaz), Şəmsəddin Saminin "Dəmirçi Gavə" (Qubad və Fərhad), "Əhdə vəfa" (Zübeyr), Hüseyn Bədrəddin və Məhəmməd Rüfətin "Əmir Əbül Üla" (Rəbi), S.Lanskoyun "Qəzavat" (Qoca səraərdə), Vano Mçedaşvilinin "Qaçaq Kərəm" (Çinovnik və Xanın katibi), Namiq Kamalın "Vətən" ("Vətən, yaxud Osmanlı müharibəsi". Şeyxülislam) tamaşalarında oynayıb.
Yuxarıda sadalanan rolların əksəriyyətini dəfələrlə müxtəlif quruluşlarda ifa etmiş Cahangir Zeynalov bəstəkar Üzeyir bəy Hacıbəyovun "O olmasın, bu olsun" operettasında Rza bəy və Rüstəm bəy obrazlarını yüksək məharətlə yaradıb. Rejissor kimi də səmərəli fəaliyyət göstərən Cahangir Zeynalov 1913-cü ildə "Səfa"da dramaturqlardan Mirzə Fətəli Axundzadənin "Hacı Qara", Nəcəf bəy Vəzirovun "Hacı Qəmbər", Namiq Kamalın "Vətən", Zülfüqar bəy Hacıbəyovun "Evliykən subay", 1914-cü ildə Əbdürrəhim bəy Haqverdiyevin "Millət dostları", Molyerin "Zorən təbib", 1915-ci ildə Namiq Kamalın "Əhdə vəfa", digər illərdə müxtəlif truppalarda Cəlal Yusifzadənin "Fərhad və Şirin" (opera), Şəmsəddin Saminin "Dəmirçi Gavə", Nəriman Nərimanovun "Nadir şah" əsərlərinə quruluşlar verib. Cahangir Zeynalov xalq folklorunun mayasından şirələnən yumordan yaradıcılıqla bəhrələnirdi. Cahangir Zeynalov o dövrdə dəbdə olan süni pafosla danışmaqdan, ritorikadan, boğazdan yuxarı deklomasiyaçılıqdan, saxta hərəkətlərdən cəsarətlə imtina edib. Cahangir Zeynalov teatrda estetik savadsızlığın əleyhinə çıxaraq real oyun ifa üslubunun sistemlər toplusunu yaradıb. O, oynadığı rolda doğruçuluğa, həyatiliyə, inandırıcılığa nail olmaq üçün obrazın daxili inkişaf məntiqinə əsaslanıb, müxtəlif üslubları sintez edə bilib. Cahangir Zeynalovun aktyor məktəbi köklü və davamlı prinsiplər əsasında qurulmaqla öz poetikasının müəyyən vacib göstərici-prinsiplərini formalaşdırıb. Cahangir Zeynalov el arasında həmişə özünü yüksək ləyaqətlə, ağır ağayanalıqla aparır, hər yerdə hörmət-izzəti uca tutulurdu, onu müdrik ağsaqqal, xeyirxah ziyalı kimi qəbul edərdilər. Cahangir Zeynalov aktyorluq peşəsini müqəddəs tutar, sənətinə ciddi yanaşmayanları tənbeh edir, bütövlükdə teatra əvəzsiz tərbiyə ocağı kimi baxırdı. Aktyor 1919 - cu il oktyabr ayında rəhmətə getmişdir.
Aktrisa Xalq Artisti Nəsibə Zeynalovanın atasıdır.

**30. Kinorejissor Lətif Səfərovun anadan olmasının 95 illiyi (1920 - 1963)**



**Lətif Bəşir oğlu Səfərov - aktyor, rejissor, ssenari müəllifi, Azərbaycanın əməkdar incəsənət xadimi (1960).** Lətif Bəşir oğlu Səfərov 1920-ci il sentyabrın 30-da Şuşada doğulub. 7 yaşında ikən rejissor Leo Murun "Gilan qızı" ("Tunc ay") filmində çəkilib. Sonra yaradıcı heyətlə Bakıya gələn balaca Lətif studiyada ştata da qəbul olunub. 1928-1931-ci illərdə "Sevil", "Lətif", "Şərqə yol", "Qızıl kol" filmlərində uşaq rollarında oynayıb. Ancaq sonradan xəstələnən Lətif Bərdəyə gəlib. Nəhayət, 1931-ci ildə Gəncə Pedaqoji texnikumuna daxil olub və qiyabi təhsil alıb. Yenə Bakıya qayıdıb, əvvəl studiyanın dublyaj şöbəsində, sonra isə filmlərdə rejissor assistenti kimi çalışıb. Lətif Səfərov 1940-cı ildə Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil olmuşdur. 1950-ci ildə təhsilini başa vurub professional sənətkar kimi Bakıya dönür, kinostudiyada fəaliyyətə başlayır. Lətif Səfərov Azərbaycan kinosuna peşəkar kinorejissor kimi gəldi və bir çox qiymətli filmlər yaratdı. 1955-ci ildə ona "Sevimli mahnı" ("Bəxtiyar") filmini çəkmək həvalə olundu. "Qızmar günəş altında", "Leyli və Məcnun" kimi filmləri ilə Azərbaycan kinosuna yeni nəfəs gətirən Lətif Səfərov ekranın estetik funksiyası ilə bağlı nəzəri görüşlərini müəyyən qədər də olsa reallaşdıra bildi. 1958-ci ildə ona etimad göstərib Respublika Kinematoqrafçılar İttifaqının sədri seçdilər. O, kinonu qaldırmaq istəyirdi. "Koroğlu" filmi üzərində böyük əziyyətlə işlədi. Çünki studiyanın imkanları çox məhdud idi. Texnika sarıdan çətinliklər vardı. Rejissor öz sənət dostlarını bir olmağa çağırırdı: "Ancaq bir olanda qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün, kinematoqrafiyamız üçün yaxşı işlər görə bilərik". Əfsus ki, Lətif Səfərov çox arzularını ürəyində apardı. Bizə isə onun gözəl filmləri yadigar qaldı. 1963-cü il dekabrın 9-u Lətif Səfərov intihar etdi.

**Filmoqrafiya:** Almaz (film, 1936) (tammetrajlı bədii film) - rol: kəndli oğlan, Azərbaycan sərhədçiləri (film, 1951), Bakı və bakılılar (film, 1958), Bakılılar (film, 1938), Bərəkətli torpaq (film, 1954), Bəxtiyar (film, 1955), Çağırışa cavab (film, 1947), Gədəbəyin sərvəti (film, 1950), Gilan qızı (film, 1928), Hər şey olduğu kimi. Beşinci film. Rəşid Behbudov (film, 2000), İyirminci bahar (film, 1940), Kəndlilər (film, 1939), Qızıl kol (film, 1930), Qızmar günəş altında (film, 1957), Quba bağlarında (film, 1953), Leyli və Məcnun (film, 1961), Lətif (film, 1930), Ordenli Azərbaycan (film, 1938), Sevil (film, 1929), Şərqə doğru (film, 1930) və s.

## Yubilyar yazıçı və şairlər

### 1. Yazıçı Əli Səmədlinin anadan olmasının 85 illiyi (1930)



Əli Səmədli 1930-cu il sentyabrın 1-də Azərbaycanda Göyçay rayonunun Mallı Şıxlı kəndində müəllim ailəsində anadan olmuşdur. Göyçay şəhərində 1 saylı orta məktəbi bitirdikdən sonra M. Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitunun teatrşünaslıq fakültəsində təhsil almışdır. (1948-1953). Sonra Azərbaycan Mədəniyyət Nazirliyində inspektor, respublika Kinoprokat Idarəsində rəis müavini, Azərbaycan Kinomatoqrafçılar ittifaqında sovet incəsənətinin təbliği bürosunun direktoru, M. Əliyev adına Dövlət incəsənət institutunda müəllim, "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbiyyat və incəsənət şöbəsinin müdiri olmuşdur (1954-1973), Azərbaycan Dövlət Televiziya və Radio Verlişləri redaksiyasında redaktor (1973-1987), radionun uşaq verlişləri şöbəsində redaktor (1987-2000), Azərbaycan Yazıçılar Birliyində uşaq ədəbiyyatı bölməsinin rəhbəri işıəmişdir. Ədəbi yaradıcılığa 1959-cu ilin mayında "Ədəbiyyat və incəsənət " qəzetində çap olunan " Unuda bilmirəm " adlı ilk hekayəsi ilə başlamışdır. Bundan sonra dövri mətbuatda hekayələrlə müntəzəm çıxış etmişdir. Onun 36 səhnə əsəri vardır. Bunlardan "Artıq tamah baş yarar", "Hərənin bir ulduzu", "Kibrit çöplərinin macərası", "Sehrli xalça" nağıl-pyesləri," Sarıtel xanım" komediyası, "Əzablı günlərin sonu", "Atalar və oğullar", "Generalın uşaqlığı", "Ölüm hökmü", "Qanlı bənövşə" pyesləri respublika dövlət teatrlarında tamaşaya qoyulmuşdur. "Artıq tamah baş yarar" nağıl- pyesi 1964-1988 –ci illərdə A.Şaiq adına Dövlət Kukla Teatrında 250 dəfə tamaşaya qoyulmuşdur. Əsərləri xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Göyçayda "Arvan" adlı kitabxana- muzey açmışdır. Həmin kitabxanaya on beş mindən artıq kitab: yüzlərlə – etnoqrafik əşya, rəsm və heykəltəraşlıq əsərləri hədiyyə etmişdir. Eyni zamanda qədim Dərbənd şəhərində "Şirvan" adlı kitabxana – muzey yaratmışdır.

**Əsərləri:** "Aqil babanın nağılları" (1962), "Bir rayonun kinomexanikləri" (1964), "Məktəb səhnəsi" (1969), "Xəbərçi zəng" (1971), "Qarlı gündə" (1973), "Çinar ömrü uzun olur" (1975),"Tərgül və Zərgül" (1977), "Hər kəsin öz nəğməsi var" (1979), "Tapmacalar" (1979), "İnci çiçəyinin sırğası" (1981), "Sehrli xalça" (1981), "Hərənin bir ulduzu" (1984), "İnnab ağacı" (1986), "Bənövşə - bəndə düşə" (1989), "Kefindən ölən adam" (1991), "Nağıllar, əfsanələr" (1993), "Generalın uşaqlığı" (1991), "Nağıllar, əfsanəli pyeslər" (1992), "Sehrli ağac" (1993), "Seçilmiş əsərləri" (1996), "Beş ömrün bir yolu" (1997), "Qanlı bənövşə" (1998), "Çinarlı şəhərin nəğmələri" (1998), "İki ömür yaşayan adam" (1999), "Ömrümə düşən işıq" (1999), "Əfsanələr, şeirlər, yanıltmaclar", "Yetmiş ilin sevinci" (2000), "Romana bənzər həyat" (2001), "Çinarlı şəhərim mənim"(2003) və s.

## 1.Yazıçı, dramaturq Oqtay Salamzadənin anadan olmasının 85 illiyi (1930-2012)

***"Həyatda uğurla yaşamaq üçün xalqımızın, millətimizin milli-mənəvi dəyərlərinə sadiq olmaq lazımdır, bu milli-mənəvi dəyərləri ümumbəşəri dəyərlərlə birləşdirib müasir həyat tərzi keçirmək lazımdır. Oqtay Salamzadə bu ənənəyə sadiq qalan yazıçılardandır."***

**Ulu öndər Heydər Əliyev**



Oqtay Salamzadə 1930-cu il sentyabrın 1-də Füzuli rayonunun Cuvarlı kəndində doğulub. 1948-1953-cü ilələrdə Bakı Dövlət Universitetinin fəlsəfə şöbəsində təhsil alıb. 1954-1959-cu illərdə Bakı Şəhər Komsomol Komitəsinin, Komsomolun Mərkəzi Aparatının katibi işləyib. 1959-1963-cü illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində uşaq və gənclər verilişləri redaksiyasının məsul redaktoru olub. Oqtay Salamzadə 1963-cü ildə Azərbaycan Jurnalistlər İttifaqının məsul katibi seçilib. Daha sonralar Beynəlxalq Jurnalistlər Təşkilatının Rəyasət Heyətinin üzvü, SSRİ Jurnalistlər İttifaqı Təftiş Komissiyası sədrinin müavini olub.

1976-1979-cu illərdə «Kitabsevərlər» Cəmiyyətinin baş redaktoru işləyib. 1979-1984-cü illərdə «Yazıçı» nəşriyyatında böyük redaktor kimi çalışıb.1989-1993-cü illərdə «Karvan» jurnalının baş redaktoru olub. 1993-cü ildən ölümünədək Azərbaycan KİV İşçiləri Həmkarlar İttifaqının sədri, Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurası sədrinin müavini olub. Oqtay Salamzadə Sovetlər dönəmində populyar olan "Bizim nəsil" adlı romanın müəllifi idi. 2012-ci il aprelin 2-də vəfat edib.

**Əsərləri:** "Bizim nəsil" (1958), "Qızıl torpaq" (1963), "Sənin məhəbbətinlə" (1965), "İsgəndərin övladları" (1968), "Sənin məhəbbətinlə" (1978), "İkinci güllə" (1981), "Dünyanın zinəti" (1983), "Odlu peşə" (1986), "Əsrlərin sirri" (1989), "Sevgi iztirabı" və s.

## 1. Yazıçı, tarixçi Mahmud İsmayılovun anadan olmasının 95 illiyi (1920-2002)



Mahmud İsmayılov 1920 - ci il sentyabrın 1- də Şəkidə anadan olmuşdur. Tarixi elmlər doktoru (1961), professor (1963), Azərbaycan EA müxbir üzvü (1983), əməkdar elm xadimi. M.İsmayılov 1946 - cı ildən Azərbaycan EA Tarix İnstitutunda işləmişdir. İnstitutda əmək fəaliyyətinə o, laborantlıqdan başlamış, sonra aspirant, kiçik elmi işçi, baş elmi işçi olmuş, 1952 - ci ildə Azərbaycanın yeni tarixi şöbəsinin rəhbəri, 14 ilə yaxın (1954 - 1968) institut direktorunun müavini, 1968 - 1983 - cü illərdə şöbə müdiri işləmişdir. 1983-cü ildən yenidən elmi hissə üzrə direktor müavini olmuşdur. M.İsmayılov XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycan kəndinin məhsuldar qüvvələrinin tarixi problemlərini ümumiləşdirərək 1961-ci ildə müvəffəqiyyətlə doktorluq dissertasiyasını müdafiə etmişdir. M.İsmayılov 200 ç.v. həcmində elmi işin, o cümlədən 150 monoqrafiyanın, 40 - dan artıq elmi - kütləvi məqalənin müəllifidir. Onun redaktəsi ilə 30- a yaxın kitab çapa hazırlanmışdır. O, bir sıra respublika, ümumittifaq və beynəlxalq elmi konfransların, simpoziumların və sessiyaların iştirakçısıdır. M.İsmayılov eyni zamanda yeddi tarixi romanın**: "Ağ yapıncı", "Xaqani", "El üçün yan", "İki od arasında", "Sənin ulu baban", "Qara Yusif", "Uzun Həsən"-** in müəllifidir. Bütün deyilənlər bir daha sübut edir ki, onun elmi və bədii yaradıcılığında yalnız bir məqsəd var: Vətəninə, xalqına, millətinə, dilinə, mədəniyyətinə, tarixinə tükənməz övlad məhəbbəti. M.İsmayılov 2001- ci ildə dünyasını dəyişmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

**Əsərləri:** "Ağ yapıncı"(tarixi roman)" (1980), "Şəki" (1981), "Xaqani (tarixi roman)" (1982), "El üçün yan"(tarixi roman) (1986), "İki od arasında (tarixi roman" (1987), "Sənin ulu baban"(1989), "Qara Yusif" (1991), "Azərbaycan tarixi" (1992), "El atası" (1994) və s.

**4. Şairə Aləmzər Əlizadənin anadan olmasının 65 illiyi (1950)**

***"Aləmzər Əlizadənin şeirlərinin ilk baxışdan xoşa gələn cəhəti onun səmimi deyilmiş tərzi, şeriyyət gözəlliyi, uşaq qəlbinin, uşaq xəyalının şerlərində düzgün əks olunması, uşaq yaşının, uşaq təsəvvürünün tələblərinin nəzərə alınması, təsvirlərdən süzülüb gələn işıqlı təəssüratdır. Həmin cəhətlər də onun uşaq kitablarının həvəslə oxunmasnı təmin edən məsələlərdəndir."***



**Əlizadə Aləmzər Məmməd qızı – şairə, 1986 – cı ildən Azərbaycan Yazıçılar birliyinin üzvü.**

1950-ci il sentyabrın 4- də Azərbaycanın Gəncə şəhərində qulluqçu ailəsində anadan olmuşdur.

Tanınmış uşaq şairi Aləmzər Əlizadə şeir – sənət ocağımız, Nizami yurdu Gəncədə yaşayıb-yaradır. İndiyədək balalarımız üçün onun bir neçə şeir kitabı nəşr olunmuşdur. 1973-cü ildə "Sarı eynək" adlı ilk kitabını nəşr etdirən Aləmzər Əlizadə özünü istedadlı bir uşaq yazıçısı kimi tanıtmışdır. Bundan sonra onun "Küsən güllər", "Şəfəqin sırğaları", "Ətirli kəpənək", "Ülviyyənin kitabı" adlı əsərləri nəşr olunmuşdur. Aləmzər Əlizadə orijinal, duzlu-məzəli şeirləri ilə balacaların rəğbətini qazanmışdır. Uşaqları dərin məhəbbətlə sevməsi, xarakterində uşaqlara məxsus kövrək cizgilərin olması, balacaların həyatını diqqətlə müşahidə etməsi, yumor duyğusu Aləmzər Əlizadənin uşaq şeirlərinin uğurlarını təmin edən cəhətləridir. Şairin "Fışqırıq", "Təriş göbələk yığır", "Axan beş", "Meyvə çıxdı", "Acığa düşən çəkmə", "Şadlıq", "Üzən top", "Nəğmə yadımdan çıxdı", "Laləli divar" və s. şeirləri uşaq təfəkkürünə uyğundur. Bu və ya buna bənzər digər yazıları oxuyanda adamın üzünə istər – istəməz təbəssüm qonur. Təbii, uşaq sadəlövhlüyündən doğan yumor şeirlərin bədii dəyərini artırır, onları oxunaqlı edir. Aləmzər Əlizadənin mətbuat səhifələrində görünən ilk şeirlərindən hiss olunurdu ki, onun uşaq aləmini dərindən duya bilmək, uşaqları maraqlandıran mövzuları yaxşı qavramaq, uşaqlara poeziyanın estetik dili ilə danışmaq, bir sözlə, uşaq dünyasına nüfuz etmək qabiliyyəti güclüdür. Axı, hər yazıçı yaxşı uşaq yazıçısı ola bilmir. Uşaq yazıçısı olmaq üçün təkcə bədii istedad kifayət deyildir. Onun üçün xüsusi düha, fitri qabiliyyət, təbii bir uşaqcanlılıq, "uşaqlaşa bilmək" uşaq aləminə qaynayıb-qarışmaq bacarığı və s. zəruri keyfiyyətlər olmalıdır. Elə buna görə də V.Q. Beliniski göstərirdi ki; "Uşaq yazıçısının yaranması üçün çox, olduqca çox şərtlər vardır: nəcib, sevən, riqqətli, sakit, körpəcə - sadədil bir qəlb, yüksək məlumatlı bir ağıl, şeylərə aydın bir baxış, yalnız canlı təsəvvür deyil həm də canlı, şairanə bir xəyal, hər şeyi canlı, zəngin surətlər halında təsəvvür etməyə qabil bir xəyal lazımdır".. Onun hər bir kitabını oxuduqda adam özünü uşaqlıq aləmində hiss edir, "uşaqlaşır", gözəl uşaqlıq xəyallarına qapılır, uşaqlarla birlikdə evcikdə oynayır, kəpənək qovur, gül-çiçək toplayır, heyvanlarla danışır, buludlarla səyahətə çıxır. Aləmzər Əlizadə uşaqlar üçün xeyli mənzum nağıl da yazmışdır.

Onun “Kirpilər”, “Dəcəl cücə”, “Zürafə”, “Dəvə və şeşəqulaq”, “Toya gecikən tülkü”, “Nəğmə qapısı”, “Yelpazəli” və s. bu kimi nağılları da uşaqlar üçün maraqlıdır. Uşaq aləminə nüfuz etmək, onları düşündürmək, ovundurmaq, onlara bədii zövq vermək çətin və məsuliyyətlidir. Bu çətinliyi həssalıqla duymaq, bu zəhmətin şirin bəhrəsini görmək böyük bacarıq və istedad tələb edir.

**Əsərləri:**

1. Fələk və mən : Seçilmiş əsərləri. I cild.- Gəncə : “Əsgər oğlu”, 2007. - 404 s.
2. Pyeslər. – Bakı : Şirvannəşr, 1998.- 94 s.
3. Gözdən çıxan qara tikanlar. – Bakı : “Azərbaycan Ensiklopediyası” Nəşriyyat Poliqrafiya birliyi, 1997. - 134 s.
4. Göyün işığı. - Bakı: Gənclik, 1994.- 92 s.
5. Adımdan danışıram. - Bakı: “Şur” nəşriyyatı, 1994. - 48 s.
6. Eldənizin dünyası // Odlar yurdum Azərbaycan. - Bakı : Gənclik, 1990. - 58 s.
7. Ülviyyənin kitabı. - Bakı : Gənclik, 1989. - 104 s.
8. Dəvə və şeşəqulaq // Alleqoriya və təmsillər. - Bakı: Gənclik, 1988. -128 s.
9. Ətirli kəpənək. – Bakı: Gənclik, 1986.- 58 s.
10. Şəfəqin sırğaları. - Bakı: Gənclik, 1982.- 46 s.
11. Küsən güllər.- Bakı: Gənclik, 1979.- 54 s.
12. Sarı eynək.- Bakı: Gənclik, 1973.- 12 s.

**Kitablarda:** İydələr ; İpək kombinatında ; Bacımın kitabı // Uşaq ədəbiyyatı.- Bakı: “Təhsil” nəşriyyatı, 2002.- 221s, Yaman nigaranam ; Cücələr ; Rəhim ; Şəhəri dolanırıq ; Sözə baxan : şeirlər // Doğdu günəş qırmızı. - Bakı: Gənclik, 1983. - 57 s,
Ayna və Sona ; İşsiz daraq ; Əmimin kranı və s.: şeirlər // Peyk.- 1980.- 4 aprel.- № 13.- s.4, Ay nə gəzir, üzən top // Mənim bağım, baharım...- Bakı: Gənclik, 1980.- s.29

## 5. Şair Əliyev Azadın 50 illiyi (1965)



**Əliyev Azad Aşurəli oğlu şair, 2007 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, “Qızıl qələm” media mükafatı laureatı (2008)**
1965-ci il sentyabrın 5-də Azərbaycanda Yardımlı rayonunun Arvana kəndində anadan olmuşdur. Burada kənd səkkizillik (1972-1980), qonşuluqda olan Çayüzü kəndində orta məktəbi (1980-1982) bitirmişdir. Lənkəran Dövlət Pedoqoji Texnikumunda təhsilini davam etdirmişdir(1982-1988). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Yardımlı rayonundakı Urağan kənd məktəbində ibtidai sinif müəllimi kimi başlamışdır. (1988-1992). Ədəbi fəaliyyətə müəllimlik illərindən başlamışdır. İlk şeirləri Lənkəranda nəşr edilən “Leninçi” qəzetində işıq üzü görmüşdür. Sonra “Əsgər”, “Ordu” qəzetlərində müntəzəm çıxış etmişdir. İki şeirlər toplusu – **“Sənə borcluyam vətən” və “Ümid çırağı”**(2009) kütləvi tirajla nəşr olunmuşdur.

**5. Şair Bəxtiyar Əliyarın 55 illiyi (1960)**



**İbayev Bəxtiyar Şaban oğlu şair, 2001 – ci ildən Azərbaycan Yazıçılar birliyinin üzvü.**
1960-cı il sentyabrın 5-də Azərbaycanda, Lənkəran rayonunun Sütəmurdov kəndində ziyalı ailəsində doğulmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Lənkəran "Xəzər" gülçülük sovxozunda və meyvə-tərəvəz konserv kombinatında fəhləlik etmişdir(1977-1979).
Azərbaycan dövlət Pedoqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakultəsində təhsil almışdır.(1979- 1983). Ədəbi fəaliyyətə gənclik dövründən başlamışdır. İlk qələm təcrübələri "Lənkəran" qəzetinin 1993-cü il nömrələrində dərc olunmuşdur. Dövrü mətbuatda vaxtaşırı çıxış etmişdir. "Şəfəq" jurnalının yaradıcı heyətinin tərkibinə daxil olmuşdur (1999). "V-XI siniflərdə mətn", "Orta məktəbdə ifadə" (2002) dərs vəsaitlərinin müəllifidir.
İlk şeirlər toplusu "Birincilər" 1999-cu ildə nəşr edilmişdir.
**Əsərləri:** "Birincilər" (1999), "Yay yağışı" (2005), " 55 ilin işığında " , "Silinməz izlər" , "Ədəbiyyət işığı" və s.

6. **Şair, publisist Əvəz Lələdağın anadan olmasının 80 illiyi (1935)**



**Mahmudov Əvəz Cəlal oğlu - şair, publisist, 1995 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1998).**
1935 - ci il sentyabrın 6 - da Oğuz yurdu Ermənistanda, Zəngəzur mahalının Qarakilsə bölgəsinin Ağdü kəndində anadan olmuşdur.
Əlli illik yaradıcılıq yolu keçmiş Əvəz Mahmud Lalədağ (Mahmudov Əvəz Cəlal oğlu) Zəngəzur mahalının Ağdü kəndində anadan olmuşdur. 1972-ci ildən Sumqayıtda yaşayır. Azərbaycan yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Aşıqlar Birliyinin üzvüdür. **"El yada düşdü", "Dağlar marala qaldı", "Ömür payı", "Sinəsi dolu nənəm", "Ağ dovşanın nağılı", "Ömürdən qalan izlər", "Dünya, hara gedirsən", "Səni gözləyirəm", "Bizi deyib gəlmə, Mirzə", "Yaddan çıxmaz günlərim", "Analı dünyam", "Ümumbəşəri bəla-erməni xəstəliyi", "Təlimdə ənənəvilik və müasirlik haqqında pedaqoji düşüncələr", "Dağlar, gözləyin məni" yazıları müxtəlif mətbuat orqanlarında çap olunmuşdur.** İstedadlı dramaturq kimi tanınan Ə.Lələdağın **"Qorxaq", "Tələ", "Batmanla gələn dərd", "Haray, dünya, haray", "Mənim Koroğlu babam", "Dağlarda tufan" , "Burda bir el vardı", "Gecikmiş etiraf"** əsərləri H.Ərəblinski adına Sumqayıt Dövlət Musiqili Dram teatrında müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

**10. Ədəbiyyatşünas, publisist Maqsud Hacıyevin anadan olmasının 80 illiyi (1935)**



**Maqsud Hacıyev – Ədəbiyyatşünas, tərcüməçi, publisist.**

Maqsud İbrahim oğlu Hacıyev 10 sentyabr 1935-ci ildə keçmiş Qonaqkənd rayonunun (indiki Quba rayonu) Gümür kəndində anadan olmuşdur. Azərbaycan EA Dilçilik İnstitutunda böyük elmi işçi vəzifəsində çalışır. Əmək veteranıdır. O, bir sıra beynəlxalq simpoziumlarda məruzələrlə iştirak etmişdir. İxtisasca şərqşünasdır. "Tat dilinin Qonaqkənd ləhcəsi"(1971), "İranın tarixi-etnoqrafik oçerki, fars dilinin qısa qrammatikası və farsca-rusca texniki lüğət" (İsfahan, 1973, 1974), "Beş il qonşu diyarda" (1976), "İran etüdləri" (1979), "Dörd ildə gördüklərim"(1985), "Əfqan şerində Lenin və oktyabr mövzusu" (Kabul, 1987), "Əfqan ədəbiyyatında milli barışıq siyasətinin inikası" ( rus və dəri dillərində, Kabul, 1988), "Əfqanıstan görüşləri" (1989), "Azərbaycan tatlarının dili" (1995)və sair bu kimi elmi, elmi-publisist əsərləri ilə daha çox tanınmışdır. O, İran və Əfqanıstanın bir sıra görkəmli ədəbi simalarının əsərlərini dilimizə tərcümə etmiş, Ç.Çaplinin "Səhnə işıqları", Şərq xalqlarının həyatına dair "Məzəli əhvalatlar", əfqan xalqının nağıllarından ibarət "Çilan və şeytan" kimi tərcümə kitablarını oxuculara təqdim etmişdir. "Azərbaycan Sovet Ensiklopediyası"nın 4-cü, 7-ci və 9-cu cildlərinin əsas müəlliflərindəndir. Maqsud Hacıyev Azərbaycan Yazıçılar və Azərbaycan Jurnalistlər Birliklərinin üzvü, "Bilik" Maarifçilik Cəmiyyətinin Yaxın və Orta Şərq ölkələri üzrə siyasi icmalçısı, Azərbaycan Ziyalılar Cəmiyyətinin Fəxri Filologiya doktoru, Beynəlxalq Şərqşünaslar Assosiasiyanın həqiqi üzvü, Mahir Sənətkar diplomçusu, Nailiyyət Ali Jurnalist mükafatı laueratı, Respublika Tat mədəniyyət mərkəzinin sədri, Azərbaycan Ziyalılar Universitetinin professoru, Əfqanıstan müharibəsi iştirakçısı, Əmək veteranıdır.

**14. Yazıçı İbrahim bəy Musabəyovun anadan olmasının 135 illiyi (1880 - 1942)**
**Musabəyov İbrahim bəy Mehdi bəy oğlu – maarifçi, yazıçısı və pedaqoq.**

İbrahim bəy Musabəyov 1880-cı ildə Qutqaşendə (indiki Qəbələ şəhərində) anadan olmuşdur. İlk təhsilini doğma Qutqaşendə alan İ.Musabəyov 1898-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olur, 1902-ci ildə oranı bitirir və Şəki şəhərindəki üçüncü rus-tatar məktəbində müəllimliyə başlayır.
1913-cü ildən ədəbi fəaliyyətə başlayan İ.Musabəyov özünün didaktik, təlim və tərbiyəyə dair hekayələrini "Məktəb" jurnalında, iri həcmli əsərlərini isə müxtəlif nəşriyyatlarda kitabça şəklində çap etdirirdi. Onun ədəbi irsi içərisində ideya və məzmunu ilə nəzəri daha çox cəlb edən və bu gün də aktuallığını itirməyən, ilk dəfə 1916-cı ildə kitab şəklində çap olunmuş "Neft və milyonlar səltənətində" povestidir. Bu, inqilaba qədər Azərbaycan bədii nəsrində neft sənayesi sahiblərinin və burjua əxlaqının, pul hakimiyyətinin ifşasına həsr olunmuş əsərlər içərisində xüsusi yer tutur.
"Neft və milyonlar səltənətində" povesti tez bir zamanda ictimaiyyətin nəzərini cəlb edir. 1916-cı ildə həmin povestin əsasında A.D.Panova-Potyomkinanın ssenarisi üzrə "Filma" fransız kino şirkəti dörd seriyadan ibarət kino-film çəkir ki, burada rus kino ustaları ilə yanaşı, məşhur Azərbaycan aktyoru Hüseyn Ərəblinski, xanəndə Cabbar Qaryağdıoğlu, tarzən Qurban Primov, Mirmahmud Kazımovski də iştirak edirlər.
İbrahim bəy Musabəyov 14 sentyabr 1942-cil ildə vəfat etmişdir.
**Əsəri üzrə çəkilən filmlər:**
1. Neft və milyonlar səltənətində (film, 1916) (tammetrajlı bədii film)
2. Qızıl uçurum (film, 1980) (tammetrajlı bədii film)

**25. Folklorşünas Əbülqasım Hüseynzadənin anadan olmasının 125 illiyi (1890-1988)**



Əbülqasım Hüseynzadə 25 sentyabr 1890-cu ildə Bakıda anadan olmuşdur. O, orta təhsilini 6 sinifli şəhər məktəbində almış, sovetdən əvvəl Bakı tütün fabrikində baş mühasib və başqa vəzifələrdə işləmişdir. Azərbaycan Sovet Hakimiyyətinin tərkibinə keçdikdən sonra Əbülqasım Hüseynzadə 1920-1975 illərdə müxtəlif müəssisələrdə baş mühasib olmuşdur. O, eyni zamanda qiyabi yolla natamam ali təhsil almışdır.

Əbülqasım Hüseynzadənin Azərbaycan folklorunun toplanması və nəşri sahəsində mühim xidmətləri vardır. Onun "Atalar sözləri" (1926) kitabı Sovet hakimiyyəti illərində nəşr olunmuş ilk Azərbaycan atalar sözü kitabıdır. Sonrakı illərdə o, "Atalar sözü" (1938, 1949, 1956, 1965, 1981, 1986), "El sözləri" (1944), "Hikmətli sözlər" (1961), "Müdrik sözlər" (1970), "Müxtəsər rusca-azərbaycanca və azərbaycanca-rusca atalar sözü lüğəti" (B.Tahirbəyovla birgə, 1983), "Atalar sözü və zərb-məsəllər" və başqa kitabları çapa hazırlayaraq nəşr etdirmişdir.

Onun topladığı atalar sözləri, məsəllər rus və Ukrayna dillərinə tərcümə olunmuşdur. Azərbaycan folkloru sahəsində göstərdiyi xidmətə görə ona 1981-ci ildə Azərbaycanın əməkdar mədəniyyət işçisi fəxri adı verilmişdir. Əbülqasım Hüseynzadə 2 sentyabr 1988-ci ildə Bakıda vəfat etmişdir.

**Əsərləri:** “Din əleyhinə el sözləri” (1940), “Tülkü və xoruz nağılı” (1942), “İşıq şüası ilə” (1967), “Rəvayətlər” (1974), “Müxtəsər rusca – azərbaycanca atalar sözü lüğəti” (1984), “Atalar sözü” (1985) və s.

**25. Ədəbiyyatşünas, tənqidçi Asif Atanın anadan olmasının 80 illiyi (1935-1997)**



**Əfəndiyev Asif Qasım oğlu (Asif Ata - İnam Ata) - filosof, Mütləqə İnam dünyabaxışının, təliminin yaradıcısı, ruhaniyyətçı.**

Asif Ata (İnam Ata) 1935-ci il sentyabrın 25-də Qərbi Azərbaycanın Çəmbərək (Krasnoselsk) rayonunun Çaykənd kəndində, müəllim ailəsində anadan olmuşdur. Əslən Qaraqoyunlu soyundandır. Babaları ruhanı olmuşlar. İlk təhsilini doğulduğu kənddə almış, orta təhsilini Gəncə şəhərində davam etdirmiş, 1951-ci ildə Ağstafa şəhərində başa vurmuşdur. Mətbuatda ilk dəfə 1952-ci ildə "Azərbaycan pioneri" qəzetində dərc olunan "Məktəb xatirələri" şeiri ilə çıxış etmişdir.

1952-1957-ci illərdə Moskvadakı M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda oxuyub. Təhsil illərində müstəqil olaraq dünya tarixini, ədəbiyyatını, fəlsəfəsini, dinlərini, musiqisini, incəsənət tarixini – bir sözlə, özünəcən insanlığın yaradıb

ortaya qoyduğu bütün dəyərli bilikləri mənimsəyib. M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunda, Dillər Universitetində, Bakı Musiqi Akademiyasında, Bakı Dövlət Universitetində Qərb ədəbiyyatı, rus ədəbiyyatı, estetika, fəlsəfə, incəsənət tarixi fənlərindən mühazirələr oxuyub. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda baş elmi işçi vəzifəsində işləmişdir (1969-1975). 1975-ci ildə Azərbaycan (indiki Bakı) Dövlət Universitetində "Etik və Estetik Tərbiyə Klubu"nu yaradıb və iki ildən artıq fəaliyyət göstərən klubun toplantılarında minlərlə insana Azərbaycan və onun mahiyyəti, ruhani dəyərləri, oçağkı və gələcək taleyi ilə bağlı uca sözlər deyib. Klub tez bir zamanda Azərbaycanın hər yerində səs-soraq salıb, onun toplantılarına bölgələrdən də qatılanlar çoxalıb. Bundan qorxan universitet rəhbərliyi klubun fəaliyyətini yasaqlayır. Ata məcbur olub toplantılarını "Bilik" cəmiyyətində davam etdirir. 1978-ci ilin noyabrından klub Ocağa çevrilir, onun sədri Asif Əfəndiyev isə ardıcılları tərəfindən Asif Ata adlanır. Ocaq tarixi isə 1979-cu il mart ayının 1-dən hesablanır. 1982-ci ildə İnam Atanın Mütləqə İnam Ocağı dəhşətli basqılara uğrayır və qapadılır. Ata özü işdən və məcburən üzv olduğu Kommunist Partiyasından çıxarılır, ailəsi dağıdılır, yörəsindəkilərin çoxu pərən salınır. Həmin ildən başlayaraq Ocaq bir neçə il gizli fəaliyyət göstərir. İnam Ata ən dəhşətli təqib illərində kitablarını yazır, yaratdığı Mütləqə İnam Dünyabaxışını sistemləşdirir, xalq içərisində olur, saysız görüşlər keçirirdi. Onun yalnız dünyabaxışını əhatə edən əsərləri 44 kitabdan ibarətdir ki, Mütləqə İnam Ocağı indi onu "On Kutsal Bitiq"də bir araya gətirib. İnam Ata 6 iyun 1997-ci ildə aramızdan gedib. Son mənzili  Ağstafadadır.

**Əsərləri**

1. Müdriklik səlahiyyəti. – Bakı : Azərnəşr, 1976. - 192 s.
2. İnam və şübhə. – Bakı : Yazıçı, 1988. - 172 s.
3. Mütləqə inam. – Bakı : Yazıçı, 1999. - 300 s.
4. Yol. Ata sözü. – Bakı : Örnək, 1994. - 87 s.
5. Siyasətdən üstün. – Bakı : Nərgiz, 1999. - 26 s.
6. Təməl. – Bakı : Örnək, 1999. - 43 s.
7. Həqiqət azadlığı - Cəfəngiyyat əsarəti. – Bakı : Örnək, 2000. - 23 s.
8. İnsanilik imkanı. – Bakı : Örnək, 2000. - 28 s.
9. Mahiyyət. – Bakı : - Örnək, 2000. – 23s.
10. Mütləqilik. – Bakı : Örnək, 1999. - 78 s.
11. Bədiiyyat. – Bakı : Adiloğlu, 2006. - 52 s.
12. Uluyurd aqibəti – Bütöv Azərbaycan. – Bakı : Adiloğlu, 2007. - 295 s.
13. Kutsal Öyrəti. – Bakı : Adiloğlu, 2010. - 112 s.
14. On Kutsal Bitiq : I cild. – Bakı : Qanun, 2010. - 322 s.
15. On Kutsal Bitiq : II cild. – Bakı : Qanun, 2010. - 182 s.
16. On Kutsal Bitiq : II cild. – Bakı : Qanun, 2010. - 182 s.
17. On Kutsal Bitiq : III cild. – Bakı : Qanun, 2011. - 360 s.
18. On Kutsal Bitiq : IV cild. – Bakı : Qanun, 2012. - 232 s.

## 26. Şair, publisist Avtandil Ağbabanın 60 illiyi (1955)



**Avtandil Ağbaba - şair, publisist, folklorşünas. 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1995-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür**.

Avtandil Ağbaba 1955-ci il sentyabrın 26-da Qərbi Azərbaycanın Amasiya rayonunun Balıqlı kəndində anadan olmuşdur. Təpəköy məktəbində orta təhsil almışdır. Azərbaycan Dövlət Universtetinin filologiya fakültəsinə daxil olmuşdur (1973). Ordu sıralarında xidmət etmişdir (1974-1976). Sonra ADU-nin filologiya fakültəsində təhsilini qiyabi davam etdirmişdir. Eyni zamanda doğma Balıqlı kəndində klub müdiri, sonra Oksüz kənd səkkizillik məktəbində müəllim, tədris hissə müdiri, yenidən Balıqlı kənd səkkizillik məktəbində müəllim işləmişdir (1976-1988). Məlum səbəblərə görə doğma yurdundan qaçqın düşmüşdür. Sumqayıtda 11 saylı otra məktəbdə müəllim (1989-1999), 25 saylı orta məktəbdə təlim-tərbiyə işləri üzrə direktor müavini (1999), "Ulu Göyçə" qəzetinin xüsusi müxbiri olmuşdur (1993). Sumqayıt Dövlət Universtetinin filologiya fakültəsində müəllim, baş müəllim (2000-2004), sonra kafedra müdiri işləmişdir (2005-ci ildən). 2005-ci ildən filologiya üzrə fəlsəfə doktoru, 2006-cı ildən dosent vəzifəsini tutmuşdur. 2012-cü il noyabr ayında Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə əməkdar jurnalist adı verilmişdir.

Bədii yaradıcılığa orta məktəbdə oxuyarkən başlamışdır. İlk mətbu şeri-"Anam", "Əmək" adlı Amasiya rayon qəzetində çıxmışdır (1972). Tələbəlik illərindən şeirləri almanaxlarda, qəzet və jurnallarda vaxtaşırı çap olunur. Onun ilk şeirlər toplusu "Ağbabaya gedən yollar" (1993) kitabında yurd həsrəti, qaçqınlığın ağrı-acısı, sıxıntısı, düşmənə nifrət ifadəsini tapmışdır.

**Əsərləri**

1. Ağbabaya gedən yollar. – Bakı : Nubar nəşriyyatı, 1993. - 96 s.
2. Qaçaq Usuf. – Bakı : Yazıçı nəşriyyatı, 1994. - 56 s.
3. Ağbaba Şəhidləri. – Bakı : Ağrıdağ nəşriyyatı, 1998. - 360 s.
4. Durnalar işığa uçur. - Sumqayıt : Sumqayıt nəşriyyatı, 1999. - 100 s.
5. Oğuz yurdu Güllübulaq. – Bakı : Adiloğlu nəşriyyatı, - 2002. - 310 s.
6. Mən torpaq oğluyam. – Bakı : Adiloğlu nəşriyyatı, 2003. - 220 s.
7. Folklorumuz və taleyimiz. – Bakı : Nurlan nəşriyyatı, - 2007. -192 s.
8. Aşıq Nəsibin sənət dünyası. – Bakı : Nurlan nəşriyyatı, 2008. -96 s.
9. Mifologiya : dərs vəsaiti. – Sumqayıt : SDİ-nun nəşri, 2008. - 60 s.
10. Durnam gedər olsan bizim ellərə. – Bakı : Qanun nəşriyyatı, 2010. – 64 s.

**30. Şair Vaqif İbrahimin anadan olmasının 70 illiyi (1945-1983)**



Vaqif İbrahim 1945-ci il sentyabrın 30-da Şəki şəhərində doğulmuşdur. Burada orta təhsil aldıqdan sonra M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə jurnalist kimi başlamışdır. Sumqayıt şəhər radio verilişləri redaksiyasında redaktor (1968-1970), məsul redaktor (1971-1975), Əli Kərim adına Sumqayıt gənclik poeziya klubunun sədri (1970-1971), "Ulduz" jurnalı redaksiyasında ədəbi işçi (1975-1976), "Göyərçin" jurnalının məsul katibi (ömrünün sonuna qədər) olmuşdur. Eyni zamanda 1980-1983-cü illərdə Azərbaycan LKGİ MK nəzdində gənc yazıçıların respublika ədəbi birliyinə rəhbərlik etmişdir. Azərbaycan komsomolunun XXX-XXXI qurultaylarında nümayəndə, XXXI qurultayında respublika LKGİ MK-ya üzv seçilmişdir.

Baykal Amur magistralının fəxri inşaatçısı adına layiq görülmüşdür. SSRİ-Bolqarıstan "Drujba" jurnalı redaksiya heyətinin üzvü olmuşdur. 1983-cü ildə faciəli surətdə həlak olmuş, Sumqayıtda dəfn olunmuşdur.

**Əsərləri**

1.Bu torpaqda doğulanlar. – Bakı : Gənclik, 1970. - 126 s.
2.Ömür balladası. – Bakı : Gənclik, 1970. - 31 s.
3.Dünyanın keşiyində. – Bakı : Gənclik, 1974. - 87 s.
4.Baykal-Amur magistralında. – Bakı : Gənclik, 1975. - 102 s.
5.Mehribanlıq işığı. – Bakı : Yazıçı, 1981. - 121 s.
6.Vaxtla üz-üzə. – Bakı : Gənclik, 1982. - 228 s.
7.Taleyimə yazılanlar : şeirlər. – Bakı : Gənclik, 1985. - 188 s.

# Oktyabr

**Əlamətdar tarixi günlər və bayramlar**
Beynəlxalq Ahıllar günü 01.10.1993
Beynəlxalq Musiqi günü 01.10.1975
Müəllimlər günü 05.10.1994
Yanğınsöndürənlərin peşə bayramı 10.10.2002
Azərbaycan Dövlət Müstəqillik günü 18.10.1991
Energetiklərin peşə bayramı 20.10.2004
Beynəlxalq Məktəb kitabxanaları günü 22.10.1999
Birləşmiş millətlər Təşkilatı günü 24.10.1945

**Bu tarixi unutmayaq**
Xocavənd rayonunun işğalı günü 02.10.1992
Zəngilan rayonunun işğalı günü 30.10.1993

**İncəsənət**
Bəstəkar Xəyyam Mirzəzadənin (05.10.1935) 80 illik yubileyi
Kinorejissor Hüseyn Seyidzadənin (19.10.1910-1979) 105 illik yubileyi
Rəssam İzzət Seyidovun (20.10.1910-1973) 105 illik yubileyi
Jurnalist Mailə Muradxanlının (22.10.1940-2010) 75 illik yubileyi
Rəssam Elmira Şaxtaxtinskayanın (25.10.1930-1996) 85 illik yubileyi

**Yubilyar yazıçı və şairlər**
Şair Səyavuş Məmmədzadənin (02.10.1935) 80 illik yubileyi
Yazıçı S. S. Axundovun (03.10.1875-1939) 140 illik yubileyi
Şair Şəkər Aslanın (10.10.1935-1995) 80 illik yubileyi
Şair Həmid Abbasın (10.10.1935-1999) 80 illik yubileyi
Yazıçı Məmməd Aranlının (22.10.1920-1950) 95 illik yubileyi
Şair Hacı Mailin (25.10.1935-1998) 80 illik yubileyi
Ədəbiyyatşünas Qafar Kəndlinin (26.10.1925-1997) 90 illik yubileyi
Şair Hüseyn Nadirin (28.10.1930-1999) 85 illik yubileyi

**Xarici ədəbiyyat**
Rus şairi Sergey Yeseninin (03.10.1895-1925) 120 illik yubileyi
Rus yazıçısı İvan Buninin (22.10.1870-1953) 145 illik yubileyi
İtaliya uşaq yazıçısı Canni Rodarinin (23.10.1920-1980) 95 illik yubileyi

# OKTYABR
# Əlamətdar tarixi günlər və bayramlar

## 1. Beynəlxalq Ahıllar günü



Yaşadığımız cəmiyyət hamı üçündür. Gənclər, orta nəslin nümayəndələri, hətta ahıllar da cəmiyyətdə gedən inkişaf proseslərində iştirak etməlidirlər. Yaşlıların həyat təcrübəsindən, bilik və bacarıqlarından bəhrələnmək isə nəsillər arasında körpü yaratmaq, varislik əlaqəsini bərpa etmək baxımından çox zəruridir. Cəmiyyətdə yaşayıb ondan kənarda qalmaq olmaz. Ahılların məşğulluğu, onların inkişaf prosesinə cəlb edilməsi, həm də sosial-iqtisadi durumun yaxşılaşması deməkdir. BMT-nin inkişaf proqramında son illər ərzində ahıllar problemi geniş yer tutur. 2002-ci ilin aprelində İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin ahıllar üzrə II Ümumdünya məclisində belə bir fikir səsləndi ki, yaşlılar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir. Adı-sanı, nəcib əməlləri ilə tanınan, bəlkə də heç tanınmayan, lakin ləyaqətlə yaşayan, həyat təcrübəsi ilə yeni nəsillərə nümunə olan ahıllar, həqiqətən, hörmətə layiqdirlər. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə sahib olmaq mümkündür. Ümummilli liderimiz Heydər Əliyev kimi yaşa dolmuş görkəmli siyasətçi və dövlət xadimi öz ölkəsini müvəffəqiyyətlə idarə etmişdir. Bu fakt bir daha sübut edir ki, yaşlı, ahıl insanların təcrübəsi əvəzolunmazdır. BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Həmin Qətnamənin prinsiplərinə uğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar ili elan olunmuşdur. Bu məsələyə Respublikamızda da ciddi diqqət yetirilir. 2001-ci il iyunun 22-də "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır. 1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i Respublikamızda "Beynəlxalq Ahıllar Günü" kimi qeyd olunur. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir. Beynəlxalq Ahıllar Günü ərəfəsində bütün dünyada olduğu kimi, Respublikamızın şəhər və rayonlarında icra hakimiyyətləri, əmək kollektivləri, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları rayon ərazisində yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirirlər.

## 1.Beynəlxalq Musiqi günü

***“Bəstəkarlar öz əsərlərini yaradarkən, unutmamalıdırlar ki, bizim yaradıcılığımızı xalq qiymətləndirir. Çünki xalq yalnız yaradıcı, yalnız bəstəkar deyildir, xalq eyni zamanda misilsiz tənqidçi və musiqi əsərlərinin ən yaxşı “istehlakçısıdır”, xalq musiqi əsərlərinə diqqətlə yanaşır, yaxşını pisdən seçir.”***

***“İlk gözəl nəğmə və rəqs melodiyalarının yaradıcısı xalq özüdür. Bizə bu gün nümunə olan xalq nəğmələri əsrlərdən bəri işlənə-işlənə yaradılmış və yalnız bizim zəmanəmizdə həqiqi bədii formalar almışdır.”***

**Üzeyir Hacıbəyli**



Bəşəriyyətin musiqi ilə tanışlığı çox qədim dövrlərdən başlayıb. Afrika mağaralarında aşkar edilmiş qayaüstü rəsmlərdə əlində musiqi aləti tutmuş insanlar təsvir ediliblər. Musiqi intəhasız, heç bir ölçüyə sığışmayan gücə malikdir. Yer üzündə az adam tapılar ki, musiqiyə laqeyd qalsın.

Bir çox məşhur bəstəkarlar daxili dünyalarını, duyğularını, istək və arzularını ifadə etmək üçün musiqidən istifadə ediblər. Onların adı məhz musiqinin qüdrəti sayəsində tarixə və gələcək nəsillərin yaddaşına yazılıb. Musiqi heç vaxt qocalmır. İnsanlara bəxş edilən bu ilahi nemət bəşəriyyət var olduqca yaşayacaq. Beynəlxalq Musiqi Günü UNESCO-nun qərarı ilə 1975-ci il oktyabrın 1-də təsis edilmişdir. Bu bayram hər il bütün dünyada ən yaxşı artistlərin və incəsənət kollektivlərinin iştirak etdikləri möhtəşəm konsert proqramları ilə qeyd olunur. Həmin gün dünya musiqi xəzinəsinin qeyri-adi, bənzərsiz inciləri ifa edilir. 2000-ci ildə isə Çin arxeoloqları 2 min illik tarixi olan musiqi alətləri muzeyini aşkara çıxarmışlar. Azərbaycanda da musiqinin tarixi çox qədimlərə gedib çıxır. Qobustandakı qavaldaş daş dövründə yaşamış insanların istifadə etdikləri musiqi alətidir. Qobustan qayalarında qədim Azərbaycanın “Yallı” rəqs səhnələri təsvir olunmuşdur. Bu rəqsin uğurlu ov üçün ovsun mərasimi olduğu vurğulanmışdır. Görünür, Azərbaycan dilinin musiqi dili olması da buradan qaynaqlanır.

## 5. Müəllimlər günü

***" Hər birimizdə müəllimin hərarətli  qəlbinin bir  zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu  sevməyi, hamının rifahı namınə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Gələcək gənclərin, gənclər isə Müəllimlərin əsəridir!!!"***

**Ulu öndər Heydər Əliyev.**



Hər il oktyabrın 5-i Müəllimlər günü kimi qeyd olunur. 5 oktyabr 1966-cı ildə YUNESKO və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə çağırılan konfransda müəllimlərin peşə fəaliyyətinin şərtlərini təyin edən «Müəllimlərin statusu haqqında» adlı ilk beynəlxalq sənəd imzalanmışdır. 1994-cü ildən isə həmin tarix YUNESKO tərəfindən Ümumdünya Müəllimlər Günü kimi təsis edilmişdir. Bu tarix həmçinin BMT-nin də beynəlxalq və ümumdünya günlər sisteminə daxildir. Bu günün qeyd olunması müəllimlərin cəmiyyətdəki mövqeyi, təhsil və inkişafdakı roluna diqqət çəkməyi nəzərdə tutmuşdur. Hal-hazırda dünyanın 100-dən çox ölkəsində ümumdünya səviyyəsində qeyd olunduğu halda, bəzi ölkələrdə müxtəlif tarixlərdə ayrıca olaraq milli səviyyədə «Müəllimlər günü» qeyd edilir. Məsələn, müxtəlif əlamətdar hadisələr əsasında Albaniyada 8 mart, Cənubi Koreyada 15 may, Argentinada 11 sentyabr, Çində 28 sentyabr, Özbəkistanda 1 oktyabr, Türkiyədə isə 24 noyabr tarixlərində Müəllimlər günü qeyd olunur. Müstəqil Azərbaycanda isə bu tarix 1993-cü il oktyabrın 5-də rəsmiləşdirib. Beynəlxalq Müəllimlər günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. ...Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. İlham Əliyevin "Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikri artıq realllığa çevrilir. Ən şərəfli sənət müəllim sənətidir. Çünki bu günümüzün həkimini, polisini, vəkilini, kompyuter mühəndisini, memarını hətta, müəlliminni belə müəllim yetişdirir. Əgər müəllim olmasa bu sadalanaların hec biri olmaz. Günlər keçir, illər illərə calanır, insan çox şeyi unudur. Lakin heç zaman ilk müəllim yaddan çıxmır, xatirədən silinmir. Axı insana elm qapısının açarını ilk müəllim təqdim edir, onu əsrarəngiz bir dünya ilə müəllim qovuşdurur.

## 10. Yanğınsöndürənlərin peşə bayramı



2002-ci il oktyabr ayının 5-də ümummilli liderimiz Heydər Əliyev hər il oktyabr ayının 10-nun "Yanğınsöndürənlərin peşə bayramı günü" kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır.

Həmin tarixdən etibarən hər il oktyabrın 10-u yanğınsöndürənlərin peşə bayramı kimi qeyd olunur.

XX əsrin əvvəllərində yaradılan Azərbaycan yanğından mühafizə xidmətinin əsas inkişaf dövrü ötən əsrin 70-ci illərinə təsadüf edir. Zəngin siyasi və idarəçilik təcrübəsinə, fenomenal rəhbərlik qabiliyyətinə malik olan ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkəmizdə yanğın təhlükəsizliyi sahəsi daha sistemli şəkildə inkişaf etməyə başladı. Yanğından mühafizə xidmətinin maddi-texniki və normativ-hüquqi bazası möhkəmləndirildi, kadr ehtiyatının yaradılmasına, şəxsi heyətin peşəkarlığının artırılmasına xüsusi diqqət yetirildi. 1997-ci ildə "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən etmişdir. Sonrakı dövrlərdə də Azərbaycanın yanğın təhlükəsizliyi xidməti inkişafda olmuş, yanğından mühafizə sistemləri təkmilləşdirilmiş, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılmışdır.

Azərbaycan yanğınsöndürənləri sırasında muxtar respublikamızın yanğınsöndürənləri də öz fəaliyyətləri ilə seçilir, regionda baş verə biləcək yanğın hadisələrinin qarşısının alınması üçün müxtəlif tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlayırlar. Son illər yanğın təhlükəsizliyi orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, ştat strukturunda dəyişikliklərin edilməsi və şəxsi heyətin rifahının yüksəldilməsi muxtar respublika yanğınsöndürənlərinin fəaliyyətinin hərtərəfli təşkilinə səbəb olmuşdur.

Dövlət Yanğından Mühafizə Xidmətinin yaranmasından 92 il ötür. Bu gün yanğınsöndürənlərin peşə bayramıdır. Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidməti yaranmasının 92-ci ildönümü qeyd edir. Qeyd edək ki, Azərbaycanda Yanğından Mühafizə Xidməti 1918-ci ildə yaradılıb. Böyük tarixi yol keçmiş Azərbaycan yanğınsöndürmə xidmətinin fəaliyyəti indi bütün ölkəni əhatə edir. Qarabağ müharibəsində 24 yanğınsöndürən şəhid olub, onlardan 2-si Milli Qəhrəmandır.

## 18. Azərbaycanın Dövlət Müstəqilliyi günü

***"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir."***

**Ulu öndər Heydər Əliyev**




XX ərin sonlarında SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etmişdir. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd - Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilib. 1991-ci il dekabrın 29-da ümumxalq referendumunda məsələ müzakirəyə çıxarılıb və əhalinin 95%-i səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verib. Azərbaycanın müstəqilliyi bərpa olunandan sonra dövlət bayrağı, himni və gerbi haqqında da qanunlar qəbul edilib. Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Müstəqilliyi elan edilmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başladı. Onun müstəqilliyini dünya dövlətləri tanıdı. Azərbaycan Respublikasını ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Azərbaycanın BMT-yə üzv qəbul olunması ilə (2 mart 1992) onun beynəlxalq aləmdə de-fakto tanınmasına başlandı. İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanır, inkişaf etdirilir. Dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına eyni dərəcədə diqqət yetirilir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. İqtisadi artım tempinə görə ölkəmiz nəinki regionda, həm də dünyada lider mövqeyə çatıb. Ulu öndərimiz demişdir: Müstəqilliyimiz dönməzdir, sarsılmazdır, əbədidir.

**20. Energetiklərin peşə bayramı**



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli Sərəncamı ilə hər il oktyabrın 20-si ölkəmizdə energetiklərin peşə bayramı kimi qeyd edilir.

Məqsədyönlü enerji siyasəti dövlətin milli təhlükəsizliyinin təmin edilməsində və iqtisadi inkişafında çox mühüm əhəmiyyətə malikdir. Müstəqillik illərində də ümummilli liderimiz ölkəmizdə enerji təhlükəsizliyinin təmin olunmasını diqqət mərkəzində saxlamış, bu sahənin maddi-texniki təchizatı xeyli gücləndirilmişdir. Bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələri, o cümlədən elektrik enerjisi üzrə proqramlar hazırlanaraq uğurla icra edilir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla həyata keçirilməsi iqtisadiyyatın hərəkətverici qüvvəsi olan elektrik enerjisi sistemində də böyük nailiyyətlərin əldə olunmasına geniş imkanlar yaratmışdır. Xüsusilə diqqətəlayiqdir ki, son zamanlar bu ordenli-titullu mütəxəssislər gələcəkdə estafeti gənclərə vermək üçün sabahın daha müasir elektrik avadanlıqlarını bacarıqla idarə edə biləcək gənc energetiklər nəslinin yetişdirilməsinə də xüsusi diqqət və qayğı göstərirlər. Və bu gün - energetiklərin şərəfli peşə bayramı ərəfəsində onların hər biri xüsusi təbrikə və təşəkkürə layiq olduqlarını fədakar əməkləri ilə bir daha təsdiq etməkdədirlər.

**22. Beynəlxalq Məktəb Kitabxanaları günü**

***"Hər bir cəmiyyətdə savadlı şəxs müəllimə hörmət etməli, cəmiyyətin həyatında oynadığı rolu qiymətləndirməlidir."***

**Ulu öndər Heydər Əliyev**



Beynəlxalq Məktəb Kitabxanaları günü YUNESKO-nun təşəbbüsü ilə 1999-cu ildən etibarən qeyd olunur.

İlk dəfə bu günün qeyd olunmasını Beynəlxalq Məktəb Kitabxanaları Birliyinin prezidenti Blanş Vullz elan edib. 2005-ci ildə bu bayramın rəsmi statusunu birliyin yeni prezidenti Piter Cenko təsdiqləyib.

2008- ci ildən bu günün qeyd olunması aylığa çevrilib (22 oktyabr – 22 noyabr). Bu isə hər bir məktəb kitabxanasına ay çərçivəsində ən münasib tarixi seçərək bayramı qeyd etməyə imkan verir.

## 24. Birləşmiş Millətlər Təşkilatı günü (1945)



Millətlər Cəmiyyəti 1927-ci ildə arbitraj və təhlükəsizlik üzrə xüsusi komissiya yaratdı. Həmin dövrdə Millətlər Cəmiyyətinin üzvü olan bütün ölkələr yeni müharibənin alovlanmasına yol verməmək üçün təntənəli şəkildə and içdilər. Ancaq andın mətni son dərəcə qeyri-müəyyən idi: dünyada heç bir ölkə başqa ölkəyə hücum edib müharibəyə başlaya bilməzdi. Tələb belə idi: bütün müharibələr müdafiə xarakteri daşımalı idi. Buna baxmayaraq 1939-cu ildə Almaniya Çexoslovakiya və Polşaya soxuldu. Bununla da İkinci Dünya müharibəsi başlandı. Bu, Millətlər Cəmiyyətinin dağılması demək idi. İkinci Dünya müharibəsi (1939-1945) başa çatanda dünya xalqları bir daha qətiyyətlə dedilər: "Müharibə olmasın!" Bu dəfə müharibə 60 milyon insanın həyatına son qoymuşdu. Əbədi sülhü bərqərar edib möhkəmləndirən yeni beynəlxalq birliyin yaradılması zərurəti meydana çıxdı.Birləşmiş Millətlər Təşkilatı beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, eləcə də dövlətlər arasında dinc əməkdaşlığı inkişaf etdirmək məqsədi ilə müstəqil dövlətlərin könüllü birləşməsi nəticəsində təşkil edilmiş beynəlxalq təşkilatdır. BMT-nin Nizamnaməsi 1945-ci ilin aprelində ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış və həmin ilin 24 oktyabrında qüvvəyə minmişdir. Odur ki, 24 oktyabr beynəlxalq aləmdə BMT Günü kimi qeyd olunur. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün əsas məsuliyyət BMT-nin Təhlükəsizlik Şurasının üzərinə qoyulmuşdur. BMT-nin Təhlükəsizlik Şurasından əlavə, əsas orqanları bunlardır: Baş Məclis, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və BMT Baş katibinin başçılıq etdiyi Katiblik. BMT sistemində 15 ixtisaslaşdırılmış təsisat da vardır. BMT-nin iqamətgahı Nyu-Yorkda yerləşir. Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul olunmuşdur. 2000-ci ildə BMT üzvlərinin sayı 189-a çatmışdır. BMT yarandığı vaxtdan bəri onun yeddi baş katibi olmuşdur: Treqvi Li (Norveç), Daq Hammarskold (İsveç), U Tan (Birma), Kurt Valdhaym (Avstriya), Havyer Peres de Kuel (Peru), Butros-Butros Qali (Misir), Kofi Annan (Qana). BMT-də rəsmi olaraq ingilis, ərəb, çin, fransız, rus və ispan dilləri işlənir. BMT-nin münaqişə zonalarında yerləşdirmək üçün müxtəlif ölkələrin hərbçilərindən təşkil olunmuş və "mavi dəbilqəlilər" adlanan sülhməramlı qoşun kontingenti də vardır. Ermənistan ordusunun torpaqlarımızı işğal etməsi məsələsi dörd dəfə BMT-də müzakirə olunmuş, bu işğalı pisləyən və işğal olunmuş əraziləri qeyd-şərtsiz tərk etməyi tələb edən 822, 853, 874 və 884 №-li qətnamələr qəbul edilmişdir. Təəssüf ki, BMT-nin bu qətnamələri indiyədək yerinə yetirilməmiş qalıb. Beynəlxalq birliyin sanksiyalarına məruz qalmayan təcavüzkar isə bu qətnamələri yerinə yetirməkdən imtina edir.

# Bu tarixi unutmayaq

## 2. Xocavənd rayonunun işğalı günü

***"Düşmən Azərbaycana məqsədli şəkildə vurduğu bu ziyanın əvəzini mütləq alacaq, Qarabağ torpağı düşmən tapdağı altında qalmayacaq!"***

**Ulu öndər Heydər Əliyev**



2 oktyabr Xocavənd rayonunun Ermənistan Silahlı qüvvələri tərəfindən işğal edildiyi tarixdir. Xocavənd rayonu 1991-ci ildə Martuni və Hadrut rayonlarının bazasında yaradılıb. Ərazisi 1458 kvadrat kilometr olan rayonda 1 şəhər, 2 qəsəbə, 81 kənd olub. Xocavəndin azərbaycanlılar yaşayan Tuğ və Salakətin kəndləri 1991-ci il oktyabrın 30-da, Xocavənd kəndi noyabrın 19-da, Naxullu kəndi isə 1992-ci il yanvarın 9-da işğal edilib. 1992-ci il fevralın 17-də isə ermənilər rayonun Qaradağlı kəndinin dinc sakinlərinə qarşı əsl soyqırım aktı həyata keçiriblər. Hər tərəfdən əlaqəsi kəsilən Qaradağlıya hücum edən ermənilər kəndi yandıraraq, dinc sakinlərə amansızlıqla divan tutublar. 800 nəfərdən çox sakini olan kənddə işğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Erməni cəlladları öldürülənləri və yaralıları bir yerdə təsərrüfat quyusuna tökərək üstünü torpaqlayıblar. Ümumilikdə, əsir götürülənlərdən 68 nəfər öldürülüb, 50 nəfər böyük çətinliklərlə əsirlikdən azad edilib. Kənddə 200 ev, bir mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılıb. 1992-ci il oktyabrın 2-də rayonun Əmirallar, Muğanlı və Kuropatkin kəndləri, 1993-cü il iyulun 23-də Günəşli, avqustun 20-də Xətai kəndləri Ermənistan Silahlı qüvvələri tərəfindən işğal edilib və yandırılıb. Düşmənə qarşı mərdliklə vuruşan xocavəndlilərin 145 nəfəri şəhid olub. Özünəməxsus təbii sərvətləri, abidələri olan qədim yaşayış məskənlərindən sayılan Xocavənd son 20 ildə ermənilər tərəfindən talanıb, abidələr dağıdılıb, zəngin təbii meşələr qırılaraq məhv edilib, nadir bitki və ağac növlərinin kökü kəsilib. Prezident İlham Əliyevin tapşırığı ilə Qaradağlı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində son illər xeyli iş görülüb. 2008-ci il oktyabrın 4-də Beyləqan rayonunda xocavəndlilər üçün salınan qəsəbənin açılışında iştirak edən Prezident İlham Əliyev demişdi ki, "bu faciə haqqında hamı bilməlidir. Artıq Qaradağlı faciəsindən bəhs edən "Soyqırım - Qaradağlı" adlı film çəkilib, bu istiqamətdə tədbirlər indi də davam etdirilir. Xocavəndlilər ona da inanırlar ki, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti, qətiyyəti sayəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunacaq, işğal altında olan bütün ərazilərimiz azad ediləcək, qətlə yetirilən günahsız insanların qanı yerdə qalmayacaq. İşğal altdakı torpaqlarımızın azad olunması onların ruhuna rahatlıq bəxş edəcək.

## 30. Zəngilan rayonunun ermənilər tərəfindən işğalı günü (1993)

***"Zəngilanda Azərbaycan xalqının milli mədəniyyətini əks etdirən tarixi abidələr var. Azərbaycan xalqının həyatını əks etdirən tarixi hadisələr baş vermişdir. Zəngilanda keçmiş əsrlərdə də xalqımızın çox hörmətli, dəyərli insanları yaşayıblar, yaradıblar və beləliklə də Zəngilan həm öz təbiətinə görə, həm o torpaq üzərində insanların qurduqlarına, yaratdıqlarına görə və bugünkü nəsillərə çatdırdıqları irsə görə Azərbaycanın qiymətli bir diyarıdır, qiymətli bir hissəsidir. "***

**Ümummilli lider Heydər Əliyev**



Zəngilan ərazisi ən qədim insanların yaşayış məskənlərindən hesab olunur. Bölgə ərazisində mövcud olan bir neçə mağara (Əsgülüm və Süsən dağlarında) burada ibtidai insanların yaşayışından xəbər verir. Ancaq rayon kimi Zəngilan rayonu 1930-cu ildə təşkil olunmuşdur. Rayonun sahəsi 707 kv. km., əhalisi isə 35.351 nəfərdir. Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, bir qəsəbə, 81 kənd var idi. Mərkəzi Zəngilan şəhəridir. XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazıldı. Ölkədə mövcud ictimai-siyasi vəziyyət, daxili çəkişmələr, bir-birinə xəyanət edən silahlı birləşmələrin bəd əməlləri torpaqlarımızın itirilməsi ilə nəticələndi. Zəngilan da digər rayonlarımız kimi xəyanətin qurbanı oldu. Təqvimimizdə daha bir qara günün sayı artdı – 29 Oktyabr (1993-cü il) Zəngilan müharibə alovunun qasırğasını 1990-cı ildən daha tez-tez hiss etməyə başladı. Ermənilər dəmir yolunu bağlayır, qatarları saxlayır, adamları girov götürürdülər. 1992-ci ilin əvvəlindən isə rayonun sərhəd kəndləri döyüş zonasına çevrildi. Yerli əhali ov tüfəngləri ilə torpaqlarımızı qoruyurdular. Ermənilər isə xarici havadarların köməyilə mükəmməl silahlanmışdılar. Zəngilanın işğalı artıq 1992-ci ildə faktiki olaraq reallaşmışdı. Hərbi işdən az-çox başı çıxan adam bu reallığı görürdü. Aydınlıq olsun deyə, işğala aparan bu yolda xronoloji ardıcıllığa qısa nəzər yetirək: 1992-ci ilin yanvar ayının sonunda ermənilərin Zəngilana mütəşəkkil hücumları başlayır. Fevralın 1-də Günqışlaq, Qazançı, Dərəli və Vejnəli kəndinə basqın edirlər. Evlərə od vururlar. Beləliklə, bu kəndlər ermənilərin nəzarəti altına düşür. 2 həftə sonra Qazançı və Dərəli kəndləri azad edilsə də Seyidlər kəndi mühasirədə qaldı. Bundan sonra ermənilərin növbəti hücumu iyunun 29-da oldu. Çox ağır və qanlı döyüşlər iki saat çəkdi. Artıq iyulun 6-da düşmən rayon mərkəzini atəşə tutur. Bütün yayı Zəngilanın kəndləri və rayon mərkəzi düşmən atəşinə məruz qalır. Bir müddət fasilə verdikdən sonra oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalayır. Belə şəraitdə Bakıda hələ də siyasi hərc-mərclik hökm

sürürdü. Dekabrın 10-da Seyidlər kəndi yenidən ermənilər tərəfindən işğal olunur. Beləliklə də, 1992-ci ilin sonuna Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçir. Bununla da rayonun işğalının əsası qoyulur. Baş verən hadisələrə baxmayaraq hökümət heç nə etmir, heç bir tədbir görmürdü. Vəziyyət getdikcə gərginləşirdi.

1993-cü ildə isə döyüşlər ara vermirdi. Yaz fəslində ermənilərin hücumları daha da intensivləşir. Martın 2-də Aşağı Göyəli və Canbir kəndləri işğal olunur. 2 gün sonra Şayıflı və ətraf kəndlərə düşmən hücumları genişlənir. Rayon mərkəzi atəş altında qalır. Belə bir şəraitdə çətinliklərə baxmayaraq mərd əhali təslim olmur, düşmən hücumları dəf edilirdi. Avqustun 25-də erməni hərbi birləşmələri genişmiqyaslı hücuma keçərək daha 5 kilometr irəlilədilər. Rayon mərkəzinin mühasirəyə düşmək təhlükəsi daha da artdı. Oktyabrın sonuna yaxın rayon tam mühasirə vəziyyətinə düşdü. Bununla da Zəngilanın mühasirəsi başa çatdırıldı.

ZƏNGİLANDA NƏYİMİZ QALDI? ZƏNGİLAN boyda VƏTƏN;

Dünyada II, Avropada I Nadir Çinar meşələri;
Torpaq üzərində olan bütün var-dövlət;
67 məktəb, 56 kitabxana, 34 klub, 9 mədəniyyət evi, 7 xəstəxana, 6 iri dəmir yol stansiyası, 2 şərab zavodu, Konserv zavodu, dəmir yol deposu...
Hazırda Zəngilan rayonunun məcburi köçkünləri Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşmışdır. Zəngilan rayonunda erməni təcavüzü nəticəsində Milli Ordunun 33 nəfər döyüşçüsü qəhrəmancasına həlak olmuş, 7 nəfər polis işçisi itkin düşmüşdür. Zəngilan 200 nəfərdən çox şəhid vermiş, 12800 uşaq zərər çəkmiş, 395 uşaq yetim qalmışdır. 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir.

## İncəsənət

### 5. Bəstəkar Xəyyam Mirzəzadənin anadan olmasının 80 illiyi (1935)

***“Xəyyam Mirzəzadənin bəstəkarlıq istedadı musiqinin müxtəlif janrlarında yazdığl əsərlərdə özünü eyni dərəcədə büruzə vermişdir.”***

**Ulu öndər Heydər Əliyev**



**Mirzəzadə Xəyyam Hadı oğlu - bəstəkar, Azərbaycan Lenin Komsomolu Mükafatı laureatı (1970), Azərbaycanın əməkdar incəsənət xadimi (1972), SSRİ Dövlət Mükafatı laureatı (1975, 1986), professor (1979), Azərbaycan SSR xalq artisti (1987), "Şöhrət" ordeni laureatı (2000). 52 il Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olmuşdur.**

Xəyyam Mirzəzadə 1935-ci il oktyabrın 5-də Bakıda anadan olub. 1957-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirib. Həmin ildən orada çalışır. 1969-1983-cü illərdə kompozisiya kafedrasının müdiri olub. Onun əsərləri Avstriya, İngiltərə, Macarıstan, Hollandiya, Almaniya, İtaliya, Fransa və s. ölkələrdə ifa olunur. 30-dan artıq kinofilmə və 15 dram tamaşasına, estrada və caz pyeslərinə, populyar mahnılara musiqi bəstələmişdir.

**Əsərləri, baletləri:** "Ağlar və qaralar (balet)"(2000) Kamera orkestri üçün, “Musiqi” (1964), “Üç xoreoqrafik şəkil” (1969)

Simfonik orkestr üçün: I Simfoniya (1957), II Simfoniya (Triptix, 1970), Kiçik lirik süita (1963), Oçerklər-63 simfonik poema (1963),"Muğan çöllərində" süita (1967), Xor, solist və simfonik orkestr üçün,"Çiçəklən, Vətənim" (1964) - E. Mahmudovla birgə, sözləri: Zeynal Cabbarzadə, Ağacdan nəfəs alətləri üçün: Sekstet (1962), Misdən nəfəs alətləri üçün: Kvartet (1970), Dörd miniatür (1958), Noraşen rəqsləri (1972), Skripka vä fortepiano üçün: Sonatina (1950) və s.

**Filmoqrafiya:** Abidələr danışır (film, 1964), Abşeron ritmləri (film, 1970), Afroditanın qolları (film, 1987), Arxada qalmış gələcək (film, 2005), Arxadan vurulan zərbə (film, 1977), Bağ mövsümü (film, 1985), Bakıda küləklər əsir (film, 1974), Baş tutmayan ziyafət (film, 1981), Belə də olur (film, 1988), Bir ailəlik bağ evi (film, 1978), Birisigün, gecəyarısı... (film, 1981), Bir ömrün fəsilləri. Bəstəkar Xəyyam Mirzəzadə (film, 2010), Bizim küçə (film, 1961), Bu, Qum adasında olmuşdur (film, 1962),Cazibə qüvvəsi (film, 1964)(film, kinoalmanax), Çay daşı (film, 2001), Daş (film, 1977), Dənizə çıxmaq qorxuludur (film, 1973), Havalansın Xanın səsi (film, 2001), Maestro. Özüm və zaman haqqında. Bəstəkar Xəyyam Mirzəzadə (film, 2011), Mahnı qanadlarında (film, 1973), Meşəyə insan gəlir (film, 1980), Məhv olmuş gündəliklər (film, 1999), Mənim ağ şəhərim (film, 1994), Mənim günahım (film, 1985), Mikayıl Abdullayev (film, 1972), Mir Teymur (film, 2003), Müstəqillik yollarında. Beşinci film (film, 2005), Müstəqillik yollarında. Birinci film (film, 2004), Müstəqillik yollarında. Dördüncü film (film, 2004), Müstəqillik yollarında. İkinci film (film, 2004), Müstəqillik yollarında. Üçüncü film (film, 2004), O dünyadan salam (film, 1992) və s.

## 19. Kinorejissor Hüseyn Seyidzadənin anadan olmasının 105 illiyi (1910-1979)



**Seyidzadə Hüseyn Əli oğlu — azərbaycanlı kinorejissor, Azərbaycan SSR nin əməkdar incəsənət xadimi (1970).** Hüseyn Seyidzadə 1910-cu il oktyabr ayının 19-da İrəvanda doğulub. Ermənilərin tənələrindən cana doymuş Seyidzadələr ailəsi əvvəl Tbilisiyə, sonra isə Bakıya köçməli olub. Hüseyn Seyidzadə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bitirmişdi. Hüseyn Seyidzadə müharibədən əvvəl rejissor Niyazi Bədəlovla "Ayna" adlı filmin çəkilişlərinə başlamışdı. Bu filmdə müharibəyə sovqat göndərən insanların böyük vətənpərvərlik duyğularından söhbət açılır. 1956-cı ildə Bakının kinoteatrlarında ekrana "O olmasın, bu olsun" filmi çıxarıldı. Bu film böyük Üzeyirin geniş tamaşaçı auditoriyasına təqdim olunan ikinci böyük əsəri idi. "O olmasın, bu olsun" Hüseyn Seyidzadə yaradıcılığının şah əsərlərindəndir. Bu filmin yaranma tarixi haqqında çox yazılıb. Onu əlavə etmək olar ki, film ekranlara çıxarılanda ona qarşı müəyyən tənqidi münasibətlər olsa da, onun müvəffəqiyyətinə kölgə sala bilmədi. Məsələn, bazarda qoçuların davası, Rüstəm bəyin evindəki qalmaqal, hamam səhnəsi və s. nöqsan kimi göstərilirdi. Ancaq bu film sevildi və öz rejissoruna böyük şöhrət gətirdi. Azərbaycanda elə bir kino əsəri yoxdur ki, "O olmasın, bu olsun" qədər məşhur aktyor ansamblı toplaya bilsin. Bu, Azərbaycan aktyorlarının "kino qalereyası" idi. Təxminən ekrana çıxdığı iki-üç il ərzində artıq dünyanın 40-dan çox ölkəsində göstərilən bu film Azərbaycan kinosunun şöhrətini dünyaya yaydı. İran, İraq, Yuqoslaviya, Yaponiya, Avstriya, Amerika Birləşmiş Ştatları, İsveçrə, Macarıstan və sair ölkələrin tamaşaçıları filmə böyük maraqla baxırdılar. Və elə bu gün də "O olmasın, bu olsun" dünyanı dolaşmaqdadır. Ümumiyyətlə, Hüseyn Seyidzadə mübariz sənətkar idi. O, sözünü açıq deməyi xoşlayırdı. Çoxları isə bunu sevmirdilər. "Qatır Məmməd" filmini ilk dəfə çəkməyə başlayanda açıqca demişdi ki, niyə ssenarini ruslar yazmalıdır. Sonra isə filmi yarımçıq qoymuşdu. Bütün filmlərində milli xüsusiyyətləri qorumağa çalışırdı. İstəyirdi ki, filmlərimizdə xalqın mənəvi ruhu olsun, onun taleyinin ağrıları əks etdirilsin. "Yenilməz Batalyon"da da, "Koroğlu"da da, "Qayınana"da da bunlar çox aydın görünür. Son vaxtlar Natəvan haqqında film çəkmək istəyirdi. Ancaq amansız ölüm buna imkan vermədi. 1979-cu il iyunun 2-də bu böyük sənətkar dünyasını dəyişdi.

**Filmoqrafiya:** Bakılılar (film, 1938), Bir ailə (film, 1943)**,** Bütün qadağaların fövqündə (film, 2002), Dəli Kür (film, 1969), Doğma xalqıma (film, 1954),Əbədi odlar ölkəsi (film, 1945),Əlsiz adamlar (film, 1932), Fəallıq (film, 1975), İlk komsomol buruğu (film, 1930)**,** Koroğlu (film, 1960)**,** Qayınana (film, 1978)**,** Qədəmlərin mübarək (film, 1976)**,** O olmasın, bu olsun (film, 1956)**,** Sovqat (film, 1942),Var olun, qızlar... (film, 1972),Yenilməz batalyon (film, 1965) və s.

**20. Rəssam İzzət Seyidovanın anadan olmasının 105 illiyi (1910-1973)**



**Seyidova İzzət Əli qızı ilk azərbaycanlı qadın teatr rəssamlarından biri, əməkdar incəsənət xadimi(1943).** 20 oktyabr 1910-cu ildə Xarkovda anadan olub. 1927-31 Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda və Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (1931-38) oxumuşdur. 1938-ci ildən M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında fəaliyyət göstərmiş, "Sevilya bərbəri" (1938, C.Rossini), "Qaratoxmaq qadın" (1941, P.Çaykovski), "Vətən" (1941, Q.Qarayev və C.Hacıyev), "Maskarad" (1945, B.Zeydman), "Sevil" (1953, F.Əmirov), "Leyli və Məcnun" (1958, Ü.Hacıbəyli) və s. opera və balet tamaşalarına tərtibat vermişdir. İzzət Seyidova 30 noyabr 1973-cü ildə Bakıda vəfat etmişdir.

**22. Publisist, jurnalist Mailə Muradxanlının anadan olmasının 75 illiyi (1940-2010)**



**Muradxanova Mailə Balabəy qızı - tərcüməçi, dramaturq, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1988), Azərbaycan Jurnalistlər İttifaqının üzvü (1965), Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl qələm" mükafatı laureatı (1967), Azərbaycanın Əməkdar jurnalisti (1989).**

Mailə Muradxanlı 1940-cı il oktyabrın 22-də Salyan şəhərində müəllim ailəsində anadan olmuşdur. 1946-cı ildə ailəliklə Bakıya köçmüşlər. Burada Maştağa qəsəbəsindəki 187 saylı orta məktəbi bitirmişdir (1947-1957). ADU-nun filologiya fakültəsinin jurnalistika bölməsində təhsilini davam etdirmişdir (1957-1962). Əmək fəaliyyətinə təyinatla göndərildiyi Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində radionun uşaq verilişləri şöbəsinin kiçik redaktoru kimi başlamış, redaktor (1962-1967), ədəbi dram verilişləri baş redaksiyasında, incəsənət, bədii ədəbiyyat şöbələrində müdir (1967-1972), ədəbi-dram verilişləri baş redaksiyasında baş redaktor vəzifəsində işləmiş (1972-1994), televiziyanın ədəbi dram verilişləri Baş redaksiyasında baş redaktor olmuşdur (1994-2010).

Ədəbi aləmə sovet və xarici ölkə yazıçılarından doğma dilə etdiyi tərcümələri və dövri mətbuatda çıxan oçerkləri ilə daxil olmuşdur (1962). "Azərbaycan", "Azərbaycan qadını" jurnallarında, "Kommunist", "Ədəbiyyat və incəsənət" qəzetlərində müntəzəm çıxış etmişdir. Onun "Qınamayın məni" pyesi Sumqayıtda tamaşaya qoyulmuşdur (1990). Tərcümə etdiyi Əhməd-Əbubəkrin "Dulusçunun hekayəti", Orxan Kamalın "Yad qızı", A.Koşutanın "Vətənə dönmək istəyirəm", Bernard Şounun "Sezar və Kleopatra", Evripidin "İfigeniyalı Avlitdə", Brextin "Kurja ana və ya sərbəst qadın" pyesləri respublikanın dram teatrlarında göstərilmişdir. Ruscadan Azərbaycan dilinə tərcümə olunmuş yüzdən artıq filmin

sinxron mətninin müəllifidir. Azərbaycan Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə bir neçə pyesi Azərbaycan dilinə çevirmişdir. Azərbaycan radiosunda "Sənətkarlar öz qəhrəmanların arasında" silsilə verilişlərin və həftəlik əyləncəli "Sabahınız xeyir" proqramının ssenari müəllifi olmuşdur. Azərbaycan Jurnalistlər Birliyi İdarə Heyətinin üzvü seçilmişdir. Azərbaycan Jurnalistlər Birliyinin katibi vəzifəsində çalışmışdır (1990-2010). Jurnalistlər heyətinin tərkibində Suriya, Livan (1972), Yunanıstan (1975), Türkiyədə (1980) olmuşdur. Azərbaycan Qadınlar Cəmiyyəti nümayəndələri tərkibində Türkiyədə (1992), İranda (1992) olmuşdur. İstanbulda keçirilən I Azərbaycan konqresində iştirak etmişdir (1990).
Məşhur telejurnalist, "Bakıfilm" kinostudiyasının baş redaktoru, ANS-in "Zərif çərşənbə" verlişinin aparıcısı olan respublikanın əməkdar jurnalisti Mailə Muradxanlı 12 iyun 2010-cu ildə vəfat etmişdir.

**Mükafatları**

- "V.İ.Leninin anadan olmasının yüz illiyi" medalı (1970);
- Monqolustan Böyük Xalq Xuralının "Dostluq" (1984) medalı.

**Filmoqrafiya:** Bağdada putyovka var... (film, 2000), Bizim qəribə taleyimiz (film, 2005), Gəl qohum olaq (film, 2001), Gəlinlər (film, 2002), Qaydasız döyüş (film, 2009), "Qayınana" əməliyyatı (film, 1999),Qeybdən gələn səs (film, 2002), Qızlar (film, 2007), Manqurt (film, 2003), Məhv olmuş gündəliklər (film, 1999), Mən sənin dayınam (film, 2001), Mikayıl Abdullayev (film, 1972), Münəccimin şagirdi (film, 1983), Sən həmişə bizimləsən (film, 1997), Son arzu (film, 2003), Sonuncu şahid (film, 2004), Şans (film, 2004), Şirin bülbül (film, 2000), Tənha durna uçuşu (film, 2003),Tərlan Musayeva (film, 1980),Yaddaş (film, 2010)

## 25. Rəssam Elmira Şaxtaxtinskayanın anadan olmasının 85 illiyi (1930-1996)



**Şahtaxtinskaya Elmira Həbibulla qızı - Azərbaycanın xalq rəssamı və əməkdar incəsənət xadimi.**
Elmira Şahtaxtinskaya 25 oktyabr 1930-cu ildə Bakı şəhərində doğulmuşdur. Orta təhsilini Bakı şəhərində almış, daha sonra Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbini (indiki Rəssamlıq Akademiyası, 1950) və V. İ. Surikov adına Moskva Rəssamlıq İnstitutunu (1956) bitirmişdir. 13 oktyabr 1996-cı ildə Moskvada vəfat etmiş, Bakıda Fəxri xiyabanda dəfn olunmuşdur.

# Yubilyar yazıçı və şairlər
## 2. Şair, yazıçı Səyavuş Məmmədzadənin anadan olmasının 80 illiyi (1935)



**Məmmədzadə Səyavuş İmran oğlu - şair, nasir, tərcüməçi, 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**
1935-ci il oktyabrın 2-də Bakıda müəllim ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1953-1958). Ədəbi fəaliyyətə tələbəlik illərindən başlamışdır. "Sınaq" adlı ilk şeiri və A.Əlizadənin şeirinin rus dilinə tərcüməsi 1956-cı ildə universitetin çoxtirajlı "Lenin tərbiyəsi uğrunda" qəzetində dərc olunmuşdur. Həmin vaxtdan "Molodyoj Azerbaydjana" qəzetində mütərcim, sonralar ədəbi işçi işləmişdir. Onun ədəbi fəaliyyətində poeziya, nəsr, publisistika, bədii tərcümə xüsusi yer tutur. Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun bədii tərcümə bölməsini bitirmişdir (1959-1966). Azərbaycan Dövlət Nəşriyyatında redaktor, "Literaturnıy Azerbaydjan" jurnalında ədəbi işçi, tənqid və publisistika şöbəsinin müdiri (1967-1976), Azərbaycan Yazıçılar Birliyində referent-məsləhətçi (1977-1995) vəzifəsində işləmişdir. Azərbaycan klassik və müasir ədəbiyyatından rus dilinə, eləcə də rus, bolqar, Ukrayna, Polşa ədəbiyyatından Azərbaycan dilinə etdiyi tərcümələri dövri mətbuatda çap etdirmişdir. Bakı şəhəri Səbail rayon İcraiyyə Komitəsi zəhmətkeş deputatları Sovetinin deputatı (1979-1981) olmuş, Azərbaycan Kommunist Partiyasının XXIX qurultayına nümayəndə seçilmişdir. Bolqarıstanda dəfələrlə yaradıcılıq ezamiyyətində olmuş, klassik macar şairi Endre Adinin anadan olmasının 100 illik yubileyində iştirak edən Sovet nümayəndə heyətinin tərkibində Macarıstana getmişdir (1977).

**Əsərləri**

1.Небо. – Баку : Азернешр, 1968. - 78 стр.
2.Тверской бульвар : повести. – Баку : Гянджлик, 1971. - 112 стр.
3.Самоутверждение : стихи, переводы. – Баку : Азернешр, 1976. - 126 стр.
4.Bir yuxusuz gecə : oçerklər. – Bakı : Gənclik, 1976. - 56 s.
5.Ночные яблоки : рассказы. – Баку : 1979. - 120 стр.
6.Günəbaxan insanlar : şeirlər. - Bakı: Yazıçı, 1983.
7.Komendant saatı : şeirlər. – Bakı : Gənclik, 1995. - 45 s.

Tərcümələri: (rus dilinə)

1.Кямал Талыбзаде. Аббас Сиххат. - Баку: Детюниздат, 1963.
2.Мамед Араз. Пой Аракс. - М.: Советский писатель, 1966. - 66 стр.
3.Сохраб Тахир. Песня мужества. - М.: Советский писатель, 1966. - 90 стр.

(bolqar dilindən):

1.Bolqar hekayələri. – Bakı : Yazıçı, 1980. - 120 s.
2.Georgi Strumski. Odlar yurdu. – Bakı : Yazıçı, 1982. - 90 s.

**3. Yazıçı Süleyman Sani Axundovun anadan olmasının 140 illiyi (1875-1939)**

***"Süleyman Sani mükafatını öz vicdanından alırdı."***

**Yazıçı, ictimai xadim Abdulla Şaiq**

***"Humanizm, təmizlik, müqəddəslik, saflıq, xeyirxahlıq Süleyman Sani Axundovun həm bir insan, həm yazıçı-vətəndaş, həm də pedaqoq kimi bütün fəaliyyətinin əsasına qoyulmuş ən etibarlı keyfiyyətlərdir".***

**Ədəbiyyatşünas Qulu Xəlilov**



**Axundov Süleyman Sani Rzaqulu bəy oğlu (3 oktyabr 1875, Şuşa - 29 mart 1939, Bakı) — Azərbaycan dramaturqu, nasir, maarif xadimi. Ədəbiyyatda həmsoyadı Mirzə Fətəli Axundovdan fərqlənmək üçün ərəbcə "ikinci" mənasını daşıyan Sani sözünü özünə ləqəb götürmüşdür.**

Süleyman Sani Axundov 3 oktyabr 1875-ci ildə Şuşa şəhərində anadan olmuşdur. O, uşaq yaşlarında atasını itirdiyi üçün dayısı Səfərəli bəy Vəlibəyovun himayəsində böyümüşdür. Süleyman Sani Axundov 1885-1894-cü illərdə Qori müəllimlər seminariyasında təhsil aldıqdan sonra III dərəcəli rus-tatar məktəbinə müəllim təyin edilmişdir. O, ömrünün sonuna kimi pedaqoji fəaliyyətlə məşğul olmuş, yazıçı, jurnalist kimi tanınmışdır. Süleyman Sani Axundov 1906-cı ildə Bakıda çağrılmış Azərbaycan müəllimlərinin I qurultayında iştirak etmişdir. 1920-1921-ci illərdə Qarabağ vilayətinin maarif şöbəsinin müdiri, 1922-1930-cu illərdə Bakıda məktəb müdiri vəzifələrində çalışmışdır. 1922-ci ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilmişdir. Ədəbi və pedaqoji fəaliyyətinə görə 1932-ci ildə ona "Əmək qəhrəmanı" adı verilmişdir. 1921-ci ildən 1930-cu ilədək fasiləsiz Bakı Soveti üzvü, Bakı İcraiyyə Komitəsinin namizədi və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü olmuşdur. "İkinci il" adlı dərs kitabının müəllifidir. Süleyman Sani Axundov 29 mart 1939-cu ildə Bakıda vəfat etmişdir.

**Bədii yaradıcılığı**

Süleyma Sani Axundovun ilk yaradıcılıq əsəri "Tamahkar" komediyasıdır. O, bu əsərini Mirzə Fətəli Axundovun "Hacı Qara" əsərinin təsiri ilə 1899-cu ildə yazmışdır. Bu komediyasında o, dövrün bir sıra mənfiliklərinə, o cümlədən xəsisliyə, tamahkarlığa, qadın əsarətinə qarşı çıxmış, İmran, Gülzar, Şərəf xanım kimi müsbət surətlər yaradaraq, yeni nəsli həqiqətə, fədakarlığa sövq etməyə, oxucu və tamaşaçılarda gözəl həyat arzuları oyatmağa çalışmışdır. 1907-cı ildə qələmə aldığı "Dibdat bəy", "Türk birliyi" adlı komediyaları ilə Azərbaycan teatr səhnəsinə siyasi-ictimai mövzu gətirmişdir. "Laçın yuvası", "Qaranlıqdan işığa",

"Şahsənəm və Gülpəri", "Səadət zəhmətdədir", "Molla Nəsrəddin Bakıda", "Eşq və intiqam" və başqa pyeslərin müəllifidir.
Süleyman Sani Axundov həm də orijinal nasirdir. "Qonaqlıq" (1905), "Kövkəbi-hürriyyət" (1905), "Yuxu" (1905) Süleyman Sani Axundovun ilk hekayələridir. O, bu klassik əsərlərini 1905-ci il inqilabının təsiri ilə yazmışdır. Yazıçı "Tutu quşu" (1909) hekayəsində də aktual məsələyə toxunmuşdur. Ədib təxminən bir səhifə həcmində olan bu hekayəsində təqlidçiləri, ana dilinə xor baxanları Tutu quşunun simasında ifşa etmişdir. Süleyman Sani Axundov yazmış olduğu "Qan bulağı" (1923), "Ümid çırağı" (1923), "Cəhalət qurbanı (1923), "Nə üçün" (1925), "Təbrik" (1925), "Sona xala" (1926), "Namus" (1926), "Mister Qreyin köpəyi" (1927), "Son ümid" (1927), "İki dost, iki düşmən" (1927), "Gənc maşinistka və qoca yazıçı" (1935) hekayələri Azərbaycan nəsrinin qiymətli nümunələrindəndir. XX əsr Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında, inkişafında da onun böyük xidməti vardır. Ədib, "Qorxulu nağıllar" (1912-1914) başlığı altında yazdığı "Əhməd və Məleykə", "Abbas və Zeynab", "Nurəddin", "Qaraca qız", "Əşrəf" ilə Azərbaycan uşaq ədəbiyyatına forma, məzmun, üslub yenilikləri gətirmişdir.
**Əsərləri**
1. Əsərləri. Bakı: 1936.
2. Seçilmiş əsərləri / tərtib edəni Abbas Zamanov. - Bakı: 1951.
3. Seçilmiş əsərləri : I cild / tərtib edəni N. Vəlixanov. – Bakı : 1968.
4. Seçilmiş əsərləri : II cild / tərtib edəni N. Vəlixanov. – Bakı : 1968.
5. Hekayələr və pyeslər / tərtib edəni N. Vəlixanov. – Bakı : 1975.
6. Seçilmiş əsərləri / tərtib edəni və ön sözün müəllifi: N. Vəlixanov). - Bakı: 2005.

**10. Şair Şəkər Aslanın anadan olmasının 80 illiyi (1935-1995)**



**Şəkər Aslan — Şair, dramaturq, jurnalist. 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl Qələm" mükafatı laureatı (1978).**

Şəkər Aslan 1937-ci il oktyabr ayının 10-da Lənkəran rayonunun Boladi kəndində anadan olmuşdur. 1969-cu ildə Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunun poeziya fakultəsini bitirmişdir. Əmək fəaliyyətinə Lənkəran mədəniyyət evində başlamışdır. 1964-1968-ci illərdə "Leninçi", Lənkəran rayon qəzetində, ədəbi işçi, 1968-1970-ci illərdə Azərbaycan KP Lənkəran komitəsində təlimatçı, 1970-1992-ci illərdə "Leninçi" (sonralar "Lənkəran") qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. 1992-ci ildə "Söz" ədəbi-bədii jurnalını təsis etmişdir. 1994-1995-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin Lənkəran şöbəsinin sədri olmuşdur.

Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanına (1981) və "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.1995-ci il iyunun 12-də vəfat etmişdir.

Ədəbi fəaliyyətə "Sosialist subtropikası" Lənkəran rayon qəzetinin 23 iyul 1953-cü il tarixli sayında çıxan "Koreyalı bacıma" adlı şeiri ilə başlamışdır. Çap etdirdiyi şeir kitablarında vətənə məhəbbət, doğma təbiətin gözəllikləri, müasir insanların zəngin mənəvi dünyası, istək və arzuları, sevgiləri öz əksini tapmışdır. Şeirləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Publisistik məqalələrin, Lənkəran çayının tarixinə, xüsusiyyətlərinə həsr olunmuş "Samovara od salmışam" bədii-publisistik kitabın müəllifidir."Sən kimsən, Ata?" (1982), "Birtərəfli hərəkət" (1987) pyesləri Lənkəran Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur. Şeirlərinə musiqi bəstələnmışdir (Tofiq Quliyev, Tofiq Əhmədov, Ramiz Mustafayev, Rauf Hacıyev, Nəriman Məmmədov, Vasif Adıgözəlov, Ramiz Mirişli, Ə.Əzimov, H.Adıgözəlzadə, Oktay Kazımov, Emin Sabitoğlu və s.

**Kitabları**

1.Bahar yağışı. – Bakı : Azərbaycan Dövlət Nəşriyyatı, 1964. - 56 s.
2.Ürəyimi açıram. – Bakı : Gənclik, 1967. -52 s.
3.Sənə nəğmə deyirəm. – Bakı : Gənclik, 1969. - 104 s.
4.Məhəbbət fəsli. – Bakı : Azərbaycan Dövlət Nəşriyyatı, 1973. - 82 s.
5.Sevgi günü. – Bakı : Gənclik,1977. - 104 s.
6.Səni sevdiyim gündən. – Bakı : Gənclik, 980. - 120 s.
7.Bu günlərdən iz qalacaq. – Bakı : Yazıçı, 1982. -144 s.
8.Döy mənim qapımı. – Bakı : Yazıçı, 1986. - 136 s.
9.Dünyanın sevincləri. – Bakı : Gənclik, 1987. - 96 s.
10.Samovara od salmışam. – Bakı : İşıq, 1989.
11.Evə məktub. – Bakı : Yazıçı, 1991. - 208 s.
12.Payıma düşən ömür. – Bakı : Avrasiya Press, 2012. və s.

**10. Şair Həmid Abbasın anadan olmasının 80 illiyi (1935-1999)**



**Abbasov Həmid Məmmədəli oğlu – şair, 1983 – cü ildən Azərbaycan Yazıçılar birliyinin üzvü, 1969 – cu ildən Jurnalistlər Birliyinin üzvü, Azərbaycanın Əməkdar İncəsənət xadimi (1991).**

1935-ci il oktyabrın 10-da Azərbaycanın Qazax rayonunun Ağstafa şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Orada 22 saylı dəmiryol orta məktəbini bitirib ADU-nun filologiya fakultəsində təhsilini davam etdirmişdir (1953-1958). Əmək fəaliyyətinə Azərinformda tərcüməçi şagirdliyindən başlamış, ədəbi işçi, səyyar müxbir, tərcüməçi, yerli mətbuat üçün xəbərlər şöbəsinin redaktoru, yerli mətbuat üçün xəbərlər və müxbirlər şəbəkəsinə rəhbərlik şöbəsinin böyük redaktoru vəzifələrində işləmişdir (1960-1970).

1999-cu il noyabrın 19-da Bakıda vəfat etmişdir.

Əsərləri: "Tarla qızları" (1979), "Ömrün elə çağıdır ki ... " (1983), "Ürəyə toxunma" (1985), "Günahım olsa" (1989), "Dinlədi nəğməmi sirdaşım mənim" (1992), "Nər igidlər, alov saçın" (1992), "Şuşa həsrəti, türk həqiqəti" (1993), "Dostluq şarjları" (1994), "Gözüm səni axtarır" (1995) və s.

Həmid Abbas istedadlı şair idi. Onun 200-dən çox şeirinə mahnılar bəstələnmişdir. Buna görə də unudulmaz alimimiz, görkəmli ədəbiyyatşünas Qulu Xəlilli onun "Ürəyə toxunma" kitabına yazdığı ön sözü "Nəğməkar şair" adlandırmışdır. Tənqidçi yazırdı ki, Həmid Abbasov şeirlərində həyatımızın ən işıqlı tərəflərini, adamlarımızın zərif və incə duyğularını, arzu və istəklərini, "qurub-yaratmaq həvəsini, övlad, ata-ana məhəbbətini qələmə alınmışdır. Şair nəğmələrində adamlarımızın ağlını, zəkasını, zəhmətini, təbiətin füsünkar gözəlliklərini ilham və məhəbbətlə qovuşdurub tərənnüm etmişdir.

Həmid Abbas Vətəninə, torpağına, millətinə, dövlətinə bağlı qeyrətli bir vətəndaş, son dərəcə sədaqətli bir insan idi. O, etibarlı dost, qayğıkeş ata, vəfalı ömür yoldaşı idi. Həyat yoldaşı Solmaz xanım dünyasını dəyişəndən sonra qohumlar, dostlar, tanışlar, yaxın adamlar ona evlənməyi təklif edəndə gözləri dolur, "ailə bir dəfə qurular" deyirdi. Solmaz xanımın xatirəsinə həsr etdiyi həzin misraları həyəcansız oxumaq olmurdu. "Dirilə biləydin bircə anlığa", "Solmazıma vurğunam", "Qaldı", "Süzülür kağıza ürək sözlərim", "Gözüm səni axtarır", "Nağıl deyən vaxtı nağıla döndü", "8 Mart", "Əlimdə gül, gözümdə yaş" və onlarca başqa şeirləri ömür yoldaşına əsl sədaqət nümunələridir.

*“Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir.”*

**Ulu öndər Heydər Əliyev**

## 22.Yazıçı Məmməd Aranlının anadan olmasının 95 illiyi (1920-1950)



**Ağayev Məmməd Salman oğlu – nasir, 1946 – cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

1920-ci il oktyabrın 22-də Azərbaycanın Ağcabədi kəndində ortabab əkinçi ailəsində doğulmuşdur. İbtidai təhsilini doğma kəndlərində və Ağdaş şəhərində almışdır. 1932-ci ildə ailəliklə Bakıya köçmüşdür. Burada 6 saylı şəhər natamam orta məktəbini bitirmişdir (1932-1935). Sabir adına Pedoqoji Texnikumda təhsilini davam etdirmişdir. Ədəbi fəaliyyətə tələbəlik dövründə şeir və hekayələrlə başlamış, “Pioner” jurnalı (1937 – 1938), “Azərbaycan qadını” jurnalı (1939-1940) redaksiyalarında ədəbi işçi vəzifələrində çalışmışdır. Bu dövrdən müasir həyatı tərənnüm edən şeirlərini və oxucuların rəğbətini qazanan hekayələrini “Yeni el”, “Gənc işçi”, “Ədəbiyyat qəzeti”ndə “İnqilab və mədəniyyət”, “Şərq qadını” jurnallarında dərc etdirmişdir. 1938-ci ildə texnikumu əla qiymətlərlə bitirdiyinə görə onu Azərbaycan Dövlət Pedoqoji İnstitutuna qəbul edirlər. Burada dil və ədəbiyyat fakultəsində oxuduğu vaxtlarda “Qara xal qız”, “Gecənin qəlbi”, “Aldanmış ümid” və b . hekayələrini qələmə alır. 1940-cı ildə keçirilən müsabiqədə “Fırtına” hekayəsinə görə üçüncü mükafata layiq görülür. 1950-ci il oktyabrın 8 – də vəfat etmişdir.

**Əsərləri:** “Fırtına” (1921), “Cəbhə gündəliyi” (1975) və s.

## 25. Şair Hacı Mailin anadan olmasının 80 illiyi (1935 -1998)



Hacı Mail 1935-ci il oktyabrın 25-də qədim Nardaran kəndində anadan olmuşdur. Bu kənd nəinki Abşeronda, bütün Azərbaycan diyarında İslam dininə, klassik Şərq poeziyasına və muğama vurğunluğu ilə fərqlənir. Bu gün də Nardaranda hansı qapını açsan, müqəddəs "Qurani-kərim" ilə yanaşı, dahi Nizaminin, Füzulinin, Xətainin, Racinin, Qumrinin kitablarını görərsən. Nardaran ədəbi mühiti on doqquzuncu əsrin ortalarından başlayaraq daha geniş vüsət almağa başlamışdır. Bu dövrdə bir sıra görkəmli qələm ustaları yaşayıb-yaratmışlar. Hacı Mail məhz bu qələm ustaları arasında yetişib püxtələşərək sözün əsl mənasında kamil sənətkara çevrilmişdi. Hacının Nardaran ədəbi mühitində göstərdiyi ən böyük xidmətlərdən biri budur ki, o, özündən sonra gələn nəsillər arasında bir növ körpü yarada bilmişdi. Hacı Mailin daha bir xidməti vardır: qədim Nardaran kəndinin şöhrətini qəzəlxan-şair və füzulişünas alim kimi Azərbaycan çərçivəsindən daha da yüksəklərə qaldırmış, onu bütün Şərq dünyasına tanıtdıra bilmişdir. Füzuli aşiqi Hacı Mailin ölməz şairə olan sonsuz məhəbbəti uşaq yaşlarından başlamışdı ki, bunda da atası İsmayıl kişinin böyük rolu olmuşdur. Baxmayaraq ki, rəhmətlik xüsusi savad almamışdı, amma klassik ədəbiyyatı mükəmməl bilirdi, Füzuli vurğunu idi. Bəzən Həmid Araslı və Əli Fəhmi kimi adlı-sanlı tədqiqatçılarla da bəhsə girərdi. Hacı Mail düz 18 il Əlyazmalar İnstitutunda çalışıb. Onun Füzulini tədqiq etmək sahəsində əməyi misilsizdir. Hacı ədibin Bakıda, Londonda, Sankt-Peterburqda, və Daşkənddə qorunub saxlanılan doqquz əlyazma nüsxəsini və iki qədim çap nüsxəsini dərindən araşdırmış, nəticədə "Füzuli divanının elmi-tənqidi mətni" kitabı kimi sanballı bir əsər meydana çıxarmışdır.

Görkəmli akademikimiz Vasim Məmmədəliyev Hacı Mailin füzulişünaslığını belə qiymətləndirmişdi: "Cəsarətlə deyə bilərəm ki, ürəfa məclislərində Füzulini Əli Fəhmidən sonra Hacı Mail qədər gözəl aça bilən ikinci şəxsə rast gəlməmişəm".

Xalq şairi Zəlimxan Yaqub demişdir:

Füzulidən düşən işıq ulu sözün gur işığı – Hacı Mail o sözlərin yaraşığı.
Söz mülkündə Füzuli bir uca səngər – Hacı Mail o səngərdə qalib əsgər..."

Həqiqətən bəşər aləmində imandan və Vətəndən üstün bir şey yoxdur. Hacı Mail poeziyası da əsas etibarı ilə Vətən sevgisindən yoğrulmuşdu. Hacı Mail 63 illik qısa ömrü ərzində gözəl qəzəllərdən, qəsidələrdən, tərcibəndlərdən, qitələrdən, təxmislərdən, qoşmalardan və s. ibarət zəngin bir irs qoyub getmişdir. Təkcə qəzəllərinin sayı mindən artıqdır. İndiyədək xanəndələrin dilindən düşmür. Hacı Mail 1998-ci ildə dünyasını dəyişmişdir.

**26. Ədəbiyyatşünas, publisist Qafar Kəndlinin anadan olmasının 90 illiyi (1925-1997)**



**Qafar Kəndli -Hərisçi Əli oğlu — Ədəbiyyatşünas, publisist, nasir.**

1925-ci il oktyabrın 26-da Qafar Kəndli Azərbaycanın Təbriz şəhərində anadan olmuşdur. Qafar Kəndli Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri vəzifəsində çalışmışdır. Xaqani irsinin tədqiqi ilə ardıcıl şəkildə Qafar Kəndli məşğul olmuş, ölkəmizdə və xaricdə şair haqqında bir sıra sanballı məqalələr dərc etdirmişdir. O, uzun illərdən bəri apardığı tədqiqatın bir hissəsini "Xaqani Şirvani: həyatı, dövrü və mühiti" adı ilə nəşr etdirmişdir. Zəngin faktik material əsasında yaradılan bu tədqiqat işi bütünlüklə klassik irsin öyrənilməsində yeni hadisədir.

**Əsərləri:** “Gözlərsən məni” (1998), “Gözümə döydüyüm şəkil” (2000), “İçimizdəki qəhrəman” (2002), “Dünya üç bucaq imiş” (2004), “İki qapı arasında” (2007), “Göydən üç alma düşdü” (2008) və s.

**28. Şair Hüseyn Nadirin anadan olmasının 85 illiyi (1930-1999)**



**Hüseynov Hüseyn Ağaməmməd oğlu şair, 1958 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

1930-cu il oktyabrın 28-də Kürdəmirdə anadan olmuşdur. Orta təhsilini Kürdəmirdə almışdır (1947). Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinə daxil olmuş(1951), Azərbaycan Yazıçılar İttifaqının zəmanəti ilə SSRİ Yazıçılar İttifaqının nəzdindəki M. Qorki adına Ədəbiyyat İnstitutuna göndərilir. Ədəbi yaradıcılığa 1948 – ci ildən başlasa da “Məktub” adlı ilk mətbu şeiri 1952 – ci ildə “Azərbaycan gəncləri” qəzetində dərc olunmuşdur.

**Əsərləri:** “Zvonkoe ruslo” (1959), “Yaz çiçəkləri” (1961), “Keçim – keçməyim” (1969), “Müstəntiqin xatirələri” (1971), “Evlənmə, amandır” (1975) və s.

# Xarici ədəbiyyat

## 3. Rus şairi Sergey Yeseninin anadan olmasının 120 illiyi (1895-1925)



Sergey Yesenin — XX əsrin əvvəllərində yazıb-yaratmış rus şairi. Adı həmin dövrün ən böyük şairləri – Blok, Mayakovski, Bryusovla bir sırada çəkilən Yesenin ən lirik Rus şairlərindən hesab olunur. O, 1924-1925-ci illərdə bir müddət Bakıda olmuş, yaradıcılığının ən məhsuldar dövrünü də demək olar ki, Bakıda yaşamışdır. Sergey Yesenin 20 iyun 1924-ci il tarixdə qələmə aldığı tərcümeyi-halında yazır: "Mən 1895-ci il sentyabrın 21-də (yeni tarixlə oktyabrın 3-də) Ryazan qəzası və Ryazan quberniyasının Kuzmino vilayətinin Konstantinovo kəndində anadan olmuşam. Atam – kəndli Aleksandr Nikitiç Yesenin, anam isə Tatyana Fyodorovnadır. Uşaqlığım kəndin Matovo adlanan başqa hissəsində, ana tərəfdən nənə-babamın yanında keçib. İlk xatirələrim üç-dörd yaşım olan vaxtlara aiddir.Yeseninin sağlığında təkrar nəşrlər də nəzərə alınmaqla, 30-a yaxın kitabı nəşr olunmuşdur. İlk kitab – "Радуница" (1915-ci ilin noyabr ayında 1916-cı il qeydi ilə çap olunmuşdur), son kitab – "Персидские мотивы" (may -iyun 1925). Bunlardan əlavə, şairin sağlığında müxtəlif mənbələrdə 25-ə yaxın kitabın çapa hazırlanması haqqında məlumatlara (bəzən kitabın adı, bəzən əlyazması, bəzən çapa hazır variantı, bəzən də maketi) rast gəlinsə də, naməlum səbəblərdən onlar çap olunmamış qalmışdır.Yeseninin Bakıda keçirdiyi təxminən 4 aylıq dövrünü onun yaradıcılığının ən məhsuldar dövrü hesab etmək olar. Təsadüfi deyil ki, yeseninşünaslar bu dövrü onun yaradıcılığının "qızıl dövrü" adlandırır və həmin dövrü Puşkin yaradıcılığının "Boldino payızı" ilə müqayisə edirlər. Onu qeyd etmək kifayətdir ki, 1924-1925-ci illərdə Yesenin Bakıda olduğu dövrdə Bakı mətbuatında onun 39 əsəri (37 şeir və 2 poema) dərc edilmiş, o cümlədən sevgi poeziyasında xüsusi yeri olan, Yeseninin sevgi himni sayıla biləcək "İran nəğmələri" silsiləsindən bir sıra şeirlər burada – Bakıda yazılmışdır. Ümumilikdə, 1924-1926-cı illərdə Yeseninin Bakı mətbuatında 51 əsəri (48 seir və 3 poema) dərc edilmişdir. Onlardan 50-si (47 şeir və 3 poema) "Bakinski raboçi" qəzetində işıq üzü görmüşdür. Bu əsərlərin 45-i (43 şeir və 2 poema) Yeseninin sağlığında, 5-i isə (4 şeir və 1 poema) ölümündən sonra çap olunmuşdur. Ümumiyyətlə, "Bakinski raboçi" qəzeti Yeseninin öz əsərlərini ən çox dərc etdirdiyi mənbədir. Bu baxımdan ikinci sırada 1921-ci ildən etibarən Moskvada A.K. Voronskinin baş redaktorluğu ilə çıxan "Красная новь" jurnalı durur. 1922-1925-ci illərdə həmin jurnalda Yeseninin 30-a yaxın əsəri çap olunmuşdur. Şair Bakıya son gəlişində (28 iyul 1925-ci il) Bakılılar və Bakısız yaşaya bilmədiyini deyirdi ("Не могу долго жить без Баку и бакинцев").

Yeseninin şeirləri dünyanın 50-dən çox dilinə, o cümlədən Azərbaycan dilinə də tərcümə edilmişdir. Tərcüməçi kimi, Azərbaycanda ilk dəfə Yesenin yaradıcılığına Süleyman Rüstəm müraciət etmişdir. Süleyman Rüstəmdən sonra

Ələkbər Ziyatay, İsmayıl Soltan, Ş. Sadiq, Rəfiq Zəka, Əliağa Kürçaylı, Anar, Əhməd Cəmil, Murad Qudyalçaylı, Nüsrət Kəsəmənli, Tofiq Bayram, Səyavuş Məmmədzadə, Mahir Qarayev, Qoca Xalid, Kamal Abdulla, Səlim Babullaoğlu, Ramiz Rövşən, Hamlet İsaxanlı, Knyaz Aslan, Firuz Mustafa, Eldar Nəsibli Sibirel, Eyvaz Borçalı, Günel Mövlud, Qiya Paçxataşvili, Fikrət Qoca, İsaxan İsaxanlı, Əli Rza Xələfli və Rüfət İsayev müxtəlif vaxtlarda öz qələmlərini Yeseninin şeirlərinin azərbaycancaya tərcüməsi üzərində sınamışlar. Yuxarıda adı çəkilən 28 tərcüməçi, ümumilikdə, Yeseninin 121 əsərini Azərbaycan dilinə çevirmişdir. Yeseninin Azərbaycan dilinə ən çox tərcümə edilən şeirləri "До свиданья, друг мой, до свиданья" və "Прощай, Баку!" şeirləridir. "До свиданья, друг мой, до свиданья" şeirinin ilk tərcüməsi Ş. Sadiqə (1959), "Прощай, Баку" şeirinin ilk tərcüməsi isə Ələkbər Ziyataya (1955) məxsusdur. Ümumiyyətlə, "Прощай, Баку!" şeiri 12 müəllif – Ələkbər Ziyatay (1955), Rəfiq Zəka (1964), Əhməd Cəmil (1974), Əliağa Kürçaylı (1975), Səlim Babullaoğlu (1991), Knyaz Aslan (2005), Firuz Mustafa (2005), Eldar Nəsibli Sibirel (2006), İsaxan İsaxanlı (2009), Hamlet İsaxanlı (2010), Eyvaz Borçalı (2010) və Rüfət İsayev (2013), "До свиданья, друг мой, до свиданья" şeiri isə 15 müəllif – Ş.Sadiq (1959), Əliağa Kürçaylı (1965), Anar (1973), Nüsrət Kəsəmənli (1974), Mahir Qarayev (1994), Knyaz Aslan (2005), Firuz Mustafa (2005), Eyvaz Borçalı (2006), Eldar Nəsibli Sibirel (2006), İsaxan İsaxanlı (2009), Qiya Paçxataşvili (2010), Fikrət Qoca (2010), Hamlet İsaxanlı (2010), Əli Rza Xələfli (2010) və Rüfət İsayev (2013) tərəfindən tərcümə edilmişdir. Adları çəkilən tərcüməçilər arasında Yesenin yaradıcılığına ən çox müraciət edən Əliağa Kürçaylıdır. O, ilk dəfə 1965-ci ildə Yeseninin anadan olmasının 70 illiyi münasibətilə onun şeirlərini Azərbaycan dilinə tərcümə edərək ayrıca kitab şəklində nəşr etdirmişdir. Sonralar həmin kitab, başqa tərcümələr də əlavə edilməklə, yenidən 3 dəfə çap olunmuşdur. Son nəşrə, "İran nəğmələri" də olmaqla, 104 şeir, 2 poema daxil edilmişdir. Qeyd edək ki, Yeseninin "İran nəğmələri"ni ("Персидские мотивы") bütövlükdə Azərbaycan dilinə ilk dəfə tərcümə edən şair də Əliağa Kürçaylıdır. Nə olursa – olsun, düz 85 il bundan əvvəl dekabrın 27-dən 28-nə keçən gecə, Nazim Hikmətin sözləri ilə desək, "dünyanın ən böyük və ən səmimi şairlərindən biri"ni itirdik. Yeseninin ölüm xəbərindən sarsılan Aleksey Tolstoy yazırdı: "...Onun ölüm günü ədəbiyyatda matəm kimi qeyd edilməlidir".

## 22.Rus yazıçısı İvan Buninin anadan olmasının 145 illiyi (1870-1953)



İvan Alekseyeviç Bunin (rus. Иван Алексеевич Бунин; 22 oktyabr 1870, Voronej, Rusiya İmperiyası — 8 noyabr 1953, Paris, Fransa) — tanınmış rus yazıçı, şair, tərcüməçi, Peterburq Elmlər Akademiyasının fəxri akademiki (1909), Ədəbiyyat üzrə Nobel mükafatı alan ilk rus yazıçısı (1933). Mərkəzi Rusiyada, Voronej yaxınlığında doğulmuşdu. Atası kökləri XIV əsr Litva cəngavərlərinə gedib çıxan qədim zadəgan nəslindən idi. Lakin təhkimçilik hüququnun ləğvindən sonra təsərrüfatlarını yarıtmaz şəkildə idarə etdiklərindən Buninlər demək olar ki, tam müflis vəziyyətə düşmüşdülər. Gələcək yazıçı ilk təhsilini evdə almış, 11 yaşında isə Yeletsk gimnaziyasında oxumağa başlamışdı. Ailənin maddi vəziyyəti ağırlaşdığından gimnaziyanı yarımçıq buraxmağa məcbur olmuşdu. Sonrakı təhsil həyatında qardaşı Yuli mühüm rol oynamışdı. Ruhən aristokrat olan İvanla Yuli Bunin fərqli adamlar idi. Yuli dərin ağlı ilə yanaşı həm də siyasi baxışlarının radikallığı ilə seçilirdi. Kiçik qardaşının ədəbi istedadını üzə çıxaran, onu rus klassikası ilə yaxından tanış edən və bədii yaradıcılığa ruhlandıran da Yuli olmuşdu. Bu arada ailənin maddi vəziyyəti daha da çətinləşdiyindən İvan Bunin 1889-cu ildə yerli "Orlovski vestnik" qəzetində korrektor kimi işə düzəlir. İki ildən sonra "qalın" jurnallardan birinin kitabxanası seriyasından onun ilk şeirlər kitabı işıq üzü görür. Əsasən klassik üsluba yaxınlığı ilə seçilən bu şeirlərdə təbiət mənzərələrinin təsviri başlıca yer tuturdu. Yazıçı Buninin populyarlıq qazanmasında 90-cı illərin ortalarında qələmə aldığı əsərlər mühüm rol oynamışdı. Onun "Xutorda", "Vətəndən xəbər", "Dünyanın o biri başında" hekayələri rus cəmiyyətinin acı reallıqlarına – 1892-ci ildəki aclığa, növbəti ilin vəba epidemiyasına, kiçik torpaq sahiblərinin müflisləşməsinə, kəndlilərin Sibirə sürgün edilmələrinə və s. həsr olunmuşdu. Bunin orijinal poeziyası ilə yanaşı Rusiyada həm də Lonqfello poeziyasının məharətli tərcüməçisi kimi tanınmışdı. XX yüzilliyin əvvəllərində də bu sahədə fəaliyyətini davam etdirən müəllif Tennisonun "Ledi Qodiv", Bayronun "Manfred" poemalarını, habelə Alfred de Müssö və Fransua Koppenin şeirlərini rus dilinə çevirmişdi. Onun Maksim Qorki ilə tanışlığı da rus ədəbiyyatı üçün şəxsiyyətlərlə zəngin olan XIX əsrin son ilində baş tutmuşdu. Qorkinin sosialist baxışlarından və ifrat realizmindən xoşlanmasa da, Bunin 1917-ci ilin oktyabrına qədər "proletar yazıçısı" ilə əlaqələrini kəsməmiş, ədəbi əməkdaşlığını davam etdirmişdi. Rusiya kəndinin və kəndlisinin həyatı, zadəgan malikanələrinin dağıdılması, torpağa sahiblik hissinin itirilməsi iri həcmli nəsr əsərlərinin müəllifi kimi Bunini düşündürən başlıca mövzular idi.

Yazıçının Birinci Dünya müharibəsinə qədərki dövrdə qələmə aldığı "Anton almaları", "Şamlar", "Kənd", "Quraqlıq" və s. əsərlərində rus kəndinin dəhşətli vəziyyəti təsvir olunmuşdu. Məhz bu əsərlərə görə Maksim Qorki onu "müasir dövrün ən yaxşı yazıçısı" adlandırmışdı. Bunin Oktyabr inqilabını qəbul etmədi. 1920-ci ilə qədər o, Ağ ordunun nəzarətində olan Odessada yaşadı. 1920-ci ildə isə vətəndaş nikahında olduğu Vera Muromtseva ilə birlikdə Fransaya mühacirət etdi. Parisdə, sonra isə Qrass şəhərində yaşayan yazıçı bolşevik rejiminə nifrətini "Lənətə gəlmiş günlər" adlı gündəliyində (1925-1926) əks etdirmişdi. Yazıçının mühacirət dövrü yaradıcılığında "İerixon gülü" (1924), "Mityanın məhəbbəti" (1925), "Günvurma" (1927) və avtobioqrafik səciyyəli "Arsenyevin həyatı" (1933) kimi əsərləri mühüm yer tutur. 1933-cü ildə İvan Bunin "klassik rus nəsrinin ənənələrni davam etdirən ciddi sənətkarlığına görə" Nobel mükafatına layiq görüldü. Bundan əvvəl onun adı iki dəfə nominantlar siyahısında olmuşdu. İsveç Akademiyasının üzvü Per Halstrem təqdimat nitqində "İvan Buninin real həyatı qeyri-adi dərəcədə ifadəli və dəqiq təsvir etmək məharəti" üzərində xüsusi dayanmışdı. Bunin cavab nitqində mühacir rus yazıçısına verdiyi qiymətə görə İsveç Akademiyasının cəsarətini alqışlamışdı. Bunin SSRİ-yə qayıtmaq haqqında təkliflər alsa da, Stalin rejimi şəraitində belə addım atmağı məqbul saymamışdı. Onun mühacirətdəki həyatı da asan keçməmişdi. Şübhəsiz, bu çətinlik daha çox mənəvi xarakter daşıyırdı. Rus yazıçısının Nobel mükafatı laureatı kimi yaddaqalan əsəri son dərəcə acı dillə yazılmış "Xatirələr"idir (1950). Müəllif Çexov haqqında hələ 1904-cü ildə başladığı xatirələrini tamamlamağa çalışsa da, buna müvəffəq olmamışdı. Mühacirətdə Bunin uzun müddət Rusiyanın aparıcı yazıçısı kimi təqdim edilirdi. Lakin o, heç vaxt Dostoyevski, Lev Tolstoy, yaxud Çexov kimi nəhəng sənətkarların səviyyəsinə yüksələ bilməmişdir. Başqa bir rus mühacir yazıçı – Vladimir Nabokov isə onun poeziyasını nəsrindən daha üstün tuturdu.

Buninin mühacirət illərində yaxın dostluq əlaqələri saxladığı ziyalılar içərisində azərbaycanlı Ümmülbanu-Banin də olmuşdu. Yazıçının əsərlərindən ayrı-ayrı nümunələr Azərbaycan dilinə tərcümə edilmişdir.

**Əsərləri:** "На "Чайке"", "Антоновские яблоки" (1900), "Деревня" (1910), "Суходол" (1911), "Господин из Сан-Франциско" (1915), "Окаянные дни" (1918, 1925-ci ildə nəşr olunub), "Жизнь Арсеньева" (1930), "Песнь о Гайавате", "Митина любовь" (1924), "Солнечный удар" (1925), "Дело корнета Елагина" (1925), "Легкое дыхание", "Матери"

**23. İtaliya uşaq yazıçısı Canni Rodarinin anadan olmasının 95 illiyi (1920- 1980)**

***Canni Rodari İtaliyanın ən əhəmiyyətli XX əsr uşaq müəllifi idi. 1970-ci ildə o İtalyanın ən müasir uşaq yazıçısı kimi beynəlxalq şöhrət qazanmış, uşaq ədəbiyyatında göstərdiyi xidmətlərə görə Hans Christian Andersen medalı almışdır.***



Canni Rodari ən çox uşaq ədəbiyyatı ilə məşhur olan İtalyan yazıçısı və jurnalist idi. O, uşaq yazıçısı kimi uzunmüddətli xidmətlərinə görə 1970-ci ildə ikiillik Hans Christian Andersen medalı alıb. Onun kitabları bir çox dillərə tərcümə edilməsinə baxmayaraq, çox az kitabı ingilis dilində nəşr edilmişdir. Rodari Şimali İtaliyada, Novara əyalətinin kiçik şəhəri Lake Ortada yerləşən Omegnada anadan olmuşdur. Seveso seminariyasında üç illik təhsildən sonra, Rodari on yeddi yaşında müəllim diplomu almış, kənd məktəblərində ibtidai siniflərə dərs deməyə başlamışdır. O, musiqi və ədəbiyyat ilə maraqlanırdı. 1948-ci ildə bir jurnalist kimi, o, uşaqlar üçün kitab yazmağa başladı. 1951-ci ildə, Rodari ilk kitabı Il Libro delle Filastrocche və Il Romanzo di Cipollino-nu nəşr etdirmişdir. 1952-ci ildə, O, sonradan daha tez-tez getdiyi SSRİ-yə ilk dəfə səyahət etmişdir. 1957-ci ildə Rodari professional jurnalist olmaq üçün imtahan keçmişdir. Rodari 1966-1969 illərdə uşaqlar ilə birgə layihələr üzərində intensiv işləmişdir. Kitablar üzrə Beynəlxalq İdarə Heyəti tərəfindən verilən mükafat uşaq yazıçısını çox məşhurlaşdırmışdır. Onun əsərləri çox dillərə tərcümə edilmişdir. 1979-cu ildə, SSRİ-yə növbəti səfərindən sonra o, sağlamlığını itirdi və bu onun məhsuldarlığını xeyli aşağı saldı. 1980-ci ildə, cərrahi əməliyyat zamanı Romada gözlərini əbədi yumdu.

**Əsərləri:**

O, bəlkə də ən yaxşı Cipollino hekayəsi ilə tanınır. Cipollino hekayəsi balet 1973-cü ildə Rusiyada balet tamaşalarında kifayət qədər məşhur idi.

Il libro delle filastrocche ("Uşaq Şeirlər kitabı", 1950)
Il romanzo di Cipollino ("Balaca Soğanın macəraları", 1951)
La freccia azzurra ("Mavi oxun səyahəti", 1953)
Gelsomino nel PAESE dei bugiardi ("Jasmin yalançılar ölkəsində, 1958)
Filastrocche ildə cielo e terra ("Nursery Rhymes səma və yer üzündə", 1960)
Favole al telefono ("Nağıllar telefon üzərində", 1962)
Gip nel televisore (1962 "Gip televiziyada")
Cielo La torta ("Keks səmada", 1966)
La Grammatica della fantasia ("Fantaziyanın qrammatikası", 1974)
Novelle fatte bir macchina ("Makinada yazılmış hekayələr")
"Kiçik hərflərlə yazılan İtaliya"

# Noyabr
## Əlamətdar tarixi günlər və bayramlar
Televiziya və radio günü 06.11.1926

Bakı Metropoliteni işçilərinin peşə bayramı 08.11.1932

Dövlət bayrağı günü 09.11.2005

Ümumdünya Gənclər günü 10.11

Konstitusiya günü 12.11.1995

Beynəlxalq korlar günü13.11.1745

Beynəlxalq Tolerantlıq günü 16.11.1995

Dirçəliş günü 17.11.1988

Beynəlxalq Uşaq Hüquqlarının Müdafiəsi günü 20.11.1989

Dünya televiziya günü 21.11.1999

Beynəlxalq İnformasiya günü 30.11

## İncəsənət
Xalq artisti Baba Mahmudoğlunun (07.11.1940-2006) 75 illik yubileyi

Bəstəkar Cavanşir Quliyevin (22.11.1950) 65 illik yubileyi

## Yubilyar yazıçı və şairlər
Yazıçı Saday Budaqlının (13.11.1955) 60 illik yubileyi

Yazıçı Gəray Fəzlinin (14.11.1925) 90 illik yubileyi

Yazıçı Ramiz Cəfərovun (15.11.1960) 55 illik yubileyi

Şair Mustafa İsgəndərzadənin (17.11.1940) 75 illik yubileyi

Yazıçı Qulu Xəlilovun (20.11.1930-1995) 85 illik yubileyi

Şair Vahid Əzizin (23.11.1945) 70 illik yubileyi

Şair Soltan Yusifin (29.11.1935-2003) 80 illik yubileyi

Publisist Abid Tahirlinin (30.11.1955) 60 illik yubileyi

## Xarici ədəbiyyat
Rus şairi Aleksandr Blokun (01.11.1880-1921) 135 illik yubileyi

Amerika yazıçısı Mark Tvenin (30.11.1835-1910) 180 illik yubileyi

Rus şairi Konstantin Simonovun anadan olmasının (01.11.1915-1979) 100 illiyi

# Əlamətdar tarixi günlər və bayramlar

## 6. Televiziya və Radio günü

***“Qarabağ müharibəsi dövründə Azərbaycan həqiqətlərini beynəlxalq arenaya çıxırılmasında dövlət televiziyasının müstəsna xidməti olmuşdur.”***

**Ulu öndər Heydər Əliyev**




Azərbaycanda hər il 6 noyabr - Radio və Televiziya İşçilərinin peşə bayramı günü kimi qeyd olunur. 1926-cı il noyabrın 6-da Azərbaycan radiosu fəaliyyətə başlayıb və o gündən sözügedən tarix radio işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Azərbaycan Televiziyası yaranandan sonra bu tarix təkcə radionun deyil, həm də teleradionun yaranma günü kimi qeyd olunmağa başlayıb. Bakı Televiziya Studiyası ilk dəfə 1956-cı ilin 14 fevralında efirə çıxıb. İlk veriliş günü ekranda mərhum sənətkarımız Nəcibə Məlikova görünüb və çıxışına “Göstərir Bakı” kəlməsilə başlayıb. Həmin gün ekranda «Bəxtiyar» bədii filmi göstərilib. 58 il əvvəl Zaqafqaziya ölkələri arasında ilk dəfə Bakıda ağ-qara rəngdə göstərən televiziya fəaliyyətə başlayıb. Bu gün Azərbaycanda televiziyanın yaranmasından 89 il ötür. 1956-cı il fevralın 14-də Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Qapalı Səhmdar Cəmiyyəti, yəni, AZTV yayıma başlayıb. Zaqafqaziya ölkələri arasında ilk dəfə ağ-qara televiziya cəmi 3-4 mütəxəsisin işinin nəticəsi idi. Yenicə yayıma başlayan televiziya ilk vaxtlar yalnız Bakı və Sumqayıtda göstərib. Təxminən 1 il sonra isə əhatə dairəsi genişlənib və artıq Salyan, Quba, Kürdəmir və başqa rayonlarda da TV-ni seyr etmək mümkün olub. Bütün rayonlara yayımın gecikməsi isə həmin vaxt teleqüllənin istifadəyə verilməməsi ilə bağlı idi. Sonralar istifadəyə verilən teleqüllə cəmiyyət üçün yenilik oldu və Azərbaycanda televiziyanın simvoluna çevrildi. Hündürlüyü 180 metr olan teleqüllə artıq yoxdur. Yeni televiziya qülləsi inşa edildikdən sonra köhnəsi hissə-hissə söküldü. Dövlət televiziyası Azərbaycan teleməkanına texniki uğurlarla yanaşı yaradıcılıq, telejurnalistikanın inkişafı baxımından da yeniliklər gətirib. Sovet dövründə dövlət televiziyası Azərbaycan dilinin təbiliğində əvəzsiz rol oynayıb. Azərbaycanın ilk elektron mətbu orqanı müstəqillik illərində də ciddi işlər görüb.

## 8. Bakı Metropoliteni işçilərinin peşə bayramı



Noyabrın 8-i Bakı Metropoliteni işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Hələ 1932-ci ildə Bakı şəhərinin inkişafının baş planının ilkin variantlarında yerüstü nəqliyyatın işini yüngülləşdirmək və şəhərin darısqal küçələrini tramvay, trolleybus və avtobus nəqliyyatından təmizləmək üçün ən sürətli və rahat nəqliyyat növünün - metropolitenin tikintisi qərara alınmışdı. Lakin bir qədər sonra başlanan 1941-1945-ci illərin müharibəsi həmin niyyətlərin həyata keçməsinə mane oldu. Yalnız 1947-ci ildə, dağıdıcı müharibədən 2 il sonra hökumət layihə-axtarış işlərinin aparılmasının başlanması barədə qərar qəbul etdi. 1949-cu ildə metropolitenin tikinti bazasının yaradılmasına, 1954-ci ildə isə birinci xəttin texniki layihəsi təsdiq olunur və metropolitenin 12,1 kilometrlik xəttinin inşasına başlanır. Baş yolun xətləri dəniz sahilindən 500-700 metr aralı keçərək buxtaya paralel surətdə uzanıb gedirdi. 1953-cü ildə tikinti işləri müvəqqəti dayandırılır və yalnız 1960-cı ildə bərpa olunur. Bu da Bakı Metropoliteninin istismara verilməsini xeyli gecikdirir. 1966-cı ildə tərkibində hərəkət, hərəkət qatarları, yol və tunel qurğuları, sanitariya texnikası və elektromexanika, işarəvermə və rabitə, material-texniki təminat xidmətləri kimi 6 xidməti olan Bakı Metropoliteni İdarəsi yaradılır. 1967-ci il noyabrın 6-da Bakı şəhərində metropolitenin 5 stansiyası və 9,2 kilometrlik yeraltı xətləri olan I növbəsi istismara verilir, həmin stansiyalardan 4-ü böyük dərinlikdə idi ki, bunlardan da biri "Qara şəhər" adlanan ərazidə yerləşən "Xətai" stansiyası idi. 1967-ci il noyabrın 25-dən metropolitenin daimi istismarı və qatarların müntəzəm hərəkəti başlandı. Hazırda Bakı Metropoliteninin 23 stansiyası vardır - "Həzi Aslanov", "Əhmədli", "Xalqlar dostluğu", "Neftçilər", "Qara Qarayev", "M.Əzizbəyov", "Ulduz", "Bakmil", "N.Nərimanov", "Gənclik", "C.Cabbarlı", "Xətai", "28 may", "Nizami", "Emlər Akademiyası", "İnşaatçılar", "20 Yanvar" "Memar Əcəmi", "Sahil", "İçərişəhər", "Nəsimi", "Azadlıq prospekti" və "Dərnəgül". Bu stansityalardan 14-ü ulu öndər Heydər Əliyevin Bakı metrosuna böyük diqqət və qayğısı sayəsində tikilərək istifadəyə verilmişdir. Ulu öndərin daxili və xarici siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev də Metropolitenə daim diqqət və qayğı ilə yanaşmışdır. Məhz dövlətimizin başçısının beş il öncə imzaladığı Sərəncam əsasında 8 noyabr Bakı Metropoliteni işçilərinin peşə bayramı günü kimi təsdiq olunmuşdur. Hazırda metronun "Koroğlu" stansiyası əsaslı şəkildə yenidən qurulur. 2015-ci ildə Bakı Metropoliteninin daha 2 stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur.

## 9. Dövlət Bayrağı günü

***"Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir."***

**Ümummilli lider Heydər Əliyev**

***"Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bizim bayrağımız qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cumhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli - mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir."***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**




Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyi rəmzidir. Bu gün Azərbaycan Respublikası üzərində dalğalanan müqəddəs Dövlət Bayrağımız-milli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada qəbul edilmiş və qaldırılmışdır. Müstəqil Azərbaycanın dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli Bəy Hüseynzadədir. Azərbaycan Respublikasının dövlət bayrağından istifadə müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 23-cü və 75-ci maddələri, "Azərbaycan Respublikasnın Dövlət bayrağı haqqında" Azərbaycan Respublikasının Qanunu, eləcə də, həmin Qanunla təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə" əsasında tənzimlənir. Azərbaycan Respublikasının Dövlət bayrağının rəngli və sxematik təsviri adı çəkilən Qanun və Əsasnamə ilə təsdiq edilmişdir.Əsasnaməyə görə Azərbaycan Respublikasının Dövlət bayrağı eni və uzunluğu bərabər olan rəngli üç üfüqi zolaqdan ibarət düzbucaqlı parça şəklindədir: üst zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Bayrağın hər iki üzündə qırmızı zolağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri vardır.

## 10. Ümumdünya Gənclər günü

1. ***“Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir. Qarşımızda duran vəzifələrdən biri də gəncliyi daha yaxşı hazırlamaqdan, tərbiyə etməkdən ibarətdir.Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır.”***

**Ulu öndər Heydər Əliyev**

***Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, Azərbaycan gəncləri “... sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. ”Inanırıq ki, bu gənclik böyük azərbaycanlı Heydər Əliyevin ideyalarını ölkəmizin başçısı İlham Əliyevin rəhbərliyi altında gerçəkləşdirəcək, inkişaf etdirəcək daha işıqlı gələcəyə aparacaq.***



10 Noyabr -Ümumdünya gənclər günüdür. Bu günün qeyd olunması barədə qərar ümumdünya demokratik gənclər federasiyası tərəfindən 1945-ci ilin 29 oktyabr Londonda keçirilən konfransda qəbul edilib. Gənclər təşkilatlarının beynəlxalq birliyi özündə siyasi, milli mənsubiyyətindən asılı olmayaraq bir çox müxtəlif gənclər təşkilatını birləşdirir. Federasiya bütün dünyada sülh, gənclərin hüquqları, xalqların müstəqilliyi qabaqcıl gənclərin beynəlmiləl həmrəyliyi uğrunda mübarizə aparırlar. Bununla belə müasir dövrdə gənclər bir sıra problemlərlə üzləşirlər. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda keçirilib.1996-cı ildən sonra isə bu günü bütün MDB-də geniş şəkildə qeyd edirlər. Dünyadakı əmək qüvvəsinin dörddə birini gənclərin təşkil etdiyi müasir dövrdə işsizlərin yarısı məhz onların payına düşür. Əmək bazarları gənclərin yaxşı perspektivli işlərlə təmin etməkdə böyük çətinlik çəkir. Hazırda dünyada 25 yaşa qədər olan 3 milyard insan var.

Gənclərlə bağlı digər mühüm sənəd 2002-ci ilin 9 aprelində qəbul edilən “Gənclər siyasəti haqqında” qanundur. Bu qanun Azərbaycan Respublikasında gənclər siyasətinin məqsəd, prinsip və istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

## 12. Azərbaycan Konstitusiya günü

***“Bizim konstitusiyamız xalqın konstitusiyasıdır. Hər bir vətəndaşın konstitusiyasıdır. Məqsədimiz xalqımızın mənəviyyatını qorumaq və zənginləşdirməkdir.”***

**Ulu öndər Heydər Əliyev**




Azərbaycan Respublikasının Konstitusiya günü - Azərbaycan Respublikasının əsas qanununun - Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilidiyi gün. Hazırkı Konstitusiya 12 noyabr 1995-ci ildə ümumxalq referendumu əsasında qəbul edilmişdir. Bu Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra ilk Konstitusiyası idi. Konstitusiya (lat. constitutio - "quruluş") -ölkənin əsas sənədi, dövlətin ali hüquqi qüvvəyə malik hüquqi-normativ aktı, dövlətin siyasi, hüquqi və iqtisadi əsaslarını və vətəndaşın hüquqi statusunu müəyyən edir. Azərbaycanın dövlətinin birinci Konstitusiyası 1921-ci il mayın 19-da I ÜmumAzərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan SSR-nin 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası SSRİ Konstitusiyasına uyğunlaşdırılmış olsa da müəyyən özünəməxsusluğa malik idi. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən yeni Konstitusiya layihəsi üzərində ciddi iş başlandı. 1994-cü ildə Prezident Heydər Əliyev sədrliyi ilə Konstitusiya komissiyası fəaliyyətə başladı və layihə 1995-ci ildə ümumxalq müzakirəsinə verildi. 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə Azərbaycanın Respublikasının ilk Konstitusiyası qəbul olundu. Azərbaycanın yeni Konstitusiyası 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir. Konstitusiyaya ilk əlavə və dəyişiklik 24 avqust 2002-ci ildə, son əlavə və dəyişikliklər isə 18 mart 2009-cu ildə referendum yolu ilə edilib. 1996-cı il fevralın 6-da Prezident Heydər Əliyev sərəncamı ilə 12 noyabr Konstitusiya günü elan edilmişdir.

## 13. Beynəlxalq Korlar günü



13 noyabr 1745-ci ildə anadan olmuş görkəmli fransız pedaqoqu Valentin Hayui-nin şərəfinə bir çox Avropa ölkələri 13 noyabr tarixini "Beynəlxalq Korlar Günü" kimi qeyd etməklə mövcud ictimayyətin, dövlət qurumlarının və vətəndaş cəmiyyətinin diqqətini görmə qüsurlu insanların problemlərinə və onların inteqrasiya məsələlərinə cəlb etmişlər. Birləşmiş Millətlər Təşkilatı və Dünya Səhiyyə təşkilatının tövsiyəsi ilə 13 noyabr Ümumdünya gözdən əlillər günü kimi qeyd edilir. Ümumdünya Səhiyyə Təşkilatının statistik göstəricilərinə əsasən dünya əhalisinin 160 milyonu gözdən əlildir. Azərbaycanda da beynəlxalq təcrübədə olduğu kimi aidiyyatı dövlət orqanları tərəfindən gözdən əlil insanların sosial müdafiəsinə, onların təhsil, səhiyyə, idman, məşğulluq, sosial adaptasiya, istirahət və bu kimi problemlərinə daha çox diqqət yetirilir. 5 dekabr 2014-cü ildə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Gənc Ana və Uşaqların Maarifləndirilməsi İctimai Birliyi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin bilavasitə maliyyə və texniki dəstəyi və TİKA-nın Bakı Ofisinin əməkdaşlığı çərçivəsində görmə qabilliyyəti zəif və məhdud uşaqlar üçün kitabxanada Dil kursları və İnformasiya Mərkəzinin açılışı oldu. Gözdən zəif və məhdud uşaqların 14 nəfəri valideynləri ilə birgə kursla bağlı tam məlumat əldə etdilər. Onlardan kiçik yaşlıları nağıl otağında digər uşaqlarla birgə səsli nağılları dinlədilər, kitabxana xidmətindən yararlandılar. Son illər ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan insanlara dövlət tərəfindən daha çox diqqət artırılıb. Ölkə başçısının imzaladığı sərəncamlar bu təbəqədən olan insanların həyat şəraitinin yaxşılaşmasında və onların cəmiyyətə inteqrasiyasında əhəmiyyətli rol oynayır. Həmçinin, bu insanları öz sıralarında birləşdirən, onların problemlərini işıqlandırıb, həllinə çalışan ictimai təşkilatların da fəaliyyətləri üçün də geniş imkan yaranıb. Layihənin məqsədi görmə qüsuru olan uşaqların internet şəbəkəsinə sərbəst çıxışının təmin edilməsi, kitabxana saytlarında elektron kitabların oxunması təcrübəsinin öyrədilməsidir. Layihə çərçivəsində qüsurlu uşaqlar kompyuter texnologiyaları texnikası sahəsində bilgilərə sahib olmaqla kitabxananın imkanlarından digər uşaqlarla eyni vaxtda istifadə etmək hüququna malik olacaqlar. Layihə çərçivəsində 50-yə yaxın gözdən əlil kompyuter kurslarına cəlb ediləcəkdir. Kursda iştirak edən gözdən əlil və zəif uşaqlar səsli proqram vasitəsilə onlara lazım olan ədəbiyyatı oxuya biləcəklər. Kitabxanada 100-150 adda Azərbaycan, bundan bir qədər artıq isə rus dillərində disk və kaset şəklində yazılmış kitablar var.

## 16. Beynəlxalq Tolerantlıq günü

***"Azərbaycan Qafqazın işıq saçan mayakıdır , tolerant ölkədir və onun nuru dünyanın hər bir tərəfinə yayılır, insanlığa yol göstərir."***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev**



16 noyabr tolerantlıq günüdür. Beynəlxalq Tolerantlıq günü 1995-ci ildə YUNESKO-nun 50 illiyi münasibətilə təsis edilib. Məqsəd qurumun da nizamnaməsində qeyd olunduğu kimi, dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşamağa çağırışdır. Azərbaycan indi bütün dünyada həm də tolerantlıq örnəyi kimi tanınır. Ulu öndər Heydər Əliyevin ölkəmizdə tolerantlığın qorunub saxlanılması istiqamətində həyata keçirdiyi tədbirlər Azərbaycanı müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisinə çevirib. Azərbaycan indi dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Ölkəmizdə dini və milli dözümlülük, tolerantlıq yüksək səviyyədədir. Prezident İlham Əliyevin dindarlarla keçirdiyi görüşlər, Ramazan bayramlarında ənənəvi olaraq din xadimləri ilə iftar süfrələrində birgə iştirakı və bu mərasimlərə Azərbaycanda mövcud digər dini icmaların nümayəndələrinin də qatılması ölkədə tolerant düşüncənin artıq tam bərqərar olduğunu göstərir. Dövlətin gücünü əhalinin çoxmillətli olmasında, müxtəlif dinlərin, mədəniyyətlərin və sivilizasiyaların birgə yaşayışında görən Azərbaycan prezidenti bütün dünyaya göstərir ki, tolerantlıq Azərbaycan xalqının ruhundadır. Xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq bu gün də dövlət siyasətinin mühüm tərkib hissəsidir. Tolerantlıq insanlar və icmalar arasında qarşılıqlı hörmətin bünövrəsidir və ortaq dəyərlər ətrafında vahid qlobal cəmiyyətin qurulması üçün həyati əhəmiyyət kəsb edir. Bu bir məziyyət, mənəvi keyfiyyətdir, lakin hər şeydən əvvəl tolerantlıq bir əməldir – başqalarına əlini uzatmaq və mövcud fərqlilikləri maneə kimi deyil, dialoq və anlaşmaya dəvət kimi qəbul etməkdir. Bəli, Tolerantlıq insanlar arasında körpülər salmaqla və ünsiyyət üçün yollar açmaqla bu çətinliklərin bir qisminə cavab verir. Tolerantlıq bütün təcrübə və dünyagörüşlərin bərabər qəbul edilməsi deyil. Əksinə, onun dəyəri universal insan hüquqları və əsas azadlıqlar haqqında məlumatlılıq və hörməti təlqin etməkdədir. Tolerantlıq Birləşmiş Millətlər Təşkilatının məğzini təşkil edir.

Tolerantlıq öz-özünə meydana gəlmir. O, öyrədilməli, yetişdirilməli və başqalarına ötürülməlidir. Vahid bəşəriyyət insan müxtəlifliyinin möhtəşəm zənginliklərinə qarşılıqlı hörmət əsasında birlikdə yaşamaq və birgə işləmək deməkdir.

## 17. Milli Dirçəliş günü

***“Xalqımın dirçəlişi ilə əldə olunan Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!”***

**Ümummilli lider Heydər Əliyev**

***“Dirçəliş oyanışdı, yenidən yaranmaq, dünyaya təzədən gəlməkdi. Sözün hər mənasında dirçəliş mübarizə aparmaq və özünü təsdiq etməkdi. Elə bizim xalqın da Milli Dirçəliş günü onun özünü təsdiqi idi. XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır. 17 noyabr Milli Dirçəliş Günü hadisələrindən sonra Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcək!”***

**Azərbaycan Respublikasının prezidenti İlham Əliyev**




1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlandı. Moskvanın, xüsusən də SSRİ-nin o vaxtkı rəhbərliyinin buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Ermənilər azərbaycanlıları təkcə öz ev-eşiklərindən qovmayırdılar, həm də onları cismən öldürür, diri-diri yandırırdılar. Elə həmin ilin fevral ayında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətdilər. “Milli dirçəliş” deyəndə buna yalnız siyasi aspektdən yanaşmaq olmaz, çünki milli dirçəliş yalnız ictimai baxımdan yox, həm də mədəni-mənəvi əxlaqi dəyərlərin xalqın özünün təməl prinsipləri üzərində inkişaf edən ənənələrinin təcəssümüdür, onun yaşadılmasıdır və onun yaşaması məhz Milli dirçəlişin təməlidir.Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar. Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. Xalq öz etirazını sakit şəkildə rəhbərliyə bildirdi. İlk zamanlar Azərbaycan vətəndaşları Moskvaya, yerli hakimiyyət başçılarına inanırdılar. Onların şüarları, gəzdirdikləri portret və bayraqlar bunu sübut edirdi. 1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlandı. O, vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdıldı. Azərbaycanda bu hadisələr milli azadlıq hərəkatı kimi qiymətləndirilir və Vətənizmin istiqlaliyyət qazanmasında əsas amil sayılır.

## 20. Beynəlxalq Uşaq Hüquqlarının Müdafiəsi günü

***"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır!"***

**Ulu öndər Heydər Əliyev**

***"Uşaqlar - bizim sabahkı hakimlərimizdir, bizim dünyagörüşümüzün, əməllərimizin tənqidçiləridir".***

**M. Qorki.**



Uşaqların hüquqlarının müdafiəsi ilə baqlı BMT baş Məclisi 1989-cu il noyabr ayının 20-də Konvensiya qəbul edib. Azərbaycan bu konvensiyanı 1992-ci il iyul tarixli 236 saylı qərarına əsasən ratifikasiya edib. Bu bayram Azərbaycanda da hər il qeyd edilir.

Konvensiyanın prinsipi əsasən uşaq şəxsiyyətidir. Konvensiya bu işə qoşulmuş ölkələri uşaqlara, öz vətəninin sosial-iqtisadi həyatında daha yaxından iştirak etmək üçün şərait yaratmağa çağırır. Burada əsas məqsəd uşaqların xoşbəxt böyümələri, həmçinin onların rifahı naminə göstərilən hüquq və azadlıqlardan istifadəni təmin etmək, uşaqlar arasında ayrı-seçkiliyə yol verməməkdir. Uşaqlar irqindən, dinindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətlərindən asılı olmayaraq öz hüquqlarından istifadə etməlidirlər. Konvensiyada bu hüquqlar müəyyən formada qruplaşdırılmayıb. Lakin şərti olaraq bu hüquqları dörd qrupa bölmək olar. Bunlar – **yaşamaq hüququ qrupu, inkişaf hüququ qrupu, müdafiə hüququ qrupu, və iştirak hüququ qrupudur**. Bu hüquqlar qrupu dövlətləri uşaqlara gücləri çatdığı qədər cəmiyyətin həyatında yaxından iştirak etmək üçün şərait yaratmağa, onların şəxsiyyət olaraq yetişməsini təmin etməyə çağırır. Konvensiyanın bu qədər mühüm əhəmiyyət kəsb etməsi bir də onunla izah olunur ki, o, özündə gələcəyi əks etdirir. Uşaqlara məhəbbətlə yanaşan cəmiyyət onların qabiliyyətlərini tam aça bilməyə şərait yaratmaqla onların azadlıqlarının təmin edilməsini dəstəkləyir. İntelektual, mədəni, əxlaqi və mənəvi qabiliyyətlərini inkişaf etdirmək üçün uşağa hər bir şərait yaradılır. Burada da hər bir ölkənin gələcək taleyi indiki uşaqların əlindədir prinsipinə əsaslanır. Ölkəmiz isə bu konvensiyaya 1992-ci il iyulun 21-də üzv olmuşdur. Sonralar isə həmin sənədin müvafiq protokollarına qoşulub və bu konvensiyadan irəli gələn hər bir məsələnin həllinə çalışılır. Məlumdur ki, uşaq hüquqları konvensiyasının yerinə yetirilməsinə beynəlxalq miqyasda Birləşmiş Millətlər Təşkilatının Uşaq fondları – YUNİCEF nəzarəti yerinə yetirir. Bu təşkilatın respublikadakı nümayəndəliyi təhsil, səhiyyə, sahəsində aparılan islahatların təşkilində yardım edir. Onların nəşr etdikləri küçə uşaqları

problemlərinin kömək etmişdir. 54 maddədən ibarət Konvensiyada bütün hüquqlar 4 qrupa ayrılır.

**İnkişaf hüququ** - bu qrupda olan hüquqlar uşaqların öz potensiallarının tam inkişafına olan ehtiyaclarını təmin edir. Bura, məsələn, təhsil almaq, oynamaq, istirahət etmək, tədbirlərə cəlb edilmə, iştirak etmə, azad fikir və din hüquqları aiddir.

**Müdafiə hüququ** – bu hüquqlar uşaqları müxtəlif növ zorakılıq və istismardan qorumalıdır. Bu hüquqlar , məsələn , qaçqın uşaqlara qayğının göstərilməsi, zorakılıq, cəzalandırma, hərbi münaqişələrə cəlb edilmə, uşaq əməyinin istismarı, narkotik maddələrin inkişafı kimi məsələlər əhatə edir.

**İştirak hüququ –** bu hüquqlar uşaqlara yaşadıqları cəmiyyətdə fəal iştirak etməyə imkan yaradır. Bunlar azad fikir söyləmək, onların həyatlarına təsir göstərən hallarda öz sözlərini demək, birləşmək və assosasiyalar əmələ gətirməkdir. Uşaqların bacarıqları inkişaf edərkən onların cəmiyyətdə fəal iştirakı və bunun üçün imkanları daha da artır. Bu da məsuliyyətli vətəndaş kimi yetişməkdə onlara yardım edəcək.

**Yaşamaq hüququ –** bunlara uşaqların yaşamaq və bunun üçün lazımi təlabatları təmin etmək hüquqları aiddir. Həmçinin qrup qida ,tibbi xidmətə malik olmaq kimi hüquqları əhatə edir.

Artıq bir neçə ildir ki, Azərbaycanda Uşaq hüquqları aylığı keçirilir. Aylıq çərçivəsində Azərbaycanın şəhər və rayonlarında uşaq hüquqlarının təbliğinə xidmət edən " dəyirmi masa" lar, treninq-seminarlar keçirilir,kitabxanalarda orta ümumtəhsil məktəblərində, uşaq müəssisələrində maarifləndirmə tədbirləri, müsabiqələr və sərgilər təşkil olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının ğücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qrumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demokratik perespektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə 22 dekabr 2008-ci il tarixli sərəncam imzalanmışdır.

Daha sonra İlham Əliyevin uşaqlara olan qayğısına misal olaraq 2009-cu ili "Uşaq ili" etməsini göstərmək olar. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə "Diabetli uşaqlara ən yüksək qayğı", "Talasemiyasız həyat naminə" adlı layihələr həyata keçirilmiş, məktəblər, bağçalar, internat evləri tikilmişdir.

## 21. Dünya televiziya günü



1999 - cu ilin mart ayında Birləşmiş Millətlər Təşkilatının aldığı qərara əsasən
21 noyabr Dünya televiziya günü kimi qeyd olunur. İstər dünyada istərsədə ölkəmizdə aparılan araşdırmalar göstərir ki, uşaqların şəxsiyyətinin formalaşmasında, həyata keçirdiyi uğurlarda televiziyanın rolu böyükdür. Bəli, televiziya xəbər, əyləncə və düşüncələri ifadə etmək üçün ən gözəl vasitədir.

## 30. Beynəlxalq İnformasiya günü



Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü artıq 25 ildir ki, dünyada qeyd olunur. Məqsəd kompyuterdə saxlanılan informasiyanın təhlükəsizliyinin təmini, bu sahədə mövcud olan müxtəlif problemlərin həllinin önəmliyini istifadəçilərin, proqram vasitələri istehsalçılarının, o cümlədən ictimaiyyətin diqqətinə çatdırmaqdır. 1988-ci il noyabr ayının 30-da "Morris soxulcanı" adlanan ilk kompyuter virusu elmi-tədqiqat institutları, hərbi idarələr, hətta Pentaqon da daxil olmaqla, ARPANET-in minlərlə qovşağının fəaliyyətini iflic vəziyyətinə saldı. İlk kompyuter virusunun vurduğu ziyan isə təxminən 100 milyon dollar dəyərində qiymətləndirilirdi. Bu hadisə bəşəriyyətin kompyuter təhlükəsizliyi haqqında təsəvvürlərini dəyişdi. Məhz həmin vaxtda mütəxəssislər informasiya təhlükəsizliyinin təmini məsələlərinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladılar. Müəllifinin adı ilə adlandırılan bu virusun yaradıcısı – Robert Morris proqramın kodunun məxfi saxlanılmasına nail olduğu üçün onun bu işdə əli olduğunu çətin ki, kimsə sübut edə bilərdi. Onun məqsədi isə sırf tədqiqat xarakteri daşıyırdı. Morris yaratdığı proqramın davamlığını təcrübədən keçirmək istəyirdi. Onun atası – Milli Təhlükəsizlik Agentliyinin kompyuter üzrə eksperti isə hesab edirdi ki, oğlu tutduğu əməlini etiraf etməlidir. R.Morrisi 5 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyirdi. Lakin məhkəmə Kornell Universitetinin "Hesablama texnikası" fakültəsinin aspirantına güzəşt edərək, "alim"ə üç il şərti cəza kəsdi. Həmin ildə Kompyuter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (Computer Security Day) elan etdi. Hər il ənənəvi olaraq bu assosiasiyanın təşəbbüsü ilə informasiya təhlükəsizliyinin müxtəlif problemlərinin həlli yollarının araşdırılmasına həsr olunmuş silsilə tədbirlər keçirilir.

# İncəsənət

***"Azərbaycan misiqi sənətinin parlaq inkişaf perspektivləri vardır. Xalqın mənəviyyatını duymaq, onun ümid və arzularının ifadəçisi olmaq, nikbinliyini, əhval-ruhiyyəsini misiqi vasitəsilə əks etdirmək lazımdır."***

**Ulu öndər Heydər Əliyev**

## 7. Xalq artisti Baba Mahmudoğlunun anadan olmasının 75 illiyi (1940 – 2006)



Baba Mahmudoğlu 1940-cı ildə Qazaxda doğulub. 1956-cı ildə orta məktəbi qızıl medalla bitirərək Neft Akademiyasına daxil olub. Tələbəlik vaxtı yoldaşları onu Seyid Şuşinskinin yanına aparıb və Baba Mahmudoğlu Seyid Şuşinskinin dərslərində iştirak edib. Həmin vaxt o, Süleyman Abdullayev, Əlibaba Məmmədov, Nəriman Əliyev, Nəzakət Məmmədova, Zeynəb Xanlarova ilə birgə Asəf Zeynallı adına Musiqi Məktəbində muğamları öyrənib. Sonra Səid Rüstəmovun rəhbərliyi ilə fəaliyyət göstərən orkestrlə televiziyaya çıxıb. Daha sonra Əhməd Bakıxanovun, Baba Salahovun ansamblı ilə ekranda görünməyə başlayıb. Əhsən Dadaşovun ansamblında isə bir qədər sonra oxumaq hüququ alıb. 1962-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında stajor kimi fəaliyyətə başlayan B.Mahmudoğlu sonralar bu teatrın muğam bölməsinin solisti olub. "Leyli və Məcnun"da Məcnun, "Aşıq Qərib"də Aşıq Qərib, "Əsli və Kərəm"də Kərəm, "Koroğlu"da təlxək, "Şah İsmayıl"da Şah İsmayıl, "Xanəndənin taleyi"də Mir Seyid obrazlarını yaradıb. 1992-ci ildə xalq artisti fəxri adını alıb. Prezident təqaüdçüsü olan sənətkar 2005-ci ilin payızında uzun illər çalışdığı teatrdan təqaüdə çıxıb. 2005-ci ilinin noyabrında xəstələnib, insult keçirib. Bir müddət sonra özünü yaxşı hiss etsə də, 2006-cı ilin yayında vəziyyəti yenidən pisləşib və həkimlər ona rayonda yaşamağı məsləhət görüblər. Bu səbəbdən B.Mahmudoğlu ilin təxminən beş ayını Şamaxı rayonunun Çuxuryurd kəndində keçirib. Daha sonra Bakıya qayıdıb.Sənətkar sağlığında öz ansamblını yaratmışdır ki, bu ansamblla o bir çox xarici səfərlərdə çıxış etmiş və Azərbaycan musiqisinin gözəlliyini digər xalqların nümayəndələrinə ən gözəl şəkildə çatdırmışdır. Həmin ansambl hal-hazırda sənətkarın adını daşıyır. Sənətkarın vəfatından sonra bu ansamblın yenidən fəaliyyət göstərməsi üçün sənətkarın dostu və qarmon ifaçısı Əhsən Rəhmanlı bu ansambla rəhbərlik etmiş və bu günə qədər də həmin ansamblın ifasında bir çox ifaçılarla lent yazıları yazmaqla və televiziya verlişlərinə dəvət almaqla ansanblın yaşaması üçün bütün imkanlardan istifadə etməkdədir.2006-cı il dekabrın 6-da Azərbaycanın xalq artisti Baba Mahmudoğlu 66 yaşında vəfat edib.

**Filmoqrafiya**

- Evlənmək istəyirəm (film, 1983)
- Aşıq Qərib (film, 1988)
- Tanrı payım, telli sazım (film, 2007)

## 22. Bəstəkar Cavanşir Quliyevin anadan olmasının 65 illiyi (1950)



**Quliyev Cavanşir Rəhim oğlu - tanınmış bəstəkar**

**Mükafatları:Azərbaycan Lenin komsomolu mükafatı (1982), Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi (1992), "General Məhəmməd Əsədov" mükafatı (1993), Şəhriyar adına mükafat (1995), Avropa Türk-İslam birliyinin qızıl medalı- Almaniya (1997), "Humay" mükafatı (2000), "Qızıl dərviş" mükafatı (2001)**

Cavanşir Quliyev 1950-ci il noyabrın 22-də Şəkidə anadan olub. 1975-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsini bitirib. Diplom işi kimi "Birinci simfoniya"sını yaradıb. 1978-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında, 1994-cü ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllimi kimi çalışıb. 1993-2005-ci illərdə Azərbaycan Milli Akademik Dram Teatrının musiqi hissə müdiri vəzifəsində çalışıb. 2005-ci ildən Şimali Kipr Türk Respublikasındakı Yakın Doğu Universitetinin səhnə sənətləri fakültəsində dərs deyir. ABŞ, Almaniya, Finlandiya, Türkiyə, Polşa, Rumıniya, Slovakiya, Yuqoslaviya, İsrail, Bolqarıstan, Ukrayna, Estoniya, Rusiya, Gürcüstan, Ermənistan, Özbəkistan və Kiprdə yaradıcılıq ezamiyyətlərində olub və əsərləri adları çəkilən ölkələrdə ifa olunmuşdur. İki operettanın – "Məhəbbət oyunu" və "Yeddi məhbusə"nin, dörd simfoniyanın, simfonik orkestr və zurna üçün" Uvertüranın", iki simli kvartetin, nəfəsli alətlər üçün kvartetin, skripka və saz üçün sonatanın, violonçel, fleyta və saz üçün "Karvan" musiqinin, simli orkestr üçün "Dastan" əsərlərinin, 300-ə yaxın teatr və televiziya tamaşalarına, 8 bədii və 25 sənədli filmə yazılmış, 1000-ə yaxın mahnının, müxtəlif həcmdə kamera-instrumental və xor musiqisinin müəllifidir.
Bəxtiyar Vahabzadə, D.Mustafayev, Y.Həsənbəy, Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Hamlet İsaxanlı və digər şairlərin sözlərinə mahnılar bəstələmişdir.

**Əsərləri**

- Baletlər: Oğuznamə, "Tufan (balet)", "Kitabi Dədə Qorqud (balet)"
- Zurna və orkestr üçün Üvertüra (1980);
- Fleyta, saz və violonçel üçün "Karvan" (2000);
- Simli orkestr üçün "Dastan" (2001);
- "Məhəbbət oyunu" Operettası /libretto – Q.Rəsulov/ (2001).

**Filmoqrafiya:** Ac həriflər (film, 1993), Aşıq Qərib (1988), Beşmərtəbəli evin altıncı mərtəbəsi (film, 1996), Bəxtiyar Vahabzadə (film, 1987), Buta (film, 2011), Cavid ömrü (film, 2007)**,** Dirsə xanın oğlu Buğacın boyu (film, 2000), Dünya bir pəncərədir (film, 1990), Əzablı yollar (film, 1995), Fatehlərin divanı (film, 1997), Fəryad (film, 1993), Günahsız Abdulla (film, 1984), Xeyir və Şər (film, 1980), İtkin gəlin (film, 1994),Qəm pəncərəsi (film, 1986) və s.

# Yubilyar yazıçı və şairlər

## 13.Yazıçı Saday Budaqlının anadan olmasının 60 illiyi (1955)



Budaqlı Saday İsmayıl oğlu 1955-ci il noyabrın 13 - də Azərbaycanın Qazax şəhərində qulluqçu ailəsində anadan olub. 1984-cü ildə Maksim Qorki adına Moskva Ədəbiyyat İnstitutunu bitirib. 1984-1989-cu illərdə “Yazıçı” nəşriyyatında redaktor işləyib. 1989-1993-cü illərdə Yazıçılar İttifaqının Qazax şöbəsinin katibi olub. 1993-2009-cu illərdə Azərbaycan Dövlət Radiosunda baş redaktor vəzifəsində çalışıb. Povest və hekayələrdən ibarət kitabları Azərbaycan və rus dillərində (Moskvada və Bakıda) çapdan çıxıb. Moskvada çıxan “Uduş” kitabına görə Maksim Qorki adına ümumittifaq mükafatına layiq görülüb. Moskvada nəşr edilən “Nedelya” həftəlik məcmuəsinin laureatıdır. 1982-ci ildə “Drujba Narodov” jurnalının “İlin ən yaxşı hekayəsi” mukafatını alıb. 2009-cu ildə Azərbaycan Mədəniyyət Nazirliyinin “Qızıl Kəlmə” mükafatına layiq görülüb. Hekayələri ingilis, yapon, litva, türk və başqa dillərə də tərcümə olunub.
**Kitabları:** “Döngə” (1985), “Uduş”, “Çat” (1987) və s.

## 14.Yazıçı Gəray Fəzlinin anadan olmasının 90 illiyi (1925)

***“Azərbaycan xalqı Gəray Fəzlini  həyatını ədəbiyyatımızın və mədəniyyətimizin inkişafına həsr etmiş vətənpərvər şair, görkəmli nasir və publisist kimi tanıyır və onu çox sevir.”***

**Ulu öndər Heydər Əliyev**

***Gəray Fəzlinin  şeirləri oxucular tərəfindən daima rəğbətlə qarşılanmış, ədəbi ictimaiyyətin diqqətini çəlb etmişdir.***



**Alimov Gəray Fəzli oğlu şair, nasir, publisist, 1952 – ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

Alimov Gəray Fəzli oğlu 1925-ci il noyabrın 14-də Dağıstanın Rutul rayonunda anadan olmuşdur. Şair, nasir, publisist, radio-tele jurnalist Gəray Fəzli dünyaya payızda göz açsa da, ad gününü baharda qeyd edərdi. Səbəbi aydın idi. Gəray Fəzli 1941-1945-ci illərin bəşər tarixinin ən dəhşətli müharibəsinin iştirakçısı olmuş və bu savaşda dəfələrlə yaralansa da, salamat qalmışdı. Elə bu münasibətlə də qohum-əqrəbası, yaxınları, qələm dostları hər il mayın 9-da onun yanında olur, dünyaya yenidən gəlməsini bayram edirdilər.

Gəray Fəzli Azərbaycanın dilbər güşələrindən olan Qax rayonunda boya-başa çatmışdı. Orta məktəbin sonuncu sinfində oxuyarkən dava başlayanda onun 17 yaşının tamamına bir neçə ay qalırdı. O, rayonun hərbi komissarına yazdığı ərizədə yaşını bir il çoxaltmış və könüllü olaraq əsgərliyə getmək istədiyini bildirmişdi. O, hərbi sirlərə, snayperlik bacarığına düşmənlə üz-üzə, səngərlərdə yiyələnir. Dəfələrlə düşmən gülləsinə tuş gəlir. Müalicə üçün arxa cəbhəyə göndərilir. Yaraları sağalmamış yenidən döyüş meydanına qayıdır. Nəhayət, müharibənin sonuna yaxın sağ qolundan və boğazından ağır yaralanır. Beləliklə, məktəb illərində məlahətli səsi ilə ürəkləri fəth edən gəncin təkcə bədəni yox, səsi də güllləbaran edilir. Müharibədən sonra Azərbaycan Pedaqoji İnstitutuna daxil oldu. Soyadı Alimov olan kənd müəllimi, atası Fəzli kişinin adını özünə təxəllüs götürdü. 1956-cı ildə Azərbaycan Dövlət Nəşriyyatı cəbhəçi-şairin "Mənim səsim" şeirlər kitabını çap etdi. Çox keçmədi ki, sözügedən kitabdakı "Mənim səsim" şeiri şairin ömür payının ən ağrılı məqamları haqqında ballada kimi dillərə düşdü. **Hətta sonralar xalq şairimiz Nəriman Həsənzadə Gəray Fəzli haqqında "İtirilmiş səs" adlı poema da yazdı...**

Gəray Fəzli zəngin iç dünyasından gələn şeirlərini, əsərlərini kürsülərdən ürəyi istədiyi kimi oxuya bilməsə də, onun sözlərinə yazılmış mahnıları Rübabə Muradova, Şövkət Ələkbərova, Zeynəb Xanlarova, Yalçın Rzazadə kimi korifeylər, Hüseynağa Hadıyev, Təranə Vəlizadə və başqa tanınmış sənətkarlar oxudular. Gəray hələ kənd həyatı yaşadığı illərdə nəğməkar şair kimi tanındı.

Həmin illərdə Gəray Fəzli nasir kimi də özünü sınadı. "İldırımlı dağlar" adlı kəskin süjetli romanı onun bu sahədə ilk uğuru oldu. Bundan sonra taleyin hökmü ilə Gərayın şəhər həyatı başladı. Onu ötən əsrin 50-ci illərinin sonunda Azərbaycan Radio və Televiziya Komitəsinə işə dəvət etdilər. O, burada nə az, nə çox 40 ilə yaxın, yəni ömrünün sonuna kimi müxtəlif vəzifələrdə işlədi. "Mənim səsim" kitabından sonra "Yeni ünvan" və "Səadətin ünvanı" şeirlər toplularını çap etdirdi, "İldırımlı dağlar" romanından sonra 4 nəsr əsərinin ("Yeddi ulduzlu səma", "Gecə günəşi", "Kəhrəba işığında" və "Bir qəlbin asimanı") müəllifi oldu, "portret cizgiləri" seriyasından sənədli povestlər, oçerklər yazdı. Deyilənlərlə yanaşı, cəbhəçi-yazıçı cəmiyyətdə gündəlik baş verən proseslərə biganə qala bilmirdi, günün ən aktual problemlərinə dair dövrü mətbuatda publisist məqalələri ilə çıxış edirdi.

**Əsərləri:** ”Ölkə” (1954), “Mənim səsim” (1956), “Təzə ünvan” (1961), “Yeni Suvagildə” (1961), “İldırımlı dağlar” (1972), “Kəhrəba işığında” (1974), “Səadətin ünvanı” (1976), “Yeddi ulduzlu səma”(1978), “Gecə günəşi” (1981), “Bir qəlbin asimanı” (1983), “Xatirəli dünyam” (1988) və s.

***İstər al qumaşa tutalar məni***
***İstər yanar oda atalar məni***
***Səsləyə dənizlər, adalar məni***
***Sənsən son mənzilim, axır ünvanım***
***Azərbaycanım***

**15. Yazıçı Ramiz Cəfərovun anadan olmasının 55 illiyi (1960)**



**Cəfərov Ramiz Qafar oğlu – nasir, 2003 – cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**
1960-cı il noyabrın 15-də Azərbaycanda Qubadlı rayonunun Əliqulu Uşaqğı kəndində anadan olmuşdur. Burada kənd orta məktəbini bitirdikdən sonra Bakı Politexnik Texnikumunda təhsil almışdır (1977-1979). 1979-1981-ci illərdə Riqa hərbi müxbirlər məktəbini qiyabi bitirmişdir. Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakultəsində təhsilini davam etdirmişdir (1982-1987).
Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının "Elm" Nəşriyyat və Poliqrafiya Mərkəzinin "Akademkitab" mağazasında şöbə müdiridir (1990-cı ildən).
Bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. Dövri mətbuatda hekayələri və publisist məqalələri dərc olunmuşdur.
**Əsərləri:** "İkiqat mühasirə, itkin düşənlər" (1997), "Ölsəm torpağınam" (1998), "Ləğv edilmiş tapşırıq" (2008) və s.

**17. Şair, dramaturq, tərcüməçi Mustafa İsgəndərzadənin anadan olmasının 75 illiyi (1940)**



**İsgəndərov Mustafa Namaz oğlu şair, tərcüməçi, dramaturq, 1974 – cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Filologiya elmləri namizədi (1986)**
1940-cı il noyabrın 17-də Ermənistanın Axta rayonunun Təkəlik kəndində anadan olmuşdur. 1946-cı ildə ailəliklə Azərbaycana, Qazax rayonunun Kalininkənd kəndinə köçmüşlər. "Kiçik yolçu" adlı ilk mətbu şeiri 1956-cı ildə rayon qəzetində, iki il sonra "Arzu" adlı şeiri "Azərbaycan gəncləri" qəzetində dərc olunmuşdur. Bu vaxtdan dövri mətbuatda müntəzəm çıxış etmişdir. Bədii yaradıcılığında dünya, xüsusən keçmiş SSRİ xalqlarının müasir ədəbiyyatından poetik nümunələrin tərcüməsinə geniş yer verir. "Min bir gecə" əsərinin yeddinci cildini ruscadan doğma dilə çevirmişdir. Hazırda Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda politologiya kafedrasının baş müəllimidir (1993 – cü ildən). Moskva, Kiyev və s şəhərlərində ümumittifaq ədəbiyyat tədbirlərində iştirak etmişdir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüşdür.
**Əsərləri:**

1. Baxışlar 1966;
2. Mənim evrikam 1971;
3. Ellər... ünvanlar 1973;
4. Oxşar ürəklər 1978;
5. Çinarım – baharım 1980;
6. Bu ocağın odu sönməz 1983 və s.

## 20. Yazıçı, ədəbiyyatşünas Qulu Xəlilovun anadan olmasının 85 illiyi (1930-1995)



**Xəlilov Qulu Qasım oğlu nasir, tənqidçi, ədəbiyyatşünas, publisist, 1953 – cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru (1967), professor (1968), Əməkdar elm xadimi (1993)**

1930-cu il noyabrın 20-də Qərbi Azərbaycanın Sisiyan rayonunun Qızılcıq kəndində anadan olmuşdur.

Qulu Xəlilov milli ədəbiyyatşünaslıq tariximizdə əbədiləşən şəxsiyyətlərdəndir. Görkəmli müəllim-pedaqoq, elmlər doktoru, professor, tənqidçi, Əməkdar mədəniyyət işçisi, Əməkdar elm xadimi Qulu Xəlilovun həyat yolu özündən sonra gələn nəsillər üçün dəyərli örnəkdir, desək səhv etmərik. Q.Xəlilov milli ədəbiyyatşünaslıq elmi sahəsində apardığı çoxşaxəli tədqiqatları ilə müasir elm tarixində bir alim kimi sözünü deyib. Ədəbiyyatımızın yorulmaz tədqiqatçısı kimi ədəbi-poetik düşüncənin tədqiqində yeni çığır açıb. Görkəmli alim sanballı elmi-nəzəri monoqrafik, tənqidi əsərlərin, yüzlərlə publisistik yazıların müəllifi kimi tanınıb. Onun Azərbaycan romanının inkişaf tarixinə dair fundamental əsəri ədəbiyyatşünaslığımız üçün qiymətli tədqiqat nümunəsi sayılır. Qulu Xəlilov təcrübəli müəllim, intellektual səviyyəsi ilə fərqlənən pedaqoq kimi müəyyən bir nəslin tərbiyəsində mühüm rol oynayıb. Onun "Yaşamaq istəyirəm", "Qocaların söhbəti", "Qulun yaman kişnədi", "Müəllimə", "Hörümçək", "Tənha palıd", "Bir də gəlmə" və digər əsərləri oxucuların stolüstü kitabına çevrilib. Sonradan bu siyahıya istedadlı qələminin gücü ilə ərsəyə gələn "Ömrün baharı", "Atam və mən" kimi romanları, "Yaylaqda", "Qocaların söhbəti" və s. hekayələri də daxil olub. Qulu Xəlilovun "Yaşamaq istəyirəm" adlı aftobioqrafiq povesti böyük bir nəslin tərbiyəsində mühüm rol oynayıb. Yazıçının əsərlərini oxuculara sevdirən onların xalqa yaxın olması, insanların kədər və sevincinin, yaşamlarının təbii dillə nəql olunması, həyat problemlərinin qabardılmasıdır. Xalqın içindən çıxan yazıçı elə xalqın həyatını qələmə alıb. Qulu Xəlilov böyük ürəyindən süzülüb gələn, səmimi duyğularla qələmə aldığı əsərləri və yaddaşlara həkk olan, qəlblərə köçən pedaqoji fəaliyyəti ilə əbədiyyət zirvəsinə yüksəlib. Nahaq yerə "əsl yazıçıların mükafatı əbədiyyətdir" söyləmirlər. Əbədiyyətə qovuşmaq üçünsə ilahi istedad, yorulmaz fədakarlıq, bütün əzabları gileysiz qarşılayaraq yaşamaq uğrunda mübarizəyə qoşulmaq və bu mübarizədə qalib olmaq gərəkdir. Qulu Xəlilov kimi.

**Əsərləri:** "Rəsul Rza" (1960), "Böyük sənət uğrunda" (1960), "Yaşamaq istəyirəm" (1968), "Sənət və sənətkar" (1966), "Mələk xala" (1969), "Azərbaycan romanının inkişaf tarixindən" (1971), "Həyat yaradıcılıq çeşməsidir" (1974), "Atam və mən" (1975), "Ömrün baharı" (1978), "Həyat və idrak" (1980), "Həyatdan gələn səslər" (1984), "Torpağın ətri" (1984), "Tənqidçilik çətin peşədir" (1986), "Torpağın göz yaşları" (1989), "Yaşamaq istəyirəm" (1993) və s.

## 23. Şair Vahid Əzizin anadan olmasının 70 illiyi (1945)

***Açılar, tutular göylərin rəngi,***
***Kainat gün kimi yananlarındı,***
***Dünya nə səninki, nə mənimkidi,***
***Dünya tarixlərdə qalanlarındı...*** **Vahid Əziz**



**Cəfərov Vahid Əziz oğlu - şair, tərcüməçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü (1978), Azərbaycan Jurnalistlər Birliyinin üzvü (1974).** Vahid Əziz 1945-ci il noyabrın 23-də Ermənistanın Dərələyəz mahalının Əzizbəyov kəndində qulluqçu ailəsində anadan olmuşdur. Ailəliklə Azərbaycanın Tərtər rayonuna köçdüklərindən orta məktəbi orada bitirmişdir (1963). Azərbaycan Politexnik İnstitutunu bitirmişdir (1971). Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin katibi olmuşdur (1991-1997). Bakı şəhər İcra hakimiyyətinin Reklam və Şəhər tərtibatı Departamentində "Reklamların Azərbaycan dilində yazılışına nəzarət bölməsi"nin müdiri olmuşdur. Dağlıq Qarabağ üzrə respublika təşkilat komitəsinin üzvüdür (1989-cu ildən). İnqilabdan əvvəl görkəmli rus ədiblərinin erməni - Azərbaycan münasibətlərinə dair yazdıqları əsərlərin yenidən nəşrini bilavasitə təşkil etmişdir. "Oğuz eli" ədəbi-publisistik qəzetin işıq üzü görməsinə ciddi köməyi olmuşdur. Bakıda keçirilən Beynəlxalq-biznes konqresinin təşkilat komitəsi qərargahının rəisi olmuşdur (1991). "Ergün" firmasını, eyni adlı nəşriyyatı təsis etmişdir. Burada bazar iqtisadiyyatı ilə sıx bağlı olan sorğu, lüğət kitablarını, müasir Avropa və Amerika iqtisadçılarının əsərlərini kütləvi tirajla nəşr etdirmişdir. Bədii yaradıcılığa 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çıxan ilk şeirindən sonra başlamışdır. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış edir. Son illər 200-dən çox publisistik məqaləsi və müsahibəsi dərc olunmuşdur. Yeni şeirlərlə vaxtaşırı çıxış etmişdir. Sözlərinə bəstələnmiş mahnıların diski buraxılmışdır. "Dözmək olmur" (1997) şeirlər kitabı rəğbətlə qarşılanmışdır. Bədii tərcümə ilə də məşğul olur. 40-dan çox mahnısına musiqi bəstələnmişdir. Azərbaycanın rəsmi nümayəndə heyətinin tərkibində dəfələrlə xarici ölkələrdə olmuşdur.

**Əsərləri**

- Mən küləyi görürəm. - Bakı: Gənclik, 1969. - 40 s.
- Aylı pəncərə. – Bakı : Gənclik, 1974. - 63 s.
- İllərin baharı. – Bakı : Yazıçı, 1980. - 136 s.
- Əllərimin kölgəsi. – Bakı : Gənclik, 1986. - 136 s.
- Тень моих рук. - М. : Советский писатель, 1988. - 120 стр.
- "Dözmək olmur" (1997)
- “Seçilmiş əsərləri” (üç cilddə) I cild, II cild, III cild (2008)

**Tərcümələri ruscadan**

Netto A. Azadlıq nəğmələri. – Bakı : Yazıçı, 1981. - 84 s.

## 29. Şair Soltan Yusifin anadan olmasının 80 illiyi (1935)



**Soltan Yusif (1935-2003), şair, Azərbaycan Yazıçılar İttifaqının üzvü**

Soltan Sərdar oğlu Yusifov 29 noyabr 1935-ci ildə Füzuli rayonunun Kərimbəyli kəndində anadan olub. Təbiət, çox erkən yaşlarından haqsızlıq edərək onu həyatın ən şirin neməti olan eşitmək qabiliyyətindən məhrum edib. Lakin şair təbiətin bu haqsızlığına təslim olmayıb. Soltan Yusif kənd 7 illik məktəbini bitirib, bir müddət kənddə qalıb kolxozda işlədikdən sonra Bakıya gələrək karlara məxsus axşam fəhlə-gənclər məktəbinin 8-ci sinfində təhsilini davam etdirir. Gündüzlər çəkmə tikməklə məşğul olaraq Soltan Yusif axşamlar dərsə getmişdir. Atasının vəfat etməsi, böyük qardaşının Hərbi xidmətdə olmağı və sonra Neft Sənaye Institutunda oxumağı, anası Güllər xanımın evdar qadın olması ona mütləq işləməyin vacibliyini bildirirdi. Onun gündüzlər işləməsi, yorğunluğu, 8-ci sinifdə dərslərini əlaçı oxumasına heç cür mane ola bilmədi. Nəticədə yanvar imtahanından sonra komissiyanın qərarı ilə onu 8-ci sinifdən 10-cu sinifə keçirdilər. Dərsliklər ayrı, fənnlər ayrı olsa da, çətinliyə baxmayaraq, o, əlaçı olaraq qalırdı. Ağır iş yorğunluğu, dərsə hazırlaşmağa vaxtın "yoxluğu", dərslərin qeyri-sabitliyi möhkəm iradəyə mənfi təsir göstərə bilməmişdi. Orta məktəbi bitirən Soltan Yusif sənədlərini N. K. Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunun qiyabi mədəni-maarif şöbəsinə verdi. Texnikumu bitirən şair Karlar cəmiyyətinin Bakı şəhər şöbəsinin sədri, Azərbaycan Karlar Cəmiyyətinin mərkəzi idarə Heyətinin sədri, sədr müavini, direktor müavini, direktoru, Hüquqşünası vəzifələrində işləyir. Nəhayət, özünün təşəbbüsü ilə nəşrə başlamış cəmiyyətin orqanı olan "Bizim Həyat" qəzetinin şöbə müdiri işləmiş, sonra isə baş redaktoru olmuşdu. Soltan Yusifin indiyə kimi 7 şeirlər və poemalar kitabı nəşr edilib. Onun şeirlərinin çoxusu müxtəlif dillərə tərcümə edilib. SSRI vaxtında Moskvada fəaliyyət göstərən "Kamerton" Ədəbi Birliyi şairi öz üzvliyinə qəbul etmişdir. O, hər il keçirilən görüşlərə, iclaslara, konfranslara, plenumlara dəvət edilirdi. Onun oxuduğu şeirləri mütləq "V edinom stroyu" jurnalında, "Mayak" qəzetində çap olunurdu. Şair Həmçinin, Ukraynada, Kiyevdə fəaliyyat göstərən Ədəbi Birliyinin də üzvü seçilmişdir. Soltan Yusif 2003-ci ildə vəfat edib.

**Əsərləri:** “Zəhmət ətri” (1970), “Kəpəzlə görüş” (1980), "Mubarizin arzuları" (1983), “Yuxuma gəlirsən” (1987), “Çiçəklər”(1988), "Döyüşkən şeirlər" (1995), "Qurban olduğum" (1995), "Seçilmiş əsərləri" (I cild) (2006), “Seçilmiş əsərləri” II cild (2006) və s.

## 30. Publisist, nasir Abid Tahirlinin 60 illiyi (1955)



Abid Həmid oğlu Tahirli 30 noyabr 1955-ci ildə Qəbələ rayonunun Nohurqışlaq kəndində anadan olmuşdur.
Orta məktəbdə oxuduğu illərdə (1963-1973) «Qalibiyyət» (rayon qəzeti), «Azərbaycan pioneri» qəzetləri, «Azərbaycan pioneri» jurnalı ilə sıx əməkdaşlıq etmişdir. IX sinifdə oxuyarkən «Azərbaycan pioneri» jurnalının keçirdiyi respublika yaradıcılıq müsabiqəsində «Sinoptiklər» hekayəsi ilə çıxış etmiş və müsabiqənin qalibi olmuşdur.1975 -1980-ci illərdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində ali təhsilə yiyələnmişdir. Tələbəlik illərində «Bakı», «Azərbaycan müəllimi», «Azərbaycan təbiəti», «Sovet kəndi», «Azərbaycan qadını» və s. kimi mətbu orqanlarda yazılarını dərc etdirmişdir. 1980-ci ildə SSRİ Jurnalistlər İttifaqına üzv qəbul edilmişdir, 1991-ci ildən Azərbaycan Jurnalistlər İttifaqının, 1995-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1982 -1987-ci illərdə Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin xaricdəki həmvətənlər üçün nəşr etdiyi «Vətənin səsi» adlı qəzetdə müxbir işləmişdir. Elə həmin illərdən də xaricdə yaşayan həmvətənlərin taleyi onun yaradıcılığının əsas mövzusuna çevrilmişdir. 1988-ci ildən Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr Cəmiyyəti - «Vətən» Cəmiyyəti yaranandan onun orqanı «Odlar yurdu» qəzetində əvvəlcə müxbir, sonra böyük müxbir, məsul katib, redaktor müavini vəzifələrində çalışmışdır. 1992 -1993-cü illərdə «Vətən» Cəmiyyəti Avropa və Amerika ölkələri şöbəsinin müdiri vəzifəsində işləmişdir.
1993-cü ildən Azərbaycan Respublikası Nazirlər Kabinetinin məsul işçisidir. Dövlət qulluğunun müşaviridir.1996-cı ildə Azərbaycan Jurnalistlər Birliyinin H. Zərdabi mükafatına, 2004-cü ildə Yasamal rayonu Bələdiyyəsinin və C. Məmmədquluzadənin ev muzeyinin təsis etdiyi Cəlil Məmmədquluzadə mükafatına layiq görülmüşdür. 1997-ci ildə MEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda «Ceyhun Hacıbəylinin həyat və yaradıcılığı» (mühacirətəqədərki dövr)» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, filologiya elmləri namizədi adına layiq görülmüşdür. 2000-ci ildə Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin doktorantı kimi «Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991)» mövzusunda doktorluq işi üzərində tədqiqatlarını davam etdirmiş, 2005-ci ildə elmi-tədqiqat işini yekunlaşdırmışdır. 2005-ci il aprel ayının 26-da BDU jurnalistika fakültəsi Elmi Şurasının, mətbuat tarixi və ideoloji iş metodları və jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedralarının birgə iclasında elmi-tədqiqat işi geniş müzakirə olunmuş və dissertasiya müdafiəyə buraxılmışdır. 2006-cı ildə A.Tahirli doktorluq dissertasiyasını müdafiə etmişdir. Abid Tahirli 11 kitabın, o cümlədən 5 monoqrafiyanın, yüzlərlə publisistik, 200-dək elmi məqalənin müəllifidir. Müxtəlif telekanallarda (o cümlədən xarici) və radio verilişlərində dəfələrlə çıxış etmişdir.

«Ədəbiyyat qəzeti», «525-ci qəzet», «Kaspi», «Azərbaycan», «Xalq qəzeti», «Azadlıq», «Azərbaycan müəllimi», «Ədalət», «Mədəniyyət», «Yeni Azərbaycan», «Bakı», «Səhər», «Maarifçi», «Hakimiyyət», «Respublika», «Mars», «Kredo», «Azərbaycan məktəbi», «Elm və həyat», «Dədə Qorqud», «İbtidai məktəb və məktəbəqədər tərbiyə», «Azərbaycan məktəbi», «Qobustan» və s. kimi qəzet, toplu və jurnallarda, eləcə də AMEA, BDU, ADPU, «Odlar yurdu» Universitetinin Elmi xəbərlərində yazıları dərc edilmişdir.
Fəaliyyəti və tədqiqatları haqqında respublika və xarici ölkə mətbuatında 150-dən çox məqalə dərc olunmuşdur.
Abid Tahirli bir sıra xarici ölkələrdə - Türkiyə, Qazaxıstan, Rusiya, Belçika, İsveç, Hollandiya və İranda səfərdə olmuşdur.

**Kitabları**

1. Azərbaycan mühacirəti (Bakı, «Tural-Ə» nəşriyyatı, 2001, 344 səh.).
2. Sözlə yarananlar, sözü yaşadanlar (Bakı, «Əbilov Zeynalov və qardaşları» nəşriyyatı, 2001, 308 səh.).
3. Azərbaycan mühacirət mətbuatı, I hissə (Bakı, «QAPP Poliqraf» nəşriyyatı, 2002, 158 səh.).
4. Deyilən söz yadigardır (Bakı, «Azərbaycan» nəşriyyatı, 2003, 78 səh.).
5. Azərbaycan mühacirət mətbuatı, II hissə (Bakı, «Ozan» nəşriyyatı, 2003, 258 səh.).
6. İlyas Əfəndiyevin publisistikası (Bakı, «Elm» nəşriyyatı, 2005, 68 səh.).
7. «Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991) (Bakı, «CBS» nəşriyyatı, 2005, 528 səh.).
8. Fırtınalar qoynunda (Bakı, «Ozan» nəşriyyatı, 2006, 156 səh.).
9. Azərbaycan mühacirət mətbuatı (1921-1991) (məlumat-soraq kitabı. «Çinar-çap» nəşriyyatı, 2007, 181 səh.).
10. İdrak işığında (Bakı, «Ozan» nəşriyyatı, 2010, 375 səh.).
11. Bütün türklərin tərcümanı.(Bakı, «Ozan» nəşriyyatı, 2011, 240 səh.).

**Tərtib etdiyi kitablar**

1. C.Hacıbəyli. Hacı Kərim (povest, rus dilində, Bakı, Azərnəşr, 1995).
2. Sən həmişə mənimləsən (Xalq yazıçısı İlyas Əfəndiyev haqqında xatirələr, Bakı, «Gənclik» nəşriyyatı, 1999, şair-publisist Dilsuzla birlikdə).
3. «Dədə Qorqud aliliyi» məqalələr toplusu (Bakı, «Sultan-qrafiks» nəşriyyatı, 1999).
4. «Dədə Qorqud» rəsmlərdə (illüstrasiyalı nəşr, Bakı, 1999).
5. Elçin. Şəxsiyyət və istedad (C. Cabbarlı haqqında, Bakı).
6. Professor Əmir Həbibzadə - 85 (Bakı, 2001, BDU nəşriyyatı).
7. «Dədə Qorqud» bülleteni (Bakı, 1999).

# Xarici ədəbiyyat

## Rus şairi Aleksandr Blokun anadan olmasının 135 illiyi (1880-1921)



**Blok Aleksandr Aleksandroviç (1880-1921) – görkəmli rus şairi. Rus simvolizminin nümayəndəsi.**

1905-1907-ci illərdə yazdığı əsərlərdə həyatın kəskin ziddiyyətləri, insanın faciəsi əks olunmuşdur. Blok lirikasında rus mədəniyyəti və vətənin taleyi haqqında dərin düşüncələr mühüm yer tutur ("Rusiya", "Kulikovo çolündə"). Atası huquq profesörü, anası yazıçı ve tərcüməçi idi. Anası ilə atasının boşanmalarından sonra, Moskva yaxınlığındakı bir kənddə yaşadı. Fəlsəfə elmi ilə məşğul olmuş, Avropa ölkələrinə səyahət etmişdir.Yazıçı 1898-1901-ci illərdə Peterburq Üniversitetində hüquq dərsi almışdır. Daha sonra filologiya fakultəsinə daxil olmuş və1906-cı ildə də məzun olmuşdur. 1901-1906 illərdə yazdığı şeirlərdə, ümüdlərın ümüdsüzlüklərin baş verdiyi tablolar yaratdı. Blokun həyatında teatrın özünəməxsus yeri var idi. Blok bir sıra teatr səhnələrində oynanılacaq əsərlər yaratmışdır. Özgə (1906); Hərb və kaman (1908), Karmen (1914), Cəza (1908), İskitler (1918), Onikilər (1918) əsərləri görülən işlərin təsdiqidir.

**Əsərləri:**

- Qar maskası (1907)-(Снежная маска)
- Gecə Saatları (1911)-(Ночные часы)
- Rusiya Şeirləri (1915)-(Стихи о России)
- Pis Oyun-(Балаганчик)
- Yad Qadın-(Незнакомка)
- Meydandakı Kral-(Король на площади)
- Qorxunc Dünya (1909-1916) - (Rusça: Страшный мир)
- Cəza (1908-1913) - (Rusça: Возмездие)
- Yamblar (1907-1914) - (Rusça: Ямбы)
- İtalyan Şeirləri (1909) - (Rusça: Итальянские стихи)
- Müxtəlif Şeirlər (1908-1916)- (Rusça: Разные стихотворения)
- Bülbül Baxçası (1915) - (Rusça: Соловьиный сад)
- Məmləkət (1907-1916) - (Rusça: Родина)
- Külək nə mahnı söyləyir. (1913) - (Rusça:О чем поет ветер)
- On iki (1918) - (Rusça: Двенадцать)
- Gül ve Xaç (1912) - (Rusça: Роза и крест)
- Ramses (1919) - (Rusça: Рамзес)
- Dionisosa (1906) - (Rusça: К Дионису Гиперборейскому)
- Gülünc Adam (1913) - (Rusça: Нелепый человек)

1921-ci ilin avqust ayında yazıçı ürək xəstəliyindən vəfat etmişdir.

**Rus şairi Konstantin Simonovun anadan olmasının 100 illiyi (1915 - 1979)**



**Simonov Konstantin Mixayloviç - rus yazıçısı, ictimai xadim, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı və 6 dəfə SSRİ Dövlət mükafatı laureatı.** Pyeslərin, ssenarilərin, publisistik oçerk və yol qeydlərinin, ədəbi-tənqidi məqalələrin müəllifidir. Simonova müharibə (1941-1945) dövrü lirikası daha çox şöhrət qazandırmışdır. Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı və 6 dəfə SSRİ Dövlət mükafatı laureatıdır. "Jdi menya" (Gözlə məni) şeirinin müəllifi Konstantin Simonov, İosif Stalinin göstərişi ilə Fransa, Yaponiya, hətta ABŞ-a yollanıb, bu ölkələrdə siyasi təbliğatla məşğul olurdu. 1976-cı il fevralın 13-də SSRİ Elmlər Akademiyasında Sov.İKP MK-nın baş ideoloqu M.Suslovun tələbi ilə böyük bir müzakirə keçirilir. Qırmızı imperiyanın hakim elitası: akademiklər, siyasi xadimlər, yazıçılar Oljas Süleymenovu "Az-Ya" kitabına görə mühakimə edirlər. Akademik B.A.Rıbakov özü ilə birlikdə 45 şovinisti ayağa qaldırır. Hamıdan çox qəzəblənən, Oljas Süleymanovu məşum "37-ci il" terminləri ilə hədələyənlərdən biri B.Y.Abayev olur. Yalnız bir nəfər - Konstantin Simonov qazax xalqının böyük oğlunun müdafiəsinə qalxır.
**Əsərləri:**”Gözlə məni”, “Öldür onu” və s.

**30. Amerika yazıçısı Mark Tvenin anadan olmasının 180 illiyi (1835 - 1910)**

***Mark Tven dünya şöhrətli yazıçılardan biridir. Onun bütün kitablarını böyükdən-kiçiyə, hamı sevərək oxuyur.***



**Mark Tven (ing. Mark Twain, əsl adı Semuel Lenqhorn Klemens ing. Samuel Langhorne Clemens; 30 noyabr 1835 – 21 aprel 1910) — görkəmli Amerika yazıçısı, jurnalisti və ictimai xadimi.** Oxuculara daha çox "Haklberri Finin sərgüzəştləri" və "Tom Soyerin macəraları adlı romanları ilə tanışdır. Mark Tven bir çox məşhur aforizmlərin müəllifi kimi də tanınır. Klemens dövrünün ən məşhur adamları-prezidentlər, dünya şöhrətli incəsənət xadimləri, sənayeçilər və Avropa kral ailələri ilə dostluq münasibətlərində olmuşdur. Tanınmış amerika yazıçıları Vilyam Folkner Tveni Amerika ədəbiyyatının "atası", Ernest Heminquey isə müasir Amerika ədəbiyyatının Tvenin sadəcə bir əsərindən – "Haklberri Finin sərgüzəştləri" romanından "törədiyini" bildirmişdir. Mark Tven 30 noyabr 1835-ci ildə ABŞ ın Missuri əyalətinin Florida bölgəsində dünyaya gəldi.Yeddi uşaqlı bir ailənin altıncı uşağı və sağ qalan üç qardaşdan biri idi. Ailəsi, o dörd yaşındaykən Mississippi Çayı boylarındakı Hannibala şəhərinə daşındı. İrəlidə yaradacağı

məşhur romanları bu bölgədəki müşahidələrinə söykənərək yazılmışdı. Biznesmenlik və vəkillik edən atasını on bir yaşında ikən sətəlcəmdən itirincə məktəbini buraxıb köməkci olaraq bir mətbəədə işə başladı. 1851-ci ildə böyük qardaşı Orionun sahibi olduğu yerli qəzetdə yazarlıq etməyə başladı; yazılara da kömək edir və yumoru məqalələr yazırdı. On səkkiz yaşına gəldiyində dünyanı kəşf etmə arzusunda bir gənc olaraq ABŞ-ın müxtəlif əyalətlərini gəzməyə başladı, bu vaxt müxtəlif mətbəələrdə işlədi. Dörd il sonra Missuriyə döndüyündə Mississippi çayındakı buxarlı gəmilərdə kapitanlıq etmək istədi. Kapitanlıq imtahanlarına hazırlıq üçün səylə calışırdı.
Bəzi gəzinti yazıları və məqalələr yazaraq müxtəlif əyalətləri gəzdi. Mark Tven adıyla imzaladığı ilk məqaləsi "Carsondan Məktub" adlı məqaləsi idi. Mark Tven, Mississippi gəmilərində "iki kulaç dərinlik" mənasını verən bir taxma addır.
Pul qazanmaq üçün müxtəlif işlərə sərmayə qoyan Mark Tven cəhdləri həmişə pul itkisiylə nəticələnir. 1885-ci ildə qurduğu nəşriyyat müflisləşir. Vətəndaş müharibəsi ilə əlaqədar müxtəlif xatirə kitabları yazır, Papa XIII. Leonun xatirələrini eyni anda 6 dildə çap etdirir. Papanın xatirələri oxucuların marağına səbəb olur. Borclarını ödəyə bilmək üçün yeni bir yol bulan Mark Tven, bütün dünya səyahətinə çıxdı. Avstraliyadan Hindistana, Cənub Afrikadan İngiltərəyə qədər bir çox ölkəni gəzdi. Bu gəzinti qeydlərini "Ekvatorun izində" adlı yazısıyla paylaşdı.Yaşlılıq illərində müstəmləkəçiliyi, irq düşmənliyi, qazanc ehtirası, dini ikiüzlülüyü sərt bir dillə tənqid edən yazılar yazdı. 1907-ci ildə Oxford Universiteti ona fəxri doktor rütbəsi verdi. Mark Tven, 1906-ci ildə yazmağa başladığı bioqrafiyasını tamamlamadan keçirdiyi ürək narahatlığı nəticəsində 21 aprel 1910-cu ildə həyatını itirdi.
**Seçilmiş əsərləri**

- "Kalaverasdan olan məşhur qurbağa" hekayələr toplusu (1865)
- "Günahsızlar yadellərdə" (1869)
- "Mətinlər" (1875)
- "Qızılı əsr" (1873), Ç.D. Uornerlə birgə yazmılmış roman
- "Köhnə və yeni oçerklər" (1875), hekayələr toplusu
- "Missisipidə köhnə vaxtlar" (1875)
- "Tom Soyerin sərgüzəştləri" (1876)
- "Şahzadə və dilənçi" (1882)
- "Missisipidə keçən həyat" (1883), hekayələr toplusu
- "Haklberri Finin sərgüzəştləri" (1884)
- "Qoruyucu mələyə məktub" (1887)
- "Konnektikutdan olan yanki kral Arturun sarayında" (1889)\
- "Fərsiz Vilson" (1894)
- "Janna d`Ark" (1896)
- "Müəmmalı yadelli" Şeytan haqqında yazdığı povest, 1916-cl ildə nəşr olunub.

**Filmoqrafiya:** Milyon funt sterlinq dəyərində bank bileti (film, 1954) / The Million Pound Note

## Dekabr

### Əlamətdar tarixi günlər və bayramlar

Beynəlxalq Qiçs-lə mübarizə günü 01.12
Beynəlxalq Əlillər günü 03.12.1992
Rabitə və İnformasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı 06.12.2006
Beynəlxalq Aviasiya günü 06.12.1996
Ümumdünya İnsan hüquqlarının müdafiəsi günü 10.12.1950
Cənubi Azərbaycanda "21 Azər İnqilabı"nın 70 illiyi12.12.1945
Uşaqların Beynəlxalq Televiziya və Radio günü 12.12.
Azərbaycan yazıçı və şairlərinin "Qızıl qələmlər" ədəbi cəmiyyətinin yarandığı gün. 20.12.1925
Dünya Azərbaycanlılarının Həmrəylik günü 31.12.1991

### Bu tarixi unutmayaq

Xankəndinin işğalı günü 26.12.1991

### Milli qəhrəmanlar zirvəsi

Milli qəhrəmanımız Aslanov Niyazi Şərəfxan oğlunun (25.12.1960) 55 illik yubileyi

### Elm adamları

Akademik Yusif Məmmədəliyevin (31.12.1905-1961) 110 illik yubileyi

### İncəsənət

Rəssam Mirzə Qədim İrəvaninin (04.12.1825-1875) 190 illik yubileyi
Xalq rəssamı Nadir Əbdürrəhmanovun (05.12.1925-2008) 90 illik yubileyi
Bəstəkar Tofiq Bakıxanovun (08.12.1930) 85 illik yubileyi
Xalq artisti Səməd Möhləvinin (08.12.1900-1962) 115 illik yubileyi
Xalq artisti Rəşid Behbudovun (14.12.1915-1989) 100 illik yubileyi
Xalq artisti Ağababa Bünyadzadənin (17.12.1915-1974) 100 illik yubileyi
Kinosenarist, yazıçı Həsən Seyidbəylinin (22.12.1920-1980) 95 illik yubileyi

### Yubilyar yazıçı və şairlər

Yazıçı Rafiq Savalanın (01.121940) 75 illik yubileyi
Ədəbiyyatşünas Kamal Abdullanın (04.12.1950) 65 illik yubileyi
Şair Əjdər Qiyaslının (13.12.1935) 80 illik yubileyi
Xalq şairi Osman Sarıvəllinin (17.12.1905-1990) 110 illik yubileyi
Yazıçı Əyyub Abbasovun (01.12.1905-1957) 110 illik yubileyi
Ədəbiyyatşünas Atababa Musaxanlının (20.12.1905-1941)110 illik yubileyi
Şair Zülfüqar Şahsevənlinin (25.12.1950) 65 illik yubileyi
Ədəbiyyatşünas Teymur Əhmədovun (25.12.1930) 85 illik yubileyi
Yazıçı Yusif Səmədoğlunun (25.12.1935-1998) 80 illiyi
Şair, publisist Knyaz Aslanın (25.12.1960) 55 illik yubileyi

Yazıçı Əbil Yusifin (31.12.1910-1984)105 illik yubileyi

Şair Zeynal Cabbarzadənin (31.12.1920-1977) 95 illik yubileyi

**Xarici ədəbiyyat**

İngilis yazıçısı R. Kiplinqin (30.12.1865-1931) 150 illik yubileyi

# DEKABR

# Əlamətdar tarixi günlər və bayramlar

## 1. Beynəlxalq AİDS-lə (QİÇS) mübarizə günü




Hər il dekabr ayının 1-də Ümumdünya AİDS günü qeyd edilir. HİV- infeksiyası pandemiyası dünya səhiyyəsinin infeksion xəstəliklər sahəsində ən ciddi problemidir. BMT-nin HİV/AİDS üzrə Birləşmiş proqramının və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada hər gün 6800-dən artıq insan HİV-ə yoluxur, 5700-dən artıq insan isə AİDS səbəbindən vəfat edir. 2007-ci ilin sonuna yer kürəsində HİV-lə yaşayan insanların sayı 33,2 milyon təşkil etmişdir ki, onlardan da 15,4 milyonu qadın, 2,5 milyonu uşaqdır. Azərbaycanda da HİV/AİDS problemi ən aktual problem olaraq daim Səhiyyə Nazirliyinin nəzarətindədir. Azərbaycan HİV-ə yoluxma səviyyəsi aşağı olan ölkələr sırasına daxildir və burada epidemiya əsasən yüksək riskli qrupa aid olan inyeksion narkotik istifadəçiləri arasında yayılmışdır. Belə ki, Azərbaycan vətəndaşları arasında təkcə 2009-cu ilin 11 ayı ərzində aşkar olunan HİV-ə yoluxma hallarının 63,3%-ı, ümumilikdə isə 1992-01.12.2009-cu il tarixinə olan dövrdə yoluxma hallarının 64,4%-ı inyeksion narkotik istifadəsi nəticəsində baş vermişdir. Azərbaycanda ilk dəfə HİV infeksiyasının aşkar edildiyi 1987-ci ildən 2009-cu ilin 1 dekabr tarixinədək Respublika QİÇS-lə Mübarizə Mərkəzində HİV infeksiyası təsdiq olunmuş 2224 nəfər rəsmi qeydiyyata götürülmüşdür. Onlardan 2138 nəfəri (96,1%) Azərbaycan vətəndaşı, 86 nəfəri (3,9%) isə əcnəbidir, HİV-ə yoluxmuş Azərbaycan vətəndaşlarından 1799-u (84,1%) kişi, 339-u (15,9%) qadındır. AİDS mərhələsində olan Azərbaycan vətəndaşlarının sayı 448 nəfər, AİDS-dən dünyasını dəyişmiş vətəndaşların sayı 274 nəfər olmuşdur. Azərbaycan vətəndaşında ilk dəfə HİV infeksiyasının aşkar edildiyi 1992-ci ildən 2009-cu ilin 1 dekabr tarixinədək 2138 HİV-ə yoluxmuş insandan 634-ü (29,7%) Bakı şəhəri və Abşeron rayonunda, 1465-i (68,5%) Respublikanın digər 54 inzibati ərazisində qeydiyyatda olan şəxslərdir, 39 nəfərin (1,8%) yaşayış yeri naməlumdur.1992-ci ildən 2009-cu ilin 1 dekabr tarixinədək Azərbaycanda 780 ailədə HİV-ə yoluxma faktı qeydə alınmışdır. Onlardan 18 ailədə ata-ana-uşaq, 1 ailədə ana-uşaq, 166 ailədə ər-arvad, 547 ailədə yalnız kişi, 48 ailədə isə yalnız qadın yoluxmuşdur. Səhiyyə Nazirliyi tərəfindən HİV-lə yaşayan insanlara profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsinin təmin edilməsi işi Respublika QİÇS-lə Mübarizə Mərkəzində davam etdirilir.

## 3. Beynəlxalq Əlillər günü



3 dekabr Beynəlxalq Əlillər günüdür. Əlillər günü 1992-ci ildə BMT-nin baş məclisində qəbul edilib. Ümumdünya Səhiyyə Təşkilatnın məlumatına görə dünya üzrə fiziki qüsurlu insanların faiz göstəricisi 10%-dir. Bu göstərici Azərbaycan üzrə 4,4% təşkil edir ki, bu da MDB məkanında ən aşağı göstərici hesab edilir. Azərbaycanda dörd yüz mindən artıq əlil insan var. Onların bir hissəsi 2-ci dünya müharibəsi, bir hissəsi erməni təcavüzü nəticəsində əmək qabiliyyətlərini itirən şəxslərdir. Əlillərin sosial müdafiəsinin gücləndirilməsi haqqında dövlət proqramına uyğun olaraq artıq 10 ildir ki, onların xaricdə müalicəsi təşkil olunur. Bu yöndə işlər davam etdirilərək çoxaldılır. Əlil insan dedikdə hər kəsin ağlına müəyyən orqanlarını itirmiş insanlar gəlir. Unudulmamalıdır ki, bu onların işləməyinə, həyat fəaliyyətlərinə və ya insani keyfiyyətlərinə əngəl deyil və olmamalıdır. Fiziki deyil, mənəvi cəhətdən qüsurlu olmamaq gərəklidir.

İnsanların hamısı eyni olmur. Fiziki cəhətdən sağlam olanlarla yanaşı, əlillər və şikəstlər də vardır. Əlillik və şikəstlik müxtəlif yollarla yaranır: anadangəlmə, müharibələr, yol-nəqliyyat, istehsalat qəzaları, xəstəliklər nəticəsində qazanılmış əlillik və şikəstlik vardır.

Əlillik eyib sayılmamalıdır, çünki bu insanlar fiziki cəhətdən tam olmasalar da, onlarda da nəcib ürək, saf insani keyfiyyətlər, yüksək bilik, bacarıq və intellektual qabiliyyətlər vardır. Əlillər əhalinin başqa təbəqələri ilə müqayisədə daha çox sosial müdafiəyə, mənəvi dəstəyə, humanist münasibətə möhtacdırlar. Bu insanlar hətta maddi cəhətdən təmin olunsalar belə, isti münasibət, doğmalardan və yadlardan qayğı, mərhəmət və diqqət umurlar.

Ölkəmizdə əlillərin sosial müdafiəsinə xüsusi diqqət yetirilir. Bu barədə bir sıra dövlət əhəmiyyətli proqramlar həyata keçirilmişdir. Əlillər mənzil, maşın, əlil arabaları ilə təmin olunur, müxtəlif ölkələrdə dövlət vəsaiti hesabına müalicə və bərpa kursları keçirlər.

Beynəlxalq aləm də əlillərə qayğı və diqqəti artırıb. Onların hüquqlarının qorunması sahəsində bir sıra tədbirlər həyata keçirilib. Onlardan ən mühümü BMT tərəfindən 1983-1992-ci illərdə həyata keçirilmiş Əlillər Onilliyidir. 1992-ci il oktyabrın 14-də Onilliyin başa çatması münasibətilə BMT Baş Məclisi dekabrın 3-nü "Əlilliyi olan insanların Beynəlxalq günü" kimi qeyd olunması haqqında Bəyannamə qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan bütün insanların hüquqlarını qorumaqdır.

## 6. Rabitə və İnformasiya texnologiyaları sahəsi işçilərinin peşə bayramı



Dekabrın 6-da Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsinin işçiləri peşə bayramlarını qeyd edirlər. Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 02 dekabr 2006-cı il tarixli sərəncamı ilə təsis olunub. O vaxtdan bütün respublikada rabitəçilər və informasiya texnologiyaları sahəsinin işçiləri öz peşə bayramlarını qeyd edirlər. Peşə bayramının məhz bu gündə qeyd olunması Azərbaycanda ilk telefon xəttinin yaradılması ilə bağlıdır. Belə ki, 1881-ci il dekabrın 6-da Bakıda "Nobel qardaşları" cəmiyyəti tərəfindən ilk telefon xətti çəkilmişdir. Azərbaycanda rabitə sahəsi Azərbaycanın ümummilli lideri Heydər Əliyevin hakimiyyəti illərində xüsusilə inkişaf etməyə başlayıb. Azərbaycanda rabitə sisteminin əsas inkişaf dövrü 70-80-ci illərə təsadüf edir. Həmin illərdə respublikaya rəhbərlik etmiş Heydər Əliyevin bu sahənin inkişaf etdirilməsinə göstərdiyi xüsusi diqqət o dövrün rəsmi sənədlərində geniş şəkildə öz əksini tapır. 1976-cı ildə təkcə Bakı telefon şəbəkəsinin gücü 1927-ci illə müqayisədə 20 dəfədən çox artmış, telefon Azərbaycan əhalisinin məişətinin ayrılmaz hissəsinə çevrilmişdi. Həmin illərdə poçt, teleqraf və teleradio proqramlarının yayımı sahələri də diqqətəlayiq inkişaf yolu keçmişdir. 1979-cu ildə Heydər Əliyevin şəxsi rəhbərliyi altında yaradılmış komissiya tərəfindən Bakıda - köhnə teleqüllənin yaxınlığında tikilməsi nəzərdə tutulan 310 metrlik Yeni Teleqüllənin layihəsi təsdiq edildi və 1981-ci ildə obyektin tikintisinə başlandı. Buna baxmayaraq bir sıra obyektiv və subyektiv səbəblər üzündən Yeni Teleqüllənin istismara verilməsi, ləngidilsə də Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdə onun diqqət və qayğısı sayəsində xalqın istifadəsinə verildi.Həmçinin, 90-cı illərdə Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra Azərbaycanda informasiya kommunikasiya texnologiyaları sektoru da inkişaf etməyə başladı, ölkədə bu yeni sektorun inkişafı prosesi sürətlənirdi, Azərbaycanın internet seqmenti genişlənirdi. Azərbaycanda rabitə və informasiya-kommunikasiya texnologiyaları sektorunun hazırkı sürətli inkişafı birbaşa ümummilli liderin kursunu davam etdirən ölkə Prezidenti İlham Əliyevin şəxsi diqqəti və qayğısı nəticəsində əldə olunmuşdur. 2012-ci il ərzində İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, Yüksək Texnologiyalar Parkının və Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında sənədlər imzalanmışdır. Həmin ilin noyabrında illik Bakutel sərgi-konfransı ilə yanaşı, Bakıda dünya əhəmiyyətli İnternet İdarəçilik Forumu (IGF 2012) da keçirilmişdir. Bütün bunlar hökumət tərəfindən İKT sektoruna böyük diqqətin yetirilməsini bir daha sübut edir.

## 6. Beynəlxalq Aviasiya günü



1994-cü ildə Beynəlxalq Mülki Aviasiya haqda Konvensiyanın imzalanmasının 50 illiyi ilə əlaqədar olaraq 6 dekabr 1996-cı ildə BMT Baş Assambleyası tərəfindən 7 dekabr tarixi Beynəlxalq Mülki Aviasiya Günü elan olunub.

Bakıda ilk uçuş 1923-cü ildə həyata keçirilib. 1938-ci il tarixində Azərbaycanda ilk aviasiya qrupu yaradılıb ki, bu tarix 2006-cı ildə Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə Azərbaycan Mülki Aviasiya Günü kimi elan edilib. Bakı şəhərinin üzərindən ilk təyyarə 20 oktyabr 1910-cu il tarixində uçub. Sergey Utoçkinin idarə etdiyi uşaqsayağı yöndəmsiz və möhkəm olmayan “Farman-4” sistemli fransız biplanı heyrətdən yerində donmuş tamaşaçıların başı üzərində bir neçə dairə vurub, sonra isə alqışlar altında yerə enib. Azərbaycanın aviasiya ilə ilk tanışlığından sonra hava nəqliyyatının yeni növünün regionda rəsmi status alması üçün on beş il tələb olunub. 1923-cü ildə “ZAKAVİA” Zaqafqaziya Mülki Aviasiya Səhmdar Cəmiyyəti yaradılıb. Artıq 1923-cü ilin aprel ayında “Yunkers” təyyarəsində Bakı-Tiflis-Bakı marşrutu ilə uçuş həyata keçirilib, iki il sonra isə Keşlədə aerodrom tikilib və mülki “Hava stansiyası” yaradılıb. 1926-cı ildə Mineralnıye-Vodı–Qroznı–Mahaçqala–Bakı–Yevlax–Tiflis marşrutları üzrə müntəzəm uçuşlar həyata keçirilməyə başlanıb. Sovet İttifaqı dağıldıqdan sonra mülki aviasiyaya 200 milyon dollardan yuxarı sərmayə qoyulub. Bu, aviaparkı müasir “Boeing-757” təyyarələri ilə təkmilləşdirməyə, uçuşları idarəetmə vasitələrini yeniləməyə, iyirmiyədək ixtisas üzrə kadrların hazırlanması sistemini yaratmağa və bu gün altmışdan yuxarı aviaşirkətin təyyarələrini qəbul edən beynəlxalq təyyarə vağzalının 1999-cu ildə Bakı şəhərində açılmasına imkan verib. Növbəti illərdə “Naxçıvan” beynəlxalq hava limanı, “Gəncə” beynəlxalq hava limanı və “Zabrat” hava limanında yeni təyyarə vağzalının binası istismara verildi. 2008-ci ildə “Lənkəran” və “Zaqatala” beynəlxalq hava limanları açıldı. Bakı-Zaqatala və Bakı-Lənkəran marşrutları üzrə aviareyslər müvafiq olaraq 2008-ci ilin sentyabr və oktyabr aylarında açılıb.Qeyd edək ki, hazırda AZAL ölkə daxilində Bakı-Naxçıvan, Bakı-Gəncə və Gəncə-Naxçıvan və Bakı-Qəbələ marşrutları üzrə uçuşlar yerinə yetirir.“Azərbaycan Hava Yolları” QSC Avropa, MDB, Yaxın Şərq və Asiya ölkələrinə sərnişin daşımaları həyata keçirir. 2014-cü ildə uzaq uçuş məsafəsinə malik olan “Boeing” təyyarələrinin yeni partiyası alındıqdan sonra Şimali Amerika və Cənubi-Şərqi Asiya ölkələrinə daimi marşrutların açılması planlaşdırılır. İndi “Azərbaycan Hava Yolları” QSC Azərbaycanın Milli Daşıyıcısı kimi Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasında (İATA) layiqli yer və MDB ölkələrinin aviaşirkətləri arasında lider mövqe tutur. “Azərbaycan Hava Yolları” QSC həm regionda, həm də MDB-də yeni avialaynerlərin sayına görə liderlərdən biri sayılır.

## 10. Ümumdünya İnsan hüquqlarının müdafiəsi günü

***“Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır.”***

**Ulu öndər Heydər Əliyev**




1948-ci ilin 10 dekabrında BMT-nin Baş Məclisi tərəfindən “İnsan hüquqları haqqında ümumi bəyannamə” qəbul edilmişdir. 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-u bütün dünyada “Beynəlxalq İnsan Hüquqları Günü” kimi qeyd olunur. İnsan hüquqları, insanların təbii və dərrakədən irəli gələn subyektiv hüquqlarını təsvir edir.

İnsan hüquqlarının əsas konsepsiyası ondan ibarətdir ki, bütün insanlar insan olmalarına görə eyni hüquqlara malik olmalıdırlar və bu hüquqlar hər hansı bir izaha ehtiyac olmadan hər kəsə bərabər şəkildə aid edilməlidir.

Avropada əsas insan hüquq və azadlıqlarının qorunması üçün Azərbaycan Respublikasının da qoşulduğu 4 noyabr 1950-ci il tarixli “Avropa İnsan Hüquları Konvensiyası” mövcuddur. Bu konvensiyanın beynəlxalq müqavilələrdən başlıca fərqi ondan ibarətdir ki, Avropada bu konvensiyaya əsaslanan və eyni zamanda real işləmə mexanizminə malik əsas insan hüquq və azadlıqlarını qoruyan Avropa İnsan Hüquqları Məhkəməsi fəaliyyət göstərir. İnsan haqqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur: Belə ki, hər bir insan onun malik olduğu irqdən, cinsdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşəyindən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq təmin olunmuş insan hüquqlarına malikdir.

## 12. Cənubi Azərbaycanda "21 Azər İnqilabı"nın 70 illiyi (1945)

1945-ci ildə Azərbaycandakı sosial-siyasi və iqtisadi durum elə bir həddə gəlib çatmışdı ki, millət rejimin zorakılığına müqavimət göstərməkdən başqa çıxış yolunun qalmadığını görürdü. Belə bir şəraitdə xalqın mübarizəsinə başçılıq edə bilən və onu əsas hədəfə yönəltməyi bacaran bir təşkilatın yaradılmasına ehtiyacın duyulur. Belə bir təşkilat S.C.Pişəvərinin başçılığı ilə 1945-ci ilin sentyabrın 3-də (12 şəhrivər 1324-cü il) yaradılmış Azərbaycan Demokrat Firqəsi (ADF) olmuşdur.



S.C.Pişəvərinin başçılığı ilə firqə az zaman kəsiyində böyük işlər gördü: İran Xalq Partiyasının (İXP) Azərbaycandakı təşkilatları və Azərbaycan Həmkarlar Şurasının bütün üzvləri 1945-ci il sentyabrın 12-də öz yığıncaqlarında könüllü olaraq ADF sıralarına daxil olduqlarını bildirdilər; 2-3 oktyabrda ADF-nin ilk qurultayı keçirildi; 20 noyabrda bütün Azərbaycanı əhatə edən Xalq Konqresi çağırıldı; Azərbaycan Milli Məclisinə seçkilər keçirildi; 12 dekabr 1945-ci ildə Milli Məclis Azərbaycan xalqı adından fəaliyyətə başladı, S.C.Pişəvəri baş nazir seçildi və Azərbaycan Milli Hökuməti təşkil edildi. Beləliklə, Güney Azərbaycanda xalq hərəkatının zirvəsi sayılan 21 Azər inqilabı (nehzəti) zəfərlə başa çatdı; Tehranın əsarətində olan Azərbaycan əyalətləri Milli Hökumətin bayrağı altına keçdi və s…

S.C.Pişəvərinin başçılıq etdiyi hökumət cəmi bir il yaşadı. Bu bir ildə Milli Hökumətin gördüyü işləri və icra etdiyi tədbirləri, xarici müəlliflərin yazdıqları kimi, "Rza şah rejimi heç 20 ildə də icra edə bilməzdi".

Görülmüş işlərin qısa məzmunu belədir: Azərbaycan muxtariyyətinin dünyaya tanıdılması, demokratik əsaslarla yerli Əncümənlərə seçkilərin başlanması və Əncümənləri təşkil etmək, şəhər və kəndlərin abadlaşdırılması, yerlərdə dövlət vəzifələrinə vətənpərvər və vicdanlı adamların irəli çəkilməsi, ədalətli vergi qanunu tətbiqi, fədai dəstələrinin və xalq qoşunlarının təşkili və onların təchizatına və təliminə xüsusi diqqətin ayrılması, tədrisin və bütün ölkədə yazışmaların ana dilində aparılması, savadsızlığın ləğv edilməsinə təşəbbüs və xüsusi kursların təşkili, milli Darülfünunun açılmasını tezləşdirmək. İqtisadi tədbirlər sırasında: ədalətli torpaq islahatının keçirilməsi, ərbab-rəiyyət münasibətlərinin nizamlanması, dayanmış istehsal müəssisələrinin işə salınması və yeni sənaye obyektlərinin inşası, milli sahibkarlığın dəstəklənməsi və təşviq edilməsi, infrastrukturun qaydaya salınması və onun ahəngdar işinin təmin edilməsi, işsizliyi aradan qaldırmaq üçün təsirli tədbirlərin həyata keçirilməsi, mütərəqqi iş qanunu və sığortanın tətbiqi, səhiyyə xidmətinin yaxşılaşdırılması.

## 12.Uşaqların Beynəlxalq Televiziya və Radio günü

***"Uşaqlara qayğı göstərmək, uşaqların təhsili, tərbiyəsi üçün şərait yaratmaq uşaqlara həyatda sərbəst yaşamaq, sərbəst inkişaf etmək adət- ənənələrini aşılamaq uşaqlarla aparılan işin əsas hissəsi olmalıdır".***

**Ulu öndər Heydər Əliyev**




Ölkəmizdə də uşaqlara diqqət və qayğı getdikcə artmaqdadır. Ümummilli lider Heydər Əliyev tərəfindən 1998- ci il mayın 19- da imzalanmış "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3- cü maddəsində deyilir: "Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldilir". Uşaqlara göstərilən qayğının daha bir bariz nümunəsi 22 iyun 1999- cu il tarixdə qüvvəyə minmiş "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunudur. Ümummilli lider Heydər Əliyev uşaqları çox sevirdi. Həmişə onların əlamətdar günlərində, bayramlarda balacalarla bir yerdə olmağa, şənlənməyə üstünlük verirdi. 1997-ci ildə Uşaqların Beynəlxalq Televiziya və Radio Günü münasibətilə keçirilən şənlikdə ümummilli lider Heydər Əliyev çıxışnda demişdi: "İnsanın uşaqlıq dövrünü ən xoşbəxt dövrüdür. Ancaq uşaqlıq dövrünü yaşamış, həyatın ağır və çətin illərini, eləcə də çox xoşbəxt günlərini yaşamış insanlar bunu yaxşı bilirlər. Mən arzu edirəm ki, müstəqil Azərbaycanın uşaqları həyatlarının bu xoşbəxt dövrünü tam firavan keçirsinlər. Biz də - Azərbaycan dövləti, hökuməti, Azərbaycan Prezidenti kimi mən də bütün xalqımızın xoşbəxtliyi uğrunda çalışaraq birinci növbədə uşaqların xoşbəxt həyatını təmin etməyi özümüzə müqəddəs vəzifə kimi qəbul etmişik. Biz bu yolda çalışırıq." Uşaqları təbrikə gələn ulu öndər nitqində fidanlara qayğı göstərməyin, onların təhsili, tərbiyəsi üçün şərait yaratmağın həyatda sərbəst yaşamaq, sərbəst inkişaf etmək adət- ənənlərini aşılamağın uşaqlarla aparılan işin əsas hissəsi olduğunu vurğulamışdı. Uşaq və gənclərə göstərilən diqqətin, qayğının daha da artırılmasında ölkə Prezidenti İlham Əliyevin xidməti çoxdur. Yəni məktəblərin tikilməsi, təmir olunması, idman komplekslərinin yaradılması buna əyani sübutdur. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO – nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bu yolda gördüyü işlər xüsusi qeyd edilməlidir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində həyata keçirilən genişmiqyaslı inşaat və yenidənqurma işləri bölgələrimizdə uşaqların təhsili üçün gözəl imkan yaratdı.

**20. Azərbaycan yazıçı və şairlərinin “Qızıl qələmlər” ədəbi cəmiyyətinin yarandığı gün.**




Azərbaycan Yazıçılar Birliyi Azərbaycan yazıçı və şairlərinin, tərcüməçilərinin ən böyük ictimai təşkilatıdır. Birliyin əsas vəzifəsi gənc yazarların ədəbi-bədii fəaliyyətinə əməli dəstək vermək, dünyanın müxtəlif ölkələrində yaşayan yaradıcı azərbaycanlıları milli ədəbiyyat ətrafında birləşdirmək, sənətkar-oxucu əlaqələrini genişləndirmək, Azərbaycan ədəbiyyatını xaricdə təbliğ etməkdir.

1923-cü ildə Azərbaycan yazıçılarını bir təşkilatda birləşdirmək zərurəti meydana çıxarkən bir neçə yazıçı çap etdirdikləri müraciətdə "Türk ədib və şairlər ittifaqı dərnəyi" təsis etdiklərini bildirmişlər. Həmin ədəbi birlik "İldırım" adlanırdı. "Qızıl qələmlər" ədəbi cəmiyyəti də təxminən bu dövrlərdə formalaşmış, öz ətrafına gənc ədəbi qüvvələri toplamışdı. Bu cəmiyyət əsaslı və ədəbi təşkilat kimi 1925-ci il dekabrın 25-də Bakıda yaradılmış, ədəbi dərnəkləri öz ətrafında birləşdirmişdir.

1927-ci il iyul ayının əvvəllərində Azərbaycan yazıçılarının birinci ümumi yığıncağında bütün ədəbi qüvvələri bir təşkilat ətrafında birləşdirmək qərara alınıb. Beləliklə, Azərbaycan Yazıçılar Cəmiyyətinin müvəqqəti idarə heyəti yaranıb.

1932-ci ilin aprel ayından Azərbaycan Yazıçılar Cəmiyyətinin yenidən qurulması haqqında təşkilati tədbirlər həyata keçirilməyə başlayıb və iki ildən sonra 1934-cü il iyunun 13-də Bakıda Azərbaycan yazıçılarının I qurultayında Azərbaycan Yazıçılar İttifaqı yaradılmışdır.

## 31. Dünya Azərbaycanlılarının Həmrəyliyi günü

***“Bizim hamımızın bir vətəni var. Bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır.”***

**Ulu öndər Heydər Əliyev**



31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir. Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində bu tendensiya özünü yüksək səviyyədə göstərir. Bu da ondan irəli gəlir ki, Avropadakı Azərbaycan diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu ayrı-ayrı cəmiyyət üzvləri üçün bir araya gəlmək, cəmiyyət və qurumlar halında birləşmək baxımından dünyanın sivil nöqtələrindən biri olan Avropada mühüm əhəmiyyət kəsb edir. 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. Bu vaxt İstanbulda türk dilli xalqların Konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verildi. 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Beləliklə, bütün azərbaycanlılar üçün əziz olan 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayram edilir. Azərbaycanlılar bu gün ilə fəxr edir və onu qürurla qeyd edirlər.

## Bu tarixi unutmayaq

***Nizami ordumuzun möhkəmlənməsi, beynəlxalq miqyasda Azərbaycanın haqq mövqeyinin dəstəklənməsi, insanlarda düşmənə nifrətin artması, yekdil əhval-ruhiyyənin yaranması onu deməyə əsas verir ki, Qarabağ torpağı düşmən əsarətindən azad ediləcək!***

### 26. Xankəndinin işğalı günü



Xankəndi şəhəri 1991-ci il dekabrın 25-dən 26-na keçən gecə Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan şəhər tipli qəsəbəsi daxildir. Sahəsi 8 km²-dir. Paytaxt Bakıdan 329 km aralıda yerləşir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 1 yanvar 2012-ci il tarixinə olan rəsmi məlumatına əsasən Xankəndi şəhərinin 53,3 min nəfər, Kərkicahan qəsəbəsinin isə 2 min nəfər əhalisi vardır. Hazırda erməni silahlı qüvvələrinin nəzarəti altındadır.1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başladılar. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olundu. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırdı. Bu, Dağlıq Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb oldu. Bundan sonra Sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərdi. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlandı. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd etdilər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlandı. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunu qisasını almaq üçün Xankəndinə yürüş etdilər. Onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsildi. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirildi, çoxlu sayda insan isə yaralandı. Bu gənclər sonradan illərlə davam edəcək Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları oldular. May ayının 25-dən etibarən isə Vilayət Partiya Komitəsində məsul vəzifədə çalışan azərbaycanlılar işdən çıxarıldı. İlk olaraq ermənilər 1988-ci ilin 18 sentyabrında Xocalıya hücum etdilər. Güclü müqavimətlə rastlaşdıqdan sonra onlar Xankəndində olan azərbaycanlıların evlərinə basqınlar təşkil etdilər. Mayor Şahbazyanın başçılığı

altında həm yerli milis idarəsində, həm də Ermənistanda çalışan milis işçilərindən ibarət dəstələr yaradıldı. Azərbaycanlıların yaşadıqları evləri yandırmaq məqsədilə bu dəstələrdən hər biri bir küçəyə nəzarət edirdi. Zavodskoy küçəsi, Puşkin küçəsi, Ü.Hacıbəyov küçəsi, Özbəkistan küçəsi, Bazarnaya küçəsi, DQMV-50 küçəsində evlərə hücum edərək müxtəlif vasitələrlə onları yandırmağa başladılar. Sabir və Lesnoy küçələrinə də hücum edən ermənilər orada müqavimətlə rastlaşdıqlarından geri çəkilməyə məcbur oldular. Daha sonra M.Paşayev, Timiryazev, Magilyevski və Admiral İsakov küçələrində də yanğınlar törətdilər. Ümumilikdə isə 59 ev yandırıldı. Sentyabr ayının 18-də 20-nə kimi ermənilər talan və qarətlərinin davam etdirdilər. Beləliklə, 1988-ci ilin sentyabr ayında ermənilər Xankəndi şəhərində yaşayan bütün etnik azərbaycanlıların hamısını zorla şəhərdən qovurlar. Xankəndində Azərbaycanın büdcəsinin pulu ilə tikilmiş bütün sənaye müəssisələrinin başçıları ermənilər idi. Həmin müəssisələr gizlin olaraq atıcı silahlar və minalar istehsal edərək bunları erməni silahlı dəstələrinə paylayırdılar. 1991-ci ilin dekabr ayında SSRİ öz mövcudluğuna son verdi. Xankəndindəki ermənilər bunu fürsət kimi bilib dərhal şəhərdə yerləşən hərbi bazaya hücum edərək oradakı bütün silahları ələ keçirdilər. Döyüş zamanı bir neçə erməni silahlısı və bir rus əsgəri öldürüldü. Bazada olan rus əsgərlərinin bir hissəsi ermənilərlə vuruşmağa razılıq verdi, buna razı olmayanlar isə Qarabağdan qovuldular. Lakin bundan daha əvvəl Xankəndində yerləşən 366-cı moto-atıcı alayın rus əsgərləri öz silahlarını ermənilərə satmağa başlamışdılar. Müharibə boyunca Azərbaycan Ordusunun bölmələri bir neçə dəfə Xankəndinə yaxınlaşsa da, şəhəri işğaldan azad etmək mümkün olmayıb.

**Milli qəhrəmanlar zirvəsi**

## *Torpaq uğrunda ölən varsa, vətəndir...*

**25. Milli qəhrəmanımız Aslanov Niyazi Şərəfxan oğlunun 55 illik yubileyi**

***"Vətənçin yaşayan, vətənçin ölən***
***Səmimi bir insan nə bəxtiyardır"*** **M. Müşfiq**



25 dekabr 1960-cı ildə Goranboy rayonunda anadan olmuşdur. Orta məktəbini burada btirdikdən sonra Rusiyanın Altay vilayətində hərbi xidmətdə olub. Erməni qəsbkarlarının fəallaşdığı 1988-ci illərdə Goranboy rayonunda özünü müdafiə dəstələri yaradılan zaman buraya ilk yazılanlardan biri də Niyazi idi. Silahlı erməni quldurlarından vətəni müdafiə etmək üçün Niyazi yoldaşlrı ilə silah axtarırdı. Onlar iki tank tapırlar onları təmir edərək işlək vəziyyətə gətirirlər və Şəfəq kəndinin ermənilərin əlinə keçməsinin qarşısı alınır. Niyazi yoldaşları ilə Şəfəq, Gürzalılar,Todan, Sarısu, Tərtər və Ağdam bölgələrində  vuruşmuşdular. 1992-ci il 4 may tarixində Tap Qaraqoyunlu kəndi yaxınlığında keçirilən döyüş zamanı komandiri İsfəndiyar Əsədovu xilas edərkən vətənimizin igid oğlu qəhrəmancasına həlak olur. Ailəli idi, iki oğlu həyatda yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı fərmanı ilə Aslanov Niyazi Şərəfxan oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Goranboy rayonu Tap Qaraqoyunlu kəndində dəfn edilmişdir. Buradakı kənd orta məktəbi qəhrəmanımızın adını daşıyır.

## Elm adamları

*“Qüvvət elmdədir, başqa cür heç kəs*
*Heç kəsə üstünlük eyləyə bilməz”*

**N. Gəncəvi**

### 31. Kimyaçı alim, akademik Yusif Məmmədəliyevin anadan olmasının 110 illiyi (1905-1961)

***“Böyüklük uzaq məsafədən daha yaxşı görünür. Y. Məmmədəliyev yüksək nüfuza malik idi. Bu onun elmi düşüncəsinin nəticəsi idi.”***

**Akademik M. Nağıyev**

***“ Y. Məmmədəliyev kimi yalnız bircə alimi olan Respublika öz akademiuyasına layiqdir”***

**Alim V. Komorov**



**Məmmədəliyev Yusif Heydər oğlu - kimyaçı alimi, kimya elmləri doktoru (1942), professor (1942), Azərb. SSR EA akademiki (1945) və prezidenti (1947-1951 və 1958-1961), SSRİ EA müxbir üzvü (1958). SSRİ Dövlət mükafatı laureatı (1946). SSRİ Ali Sovetinin (5-ci çağırış) və Azərb. SSR Ali Sovetinin (4-cü çağırış) deputatı.**

Yusif Məmmədəliyev 31 dekabr 1905-ci ildə Naxçıvan MR-in Ordubad şəhərində anadan olmuşdur. 1926-cı ildə V. İ. Lenin adına Ali Pedaqoji institutunu bitirmişdir. 1942-ci ildə kimya elmləri doktoru və professor, 1945-ci ildə Azərbaycan SSR EA-nın akademiki olmuşdur. Tam əsasla demək olar ki, Yusif Məmmədəliyev 1945 ildə Azərbaycan SSR EA-nı yaradanlardan biri olmuşdur. Respublikada elmin inkişafının bütöv bir dövrü bu dahi insanın adı ilə bağlıdır. 1945 ildə o, Azərb. SSR EA-nın akademiki, Rəyasət heyətinin üzvü və EA Neft İnstitutunun direktoru seçilmişdir. M. Mirqasımov, M. Topçubaşov, Səməd Vurğun, Şirokoqorov, Yesman, Mikayıl Hüseynovla bərabər, o, akademiyanın təsisçisi və Azərbaycanın ilk akademiki olan 15 tanınmış şəxsdən biri idi. 1951-1954-cü illərdə Azerbaycan SSR EA Fizika, Kimya və Neft bölməsinin akademik-katibi, 1954-1958 illərdə S. M. Kirov adına ADU-nun rektoru olmuşdur. Y.H.Məmmədəliyev 15 dekabr 1961-ci ildə Bakıda vəfat etmişdir. Yusif Məmmədəliyevin əsas elmi işləri, neftin və neft qazlarının katalitik emalı sahəsindədir. Azərbaycanda neft kimyasının əsasını qoymuşdur. O, müxtəlif karbohidrogenlərin katalizator iştirakı ilə xlorlaşdırılma və bromlaşdırılmasının yeni üsullarını təklif etmiş, neft qazlarını, xüsusilə də metanı əvvəllər stasionar katalizator üzərində, sonralar isə qaynar təbəqədə xlorlaşdırmaqla, karbontetra-xlorid, metilxlorid, metilen-xlorid və s. qiymətli məhsullar alınması yollarını göstərmişdir. Aromatik, parafin və sikloparafin karbohidrogenlərini doymamış karbohidrogenlərlə katalitik algilləşdirmə sahəsindəki tədqiqatı aviasiya

yanacaqlarının yüksəkkeyfiyyətli komponentlərinin sənaye miqyasında sintezinə imkan vermişdir. Məmmədəliyev Bakı neftlərinin benzin fraksiyasının katalitik aromatikləşdirilməsi, yuyucu maddələr və silisium-üzvi birləşmələr alınması, piroliz məhsullarından plastik kütlə istehsalı və Naftalan neftinin təsir mexanizminin öyrənilməsi sahələrində də mühüm işlər görmüşdür. Yüksəkixtisaslı elmi kadrlar hazırlanmasında böyük xidməti olmuşdur. Dünya şöhrətli azərbaycanlı alim Yusif Məmmədəliyev müharibənin o ağır dövründə yüksək oktanlı benzin və məşhur "Molotov kokteyli" ixtira etmişdi. Y.H.Məmmədəliyev 200-dən artıq elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir.

Əsas elmi nailiyyətləri:

O, SSRİ, Amerika Birləşmiş Ştatları, İtaliya, Fransa, İngiltərə və başqa ölkələrdə çağırılan qurultay, konqres və simpoziumlarda iştirak etmişdir.

Akademik Y. Məmmədəliyev benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi üsulunu işləyib hazırlamış, bu da II Dünya müharibəsi illərində aviasiyamızın yüksək oktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir.Faşist ordularına qarşı Sovet İttifaqının qələbəsində tank əleyhinə qarışığın kəşfinin çox böyük əhəmiyyəti oldu. Onun tərkibi Y. Məmmədəliyev tərəfindən toluolun - partlayıcı maddələr üçün xammalın - əldə edilməsi əsasında işlənib-hazırlandı. Müharibənin gedişatı zamanı, elə indi də çox az adam bilir ki, sonralar "Molotov kokteyli" adı ilə məşhurlaşan qarışığın müəllifi Azərbaycan alimidir. Öz adını Britaniyanın baş naziri U. Çörçilldən alan kokteylin kəşfi barədə SSRİ xarici işlər naziri V. Molotov məlumat vermişdi. Məhz bu səbəbdən kokteylin adı yanlış olaraq Molotov adlandırıldı. Əslində bu kokteyl Yusif Məmmədəliyevin adını daşımalı idi.

Azərbaycan Astrofizika Rəsədxanası, Əlyazmaları Fondu, Sumqayıt Kimya Elmi Mərkəzi və digər müəssisələrin təşkili Y.Məmmədəliyevin adı ilə bağlıdır. Onun yaratdığı Azərbaycan neft-kimya məktəbi respublikadan çox-çox uzaqlarda tanınır. Yusif Məmmədəliyev Lenin ordeni (1944), "Qırmızı Əmək Bayrağı" ordeni (SSRİ) (1954) və "Şərəf Nişanı" ordeni (1951), həmçinin medallarla təltif edilmişdir.

## İncəsənət

***“Eşq olsun ürəyində xalqını gəzdirən, əməllərində xalqının ruhunu yaşadan Vətən oğullarına! Belə oğullar hər yeni nəsillə birgə yenidən doğulur, ömrü xalqın ömrünə qarışır, yaşı da şərtiləşir.”***

**Xalq şairi Bəxtiyar Vahabzadə**

### 4. Rəssam və nəqqaş Mirzə Qədim İrəvaninin anadan olmasının 190 illiyi (1825- 1875)

Mirzə Qədim İrəvani 1825-ci ildə qədim Azərbaycan şəhəri İrəvanda anadan olmuşdur. Onun atası Məhəmməd Hüseyn taxta üzərində oyma sənətinin mahir ustalarından idi. İrəvanda ibtidai təhsil aldıqdan sonra burada üsuli-cədid məktəbini bitirən Mirzə Qədim Tiflisə getmiş və orada progimnaziyanı qurtarmışdır. 1840-cı illərdə İrəvana qayıdan Mirzə Qədim ömrünün sonunadək burada yaşamış və poçt teleqrafçısı vəzifəsində çalışmışdır. Mirzə Qədim İrəvaninin yaradıcılığı ilə Azərbaycan təsviri incəsənətində şərti dekorativ üslubdan yeni keyfiyyətli realist sənətə keçid başlanır. Mirzə Qədim İrəvani 1875-ci ildə vəfat edib.Yaradıcılığının ilk dövründə gənc rəssam əsasən dekorativ sənət sahəsində fəaliyyət göstərmiş, divar rəsmləri və bədii tikmələr üçün rəsm və trafaretlər çəkmişdir. Artıq bu dövrdə rəssam qızılgül, zanbaq və s. gül və çiçəklərdən mürəkkəb kompozisiyalar tərtib edir, bununla yanaşı, müxtəlif quşların canlı və real təsvirini verirdi. Klassik miniatür boyakarlığından fərqlənən bu əsərlər göstərirdi ki, rəssam Avropa boyakarlığına böyük maraq göstərir. Mirzə Qədim İrəvani bu dövrdə həmçinin kağız, şüşə və güzgü üzərində də bir neçə portret çəkmişdir. Obrazların həllinə görə sxematik, koloritinə görə şərti dekorativ xarakter daşıyan bu portretlər arasında "Süvari", "Rəqqasə", "Dərviş" portretləri xüsusilə seçilir. XIX əsrin ortalarında M.F.Axundzadə, H.B.Zərdabi, S.Ə.Şirvani və d. mütəfəkkirlərin fəaliyyət göstərdiyi mühitdə demokratik ideyaların, qabaqcıl fəlsəfi fikirlərin, yeni estetik normaların və realist ədəbiyyatın təsiri altında Azərbaycan təsviri sənəti öz inkişafını davam etdirirdi. Bu dövrdə Azərbaycan təsviri sənətinin inkişaf istiqamətini müəyyənləşdirən əsas xüsusiyyət onun orta əsr sənətinə xas olan şərti dekorativ üslubdan tədricən realist təsvir metoduna keçməsi, yeni bədii forma, yeni növ və janrlarla zənginləşməsindən ibarət idi. Bu yeni keyfiyyət saray və imarətlərin daxili tərtibatında, yəni ov, döyüş, məişət səhnələri, portret səciyyəli təsvirlərdən ibarət divar boyakarlığında, həm də müxtəlif məzmunlu əlyazmalara və litoqrafiya üsulu ilə çap edilmiş kitablara çəkilmiş illüstrasiyalarda özünü göstərirdi. Bu dövrdə yaranmış təsviri sənətin səciyyəvi üslub xüsusiyyətləri, ideya-estetik mahiyyəti və sənətkarlıq nailiyyətləri M.M.Nəvvab, Xurşidbanu Natəvan, Usta Qəmbər Qarabaği kimi dövrün görkəmli rəssamları və xalq ustalarının yaradıcılığında qabarıq əksini tapmışdır.

## 5. Xalq rəssamı Nadir Əbdürrəhmanovun anadan olmasının 90 illiyi (1925)



**Nadir Qəmbər oğlu Əbdürrəhmanov (1925-2008) — rəssam, əməkdar incəsənət xadimi, xalq rəssamı, professor**

Nadir Əbdürrəhmanov 1925-ci il dekabrın 5-də Laçında anadan olmuşdur. Rəssamlıq sənətinə həvəs orta təhsilini başa vurduqdan sonra onu Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə gətirmişdir. O, 1941-1944-cü illərdə burada, 1947-1953-cü illərdə isə Repin adına Leninqrad Boyakarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda təhsil almışdır. 1960-cı ildə rəssam Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, 1964-cü ildə isə xalq rəssamı fəxri adlarını almışdır. Sənət yolunda qazandığı ilk uğurları həmin dövrdən Nadir Əbdürrəhmanovu mahir fırça ustası kimi tanıtmışdır. Yaradıcılığına xas olan yeni forma axtarışları, sərt realist üslub və miniatür sənəti ilə səsləşən orijinal dəst-xətti, təsviri sənətdə dekorativliyə və kolorit zənginliyinə xüsusi diqqət yetirməsi rəssamın özünəməxsus üslubunun formalaşmasında mühüm rol oynamışdır. Onun müxtəlif janrlarda yaratdığı iriformatlı süjetli lövhələr qiymətli sənət nümunələri kimi rəssamlıq tariximizə daxil olmuşdur. Palitra əlvanlığı ilə diqqəti çəkən və geniş diapazona malik olan bu əsərlər Azərbaycan Dövlət İncəsənət Muzeyinin, eləcə də digər muzeylərin və qalereyaların daimi ekspozisiyaları sırasında nümayiş etdirilmişdir. Azərbaycan torpağının əsrarəngiz gözəllikləri və müasirlərin qurub yaratmaq əzmi sənətkarın yaradıcılığının başlıca ilham qaynağı olmuşdur. Rəssamın xalqımızın tarixi keçmişini rənglərin dili ilə dolğun əks etdirən tabloları vətənə məhəbbət və milli qürur hissi aşılayır. Nadir Əbdürrəhmanovun kompozisiya yığcamlığı ilə seçilən və öz emosional təsir gücü ilə yaddaqalan əsərləri gənc nəsillərin vətənpərvərlik ruhunda yetişdirilməsi baxımından da böyük əhəmiyyət kəsb edir. Nadir Əbdürrəhmanovun Azərbaycan incəsənətinin ölkəmizin sərhədlərindən uzaqlarda tanıdılmasında xidmətləri də təqdirəlayiqdir. Rəssamın əsərləri xarici ölkələrin sərgi salonlarında müvəffəqiyyətlə nümayiş etdirilmiş, sənətsevərlərin rəğbətini qazanmışdır. Onun həmçinin xarici ölkələrə yaradıcılıq səfərlərinin məhsulu kimi meydana çıxan silsilə rəsmləri Azərbaycan incəsənətinə şöhrət gətirmişdir.

Nadir Əbdürrəhmanov özünün çoxillik zəngin sənət təcrübəsini gənc rəssamların hazırlanmasına sərf edərək milli rəssamlıq məktəbinin inkişafına töhfələr vermişdir. Tanınmış fırça ustası Azərbaycan Rəssamlar İttifaqı İdarə Heyətinin sədri və Azərbaycan Ali Sovetinin deputatı kimi də səmərəli ictimai fəaliyyət göstərmişdir. Müstəqil respublikamızın ali mükafatı olan "Şöhrət" ordeninə layiq görülməsi sənətkarın fəaliyyətinə və şəxsiyyətinə ehtiramın təzahürüdür. O, 2008-ci ildə vəfat etmişdir.

## 8. Bəstəkar Tofiq Bakıxanovun anadan olmasının 85 illiyi (1930)



**Tofiq Bakıxanov – bəstəkar, Azərbaycan Respublikasının xalq artisti (1991), professor (1983).**
1930-cu ildə Bakı şəhərində anadan olub. 1953-cü ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını skripka üzrə professor A.Amitonun, 1957-ci ildə isə bəstəkarlıq üzrə professor Qara Qarayevin sinfini bitirib. 1973-cü ildə Respublikanın Əməkdar İncəsənət xadimi fəxri adına layıq görülmüşdür. 1983-cü ildə professor adı almışdır. 1991-ci ildə ona Azərbaycan Respublikasının xalq artisti adı verilib. 1996-cı ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının İncəsənət Doktoru seçilmişdir. 1994-2000-ci illərdə Abbasqulu ağa Bakıxanov adına mükafatın laureatıdır. Eləcə də 2000-ci ildə «Şöhrət ordeni» ilə təltif olunmuşdur. 1969-cu ildə Parisdə keçirilən VII beynalxalq rəqs festivalının; 1998, 2000, 2001-ci illərdə Quzey Kıbrıs Türk Cumhuriyyətində II, IV, V beynəlxalq «Bellapais» musiqi festivallarında , Moskvada, Tbilisidə, son illərdə İstanbul, İzmir, Tehran, Bolqarıstanda müəllif konsertləri ilə çıxış etmişdir.

**Əsərləri**

**Musiqili komediyalar**

- "Altılardan biri"
- "Məmmədəli kurorta gedir" - həmmüəllif N. Məmmədov
- "Qız görüşə tələsir" - həmmüəllif N. Məmmədov

**Baletlər**

- "Xəzər balladası" (1969) [4]
- "Şərq poeması" (1976)
- "Xeyir və Şər" (1990)

**Simfonik əsərlər**

- BSO üçün 5 simfoniya
- Türk simfoniyası (6cı simfoniya)
- Şərq sonatalar silsiləsi: Türk sonatası, İran sonatası, Ərəb sonatası, Azərbaycan sonatası [5]
- Skripka və fortepiano üçün 5 konsert
- Tar və simfonik orkestr üçün 4 konsert
- Violonçel və simfonik orkestr üçün 2 konsert
- Klarnet və simfonik orkestr üçün konsert
- BSO üçün "Hümayun", "Rahab", "Şahnaz", "Dügah" simfonik muğamları
- çoxlu sayda kamera-instrumental əsərlər, kamera-vokal əsərlər, mahnılar və romanslar.

**Filmoqrafiya:** Aşıq Veysəl (film, 2001), İşgüzar səfər (film, 1982),Tofiq Bakıxanov (film, 2000), Əhməd Bakıxanov (film, 2003) və s.

**8. Aktyor, xalq artisti Səməd Mövləvinin anadan olmasının 115 illiyi (1900-1962)**



Səməd Möhləvi 8 dekabr 1914-cü ildə Naxçıvanda doğulub. Gözəl və ürəyəyatımlı səsi olub. O, əsasən, opera və operetta tamaşalarında xorda oxuyub, epizodik rollarda səhnəyə çıxıb. Opera artisti olmaq arzusu ilə orta məktəbi bitirdikdən sonra Bakıya gələrək Asəf Zeynallı adına Musiqi Məktəbinə daxil olub. Diplom alandan sonra bir müddət Opera və Balet Teatrında işləyib. Burada ikinci dərəcəli partiyalar oxuyub.Aktyor yaradıcılığındakı uğurlarına görə 17 oktyabr 1964-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 1 iyun 1974-cü ildə xalq artisti fəxri adları ilə təltif olunub. 11 sentyabr 2001-ci ildə Naxçıvanda vəfat edib.

Aktyor istedadı xarakterik rollarda daha əlvan formada təcəssüm tapıb. Tipik məişət rollarını da bacarıqla oynayıb. Dərviş, Müller, Rüstəm Zal ("Şeyx Sənan", "Şeyda" və "Səyavuş", Hüseyn Cavid), Pirqulu, Həmzə, Belakurov ("Aydın", "Vəfalı Səriyyə" və "Yaşar", Cəfər Cabbarlı), İbrahim xan ("Vaqif", Səməd Vurğun), Qurban ("Pəri cadu", Əbdürrəhim bəy Haqverdiyev), Naib ağa ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Əlimərdan ("Eşq və intiqam", Süleyman Sani Axundov), Mirzə Cəlil ("Sizi deyib gəlmişəm", Anar), Gəncə hökmdarı ("Məhsəti", Kəmalə Ağayeva), Salmanov ("Toy", Sabit Rəhman), Şahmar ("Vətən", Abdulla Şaiq) rolları Məmməd Quliyevin yaradıcılığının başlıca mahiyyətini xarakterizə edən rollardır. Səsinin təravəti uzun illər itməyən aktyor müxtəlif quruluşlarda Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Nofəl və Məcnunun atası), "Əsli və Kərəm" (Keşiş) operalarında, "Məşədi İbad" (Sərvər), "Arşın mal alan" (Əsgər) operettalarında, Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (Murad) və Səid Rüstəmovun "Beş manatlıq gəlin" musiqili komediyalarında solist-aktyor kimi çıxış edib.

**Filmoqrafiya**

1. Tale yükü (film, 1997)

**14. Müğənni, xalq artisti Rəşid Behbudovun anadan olmasının 100 illiyi (1915-1989)**

***"Rəşid Behbudov nadir bir insandır, nadir şəxsiyyətdir. Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustasıdır."***

**Ulu öndər Heydər Əliyev**



**1959-cu ildə ona SSRİ xalq artisti, 1980-ci ildə Sosialist Əməyi Qəhrəmanı adı verilib. SSRİ-nin Lenin Ordeni, Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu ordenləri ilə təltif olunub, bir sıra xarici ölkələrin dövlət mükafatlarına layiq görülüb.**

Rəşid Behbudov 1915-ci il dekabrın 14-də Tiflisdə xanəndə Məcid Behbudalı oğlunun ailəsində dünyaya gəlmişdir. Anası Firuzə xanım Vəkilovlar nəslinə mənsub idi. Uşaq yaşlarından məktəb xorunda oxuyan Rəşid 1933-cü ildə Dəmiryolu Texnikumuna daxil olmuşdur. Təhsili dövründə tələbə özfəaliyyət orkestrində çalışmışdır. 1943-cü ilin sonunda Bakı kinostudiyasında Üzeyir Hacıbəyovun eyniadlı operettasının motivləri əsasında çəkilən "Arşın mal alan" filmində baş rola dəvət alır. 1946-cı ildə bu filmdəki Əsgər roluna görə Rəşid Behbudov "Stalin mükafatı" ilə təltif olunur. 1966-cı ildən musiqi və estrada sənətinin caz, balet, pantomim kimi müxtəlif janrlarını üzvi surətdə birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını təşkil etmiş və ömrünün sonunadək onun solisti və bədii rəhbəri olmuşdur. Bütün Sovet respublikaları ilə yanaşı Argentina, Bolqarıstan, Belçika, Çili, Çin, Efiopiya, Finlandiya, Hindistan, İran, İraq, İtaliya, Misir, Türkiyə və s. ölkələrdə geniş repertuarla çıxış edən R. Behbudov, Azərbaycan xalq mahnılarının və Azərbaycan bəstəkarlarının vokal əsərlərinin xarici ölkələrdə populyarlaşmasında çox böyük rol oynamışdır. Dahi sənətkar 1989-cu il iyunun 9-da Moskva şəhərində vəfat etmişdir.

**Oxuduğu mahnılar:**Alagöz, Ana, Azərbaycanım, Ayrılıq, Bakı, Bakının ulduzları, Bayatılar, Bahar sənsiz, Evləri var, Gözəlim sənsən, Küçələrə su səpmişəm, Lalələr, Sənə də qalmaz, Qızıl üzük və s.

**Filmoqrafiya:**Arşın mal alan (film, 1945), Doğma xalqıma (film, 1954), Bəxtiyar (film, 1955), Səadət yolu ilə (film, 1956) (sənədli film), Azərbaycan mədəniyyətinin baharı (film, 1959), Romeo mənim qonşumdur (film, 1963), Abşeron ritmləri (film, 1970)(tammetrajlı musiqili-bədii televiziya filmi),Toyda görüş (film, 1970) (sənədli film), Ürəkdən-ürəyə (film, 1970) (sənədli film),1001-ci qastrol (film, 1974), Rəşid Behbudov (film, 1975) (sənədli film), Azərbaycan elləri (film, 1976) (sənədli film)**,** Nəğməkar torpaq (film, 1981)**,** Rəşid Behbudov (film, 1985) (sənədli film)**,** Ürək nəğməsi (film, 1989) (sənədli film)**,** Absurdistan (film, 2008)(tammetrajlı bədii film)

## 17. Opera müğənnisi, xalq artisti Ağababa Bünyadzadənin anadan olmasının 100 illiyi (1915-1974)



1915 - Tanınmış opera müğənnisi, Xalq artisti Ağababa Balağa oğlu Bünyadzadə (1915 - 17.12.1974) Bakıda anadan olub. Opera və Balet Teatrında Azərbaycan və dünya bəstəkarlarının operalarında əsas partiyaları ifa edib: Üzeyir Hacıbəyli, "Leyli və Məcnun" (Nofəl), "Koroğlu" (Həsənxan və Alı); Reynqold Qlier, “Şahsənəm" (Xan); Coakkino Rossini, "Sevilya bərbəri" (Fiqaro); Jorj Bize "Karmen" (Eskamilyo); Cüzeppe Verdi, "Otello" (Yaqo) və s.

Cingiltili və ürəyəyatımlı bariton səsə malik idi. Yeniyetmə yaşlarından bədii özfəaliyyətdə müğənni kimi çıxış etməklə yanaşı, dram dərnəyində aktyor olub. Üzeyir bəy Hacıbəyovun qəhrəmanları Əsgərin ("Arşın mal alan") və Sərvərin ("O olmasın, bu olsun") ariyalarını oxuyub, klassik dünya operalarına maraq göstərib. Ağababa Balağa oğlu Bünyadzadə Bakıda doğulub. İyirmi üç yaşında Azərbaycan Dövlət Opera və Balet Teatrının xor heyətinə işə götürülüb. 1938 - 1939-cu illərdə Moskvadakı Qnesinlər adına Musiqi Məktəbinin vokal şöbəsində təhsil alıb. Oradan qayıdaraq opera teatrının truppasına qəbul olunub. Eyni zamanda sənət ocağının nəzdindəki studiyada həm oxu tərzini təkmilləşdirib, həm də aktyorluq sənətinin xüsusiyyətlərini mənimsəyib. Ağababa Bünyadzadənin bəstəkarlardan Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (Nofəl), "Koroğlu" (Həsənxan və Alı), Reynqold Qlierin "Şahsənəm" (Xan), Fromonotal Jak Qalevinin "Kardinal qızı" (Rudjiero), Müslüm bəy Maqomayevin "Şah İsmayıl" (Aslan şah), Niyazinin "Xosrov və Şirin" (Şapur), Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" (Mərdan), Zaxari Paliaşvilinin "Daisi" (kiazo), Coakkino Rossininin "Sevilya bərbəri" (Fiqaro. Librettonun tərcüməçiləri Məmməd Səid Ordubadi və Əfrasiyab Bədəlbəylidir), Jorj Bizenin "Karmen" (Eskamilyo. Librettonun tərcüməçisi Nigar Rəfibəylidir), Pyotr Çaykovskinin "Mazepa" (koçubəy), Əfrasiyab Bədəlbəylinin "Nizami" (Hökmdar), Cahangir Cahangirovun "Azad" (Yavər), Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" (Şahvələd), Cüzeppe Verdinin "Aida" (Amonasro), "Otello" (Yaqo), "Traviata" (Jorj Jermon), "Riqoletto" (Marullo), Vasif Adıgözəlovun "Ölülər" (Şeyx Nəsrulla) operalarında ifa etdiyi partiyalar öz dramatik vüsəti, psixoloji tamlığı, səslə hərəkətin üzvi vəhdəti ilə seçilib. Ağababa Bünyadzadə Opera və Balet Teatrında 1967-ci ildə Müslüm bəy Maqomayevin "Şah İsmayıl" operasını tamaşaya hazırlayıb. Milli opera sənətimizin inkişafındakı səmərəli xidmətlərinə görə 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının əməkdar artisti, 30 aprel 1955-ci ildə xalq artisti fəxri adlarına layiq görülüb.

**Filmoqrafiya**

1. Doğma xalqıma (film, 1954)
2. Üzeyir ömrü (film, 1981)

## Yubilyar yazıçı və şairlər

1. **Yazıçı, publisist, tərcüməçi Rafiq Savalanın anadan olmasının 75 illiyi (1940)**



**Ağayev Rafiq İmanqulu oğlu (d.1 dekabr 1940) — nasir, publisist, tərcüməçi, 1988-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Jurnalistlər Birliyinin üzvü (1976), Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatı laureatı (1971)**

Ağayev Rafiq İmanqulu oğlu 1940-cı il dekabrın 1-də Bakı şəhərində fəhlə ailəsində anadan olmuşdur. İbtidai təhsilini Bakıda, orta təhsilini Neftçalada almışdır. Eyni zamanda neft mədənlər idarəsinin elektrik quraşdırma sexində fəhlə işləmişdir (1956-1958). ADU-nun filologiya fakültəsində təhsilini davam etdirmişdir (1958-1964). Əmək fəaliyyətinə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində Azərbaycan radiosu təbliğat və xəbərlər baş redaksiyasında müxbir kimi başlamışdır (1964-1966). Orada kiçik redaktor, böyük redaktor, siyasi icmalçı (1966-1975), radionun uşaqlar üçün proqram baş redaksiyasının baş redaktoru (1975-1996) vəzifələrində çalışmışdır.

Hazırda teleşirkətdə "Səhər" proqramının baş redaktor müavini vəzifəsində işləyir (1996-cı ildən). Hər bazar günü uşaqların maraqla dinlədikləri "Biləyən" radio verilişinin yaradıcısı, müəlliflərindən biri və redaktoru olmuşdur (1975-ci ildən). Ədəbi fəaliyyətə 60-cı illərdən başlamışdır. Onun hekayələri, felyetonları, publisist yazıları və tərcümələri dövri mətbuatda müntəzəm çap olunur, efirdə səslənir. Son illər televiziya və dövri mətbuatda islam tərbiyəsi mövzusunda çıxışlar edir, "İmam Əli" (22 seriya) və "İmam Rza" (29 seriya) fılmlərinin dublyajına başçılıq edir.

**Əsərləri**

1.Nigarın nağılları. Bakı: Gənclik, 1979, 95 səh.

2.Ağ qızılın nağılı. Bakı: Gənclik, 1985, 35 səh.

**Tərcümələri**

- 1.L.N.Tolstoy. Əsərləri. XII c. Bakı: Yazıçı, 1983, 233 səh.
- 2.L.N.Tolstoy. Əsərləri. XVI c. Bakı: Yazıçı, 1984, 292 səh. (şərikli)
- 3.V.V.Ovçinnikov. Palıd kökləri. Bakı: Azərnəşr, 1985, 300 səh.
- 4.M.M.Zoşşenko. Lenin haqqında hekayələr. Bakı: Gənclik, 1988, 40 səh.
- 5.F.Məmmədova. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Elm, 1990, 256 səh.

**Filmoqrafiya**

1. Dağlı çörəyi (film, 2007)

**4. Ədəbiyyatşünas, dilçi, dramaturq Kamal Abdullanın anadan olmasının 65 illiyi (1950)**



Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi; Türk Dil Qurumunun həqiqi fəxri üzvü; Ukrayna Beynəlxalq Kadr Akademiyasının həqiqi üzvü (akademiki); Rus PEN-klubunun (Moskva) üzvü; MŞPU-nun (Moskva Şəhər Pedaqoji Universitetinin) fəxri doktoru; Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü (2007-ci il aprel ayından); Rusiya Federasiyasının Puşkin medalı (29 noyabr 2007-ci il); 2007-ci ildə Azərbaycanda Humay mükafatını, 525-ci qəzetin "İlin romanı" adlı mükafatını, Monitorinq qrupunun "İlin ədəbiyyat adamı" adını almışdır. 2009-cu ildə Azərbaycanla Çexiya arasında münasibətlərin inkişafında mühüm roluna görə "Karl Kramej" medalı ilə təltif edilmişdir. 2009-cu ildə Polşa Respublikası prezidenti Lex Kaçinski tərəfindən bu dövlətin "Böyük Xaç" kavaler ordeni ilə də təltif olunub, bundan əlavə Polşanın müsbət simasının formalaşmasındakı mühüm xidmətlərinə görə Polşa Respublikasının Xarici İşlər Nazirliyinin Xüsusi Diplomuna layiq görülüb. 2010-cu ildə Dədə Qorqud Milli Fondunun "Dədə Qorqud Milli Mükafatı" "Azərbaycan dünyası" beynəlxalq jurnalının "Vətən övladı" qızıl medalı ilə təltif edilmişdir. 2010-cu ildə III Nəsimi Milli Ədəbiyyat Müsabiqəsində "Yarımçıq əlyazma" romanına görə "Son 10 ilin ədəbi əsəri" mükafatını almışdır. 2012-ci ildə Poltava İqtisadiyyat və Ticarət Universitetinin fəxri professoru adına layiq görülüb. 2013-cü ildə Sofiya Universitetinin ali mükafatı – "MAVİ LENT FƏXRİ NİŞANI" təqdim edilib.

1950-ci il dekabrın 4 – də Bakıda ziyalı ailəsində doğulub. 1968-1973-cü illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. 1973-1976-cı illərdə SSRİ EA Dilçilik İnstitutunun "Türk dilləri" şöbəsinin əyani aspirantı olub.1977-ci ilin yanvar ayında Moskvada "Sintaktik paralelizm" ("Kitabi-Dədə Qorqud" dastanlarının dili üzrə) adlı namizədlik dissertasiyası müdafiə etmişdir. 1984-cü ildə Bakıda "Azərbaycan dili sintaksisinin nəzəri problemləri" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. Türk xalqlarının qədim epik ədəbiyyatları sahəsində araşdırmaların müəllifidir. Dilçiliyə dair "Azərbaycan dili sintaksisin nəzəri problemləri" (Bakı, Maarif, 1999), "Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər", "Azərbaycanda rus dili", "Dilçiliyə səyahət və yaxud dilçi olmayanlar üçün dilçilik" və s.

**Əsərləri:** Unutmağa kimsə yox (1995),Qəribədi, deyilmi?! (1998), Ruh (1998), Kədərli seçmələr (2002), Bir, iki, bizimki! (pyes) (altı dildə) (2003),Yarımçıq əlyazma (roman) (2004), Tarixsiz gündəlik (2005), Sehrbazlar dərəsi (2006) Hekayələr (2008), Labirint (2012), Nar çiçəkləri (2014) və s.

**Tərcümələri**

Gümüş dövrün sirləri. Bakı: Mütərcim, 2001

**13. Şair, publisist Əjdər Qiyaslının anadan olamsının 80 illiyi (1935)**



Əsgərov Əjdər Xanlar oğlu (Əjdər Qiyaslı) 1935-ci il dekabrın 13-də Qarabağın axar-baxarlı, dilbər güşələrindən birində - Ağdam rayonunun Qiyaslı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda təhsil alıb. 1960-cı ildə Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunda elmi işçi vəzifəsində işləməyə başlayıb. Həmin institutda aspiranturaya daxil olub, dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi, alimlik dərəcəsi alıb. 1967-ci ilin sentyabrından indiki Azərbaycan Dövlət İqtisad Universitetində müəllim, baş müəllim, dosent vəzifələrində işləmiş və işləyir. İndi orada 44 ilə yaxındır ki, "İqtisadi nəzəriyyə" fənnindən dərs deyir. Əjdər Qiyaslı 50 ildən çoxdur ki elmi-pedaqoji və ədəbi sahədə çalışır. Onun iqtisadiyyatın aktual problemlərinə dair 8 kitabı, 85-dən çox elmi əsəri, 150-dən artıq elmi-publisist məqalələri çap olunmuşdur. Hələ müdafiə etməmişdən əvvəl "Azərbaycan gəncləri"qəzetində "İqtisadi bilik bolluğun açarıdır" başlığı altında çap olunan çoxsaylı seriya məqalələri iqtisadçılarda və cəmiyyətdə dərin maraq doğurmuşdur. Əjdər Qiyaslının yaradıcılığı qoşa qanadlıdır. O, yalnız kamıl iqtisadçı alim-pedaqoq deyil, həm də istedadlı şair kimi tanınır. Onun hələ 1954-cü ildə orta məktəbdə oxuyanda "Vətənimdir" adlı ilk şeiri mətbuatda işıq üzü görmüşdür. İndi iqtisadçı alim-şairin "Doğma torpaq", "İnsanlara inanıram", "Günəşli nəğmələr", "Yaxşı adam görəndə", "Ömür karvanı", "Ömrün qoşa qanadı", "Mənim dünyam", "Yaşanan günlər", "Səmalardan gələn səda", "Yaradan yaşayır, yaranan qalır", "Dünyanı yaşadan Günəş" və "İqtisad elminin kəhkəşanında" adlı 12 şeirlər kitabı, qəzet və jurnallarda 350-dən çox şeiri çap olunmuşdur. Şairin şeirlərinə S.Ələsgərov, R.Mirişli, M.Əhmədova, C.Musayev, C.Quliyev kimi görkəmli bəstəkarlar çoxsaylı populyar mahnılar bəstələmişlər. Onun şeirləri Türkiyədə, Təbrizdə, Moskvada, Daşkənddə çap olunmuşdur. Əjdər Qiyaslı ilk dəfə olaraq "Dünyanın himni"ni yazmış, onu 3 dildə - Azərbaycan, rus və ingilis dillərində çap etdirmişdir; himnin sözlərinə tanınmış bəstəkar C.Quliyev mahnı bəstələmişdir.

Əjdər Qiyaslı yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasına uzun müddət səmərəli elmi-pedaqoji fəaliyyətinə görə və Universitetin 75 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının Fəxri Fərmanı ilə təltif edilmişdir. O, həm də "Araz" Ali Ədəbi mükafatı və "Qızıl Qələm" mükafatı laureatıdır. Şair Azərbaycan Yazıçılar Birliyinin fəal üzvüdür. O, 2002-ci və 2004-cü illərdə Məşhəd ziyarətində olmuşdur.

Belə şərəfli ömür yolu keçən tanınmış iqtisadçı alim-şair Əjdər Qiyaslı bu gün də gənclik eşqilə yazıb-yaradır.

## 17. Xalq şairi Osman Sarıvəllinin anadan olmasının 110 illiyi (1905-1990)

***“Osman Sarıvəlli xalqımızın böyük idrak və  qəlb xəzinəsinə bələddir. Onun şeirlərində xalqımızın nəhəng mübarizəsindən doğan ali fikirlər, uca xəyallar və çox nəcib duyğuların unudulmaz tərənnümünü görürük.”***

**Xalq şairi Səməd Vurğun**



Xalq şairi Osman Abdulla oğlu Qurbanov(Osman Sarıvəlli ) 17 dekabr 1905-ci ildə Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. 1926-cı ildə Qazaxda Müəllimlər Seminariyasını, 1929-1932-ci ildə Moskva Dövlət Universitetinin filologiya fakültəsində təhsil almışdır.1932-1935-ci illərdə Bakı Pedaqoji texnikumunda müəllim, 1939-1940-cı illərdə Bakı Teatr texnikumunda müdir, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat institutunda müdir müavini, «Ədəbiyyat qəzeti»nin redaktoru, Uşaqgəncnəşrdə redaktor, Azərbaycan Yazıçılar İttifaqında şeir üzrə məsləhətçi vəzifələrində işləmişdir. 1944- 45-ci illər Sovet-Alman müharibəsində iştirak etmişdir. Gənc yaşlarında muzdurluq etmiş, zəhmətlə pul qazanmışdır. Ağır gənclik illəri Osman Sarıvəllinin şerinə də təsir etmişdir. "Mənim tərcümeyi-halım", "Qocanın hekayəti", "İşıq" və başqa şeirlərində öz əksini tapmışdır.

Sarıvəlli şair yaradıcılığında aşıq poeziyasına geniş yer vermişdir. 1939-45-ci illərdə, sovet-fin və sovet-alman müharibələri illərində "Qan qardaşı", "Müharibənin ilk günü", "Bütün bunlar yaşayacaq", və s. müharibə illərinin ağır həyatını əks etdirən şeirləri poeziyamızın ən yaxşı nümunələrindəndir. O, Güney Azərbaycan mövzusunda "Dəvə karvanı", "Birinci dərs", "Son qar" və s. əsərlər yazmışdır. Müharibədən sonra Sarıvəlli qəzetçiliklə məşğul olur, satirik şeirlərlə çıxış edirdi. Ədəbiyyatşünaslıq sahəsində bir sıra əsərlərin müəllifidir. Sarıvəlli  tərcüməçi kimi də özünü sınamış, rus ədəbiyyatının parlaq nümunələrini azərbaycan dilinə tərcümə etmişdir. Sarıvəlli 1990-cı ildə iyulun 3-də Bakıda vəfat etmiş, Qazaxda dəfn edilmişdir.

**Əsərləri:** “Dəmir sətirlərim” (1934), “Bənövşə” (1940), “Şairin hədiyyəsi” (1943),”Gətir oğlum, gətir” (1943), “Gənclik eşqi” (1946),” Şerlər” (1948), “Bahar çiçəkləri” (1949),”Yeni dünyanın qapısı” (1950),” Balaca dostlar” (1955), “Misirli qardaşlar” (1958), “ Seçilmiş əsərləri” (1958), “İqlimdən iqlimə” (1963), “Ömrün keçən günləri” (1964), “Mənimlə dünyanı gəzən mahnilar” (1966), “Sabahı yaradanlar” (1970), “Qüdrətli şair, ustad sənətkar” (1971), “Seçilmiş əsərləri” : 3 cilddə. I c. (1971), “Seçilmiş əsərləri” : 3 cilddə. II c.(1973), “Aşıq ürəkli şair, şair ürəkli aşıq” (1973), “Seçilmiş əsərləri” : 3 cilddə. (1975), “Hər kim yüz il yaşamasa”  (1976), “Mən sabaha gedirəm” (1979), “Bizim babalar, bizim nəvələr” (1980), “Seçilmiş əsərləri “: 2 cilddə. I c. (1986),” Seçilmiş əsərləri” : 2 cilddə. II c.(1987), “Kür qırağında” (1987) və s.

**Yazıçı Əyyub Abbasovun anadan olmasının 110 illiyi (1905-1957)**



**Əyyub Cəbrayıl oğlu Abbasov - Yazıçı, Azərbaycan SSR əməkdar incəsənət xadimi**.

Abbasov Əyyub Cəbrayıl oğlu 1905-ci ildə keçmiş Zəngəzur qəzasının Şəki (sisyan) kəndində anadan olmuşdur. İki il kənd məktəbində oxumuşdur. Sonralar Naxçıvanda Pedaqoji texnikumu btirib, 1928-ci ildə Bakıda Pedaqoji instituta daxil olmuşdur.

1931-ci ildə oranı qurtaran Ə. Abbasov iki il Naxçıvan Pedaqoji texnikumunda dərs hissə müdiri, 1932-33-cü illərdə isə rayon maarif şöbəsinin müdiri vəzifələrində və 1933-34-cü illərdə «Kommunist» qəzeti redaksiyasında çalışmışdır. Ə. Abbasov 1934-37-ci illərdə Leninqradda redaktorluq və tərcüməçilik kursunda oxumuşdur. O, 1937-39-cu illərdə Azərnəşrdə şöbə müdiri, 1939-41-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət işləri üzrə komitədə işləmiş, 1943-47-ci illərdə Azərbaycan SSR KP MK-də təlimatçı, 1947-48-ci illərdə Bakı Teatr məktəbinin direktoru, 1949-57-ci illərdə isə Uşaqgəncnəşrdə şöbə müdiri vəzifələrində işləmişdir. Əyyub Abbasov 1957-ci iln dekabrında vəfat etmişdir.

**Əsərləri:** “Vətən suları” (1949), “Pyeslər” (1950),”Bahar mahnısı” (1951), “Nailə”(1951), “Doğma vətən torpağında” (1952), “Qırmızı bayraq altında” (1954), “Ağ çadırlar” (1955), “Məlik Məhəmməd” (1955), “Könül şikəstəsi” (1956), “Zəngəzur” I kitab (1956), “Zəngəzur” II kitab (1957), “Seçilmiş əsərləri” (1962), “Sevinc” (1968) və s.

**20.Ədəbiyyatşünas, tənqidçi Atababa Musaxanlının anadan olmasının 110 illiyi (1905-1941)**



Musaxanlı Atababa Daşdəmir oğlu – tənqidçi, ədəbiyyatşünas,1934-cü ildən AYB- n üzvü.1905-ci il dekabrın 20-də Bakıda anadan olmuşdur. Ali Pedaqoji İnstitutunun dil və ədəbiyyat şöbəsində təhsil almışdır (1921-1924). Bakı Pedaqoji texnikumunda və 18 saylı şəhər məktəbində dil və ədəbiyyat müəllimi işləmişdir. Ədəbi fəaliyyətə şeirlə başlamışdır. Hekayə və mənsur şeirlər yazsa da yaradıcılığında tənqid və ədəbiyyatşünaslıq başlıca yer tutmuşdur.Onun 1920-1930-cu illərdə yazdığı «Şaiq – şair və müəllim», «Ədəbiyyatımız tarixində Sabir», «Aran köçü və müəllifi», «Mirzə Fətəlinin ictimai-tərbiyəvi mülahizələri», «Azərbaycan ədəbiyyatının inkişafı və xüsusiyyətləri» və s. məqalələri, «Kitabi-Dədə Qorqud»a, eləcə də klassik ədəbiyyata dair tədqiqləri milli ictimai-ədəbi fikrin inkişafı üçün faydalı idi, onu zənginləşdirirdi. 1941-ci il avqustun 14-də cəza tədbirləri dövründə həlak olmuşdur.

**22. Yazıçı, kinossenarist Həsən Seyidbəylinin anadan olmasının 95 illiyi (1920-1980)**



**Həsən Mehdi oğlu Seyidbəyli (22 dekabr 1920-25 iyun 1980) - kinorejissor, ssenarist, Azərbaycanın xalq artisti.** Həsən Seyidbəyli 1938-1939-cu illərdə Leninqrad Kino Mühəndisləri İnstitutunda, 1943-1951-ci illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun kinorejissorluq fakültəsində təhsil almışdır. "Azərbaycanfilm" kinostudiyasında kinorejissor, 1963-1980-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi və sədri vəzifəsində işləmişdir. "İmtahan", "Qızıl axtaranlar", "Bağlı qapılar" adlı dram əsərləri Azərbaycanda və xaricdə səhnəyə qoyulmuşdur. "Kür sahillərində" (1953), "Telefonçu qız" (1960) povestləri, "Cəbhədən-cəbhəyə" (1961), "İllər keçir" (1973, İ.Qasımovla birgə), "Tərsanə" (1975), "Çiçək" (1978) romanları, "Dəniz cəsurları sevir" (1954), "Sən nə üçün yaşayırsan" (1959, hər ikisi İ.Qasımovla birgə) pyesləri müasirlərinin əməyindən, mənəvi-əxlaqi saflığından bəhs edir. "Uzaq sahillərdə" (1954, İ.Qasımovla birgə) romanı Sovet İttifaqı Qəhrəmanı M.Hüseynzadəyə həsr olunmuşdur. Əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir. Həsən Seyidbəyli ictimai xadim kimi də Azərbaycan kinosunun inkişafına böyük təkan vermiş, 1963-1975-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin I katibi, 1975-1980-ci illərdə sədri vəzifəsində çalışmışdır. Filmləri Ümumittifaq Kino festivallarında mükafat və diplomlara layiq görülmüşdür. Azərbaycanın xalq artistidir.

**Filmoqrafiya:**Bakıdan Göy-gölədək (film, 1947), Bizim Cəbiş müəllim (film, 1969), Böyük yol (film, 1949), Cazibə qüvvəsi (film, 1964)(film, kinoalmanax), Çətirimiz buludlardır (film, 1976), Doğma xalqıma (film, 1954), Əyri yolla qazanc (film, 1960), Xoşbəxtlik qayğıları (film, 1976)**,** İmadəddin Nəsimi (1973) Kamillik (film, 1979), Kinorejissor Həsən Seyidbəyli (film, 2002), Qaraca qız (film, 1966)(film, kinoalmanax),Qızmar günəş altında (film, 1957),Quba bağlarında və Tərtərçay vadisində (film, 1949), Möcüzələr adası (film, 1963), Nəsimi (film, 1973), O qızı tapın (film, 1970), Onun bəlalı sevgisi (film, 1980), Ömrün səhifələri (film, 1974), Rənglərdə yaşayan kino (veriliş, 2009), Sağ ol, dostum (film, 1980), Sən niyə susursan? (film, 1966), Sovet Azərbaycanı (film, 1972),Telefonçu qız (film, 1962),Toral və Zəri (film, 1979),Uzaq sahillərdə (film, 1958) və s.

## 25. Şair Zülfüqar Şahsevənlinin anadan olmasının 65 illiyi (1950)



**Qarayev Zülfüqar Qubad oğlu - şair, publisist, 1989-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Jurnalistlər Birliyinin üzvü (1983).**

Zülfüqar Şahsevənli 1950-ci il 25 dekabrda Beyləqan rayonunun Şahsevən kəndində anadan olmuşdur. Burada Gəray Əsədov adına kənd orta məktəbini bitirmişdir (1969). ADU-nun jurnalistika fakültəsində təhsilini davam etdirmişdir (1973-1978). "Gənclik" nəşriyyatında redaktor, böyük redaktor işləmişdir (1979-1999). Bədii yaradıcılığa erkən başlamışdır. İlk "Çinar" şeri "Yüksəliş" rayon qəzetində, "Şahsevənə yolun düşsə" şeiri isə "Bakı" axşam qəzetində 1969-cu ildə dərc olunmuşdur. Bundan sonra dövri mətbuatda vaxtaşırı çıxış etmişdir. "Çinar pöhrələri" (1979), "Yaşıl budaqlar" (1981), "Bir bayraq altında" (1982), "Gənc istedadlar" (1984), "Dünyamız ağ göyərçin" (1984) və sair toplularda şeirləri çap edilmişdir.

Bədii tərcümə ilə də ardıcıl məşğul olur. Rus, Ukrayna, kabardin-balkan, tacik və özbək ədəbiyyatından seçmə nümunələri doğma dilimizə çevirmişdir. Azərbaycan televiziyasında məktəblilər üçün "Kitab evi" verilişinin aparıcısı və ssenari müəllifi olmuşdur (1986-1988). Azərbaycan LKGİ MK-nın Fəxri fərmanına layiq görülmüşdür (1984).

**Əsərləri**

1.Kimsə tutub gəlir işığımızı. - Bakı: Yazıçı, 1985. - 54 s.
2.Təbriz qatarı. – Bakı : Gənclik, 1988. - 88 s.
3.Tənha qadın. – Bakı : Şirvannəşr, 1997. - 260 s.
4.Üzü sabahlara. – Bakı : Şirvannəşr, 1998. - 280 s.

Tərcümələri (ruscadan)

Ubeyd Rəcəb. Sehrli çəkmələr. – Bakı : Gənclik, 1984. - 68 s.

**25. Yazıçı Yusif Səmədoğlunun anadan olmasının 80 illiyi (1935-1998)**

***"Yusif Səmədoğlu Azərbaycan xalqının böyük sənətkarı ölməz Səməd Vurğunun övladı və ədəbi xələfi kimi bir tərəfdən klassik irsimizə istinad edən, digər tərəfdən müasir Avropa ədəbi ənənələrindən bəhrələnmiş yaradıcılığı ilə milli ədəbiyyatımızda böyük iz buraxmış, oxucuların dərin hörmət və məhəbbətini qazanmışdır.Yüksək sənətkarlıq nümunəsi olan əsərləri Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda belə tanınır, böyük maraqla oxunur. O, vətənimizin azadlığı və müstəqilliyi uğrunda göstərdiyi ictimai – siyasi fəaliyyəti ilə Azərbaycanda milli azadlıq hərəkatının inkişafında, demokratiyanın, insan hüquqlarının bərqərar olmasında mühüm rolu olan sənətkarlardandır."***

**Ulu öndər Heydər Əliyev**



**Vəkilov Yusif Səməd oğlu - nasir, 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan komsomolu mükafatı laureatı (1970), Azərbaycanın Əməkdar İcnəsənət xadimi (1980), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990)**

Yusif Səmədoğlu 1935-ci il dekabrın 25-də Bakı şəhərində anadan olmuşdur. Moskvada Yazıçılar İttifaqı nəzdində olan M.Qorki adına Ədəbiyyat institutuna daxil olmuşdur (1953). Həmin İnstitutun IV kursundan ADU-nun filologiya fakültəsinin beşinci kursuna dəyişilmişdir (1957-1958). "Azərbaycan " jurnalı redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri (1960-1965), C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kinostudiyanın ssenari redaksiya heyətinin üzvü (1965-1969), baş redaktoru, "Azərbaycanfilm" kinostudiyasının direktor müavini (1969-1976), "Ulduz jurnalının baş redaktoru (1976-1987), "Azərbaycan" jurnalının baş redaktoru (1987-ci ildən) vəzifələrində işləmişdir. Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (nəsr üzrə katib) seçilmişdir (1991). "220 saylı otaq" (1960), "Qalaktika" (1973), "Qətl günü" (1987) kitablarının müəllifi olmuşdur. 1998-ci il avqustun 17-də vəfat etmişdir.

**25. Ədəbiyyatşünas, tənqidçi Teymur Əhmədovun anadan olmasının 85 illiyi (1930)**



**Əhmədov Teymur Əkbər oğlu — tənqidçi, ədəbiyyatşünas, publisist, professor**.

Teymur Əhmədov 25 dekabr 1930-cu ildə Şəmkir şəhərində anadan olmuş, 1936-cı ildə ailəlikcə valideynlərinin vaxtilə deportasiya olunduğu İrəvana köçmüşdür. 1949-cu ildə Qərbi Azərbaycanın Zəngibasar (indiki Masis) rayonunda orta məktəbi qızıl medalla bitirmiş, təhsilini Bakı Dövlət Universitetinin filologiya fakültəsində davam etdirmişdir (1949-1954).1961-1964-cü illərdə AEA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunda aspirantura təhsili almış, "Nəriman Nərimanovun dramaturgiyası" mövzusunda namizədlik (1966), "Nəriman Nərimanovun yaradıcılıq yolu" mövzusunda doktorluq işi müdafiə etmişdir. 1984-cü ildə nəşr edilən "Nəriman Nərimanov" kitabı rus, ingilis, fransız və ərəb dillərində kütləvi tirajla nəşr edilib.

1965-1968-ci illərdə "Azərbaycan" jurnalı redaksiyasında şöbə müdiri, 1968-ci ildə AEA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş elmi işçi, Cənubi Azərbaycan ədəbiyyatı şöbəsində müdir müavini (1968-1990), 1988-ci ildən aparıcı elmi işçi olmuşdur.1990-1991-ci illərdə "Vətən həsrəti", 1992-1993-cü illərdə "Hikmət", "Yeni fikir" qəzetlərinin baş redaktoru işləmişdir. 1996-cı ildən Ədəbiyyat İnstitutunda Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, 1995-ci ildən "Respublika" qəzetinin baş redaktorudur. Səmərəli əməyi dövlət tərəfindən yüksək dəyərləndirilərək Azərbaycan Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı (1982), akademik Yusif Məmmədəliyev adına mükafat və medalla qiymətləndirilmiş, 1996-cı ildə "İlin layiqli ziyalısı" fəxri adına layiq görülmüş, 2002-ci ildə "Tərəqqi" medalı ilə təltif edilmişdir.Teymur Əkbər oğlu Əhmədov ilk gənclik illərindən bədii yaradıcılıqla da məşğul olmuş, "Ülkər" adlı şeir və hekayələr kitabı 1961-ci ildə İrəvanda işıq üzü görmüşdür. "Dostluq nəğməkarı", "Nəriman Nərimanovun dramaturgiyası", "Nəriman Nərimanov", "Vedibasarın qanlı-qadalı günləri", "Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918-1920-ci illər)", "Mirzə İbrahimov" və s. monoqrafiyaları dərin oxucu marağı qazanıb. "Azərbaycan sovet yazıçıları (ədəbi sorğu kitabı)" (1987), "Azərbaycan yazıçıları (Ensiklopedik məlumat kitabı)" (1995) da onun məhsuldar əməyi sayəsində araya-ərsəyə gəlib.

**Kitabları**: “Azərbaycan sovet yazıçıları” (1987), “Nəriman Nərimanovun yaradıcılıq yolu” (1990), “Vedibasarın qanlı – qadalı günləri” (2000), “Erməni xəyanəti və ya Andranik Ozanyanın qanlı əməlləri (1918 – 1920- ci illər) (2001), “Böyük sənət bahadırı” (2001), “Mirzə İbrahimov” 2001, “Ədəbi – bədii fikir tarixindən” (2001),” Abdulla Şaiq”(2010), “Azərbaycan yazıçıları XX-XXI yüzillikdə” (ensiklopedik məlumat kitabı) (2011) və s.

## 25. Şair, publisist Knyaz Aslanın anadan olmasının 55 illiyi (1960)



**Aslan Knyaz İlyas oğlu — publisist, şair.**
Knyaz İlyas oğlu Aslan 1960-cı il dekabrın 25-də Gürcüstan Respublikası Başkeçid rayonunun Hamamlı kəndində anadan olub. 1968-1979-cu illərdə Hamamlı kənd orta məktəbini qızıl medalla bitirib. 1979-1981-ci illərdə Hamamlı kənd orta məktəbində katib-kargüzar vəzifəsində işləyib. 1981-1983-cü illərdə Bakı Mədəni-Maarif Texnikumunda (indiki Bakı Humanitar Kollecində), 1983-1988-ci illərdə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində, 1985-1987-ci illərdə Bakı Dövlət Universitetinin İctimai peşələr fakültəsinin jurnalistika bölməsində, 1987-1989-cu illərdə Azərbaycan Jurnalistlər Birliyi nəzdində Jurnalist Sənətkarlığı İnstitutunda, 1994-1998-ci illərdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində təhsil alıb və bu təhsil müəssisələrini fərqlənmə diplomu ilə bitirib. 1990-1993-cü illərdə Bakı Dövlət Universitetinin aspiranturasında təhsil alib.

1992-1995-ci illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində "Azərbaycan Ordusu" qəzetinin müxbiri, Məxsusi müxbirlər şöbəsinin redaktoru və "Hərbi Nəşriyyat"ın redaktoru işləyib. Ermənistan-Azərbaycan müharibəsi zamanı döyüş tapşırıqlarını yerinə yetirmək üçün dəfələrlə ön cəbhə xəttinə göndərilib, operativ hərbi informasiyalar hazırlayıb. Qarabağ uğrunda aparılan savaşların iştirakçısıdır. Qarabağ müharibəsi veteranıdır. 1988-1990-cı illərdə Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasında laborant, 1993-1994-cü illərdə müəllim, 1994-2006-cı illərdə baş müəllim vəzifələrində çalışıb. 1995-2004-cü illərdə Azərbaycan MEA Beynəlxalq Münasibətlər İnstitutunun (əvvəllər Milli Münasibətlər İnstitutu adlanırdı) və Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi olub. 2004-cü ildə "Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək pedaqoji elmlər namizədi (pedaqogika üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi alıb. 2006-cı ildən Bakı Dövlət Universitetinin dosenti və doktorantıdır. "Azərbaycan ədəbiyyatı klassiklərinin irsində kitab və mütaliə məsələləri" mövzusunda doktorluq dissertasiyası üzərində çalışır. 2012-ci ilin yanvar ayında Bakı Dövlət Universiteti Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müdiri seçilib, hazırda həmin vəzifədə çalışır.1998-ci ildən Xəzər Universiteti Humanitar və Sosial Elmlər fakültəsinin dosentidir. Müxtəlif illərdə "Bakı Universiteti", "Azərbaycan gəncləri", "Mübarizə", "Mühakimə", "Ülfət", "Səhər", "Azərbaycan Ordusu", "Borçalı", "Respublika", "Elturan" ("Milli Məsələlər") kimi qəzet və jurnallarda müxbir, redaktor və baş redaktor vəzifələrində işləyib. 1983-1990-cı illərdə Azərbaycan Dövlət Radiosunun "Gənclik" və Cənubi Azərbaycan redaksiyaları ilə sıx əməkdaşlıq edib, silsilə verilişlər hazırlayıb. 1998-2008-ci illərdə Xəzər Xəbər jurnalının baş redaktor müavini vəzifəsində çalışıb. 2001-ci ildən "Cəngi" ədəbi-bədii məclisinin yaradıcılarından və rəhbərlərindən biridir. 2007-2008-ci illərdə "Göyqurşağı" rəngli uşaq jurnalının baş redaktoru işləyib. Hazırda "Borçalı"

qəzetinin redaktoru, "Borçalı" ictimai-siyasi və bədii-publisistik jurnalının redaktoru, Azərbaycan MEA Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbi əlaqələr" toplusunun baş redaktor müavini, Bakı Dövlət Universitetində nəşr olunan "Kitabxanaşünaslıq və informasiya" elmi-nəzəri və praktik jurnalının baş redaktor müavini, "Kitabxana.az" çap və elektron jurnalının redaktoru, "Səhər" müstəqil ictimai-siyasi qəzetinin şöbə müdiri, Xəzər Xəbər jurnalının redaksiya heyətinin üzvü, "Kitabxanaşünaslıq və biblioqrafiya" elmi-nəzəri jurnalının redaksiya heyətinin üzvü, "3-cü baxış" Analitik-İnformasiya Agentliyinin redaksiya heyətinin üzvüdur. 1000-ə yaxın elmi, elmi-kütləvi, ədəbi-publisistik məqalənin, 5 monoqrafiyanın, 30-a yaxın kitabın müəllifidir. Bir çox elmi, publisistik və bədii kitabların, o cümlədən monoqrafiya, dərslik və dərs vəsaitlərinin ön sözünün müəllifi, rəyçisi və redaktorudur. Şeirlərinin bir hissəsi rus, ingilis və alman dillərinə tərcümə olunub. A.Puşkin, M.Lermontov, S.Yesenin, T.Şevçenko və başqa məşhur şairlərin əsərlərini Azərbaycan dilinə uğurla tərcümə edib.1989-cu ildən SSRİ Jurnalistlər Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin, 1992-ci ildən Azərbaycan Aşıqlar Birliyinin, 1998-ci ildən Azərbaycan Yazıçılar Birliyinin, 2003-cü ildən Azərbaycan Mətbuat Şurasının üzvüdür. 2011-ci ildə Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının qərarı ilə "Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq" üzrə problem şurasına üzv seçilib. 2012-ci ildə Bakı Dövlət Universitetində yaradılmış apelyasiya komissiyasına üzv seçilib. 2012-ci ildə Azərbaycan Respublikası təhsil nazirinin əmri ilə Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının Kitabxanaşünaslıq-informasiya və kitabşünaslıq-nəşriyyat işi bölməsinə üzv seçilib. Azərbaycan yazıçılarının və jurnalistlərinin son qurultaylarının nümayəndəsi olub. 2001-ci ildə İran İslam Respublikasında və Rusiya Federasiyasında, 2011-ci ildə Amerika Birləşmuiş Ştatlarında, 2013-cü ildə Ukrayna Respublikasında işgüzar ezamiyyətlərdə olub.

**Kitabları:**Başkeçid bayatıları (1991), Sözün kəsəsi (1994), Qırxıncı qapı (1995), Döyüş olsa bir əsgərdir qələmim : məqalələr, reportajlar, oçerklər, yol qeydləri, sənədli hekayələr (1998), Mənəvi ömrün başlanğıcı : polkovnik Şahbaz Aslanov (2000),Başkeçidin dağlarıdır bu dağlar (2001), Mənalı ömür yolu : A.A.Xələfov (2001)**,** Şəxsiyyətin formalaşmasında bədii ədəbiyyatın rolu: monoqrafiya (2005) Qədim və orta əsrlər dünya kitabxanaları : Ən qədim zamanlardan XVII əsrin ortalarınadək : dərs vəsaiti (2008), Dünya kitabxanalarının tarixi : XVII əsrin ortalarından XXI əsrədək : dərs vəsaiti (2008), Azərbaycanda təhsil sisteminə kitabxana xidməti : dərs vəsaiti (2008), Dədə Camal : Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Camal Mustafayev – 80 : xatirələr, şeirlər və fotolar (2008), Dünya kitabxanaları tarixi : XVII əsrin ortalarından XXI əsrin əvvəllərinədək : dərs vəsaiti (2010), Qədim və orta əsrlər dünya kitabxanaları : Ən qədim zamanlardan XVII əsrin ortalarınadək : dərs vəsaiti : 2-ci nəşri (2011), Sevil Sultan qızı Ağabəyli (2011), Üzü yaza gedən cığır : şeirlər və poemalar (2011) və s.

## 31. Yazıçı Əbil Yusifin anadan olmasının 105 illiyi (1910-1984)

***“Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir.”***

**Ulu öndər Heydər Əliyev**



**Yusifov Əbil Məmməd oğlu dramaturq, nasir, 1946 – cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.**

1910-cü il dekabrın 31-də İrəvan quberniyasının Ordubad şəhərində tacir ailəsində doğulmuşdur. Orada yeddiilliyi bitirib Naxçıvan pedoqoji texnikumunda təhsil almışdır. Moskvada Timiryazev adına Kənd Təsərrüfatı Akademiyasına, eyni zamanda Çernişevski adına Moskva Dil və Fəlsəfə İnstitutuna daxil olmuşdur (1934). Ədəbi fəaliyyətə 1933-cü ildən başlamış, ilk şeirləri “Gənc işçi”, “Ədəbiyyat qəzeti” səhifələrində dərc edilmişdir. Lakin ədəbi aləmdə “Zümrüd muzeyi” adlı ilk hekayəsi və “Babək” pyesi ilə tanınmışdır. Onun “Babək”, “Ramiz”, “Odlar içində”, “Yadigar”, “Vətən” dram əsərləri tamaşaya qoyulmuşdur. “Ana” adlı povest yazmışdır. Hekayələri dövrü mətbuatda çap olunmuşdur. Uşaqgəncnəşrin bədii ədəbiyyat şöbəsinin müdiri işləmişdir (1939). 1941-cı ildə Sovet Ordusuna səfərbərliyə alınmışdır. Dnepropetrovsk yaxınlığında döyüşlərdə ağır yaralanmışdır. Ordudan tərxis olunduqdan sonra Azərbaycan Teleqraf Agentliyində redaktor (1953 – 1960), Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsidə baş redaktor işləmişdir. İki dəfə “Qırmızı ulduz” ordeni, “İkinci dünya müharibəsi” ordeni və yeddi döyüş medalı ilə təltif olunmuşdur. 1984-cü il martın 29 - da vəfat etmişdir.

**Əsərləri:** “Zümrüd muzeyi” (1938), “Məhəbbət abidəsi” (1966), “Səngərdən gələn səslər” (1968), “Seçilmiş əsərləri” (1973), “Cəbhə xatirələri” (1974), “Bir güllə” (1984**)** və s.

## 31. Şair Zeynal Cabbarzadənin anadan olmasının 95 illiyi (1920-1977)



**Cabbarov Zeynal Əliabbas oğlu - şair, publisist, 1943-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın əməkdar mədəniyyət işçisi (1970).**

Zeynal Cabbarzadə 1920-ci il dekabrın 31-də Bakıda dənizçi ailəsində doğulmuşdur. Orta məktəbi bitirdikdən sonra fəhlə fakültəsində təhsil almışdır (1934-1937). APİ-nin ədəbiyyat fakültəsində təhsilini davam etdirmişdir (1937-1941). Eyni zamanda "Balıq cəbhəsi" qəzeti redaksiyasında işləmiş (1938-1939), "Krasnı kurinets" ("Qırmızı kürçaylı") qəzeti redaksiyasına dəyişilmişdir (1939-1940). 1940-cı ilin yanvar-iyun aylarında Şamaxı rayonunun Mədrəsə kənd orta məktəbində dil və ədəbiyyat müəllimi olmuşdur.

İkinci Dünya müharibəsi başlanan il avqustun 1-də səfərbərliyə alınmış, piyada məktəbində kursant olmuş (1941-1942), kiçik leytenant rütbəsi ilə 416-cı atıcı diviziyasında hərbi xidmətini davam etdirmişdir. Naursk rayonunda hərbi əməliyyatda ağır zədələndiyindən eşitmə və görmə qabiliyyətini itirmişdir. 1943-cü ildə hərbi xəstəxanadan ehtiyat baş leytenantı kimi tərxis olunmuşdur. Kiçik yaşlarından yaradıcılığa başlamışdır. Onun "Puşkin" adlı ilk mətbu şeri 1937-ci ildə dərc edilmişdir. İkinci Dünya müharibəsi illərində və sonra coşğun yaradıcılıq fəaliyyəti göstərmişdir. 1943-cü ilin aprelindən 1948-ci ilin oktyabr ayınadək Azərbaycan Yazıçılar İttifaqında "Natəvan" adına klubun müdiri, "Ədəbiyyat qəzeti"ndə ədəbi işçi və məsul katib vəzifələrində işləmişdir. "Pioner" jurnalında məsul katib, 1950-ci ildən ömrünün sonunadək məsul redaktor olmuşdur. Bu müddətdə dəfələrlə Azərbaycan LKGİ MK-nın rəhbər orqanlarına seçilmişdir. Onun ilk kitabı "Xanıman"da cəbhə şeirləri toplanmışdır (1946). Xidmətlərinə görə bir sıra medal və Fəxri fərmanlarla təltif edilmişdir.

1977-ci il yanvarın 20-də Bakıda vəfat etmişdir.

**Əsərləri**

1. Xanıman. – Bakı : Azərnəşr, 1946. - 56 s.
2. Əfzələddin və şah. – Bakı : Uşaqgəncnəşr, 1947. - 16 s.
3. Şerlər. – Bakı : Uşaqgəncnəşr, 1950. - 20 s.
4. Çinar. – Bakı : Uşaqgəncnəşr, 1952. - 86 s.
5. Bahar gəlir. – Bakı : Uşaqgəncnəşr, 1954. - 76 s.
6. Dnepr sahillərində. – Bakı : Uşaqgəncnəşr, 1956. - 58 s.
7. Arzular. – Bakı : Azərnəşr, 1958. - 120 s.
8. Yaylaqda. – Bakı : Azərnəşr, 1960. - 100 s.
9. Sizin səsiniz. – Bakı : Azərnəşr, 1963. - 86 s.
10. Məni bağışlayın. – Bakı : Azərnəşr, 1965. - 124 s.
11. Dostum, gəl sözə bax. – Bakı : Azərnəşr, 1966. - 382 s.
12. Bizim metro. – Bakı : Gənclik, 1968. - 24 s.

13.Güllər : şeirlər, nəğmələr, poemalar. – Bakı : Azərnəşr, 1974. - 224 s.
14.Uca dağ başında. - Bakı: Gənclik, 1980. - 222 s.
15.Bizim dünya. – Bakı : Yazıçı, 1985. - 160 s.
16.Atasının oğlu : şeirlər və poemalar. – Bakı : Gənclik, 1986. - 72 s.

**Şeirlərinə yazılmış mahnılar**

- Rauf Adıgözəlov - "Neyləsin" mahnısı - musiqi: Vasif Adıgözəlov
- Anatollu Qəniyev - Yel əsər ("Yenilməz batalyon" filmindən Teymurun mahnısı) - musiqi: Cahangir Cahangirov
- Rəşid Behbudov - Bakı - musiqi: Tofiq Quliyev
- Akif İslamzadə - Axşam mahnısı - musiqi: Tofiq Quliyev
- Şövkət Ələkbərova - Laylay ("Ögey ana" filmindən) - musiqi: Tofiq Quliyev
- Şövkət Ələkbərova - İlk bahar - musiqi: Tofiq Quliyev
- "Qaya" vokal ansamblı - Toy mahnısı - musiqi: Tofiq Quliyev
- Mirzə Babayev - Sən mənimsən, mən sənin - musiqi: Tofiq Quliyev
- Şövkət Ələkbərova - Çay - musiqi: Emin Sabitoğlu
- Rübabə Muradova - İntizar (Canıma qəsd eyləyən) - musiqi: Səid Rüstəmov
- Rəşid Behbudov - Sürəyya - musiqi: Səid Rüstəmov
- "Çiçəklən, Vətənim" (1964) - musiqi: Xəyyam Mirzəzadə və E. Mahmudov

**Uşaq mahnıları**

- "Canbala" qrupu - Bahar gəlir. Musiqi: Fikrət Əmirov
- Qatar. Musiqi: Fikrət Əmirov
- Quzum. Musiqi: Fikrət Əmirov

**Filmoqrafiya**

1. Səadət yolu ilə (film, 1956)
2. Ulduz (film, 1964)
3. Əbədi qardaşıq (film, 1965)
4. Bakıda küləklər əsir (film, 1974)
5. Görüş (film, 1955)
6. Bizim Cəbiş müəllim (film, 1969)
7. Telefonçu qız (film, 1962)
8. Ögey ana (film, 1958)
9. Koroğlu (film, 1960)

# Xarici ədəbiyyat

## 30. İngilis yazıçısı R.Kiplinqin anadan olmasının 150 illiyi (1865-1931)



Cozef Redyard Kiplinq ingilis yazıçısı, şairi və novellaçısı, Ədəbiyyat üzrə Nobel mükafatını almış ilk ingilis (1907) ("Müşahidə etmək bacarığına, parlaq fantaziyasına, ideya bitkinliyinə və rəvayətçilik istedadına görə"). 1907-ci ildə Kiplinq həm də Paris, Strasburq, Afina və Toronto universitetlərinin mükafatlarını alıb. Yazıçı eləcə də Oksford, Kembric, Edinburq və Darem universitetlərinin fəxri adlarına layiq görülüb. Ən məşhur əsərləri "Cəngəlliklərin kitabı" (The Jungle Book), "Kim" (Kim) və "Sonuncu nəğmə oxunuşu" (Recessional) sayılır. Kiplinqin əsərlərinin metaforalarla zəngin dili ingilis dilinin xəzinəsini xeyli zənginləşdirmişdir. Cozef Redyard Kiplinq Hindistanda, Bombey Gözəl Sənətlər məktəbinin rektoru Con Lokvud Kiplinqin ailəsində doğulmuşdu. Valideynlərinin hər ikisi yaradıcı peşə sahibləri idilər. Atası heykəltəraş və tətbiqi sənət mütəxəssisi kimi tanınırdı. Anası isə yerli jurnallarda etnoqrafik yazılar və hekayələr çap etdirirdi. Hindistanda yaşayan əksər ingilis ailələrinin uşaqları kimi Redyard da 6 yaşında bacısı ilə Londona, məktəb-pansionata göndərilmişdi. Pansionatın amansız sahibəsindən gördüyü zülmləri Kiplinq sonralar "Qara quzu" və "İşıq söndü" (1890) novellalarında təsvir etmişdi. Burada keçirdiyi sarsıntılardan həyatının sonuna qədər müalicə oluna bilmədiyi yuxusuzluq xəstəliyinə tutulmuşdu. O, təhsilini zabit uşaqlarını hərbi akademiyaya hazırlayan Devon məktəbində davam etdirmişdi. Lakin həmin məktəb universitetə daxil olmağa sənəd vermirdi. Uzağı yaxşı görməyən Redyard isə təbii ki, hərbi akademiyada oxuya bilməzdi. Həm də gənc Kiplinq artıq ilk şeir və hekayələrini yazmışdı. Bu yazılarla tanış olan atası vəziyyəti real qiymətləndirib yeganə düzgün qərar qəbul etdi: Redyard 11 illik fasilədən sonra 1882-ci ildə Hindistana qayıtdı. Lahorda çıxan "Mülki və hərbi" qəzetdə işləməyə başladı. Artıq atası da Lahor muzeyinin nəzarətçisi və yerli Mayo gözəl sənətlər məktəbinin rektoru idi. Hind dilinə və yerli adət-ənənələrlə bələdliyi ona britaniyalıların tanımadığı Hindistanı "kəşf etməyə" imkan verdi. 1886-cı ildə 21 yaşlı Redyardın "Departament nəğmələri" adlı ilk şeirlər kitabı çap olundu. Kitab elə sürətlə yayıldı ki, eyni ildə onun yenidən nəşrinə zərurət yarandı. İki il sonra daha coşqun maraqla qarşılanan "Dağların sadə hekayələri" kitabı işıq üzü gördü. Bu zaman Kiplinq artıq Allahabad şəhərində yaşayır, daha çox oxucusu olan "Pioner" qəzetində işləyirdi. 1887-1889-cu illərdə "Hindistan dəmir yollarının kitabxanası" üçün yazdığı altı hekayə toplusu gənc yazıçının şöhrətini Hindistana və bütün

Britaniya imperiyasına yaymışdı. Haqqında artıq "Çarlz Dikkensin ədəbi varisi" kimi danışırdılar. Çalışdığı qəzetin xətti ilə Kiplinq Birma, Çin, Yaponiya və Şimali Amerikaya səyahətlər etmiş, maraqlı, cəlbedici səfər təəssüratları qələmə almışdı. 1889-cu ildə Londona gələndə ədəbi dairələrdə yetərincə yaxşı tanındığının şahidi olmuşdu. Kiplinq məşhur əsərlərindən birini -"Şərqlə Qərb haqqında ballada"nı da yaradıcılığının o qədər də uzun sürməyən London dövründə qələmə almışdı. Redyard Kiplinq 1892-ci ildə Londonda dostlaşdıqları, "Naulakha" povestini birgə yazdıqları, lakin gənc yaşda yatalaq xəstəliyindən vəfat etmiş amerikalı yazıçı Uolkott Bleystrin bacısı Karolina ilə evlənmişdi. Hindistana qayıtmaq istəmədiklərindən daimi yaşamaq üçün ABŞ-a, Vermont ştatına köçmüşdülər. Birləşmiş Ştatlarda qaldığı dörd ildə Kiplinq daha çox uşaqlar üçün yazmışdı. "Cəngəlliklər kitabı" (1894), "İkinci cəngəlliklər kitabı" (1895), "Yeddi dəniz" (1896) kitabları bu dövrdə yaranmışdı. 1896-cı ildə o, çoxsaylı maddi və mənəvi çətinliklərlə üzləşdiyi Vermontu tərk edib ailəsi ilə birlikdə Londona qayıtmışdı. Burada tezliklə ədəbi aləmdəki nüfuzunu və yerini bərpa edə bilmişdi. 1901-ci ildə isə ən yaxşı nəsr əsəri sayılan "Kim" romanı çap olunmuşdu. Hind tənqidçisi Niradu Çaudxuri bu əsəri "təkcə Hindistan haqqında ən yaxşı ingilis romanı yox, bütünlükdə ən yaxşı ingilis romanlarından biri" adlandırmışdı.

Kiplinq 1902-ci ildə Susseks qraflığında malikanə almış və ömrünün sonuna qədər burada yaşamışdı. Onun məşhur "Sadəcə hekayələr" silsiləsinə daxil olan novellaları, Britaniyanın qədim tarixi ilə bağlı uşaq hekayələri, çoxsaylı şeirləri bu malikanədə yazılmışdı. Kiplinq siyasətlə də maraqlanırdı. Mühafizəkarlar partiyasını müdafiə edir, Avropada genişlənən feminizm hərəkatına qarşı çıxırdı. Redyard Kiplinqin ingilis ədəbiyyatı qarşısındakı mühüm xidmətlərindən biri də ədəbi dili həmin dövrə qədər təsəvvür olunmayan bədii-poetik yüksəkliyə qaldırması, zənginləşdirməsi idi. Digər Nobel laureatı T.S.Eliot Kiplinq şeirlərinin bədii kamillik baxımından klassikləri də üstələdiyini yazırdı. 1907-ci ildə Kiplinq ingilisdilli ədəbiyyatın ilk nümayəndəsi kimi Nobel mükafatına layiq görüldü. O, həm də ədəbiyyat sahəsinin ən gənc laureatı idi: İsveç Akademiyasının qərarı elan olunanda 42 yaşı vardı. Aradan keçən yüz il ərzində bu özünəməxsus rekordu təzələmək mümkün olmamışdır.

Nobel mükafatı aldığı il Redyard Kiplinq on üç cild təşkil edən novellaların, dörd romanın, uşaqlar üçün yazılmış üç hekayələr kitabının, çoxsaylı məqalələrin, yol qeydlərinin və yüzlərlə şerin müəllifi kimi tanınırdı. O, həm də Britaniyanın ədəbi yaradıcılığı müqabilində ən çox qazanan yazıçısı idi. İsveç Akademiyası "dünya miqyasında tanınan məşhur sənətkar" adlandırdığı Kiplinqi "parlaq müşahidə qabiliyyətinə, təxəyyülünün təkrarsızlığına, ideyalarının yetkinliyinə və diqqətəlayiq təhkiyə istedadına görə" mükafatlandırmışdı. Tədqiqatçıların fikrincə, Nobel mükafatı Kiplinq üçün ruhlandırıcı stimula çevrilməmişdi. Əksinə,

yaradıcılığında müəyyən tənəzzül ünsürləri meydana çıxmış, Nobel laureatı kimi yazıb-yaratdığı otuz ilə yaxın müddət ərzində ortaya samballı əsər qoya bilməmişdi. Həyatının son illərində və ölümündən sonra isə onun yaradıcılığına maraq, ümumiyyətlə, azalmışdı. Kiplinqin yeganə oğlu Birinci Dünya müharibəsində həlak olmuşdu. Bundan əvvəl isə yazıçı sevimli qızını itirmişdi. Təbii ki, şəxsi planda yaşanan bu faciələr də onun yaradıcılığına təsirsiz qalmamışdı. Övladlarının ölümündən sonra Redyard və Karolina Kiplinq Beynəlxalq Qırmızı Xaç Komitəsində işləmiş, müharibə qurbanlarının ailələrinə yardım göstərməyə çalışmışdı.

Kiplinq Vestministr abbatlığındakı məzarlığın Şairlər guşəsində dəfn olunub.

**Onun əsərlərindən bəzi nümunələr Azərbaycan dilinə tərcümə edilmişdir.**

**Əsərləri:** "Departament nəğmələri" (1886, şeirlər toplusu), "Dağların sadə hekayələri" (1888, toplu),"Üç əsgər" (1888, toplu), "Vi-Villi-Vinki" (1888, toplu), "İşıq söndü" (1891, roman), "Kazarma nəğmələri" (1892, şeirlər), "Naulaka: Qərb və Şərq haqqında hekayət" (1892, roman, U. Balestyerlə birlikdə yazıb), "Bir qucaq uydurma" (1893, toplu), "Cəngəlliklərin kitabı" (1894), "Mauqlinin qardaşları" (hekayə),"Piton Kaanın ovu" (M) (hekayə), "Banderloqların yol nəğməsi" (şeir), "Pələng! Pələng!" (hekayə),"Ağ pişikciyəz" (hekayə),"Rikki-Tikki-Tavi" (hekayə),"Balaca Tumai" (hekayə),"Zati alilərinin nökərləri" (hekayə),"Cəngəlliyə necə qorxu gəldi" (hekayə),"Cəngəlliklərin qanunu" (şeir),"Purun Bhaqatın möcüzəsi" (hekayə), "Kəbirin nəğməsi" (poema), "Cəngəlliklərin hücumu" (hekayə),"Cəsur kapitanlar" (1896, yeniyetmələr üçün roman), "Yeddi dəniz (1896, şeirlər toplusu), "Dəvənin belində donqar necə əmələ gəldi", "Kərgədanın dərisində qırışlar necə əmələ gəldi", "Bəbir necə xallı oldu", "Fil balası", "Qoca kenqurunun xahişi", "Armadillər necə yarandılar", "Birinci məktub necə yazıldı", "Birinci əlifba necə tərtib olundu", "Dəniz krabı, hansı ki, dənizlə oynayırdı", "Pişik, hansı ki, harda istəyirdi veyillənirdi", "Kəpənək, hansı ki, ayağını yerə çırpdı","Yollar və kəşflər" (1904, toplu), "Puk təpəsindən gələn Pak" (1906, nağıllar, şeirlər və hekayələr), "Ağaclara himn" (Tree Song, şeir), "Şərəfli macəra cəngavərləri", "Torkildin nəğməsi", "Ən dürüst kasıb", "Müqəddəs Uilfridin müraciəti", "Eddinin xidməti" və s.

## BU İL HƏMÇİNİN QEYD OLUNACAQ

- **Bakı 2015 Avropa Oyunları**
- **Ensiklopedist alim Əbu Əli İbn –Sinanın anadan olmasının 1035 illiyi (980-1037)**
- **Azərbaycan ədəbiyyatşünası Xətib Təbrizinin anadan olmasının 985 illiyi (1030-1109)**
- **Şair Məhəmmədhüseyn Şəhriyarın yubileyi**
- **Fars-tacik şairi Ömər Xəyyamın anadan olmasının 975 illiyi (1040-1123)**
- **Azərbaycan şairi Həbibinin anadan olmasının 545 illiyi (1470-1520)**
- **Azərbaycanın miniatürçü rəssamı Sultan Məhəmmədin anadan olmasının 545 illiyi (1470-1555)**
- **İngilis yazıçısı Daniel Defonun anadan olmasının 355 illiyi (1660-1731)**
- **Aşıq Nəcəfin anadan olmasının 110 illiyi (1905-1941)**
- **Türk yazıçısı Əziz Nesinin anadan olmasının 100 illiyi (1915)**
- **Ədəbiyyatşünas Şamil Cəmşidin anadan olmasının 95 illiyi (1920)**
- **Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin yaranmasının 70 illiyi (1945)**
- **Qurban bayramı**
- **Ramazan bayramı**

## Yubilyar kitablar

1. Abdulla Şaiq “Uşaq gözlüyü” (1910) – 105
2. Abdulla Şaiq “Qiraət kitabı” (1925) – 90
3. Abdulla Şaiq “Gözəl bahar” (1940) – 75
4. Abdulla Şaiq “Araz” (roman) (1940) – 75
5. Abdulla Şaiq “Nağıllar” (1945) – 70
6. Abdulla Şaiq “Ovçu Məstan” (1945) – 70
7. Bəxtiyar Vahabzadə “Bahar” (1950) – 65
8. Cabir Novruz “İllərin ömrü” (1965) – 50
9. Cahangir Gözəlov “Küsən dişlər” (1935) – 80
10. Cəfər Cabbarlı “Firuzə” (1950) – 65
11. Cəlal Bərguşad “Bozatın belində” (1970) – 45
12. Eynulla Ağayev “Sirli qala” (1955) – 60
13. Əbülhəsən “Araz” (1930) – 85
14. Ələmdar Quluzadə “Ömür gün qabaqdadır” (1980) – 35
15. Ələmdar Quluzadə “Tumurcuqlar” (1985) – 30
16. Ələmdar Quluzadə “İsti ocaq” (1985) – 30
17. Ələviyyə Babayeva “Mənim müəlliməm” (1950) – 65
18. Ələviyyə Babayeva “Payızda” (1960) – 55
19. Əli Kərim “Qızıl qanad” (1965) – 50
20. Əli Kərim “ Qaytar ana borcunu” (1970) – 45
21. Əli Vəliyev “Nənəmin çəhrəsi” (1930) – 85
22. Əmrah Əmrahov “Sənin həyatının qanunu (1965) – 50
23. Ənvər Məmmədxanlı “25 bahar” (1945) – 70
24. Ənvər Yusifoğlu “Hekayələr” (1960) – 55
25. Fərman Kərimzadə “Heykəl dilə gəlir” (1965) – 50
26. Fikrət Qoca “Hamıya borcluyam” (1965) – 50
27. Fikrət Sadıq “Ömrün bir günü” (1965) – 50
28. Fikrət Sadıq “Cırtdan hara getmişdir” (1970) – 45
29. Həbibə “ Xoruzun neçə rəngi var?” (1960) – 55
30. Həbibə “Günəş məndən göyçəkdir” (1970) – 45
31. Həqiqət “Üç nəğmə” (1970) – 45
32. Həsən Seyidbəyli “Kənd həkimi” (1950) – 65
33. Həsən Seyidbəyli “ Qaraca toyuğun balaları” (1960) – 55
34. Həsən Seyidbəyli “Telefonçu qız” (1960) – 55

35.Hikmət Ziya "Milçək ürəyi" (1960) – 55
36.Hikmət Ziya "Qısa təmsillər" (1965) – 50
37.Hüseyn Abbaszadə "İlqar" (1955) – 60
38.Hüseyn Abbaszadə "Sən nə yaxşı nənəsən" (1960) – 55
39.Hüseyn Cavid "Telli saz" (1930) – 85
40.Hüseyn Cavid "Şəhla" (1935) – 80
41.Hüseyn İbrahimov "Zərifənin çiçəkləri" (1960) – 55
42.Hüseyn Razi "Ana məhəbbəti" (1960) – 55
43.Xalidə Hasilova "Lalənin kitabı" (1955) – 60
44.Xalidə Hasilova "Ulduzlu papaq" (1960) - 55
45.Xanımana Əlibəyli "Balaca həkim" (1955) – 60
46.Xanımana Əlibəyli "Yaz konserti" (1960) – 55
47.İlyas Tapdıq "Kəndimizin çobanı" (1955) – 60
48.İlyas Tapdıq "Xumar" (1960) – 55
49.İlyas Tapdıq "Bir gülün qönçəsi" (1970) – 45
50.İmran Qasımov "Uzaq sahillərdə" (1965) – 50
51.İsa Hümmətov "Atanın həsrəti" – 55
52.İsa Hüseynov "Dan ulduzu" (1955) – 60
53.İsa Hüseynov "Tütək səsi" (1965) – 50
54.İslam Səfərli "Pıçıldaşın, ləpələr" (1955) – 60
55.İslam Səfərli "Qoşa söyüd" (1965) – 50
56.İsmayıl Soltan "Mavi alov" (1955) – 60
57.Qəşəm İsabəyli "Əkil – bəkil" (1990) – 25
58.Qəşəm İsabəyli "Üüü" (1990) – 25
59.Qəşəm İsabəyli " Nənəm təkdi" (1995) – 20
60.Qılman İlkin "Şah və qarışqa" (1965) – 50
61.Qılman İlkin "Şimal küləyi" (1965) – 50
62.Mehdi Seyidzadə "Nərgiz" (1935) – 80
63.Məmməd Rahim "Arzu qız" (1940) – 80
64.Məmməd Rahim "Balaca bağbanlar" (1955) – 60
65.Məmməd Səid Ordubadi "Gizli Bakı" (1940) – 75
66.Məmmədhüseyn Təhmasib "Çiçəkli dağ" (1965) – 50
67.Məstan Günər "Qartal" (1960) – 55
68.Mikayıl Müşfiq "Qaya", "Kəndli və ilan" (1935) – 80
69.Mikayıl Müşfiq "Şəngül, Şüngül, Məngül" (1960) – 55
70.Mikayıl Rzaquluzadə "Qaranquş yuvası", "Ağ dana" (1945) – 70
71.Mikayıl Rzaquluzadə "Sirli saz" (1955) – 60

72.Mikayıl Rzaquluzadə ”Nəsillərdən nəsillərə” (1965) – 50
73.Mir Cəlal “Boy” (1935) – 80
74.Mir Cəlal “Bir gəncin manifesti” (1940) – 75
75.Mir Cəlal “Sadə hekayələr”, Fitnə”, “Yaşıdlarım” (1955) – 60
76.Mir Sabir “Təzə mənzildə” (1965) – 50
77.Nigar Rəfibəyli “Bir cüt xurma” (1965) – 50
78.Osman Sarıvəlli ”Balaca dostlar” (1955) – 60
79.Rəsul Rza “Səkil və Çəkil” (1955) – 60
80.Rəsul Rza “Dözüm” (1965) – 50
81.Süleyman Rəhimov “”Mehman” (1965) – 50
82.Süleyman Rüstəm “Addımlar” (1930) – 85
83.Süleyman Sani Axundov “Laçın yuvası” (1950) – 65
84.Tağı Şahbazi Simürğ “Qayçı” (1965) – 50
85.Teymur Elçin “Qar qız” (1955) – 60
86.Tofiq Bayram “Azərbaycan dünya gəzir” (1965) – 50
87.Tofiq Əfəndiyev “Dağ yolu” (1965) – 50
88.Tofiq Mütəllibov “İşıq” (1955) – 60
89.Tofiq Mütəllibov “Görüş” (1960) – 55
90.Tofiq Mütəllibov “ Mehriban baxışlar”, Kəkliklər oxuyanda” (1965) – 50
91.Üzeyir bəy Hacıbəyov “Rüstəm və Söhrab” (1910) – 105
92.Üzeyir bəy Hacıbəyov “Harun və Leyli” (1915) – 100
93.Üzeyir bəy Hacıbəyov “Azərbaycan sovet Dövlət himni” (1945) – 70
94.Yusif Həsənbəy “Ördəyin balaları” (1960) – 55
95.Zahid Xəlil “Cırtdanla Azmanın yeni macəraları” (1985) – 30
96.Zaman Qarayev “Göy çəmənlər” (1965) – 50
97.Zeynal Xəlil “Lalə” (1955) – 60
98.Zeynal Xəlil “Seçilmiş əsərləri” (iki cilddə) (1965) – 50

**Bu tarixi unutmayaq!**
**19 noyabr 1991-ci il Xocavənd rayonunun işğalı**
**26 dekabr 1991-ci il Xankəndi rayonunun işğalı**
**19-20 yanvar "Qanlı yanvar hadisəsi**
**26 fevral "Xocalı faciəsi" (1992)**
**8 may Şuşanın işğalı (1992)**
**17-18 may Laçın rayonunun işğalı (1992)**
**3-4 aprel 1993-cü il Kəlbəcər rayonunun işğalı**
**23 iyul Ağdam rayonunun işğalı (1993)**
**23 avqust Cəbrayıl rayonunun işğalı (1993)**
**23 avqust Füzuli rayonunun işğalı (1993)**
**31 avqust Qubadlı rayonunun işğalı (1993)**
**30 oktyabr Zəngilan rayonunun işğalı (1993)**

**Ədəbiyyat siyahısı:**

**1. Azərbaycan Milli Ensiklopediyası : 25 cilddə: "Azərbaycan cildi". -Bakı, 2007. - 884 s.**

**2. Azərbaycan Sovet Ensiklopediyası : 10 cilddə. - Bakı, 1976 - 1986.**

**3. Heydər Əliyev və mədəniyyət : 3 cilddə (I, II, III cild) Bakı, 2008**

**4. Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə). - Bakı, 2011. - 1056 səh., şəkilli.**

**5. Seyidzadə, M. Milli Qəhrəmanlar Zirvəsi. – Bakı, 2010, 256 s.**

**6.Üzeyir Hacıbəyli Ensiklopediyası. - Bakı: Şərq - Qərb, 2008. – 239 s.**

**7. Füzuli Əsgərli. Azərbaycan uşaq ədəbiyyatı – Bakı, Pedoqoji Universitetin nəşri, 2012, 535 s.**

**8. Füzuli Əsgərli. Dünya uşaq ədəbiyyatı – Bakı, Pedoqoji Universitetin nəşri, 2012, 358 s.**

**9. İnternet resursları**

**Mündəricat**

**Yanvar.........................................................................**

**Fevral ...............................................................................**

**Mart...................................................................................**

**Aprel..................................................................................**

**May....................................................................................**

**İyun.....................................................................................**

**İyul......................................................................................**

**Avqust.................................................................................**

**Sentyabr..............................................................................**

**Oktyabr...............................................................................**

**Noyabr.................................................................................**

**Dekabr.................................................................................**

**Bu il həmçinin qeyd olunacaq ........................................**

**Yubilyar kitablar...............................................................**

**Bu tarixi unutmayaq........................................................**

**Ədəbiyyat siyahısı............................................................**

**Redaktor:** **F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova**

**Tərtib edəni:** **F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin müdiri Ruhiyyə Məmmədli**